# ELM İŞIĞI

**İslam İnqilabının Böyük Rəhbəri həzrət Ayətullah Seyid Əli Xameneinin elm və elm istehsalı barədə çıxışlarından seçmələr**

**İkinci cild**

# Dördüncü bölmə: Universitet və tədqiqat mərkəzləri

## Birinci fəsil: Tələbələr

### Tələbələrin rol ifa etməsində iki mühüm amil

Dəfələrlə tələbə toplantılarında demişəm ki, bu xalq quruluşunda cəmiyyətin öncül, intellektual və aktiv təbəqəsi olan tələbələr gələcəyin qurulmasında və cəmiyyətin ümumi hərəkət xətlərinin çəkilməsində başqa yerlərdən daha çox rol ifa etməlidirlər. Bu rol yan-yana olan iki amillə həyata keçir:

Birinci amil dərs, elm və təhsildir. Universitet, tələbə və müəllim adı bununla mənasını tapır; bununla ölkənin gələcəyinə ümidlər puç olmur. Gənclər yaxşı dərs oxumalı, müəllimlər onları yetişdirməlidirlər və bununla da ölkənin elmi və əməli gələcəyi təmin olunmalıdır. Təhsilin kənarında tədqiqatın olması məsul şəxslərin diqqət göstərməli olduğu və fövqəladə əhəmiyyətə malik məsələdir.

Bu baxımdan, ilk amil dərs və elm faktorudur. Buna laqeyd yanaşmaq, onun rolunu kiçik saymaq və ona etinasızlıq etmək olmaz. Mənim əziz tələbə qardaş və bacılarım bu məqama diqqət yetirsinlər. Onların elmi hərəkətinin yolunda heç bir şey ən əz mane törətməyə və onları ləngitməyə səbəb olmamalıdır. Düşmən bunu istəyir. Onu məqsədlərinə çatmağa qoymayın. Düşmənin əngəllərinə rəğmən, elmi hərəkət ölkədə çiçəklənməli, ümid yaratmalı və gələcəyi təmin etməlidir.

İkinci amil universitetin mental, siyasi və inqilabi istiqamətidir. Elmə can, ruh və istiqamət verən də budur.[1]

### Peşə öyrənməyin kənarında təhsil

Tələbə və şagirdlər elm öyrənməkdən ibarət olan vacib əməli peşə və təcrübə öyrənməklə birləşdirməli, onların məqamına uyğun inqilab hərəkətlərinin öncülü olmalı, İslamın uca məqsədləri istiqamətində, qlobal

---

[1] Tələbələrin və universitet mənsublarının beyət mərasimində çıxışından: 1989.

hegemonizmin və ABŞ, sionizm və irtica üçbucağının təxribatları qarşısında ürəkdən mücahidlik etməlidirlər.[2]

**Universitetdə elmi işi ciddi saymaq**

Elm ciddi sayılmalıdır. Siz tələbələr və təhsil alan digər şəxslər universitetdə dərs oxumağa, əməli və tədqiqat işlərinə, istedadları çiçəkləndirib inkişaf etdirməyə önəm verməlidirlər.[3]

**Belə dərs oxumaq İslamdan deyil!**

Elm və bilik İslamdandır. Çünki universitetə girmək, xalqın imkanlarından və dövlət büdcəsindən xərcləmək, elmə ürək bağlamadan və təhsilə əhəmiyyət vermədən, yalnız bir tikə kağız parçası əldə etmək və onun sayəsində işləmək üçün yox, pul qazanmaq üçün işə düzəlmək İslam işi deyil; tələbə belə dərs oxusa, İslamdan deyi; müəllim belə dərs versə, İslamdan deyil. Universitetdə İslam münasibətləri budur. Çünki bizim gənclərimiz, qız və oğlanlarımız onsuz da Allaha şükür olsun ki, müsəlmandırlar.[4]

**Universitetdə inqilabi ab-havanı qorumaq**

Gənclərin ən yaxşıları elm və təhsil mərkəzlərinə üz tutanlardır. Hansı səbəbdən elm və təhsil üçün gəlmişlərsə, bu iş dəyərli və möhtərəmdir. Əlbəttə, hərdən onları bəzi dəlillər buraya çəkir və bunun daha çox dəyəri olur. Bəzən də yalnız bu məlumata malik olmaq üçün gəlmişlər. Amma hər halda, bu iş şərafətli və dəyərli işdir. Əslində, ölkənin sabahını və xalqın gələcəyini düzəldəcək bu dəyərli toplum siz cənabların və universitet rektorlarının əlindədir. Düşünürük ki, bir cəhətdən universitetlər daha əhəmiyyətlidir və bir cəhətdən tədqiqat mərkəzləri xüsusi diqqətə layiqdirlər. Hər halda, bu mərkəzlərin bu xüsusiyyəti var.[5]

---

[2] İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.
[3] Xalqın müxtəlif təbəqələri və bəzi dövlət məmurları ilə görüşdə çıxışından: 1990.
[4] Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə elmi hövzə və universitet tələbələri ilə görüşdə çıxışından: 1990.
[5] Universitet rektorları ilə görüşdə çıxışından: 1993.

**Tələbə gəncin dəyəri**

"Tələbə gənc" ifadəsinin özü ölkənin gələcəyini istəyənlər üçün gözəl və şirin ifadədir. Gənc, özü də elm və bilik sahibi, ölkənin gələcəyi üçün, gələcəkdə ölkəni idarə etmək üçün elm öyrənən gənc dəyərlidir. Bu, birinci cəhətdir.[6]

**Gənclərin elm öyrənməyə çalışmasının zəruriliyi**

Gənclər bu gün üç məqama mütləq diqqət yetirməlidirlər. Bu üç məqamdan biri elm öyrənməkdir. Mənim əzizlərim! Elm öyrənməkdə zərrə qədər də səhlənkarlıq etməyin, onun qədrini bilin.[7]

**Dərs və tədqiqat üçün universitetdə ən yaxşı şərait**

Əgər bizim tərəfimizdən tələbələrə bir söz demək istəyirsinizsə, deyin ki, öz imkanları qədərincə universitetdə inqilabi ab-havanı qorumağa çalışsınlar. Dərs oxumaq və tədqiqat aparmaq üçün də inqilab ab-havası ən yaxşı şəraitdir. İnqilabi şərait dava-dalaş salmaq, intizamsızlıq etmək və təyin olunmuş xətlərdən çıxmaq deyil, düzgün mövqelərə diqqət və inqilabın prinsip və istiqamətlərinə sadiqlikdir. Ölkə müstəqil olmalı, öz ayağı üstə dayanmalı və onun daxili istedadları inkişaf etməlidir.[8]

**Mənəvi paklığın kənarında dərs oxumaq**

Bu ölkənin siz övladları, siz gəncləri gənclik fürsətindən istifadə edib dərs oxumalı, universitetə girməli və ölkənin gələcəyində böyük rol oynamalısınız. Mən bu regionun gənclərinin istedadlı olduğunu hiss etdim. Bu istedadlar gələcəkdə ölkə üçün yaradıcı və qurucu qüvvə ola bilərlər. Diqqətdən qaçırmayın ki, dərs oxumaq vacib işdir, amma bu vacib işin kənarında mənəvi paklıq və saflıq da lazımdır.[9]

---

[6] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışından: 1994.
[7] Yenə orada.
[8] Fəqih rəhbərin Azad İslam Universitetindəki nümayəndəliyinin rəhbəri və İsfahan Tibb Universitetinin müəllimləri ilə görüşdə çıxışından: 1995.
[9] Arvest kəndinin şagirdləri ilə görüşdə çıxışından: 1995.

**Gənclərin elmi özünüislahı**

İslam laqeydliyi sevmir. Əlbəttə, hökumət xalqın həmkarlıq və əməkdaşlıq yollarını və bu əməkdaşlığın necəliyini onlara göstərməlidir. Bəzi sahələrdə bu yollar aydındır, bəzi sahələrdə də hökumət aydınlaşdırmalıdır. Hamı əməkdaşlıq etməlidir. Ən mühüm sahələrdən biri gənclərin elm öyrənməkdə, özlərini elmi və sonra əxlaqi cəhətdən islah etməkdə əməkdaşlığıdır.[10]

**Elm, iman və aydınlığın zəruriliyi**

Quran haqq və batil cəbhələrini belə müəyyən edir. İnsan haqq və batilin dəyərini bilmədikdə harada dayanmalı və nə iş görməli olduğunu anlamır. Hizbullahçı gənc anlayır; o, aydındır. Müəllim, alim və uca məqamlı ruhani bəzən anlamır və aydın da deyil. Deməli, bilik, elmi ixtisas və qeyd olunan mənada olan aydınlıq birgə olmalıdır. Üçüncü amil imandır. Bədənin əli, yəni elmi var; gözü, yəni ziyalı aydınlığı da var. Əgər imanı olsa, beyni və ürəyi də olar, kamilləşər. Əgər beyni və ürəyi olmasa, əlin və gözün də dəyəri olmaz. Əlbəttə, beyni və ürəyi olmasa, göz və əl də ona lazım olmaz.

İslam cəmiyyətində iman, elm və aydınlıq birgə olmalıdır. Mən dəfələrlə demişəm ki, aydınlıq və ziyalılıq İranda xəstə, asılı və imansız doğuldu. Yeni elmi də imansız və asılı bir elmə çevirmək istəyirdilər, lakin çox da uğurlu alınmadı. Bir sıra alim və mütəxəssislər isə imanlarını qoruyub, elmlə birləşdirə bildilər. Bu gün universitetlər yalnız elm ocağı deyil, həm də iman və aydınlıq yeridir. Bizim elm hövzələrimiz elm, iman və aydınlıq mərkəzidir. Tərəzinin bu iki gözünün, iki qanadın və iki əlin hər birinin digərindən daha artıq xüsusiyyəti var. Onlardan istifadə olunmalıdır.

Mənim əziz övladlarım! Əziz tələbələr, şagirdlər, elm və mədəniyyət xadimləri! Təhsili bir tərəfdən ayıqlıq, aydınlıq və ziyalılıqla və digər tərəfdən imanla yanaşı etməlisiniz. Bu cərəyan hərəkətə başlayıb və indiyə qədər də çoxlu faydalar verib. İslam bu üç amili bizə birgə bəxş edir. İslam quruluşu qurmaq üçün bu üç element birgə və bir-birinin yanında

---

[10] Babul əhalisinin toplantısında çıxışından: 1995.

olmalıdır. Bu üç elementi toplamaq üçün ən yaxşı amil sizlərsiniz. Gəncləri elm öyrənməklə məşğul olan, imana, aydınlıq və ziyalılıq ruhuna malik olan bir ölkə bu gün hansı vəziyyətdə olsa da, heç şübhəsiz, sabahı aydın və işıqlı olacaq. Allaha şükür edirik ki, ölkəmizdə pak, təmiz, ismətli və mərifətli gənc nəsil mövcuddur.[11]

**Tələbələrdə dini düşüncə və bəndəlik hissinin inkişafı**

Universitetdə tələbələr üçün əhəmiyyətli olan bir məsələ iman və İslam təfəkkürünün onların beyin və qəlblərində inkişafı, bir məsələ də onlarda bəndəlik, Allaha təslimçilik hissinin yaranmasıdır. Müsəlman sözünün mənası budur: "Biz ona müsəlmanıq"[12] - yəni biz Allaha təslimik. Bəndəliyin mənası budur: "Mən Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam". [13] Bu, Allahın fərmanına təslim olmaq deməkdir. Bəndəliyin mənası budur. Bu hiss güclənməlidir. Əlbəttə, bilirsiniz ki, bəndəliyin əqli dəlillərlə, fəlsəfi məsələlərlə, elmə, elmi fəaliyyətə, universitet və tələbə fəaliyyətinə inamla heç bir ziddiyyəti yoxdur. Bunların hamısı olmalıdır.[14]

**Universitetin siyasiləşməsinin mənası**

Siz gənclər bir yerdə əyləşin, söhbət edin. Mən universitetin və gənclərin siyasiləşməsini təklif etdikdə bunu nəzərdə tuturam. Bu xalqın, bu ölkənin yolunu göstərən bir bayraq olan amili - yəni qlobal hegemonizmlə mübarizəni araşdırın.

Fəaliyyətdə olan və işdən yorulmayan xalqın gənci elm öyrənir, universiteti dərslə, tədqiqatla, gənclərin elmi və ictimai fəaliyyətlər sahəsində görməli olduğu işlərlə məşğul olur.[15]

**Gəncin xisləti: yeni və mühüm sözü qəbul etmək**

---

[11] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışından: 1995.

[12] "Bəqərə"/133, 136; "Ali-İmran"/84; "Ənkəbut"/46.

[13] "Əhqaf"/15.

[14] Qum şəhərində ölkənin bir çox tələbə birlikləri ilə keçirilən görüşdə çıxışından: 1995.

[15] Qlobal Hegemonizmə qarşı Milli Mübarizə Günü münasibəti ilə çıxışından: 1996.

Mənim tələbələrlə çox əlaqəm olub. Tələbə təbiətcə yeni sözü qəbul edəndir. Çünki gənc yeniliyə həvəslidir. Tələbə həm də elm adamıdır. Elm adamı olmaq insanı yeni bir əsaslandırmaya və yeni sözə sövq edir; xüsusən də inqilab mühitində.[16]

**Tələbə sözünün mənası**

Tələbə sözü çox ağır və əhəmiyyətli məna daşıyır. Tələbə - gələcəyə sahib olacaq və elm öyrənməkdə olan gəncdir. Tələbə sözündə bu xüsusiyyətlər var. Tələbə gəncdir; çünki tələbəlik illəri gənclik dövrünə təsadüf edir. Tələbə sözündə elm istəmək və bilgi axtarmaq da var. Fərz edirik ki, ölkənin gələcəyi onun elmi idarəsinə, yəni alimcəsinə və elmi meyarlara uyğun idarəçiliyə sarı gedir. Elmin və dəqiqliyin bütün sahələrə müdaxilə etdiyi ölkə və cəmiyyətlərin vəziyyəti də yaxşı olur.[17]

**Gənclərin təhsildə ciddiliyi**

Mənim tövsiyəm budur ki, uşaqlar öz istedadlarından və vaxtlarından istifadə etsinlər, yaxşı dərs oxusunlar. Bu gün bizə ən çox lazım olan məsələ uşaqların ciddi dərs oxumasıdır.

Mən görürəm ki, bizim məktəblərimizin proqramları çox ağır olmasa da, bəzi gənclərimiz çox zaman dərsin onları yorduğundan və oxuya bilmədiklərindən gileylənirlər. Məndə olan məlumatlara əsasən, elm, sənaye və texnologiya baxımından ölkəmizdən daha çox inkişaf etmiş bir çox ölkələrdə 7-11-ci siniflərin dərsləri bizim məktəblərimizin dərslərindən həm həcmcə artıqdır, həm də çətindir. Yəni bilgilər gənclərin beyninə həqiqətən zorla yeridilir.

Gəncin zehni çox geniş, məlumatı saxlamaq gücü olduqca çoxdur. Onlara çoxlu əzbər işləri verirlər. Mən görürəm ki, mövcud dərslər həcm və məzmun baxımından çox ağır olmasa da, bizim bəzi gənclərimiz əlavə mütaliə imkanlarının olmadığını düşünürlər. Halbuki mənim fikrimcə, gənc həm dərs oxuya, həm mütaliə, həm də idman edə bilər.

---

[16] Tehran Unviersiteti tələbələrinin İslam birliyinin üzvlərilə görüşdə çıxışından: 1997.
[17] Tehran Universiteti Bəsicinin üzvləri ilə görüşdə çıxışından: 1998.

**Sual:** Əcnəbilərin maneçilik törətməsi səbəbindən biz Qərb texnologiyasından uzağıq. Bizim gənclərimiz Qərb texnologiyasından necə istifadə edə bilərlər ki, həm də onun əsiri olmasınlar?

**Cavab:** Nə üçün əsir və məftun olsunlar?! Bu, bəşəri istedaddır. Bir nəfər öz düşüncəsini və beynini işlədib böyük və əsasən naməlum təbiətin bir sirrini öyrənə bilmişdir. Siz özünüz də bu işi görə bilərsiniz; özünüz də beyninizi işlədib bunu əldə edə bilərsiniz.[18]

**Tədqiqat işində gənclərin tənbəlliyi**

Bizim gənclərimiz tədqiqat və araşdırma işində bir qədər tənbəllik edirlər. Əgər gənclərə hörmətsizlik sayılmasa, belə deməliyik. Onlar bəzi işlərini bir qədər davam etdirsələr, ciddi şəkildə çalışsalar, yaxşı qaynaqlar tapa bilərlər. İndi Tehranda öz universitetlərimizdə də dəyərli şairlər var və onlara az diqqət yetirilir.[19]

**Gənclərdən üç istək**

Gənclik bacarıq dövrüdür. Bu bacarıq harada işlədilməlidir? Mənim fikrimcə, əsasən elm öyrənməkdə, mənəvi paklıq və təqva qazanmaqda və fiziki qüvvə toplamaqda - yəni idmanda işlədilməlidir. Bu üç məsələ əsasdır. Yəni məndən qısa şəkildə "siz gəncdən nə istəyirsiniz?" – deyə soruşsalar, cavab verərəm ki, təhsil, mənəvi paklıq və idman. Düşünürəm ki, gənclər bu üç xüsusiyyətə malik olmalıdırlar.[20]

**Universitetlərdə çətin elmi işin zəruriliyi**

Təhsil tədqiqata və elmi işlərə şamil olur. Gənclərdə bu qüvvə olduğundan elmi işdə çox çalışmalıdırlar. Eşitdiyimə görə universitetlərdə gənclər çox da ağır elmi işlərə girişmirlər. Bu, yaxşı hal deyil. Necə olur ki, biz elm öyrənməyən və orta məktəb səviyyəsində qalıb universitetə getməyən bir gəncə təhsilini davam etdirməsini tövsiyə edirik, amma universitetdə çətin elmi işdən qaçan tələbəyə elmi işi tövsiyə etmirik?! Bəs

---

[18] Gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.
[19] Gənc həftəsi münasibətilə gənclərlə səmimi görüşdə söhbətlərindən: 1998.
[20] Yenə orada.

universitetə nə üçün girir?! Universitetə girir ki, elm inkişaf etsin. Düşünürəm ki, gənclər elm öyrənməkdə həqiqətən gənclik enerjilərindən xərcləməlidirlər.[21]

**Doqmatizmlə mübarizə yolu**

Şəksiz, doqmatizm harada olsa, bir problemdir. Onu aradan qaldırmağın yolu budur ki, siz tələbələr elmi sahələrdə bacardığınız qədər düşüncə keyfiyyətinizi artırasınız. Sizin hər biriniz elm, mədəniyyət, düşüncə və aydınlıq adamı olduqda, bu anlayışları əməldə təbliğ edə bilərsiniz. Bu da qapalılığın və doqmatizmin əksidir. Doqmatizmlə vuruşmaq istəyiriksə, yolu budur.[22]

**İnqilabın ilk illərində elmi inkişafın maneələri**

Biz on doqquz ildir başlamışıq. Bu on doqquz ildə inqilabın ilk problemləri elə universitet məsələləri, silahlı qruplaşmalar və müharibə dövrü olub. Mənim bu məscidlə bağlı çoxlu xatirələrim var; həm inqilabdan qabaq, həm inqilabın müxtəlif illərində. Onların birini sizə danışsam, pis olmaz.

İnqilabın birinci ilində həftənin bazar, yaxud bazar ertəsi günü bu məscidə gəlir və zöhr namazını qılırdım. Tələbələr toplaşırdılar. Mən suallara cavab verir və onlar üçün söhbət edirdim. Həmin il bu Tehran universiteti müxtəlif adlar altında fəaliyyət göstərən silahlı qruplaşmaların səngərinə çevrilmişdi. Onlar universitetin içindən J-3 və Kalaşnikov silahları ilə universitetdən bayırdakı insanların və müsəlman tələbələrin canına düşürdülər. Universitetdə gərgin çatışmaların olduğu günlərin birində mən adət üzrə günorta buraya gəldim. Universitetə daxil olduqda bir neçə tələbə gəlib dedi ki, bu gün təhlükəlidir, içəri girməyin. Mən dedim yox, proqramımı tətil etməyəcəyəm. Gəldim. Universitetdə sakitlik idi, demək olar ki, heç kim yox idi, tək-tük adam gözə dəyirdi. Çünki vəziyyət təhlükəli idi. Tələbələr bizim gəldiyimiz yolla məscidə gəldilər. O gün bəlkə də on nəfər məscidə toplaşmamışdı, hamı qaçmışdı. Məncə

[21] Yenə orada.
[22] Tehran Universitetindəki sual-cavab toplantısında söhbətlərindən: 1998.

namazı qılıb getdik. Əslində biz də bir az qorxduq. Bundan sonra universitet bir müddət tətil oldu; bəlkə də bir il.

Baxın, bu on doqquz ilin belə dövrləri olub: çatışma dövrü, dərs oxumamaq dövrü, universitetlərdə keçirilən aksiyalar dövrü. Bunların təsiri yoxdurmu? Tələbəni dərs oxumağa qoymurlarsa, siz istəyirsiniz ölkənin elmi mühitində ildırım sürətli tərəqqi yaransın?! Sonra müharibə başladı, onun da öz problemləri vardı. Əlbəttə, onda universitetlər açıq idi, dərslər keçirilirdi, amma ölkə müharibə ilə məşğul idi. Biz bu on doqquz ili xəlbirdən keçirsək, ondan düz-əməlli on il qalmaz. Əslində biz müharibə bitdikdən sonra universitetlərlə məşğul ola bildik.[23]

**Tələbə - dərs oxuyan və fəal insan**

Universitetin inqilabçı gəncləri yaxşı dərs oxumağa çalışmalıdırlar. Onlar fikir və düşüncələrini inkişaf etdirmək, təhsil aldıqları mərkəzlərdə təsirli və aktiv olmağa çalışmalı, elmi və psixoloji təsir buraxmalıdırlar. Bu, mümkündür.[24]

**Sabahkı dünya üçün dərs oxumaq**

Yaxşı dərs oxuyun. Bugünkü dünya dərs və elm dünyasıdır. Siz görün bu gün alim olanların, ali təhsillilərin və öz istedadlarını çiçəkləndirənlərin cəmiyyətdə necə qədir-qiyməti var. Əgər dünya və maddi gəlir adamı olsalar, varlarıdır; ad-san adamı olsalar, ona nail ola bilərlər. Savadı və məlumatı olmayan adam isə bunların hamısından məhrumdur. Sabahkı dünya bu baxımdan bu gündən də sərt olacaq. Bu gün heç bir savadı olmayanların yenə də cəmiyyətdə azca mövqeləri ola bilər, lakin sabahkı dünyada - elmi inkişaf dünyasında savadsız, yaxud az savadlı bir insanın imkanları az, məhdudiyyətləri çox, arzuları isə olduqca əlçatmaz olacaq. Hər bir insan öz arzularına çatmaq istəyir. Bu arzular o zaman asanlıqla əldə olunar ki, siz məlumat öyrənə biləsiniz. Bundan əlavə,

[23] Yenə orada.
[24] Yenə orada.

ölkəniz, ailəniz və gələcəyiniz üçün faydalı olmanızı istəyirsinizsə, dərs oxumalısınız. Dərs birinci şərtdir.[25]

**Dünyanın elmi hərəkətinə təsir göstərmək**

Mənim əzizlərim! Elə edin ki, dünyanın elmi hərəkətində təsiriniz olsun. Bu, mümkündür, heç bir eybi yoxdur. Əgər siz bu gün orta məktəbdə və universitetdə yaxşı dərs oxusanız, tədqiqat və iş imkanı əldə edəcəksiniz. Bu təməli möhkəmlətsəniz, bəşər elminin inkişafında rolunuz ola bilər. Deməli, birincisi budur ki, dərs oxuyasınız. Dərsə əhəmiyyətsiz yanaşmayın, daim çalışın. Sizin istedadınız var, onu işlədin.[26]

**Təhsilin kənarında dini və siyasi məlumatı artırmaq**

Əziz gənclər! Gəncliyin ən gözəl və ən faydalı dönəmlərindən olan həyəcanlı təhsil dövrü islami fəaliyyətlərlə, düzgün dini, siyasi dərk və biliyin artırılması yolunda çalışmaqla birgə olduqda, ölkənin gənc nəsli üçün ən üstün mənəvi sərvətlərdən birinə səbəb olur. İndi sizin bu böyük imtiyazınız var ki, təhsil halında imanınızla da məşğul olmusunuz. Sizin təşkilatınız ölkənin universitetinə gənclərin mənəvi və düşüncə potensiallarının aşkarlanmasından ibarət əlavə gözəllik bəxş edən birliklərdən biridir. Bunun qədrini bilin, bu dəyərli varlığı bacardığınız qədər dərinləşdirin və onun keyfiyyətini artırın.[27]

**Bəsic üzvü olan tələbənin tərifi**

Bəsic üzvü olan tələbə elm öyrənmək, xalqının və ölkəsinin maddi inkişafında iştirak etmək üçün özünü elm və düşüncə baxımından hazırlamaqda olan, öz qəlbində və universitetində iman və hidayət çırağını yandıran, ətrafı öz düzgünülüyü, paklığı və nuru ilə işıqlandıran nurlu, pak qüvvədir. Bəsic üzvü olan tələbə pusquda durmuş düşməni unutmayan, özünü, universitetini və ölkəsini qafilcəsinə oğru düşmənə tapşırmayan şəxsdir. Bəsic üzvü olan tələbə öz gəncliyini qənimət sayır və

---

[25] Rifah mədrəsəsinin tələbələri ilə görüşdə çıxışından: 1998.

[26] Yenə orada.

[27] Tələbələrin İslam Cəmiyyəti Konfransının ikinci iclasına müraciətindən: 1998.

özünü islah etmək üçün onun dəyərli anlarından elm, düşüncə və mənəviyyat yolunda istifadə edir.[28]

**Mənəvi yüksəlişin kənarında elmi və maddi inkişaf**

Bu ölkə maddi, elmi və sənaye baxımından qabaqcıl ölkələrlə bir sırada dayana bilər; bu fərqlə ki, onlarda mənəviyyat yoxdur. Onlar ruhi böhrana düçar olmuşlar, daxillərində fəsad var, xalqlarının müxtəlif təbəqələri mənəvi böhrandadırlar, başçıları mənəviyyatdan uzaqdırlar, tamamilə nəfsi istək və həvəslərinə qərq olmuşlar. O gün inşallah ölkəmiz bu cəhətdən də günəş kimi parlayacaq, həm mənəviyyatı, həm maddiyyatı olacaq. Bu gələcək reallaşa bilər. Bu sizin əlinizdə, gənc nəslin əlindədir. Siz gərək yaxşı dərs oxuya, özünüzü gücləndirə, yaxşı təqvalı ola, ölkə və dünya məsələlərinə əhəmiyyət verəsiniz. Hadisələri təhlil etməyi bacarın, müxtəlif səsləri eşidin, barələrində düşünün, fikirləşin və seçin. Bu, mühümdür.

Ümidvaram inşallah bu gələcək çox uzaqda olmasın və bir gün siz əziz gənclər bunları xatırlayıb deyəsiniz ki, bir zamanlar bir nəfər bizə belə deyirdi və biz bu gün onu öz gözlərimizlə müşahidə edirik. İnşallah o gün sizin xeyir-duanız, rəhmət və bağış istəyiniz bizim ruhumuza şamil olacaq.[29]

**Zamanın tələbi və gənclərdən gözlənti**

Biz gəncdən bunu gözləyirik. Hər zamanın bir tələbi var. Ölkədə müharibə gedəndə gəncdən bir növ gözlənti var, ölkə quruculuq və iş dövründə olanda bir növ gözlənti var, elm və tədqiqat inkişafı zamanı və ölkənin elmə ehtiyacı olanda da bu gözlənti.[30]

**Yeniliyin dairəsi və mənası**

Soruşursunuz ki, gənclər harada yenilik edə bilərlər. Deməliyəm ki, yenilik ümumiyyətlə, icazəyə ehtiyaclı bir şey deyil, yenilik etmək istəyən

---

[28] Tələbə Bəsicinin beşinci iclasına müraciətindən: 1998.

[29] Tehran universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdə çıxışından: 1999.

[30] Şəfəq ongünlüyünün ikinci günü – İslam İnqilabı və Gənclər Günündə çıxışından: 1999.

şəxs kimdənsə icazə almamalıdır. Əgər imkan varsa, bu yenilik və yaradıcılıq baş tutacaq. Mən düşünürəm ki, yenilik bütün sahələrdə edilməlidir. Yeniliyin mənası bu deyil ki, biz qəbul etdiyimiz məntiqli və əqli prinsiplərimizi sual altına salaq. Yeniliyin mənası təkamül halında olan məsələlərdə inkişaf və kamilləşmədir. Məsələn, ədalət yaxşı şeydir. Yenilik etmək istəyən şəxs ədaləti təmin etmək üçün yaxşı üsul tapır, amma ədalətin yaxşılığına şübhə etmir. Ata-anaya və övlada məhəbbət təbii bir məsələdir. Kiminsə onun üçün indiyədək mövcud olmayan bir üsul tapması mümkündür, lakin bu prinsiplərin özündə heç kim şübhə etmir.

Buna əsasən, siz "gənc yenilik etmək istəyir" - deyirsinizsə, zəruri olaraq mənası bu deyil ki, yenilik qeyri-məntiqi və absurd yeniliklərə şamil olur. Odur ki, məqsəd düzgün yenilikdir. Bu gün ümumiyyətlə, yeniliyə həvəsləndirmə bu cəmiyyətin və bu quruluşun təkrar etdiyi şüarlardandır. Biz yeniliyi sevirik, lakin sizin də söhbətlərinizdə tamamilə diqqət yetirdiyiniz və işarə vurduğunuz, mənim də açıq söylədiyim kimi, yenilik qeyri-məntiqi və bəzən anormal yeniliklərlə sonuclanmamalıdır. Yəni insan "yenilik etmək istəyirəm" deyib, ənənə olan, qabaqkı nəsildən qalan, yaxud qədim olan hər bir şeylə mübarizə aparmamalıdır. Bu, ümumiyyətlə, məntiqi deyil, bunu ağıl qəbul etmir. Yenilik təkamülün mövcud olduğu sahələrdə inkişaf etmək deməkdir. Buna əsasən, gənclərdən yenilik və yaradıcılıq gözləntisi var.[31]

**Universitet mənsublarını amallardan ayırmaq üçün düşmənlərin planı**

Universitetin zərərli keçmişə qayıtmasına dair düşmənin ümidinin və tamahının görməzliyə vurulması sadəlövhlükdür. Bu gün düşmənlərin ədavətli təbliğat dalğaları birinci növbədə tələbələri və universitet mənsublarını hədəf seçmişdir. Bu gün çoxlu İslam ölkələrində ziyalı gənc nəslin imama, inqilaba və əsl Məhəmməd (s) islamına cəlb olunduğu bir halda beynəlxalq istismarçı sistemin texnoloqları inqilab ölkəsinin gənc və yeni nəslini inqilab amallarına özgələşdirmək və öz kökündən ayırmaq

[31] Yenə orada.

istəyirlər. Hiyləgər əllər, məkrli beyinlər və tükənməz dollarlar faydasız olaraq inqilabın gənc nəslini hədəf seçmişlər. Onlar gənclərin oyanışını və inqilabın sayəsində onlara verilən təhlil qabiliyyətini unudurlar.[32]

**Universitet və hövzədə düşüncə və elm cihadı**

Elmli gənclər, universitet və hövzə tələbələri, qayğıkeş müəllim və ruhanilər ağır məsuliyyət olan aydınlatma işini, düşüncə və elm cihadını öz üzərlərində əvvəlkindən də artıq hiss etməli, elm, din və amalçılıq sahəsində, mükafatı dünya və axirət cənnəti olan ilahi yarışa qatılmalıdırlar.[33]

**Elm və mənəviyyata dair tövsiyə**

Mən yenə də gənclərə deyirəm ki, peşə və ixtisasları öyrənmək üçün öz istedadınızdan maksimum istifadə edin, dərs oxuyun, özünüzü hazırlayın. Əlbəttə, elm də təklikdə kifayət etmir. Əgər alimin güclü imanı olmasa, faydalı ola bilməz.[34]

**Tələbələrin inqilab və ölkə üzərində haqqı**

Deyə bilərəm ki, tələbələrin öz fəaliyyətlərinə, xüsusən də müharibədə və digər dövrlərdə fəaliyyətlərinə görə inqilabın və ölkənin boynunda haqları vardır. Mənim bildiyim qədər, Tehranın, Təbrizin və digər şəhərlərin universitetləri müharibə dövründə istedadların inkişafı üçün mərkəzə çevrildi. Müharibənin ardınca universitetlərdə tədqiqat mərkəzləri formalaşdı, Universitet cihadı işlədi və doğrudan da müharibə dövründə cəbhənin işinə yaradı. Bundan əlavə, bizim tələbələrimizin böyük bir hissəsi Bəsicin yaradılmasında iştirak etdilər və bəzən digər hərbi təşkilatlara - orduya, Keşikçilər Korpusuna daxil oldular.[35]

**Universitetdə sabit təlim və tədqiqat şəraitini qorumaq**

---

[32] Universitet mənsublarının və tələbələrin həzrət İmam Xomeyninin xatirəsinə həsr olunan xüsusi toplantısına müraciətindən: 1999.

[33] Yenə orada.

[34] Bircənd əhalisinin böyük toplantısında çıxışından: 1999.

[35] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdə çıxışından: 1999.

Siz bunu bilin: kim olursunuzsa-olun, istər Tələbə Bəsicindən, istər İslam birliyindən, istər İslam cəmiyyətindən, istər Elmi şuradan, istər universitetin rəhbərlərindən olun, amma bilin ki, bu gün ölkənin universitetlərini təhsil və tədqiqat üçün təhlükəsiz yer kimi saxlamaq, universitet gənclərinin, bu istedadların inkişafına imkan yaratmaq hamının vəzifəsidir. Məmləkət bunlarındır.[36]

**İndiki gənc nəslin ən mühüm vəzifəsi**

İndi yeni təhsil ilinin qapısı bizim izdihamlı tələbələrimizin üzünə açılır, elm və tədqiqat yolçuları Allahın yardımı ilə elm və bilgi keçidlərindən keçib təkamül zirvələrinə çatmaq üçün ciddi işlərə başlayırlar. Bu, indiki nəslin istedadlı gənclərinin ən mühüm vəzifəsidir.

Əziz İran özünün İslam inqilabı sayəsində qarşısında təsvir olunan böyük məqsədlərə çatmaq üçün gənclərin elmi fəaliyyətlərinə göz dikmişdir. Bu olmasa, inqilabın 20 ili boyunca həmişə çətin keçidlərdə xalqımızın və hökumətimizin bələdçisi olan özünəinam və milli istiqlaliyyət işığı zəifləyər.

Əziz İslam elmin ən böyük həvəsləndiricisidir. Bu səbəbdən, müsəlmanlar əsrlərlə bütün dünyada elmin, biliyin, elmi inkişafın bayrağına sahib oldular. Bu gün əcnəbi siyasətlərin ölkəmizə hökmranlıq etdiyi acı dövrdən sonra İran xalqı yenidən dünya imperializminin təsirindən azad yaşamağı təcrübə edir. Odur ki, bu gün elm cihadı bizim ən vacib işlərimizdən biridir.

Bu, indiki İmam Xomeyni ilinin ən başlıca tövsiyələrindən biridir.[37]

**Universitetlərdə öhdəçi elmi inkişafı qorumaq**

Hamı görə bilər ki, güşmən bu gün də universiteti düzgün elm, din və inqilabi yolundan daşındırmağa çalışır. Düşmənlərin təxribatı ilə mübarizədə ən böyük məsuliyyət əziz universitet mənsublarının - müəllim və tələbələrin üzərinə düşür. Şübhəsiz ki, onlar keçmişdə bəzi həssas dönəmlərdə olduğu kimi, indi də bu vəzifəni yerinə yetirəcəklər. Mən

---

[36] Yenə orada.

[37] Universitetlərin dərs ilinin başlanması münasibəti ilə müraciətindən: 1999.

tələbə övladlarımdan gözləyirəm ki, dünyanın və ölkənin siyasi hadisələrini tam diqqətdə saxlasınlar, harada və hansı simada olsa, düşməni tanısınlar, ədavətli məqsəd və üsulları sayıqlıqla ayırd etsinlər, heç bir halda heç kimə universitetin elm və din prosesinə əngəl törətmək imkanı verməsinlər, öhdəliklə, dindarlıqla və inqilabi səylə yanaşı olan sürətli elm inkişafı üçün pak və fəal tələbə mühitini qorusunlar.[38]

**Ölkənin elmi inkişafı üçün istedadları işlətmək**

Bizim uşaqlarımız dindardırlar. İndi sizin aranızda Quranla ünsiyyətdə olan, Quranla tanış olan şəxslər var və Allaha şükür olsun ki, az da deyillər. Bunu özünüzdə gücləndirin. Bu istedad əvvəldə qeyd etdiyim ehtiyacın – yəni elmi ehtiyacın xidmətində durmalı, bu iman ona yardım etməlidir. Sizin vücudunuzda olan bütün ilahi əmanətlər kimi ilahi ehtiyat və əmanət olan bu istedadı da qorumaq lazımdır. Onun şükrü düzgün yolda işlədilməsidir. Çalışın bunu həqiqətən ölkənizin, xalqınızın və ölkədə elmi inkişafın xeyrinə işlədin.[39]

**Gənc tələbə təbəqəsinin əsas müraciət obyekti olması**

Əslində mən siz əziz tələbələrlə görüşəndə beynimdən çoxlu sözlər keçir. Mənim çoxlu sözlərimin əsas müraciət obyekti sizlərsiniz, yəni gənc tələbə nəslidir. "Biz" deyəndə özümü İslam Respublikası quruluşunda məsul şəxs kimi yox, Əli Xamenei kimi, bir hövzə tələbəsi və bir ruhani kimi, İslam, tarix və siyasət sahələrinə, elm və düşüncə məsələlərinə marağı olan bir şəxs kimi nəzərdə tuturam. Düzdür, vəzifənin özü də başqa bir məsələdir. Mənim əsas müraciət tərəfim gənc təbəqə və bu təbəqə arasında alimlər, elmi nümunələr, elm, mədəniyyət, maarif, tədqiqat, demək, anlamaq və inkişaf etmək adamlarıdır. Məmləkət vəzifələri pərdəsi bunların çoxunun qarşısını tutur. Yəni biz özümüz də bu pərdəni çəkib ürək sözümüzün mərkəz nöqtəsinə çata bilmirik.[40]

---

[38] Yenə orada.

[39] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 1999.

[40] Şərif Sənaye Universitetindəki görüşdə çıxışından: 1999.

**Universitetin elm və tədqiqat ehtiyatı olan məzunları**

Burada bir neçə məsələ var. Biri budur ki, tələbə təbəqəsi ölkənin mövcud imkanlarından istifadə etməli və öz məlumatını artırmalıdır. Savadsızlıq, dərinliyə varmamaq, elmə və dərs proqramlarına etinasızlıq yolverilməzdir. Yaxşı müəllimlər, universitetə ürək yandıranlar, rektorlar bizə müraciət edib dövlət imkanlarının çatışmazlığından şikayətlənirlər. Əlbəttə, biz də hökumətə, parlamentə və məmurlara həmişə sifariş edirik və təsiri də olmuşdur. İnşallah bundan sonra daha da yaxşılaşacaq. Amma məqsəd nədir? Məqsəd budur ki, universitet dərs, tədqiqat, elm və iş yeri olsun. Bu gənc ömrünün 4-5 ilini burada keçirirsə, özünü elm ehtiyatı ilə elə zənginləşdirsin ki, cəmiyyətə bəhrə verə bilsin.[41]

**Kənar məsələlərə diqqət – universitetə xəyanət**

Lakin bütün bu sərmayə qoyuluşuna və işə rəğmən, gözlənilmədən bəzi universitetlər kimlərinsə təhriki, sui-istifadəsi və pis işləməsi səbəbindən tətil olunur, fəaliyyəti iflic olur, ya da elmə və dərsə diqqət yerinə ikinci dərəcəli və lazımsız məsələlərə meyl edirlər. Bu, xəyanət deyil?! Bu, tələbəliyin fəlsəfəsinin əksi deyil?! Məgər bir ölkənin gənc nəslinin universitetə təmayülünün fəlsəfəsi nədir? Elmi səlahiyyət əldə etmələri və sonra ölkələrinə fayda yetirmələri deyilmi?! Bəziləri belə cəhdlər edirlər, diqqətli olun.[42]

**Müflis siyasi qrupların tələbələrdən sui-istifadə etməsi**

Müxtəlif təmayül və istiqamətlərə malik siz əziz tələbələr buraya toplaşmışsınız. Siz hansı universitetdən və hansı tələbə birliyindən olsanız, düşmən sizdən öz məqsədləri üçün istifadə etmək istəyəcək. Gərək diqqətli olasınız. Bu, alim, sayıq, gənc, tərəqqi və inkişaf yolunda və alim duyğulara malik bir təbəqədən ən az gözləntidir. Hansısa müflis siyasi qrupun, yaxud təxribatçı təşkilatın və ya küskün siyasi ünsürün şəxsi məsələlərinə görə öz işini tələbənin üzərinə atması, tələbəni onun sözünü

---

[41] İftardan sonra tələbələrlə görüşdə çıxışından: 1999.
[42] Yenə orada.

danışmağa, şüarını verməyə və istəyini irəli sürməyə vadar etməsi əsla məntiqli deyil. Siz ehtiyatlı olmalısınız.[43]

**Elmi gözləntilərin bir neçə universitet tərəfindən təmin olunması**

Allaha şükür olsun ki, bu bir neçə ildə universitet nisbətən yaxşı çalışmışdır. İndi bizim bir neçə universitetimiz elmi səviyyə baxımından həqiqətən yaxşıdır, hərəkətləri elmi yüksəlişə doğru və bizim gözlədiyimiz kimidir. Bunlar inkişaf edib özlərini göstərirlər. Milli istiqlaliyyət elm və təhsil sahəsində öz təsirlərini göstərir; gənclər meydana çıxıb işləyir, inkişaf edir, istedad və nailiyyət göstərirlər. Bu prosesin dayanmasına imkan verməyin. Buna əsasən, birinci məsələ ölkənin bütün tələbələrinə və bu gecə bu məclisdə oturub bir neçə kəlmə söhbət etmək şərəfinə nail olduğum siz əzizlərə müraciətdir.[44]

**Təhsilə etinasızlığın gənclər üçün təhdid olması**

Mən deyirəm ki, sağlamlığa, imana, əzmkarlığa və fəallığa zərər yetirən, gənclərin işini, fəaliyyətini və təhsilini gecikdirən hər bir şey təhdiddir; veyillik təhdiddir; özbaşınalıq təhdiddir; narkotik maddələr təhdiddir; elmə, dərsə və işə əhəmiyyətsizlik təhdiddir; əbəs ictimai münaqişələrlə məşğul olmaq təhdiddir.[45]

**Bugünkü tələbə nəslin böyük məsuliyyəti**

Əziz övladlarım! Böyük Allahdan istəyirəm ki, elm, düşüncə və yaradıcılıq zirvələrinə çatmaqda sizə kömək etsin, sizin təmiz və gənc qəlbinizi iman və mənəviyyatla işıqlandırsın. Bu gün İran gənci bilməlidir ki, qəza və qədər onu xalqı və tarixi üçün təyinedici bir dövrdə qərarlaşdırmışdır. Bugünkü tələbə nəsil müstəqil, qüdrətli və mütərəqqi bir ölkə qurmaqda rol oynaya, inqilab nəslinin vuruşma və ədavətlər tufanında öz misilsiz fədakarlıqları ilə bərpa etdiyi uca binanı möhkəm və

---

[43] Yenə orada.

[44] Yenə orada.

[45] Tehranın böyük müsəllasında gənclərlə görüşdə çıxışından: 2000.

həmişəyaşar edib, sayıqlıqla qoruya bilər. Bu, böyük məsuliyyət və həmçinin fəxrdir.[46]

**Tələbə birliklərinin elmi və dini təsirləri**

Bir qrup gəncin, oğlan və qızların din məqsədi ilə bir yerə cəm olması, tələbələr arasında din və İslam maarifini təbliğ etməsi, universitetlərin İslama uyğunlaşmasına kömək göstərməsi böyük şərəf və çox dəyərli işdir. Sizin elmi işiniz dəyərli, dini və təbliğat fəaliyyətiniz çox əhəmiyyətlidir.

Ölkənin bütün universitetlərində fəaliyyət göstərən dini təşkilatlara dair əsas məsələ budur ki, dini birliklər tələbə gəncə dini və prinsipial şəxsiyyət verir. Hər bir insan gənclik dövründə öz şəxsi dəyərinin yüksəldilməsində nəzərəçarpacaq təsiri olan bir iş görmək istəyir.

Universitetlərin dini birliklərində fəaliyyət bir gəncin şəxsiyyət dəyərini bir din təbliğatçısı, peyğəmbərlərin canişini və Allah övliyalarının davamçısı həddinə yüksəldə bilər. Bunun böyük əhəmiyyəti var.

İnqilabın əvvəlindən bizim tələbə gənclərimizin ən yaxşıları, ən möminləri və ən yaradıcıları dini birliklərə toplaşdılar və mühüm işlər gördülər. Belə deyildi ki, dini birliklər universitetlərdə yalnız dini fəaliyyətlər göstərsinlər və elmi məsələlərə qarışmasınlar. Onlar universitetlərdə elmi inkişafa da kömək göstərə bildilər. Onlar həm siyasi məsələlərdə, həm dini məsələlərdə, həm də universitetlərdə elmin inkişafına köməkdə özlərini göstərdilər. Mömin və dini kimliyə malik bir gənc bu qədər təsirli ola bilər.[47]

**Ölkənin gələcəyinin gənclərin elmi və dini tərbiyəsindən asılı olması**

Elm, bilik və məlumat sahəsində fəal gənclər olan tələbə və şagirdlər - özünü ölkənin gələcək idarəsi üçün müxtəlif sahələrə hazırlayan bu şəxslər hər bir xalqın və hər bir cəmiyyətin gələcəyinin ümidləridir. Yəni bu ölkə, bu xalq, bu quruluş öz gələcəyi üçün bu gənclərə ehtiyaclıdır. Hər

---

[46] Avropada təhsil alan tələbələrin İslam Birlikləri İttifaqının 35-ci iclasına müraciətindən: 2000.

[47] Tələbə təşkilatları ilə görüşdə çıxışından: 2000.

bir ölkənin başucalığı və gələcəyinin təmini üçün əsas amillərdən biri bu gün təhsil alan gənclərdir. Bunların təhsili, fəaliyyəti, fikir, əxlaq və din baxımından tərbiyəsi nə qədər yaxşı və güclü olsa, ölkənin gələcəyi hər cəhətdən daha yaxşı təmin olunacaq. Bundan əlavə, hər bir zamanda həm tələbələr və həm şagirdlər o zamana və ölkənin ovaxtkı ehtiyacına uyğun rol ifa edə bilərlər.[48]

**Gənclərin vasitəsi ilə İslam maarifinin təhsili və nəşri**

Siz İslam maarifi dərsini məntiqli, əsaslı, aydın və çox nizam-intizamlı formada öyrənməlisiniz. Universitetlərdə, orta məktəblərdə, iş yerlərində, idarələrdə və ailələr daxilində olan gənc nəsil - qız və oğlanlar beləcə bir-birinin ardınca uca insani bilgiləri münasib dillə öyrənsinlər və yaysınlar. İslam maarifi fənni bunun üçündür. Görün nə qədər əhəmiyyətlidir! Siz öz dərsiniz, çalışmanız və təhsilinizlə inşallah İslam təfəkkürü və İslam maarifi bayrağını həzrət Musanın (ə) işıqlı əli kimi götürə bilərsiniz; əlini qaldıranda ovucu günəş kimi parlayırdı.[49]

**Siyasi qarşıdurmaların tələbələrin ən mühüm problemi olması**

Mənim fikrimcə, bu gün bütün tələbə qruplarının qarşısında mövcud olan ən əsas məsələ cəmiyyətimizdə inkişafa əlverişli olan bu mühiti məhv edib insanları ümidsizliyə uğratmaq, universitetdə dərs və elmin səviyyəsini endirmək, elmi, sinifləri rövnəqdən salmaq, tələbələri müxtəlif kənar işlərə, müxtəlif çəkişmələrə, mənasız siyasi oyunlara qatmaq istəyən şəxslərlə mübarizədir.[50]

**Tələbələr arasında bəzi fikir bildirmələrin səbəbi**

Mən görürəm ki, bəzən tələbələr arasında fikir bildirmələr olur. Mən bu fikirlərə nə təəccüb edirəm, nə də onlar gözlədiyimin əksinədir. Bunların əhəmiyyəti yoxdur. Mənim üçün əhəmiyyətli olan tələbələrin belə

---

[48] Keçikçi, Müharibə əlili və Şagird günləri münasibəti ilə keşikçilər, müharibə əlilləri, tələbələr və şagirdlərlə görüşdə çıxışından: 2000.

[49] Şəhid Mütəhhəri adına ali məktəbin müəllim və şagirdləri ilə görüşdə çıxışından: 2000.

[50] Tələbələrlə görüşdə çıxışından: 2000.

fikir bildirmələrində məqsədləridir? Bu gün iyirmi ildir ölkənin universitetləri irəliyə doğru hərəkətə başlayıb. Bu ölkədə çoxlu tələbə mövcuddur. Say çox olduqda onda yaxşı keyfiyyətlərin olmasına əminlik də olur. Müxalif insanların məqsədi hansısa yolla universiteti elm və təhsil prosesindən saxlamaq deyilmi?! İnsan güman edir ki, tələbələrə qarşı baş tutan bu fəaliyyətlərin bəzisində belə mənfur və xəbis niyyətlər mövcuddur. Onlar bizim gənc və mömin universitetimizi yolundan saxlamaq istəyirlər. Ölkənin sizin vücudunuzdan, xidmətlərinizdən, elm, bilik və tədqiqatlarınızdan, müxtəlif mərkəzlərdə fəaliyyətlərinizdən faydalanacağı gün inşallah gələcək.[51]

**Tələbənin dəyərli xüsusiyyətləri**

Tələbə olmağın özü çox dəyərlidir. Tələbə gəncdir, elm yolundadır, azadfikirlidir, ölkənin gələcək idarəçisidir, uca məqsəd və amalları var. Demirəm ki, bütün tələbələr belədirlər, əslində, tələbəliyin xarakteri belədir. Misal üçün, deyirik ki, ruhani bu xüsusiyyətlərə - elm, din, təqva və təbliğatla məşğul olanlardır. Bu o demək deyil ki, kimsə ruhanidirsə, mütləq bu xüsusiyyətlərə malikdir. Ola bilsin kimdəsə bu xüsusiyyətlər olmasın, lakin ruhani ifadəsinin mənası budur. Tələbəliyin xüsusiyyətləri çox dəyərli xüsusiyyətlərdir: gənc, elm adamı, azad düşüncəli, amalçı, həvəskar, səhnədə... Bütün bunlar tələbə adı altında yatan xüsusiyyətlərdir.[52]

**Elmə yiyələnmənin ən vacib işlərdən olması**

Siz on illərlə bu dünyada yaşayacaqsınız. Odur ki, özünüzü elm baxımından hazırlamalısınız. Elm insana ömrünün sonuna qədər faydalı olan amillərdəndir. Əgər bu elmin ardınca yaxşı və həmişəyaşar əməl də olsa, ölümdən sonra üçün də faydalı olar. Dərs oxumaq sizin üçün ən vacib əməllərdəndir.[53]

---

[51] Yenə orada.

[52] Bəsic üzvü olan tələbələrlə görüşdə çıxışından: 2001.

[53] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul işçiləri ilə görüşdə çıxışından: 2001.

**Gənclər üçün ən gözəl xüsusiyyət**

İnsan bir gənc üçün elmdən, bilgidən, tədqiqatdan, aydınlıqdan, dindən, mənəvi duyğulardan, dini və inqilabi çoşqudan daha gözəl bir xüsusiyyət təsəvvür edə bilmir.[54]

**Təhsil alan gənclərin vəzifəsi**

Əziz gənclərimizə, xüsusən də təhsillə məşğul olan gənclərimizə aid bir məsələ var və bu, özü ilə məşğul olmaqdır.

Mənim əzizlərim! Bizim elmi çatışmazlığımızı və geriliyimizi düzəldin. Bu, dərs oxumaqla, düşünməklə, işləməklə və elmi cəsarətə malik olmaqla hasil olar. Öz imanınızı da gücləndirin.[55]

**Elmi inkişaf üçün bəzi rahatlıqlara göz yummaq**

Deməli, mənim birinci sözüm budur. Mənim əzizlərim, istedadlı və yaxşı gənclər, siz öz üzərinizdə bu vəzifəni hiss edin ki, yaxşı dərs oxumalı, bunu özünüzə vacib iş bilməli, dərs oxumaq və ölkənin elmi səviyyəsini yüksəltmək naminə bəzi şeylərdən keçməlisiniz. Həmişə belədir; insan zirvəyə çatmaq istəsə, gərək bəzi şeylərdən keçsin, çətinliklərə dözsün. Hər halda, insan alpinistlik etmək, hansısa dağın zirvəsinə qalxmaq istəsə, gərək çətinliklərə dözsün. Bu çətinliklərə evlərində oturanlar, yaxud səhər namazdan sonra yatanlar, yaxud ümumiyyətlə, halı olmayanlar, bədənlərini piy basanlar dözmürlər. Lakin o nöqtəyə də çatmırlar. Buna əsasən, bunlar bir-birinə bağlıdır: fəxrin zirvəsinə çatmaq və bir qədər xoşagələn işlərdən keçmək.

Deməli, birinci iş budur ki, siz həqiqətən ciddi və həvəslə axırda dediyimə, yəni bir növ fədakarlığa diqqət yetirməklə dərs oxuyun, ölkənin elmi səviyyəsini yüksəltməyə çalışın. Elmi təbəqə olan sizlər yaxşı alim ola bilsəniz, şübhəsiz, gələcəkdə ölkənin elmi üçün möhkəm bir bünövrə əmələ gələcək. Biz gərək öz tarixi geriliyimizi düzəldək. Doğrudan da bu

---

[54] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

[55] İsfahan vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2001.

ölkədə elm sahəsində 100 il səhlənkarlıq edilmişdir. Siz bunu düzəldə bilərsiniz.[56]

**Allahla mənəvi əlaqə və yaxşı dərs oxumaq**

Allahla mənəvi əlaqənin asanlığı gəncliyin, paklığın və sizin maddiyyata meylsizliyinizin nətcəsidir. Birliklərinizin, bu dəyərli işlərin qədrini, bir sözlə, öz qədrinizi bilin. İnşallah Allah-Taala sizə mərhəmət etsin! Sözsüz ki, dərsinizi də yaxşı oxumalısınız. Mən yaxşı dərs oxumağın tərəfdarıyam; heç bir şey bunun yerini tutmamalıdır. Demək olmaz ki, filan işi görsək, dərs oxumağı çatdırmarıq. Xeyr, həm öhdəçi, sözü və məqsədi olan bir insan olmaq, həm də eyni zamanda dərs oxumaq, imtahanlarda yüksək yer tutmaq və elmi pillələrə qalxmaq olar. Bununla inşallah gələcəyi qura biləcəksiniz.[57]

**Gənclərin bugünkü vəzifəsi**

Bu gün əziz gənclər təhsili, elmi, siyasi və ictimai ayıqlığı öz vəzifələri bilsinlər.[58]

**Universitetdə elmi fəaliyyət və iğtişaşdan çəkinmək**

Universitetlərdə elmi iş, ölkənin müxtəlif sahələrində quruculuq, istər sənaye, istər əkinçilik və təminat sahəsində işi fəallaşdırmağa çalışmaq düşmən siyasətlərinə qarşı işlərdəndir. Dini, əxlaqı və mənəviyyatı yaymağa çalışmaq, ümumi və ilk növbədə universitet kimi yerlərdə iğtişaş və çəkişmələrin qarşısını almaq düşmənin əleyhinə və onun məqsədlərinin ziddinə olan, təxribatların qarşısını alan amillərdən biridir. Mömin insanlar harada olsalar, bu məsələlərə diqqət yetirməlidirlər; təhsil və tədqiqat işi ilə məşğul olduğunuz yerlərdə və laboratoriyalarda da.[59]

**Universitet iğtişaşlarının səbəbi - elmi ruhla mübarizə**

---

[56] İftar mərasimindən sonra tələbələrlə görüşdə çıxışından: 2001.
[57] Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdə çıxışından: 2002.
[58] Zabul əhalisi ilə görüşdə çıxışından: 2003.
[59] Bəsic üzvü olan müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.

Bizim universitetlərimizi iğtişaşla hədələdiklərini görürsünüz. Bu ondan ötrüdür ki, universitetlərdə beyinlər yetişir və İslam quruluşu gəncinin öz xalqını əcnəbilərin və istismarçıların elmindən ehtiyacsız edə bilməsi üçün özünəinamı var. Bunu bilirlər və ölkədə dərsin, tədqiqatın, elmi ruhun qarşısını almaq istəyirlər. İstəyirlər ki, İran xalqı həmişə onlara möhtac olsun. Bu, İran xalqının düşmənlərinin yozumsuz xoş yuxusu və puç röyasıdır. İran xalqı heç zaman keçmiş dövrə qayıtmayacaq. Allahın lütfü ilə İran xalqı qüdrətlə və möhkəm addımla iftixar, ucalıq, maddi və mənəvi inkişaf yolunu qət edəcək, dayağı da birinci növbədə Allah-Taala və sonra bu əziz torpaq olacaq.[60]

**Bugünkü gənclərin düşmən qarşısında elmi cihadı**

Mənim əzizlərim! Özünüzü elm və əməllə bacardığınız qədər islah edin. Sizdən öncəki nəslin gənclik dövrü kimi sizin gənclik dövrünüz də bu xalqın tarixi taleyində təyinedici dövrdür. Sizin öz elmi, əməli və əxlaqi yüksəlişiniz üçün atdığınız hər bir addım düşmənə sarı açılan bir atəşdir. Bu müharibə və bu döyüş böyük cihaddır. Bizim gənc nəslimiz elmi baxımdan inkişaf etməlidir; necə ki, bu günə qədər inkişaf etmişdir. Kütləvi qırğın silahı və digər adlarla dünyada İslam Respublikası əleyhinə ucaltdıqları qalmaqallar həmin bəhanələrdir. Bu da aldadıcı pərdələrdəndir. Problem bu deyil; problem odur ki, bu ölkənin işgüzar gənc nəslinin yüksək texnologiyalar əldə etməsi onları incidir, onlara əziyyət verir. Onlar xalqların asılı, aşağıda qalmasını, əllərinin onlara sarı uzanmasını, xalqların həmişə zəif və zəlil qalmasını və onların başına istədikləri bəlanı açmaq istəyirlər. Xalqlar elm və iman baxımından özlərini gücləndirməlidirlər.[61]

**Davamlı mütaliə və tədqiqat – möhtəşəm sabaha hazırlıq**

Bu gün sizin birdən-birə böyük bir texniki işdə çalışdığını, yaxud böyük bir texnologiya yaratdığını gördüyünüz gənclər uzun müddət imanla çalışmış, işləmiş və birdən-birə elm sahələrində belə parlamışlar.

---

[60] Pişva və Vəramin şəhidlərinin ailələri ilə görüşdə çıxışından: 2003.
[61] Əhvaz gəncləri ilə görüşdə çıxışından: 2003.

Siz də bacararsınız. Elmə, sinfə, mütaliəyə, tədqiqata və araşdırmaya əhəmiyyətli yanaşın. Mən bu barədə müdir və məmurlara da tövsiyə edirəm, amma bu tövsiyə ayrıdır.

Bu xalqın əziz övladları və ciyərparələri olan siz gənclərə ayrı şəkildə deyirəm: Mənim əzizlərim! İşləyin. Bu gün düşmənlər universitetin, dərsin, məktəbin və müəllimin olmamasını istəyirlər. Bizim düşmənlərimiz milyonlarla gəncin dərs, iman, təqva, zahidlik və iffətlə bu regionda qüdrətli İran üçün möhtəşəm sabah yaratmasını istəmirlər. Bilirlər ki, bu böyük qüvvə belə işləsə, yaxın gələcəkdə regionda bir əzəmət baş qaldıracaq və düşmənlər ona hegemonluq etməkdən məyus olacaqlar. Mən təkid edirəm ki, siz bu istismarçı və müstəmləkəçi istəyin əksini edin, iman və təqvanızı qoruyun, dərsinizi yaxşı oxuyun, gəncliyinizin qədrini bilin. Bu qüvvə və bu fəallıq bu uca dəyərləri əldə etmək yolunda xərclənməlidir; zamanı da indidir.[62]

**Gənclərin elmə əhəmiyyəti**

Bir elmi şəxsiyyətə gənclər tərəfindən hörmət olunması məni sevindirir. Bu onu göstərir ki, bizim gəncimiz elmə əhəmiyyətli yanaşır.[63]

**Tələbə amallarına qarşı məsuliyyət hissi**

Buraya təşrif buyurmuş sizlər, mənim əziz övladlarım olan tələbə oğlan və qızlar hamılıqla dindar, dini təməllərə və İslam maarifinə etiqadlı tələbələrsiniz. Tələbə zümrəsi əksərən etiqadlı insanlardır, amma mən istəyirəm ki, ölkə tələbələrinin çoxu, yaxud lap çoxu tələbə amallarına qarşı məsuliyyət hissinə malik olsun. Bu amallardan biri elm, ikincisi ədalət, üçüncüsü isə azadfikirlilik və azadlıq istəyidir.[64]

**İranda elmi inkişaf müxaliflərinin ilk tədbiri**

Mənim əzizlərim! Sizə deyim ki, əvvəldə bu ölkədə elm və tədqiqat prosesini zəiflədən və sonra bütünlüklə dayandıran şəxslərin ilk tədbirləri

---

[62] Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdə çıxışından: 2003.
[63] Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2003.
[64] Tələbə təşkilatları, mərkəzləri, nəşriyyələri, dini heyətləri və elmi nümunə tələbələrlə görüşdə çıxışından: 2003.

iranlıda bu hissi məhv etmək idi. Yəni iranlı elə bilsin ki, düşüncədə, elmdə, həyat yollarını, hətta öz məqsədini ifadə etmək üçün lazımi sözləri tapmaqda da özünün bir şeyi yoxdur. Bu bir xalqı qara günə qoyur; özünəinamı olmayan xalqı. Mən sevinirəm ki, bu il siz gənclər arasında bu ruhiyyəni görürəm. Gənclərlə keçirilən digər toplantılarda da xoşbəxtlikdən, bu ruhiyyənin günbəgün inkişaf halında olduğunu görürəm.[65]

**Mənəviyyatın kənarında elmə əhəmiyyət**

Mən bu gün sizə demək istəyirəm ki, mənim əzizlərim, elmə əhəmiyyət verin. Müxtəlif qıfılların əsas açarı elmə əhəmiyyət verməkdir. Əlbəttə, onun yanında bu bəlli məsələyə də diqqət yetirməlisiniz ki, elm və alimin faydalı olmaları qədər zərərli olmaları da mümkündür. "Oğru çıraq ilə gələrsə əgər, Ən yaxşı meyvəni ağacdan dərər!" Elmi olan, lakin təqvası, əmanətdarlığı və sədaqəti olmayan bir insan zərərli mövcud ola bilər, öz elmini ölkə əleyhinə və onun maraqlarına qarşı işlədə bilər. Buna görə elmin yanında mədəniyyət, nəfsin paklığı, əxlaq və mənəviyyat da lazımdır. Buna əsla şübhə etməyin.[66]

**Tələbə hərəkatının möhtəşəm işi**

Biz bu gün bir elmi mətni əcnəbi dillə, əcnəbi sözlərlə, əcnəbi terminlərlə, əcnəbi mədəniyyətlə öyrənməliyik. Siz o zaman dünyada layiqli yerinizdə duracaqsınız ki, dünyanın hər hansı nöqtəsində olan bir alim bir iranlı tədqiqatçının və mütəfəkkir beyninin fəlsəfi, sosioloji, riyazi, fiziki və digər nəzəriyyələrini öyrənmək, dərindən mənimsəmək istədikdə dilinizi öyrənməli olsun. Biz belə bir cəmiyyət üçün çalışmaq istəyirik. Bizim xalqımızın həqiqi mübarizəsi budur. Bütün bunlar mənəviyyatın – yəni tövhidin, ilahi bəndəliyin, İslam adının və İslam həqiqətinin sayəsi altında olmalıdır. Bu, milli məqsəddir.

Tələbə hərəkatının adına layiq əməl bu istiqamətdə qabaqcıl, həvəskar və möhtəşəm işlərin görülməsidir. Xalqın müstəqilliyini hədəf

---

[65] Gənc alimlərlə və tələbələrlə görüşdə çıxışından: 2004.

[66] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışından: 2004.

seçən, ona zərbə vuran, ABŞ-ın hansısa Orta Şərq siyasətinə hakim olduğu kimi İrana da hakim olmasının tərəfdarı olan hərəkat tələbə hərəkatı ola bilməz. Bu, tələbəliyin xislətinə ziddir, inkişafın ziddinədir. Deməli, tələbə hərəkəti üçün məqsəd tərif etmək istəsək, bu məqsəd gözəl bir İran qurmaq olmalıdır.[67]

**Tələbə hərəkatından gözlənti**

Bu, (inkişaf üçün güclü iradə) insanın birlik, yaxud başqa bir adla fəaliyyət göstərən tələbə toplumlarından gözlədiyidir. Mənim universitetdə tələbə hərəkatının iştirakına təkidim bundan ötrüdür. Bu hərəkəti düzgün davam etdirmənizin şərti odur ki, bu məqsədi həmişə göz önündə saxlayasınız. Məqsədi unutsanız, yanlışlığa, səhv gedişə və ifratçı doğruluğa düçar olacaqsınız.[68]

**Tələbəyə hörmətin əsas səbəbi**

Hər halda, gənc tələbə nəsil elmlə məşğul olmalıdır və bu, son 20-30 ildə xalqımızın taleyində təyinedici olmuşdur. Mənim tələbə təbəqəsinə hörmətimin səbəbi birinci növbədə budur.

İman elmdən üstündür. Xalqın və ölkənin amalları və İslam Respublikası quruluşunda bizim üçün tərif olunan uca məqsədlərlə imanınızı gücləndirin. Elmi xalqın və ölkənin təhlükəsizlikdən ibarət ən mühüm ehtiyacının xidmətində işlətməli olan mütərəqqi bir təbəqə kimi özünüzü hazırlayın. Bu da dərs, zəhmət, iman, Allaha diqqət, bəndəlik və ixlas olmadan mümkün deyil; özünüzdə bunları da təmin edin.[69]

**Elmlə məşğul olan gənclərlə keçirilən məclislərin xüsusiyyəti**

Çox fəal və gözəl bir məclisdir. Gənclərin, xüsusən də elm və biliklə məşğul olan gənclərin məclisləri həmişə belədir.[70]

**Universitetdə düşmən təxribatına qarşı mübarizə**

---

[67] Vəhdəti Gücləndirmə Şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 2005.

[68] Yenə orada.

[69] Şəhid Səttari adına Aviasiya Universitetinə baxış keçirərkən etdiyi söhbətlərdən: 2005.

[70] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

Universitetlərə ciddi yanaşmaq lazımdır. Bu həm siz tələbələrə, həm də müəllimlərə aiddir. Bilin ki, universitetlərimizi sıradan çıxarmaq üçün planlar var. Siz kədərlənirsiniz ki, tədqiqat mərkəzlərinin büdcəsini gec verirlər. Çox yaxşı, bunu düzəltmək, bununla maraqlanmaq olar. Amma bəziləri çalışır və təxribat hazırlayırlar ki, ümumiyyətlə, dərsləri və tədqiqat mərkəzlərini bağlasınlar, tələbəni elmə və öyrənməyə həvəssiz etsinlər. Bu təxribata qarşı mübarizə aparmaq lazımdır. Bu mübarizə həm hökumətin və məmurların üzərinə düşür, həm siz birliklərin, həm nüfuzlu və aparıcı şəxslərin.[71]

**Elmi işin kənarında mənəviyyata tövsiyə**

Mənim gənclərə tövsiyəm budur: Siz elm üçün işlədiyiniz qədər qəlbiniz və mənəviyyatınız üçün də işləyin. Mənəviyyat qapısı sizin üzünüzə açıqdır. Elm və mənəviyyatın bir-biri ilə heç bir ziddiyyəti yoxdur. Bir elmi laboratoriyada, təhsil, tədqiqat mərkəzində, hansısa sinifdə və universitetdə çalışmağın heç bir ziddiyyəti yoxdur ki, insan namazını ilk vaxtda, diqqətlə və Allaha təzim hissi ilə qılsın. Bu sizin qəlbinizi yuyacaq. Bu, bütün gənclərə, xüsusən də elm yolunda hərəkət edən gənclərə aiddir. Xoşbəxtlikdən, bu gün böyük həddə bu da var.[72]

**Araşdırıcı ruhla ciddi dərs oxumaq**

Növbəti tövsiyə dərs oxumağa və elmi fəaliyyətlərə aiddir. Həqiqətən dərs oxuyun. Elm ocaqlarında həqiqətən elm axtarışı olmalıdır. İnsan görür ki, bəzi elm mərkəzlərində tələbə həqiqi mənada tələbə deyil, yəni elm axtarmır, başdansovdu və əzbərçi bir iş görür. Belə olmasına qoymayın, həqiqətən elmi axtarın. Elmi təkcə mətn oxumaq və öyrənmək hesab etməyin. Mən müəllimlərlə iclasda dedim ki, tələbə gərək soruşsun, dərinliyinə getsin, müəllimə irad bildirsin, elmi məsələnin müxtəlif tərəflərini araşdırsın, belə yetişsin.[73]

---

[71] Nümunə tələbələr və tələbə birliklərinin nümayəndələri ilə görüşdə çıxışından: 2005.
[72] Gənc alimlərlə görüşdə çıxışından: 2006.
[73] Məşhədin Firdovsi Universitetində tələbələrlə görüşdə çıxışından: 2007.

**Tələbə Bəsicinin vəzifəsi: Elmin tanınmaz üfüqlərini fəth etmək**

"Bəsic elmi işlərə qoşulsun, yoxsa yox?" sualı da məni təəccübləndirən suallardandır. Nə üçün qoşulmasın?! Bəsic bu işlərlə hamıdan qabaq məşğul olmalıdır. Siz gedib elm və texnologiya sahələrini tutmalı, elmi yenilikləri, elmin məchul üfüqlərini kəşf etməlisiniz. Təbii ki, bu, dərs oxumadan və çalışmadan mümkün deyil. Bunun da yolu var və sonra deyəcəyəm.[74]

**Elmi cihadda iştirak etmək - Tələbə Bəsicinin ehtiyacı**

Başqa bir ehtiyac elmi cihaddan ibarətdir. Sizin üçün elmi cihad lazımdır, siz elmi işlərə qoşulmalısınız. Nazirliklər, nazirlik və universitetlərin tədqiqat, idarə və maliyyə müavinlikləri də maddi cəhətdən kömək etməlidir. Bəsic Müqavimət Təşkilatının özü də bəzi sahələrdə kömək etməli, dəstəkləməlidir.[75]

**Tələbə tərəfindən fikir irəli sürülməsinin zəruriliyi**

Bizim gənclərimizin, tələbələrimizin müxtəlif məsələlər, istər universitet məsələləri, istər siyasi və ictimai məsələlər barədə fikirləri, tələbləri, iddiaları var. Bu mənim üçün gözəldir.

Mən dəfələrlə demişəm: O gündən qorxmaq lazımdır ki, bizim gəncimizin, universitet tələbəmizin fikir yürütməyə, söz soruşmağa və istək bildirməyə marağı olmasın. Bizim bütün səyimiz ölkəmizin gənc nəslində, xüsusən də elmlə məşğul olan gənclərində müxtəlif sahələrdə tələb etmək və istəmək həvəsini artırmaq olmalıdır. Bu tələblərin hamısını təmin etmək mümkün olmaya da bilər; necə ki, qısa müddət ərzində bütün tələbləri yerinə yetirmək olmur, imkanlar məhduddur. Lakin belə tələblər olsa, şübhəsiz, bizi yaxşı gələcək və aydın üfüq gözləyəcək.[76]

**Tələbə mühitinə lazım olanlar**

---

[74] Universitet Bəsicinin minlərlə üzvü ilə görüşdə çıxışından: 2007.

[75] Yenə orada.

[76] Elmi nümunə tələbələr, qəbul imtahanlarında yüksək yer tutmuş abituriyentlər və universitetlərin siyasi və mədəni təşkilatlarının fəalları ilə görüşdə çıxışından: 2007.

Mənim tələbələrə tövsiyəm budur: həm siyasi və ictimai, həm elmi, həm də universitetə xas məsələlərdə istəmək, tələb etmək, iddia irəli sürmək; amma ağıllı şəkildə. İnqilabın əvvəlindən indiyədək hətta münasib olmayan bəzi hərəkətlərin baş verdiyi və Tehran universitetinə gəlib gənclərlə söhbət etdiyim günlərdə də mənim fikrim və üslubum bu olub ki, tələbə gərək ifrat və təfritdən çəkinsin. Mən hər hansı işdə ifratçılığın əleyhinəyəm. Mötədilliklə, məntiqli və düzgün üsulla məsələləri izləyin və bilin ki, sizin istəməyinizin və maraqlanmağınızın təsiri var. Sizdə belə yanlış təsəvvür yaranmasın ki, nə faydası var. Xeyr, çox faydalıdır.

Burada bir məmur ədalətsevərlik sözünü dilinə gətirdi. Əgər misal üçün, bu şüar deyilsəydi və sonra cəmiyyətdə heç kim ədalət bayrağını qaldırmasaydı, əmin olun ki, bugünkü kimi ədalətsevər hökumət və ədalətsevərlik mövzusu vücuda gəlməzdi. Siz etdiniz, bu, siz gənclərin işidir. Ədalətsevərlik hərəkatı, ədalətsevərlik adı ilə - indi xüsusi bir təşkilata işarə vurmuram - bu məsələni universitetlərdə mömin, məsuliyyətli və öhdəlikli gənclər ortaya qoydular, dedilər. Təkrar olunduqda isə ümumi bir tələb formasına düşür. Nəticəsi xalqın seçimlərində, istiqamətlərində, şüar və səslərində görsənir. Buna əsasən, siz bir addım irəlilədiniz.

Mən görürəm ki, istər bu məclisdə, istər bəlkə bundan da çox, mənimlə digər əlaqələrdə bəzi tələbə dostların beynində ədalət, ayrıseçkiliyin aradan qaldırılması və fəsadla mübarizə ilə bağlı sualları ola bilər. Düşünə bilərlər ki, həmişə desək, nə olacaq. Bəli, dediniz və oldu, lakin gözləmək olmaz ki, bizim istədiyimiz hər bir iş qısa müddətdə həyata keçsin. Böyük amallar heç bir şəraitdə qısa müddətdə həyata keçmir. Böyük amalların davamlı işə ehtiyacı var. İşi davamlı surətdə görmək lazımdır, nəticəyə isə ümidi üzmək olmaz.

Bizim tələbələrdən gözlədiyimiz həm elm, həm siyasət, həm dini bilgilər sahəsində inkişaf, imanın dərinləşdirilməsi, dini bilgilərin dərinliyi, dini aydınlıq, yeni dairələri əldə etməkdir; təbii ki, hər bir sahənin yolgöstərənlərinin köməyi ilə. Sizin elmi iş üçün də müəlliminiz olmalıdır, dini bilgi üçün də, siyasət üçün də. İşi siz görürsünüz, o isə yol göstərir.

Bizim universitet və tələbələrimiz bu sahələrin hamısında həqiqi və nəzərəçarpacaq inkişaflar etməlidir. Və inşallah edəcək.[77]

**Elm mühacirləri**

Ümidvaram ki, elm və ixtisasa yiyələnmək üçün vətəndən ayrılığa dözən, elmi hicrət edən siz qəhrəman gənclər Qurani-kərimin zülal çeşməsinə, Peyğəmbərin (s) və məsum imamların həyatverici dərslərinə sarılmaqla elm öyrənməkdə, özünü və cəmiyyəti islah etməkdə müvəffəq olasınız.[78]

**Tələbənin ən yaxşı təsirliliyi**

Bu qardaşların biri dedi ki, tələbələrin təsir imkanları çox olsa da, bütün işlərdə onlarla məsləhətləşmirlər. Bəli, bu qədər böyük tələbə toplumu ilə necə məsləhətləşmək olar?! İndi təkcə Yəzddə 50-60 min tələbə var. Məsləhətləşmənin də öz yolu var. İşlər məsləhətsiz görülmür. Mən demək istəyirəm ki, tələbənin təsir göstərməsi məmurlara məsləhət verməkdən daha çox təsir altındakı insanlara istiqamət verməklə olmalıdır. Siz ailələlərinizdə təsir buraxa bilərsiniz, qardaş və bacınız üzərində təsir buraxa bilərsiniz, ata və ananıza təsir göstərə bilərsiniz; öz həyat çevrənizdə, qohumlarınız üzərində, dostunuz, idmanda oyun yoldaşınız üzərində təsir buraxa bilərsiniz. Dillə təsir, rəftarla təsir, əxlaqla təsir tələbə üçün ən böyük uğurdur: təsir göstərə bildiyi çevrələrə təsir etmək.[79]

**Tələbələrin qərar qəbul edən yox, qərar yaradan olması**

Buna əsasən, tələbələrin işə qərar verən olmasına çalışmayaq. Bu nə tələbənin xeyrinədir, nə də işin. Tələbə çevrəsinin qərar, yəni müzakirə mövzusu yaradan olmasına çalışaq. Baxın, mən Proqramlaşdırma hərəkatını irəli sürmək istəyəndə hamıdan əvvəl universitetdə tələbələrlə bir araya qoydum; təxminən on il öncə. Nə nazirliklərlə söhbət etmişdim, nə ozamankı prezidentlə, nə də hətta müəllimlərlə. Bu fikri ilk dəfə Əmir

---

[77] Yenə orada.

[78] Avropada təhsil alan tələbələrin İslam Birliyi İttifaqının 42-ci illik iclasına müraciətindən: 2007.

[79] Yəzd vilayəti universitetlərinin tələbələri ilə görüşdə çıxışından: 2008.

Kəbir Universitetində söylədim. Siz bu gün görürsünüz ki, bu bir müzakirə mövzusu, ümumi tələb, ölkənin bütün universitetlərinin istəyidir. Mən haraya gedirəmsə, tələbənin dilindən bu tələbi, müəllim və rektorun dilindən onun icra olunmasını eşidirəm və icra olunmaqdadır.

Çoxlu elmi yeniliklər öz maraq və bacarıqlarının bir hissəsini bu şüardan almışdır. Qərar, ümumi müzakirə mövzusu yaradın. Bu, icraçı məmuru bu qərara sarı sövq edəcək, qərar verəcəklər və əməl olunacaq.[80]

**Tələbənin ədalətsevərliyi**

Ədalət tələbindən bir an da geri çəkilməyin; bunu sizin məqamınız tələb edir. Gəncin, tələbənin və mömininin məqamı tələb edir ki, ədaləti istəsin. Bu fikrin arxasında da bütün vücudumla özüm dururam və bu gün Allaha şükür olsun ki, quruluş var. Əlbəttə, qanun pozuntularının baş verməsi də mümkündür. Sizin zirəkliyiniz bu olsun: Ədalət istəyi barədə fəryad çəkin, lakin konkret bir şəxsi tənqid edib real nümunə göstərməyin.[81]

**Nəzəriyyə yürütmək və tədqiqat**

Siz universitetdəsiniz, fəaliyyətiniz universitet fəaliyyətidir. Dərs oxumalı, araşdırmalı və nəzəriyyə yürütməlisiniz. Qərb nəzəriyyələrindən qeyd-şərtsiz örnək götürməyi və tərcüməçilik üslubunu səhv və təhlükəli bilin.

Bizim humanitar elmlərdə nəzəriyyə yürütməyə ehtiyacımız var. Dünyanın çoxlu hadisələri hətta iqtisadi, siyasi və digər sahələrdə humanitar elmlərin mütəxəssislərinin nəzəriyyələrinə məhkumdur; sosiologiyada, psixologiyada, fəlsəfədə. Meyarları təyin edən onlardır. Biz bu sahələrdə nəzəriyyə yürütməli, işləməli və çalışmalıyıq. Tələbə çalışmalıdır. Tələbə və universitetin inqilabın məqsədlərinə kompleks baxışı olmalı, onların adınca getməlidir.[82]

---

[80] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşündə çıxışından: 2008.
[81] Yenə orada.
[82] Yenə orada.

**Birliyi qorumağın zəruriliyi**

Birliyinizi qoruyun. Birlik! İran xalqı miqyasında da birliyi qorumaq əsas amildir. Bütün ölkənin tələbə təbəqəsi miqyasında da belədir; bir şəhərin, yaxud bir vilayətin tələbələri miqyasında da həmçinin. Qoymayın üslub fərqləri sizi bir-birinizə qarşı qoysun. Bir zaman bəzilərinin maraqları tələb edirdi ki, universitetləri siyasi oyun, çəkişmə və yaxalaşma mərkəzinə çevirsinlər. Bu gün Allaha şükür olsun ki, bunlar azdır. Qoymayın tələbə birlikləri və tələbə hərəkatının müxtəlif hissələri düşmənlərə çevrilsinlər. Rəqib yaxşıdır; rəqib, müsbət rəqabət...

Qardaşların biri dedi ki, biz hazırıq, bizə tədqiqat mərkəzi verin, yaxud icazə verin biz filan sahədə tədqiqat mərkəzi açaq, məsələn, günəş enerjisi, yaxud başqa bir sahədə fəaliyyət göstərək. Çox gözəl. Digər tələbə qrupu da desin ki, biz də başqa bir sahədə bunlarla müsbət elmi rəqabət apararıq. Müsbət rəqabət budur; yəni qaçış yarışı: "(Ey insanlar!) Rəbbiniz tərəfindən bağışlanmağa nail olmaq üçün (yaxşı əməllər etməkdə) bir-birinizi ötüb keçməyə çalışın"; xeyir işdə yarışma, istehsalda yarışma, öyrənməkdə, məlumatları həyata keçirməkdə və xalqın məişətinə kömək etməkdə yarışma. Bu yarışma çox yaxşıdır, rəqabət çox yaxşıdır, lakin yaxalaşmaq, davalaşmaq yox; özü də çox kiçik və dəyərsiz məsələlər üstündə. Xeyr, biz bunu sevmirik.[83]

**Bugünkü alim gəncin ehtiyacı olan iki amil**

Ümidvarıq bu toplantı sizi bugünkü alim gəncin ehtiyacı olan ayıqlığa və dözümlülüyə daha da yaxınlaşdırsın. Mənəviyyat və düşüncə inkişafı üçün bu fürsətlərdən və gənclik imkanından istifadə edin. Sizin ölkəniz mömin, mütəfəkkir və həvəskar gənc nəslə hər şeydən çox və həmişəkindən daha ehtiyaclıdır.[84]

**Tələbələr üçün həmişəlik dua**

---

[83] Yenə orada.

[84] Tələbələrin İslam Cəmiyyəti İttifaqının konfransına müraciətindən: 2008.

Allah-Taaladan sizin üçün və digər əziz tələbə birlikləri üçün dözüm və ayıqlıq diləyirəm.[85]

**Hövzə və universitetdə düşüncə məclislərinin təşkil edilməsinin zərurliyi**

Mənim fikrimcə, lazımi işlərdən biri geniş düşüncə məclisləri təşkil etməkdir. Universitet tələbələri hövzə mənsubları ilə birgə yaxşı proqramla bu məclisləri təşkil edə, oturub müxtəlif məsələlər haqda düşünə bilərlər. Düşüncəni genişləndirmək və düzgün fikri yaymaq bizim elm, texnologiya və elmlərin inkişafı sahələrində tələbədən gözlədiyimiz səmərələri verə bilər. Yəni çiçəklənmə, düzgün hərəkət və istiqamətlə düşüncə mühitinə yeni söz gətirmək. İşlərdən biri budur.[86]

**Elm öyrənməyə çalışmaq**

Əziz tələbələr! Siz gənclər tərəfindən elm öyrənmək üçün görülən hər bir iş xalqınızın və ölkənizin mənəvi və maddi iqtidarını qaytarmaq yolunda bir addımdır. Sizin xalqınız bir zaman dünyada elm və yeniliyin bayraqdarı idi. İnqilab nəsli asılılıq və ardıcıllıq dövrünün geriliklərini düzəldə bilər. Bu, tarixi bir missiyadır.[87]

**Təhsil fənlərinin seçimində meyar**

Təhsil fənlərinin seçimində və həmçinin öyrənmək və düşünmək üçün etdiyiniz ciddilikdə ölkənizin ehtiyaclarını diqqətdə saxlayın.[88]

**Tələbənin rol ifa etməyə həmişəlik diqqəti**

Universitet və tələbə məclisləri bizim üçün çox ürəkaçan məclislərdir. Çünki bu məclislərdə həm sədaqət və səmimilik var, həm də indi vəziyyətin və gələcəyin formalaşdırılmasında tələbənin əsaslı rolu var. Bu

[85] Ədalətsevər tələbə hərəkatına bağlı olan birliklərin on beşinci ümumrespublika toplantısına müraciətindən: 2008.
[86] Universitet tələbələri ilə görüşdə çıxışından: 2008.
[87] Avropada təhsil alan tələbələrin İslam Birlikləri İttifaqının iclasına müraciətindən: 2007.
[88] Yenə orada.

elə bir məsələdir ki, mənim fikrimcə, bizim tələbələrimiz bunu heç zaman nəzərdən qaçırmamalıdırlar. Tələbə böyük rola malikdir; həm indiki zamanda, həm də gələcək dövrə və ölkənin sabahına dair.[89]

**Universitetin inkişafın ən mühüm bazisi olması**

Bu nəhəng sahədə özünün iradəsi və səyi, eləcə də müəllimlərin tövsiyə və yardımı ilə əlavə və möhtəşəm dəyər tapan qüvvə tələbədir və şübhəsiz, bu baxışla universitet ölkə inkişafının ən mühüm bazisidir; yəni ölkənin müxtəlif bazislərindən heç biri universitet qədər əhəmiyyətə və rola sahib deyil. Universitet insan kapitalı yetişdirir. Ölkənin ən mühüm sərvəti də insan kapitalıdır.[90]

**Universitet - iki həyat qaynağının məkanı**

Universitetdən həmişə və hər yerdə gözlənilir ki, ölkədə iki həyat qaynağının zirvə yeri olsun: biri elm və tədqiqat qaynağı, ikincisi isə amalçılıq, siyasi və ictimai məqsədlər qaynağı. Bu iki qaynağın - həm elm və tədqiqat cərəyanının - bu, cəmiyyətin həyatının və başucalığının səbəbkarıdır; elmi qüdrət öz ardınca iqtisadi, siyasi və beynəlxalq qüdrət gətirir - həm də zahirən elm məsələsi ilə əlaqəsi olmayan amalçılıq məsələsinin universitetdən başqa paralel şəkildə həmişə fəal olduğu başqa bir yer bəlkə də tapmaq olmaz. Tələbələrin cəm olduğuna görə dünyanın hər bir yerində universitetlərdən gözlənilir ki, amalları təsvir etməkdə və onlara çatmaqda fəal olsunlar. Bu, xüsusən tələbəyə aiddir. Tələbənin gəncliyi, yaşı və psixoloji hazırlıqları universitetə bu imkanı verir. Bu, universitetdən gözləniləndir. Bu gözlənti bəzi yerlərdə təmin olunur, bəzi yerlərdə isə olunmur.

Elm və tədqiqatdan ibarət birinci qaynaq barədə demək lazımdır ki, bu qaynaq keçmişdə ölkəmizdə az-çox olmuşdur. İnqilabdan öncəki universiteti bütünlüklə inkar etmək olmaz. Onun nöqsanları vardı, lakin hər halda, iş idi, maraqlı və alim insanlar tapılıb universitetlərdə rol ifa

---

[89] Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdə çıxışından: 2008.
[90] Yenə orada.

edirdilər. Lakin iniqlabdan sonra universitetlərdə elmi hərəkət sürətləndi. Əlbəttə, bunun da səbəbləri vardır.[91]

**Tələbə hərəkatının tarixçəsi və onun xüsusiyyətləri**

Universitetlərdə amal istəyindən ibarət ikinci cərəyanın - adətən ona tələbə hərəkatı deyilir - ölkəmizdə çox maraqlı tarixi var. Bunu ona görə deyir və üzərində dayanıram ki, bu hərəkət davam etdirilməli və dayanmamalıdır. Çünki ölkə elə bir şəraitdə və İslam Respublikası quruluşunun strukturu və xüsusiyyətləri elədir ki, onun yanında mütləq tələbə hərəkatı olmalıdır.

Bizim ölkəmizdə tələbə hərəkatı özünün qeyd olunmuş və tanınmış tarixində həmişə antihegemon, antiistismar, antiistibdad, antidiktatura və güclü şəkildə ədalət istəyən olmuşdur. Bizim tələbə hərəkatımızın bu xüsusiyyətləri əvvəldən bu günə qədər olmuşdur. Əgər kimsə tələbə hərəkatının iddiaçısı olsa, lakin bu xüsusiyyətlərə malik olmasa, səmimi deyil. Tələbə hərəkatının əli Fələstində qətliam, İraqda cinayət törədənlərin, Əfqanıstanda xalqı qılıncdan keçirənlərin əlində ola bilməz. Bu, tələbə hərəkatı deyil. Tələbə hərəkatının ən azı bizim ölkəmizdə - bəlkə də çoxlu ölkələrdə - xisləti və xüsusiyyəti belədir ki, hegemonizmin, istismarçılığın və diktaturanın əleyhdarı və ədalətin tərəfdarıdır. Bu hərəkətin başlanğıcı, yaxud tanınmış zamanı 16 azər (7 dekabr) günüdür.

...Bütün dövrlərdə, inqilab boyunca müxtəlif hadisələrdə, həssas və təhlükəli anlarda mömin, öhdəçi, ədalətsevər və fədakar tələbələr vəziyyəti düzgün səmtə yönəldə bilmişlər.

Bu mənim tələbə hərəkatına dair təsəvvürüm və baxışımdır: hegemonluq əleyhdarı, fəsad əleyhdarı, zadəganlıq əleyhdarı, aristokrat və hegemon hakimiyyət əleyhdarı, azğın təmayüllər əleyhdarı; bunlar tələbə hərəkatının xüsusiyyətləridir. İnqilabın bütün illərində tələbələrin bu səhnələrdə iştirakı fəal və təsirli olmuşdur. Tələbələr müzakirə mövzusu yaradan olmuşlar, düşüncə mühiti yaratmışlar, cəmiyyətdə siyasi və inqilabi mövzuları hakim etmişlər. Çox zaman belə olmuşdur.

---

[91] Yenə orada.

Əlbəttə, mənim mühakimən ümumi tələbə korpusuna aiddir. Ola bilsin bəzi şəxslər, tələbə məcmusunun bəzi hissələri ayrı cür olsunlar; nə təəccüb, nə də inkar edirik. Şübhəsiz ki, belədir. Amma tələbə korpusu, tələbə işinin təbiəti və tələbə həvəsi dediyim kimidir. Tələbə zülmə, hegemonluğa, xarici istismara qarşıdır, böyük amallara vurğun və ümidlidir. Əslində gənc təbəqə, xüsusən də tələbə bir cəmiyyətin hərəkət motorudur. Tələbələr həmişə buna diqqət yetirməli və ölkənin gələcəyi üçün bunu nəzərə almalıdırlar.[92]

### Tələbə birliklərinin məqsədlərə diqqəti

Digəri budur ki, tələbə birlikləri məqsədlərini itirməkdən ehtiyatlı olsunlar. Tələbə birliklərinin əsas məqsədləri tələbə hərəkatının hündür darvazası üzərinə yazılanlardır: antihegemonizm, ölkənin inkişafına, milli birliyə, elmin inkişafına kömək, təxribatlara və düşmənlərə qələbə çalmaq üçün İran xalqının ümumi mübarizəsində və döyüşündə iştirak etmək; bunlar əsl məqsədlərdir. Bunları unutmamalıdırlar. Əlbəttə, birliklər özlərini tələbə korpusundan ayırmasınlar; yəni birlik tələbələrin bölünməsinə səbəb olmamalıdır. Gərək tələbələrə yaxın olsunlar.[93]

### Tələbələrə bir neçə tövsiyə

Əzizlər! Hikmətli və elmli Allaha təvəkkül edin, bu gün hamının, xüsusən də gənclərin üzərinə düşən missiyanı düzgün anlayın, gələcəyin yolunu açın, elmi, tədqiqatı və yeniliyi vəzifə bilin, təhsil fənlərinin seçimində və həmçinin digər proqramlarınızda ölkənizin bugünkü və sabahkı ehtiyaclarını nəzərə alın.[94]

### İnkişaf və ədalət onilliyi üçün ali təhsillilərin təsiri

Biz hansı xüsusiyyətinə görə növbəti onilliyi inkişaf və ədalət onilliyi adlandırmışıq? Mənim fikrimcə, gələcək onilliyin ötən üç onilliklə fərqi əziz ölkəmizdə inkişaf və ədalət üçün yaranmış çox böyük və möhtəşəm

---

[92] Yenə orada.

[93] Yenə orada.

[94] Hindistan yarımadasının İslam Birlikləri İttifaqına müraciətindən: 2009.

hazırlıqlardır. Bu hazırlıqlar bizim böyük və iradəli xalqımıza bu sahədə iri addım atmasına imkan verir.

Bu hazırlığın əsas amil və elementlərini müəyyənləşdirmək istəsəm, deməliyəm ki, bir neçə elementin böyük təsiri var: Biri bizim ali təhsilli gənc nəslin iştirakıdır. Bu gün milyonlarla fəal və ali təhsilli gənc elm və tədqiqat sahələrində, ictimai və siyasi işlərdə iştirak edirlər. Ölkəmizdə bu qədər bilikli, təhsilli və hazırlıqlı gəncin olması çox böyük və diqqətəlayiq haldır.[95]

**Universitetin zahiri işlərdən çəkinməsi**

Bu əziz qızımız Tələbə Parlamenti haqda təklif irəli sürdü. Qəşəng addır, lakin formal işlər nə tələbənin problemini həll edir, nə ölkənin. Gərək bacardıqca zahiri, dayaz, formal və şüar xarakterli işləri azaldıb əsaslı, həqiqi və həlledici işlərə diqqətimizi artıraq. İndi fərz edin, Tələbə Parlamenti yarandı. Siz görün bu parlamentin seçkiləri ölkə tələbələrinin nə qədər vaxtını alacaq; hansı universitetdən, hansı şəhərdən, hansı təmayüllə, hansı düşüncə, yaxud siyasi istiqamətlə; çəkişmələr və sair. İndi çalışırıq ki, elm ocaqlarında elm və tədqiqat həvəsini bacardıqca artıraq. Sonra əziz qızımız dedi ki, bu Tələbə Parlamentinin icra səlahiyyətləri də olsun. Əgər parlamentdirsə, icra səlahiyyətləri nə üçündür? Həm qərar versin, həm də özü icra etsin?! Bu məsələni universitetlərin daxilinə çəkməklə görün onların başına nə gələcək! Mən tələbəyə diqqətlə, tələbəyə etina etməklə, tələbənin sözünü dinləməklə, tələbəyə nəvaziş göstərməklə və kömək etməklə yüz faiz müvafiqəm, lakin yolu bunlar deyil.[96]

**Tələbələrin məmurlarla iclaslarının artırılmasının zəruriliyi**

Mənim universitetlərə getməyimin səbəblərindən biri - mən hər səfərdə tələbələrlə mütləq bir görüşün təşkil olunmasını istəyirəm; Tehranda da bəzən universitetlərə baş çəkirəm - budur ki, məmurların ayağı universitetlərə açılsın və tələbələrlə üz-üzə söhbət etsinlər. Bu gün sizin burada danışdığınız sözlər radio və televiziyadan yayımlanacaq və

[95] Həzrət Əli ibn Musa Rzanın (ə) ziyarətçilərinin böyük toplantısında çıxışından: 2009.
[96] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2009.

bütün ölkədə işıqlandırılacaq. Məsul bir şəxs kimi mənim qulağıma çatdı, universitet məmurlarının qulağına çatdı, digər məmurların qulağına da çatacaq. Bundan yaxşı nə ola bilər?! Belə səmimi və açıq tələbə məclislərini bacardığınız qədər çox keçirin; sözsüz ki, komplimentləri azaltmaqla.[97]

**Müsbət tələbə ruhiyyəsi - İslamın və İslam quruluşunun gələcəyinin təminatçısı**

Əminəm ki, bu ölkənin və hətta İslamın və İslam ümmətinin gələcəyini təmin edən amil ölkəmizin gənc tələbə nəslində müşahidə olunan coşqulu, araşdırıcı, tələbkar, hissiyyatlı və emosional ruhdur. Yəni siz indi bir mətləbi qəti şəkildə düşünməsəniz, yaxud onun üçün dərin əsaslandırmanız olmasa da, bütün ölkəmizdə müsəlman və mömin tələbə hərəkətlərinin məcmusu ad fərqlərinə rəğmən, bu ölkənin, bu quruluşun və İslam ümmətinin ümidverici gələcəyini müjdələyir. Yaxşı məsələlərə diqqət yetirirsiniz, yaxşı və düzgün məqamlar üzərində dayanırsınız. Allaha şükür olsun ki, belə müsbət cəhətlər vardır.[98]

**Düşmənin universitetdən istəyi - elmi hərəkətdə zəiflik**

Burada sizə deyirəm ki, ehtiyatlı olun, universitet bu kiçik və dəyərsiz siyasi hadisələrdə təsir altına düşməsin, onun elmi işi zəifləməsin, bizim laboratoriyalarımız, siniflərimiz, tədqiqat mərkəzlərimiz ziyana uğramasın; diqqətinizi toplayın. Yəni sizin qarşınızdakı mühüm məsələlərdən biri universitetlərdə elmi hərəkəti qorumaqdır. Düşmənlər çox istəyirlər ki, bizim universitetlərimiz ən azı bir müddət tətil olsun, iğtişaşa və müxtəlif ziyanlara uğrasın. Bu həm siyasi, həm də uzunmüddətli iş baxımından onlar üçün ideal bir məsələdir. Çünki sizin elminiz uzunmüddətli iş baxımından onların zərərinədir; buna görə elmdən uzaqlaşmanızı istəyirlər.[99]

**Azad diskussiyaların zəruriliyi**

---

[97] Yenə orada.

[98] Tələbələr və elmi nümunələrlə görüşdə çıxışından: 2009.

[99] Yenə orada.

Müxtəlif ictimai, siyasi və elmi sahələrdə görülməsi lazım olan işlərdən biri də ifadə bildirmək üçün tələbəyə imkan yaratmaqdır. Fikir bildirməkdən qorxmaq lazım deyil. Universitetlərdə bizim dediyimiz bu azad diskussiyalar keçirilməlidir. Əgər siyasi, ictimai, hətta düşüncə və din kimi müxtəlif sahələrdə mühüm ixtisaslı mövzular sağlam mühitlərdə və güclü şəxslər tərəfindən incələnsə, onların ümumi və ictimai çevrələrdə müzakirəsindən gözlənilən ziyanlar qarşıya çıxmaz.

Adi camaatla üz-üzə gələndə hamı özünü qoruya bilmir. Adi camaatla üzləşmək insanları yayınmalara, tənəzzülə və çoxlu səhvlərə düçar edir. Təəssüf ki, biz bunlara şahid olmuşuq. Siz çoxlarını görürsünüz ki, adi camaat qarşısında bəlkə də ürəklərində çox da inanmadıqları bir sözü deyirlər; bəzilərinin ifadəsilə desək, məclisə düşürlər. Bu çox pis haldır. Əgər belə ixtisaslı, elmi və mübahisəli məsələlər xüsusi yerlərdə, azad elmi çevrələrdə bəhs olunsa, şübhəsiz, az hallarda ziyanlı olar.[100]

**Azad diskussiyaların səmərələri**

Mən dedim ki, universitetlərdə azad diskussiyalar təşkil edin. Siz gənclər nə üçün təşkil etmədiniz? Siz Tehran, Şərif, Əmir Kəbir universitetlərində azad siyasi, etiqadi debatlar keçirin. Bir neçə tələbə gedib orada sözlərini danışsınlar, bir-birinin sözünü tənqid etsinlər, bir-biri ilə mübahisə etsinlər. Həqiqət orada özünü göstərəcək. Həqiqət birinin bir tənqidi tullaması ilə aşkarlanmır.[101]

**Universitetin sənaye ilə əlaqəsinin əhəmiyyəti**

Cənabların birinin işarə vurduğu bu universitetlə əlaqə məsələsi çox mühümdür. Mən bir neçə ildir universtetlərə və dövlət orqanlarına tövsiyə edirəm ki, sənaye ilə universitet arasında güclü bir əlaqə bərqərar olunsun. Bizim universitetdə sənayeyə, sənayenin müxtəlif sahələrinə, məsələn, maşınqayırma sənayesinə məxsus elm mərkəzlərinin yaranıb onlara kömək etməsinə ehtiyacımız var.[102]

---

[100] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.
[101] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 2009.
[102] Maşınqayırma sənayesinin məhsullarına baxış keçirərkən etdiyi söhbətlərdən: 2010.

### İkinci fəsil: Müəllim və tədqiqatçılar

**Tədqiqatçının mükafatı bunlar deyil!**

Tədqiqatla məşğul olan, bir qrupu bu məclisə təşrif buyurmuş alimlər elmi tədqiqatı sözün həqiqi mənasında məchul həqiqətləri kəşf etmək üçün aparsınlar. Tədqiqat indiyədək məlum olmayan məsələni öyrənmək üçün araşdırma və çalışmadır. Tədqiqatçı təbii, elmi və fəlsəfi məsələləri, xarici və real dünyaya, yaxud insana, tarixə və bu kimi amillərə aid məsələləri araşdırır. Tədqiqatçı nəyin qarşılığında tədqiqat aparır? Nə alıb tədqiqat aparır?

Cavab budur ki, tədqiqatçı həqiqəti öyrənmək üçün tədqiqat aparır. Onun mukafatı budur. Pul, mal və hətta həvəsləndirmə tədqiqatçının mükafatı deyil. Bunlar onun tədqiqatı qarşısında kiçikdir. Əlbəttə, bunlar verilməli, pullar xərclənməli, işlər görülməli və imkanlar yaradılmalıdır ki, tədqiqat işi baş tutsun. Amma bunların heç biri tədqiqatın mükafatı deyil. Tədqiqatın mükafatı həqiqəti öyrənməkdir. Bunlar İslamın hökmləridir. Bunlar ümumi formada cəmiyyətin Allahla mənəvi əlaqəsinin başqa bir deyilişidir.[103]

**Elmin şərəfini qorumağın alim olmaqdan əhəmiyyətli olması**

Biz inqilab dövründə elmin şərəfini qorumayan elm iddiaçıları gördük. Mən həyatım boyu belələrini çox görmüşəm. Alim olmaq mühüm deyil, elmin və alimliyin şərəfini qorumaq mühümdür. Mən Şah Məhəmmədrzanın ayağına yıxılan yüksək səviyyəli məşhur müəllim görmüşəm. Müəllimlər sıra ilə düzülmüşdülər və Məhəmmədrza onların önündən keçirdi. Bu şəxs özünü onun ayaqlarının üstünə atdı. Generallar belə işlər görürdülər. Amma doğrudan da tədqiqatçı alim olan, çoxlu kitablar yazmış məşhur bir adamın bu hərəkəti qəribə idi. Şagirdləri onu qınadılar ki, müəllim, siz niyə? Axı o şəxs savadsızdır! Alimlər heç kimi qəbul etmirlər, siyasət onlar üçün problem deyil. Baxır görsün ki, kim

---

[103] Əsirlikdən azad olunan döyüşçülər, müharibə əlilləri, Məzlumlar Fondunun məsul şəxsləri, Təlim və Tərbiyə Nazirliyinin Tərbiyəvi işlər üzrə müavinləri, əməkdaşları və ölkənin bank işçiləri ilə görüşdə çıxışından: 1990.

alimdir. Ümumiyyətlə, alim üçün elmdən üstün dəyər yoxdur. Elm adamları yanında ən pis söyüş "savadsız" sözüdür. Bundan pis söyüş yoxdur. Bütün elm mərkəzlərində belədir. O alim isə bir cahilin və quldurun ayağına düşdü. Şagirdləri və dostları onu qınadılar, onun da cavabı yox idi, dedi ki, şah heybəti məni tutdu. O zaman bu söz bizim dostlarımızın gedib-gəldiyi universitetlərdə dillər əzbəri olmuşdu. O zamanın alimləri iki qismə bölündülər: şah heybətinin tutduğu və elmdən başqa heç bir heybətin tutmadığı alimlər.

Əlbəttə, o zaman onun kimi digər alimlərimiz də vardı. Onlar hətta yoxsulluğa dözürdülər, lakin onlara sarı baxmırdılar da, nəinki ayaqlarının üstünə düşsünlər, yaxud əllərini öpsünlər və ya onların qarşısında əyilsinlər. Xeyr, ümumiyyətlə, özlərini cahil və elmsiz qüvvələr haqda düşünməkdən, pula və maddiyyata bulaşmaqdan üstün bilirdilər.

Həyatlarını hakimiyyət qarşısında belə rəzilliklə keçirənlər indi İslam Respublikasında boynuyoğunluq edirlər. Bu boyunun dəyəri yoxdur. Bu, boyun qaldırmaq deyil. Elə boynu qaldırmaq yaxşı və fəxrlidir ki, uca olduğunu göstərmək olsun. Elmin dəyərini qorumayan şəxslər iddiasız, xalqdan, xalq üçün olan, xalqın xidmətində duran, din və hidayət əsasında çalışan, yadların, Amerikanın və başqalarının nökəri olmayan bir xalq quruluşuna növbə çatdıqda qəfildən bunların baş və boyun qaldırmaq növbələri də çatdı və onunla qarşı-qarşıya dayandılar. Bunların başından vurmaq lazımdır. Bunlara alimlər sırasında yer vermək elmə hörmətsizlikdir. Elmə əsaslanan quruluşun hörmətini saxlamayan bu quruluşda təmsil olunan xalqın da hörmətini saxlamaz. Bunları yaxşı tanıyın.[104]

**Şəxsi maraqların meyar olması tədqiqata təhdiddir**!

Həqiqətən ümumi mədəniyyət sahəsində işləmək üçün önümüzdə geniş arena vardır. Cəmiyyətdə sözün həqiqi mənasında iqtisadi inkişafa nail olmaq üçün də mədəni fəaliyyətə ehtiyac var. Bizim hətta tədqiqatçımız da iş mədəniyyətinə, işçi vicdanına malik olmasa, işini

---

[104] Səhiyyə Naziri və ölkənin tibb universitetlərinin rektorları ilə görüşdə çıxışından: 1990.

sevməsə, faydasız olar; böyük tədqiqatçılar yetişdirsək və onlar üçün mühüm laboratoriyalar ayırsaq da, bu, yalnız şəxsi bir iş həddində qalar.

Biz dünyanın böyük tədqiqatçılarının - istər əsrlər öncə bizim aramızdan baş qaldıran şəxslərin, məsələn, ibn sinaların, xarəzmilərin, xəyyamların və digərlərinin, istərsə də son əsrlərdə avropalıların arasından baş qaldıranların, məsələn, kimya, təbiət, astronomiya və digər sahələrin böyük alimlərinin həyatına baxdıqda, özlərini həqiqətən unutduqlarını görürük. Onlar öz şəxsi həyatlarını, rahatlıqlarını, pul və maraqlarını ümumiyyətlə, ikinci plana keçirmişlər; unutmasalar da, ən azı əsas bilməmişlər. Bəziləri bunları unudub tədqiqatın, elmin, işin və inkişafın xeyrinə yoxsulluq və səfalət içində yaşamışlar. Bəziləri də ən azı, tədqiqata, elmə, işə və inkişafa əhəmiyyət vermiş və öz şəxsi həyatlarını əsas bilməmişlər, onu bir qədər kənara qoymuşlar.[105]

**Tədqiqatda gözütoxluq və iddiasızlıq**

Muzdsuz və ixlaslı tədqiqat ruhunu aşılamalıyıq ki, tədqiqat üçün mükafat gözləməsinlər. Çünki ümumiyyətlə, tədqiqatın həqiqi mükafatı yoxdur. Məsələn, insan mikrobu kəşf etdiyinə görə Pasterə pul vermək istəsə, sizcə nə qədər verməlidir? Ümumiyyətlə, onun üçün pul təyin etmək olar?! Bu, müqayisə olunasıdır?! Buna görə, Paster kimilər də heç zaman pul üçün tədqiqat aparmamışlar. Əgər pul üçün tədqiqat aparsaydılar, doğrudan da bu yerə çatmazdılar. Avropalıların belə üstün cəhəti vardı. Bizim qədim alimlərimiz də belə olmuşlar. Baxın, Məhəmməd ibn Zəkəriyya Razi kimi böyük alimlər yoxsulluqdan ölürlər, amma bizlər bir iş görəndə tez deyirik ki, pulu nə qədər oldu? Məlumdur ki, bir yerə çatmayacağıq.[106]

**Tədqiqat işi pulla ölçülmür!**

Elm işi və elm sahəsi həqiqətən cihad meydanı və böyük bir səngərdir. Bunu həm müəllimlərə tövsiyə etməlisiniz, həm də

---

105 Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1990.

106 Mədəniyyət və Ali Təhsil Naziri, nazirliyin əməkdaşları və bir neçə universitet rektoru ilə görüşdə çıxışından: 1990.

tədqiqatçılara. Onlar tədqiqat işini pulla ölçməməli və bununla da ölkəmiz, əziz xalqımız və mövcud istedadlar inşallah öz həqiqi mövqeyinə çata bilməlidir. İnşallah bu dövrdə elm sahəsində həqiqi hərəkət etməliyik.[107]

**Alimin xüsusiyyəti: elmə hörmət**

Alim öz elminə hörmət tanıyan şəxsdir. Dünyada hər şey belə deyil. Amma alim və bilikli insanın xüsusiyyəti belədir ki, öz elminə və biliyinə hörmət tanıyır, elminə, biliyinə və məlumatına hörmət göstərildiyi və qədrinin bilindiyi yerə gedir.[108]

**Bizim çatışmazlığımız: elm və tədqiqat işində vicdan**

Yaxşı, nəyə ehtiyacımız var? Həqiqətən bu gün bu ölkədə bizim nəyə ehtiyacımız var? Nəyimiz çatmır? Universitetlərdə və tədqiqat mərkəzlərində nə etməliyik? Bunu həqiqətən bilmək lazımdır.

Bizim elmimiz, tədqiqatımız azdır, bundan üstünü, elm və tədqiqat işində vicdan azdır. Elmi inkişaf etdirməyə hazır olmayan alimlər var; nə elmin özünü inkişaf etdirmək istəyirlər, nə onu cəmiyyət miqyasında, xalqın beyin və düşüncəsində genişləndirib dərinləşdirmək. Əgər biz bu məmləkət üçün bir iş görmək istəməyən minlərlə belə alim yetişdirsək, kifayətdir?! Məsələn, həkimdirsə, klinika açmasın, başqa bir fəndədirsə, xalqa xidmət göstərməsin. Biz bu gün dünyada sürətli elm maşını qarşısında qalmışıq. Bu elm maşını artan sürətlə irəliyə doğru hərəkət halındadır. Bu gün bəşəriyyət bir neçə il ərzində elmi keyfiyyət və kəmiyyət baxımından bəşərin elm tarixi boyunca öyrəndiyi və inkişaf etdiyi qədər irəliləyir. Bu, azdır?! Bu, kiçik məsələdir?!

Əgər biz ölkəmizin və xalqımızın bir toplum və xalq kimi öz insani mövqeyinə ucalmasını istəyiriksə, bu karvanda və bu sürətli hərəkətdə bitərəf müşahidəçilər kimi tamaşa edə, sonra da gedib digərlərinin səyinin

---

[107] Mədəniyyət və Ali Təhsil nazirliyinin məsul şəxsləri ilə görüşdə çıxışından: 1992.

[108] Şərqi Azərbaycan vilayətinin ədəbiyyatçıları, şairləri və sənət adamları ilə görüşdə çıxışından: 1993.

və elminin məhsulundan istifadə edə bilərikmi?! Belə olar?! Bu mümkündür?! Qətiyyətlə mümkün deyil, imkansızdır.[109]

**Diplomçuluq və maddiyyat - yeni elmlərin xüsusiyyəti**

Təəssüf ki, ölkəmizdə bu böyük nöqsan vardır. Mən bir neçə il bundan qabaq prezident iqamətgahında olarkən tədqiqatçıların bir qrupuna dedim: İnsan bir elmi-tədqiqat qrupunun tədqiqat işini pulla gördüyünü müşahidə etdikdə həqiqətən təəssüflənir; yəni pul alıb tədqiqat aparmalıdırlar. Bu çox üzücüdür. Mən dünyada elmi inkişaf etdirən şəxsiyyətlərin – istər əksəriyyəti iranlı, şərqli və müsəlman olan qədimkilərin, istər əksəriyyəti qərbli, avropalı və amerikalı olan yenilərin həyatını mütaliə edəndə görürəm ki, hər hansı bir elmi bir addım irəliyə aparmağı bacaranlar bu elmin maddi qarşılığından üstünü barədə fikirləşən və özlərini ona həsr edən şəxslər olmuşlar.

Siz universitetdə bu ruhiyyəni dirçəltməlisiniz. Tələbəni əvvəldən elə yetişdirin ki, yalnız ona verilən bir kağız parçasını alıb işə düzəlmək üçün dərs oxumasın. Bu doğrudan da böyük bir eyibdir. Yeni elmləri ölkəmizə daxil etdikləri ilk gündən bu xüsusiyyətlə daxil etdilər və bu, ölkəmizdə yeni elmlərin xüsusiyyətinə çevrildi: kim gedib o elmləri öyrənirsə, gərək maddi qarşılıq, maaş almaq və hansısa yerdə işləmək üçün olsun. Bu çox pisdir. Bacardığınız qədər bunu dəyişdirməlisiniz.[110]

**Yeni məlumatlarla tanış olmayan elm adamları**

Təəssüf ki, bu gün ölkəmizdə vəziyyət belədir; xalqın əksəriyyəti kitabla çox da maraqlanmır, böyük azlığın isə kitabla heç bir əlaqəsi yoxdur. İnsan hətta bəzi elm adamlarının da kitabla geniş və düzgün mənada məşğul olmadığını hiss edəndə çox təəssüflənir. Yəni yalnız öz məlumatlarından və yaddaşlarında olanlardan istifadə edib müxtəlif universitetlərə gedir və həftədə on saatlarla müxtəlif siniflərdə dərs deyirlər. Nəticəsi də budur ki, bir elm adamı tədricən donur. Yəni dəyərli,

---

[109] Universitet rektorları ilə görüşdə çıxışından: 1993.
[110] Yenə orada.

başadüşən və məlumatlı bir insan yeni kitab və məlumatlarla daimi əlaqəsinin olmadığına görə tədricən donuq formaya düşür.

Mənim fikrimcə, bütün bu işlərin çarəsi odur ki, hər hansı bir sahədə elm, mədəniyyət, qələm və tədqiqatla məşğul olan şəxslər yazmağa həvəslənsinlər. Çıxış yolu budur.[111]

**Dünyada uğurlu tədqiqatçıların məqsədi**

Şəhid Mütəhhəri elə insanlardan idi ki, yalnız müqəddəs bir vəzifəyə görə işləyir və dərs deyirdi, kimsə onu bu işə vadar etmir, yaxud ondan bunu istəmirdi. Əlbəttə, dünyanın əksər tədqiqatçıları belə olmuşlar, dünyanın bütün elmi inkişafları da belə əldə olunmuşdur; kimlərsə eşqlə, yaxud imanla, yaxud hər ikisi ilə işləmişlər. Ya işə eşq olmalıdır, ya ilahi savaba iman, ya da hər ikisi. Siz hər ikisinə malik ola bilərsiniz.[112]

**Tarixi tədqiqatlarda ölkənin ehtiyaclarına diqqət**

Bizim dövrümüzdə görülən işlərin, tədqiqatların, yazılan monoqrafiyaların çoxu əslində vacib, lazım və zəruri olmayan təmtəraqlı tarix tipindəndir. Yazdıqları hekayə və xəbər olsa da – yəni onda tarixin mənası görünür – çox zaman adi suallara cavab vermir, yalnız iki-üç vasitə ilə və ancaq tədqiqatçılara yarayır. Məsələn, müasirlərdən biri Böyük Atabəyin qatili barədə tədqiqat aparıb əsər yazmışdır. Təbii ki, sualdır və cavabı var, amma bu sual bir xalq, bir nəsil və bir ölkə üçün nə qədər zəruri və ehtiyac duyulandır ki, tədqiqat aparaq və atabəyin qatilini tapaq? Müasir tarixdə belə xırdalıqlar az deyil. Bəzi tarixçi və tədqiqatçılar belə məsələləri araşdırmışlar. Başqa sözlə desək, araşdırılmış bəzi mövzular ehtiyac duyulan həqiqi suallara cavab deyil.

Mənim fikrimcə, tarix haqda ilkin təsəvvürə baxsaq, elə iş lazım və zəruri görünər ki, onunla həqiqətən Allaha yaxınlaşmaq niyyəti mümkün olsun; yəni ilahi məqsədlər istiqamətində qərarlaşa bilən işlərdən olsun. Başqa sözlə desək, mömin tədqiqatçı əbəs işlərlə məşğul olmaq istəmir,

---

[111] İlin nümunəvi kitablarının naşir və müəllifləri ilə görüşdə çıxışından: 1993.

[112] Beynəlxalq Əmək Günü və Müəllim həftəsində fəhlə və müəllimlərlə görüşdə çıxışından: 1994.

özünün hər bir işi üçün ölüm və həyat sərhədlərinin o tayında bir xeyrin təcəssüm olunduğunu bilir və tarix haqda ilkin təsəvvürlə mövzu ətrafındakı suallara cavab verə bilir.[113]

**Pəhləvi dövrünün görkəmli alimlərinin rejimə xidmət etməsi**

Mən çox mənfur və uğursuz Pəhləvi sülaləsinin əlli ildən artıq sürən hakimiyyəti dövrünə baxdıqda görürəm ki, bu dövrün əvvəllərində elmi baxımdan geri olsaq da, geri olmadığımız və o zaman yayılmış müxtəlif sahələrdə alimlərimiz vardı: yaxşı yazıçılar, dahilər, alimlər, şairlər, ədəbiyyatçılar və tədqiqatçılar. Bunlar qeyri-hövzə alimləridir, hövzə alimləri heç. Hətta onların arasında alim olan və güclü təsir buraxan siyasətçilər də vardı. Həmin ədiblərin, alim və mütəfəkkirlərin ən qabaqcılları təəssüf ki, siyasi baxımdan yaxşı vəziyyətdə olmadıqlarından, Pəhləvi rejiminə xidmət etdilər, onların hakimiyyətini gücləndirdilər. Yəni bu məşhur simalardan bir neçə nəfəri, məsələn, Zəkaülmülk Füruğini, Müşirüddövləni, dövrünün siyasətçi, alim və mütəfəkkirlərindən olmuş bu kimi şəxsləri Pəhləvi hökumətindən alsaydılar, heç şübhəsiz, onlar bu məmləkətdə bir neçə ildən artıq qala bilməzdilər.[114]

**Müəllimlərin mütaliəsi azalmışdır!**

Başqa bir məsələ müəllimlərin mütaliəsi məsələsidir. Düzdür, bizim müəllimlərimizin çoxlu problemləri var. Doğrudan da onların dərdinə şərik olmaq lazımdır. Mən sonra bu mövzuya toxunacağam, lakin nəticə budur ki, müəllimlərin işində mütaliə azalıb. Mən özüm uzun illər tədris etmişəm. Əgər müəllim mütaliəsiz dərsə getsə, yaddaşındakılar nə qədər çox olsa da, demək üçün bir şeyi olmayacaq.[115]

**Yeni elmlərdə müəllimin mütaliəsinin həyati rolu**

Mütaliə başqa bir şeydir; xüsusən bəzi elmlərdə mütaliə yeni bilgilər öyrənmək deməkdir. Yəni onun mütaliə etdiyi kitab həmişə qabaqkı illərdə,

---

[113] Məzlumlar fonduna bağlı olan İranın Müasir Tarixini Araşdırmalar İnstitutunun tədqiqatçıları ilə görüşdə çıxışından: 1996.
[114] Təlim və Tərbiyə Naziri və nazir müavinləri ilə görüşdə çıxışından: 1997.
[115] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.

yaxud təhsil dövründə oxuduğu olmur. Bizim öyrətdiyimiz kitablar və verdiyimiz dərslər özümüzün bir neçə il əvvəl oxuduqlarımız idi. Lakin indi elə deyil və bu elmlər fərqlidir. Bu elmlərdə mütaliənin həyati rolu var. Amma müəllim vaxt tapmasa, misal üçün, həftədə 40-45 saat dərs desə, mütaliəyə vaxt qalmayacaq.[116]

**Müəllimin tələbəyə vaxt ayırması**

Başqa bir məsələ budur ki, müəllimlərin tələbələrlə məşvərət saatları azdır. Biz əvvəllər hövzədə deyirdik ki, tələbə müəllimin dalınca düşsə, onunla evinə, yaxud növbəti tədris yerinə qədər getsə, bir şey öyrənər, belə etməsə, öyrənməz. Çünki müəllim dərsini deyir və gedir. Halbuki universitetdə hər bir müəllimin otağı var. O, otaqda oturur və tələbələr ona müraciət edirlər. Biz bunu universitetin hövzəyə nisbətən üstünlüklərindən hesab edirdik. İndi isə görürük ki, hövzə və universitetin birliyi başqa cür alınıb, müsbət xüsusiyyətlərin əvəzinə bu xüsusiyyətlər bir-birinə keçib. Müəllim vaxt ayırmalı, tələbə də ondan bəhrələnməlidir. Siz görün bu iş tələbədə elmə necə həvəs yaradar və müəllimi nə qədər inkişaf etdirər.[117]

**Dərs saatına müəllimlər tərəfindən riayət olunması**

Başqa bir məsələ dərs saatına riayət etməkdir. Mən eşitmişəm ki, universitet müəllimləri bu məsələdə çox da dəqiq deyillər. Sinfə çatdıqda şagirdlərin gecikmə dəqiqələrini bir-bir qeyd edən, sonra lövhə üzərinə yazan, yaxud özlərinə verib dərsə gecikdiklərini xatırladan müəllim nə yaxşıdır! Bəziləri bunu edirdilər. Lakin indi müəllimin özü dərsə 10-15 dəqiqə, yaxud daha artıq gecikir. Bunlar ilk baxımdan çox kiçik görünür, lakin ümumilikdə bir dərya olur. Nəticəsi və yekunu zamandan münasib istifadə etməmək və vaxta uyğun elmi bəhrələr götürməməkdir.[118]

**İnkişaf üçün möhkəm insanların zəruriliyi**

---

[116] Yenə orada.
[117] Yenə orada.
[118] Yenə orada.

Siz əziz cənablar - istər məmurlar, istər elmi şura üzvləri bütün səyinizi ölkənin inkişafına sərf etməli və dayanmamalısınız. Ölkənin inkişafa, inkişafın da möhkəm və güclü insanlara ehtiyacı var. Möhkəm və güclü insanlar mənəvi bünovrə baxımından möhkəm olanlardır və təbii ki, bu möhkəmlik imanla, mənəviyyatla, amallara könül verməklə və məqsədləri unutmamaqla əldə edilir. Tədqiqat və elm də inkişaf üçün vacib vasitələrdir.[119]

**Çətin elmi tədqiqatlarda imanın həvəsləndirici olması**

Ölkəmizdə başqa bir müsbət amil vardır və o, dindarlıqdır. Son onilliklərdə, xüsusən də on doqquzuncu əsrdən bu yana dindarlığın elmə və elmi inkişafa mane olduğunu təlqin etməyə çalışmışlar. Lakin həqiqət bunun əksinədir. Elmi inkişafın bir növ imana ehtiyacı var. Laqeyd, özbaşına, tüfeyli, nağd və şəxsi gəlirin ardınca qaçan adətən çətin elmi tədqiqatla məşğul olmur. Əgər iman insanın qəlbinə hakim olsa, bu onun çətin elmi tədqiqata sarı getməsinə kömək edər. Çünki elmi tədqiqat işi şirin olmaqla yanaşı, həm də çətindir, problemləri var. Görürsünüz ki, bir bazar dəllalı nə qədər qazanır, alim isə belə deyil. Alimin qanı qarala bilər ki, məsələn, məişət imkanları aşağıdır, lakin qəlbində nəyin bahasına olursa-olsun, bu vəziyyətini o alverçinin vəziyyəti ilə dəyişməyə razı olmaz. Əsla mümkün deyil desinlər ki, sən elmini ver, onun pulunu al və o da razı olsun; yəni elmin qədrini alim bilir. Deməli, elmi işlə məşğul olmağın əziyyəti, bəzən məhrumluğu və problemləri var. Əgər insanın qəlbinə iman hakim olsa, onun bu çətin yolu qət etməsinə kömək edər.[120]

**Universitet tədrisi sayəsində dini tərbiyə**

Sinifdə başqa bir fənni tədris edən müəllim elə danışıb rəftar etsin ki, tələbə bu elmi öyrənmək sayəsində dinə də etiqadlı olsun. Bu çox yaxşı olar və çox mühüm məsələdir. Mənim xəbərim var ki, bəzi mömin müəllimlər öz siniflərində bu üsulu icra edirlər və çox yaxşı təsirləri də var.

---

[119] Bazar ertəsi görüşlərində Əmir Kəbir adına Sənaye Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışından: 1999.

[120] Ölkənin elmi nümunələrilə görüşdə çıxışından: 1999.

Bunun əksi də mümkündür. Universitetlərimizdə elə adamlar tanıyırıq ki, əllərinə düşən hər bir fürsətdən insanların beynindəki dini əsas və etiqadları uçurmaq üçün istifadə edirlər. Bu, təhlükəli və çox pisdir. İndi bu mənfi və pis hissə ilə işim yoxdur. Bu başqa bir mövzudur və hər bir şəxsin vəzifəsi üzərinə düşən işi görməkdir. Mən burada iştirak edən siz müəllim, alim və mütəxəssis qardaş və bacılara xatırlatmaq istəyirəm ki, bu, siniflərdə yaxşı bir ənənə formasına düşsün, müəllim özünü tələbənin və tərəf-müqabilin dini qarşısında da məsuliyyətli bilsin. Əgər gəncləri dindar yetişdirə bilsəniz, onun və ölkənin gələcəyinə xidmət etmiş olarsınız.[121]

**Universitet - tədqiqatın və elmi müzakirələrin yeri**

Mən universitet rektorlarına və müəllimlərə dəfələrlə demişəm ki, universitetlər elm mərkəzi olmalıdır, orada müəllimin borcu yalnız sinfə getmək olmamalıdır. Faydası yoxdur ki, oraya gedib ibtidai, yaxud orta mətkəb kimi dərs desin, sonra da yola düşüb getsin. Belə olmaz. Universitet tədqiqat və elmi mübahisə yeridir. Müəllim orada oturmalı, tələbə gedib soruşmalı, mübahisə və fikir mübadiləsi aparmalıdır. Yəni mühiti elmi mühit etməlidirlər. Qiymət vermək, dərs oxumaq, dərs demək, tədqiqat işlərinin və fənlərin seçimi qayda əsasında olmalıdır. Bunlar vacibdir və təbii ki, sizin işlərinizdir.[122]

**İndiki humanitar elmlərin əsaslarının nöqsanı**

Mənim qumlu cənabların işinə işarə vurmağım bundan ötrü idi ki, bunlar bir müddət öncədən universitetlərdə olan humanitar elmlərin qeyri-islami bilgilər əsasında qurulduğuna diqqət yetirmişdilər və bu elmləri İslamın elmi əsasları üzərində yazmaq və araşdırmaq istəyirdilər. Bu baxımdan, onların işi sizə çox yarayar. Qeyd etdiyiniz kimi, Şəhid Mütəhhərinin əsərlərinin özü dərs və universitet üçün planlaşdırılmış əsərlər deyil, xammal kimidir. Bunları tərtib etmək və insanların ixtiyarına buraxmaq lazımdır. Təbii ki, bunları bizim universitetlərimizdə olan humanitar elmlərə hakim etmək və bu gün universitetlərdə tədris olunan

---

[121] Universitet rektorları və müəllimlərlə görüşdə çıxışından: 1999.
[122] Uiversitet müəllimləri ilə görüşdə çıxışından: 2000.

dərslərin elmi köklərinin eybini göstərmək istəsəniz, Hövzə və Universitetin Əməkdaşlığı Dəftərxanasının Qumda gördüyü işi görməlisiniz. Hər halda, mən işi çox yüksək qiymətləndirirəm.[123]

### Universitetlərdə elm və tədqiqata həvəsi artırmaq

Mənim fikrim budur: Universitetlərin ən vacib işi öz daxillərində elm və tədqiqatdan ikiəlli yapışmaqdır. Cənab Təhsil nazirinin özü də bizdən gözləyir ki, bunu yüksək məmurlara deyək. Biz də deyirik; həm onlara deyirik, həm yuxarıdakı məmurlara deyirik, həm də millət vəkillərinə tövsiyə edirik ki, kömək və dəstək üçün bir iş görsünlər. Lakin mənim fikrimcə, sizin üçün əsas məsələ budur ki, universitetlər daxilində tələbədə elm və tədqiqat ruhunu həqiqətən gücləndirəsiniz. Tələbənin işi yalnız sinfə gəlib dərsi eşitmək və getmək deyil. Tələbə müəllimin sözündən, davranışından, həyat tərzindən tədqiqatın birinci və əsas dəyər olduğunu öyrənməlidir. Əlbəttə, buna cavab olaraq tez demək olar: Ağa, pul necə olsun? Bəli, sözsüz ki, bu sual və iradın qarşısında cavabım yoxdur. Əgər biz dünyada hər şeyi pulla müqayisə etsək, bu sözə cavab olmaz. Lakin elə dəyərləndirmə aparmaq olar ki, hər şey pulla ölçülməsin, insan bilikli, alim olmanın özünün bir dəyər olduğunu hiss etsin.[124]

### Tədqiqatın pulla dəyərləndirilməsinin inkişafa mane olması

İndi həqiqətən yoxsulluq içində, orta həyat tərzi ilə və hər bir insanın normal şəkildə malik olduğu təminatla keçinən və ona razı olan şəxslər var. Çünki elmə sahib olduqlarını hiss edirlər. Deyir ki, mən aliməm, bu pullu insanın nə dəyəri var?! O, qəlbində pullu insan üçün ümumiyyətlə, dəyər tanımır, düşünür ki, həqiqi dəyər ondadır, onun elmi və tədqiqatı dəyərdir.

Mənim fikrimcə, biz universitetlərdə bu hissi artırmalıyıq. Bu da daha çox sizin öhdənizə düşür. Gənc tədqiqat aparmalı və ən azı qısa müddətdən sonra onun əskinasa çevrilməsinə çalışmamalıdır. Belə deyil ki,

---

[123] Bazar ertəsi görüşlərində İmam Sadiq (ə) Universitetinin Ustad Şəhid Mütəhhəri layihəsinin Maarif şöbəsinin əməkdaşları ilə görüşdə çıxışından: 2000.

[124] Şərif Sənaye Universitetinin məsul şəxsləri və müəllimləri ilə görüşdə çıxışından: 2000.

biz nə iş görsək, pul dəyərinin nə qədər olduğunu düşünək. Əgər belə olsa, tədqiqatın təməli zəifləyər, inkişaf baş verməz və dərs oxumazlar.[125]

**Elmi nümunələrin və tələbə qruplarının müəllimlərdən gileyi**

İnsafla desək, universitetin özünə və daxilinə aid sahə də böyük rola malikdir. Mənim təkidim budur ki, ölkədə elmin bayraqdarı olan möhtərəm müəllimlər indiki dövrdə özlərini doğrudan da məsuliyyətli bilsinlər. Mənimlə ayrı-ayrı vaxtlarda və müxtəlif yerlərdə görüşən gənc və tələbə qruplarının bəzisi gileylənirlər, etirazları var. İradlarından biri budur ki, bəzi müəllimlərin hazırladığı dərs vəsaitləri zəifdir, tələbənin o elmdə ehtiyacı olan məsələləri ehtiva etmir. Onların başqa gileyi budur ki, müəllimlər tələbələrlə məşğul olmurlar, yalnız dərs deyirlər. Bu məsələni mən möhtərəm müəllimlərlə görüşümdə 2-3 dəfə vurğulamışam.[126]

**Müəllimlər və tələbə ilə dərsdən əlavə işlər**

Düzdür, bilirəm ki, bəzi müəllimlər məişət problemləri və bəzi sıxıntılarla bağlı çox dərs götürməyə məcburdurlar. Bunu bilir və qəbul edirəm. Amma hamı belə deyil. Mən xahiş edirəm ki, əvvəla tələbə ilə dərsdən artıq işləyin, əlaqə yaradın, onu işləməyə vadar edin, tədqiqat mövzuları ilə tanış edin. İkincisi isə müəllim və tələbə arasında elmi müzakirə də çox mühüm məsələdir.[127]

**Müəllimin tələbəyə mədəni və etiqadi təsirləri**

Başqa bir məqam tələbələr barədədir. Mən müəllimlə tələbə arasındakı əlaqədə bir boşluq müşahidə edirəm. Bu boşluq sizin vasitənizlə doldurulmalıdır. Bizim tələbəmiz müəllimdən elm öyrənməklə yanaşı, başqa çoxlu dərslər də öyrənə bilər. Bu dərslərə misal olaraq, milli qüruru, vətənə sevgini, ölkənin gələcəyinə vurğunluğu, ölkənin tarixi və keçmişi ilə fəxr etməyi göstərmək olar. Bunlar bir tələbə gəncdə çox dərin və müsbət təsirlər buraxan amillərdir.

---

125 Yenə orada.
126 Ölkə universitetlərinin müəllimləri ilə görüşdə çıxışından: 2002.
127 Yenə orada.

Əlbəttə, mən bir gənci soyudub məyus edən müxtəlif amilləri inkar etmək fikrində deyiləm. Bunlar da öz yerində mövcuddur. Lakin bu da görməzliyə vurulmamalıdır ki, müəllim sinifdə tələbəsini dindar və dinə etiqadlı yetişdirə bilər. Necə ki, onu ateist və bütün müqəddəsləri inkar edən kimi də yetişdirə bilər; sinif elm və din sinfi olmasa da, fizika, biologiya, tarix və hər hansı başqa bir sinif olsa da.

Müəllim tələbəni ölkəyə bağlı və onunla fəxr edən bir insan kimi də yetişdirə bilər, laqeyd, həvəssiz, vətəninə, keçmişinə və gələcəyinə maraqsız da.

Mənim fikrim budur ki, tələbəni din əsaslarına yönəldən ən təsirli vasitə bir müəllimin sinifdə öz şagirdləri ilə bir araya qoyduğu həmin məqamlar, işarə və sözlərdir. Sizin alim etmək istədiyiniz, elm və tədqiqat ruhunu üfürmək və bir elmi şəxsiyyət kimi yetişdirmək istədiyiniz gəncə - hər bir müəllimin öz şagirdləri üçün belə arzusu var - din və iman ruhu aşılamaq lazımdır; həm dünya və axirəti üçün faydalı olan Allaha, dinə və müqəddəslərə iman, həm də özünün milli və tarixi kimliyinə iman.[128]

**İnqilabdan sonra müəllim və tədqiqatçıların elmi səviyyəsinin yüksəlməsi**

Bu gün ölkəmizdə yaxşı müəllimlərin səviyyəsi 15-20 il bundan qabaqkı və inqilabdan öncəki dövrə nisbətən çox fərqlənmiş və artmışdır. Universitet işindən məlumatı olanlar da bunu təsdiq edirlər. Bu gün mənə ölkənin bir sıra universitetlərində bizim müəllim və tədqiqatçılarımızın səviyyəsinin çox yüksək olmasına dair məlumat verdilər. Onlar dünyanın yaxşı universitetlərindən sayılırlar. Bu, İslamın və inqilabın nailiyyətləridir. İnqilabdan qabaq nə bizim universitetlərimiz, nə də tələbə və müəllimlərimiz bu vəziyyətdə idilər. Allaha şükür olsun ki, iş üçün əlverişli şərait yaranmışdır.[129]

**Elmi inkişafa lazım olan amillərdən biri: müəllimlərə hörmət**

[128] Şəhid Behişti Unversitetinin müəllimlərilə görüşdə çıxışından: 2003.
[129] Elmi nümunə tələbələrlə görüşdə çıxışından: 2003.

Bu məclislər birinci növbədə müəllimlərə hörmət üçün təşkil olunur. Bu, simvolik bir işdir. Biz bununla müxtəlif sahələrin müəllimlərinə, ölkədə elm və universitet işinin həqiqi və mənəvi icraçılarına sevgi və hörmətimizi göstəririk. Bilirik ki, elmi inkişaf etdirmənin bir neçə şərtindən biri alimə hörmətdir. Buna görə, əməli surətdə bu hörməti bildirmək istəyirik.[130]

**Universitetlərdə yaxşı və güclü müəllimlər**

Xoşbəxtlikdən, ölkəmizdə çox yaxşı müəllimlər var. Təxminən bir il öncə çox yaxşı və etimadlı qardaşların vasitəsi ilə Mədəni İnqilab Ali Şurasında bir araşdırma aparıldı. Onun nəticələrini mənə verdilər. O məlumatda gördük ki, ölkəmizdə və universitetlərimizdə təhsil və tədqiqat imkanlarının vəziyyəti müəllim baxımından inkişaf etmiş dünyadan çox da zəif deyil. Bizim çox yaxşı müəllimlərimiz var. Səbəbi də bu gün cənab Doktor Tofiqinin sözlərində deyiləndir: istedad. Bəlkə on ildir əlimdə olan məlumatlar və statistik rəqəmlər əsasında istedad üzərində təkid göstərirəm. O dedi ki, beynəlxalq tədqiqatlar mərkəzlərinin hansında iranlılar varsa, təqdir olunurlar. Bəli, elədir. Bu sahədə mənim də çoxlu məlumatım var. Biz istedadlı xalqıq. Əsla qəribə deyil ki, bizim müəllimimiz yüksək istedadına görə, bir qədər çalışmaqla daha artıq nailiyyət əldə etsin. Bizim görkəmli və yaxşı müəllimlərimiz var. Bu baxımdan çatışmazlığımız yoxdur.[131]

**Bir universitet müəlliminin qəti xüsusiyyətləri**

Sizin işinizdə başqa bir məqam universitet müəllimləri məsələsidir. Müəllimin çox mühüm və təsirli rolu var. Bu sahədə həm siz, həm universitetlərin idarə heyətləri çox məsuliyyət daşıyır. Müəllim tələbələrə təsir göstərə bildiyindən, onun üçün bəzi xüsusiyyətlər lazımdır. Bunlara imkan həddində mütləq əməl etməniz lazımdır. Ən azı tam şəkildə olmamasına, yaxud əksinin olmasına əsla razı olmayın. Müəllim İslama, inqilaba, milli və dini qürura eşqlə dolu olmalıdır. İdeal müəllim budur.

---

[130] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.
[131] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışından: 2005.

Müəllim doğrudan da milli qürur və dini qeyrət hissi keçirməlidir, xidmət ruhu ilə alışıb-yanmalıdır. Yəni doğrudan da işləmək istəsin, gəncləri öz uşaqları kimi yetişdirsin. Laqeydlik və etinasızlıq halı, başdan etmək və sinfi necə gəldi keçirmək əsla qəbuledilməzdir. Müəllim yaradıcılığın və yeniliyin müdafiəçisi olmalıdır.[132]

**İnqilabdan sonra müəllimlərin kəmiyyət və keyfiyyət artımı**

Allaha şükür olsun ki, bizim yaxşı müəllimimiz az deyil. İnqilabın əvvəllərində bizim müəllim çatışmazlığımız vardı, bu gün isə yoxdur. Allaha şükür olsun ki, müəllim çoxdur və bu gün onların çoxu bu xalqın öz yetirmələri, bu su və torpaqda böyüyənlərdir.[133]

**Elmi şəxsiyyətlərə hörmət**

Bizim hər il keçirdiyimiz bu məclisdə əsasən iki məqsəd güdülür. Bizim dostcasına və səmimi məclisimizin digər məqsədləri də ola bilər. O iki məqsədin birincisi müəllimə və ölkənin elmi şəxsiyyətlərinə hörmət bildirməkdir. Hər il burada bir neçə saatlıq nisbətən geniş toplantı keçirilir, möhtərəm müəllimlər bütün ölkədə yayımlanan ümumi tribunadan öz fikirlərini səsləndirirlər. Biz bununla möhtərəm müəllimə qarşı hörmətimizi elan etmək istəyirik. Bizim fikrimizcə, bu, mühüm bir məqsəddir. Əgər biz alimə hörmət bildirsək, elmə də hörmət olunacaq və elmə hörmət olunsa, inkişaf edəcək. Ölkəmizin gələcəyi üçün bizim buna ehtiyacımız var.[134]

**Ölkənin elmi inkişafı üçün görkəmli alimlərin fikirlərindən istifadə**

İkinci məqsəd budur ki, dostcasına, səmimi və adətən seminarlarda mövcud olan rəsmiliklərdən kənar bir məclisdə universitet işlərindən və ölkənin elmi vəziyyətindən xəbərdar olan alim və ziyalılar universitetlərin əsas problemlərini desinlər. Universitetlərin elmi cəhətləri və daha çox

---

[132] Yenə orada.
[133] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2006.
[134] Universitet müəllimləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2006.

müəllimlərlə əlaqədar məsələlər deyilsin ki, bu məclis, ölkənin elmi məmurları və onun ardınca bütün ölkə, universitetlərin mühüm məsələləri, ehtiyacları və bu sahədə gələcəyə baxışlarla tanış olsun. Bizim hər il belə məclisimiz olur. Mənim özüm şəxsən burada söhbət edən dostların fikirlərindən bəhrələnmişəm. Mənim üçün bəzi məqamlar aydınlaşıb və bunun ardınca münasib işlər görülüb.

Heç şübhə etməyin ki, biz son 10-12 ildə ölkəmizdə elmin, tədqiqatın inkişafı və müxtəlif yenilikləri sahəsində yeni bir hərəkəti təcrübə edirik. Bu hərəkət inqilabın əvvəlindən başlasa da, son illərdə daha artıq və daha yaxşı inkişaf etmişdir. Lakin bunlar hələ çox ilkin və ibtidai addımlardır. Buna görə, biz hələ də ölkədə elmi inkişaf etdirmək üçün sizin fikir, təklif və tənqidlərinizə ehtiyaclıyıq. Bu məclisdə həmin ehtiyacın bir hissəsi inşallah təmin olunacaq.[135]

**Xoşagəlməz elmi mövqeyə diqqət**

Mənim bu qısa fürsətdə deyəcəyim iki-üç məsələ və qısa bir xatırlatmadır:

Biri budur ki, biz universitet və elmin indiki ehiyacları barədə iki baxışdan və iki dillə danışa bilərik: bir dil həvəsləndirici, hərəkətə gətirən dildir, biri isə məyus edib işdən soyudan dil. Mənim xahişim budur ki, möhtərəm müəllim və məmurlar hər yerdə - sinifdə, elmi toplantılarda və məruzələrdə birinci dili işlətsinlər, ikincini yox.

Əlimdə olan və mənə verilən statistikaya əsasən, son bir neçə ildə bizim inkişafım sürətimiz dünya miqyasında birinci olmuşdur. Mən son zamanlar müraciət etməmişəm, lakin bu statistikanı təxminən bir ay yarım öncə görmüşəm. Hesablanmış, dəqiq və düzgün rəqəmdir. Ölkəmizin elmi inkişaf sürəti dünya səviyyəsində birinci yerdədir, təkcə bölgədə yox. Lakin indi aktual olaraq əlimizdə olan və çatdığımız mövqe çox da qaneedici deyil. Bu iki reallıq bir-birinin yanında olmalıdır. Hər ikisi düzgündür; həm bu gün bizim çoxlu çatışmazlıqlarımız var, dayandığımız yer bir iranlı, müsəlman, uzaq üfüqlərə və geniş baxışlara malik toplumu razı edəcək yer deyil, həm də sözügedən hərəkətimiz çox yaxşı və sürətli

[135] Yenə orada.

olmuşdur. Bu sürəti azalmağa qoymamalı, əlbəttə ki, həm də artırmalıyıq.[136]

**Müəllimlərin özünəinamı və işgüzarlığı - elmi inkişaf və yeniliyin yolu**

İkinci və mənim fikrimcə, əsaslı məqam budur: Buraya təşrif buyurmuş siz cənablar və xanımlar ölkə müəllimlərindən nümunələrsiniz. Bizim müəllimlərimizin elmin inkişafı üçün iradə göstərməli olduqları birinci məsələ bütün sahələrdə elmi cəsarətə yiyələnməkdir; həm humanitar elmlərdə, həm təcrübi elmlərdə, həm praktikaya və texnologiyaya yaxın sahələrdə, həm də fundamental elmlərdə. Nəzəriyyə yürütsünlər, istehsal etsinlər, yaratsınlar, tənqid etsinlər. Gözübağlı və təqlid formasında iş görmək olmaz. Keçmişdə həmişə problemimiz bu olub. Müxtəlif elmi sahələrə gözübağlı və təqlidlə baxmışıq ki, görək qərblilər nə deyirlər.

Düzdür, qərblilər elmdə bizdən ən azı iki əsr, iki əsr yarım öndə olmuş, çox möhtəşəm və inanılmaz yerlərə də çatmışlar. Bunda şübhə yoxdur. Biz də geri qaldıq; keçmişdəki bütün fəxrlərimizə rəğmən, tənbəlliyimizə və yanlış siyasətlərimizə görə geri qaldıq. Bunda şübhə yoxdur. Amma mən əvvələr də demişəm: Biz elmli bir şəxsin yanında şagirdlik etməyə utanmırıq, amma həmişə şagird qalmağı da düşünməməliyik. Təqlidi baxışın mənası isə budur: "Biz həmişə şagird qalmalıyıq!"

Yenilik lazımdır. Müəllimlərdə şəxsi və milli özünəinam zəruri məsələdir. Əvvəla bizim müəllimimizin şəxs olaraq özünə etimadı olsun, elmi iş görsün, öz elmi işinə arxalansın və onunla fəxr etsin. İkincisi isə, milli özünəinamı olsun, bu xalqın istedad və bacarıqlarına güvənsin. Əgər bir müəllimdə belə bir hal mövcud olsa, bu, hər yerdə - universitetdə, sinifdə, tələbəyə biliyin ötürülməsində öz tərbiyəvi təsirini buraxar. Üçüncüsü də çox işləməkdir. Biz bir qədər az işləməyimizə və tənbəlliyimizə görə müxtəlif sahə və səviyyələrdə ziyan görmüşük. İşləmək lazımdır, işdən yorulmaq olmaz. Deməli, yenilik və yaradıcılıq,

---

[136] Yenə orada.

elmi cəsarət, şəxsi və milli özünəinam və işdə yorulmazlıq bizim elmi inkişafımızın əlacıdır. Bu sözün ünvanı da universitet müəllimləridir.[137]

**Elmi nümunə yetişdirmək**

Müəllimlərin işlərindən biri şagird yetişdirmək olmalıdır. Müəllimin vücudu xaricindəki dəyəri və qiyməti şagirdlərinə görədir. Bizim elm hövzələrimiz də belədir. O fiqh, üsul, yaxud fəlsəfə müəlliminin daha çox dəyəri var ki, əsərləri dəyərli şagirdlər formasında özünü göstərsin. Şagird yetişdirin.

Sizin dərslərinizə gələnlər - istər bakalavr pilləsinin, istər yüksək pillələrin tələbələri gəlib otururlar və siz onlarla müəllim kimi rəftar edirsiniz. Siz onları bir çıxışın, yaxud bir minbərin dinləyiciləri saymamalısınız. Siz onlarla öz əlinizlə düzəltmək istədiyiniz bir sənaye məhsulu kimi rəftar etməlisiniz. Düzdür, istedadlar, həvəslər, müxtəlif şəraitlər eyni deyil, amma mənim fikrimcə, bu, müəllimlər üçün ciddi bir məqsəd olmalıdır. Baxın, görün nə qədər şagird yetişdirmisiniz. Şagird təkcə sinifdə oturan deyil, sizin vasitənizlə ərsəyə gələn və elm dünyasına təhvil verilən işgüzar və elmli kadrdır.[138]

**Müəllimlərin universitetdə olması**

Mən burada müəllimlərin universitetlərdə fəaliyyətinə dair bir məsələyə toxunmaq istəyirəm. Müəllimlərin həftənin müəyyən saatlarını mütləq universitetdə olmaları artıq universitet qanunlarından oldu. Buna əhəmiyyətsiz yanaşmaq olmaz. Mənim son üç-dörd ildə dəfələrlə dediyim və çox təkrar etdiyimdən daha demək istəmədiyim məsələlərdən biri müəllimin tələbə ilə oturması, suallarına cavab verməsidir. Yəni müəllim və tələbənin əlaqəsi siniflə məhdud olmasın, tələbə müəllimə müraciət edib ondan soruşmaq, izah istəmək və daha artıq öyrənmək imkanına malik olsun. Bəzən müəllim şagirdi öz otağına çağırsın və təkmilləşdirmək üçün ona əlavə bir məsələni başa salsın, yaxud tapşırıq versin. Bütün bunlar müəllimlərin universitetlərdə olmasına bağlıdır.

---

[137] Yenə orada.
[138] Universitet rektorları və müəllimləri ilə görüşdə çıxışından: 2007.

Bir gün deyirdik müəllimimiz azdır. Bu gün Allaha şükür olsun ki, ölkədə yaxşı müəllimlər az deyillər. Tələbəyə nisbətən müəllimin sayı Allaha şükür olsun ki, yaxşıdır, məqbuldur. Mənim fikrimcə, buna əhəmiyyətli yanaşmaq lazımdır. Tələbə və elm adamı yetişdirməyin bir hissəsi müəllimlərin universitetdə bir neçə saat - qanunda qırx saat göstərilir - oturmasına bağlıdır. Müəllimlər buna ciddi və əhəmiyyətli yanaşmalıdırlar.[139]

**Müəllimlərin dini bilgilərlə tanışlığının zəruriliyi**

Biz tələbələrin dini düşüncə səviyyəsini yüksəltmək üçün öz daxilimizdə və universitetlərimizdə bu güclü məntiqə ehtiyaclıyıq. Bu məntiq universitet və tələbə dili ilə genişləndirilməlidir. Əziz müəllimlərimizin də bu məsələlərə ehtiyacı var. Müəllimlər də özlərini din maarifi ilə tanışlığa ehtiyacsız bilməsinlər.

Bir neçə il bundan öncə İslam məsələləri haqda kitab yazan, kitabları müxtəlif dillərə tərcümə olunan və bizdə olan məlumata əsasən, Avropada və digər yerlərdə çoxlu müştərisi olan - mən ad çəkmək istəmirəm - tədqiqatçıların biri danışırdı ki, ərəb ölkələrinə, o cümlədən Fars körfəzi ölkələrinə gedəndə oranın ziyalılarının və universitet müəllimlərinin Quran və hədislə bizim ziyalılarımızdan daha çox tanış olduğunu görürəm. O bu sözü təxminən on il əvvəl mənə deyirdi.

Əlbəttə, səbəbi budur ki, Quranın dili onların ana dilidir. Sanki Sədidən, Firdovsidən, yaxud Hafizdən sizin yaddaşınızda bir zərbülməsəl var. Çünki onların kitablarını oxumusunuz, öz diliniz olub, yadınızda qalıb. İndi görürsünüz ki, buraya gələn möhtərəm natiqlərin bəziləri şeir və ədəbiyyatla başlayırlar. Onların dili də xoşbəxtlikdən, Quran dili ilə eyni olduğundan bu dili asanlıqla anlayırlar. Buna görə də Quran təlimləri ilə tanışdırlar. Siyasətçilərini də görmüşük, onlar da belədirlər. Siyasətçiləri hətta günahkar və mənəviyyatdan uzaq olsalar da, bəzi Quran ayələrini, dindən və dini ədəbiyyatdan bəzi sitatlar bilirlər və yadda saxlayıblar.

Biz bu nöqsanı düzəltməliyik. Fundamental və əsaslı şəkildə düzəltmək üçün, əlbəttə ki, başqa proqramlar lazımdır. Lakin ömür sürüb

---

[139] Yenə orada.

zəhmətlər çəkmiş müəllimlərlə təcili şəkildə bağlı olan budur ki, İslam məsələləri, İslam təlimləri ilə tanış olsunlar, bunun üçün doğrudan da proqram hazırlasınlar. Həm möhtərəm müəllimlərin özləri, həm də universitetlərdə çalışan cənablar proqram hazırlasınlar.[140]

### Müəllim və tədqiqatçıların ümumi toplantısının təşkil edilməsi

Mənim indi yadıma düşdü - dostlar bunu araşdırsınlar - imkan olsa, universitet müəllimlərinin və tədqiqatçıların iştirakı ilə ildə bir dəfə ümumi toplantımız olsun. Bu adamların özlərindən bəzi şəxslər çıxış üçün dəvət olunsunlar, fikirlərini bəyan etsinlər. Bu həm hökumətdə, həm İslam Şurası Məclisində, həm Məsləhəti Təyin edən Qurumda, həm də dövlətin icraçı qurumlarında, məsələn, nazirliklərdə və digər qərar mərkəzlərində münasib qərarların çıxarılmasına kömək edər.[141]

### Elmi inkişafa dair böyük layihədə ümumi vəzifə

İndi buna əsasən müəllimin rolu nədir? Buna diqqət yetirmək lazımdır. Müəllimin rolu var. Universitetlərdə və tədqiqat mərkəzlərində müəllimin böyük rolu var; necə ki, icraçı və dövlət qurumlarının da rolu böyükdür. Biz nə yalnız dövlət qurumlarına müraciət edib səhnədə hazır olan qüvvə kimi müəllimin rolunu unuda bilərik, nə də müəllimə, təhsil, yaxud kafedra müdirinə müraciət edib böyük elm və elmi inkişaf layihəsinin əslində podratçısı olan icra orqanlarının rolunu. Ölkədə möhtəşəm bir layihə icra olunmalıdır və bu, elmin inkişafından, elmdə yüksəlişdən ibarətdir. Onun podratçısı dövlət orqanlarıdır: Ali Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və aidiyyətli elmi orqanlar. Bunlar işi təhvil almalı, onun üçün proqram hazırlamalı, işə şərait yaratmalıdırlar. Buna əsasən, hər birinin bir rolu var.[142]

### Müəllimlərin vasitəsi ilə özünəinamın təbliği

[140] Yenə orada.
[141] Elmi elitanın nümayəndələri və universitet müəllimləri ilə görüşdə çıxışından: 2008.
[142] Yenə orada.

Bir tövsiyə budur ki, həm müdiriyyətlər, həm də müəllimlər universitetlər daxilində özünəinamı təbliğ etsinlər. Sizin tərbiyə və təliminiz altında olan gəncin özünəinamı olmalıdır; qeyd etdiyimiz milli özünəinam. Söhbət bundan getmir ki, bir şəxsin özünə etimadı olsun, söhbət bundan gedir ki, bizim öz milli xislətlərimizə, milli imkanlarımıza, mədəni irsimizə ümumi bir güvənimiz olsun. Biz buna milli özünəinam deyirik. Bu inam bizim gənclərimizin hər birində olmalıdır. Yəni bizim gəncimiz burada qalxıb danışdıqda milli özünəinamla danışmalıdır. Çünki gənc ümidin tərənnümüdür.

Bir neçə gündən sonra mənim tələbələrlə də görüşüm olacaq. Gənclər burada qalxır və danışırlar. Bu sözlərdə məyusluqdan və məqsədlərə çatmaqda tərəddüddən heç bir əlamət duyulmamalıdır. Gərək ümidlə dolu olsun. Necə ki, reallıqlar da bunu təsdiqləyir. Siz bunun üçün məsuliyyət daşıyırsınız. Düzdür, bunun müxtəlif amilləri var: siyasi amillər, ictimai amillər və s. Lakin sinifdə, laboratoriyada, yaxud təhsil yerində müəllimin olduqca böyük təsiri var. Siz gəncə özünəinam və gələcəyə ümid aşılamalısınız.[143]

**Universitet müəllimləri ilə iclasın iki cəhəti**

Bu məclis öncəki illərdə də dediyim kimi, əslində simvolik və eyni zamanda işgüzar bir məclisdir. Ona görə simvolikdir ki, İslam Respublikası quruluşunun elmə əhəmiyyət verməsini və elm daşıyıclarına hörmət etməsinin göstərir. Biz istədik ki, bu məclis İslam Respublikası quruluşunun alim və müəllimlərə hörmət nümunəsi olsun. Həqiqət də budur. Biz elm qarşısında təvazökarlıq edirik. Bu gövhəri özü ilə daşıyan elm sahibinə də təbii ki, hörmət göstərilməli və qarşısında təvazökarlıq edilməlidir.

Ona görə işgüzar məclisdir ki, elm və universitet toplumunun daxilində olan bəzi şəxslər bu məhdud fürsətin imkan verdiyi həddə onlar üçün ən çox əhəmiyyətli məsələləri burada bəyan edirlər. Xoşbəxtlikdən, bu hər il həyata keçir. Biz də dostların burada dediklərini həqiqi sözlər, ekspert və mütəxəssis rəyləri kimi qəbul edirik. Onların bəzisi ilə bizim

---

[143] Yenə orada.

dəftərxanamızda məşğul olmalıdırlar və imkan həddində məşğul olacaqlar. Bəzilərini də gərək aidiyyətli mərkəzlərə, məsələn, Mədəni İnqilab Ali Şurasına, yaxud universitetə aid nazirliklərə göndərək. Onları da göndərib tövsiyələrimizi verəcəyik.[144]

**Universitet mənsublarının quruluş qarşısında vəzifəsi**

Universitet mənsublarını himayə etmək həqiqətən daimi siyasət olmalıdır. Lakin diqqət olunsun ki, universitet mənsubları bu dəstləklərin - istər mənəvi, istər maddi dəstəklərin sayəsində özlərini tələbə nəsli, ölkədə elmin gələcəyi və islahata çox ehtiyacı olan təhsil sisteminin islahı qarşısında həqiqətən məsuliyyətli bilsinlər, universitetlərdə fəallıqlarını artırsınlar, özlərini mənəvi və elmi cəhətdən tələbələrin ixtiyarına buraxsınlar.[145]

**İnkişaf və ədalət onilliyində çox mühüm bir təməl**

Universitet, elm və elmi inkişaf barədə deyilən sözlərin xülasəsi budur ki, inkişaf və ədalət onilliyində bizim üçün çox mühüm olan ik-üç təməldən biri elm təməlidir. Bu sahədə hamının üzərinə məsuliyyət düşür; universitetlər də məsuliyyət daşıyırlar, müəllimlər də. Müəllimlərin dərs və tələbələrlə məşvərət saatlarında universitetlərdə olmaları çox mühümdür.[146]

**Universitet müəllimlərindən gözlənti**

Möhtərəm müəllimlərdən gözlənilən budur: gəncləri başa salın. Məqsədim bu deyil ki, oturub siyasətçiləri ona tanıtdırasınız. Xeyr, mən bununla çox da müvafiq deyiləm. Kimlərinsə adını çəkmək problemin həllinə kömək etmir. Bunlara təhlil qabiliyyəti verin, iş bacarığı və işə həvəs aşılayın. Necə? Ümid verməklə. Sinfi, dərs mühitini və universiteti ümid məkanı edin; gələcəyə ümid məkanı. Bir nəsil üçün ən pis bəla ümidsizlik, məyusluqdur. Yəni desinlər ki, cənab, faydasızdır. Bu

---

[144] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

[145] Yenə orada.

[146] Yenə orada.

“faydasızdır” hissi və gələcəyə ümidsizlik bütün fəaliyyətlər ictimai, siyasi, hətta elmi və tədqiqat fəaliyyətləri üçün həlakedici zəhərdir.

Təcrübi elmlərdə və müxtəlif fənlərdə böyük kəşfləri edənlər nəticəyə ümidsiz olsaydılar, şübhəsiz, heç nəyə nail olmazdılar. Ümid insana uğur gətirən möhtəşəm qüvvədir. Bizim gəncimizi ölkəsinə, inqilabına, gələcəyinə, hökumətinə, universitetinə, elmi və peşə perspektivinə ümidsiz etmək istəyirlər. Bu çox zərərlidir. Bu bizim düşmənlərimizin və quruluşun müxaliflərinin proqramlarında var. Mənim fikrimcə, əsaslı işlərdən biri budur. Tələbə üçün mühiti həvəskar, ümidli və inkişafa doğru aktiv edin.[147]

---

[147] Yenə orada.

## Üçüncü fəsil: Məmur və müdirlər

### İnqilab üçün bacarıqlı kadr yetişdirmək

Həqiqətən əsas və daha təcili sahə sinif, təhsil və ixtisas mədəniyyətinə, insan yetişdirməyə və bacarıqlı kadrlar hazırlamağa aid sahədir. İnqilabın idarəsi üçün bacarıqlı insan kapitalının istehsalı ibtidai məktəblərdən və hətta müəyyən mənada ondan da öncədən başlanır, universitetlərə, tədqiqat mərkəzlərinə və ali təhsil müəssisələrinə qədər davam edir. Siz cənablar bunu təmin və idarə etmək, yaxşılaşdırmaq işini öhdənizə götürmüsünüz.[148]

### İslam quruluşunda universitetin vəzifələri

Elmin, tədqiqatın, kəmiyyətin inkişafı, məhrum bölgələrdə inkişaf, universitetlərdə həqiqətən vacib olan bəzi məsələlərə önəm vermək, inqilabi orqanların vəzifəsini qəti şəkildə müəyyənləşdirmək, onları məntiqli və düzgün formada gücləndirmək, idarəçiliyə və onu gücləndirməyə dair məsələlər bu bir neçə ildə həqiqətən universitetlərin əsaslı məsələlərindən olmuşdur. Mən bunlar barədə dəfələrlə danışmışam və yeni bir şey deyil.

İslam Respublikası quruluşunun universiteti elə insanlar yetişdirməlidir ki, quruluş onlara arxalansın. Yəni bu quruluş elmi, praktik və idarəçilik baxımından xalqın yolundakı iri və xırda düyünləri açmaq üçün onlara güvənməlidir. Məgər belə deyil?! Bəs universitet nə üçündür?! Məgər elmsiz yaşamaq olar?! İnkişaf etmək olar?! Öz milli hüquqlarını bilmək, əldə etmək, yaxud onların yolunda düzgün mübarizələr aparmaq olar?! Elmi olmayan millət geriliyə, rəzilliyə, köləliyə, əxlaqsızlığa və qlobal münasibətlərdə dilənçiliyə məhkumdur.[149]

### Ölkənin elm mühitində əsaslı problem

---

[148] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1989.

[149] Mədəniyyət və Ali Təhsil Naziri, nazirliyin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışından: 1990.

Ölkənin elm mühitində, özü də sizin məşğul olduğunuz belə bir həssas elmdə, yəni tibb və onun şaxələrində bunlar həqiqi, əsaslı və fundamental problem deyil. Əsas problem budur ki, bir universitetdə o işə inam olmasın, məsul şəxslər ölkə üçün yanmasınlar, ağrı-acıları duymasınlar, birini gətirib bir universitetə, yaxud Tehran Universitetinə rektor qoysunlar, o da işi, mövqeyi, siyasi cinahı, dövrün sarayına yaxınlaşması və öz kisəsini doldurması barədə düşünsün, tabeliyindəki mühit onun üçün birinci dərəcəli olmasın.[150]

**Universitet işləri bunların əlində olmasın!**

Mən bir neçə il bundan əvvəl bir söz dedim, bəziləri səs-küy saldılar. Dedim ki, universitetlərin başçılığı gərək elmi başçılıq olsun. İndi də fikrim budur. Yəni universitetin başında dayanan şəxs elə olmalıdır ki, orada olanlar bu şəxsi rəis kimi qəbul etsinlər. Sözsüz ki, əməl və etiqadlı elmdən söhbət gedir. Elə olmasın ki, bu quruluşun başının bədənindən ayrılmasını istəyən, ümumiyyətlə, İslama etiqad bəsləməyən, İslamı və hizbullahçıları masqara edən, yaxud mömin tələbəni ələ salan etiqadsız bir şəxs işlərin başında dayansın. Xeyr, onun qolundan tutub kənara qoyun. Gəlib bizim siniflərimizdə dərs demək istəyirsə, eybi yoxdur. Hər hansı bir müəllim gəlib dərs desə, biz qəbul edərik. Biz hər bir kəsin elmindən bəhrələnirik, hətta bizi qəbul etməyənlərin belə. Elmini öyrətsin, biz çox təvazökarlıqla oturub onun elmindən bəhrələnərik, quruluş onun elmindən istifadə edər. Lakin universitetin idarəsində təyinedici olması əsla yolverilməzdir.

Ləzzətlərindən və yeyib-içməyindən keçməyən, ümumiyyətlə, ağır vəzifəyə baxmayan bir insanın nə haqqı var ki, bu quruluşda mühüm sima olduğunu desin. Elmi də onun şəxsi həyatının və qarnının qulluğundadır. Elmi də xalqdan ötrü deyil. Elminin də dəyəri yoxdur. Sizin nazirliyinizdə və universitetinizdə inqilabla bir istiqamətdə hərəkət etməyənin elminin də dəyəri yoxdur.

Bəli, əgər elmini tələbələrimizə öyrətsə və tələbələrimiz ondan faydalansalar, sözümüz yoxdur; bu şərtlə ki, öyrətsin. Mən eşitmişəm ki,

---

[150] Səhiyyə Naziri və ölkənin tibb universitetlərinin rektorları ilə görüşdə çıxışından: 1990.

bəziləri hətta elmlərini də əsirgəyirlər. Belə bir şəxs ümumiyyətlə, işə yaramır. Lakin öyrətmək istəyənin yanına gedib elmini öyrənsinlər, problem yoxdur. Sinifdə dərs desin, amma bu quruluşa, bu təfəkkürə, İslam hərəkatına və inqilaba etiqadı olmayınca, ona çox imkan vermək olmaz. Bu meyarlarla uzlaşan bir müəllimi, yaxud məsul şəxsi işə götürürsünüzsə, daha hamı ona hörmət etməli və doğrudan da gözləri üzərində saxlamalıdır. Tələbə də ona hörmət etməlidir.[151]

### Ölkədə elmin istehsalı üçün proqram hazırlamaq

Bizim elmimiz və alimimiz olmasa, sənayemiz də olmaz. Biz nə vaxta qədər hovuza əlimizlə su doldura bilərik?! Nəhayət, özündən su gəlməlidir. Nağd işlər ölkənin proqram hazırlayanlarının gözünü tutur. Bəlkə onların da təqsiri yoxdur. Ona görə ki, nağd ehtiyaclar doğrudan da çox böyük və mühümdür. Eyni zamanda gərək belə baxışları da olsun.[152]

### Mömin uşaqların tədqiqat mərkəzlərinə qəbul olunması

Çalışın tədqiqat mərkəzlərinə və bu kimi yerlərə yaxşı müsəlman uşaqlar daxil olsunlar. Çalışmaq lazımdır ki, yaxşı qardaşlar, mömin uşaqlar, həqiqətən inqilabı canıyla qəbul edənlər mühüm mərkəzlərə getsinlər. Belə olmasın ki, indi yol açıqdır deyə hamı gələ bilər. Allah eləməsin ki, quruluş, İslam və müsəlmanlar bu cəhətdən ziyan görsünlər. Belə mənəvi cəhətlərə çox riayət etməlisiniz.[153]

### Universitetin fəlsəfəsi: elmli və bacarıqlı kadr yetişdirmək

Universitetdə aparılan tədqiqat bundan ötrüdür ki, insan kapitalı inkişaf eləsin, alim və işgüzar kadr öhdəsinə düşən işə səlahiyyət əldə etsin və onu görə bilsin. Ümumiyyətlə, universitetin fəlsəfəsi bundan ibarətdir. Universitet bir qrupun dolanışığı üçün deyil. Bu, zəruri bir məsələ olsa da,

---

[151] Yenə orada.
[152] Mədəniyyət və Ali Təhsil Naziri, nazirliyin əməkdaşları və bir neçə universitet rektoru ilə görüşdə çıxışından: 1990.
[153] Yenə orada.

məqsəd deyil. Məqsəd budur ki, tələbə universitetdə lazımi səlahiyyətlər əldə etsin. Biz bu sahədə tələbə üçün bacardığımız hər bir işi görməliyik.[154]

**Tələbə yetişdirməkdə iki əsas məsələ**

Tələbə tərbiyəsində iki əsas amil var. Onların heç birinə diqqətsiz yanaşmaq olmaz. Əgər diqqətsiz yanaşılsa, altını çəkəcəyik: biri elm, tədqiqat, elmi işgüzarlıq, elmi istedadların çiçəklənməsi və bu tip məsələlərdir, biri də həvəskarlıqdan, dindarlıqdan, düzgün hərəkətdən, tələbənin mənəvi və psixoloji sağlamlığından ibarətdir. Universitetlərdə bu iki amil bir-birindən ayrılmadan ölkənin bütün imkanları daxilində izlənməlidir.

Əgər birinci amildə səhlənkarlıq göstərsək, nəticə nə olar? Hamı bilir. Tələbəyə elm və tədqiqat ötürə bilməyən, tələbəni bir alim, bir müəllim, bir səlahiyyət sahibi, bir yaradıcı və nəhayət, cəmiyyətin idarəsinin saysız-hesabsız sahələrindən biri üçün aktual müdir edə bilməyən bir universitetdən universitet çıxmaz. Bu sahədə müəllim, dərs vəsaiti, təhsil şəraiti, laboratoriya və elmi jurnallar məsələləri var. Bunlar həmişə dilimizin əzbəridir. Təxminən sizin hamınız universitet mənsublarısınız, bu məsələləri çox yaxşı bilir və onlarla məşğul olursunuz. İnşallah ölkənin imkanları həddində günbəgün daha inkişaf edək!

Ölkənin ümumi universitet mühitində ikinci amilə - yəni tələbənin həvəskarlıq, dindarlıq və ayıqlıq məsələsinə, onun məqsədsiz bir elm adamı halətindən çıxıb məqsədli bir elmi kadra çevrilməsi məsələsinə yetərincə diqqət ayrılmır.[155]

**Kadr yetişdirməkdə düşüncə quruculuğunun əhəmiyyəti**

İslam Respublikasının xüsusiyyəti belədir ki, onun kadr yetişdirmə aparatı düzgün hərəkət etməli və İslam Respublikasının məqsədlərinə uyğun kadr yetişdirməlidir. Biz yalnız alim olan, bir xalqın, xüsusən də müsəlmanların malik olduğu müqəddəs arzulara yiyələnməyən bir insan

---

[154] Mədəni İnqilab Ali Şurasının yaradılmasının yeddinci ildönümü münasibətilə şura üzvlərilə görüşdə çıxışından: 1991.
[155] Yenə orada.

yetişdirmək istəsək, yaxşısı budur ki, tələbələrimizi qrup-qrup elm mərkəzlərinin bizdən daha imkanlı və daha modern olduğu ölkələrə göndərək, gedib orada öyrənib gəlsinlər. Məqsəd bu deyil. Məqsəd budur ki, ölkə elm və fikir baxımından səlahiyyətli insanların vasitəsilə öz məqsədləri istiqamətində hərəkət etsin. Bu yalnız o zaman mümkün olar ki, bu insanlar o məqsədləri bilib qəbul etsinlər.[156]

**Elmi inkişafın təklikdə dəyəri yoxdur!**

Əgər universitet elə bir yer olsa ki, onu bitirən şəxs – yəni universitetin məzunu nə inqilaba, nə dinə, nə ölkəyə, nə milli istiqlaliyyətə və böyük milli arzulara qarşı məsuliyyətl keçirsə, bu universitet elmi baxımdan nə qədər yüksək olsa da, dəyəri olmaz. Çünki onun məhsulu və məzunu asanlıqla müxtəlif siyasi qrupların ixtiyarına keçər.[157]

**Elmlərin bölgüsü və prioritetlərin təyin edilməsi**

Elmi dərəcələr məsələsi də sizin əsas işlərinizdəndir. Ona diqqət yetirmək lazımdır. Elmlərin bölgüsü, prioritetləri təyin etmək və bu gün, bu dövrdə, bu 5-10 ildə şagirdlərin daha çox hansı elmlərə yönəldilməsi sizin ixtisaslı işlərinizdəndir və onu daha yaxşı bilirsiniz. Bizim çıxış yolumuz budur.[158]

**Alimi əməli yolla həvəsləndirmə**

Biz alimi əməli surətdə həvəsləndirməliyik. Yalnız "biz sizi sevirik" deməyimiz onu həvəsləndirmir. Həvəsləndirməyin yollarından biri budur ki, onu gətirib media vasitəsi ilə milyonların qarşısına çıxaraq. O, tərcümeyi-halını, qürbətdə və yoxsulluqda keçirdiyi həyatını xalqa danışsın və həvəslənsin. Bu, əməli həvəsləndirmədir. Siz bu işi görməlisiniz.[159]

---

[156] Yenə orada.
[157] Yenə orada.
[158] Təlim və Tərbiyə Naziri, nazir müavinləri, müşavirləri və şöbə müdirləri ilə görüşdə çıxışından: 1992.
[159] İran İslam Respublikası radiosunun Elm şöbəsinin əməkdaşları ilə görüşdə çıxışından: 1992.

**Hər kəs istedadı olan yerdə!**

Cənablar! Biz insanların istedadını kəşf etsək, onları istedad və həvəsləri olan yerdə işlətsək, bu gün də əbu əli sinaların, məhəmməd ibn zəkəriyya razilərin meydana çıxması mümkündür. Elə bilməyin ki, bu gün dünya elmdə bizdən çox inkişaf etdiyindən və biz elmi baxımdan geri qaldığımızdan, istedad və dahilərin yetişməsi də mümkün deyil. Xeyr, belə deyil. Dahilərin və istedadların yetişməsi o zaman da elmi inkişaf sayəsində baş verməmişdi. Elmi inkişaf orta səviyyəli bir tələbənin öyrənməsi üçün yaxşıdır, amma nümunəvi tələbənin istedad çeşməsini müxtəlif şəraitlər aça bilər. Axtarıb belə tələbələri tapmaq lazımdır. Bu yalnız o zaman mümkün olar ki, hər kəs ürəyi istədiyi fəndə işləsin. Nəyi sevirsə, nəyə istedadı varsa və əslində, hansı iş üçün yaranmışsa, işləyib dühasını və istedadını inkişaf etdirməlidir. Əgər meylinə, rəğbətinə və istedadına zidd bir işə təyin edilsə, istedadı olsa da inkişaf etməyəcək.[160]

**Əzbərləmək və öyrənmək yox, anlamaq və araşdırmaq**

Mənim fikrimcə, universitetləri sözün həqiqi mənasında universitet etmək lazımdır. Dünyada bugünkü elmlərin xisləti belədir. Yəni elmin inkişafı tədqiqata sarı hərəkətdən asılıdır, əzbərləməkdən, bir sözü deməkdən və bir sözü öyrənməkdən yox. Bizim qədim elm hövzələrimizdə belədir. Əlbəttə, bütün dərslərində yox, ciddi yanaşılan əsas dərslərində belədir; əsas məsələ əzbərləmək deyil, əsaslandırmaq, anlatmaq, anlamaq və ortaya yeni söz qoymaq, yəni elmin müvafiq sahəsində yenilik yaratmaqdır. Universiteti bu səmtə aparmalısınız.[161]

**Akademiyalar elmi zirvə olsunlar!**

Bunun yollarından biri odur ki, ölkə daxilində yüksək səviyyəli elm mərkəzləri olsun. Bizim Elmlər akademiyamız bu baxımdan elmi zirvə ola bilər. Mənim bildiyim və bəzi yerlərdə oxuduğum qədərincə, bəzi ölkələrdə elmlər akademiyaları bir neçə yüzillik daimi adlara malikdirlər.

---

[160] Mədəniyyət və Ali Təhsil Nazirliyinin məsul işçiləri ilə görüşdə çıxışından: 1992.
[161] Ölkənin tibb universitetlərinin rektorları ilə görüşdə çıxışından: 1993.

Elmlər akademiyası üzvlərinin adı tarixdə qeyd olunmuşdur. Nümunə kimi deyirlər ki, məsələn, hansısa alim, yaxud məşhur siyasi şəxsiyyət filan ölkənin Elmlər akademiyasının üzvü olmuşdur. Bu, həmin şəxs üçün bir məziyyətdir. Biz buna bu gün yaxşı elmlər akademiyaları olan bu ölkələrdən daha layiqik. Bu işin ideal səviyyəyə çatması 50 il sürə də bilər, eybi yoxdur.[162]

**Tələbələrə gözütoxluq və elmsevərlik ruhunun aşılanması**

İndi deyilir ki, diplomu filan edək. Xeyr, mən düşünmürəm ki, diplomu yığışdırmaq lazımdır. Elmi diplom lazımlı və yaxşı bir şeydir. Lakin tələbələrdə elmə, tədqiqata, öyrənməyin və araşdırmağın özünə sevgi ruhunu dirçəltmək lazımdır. Bu iş üçün müəllimləri qane edin, təhsil sistemini düzəldin, xüsusi iclaslar keçirin, bəzi şəxsləri dəvət edin tələbələrlə danışsınlar, televiziya verilişləri hazırlayın, məlumatlı və istedadlı insanlar oturub bu məsələləri bəyan etsinlər, bütün gənclər də dinləsinlər və onlarda bu həvəs dirçəlsin. Tələbədə bir qədər gözütoxluq ruhu yaradın, tələbə bir qədər zahid olsun. Elm tələbəsinə təbii bir gözütoxluq lazımdır. Elm öyrənən şəxs nə qədər gözütox olsa, elmlə eyniliyi və həmcinsliyi çoxalar, elmi daha çox sevər, onun qədrini bilər və onu qənimət sayar.[163]

Ölkəmizə lazım olan elm və tədqiqat əxlaqı budur. Mən sizə demək istəyirəm ki, bizim gənclərimizdə elm, tədqiqat əxlaqını, elmi vicdanı oyatmalısınız. Bu sizin vəzifənizdir. Oturun görün bunun üçün nə iş görə bilərsiniz.[164]

**Elm mərkəzlərini gücləndirmək üçün büdcə ayırmağın əhəmiyyəti**

Mənim fikrimcə, ölkə üçün çox əsaslı və mühüm büdcələrdən biri budur. Əgər biz hansısa faydasız və ikinci dərəcəli qalıq məhsulu idxal etmək üçün pul ayırsaq, lakin universitetin inkişafı və gücləndirilməsi, elm və tədqiqat mərkəzlərinin gücləndirilməsi, lazımi laboratoriya cihazları və

---

[162] Elmlər Akademiyasının üzvləri ilə görüşdə çıxışından: 1993.
[163] Universitet rektorları ilə görüşdə çıxışından: 1993.
[164] Yenə orada.

lazımi kitabların alınması üçün pul ayırmasaq, bu, həqiqətən bir növ əbləhlik sayılar. Bu, düzgün deyil. Dəstək verilməlidir; onlardan kəsib bunları gücləndirməliyik. Əgər bunları gücləndirsək, bunlar ölkə üçün sərvət də istehsal edəcək.[165]

**Dünya universitetlərinin yüksək səviyyəsində parlamağın şərtləri**

Bilirsiniz ki, dünyanın yüksək universitetləri səviyyəsində parlamağın şərtləri var. Əgər dünyanın ən yaxşı universitetləri səviyyəsində inkişaf etmək istəyirsinizsə, bunun üçün diqqət, tələbkarlıq, yaxşı və güclü müəllimlər arasında seçim və universiteti tam mənada elm və tədqiqat mərkəzi etmək lazımdır.[166]

**Ən yaxşı gənc mütəxəssislərdən istifadə**

Elə bilməyin ki, tibbin elmi sahələrində danışmağa yalnız bir qrup tərəfindən yaradılmış elmi-ixtisas komitələrinin haqqı çatır. Xeyr, siz də elmi komitələr yaradın, xüsusən gənc təbəqədən olan ən yaxşı həkimləri, ən yüksək tibb mütəxəssislərini dəvət edin. Mən bu gün görürəm ki, öz elm mərkəzlərimizdə yüksək istedad və tədqiqat ruhuna malik gənc həkimlər çox cəsarətlə işləyirlər. Bunlar sizin ixtiyarınızdadır.[167]

**Tələbələrin müxtəlif elm sahələrinə yönəldilməsi**

Mənim sizdən istəyim budur ki, elmi işlərə qoşulun və lazım olsa, bayırda olan tələbəni də yönəldin. Bəlkə də bayırda olan tələbənizin haradasa tədqiqat prosesinin keyfiyyətini artıran, onu yüksəldən bir iş görməsini lazım bilirsiniz. Bu qrupları idarə edin ki, elmi işlərdə bir-biri ilə əməkdaşlıq etsinlər. Ölkədə elmi inkişaf etdirin. Əgər İslam quruluşu öz haqqını əldə etmək istəsə, elmi sahələrdə parlaq və dəyərli inkişafa malik olmalıdır. Bizim də vəzifəmiz budur ki, sizə dua edək və dua da edirik.[168]

---

[165] Yenə orada.

[166] Azad İslam universitetlərinin rektorları ilə görüşdə çıxışından: 1994.

[167] Ölkə həkimlərinin İslam birliyi və İslam cəmiyyəti ilə görüşdə çıxışından: 1994.

[168] Yenə orada.

**Universitetin məsuliyyətinin hizbullahçı kadrların üzərinə düşməsi**

Məni ürəkdən sevindirən işlərdən biri budur ki, ölkənin əsas mərkəzlərində, o cümlədən universitetlərdə mömin, hizbullahçı və dinin bacarığına inanan kadrlar çalışırlar. Bu məni gələcəyə ümidvar edən amillərdəndir. Harada belə bir şey müşahidə etsəm, Allaha şükür edirəm. İmana, etiqada və dinə yad olan bəzi insanların inandırmaq istədiyinin əksinə olaraq, hizbullahçı, dindar, ibadətçi və mömin gənc zəruri olaraq elm, tədqiqat, yaxud əməli işdən uzaq və ona yad deyil. Xeyr, hətta bunun əksinədir.[169]

**Universitetlərdə elm və dinin ciddi sayılması**

Universitet bizim ən əsaslı və ən mühüm yerlərimizdən biridir. Bir-biri ilə yanaşı olmalı elm və din universitetlərdə nə qədər ciddi sayılsa, ölkənin gələcəyi bir o qədər yaxşı olacaq. Ölkənin xoşbəxtliyi üçün bu yol qəti, zəruri və qaçılmazdır. Universitetlərdə elm və din ciddiyə alınmalıdır; həm tədqiqat mənasında, həm də təhsil mənasında olan elm. Çünki yalnız təhsil kifayət etmir, tədqiqat da lazımdır.[170]

**Tehran universiteti - ölkənin elmi hərəkətinin timsalı**

Tehran universiteti ölkənin ən böyük universiteti olmasından əlavə, ölkə üçün bir simvolik cəhətə də malikdir. Əgər yaxşı hərəkət etsə, yaxşı idarə olunsa və elmi səviyyəsi yüksəlsə, əslində ölkədə elmin hərəkətindən xəbər verəcək, bizim hansı səmtə hərəkət etdiyimizi və bu sahədə münasib inkişaf və tərəqqimizin olub-olmadığını göstərəcək. Yəni digər yerlər üçün meyar ola bilər. Odur ki, nə qədər çalışsanız, çox deyil.[171]

**Universitetin dini şəraitindən yaranan elmi inkişaf**

---

[169] Fəqih rəhbərin Azad İslam Universitetindəki nümayəndəliyinin rəhbəri və İsfahan Tibb Universitetinin müəllimləri ilə görüşdə çıxışından: 1995.

[170] Bazar ertəsi günlərinin ümumi görüşündə çıxışından: 1995.

[171] Bazar ertəsi görüşlərində Tehran Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışından: 1996.

Universitetdə din məsələsi də çox əhəmiyyətli məsələdir. Əgər bu gün elm sarıdan inkişaf etmək istəsəniz, universiteti dindar etməyə məcbursunuz. Məsul şəxs kimi sizin missiyanız yalnız bu deyil ki, bir qrup gəncə din əxlaqı aşılayasınız. Əlbəttə, bu missiyanı daşıyırsınız, lakin elmi prosesin inkişaf etməsini istəyirsinizsə, universiteti dindar etməlisiniz. Çünki dini vicdan insanların yaxşı və müntəzəm işləmələrinə, özləri üçün və məsləhət əsasında çalışmalarına səbəb olur. Bu çox əsaslı bir şeydir.

Buna əsasən, müəllimlərin seçimində çox diqqətli olun, tələbələr onların ixtiyarında olduğundan dini əxlaq sarıdan sağlam insanları işə götürün. Bunu həqiqətən seçim meyarı edin. Xüsusən tələbələri yeni mərhələlərə daxil edən universitet ayrıclarında, məsələn, yüksək pillələr üçün seçim işinə dindar insanları təyin edin. Bunların seçimi dini meyarlara əsaslanmalı, yaxud ən azı antidin meyarlarla aparılmamalıdır. Biz bəzi yerlərdə belə olduğunu bilirik. Bu məsələyə diqqət yetirin ki, dindar gənclər yüksək təhsil pillələrinə keçə bilsinlər.[172]

**Tədqiqat büdcəsini artırmaq sərmayə qoymaqdır!**

Elmin inkişaf etməsini istəyiriksə, xüsusən tədqiqatla məşğul olmalıyıq. Tədqiqatı ciddi saymanız çox yaxşı haldır. Daha ciddi yanaşın və ciddi məşğul olun. Hökumət də sizə kömək etməlidir. Universitetlərin büdcəsini artırmaq əslində sərmayə qoymaqdır və yaxşı effekt verəcək. Təsadüfən, nəticənin çoxlu əsaslı işlərdən daha tez göründüyü sərmayə qoyuluşlarından biri budur.[173]

**Realist elm və alimanə iş**

Elm və işin sintezi gözəldir. Bunu bəlkə də İslam Respublikasında bizim öz yolumuzu daha yaxşı tapmağımız üçün bir simvolik hərəkət hesab etmək olar. Yəni elm daha real və praqmatik inkişaf etsin, iş də daha elmi şəkildə görülsün, daha çox elmi təcrübə və məlumata malik olsun.[174]

---

[172] Yenə orada.

[173] Yenə orada.

[174] Ölkə fəhlələri, müəllimləri və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 1996.

**Universitetlər barədə tarixi vəzifə**

Bir zaman bu ölkədə kimsə universitetlərdən, ali təhsildən və tələbəlik prosesindən gileylənirdisə, biz özümüzə təsəlli verirdik ki, "Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər".[175] İndi isə bu təsəllinin yeri yoxdur. Əgər Allah eləməmiş, Allah-Taalanın mənə və sizə yaratdığı bu əlverişli şəraitdə o böyük tarixi vəzifəni yerinə yetirə bilməsək, Onun yanında heç bir cavabımız olmayacaq. Böyük tarixi vəzifə budur ki, elmdən istifadə etməklə bir xalqı ilahi peyğəmbərlərin və müqəddəs İslam dininin göstərdiyi kamillik istiqamətində hərəkət və inkişaf etdirək. Əgər universitetdə bu məsuliyyət olmasa, onun varlığı yoxluğu kimi və hətta yoxluğundan da pisdir və bu təkamül baş tutmayacaq. Əgər elm olmasa, dünyanın əldə etməyə, yaxud təkmilləşdirməyə çalışdığı bugünkü amllər olmasa və biz bu işlərdə geri qalsaq, bu hərəkət baş tutmayacaq.[176]

**Universitetlərdə ən yüksək elmi və əxlaqi keyfiyyət**

Müsəlman və mömin məqsədlər budur ki, elm ən üstün keyfiyyətində, elmi məsələlər ən yeni formasında olmalıdır. Elmi işlər özünün ən uğurlu növündə, dini əxlaq və İslam imanı ən aydın və ən pak vəziyyətində olmalıdır; hamısı bir-birinin yanında. Bizim istədiyimiz budur və bu məqsədlərə çatmaq üçün, təbii ki, bəzi üsullar lazımdır. Çünki islami iş görüldükdə, elmi iş də onun içində gedir. Söhbət təbii ki, güclü elmi işdən gedir. Çünki zəif elmi iş islami iş deyil. Bu elm ölkənin bu gününü və sabahını təmin etməlidir. Bu, zəif elmlə təmin olunmur. Bir ölkənin və bir xalqın elmi-praktik özünütəminə çatması üçün lazım olan ən yaxşı elmlər, rəftarlar, əxlaq, seçimlərin keyfiyyəti, universitetlərdə fərdlər üçün mövcud olan imtiyazlar və digər məsələlər əldə edilməlidir. Hər halda, ümid gözləri sizə baxır.[177]

**Bütün ölkənin savadlandırılması**

---

[175] "Bəqərə"/286.

[176] Mədəniyyət və Ali Təhsil Naziri, nazir müavinləri və ölkə universitetlərinin məsul şəxsləri ilə görüşdə çıxışından: 1996.

[177] Fəqih rəhbərin universitetlərdəki nümayəndələrilə görüşdə çıxışından: 1996.

Ölkədə kitab mütaliəsini, kitab və kitabxanaları, məktəb və tədqiqat mərkəzlərini çoxaltmaq, elm və savadı ölkənin ucqar yerlərinə, kəndlərinə aparmaq təlim-tərbiyə qurumlarının, məktəblərin, ali təhsil müəssisələrinin, Təbliğat komitəsinin və xüsusən radio və televiziyanın öhdəsinə düşən çox vacib işdir.[178]

**Ümumi təlimlərdə zəiflik**

Təlim-tərbiyə işində ölkənin çox ehtiyaclı olduğu iki məsələ var: Biri ölkəni savadlandırmaqdır. Savad dedikdə məqsədim yazıb-oxumaq savadı yox, ölkəni alim etməkdir. Təəssüf ki, ölkədə elmi vəziyyət zəifdir. Nəinki yaxşı və böyük alimlərimiz yoxdur. Xeyr, müxtəlif fənlərdə yaxşı alimlərimiz var. Bundan dəfələrlə artıq çox yaxşı istedadlarımız var. Lakin elm və təlimi praktik məsələlərdə işlətməyin ümumi vəziyyəti, insafla desək, zəifdir.[179]

**Universitetlərdə daha yaxşı vəziyyətə sarı hərəkət**

İslam Respublikasında İslamın və bu quruluşun xalqa verdiyi vədlərə, cəmiyyətin nəzər sahibləri və elm adamları olan bizlərin və sizlərin təsvir etdiyimiz gələcəyə əsasən, ölkə universitetlərinin vəziyyəti bundan daha yaxşı olmalıdır.[180]

**Ölkədə elmi geriliyin təsirləri**

Bu gün elmlə məşğul olmalı və elm öyrənməliyik. Elm haradadır? Universitetdə. Siz də universitetlərin başçılarısınız. Nə bacarırsınızsa, edin. Bu işlər görülməlidir. Bundan başqa yol yoxdur. Bu gün ölkəmizdə elm zəifdir. Əgər elm olmasa, texnologiya da olmaz, texnologiya olmasa, həyat axsayar və siz yoxsul olub başqalarına əl açarsınız. Bu gün onlar kompüteri bazara çıxardılar. Nə bilirsiniz, bəlkə sabah elə bir şey ixtira edəcəklər ki, kompüter sıradan çıxacaq və gerilik sayılacaq. Siz indi qaçın ki, çatasınız.[181]

---

[178] Urmiya şəhərinin mədəniyyət-incəsənət kompleksində yazıçılar, şairlər və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 1996.

[179] Təlim və Tərbiyə Nazirliyinin məsul şəxsləri ilə görüşdə çıxışından: 1997.

[180] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.

[181] Yenə orada.

**Doktorantura pillələri açmaqdan daha əhəmiyyətli iş**

Çox gözəl. Siz elm sahəsində inkişaf edin, bu işdə şərik olun. Ölkənin elmi məsələləri barədə mənim arzularım bunlardır. Yoxsa nə üçün universitetlərin rektorları gəlib deyirlər ki, doktorantura pilləsində bir neçə fənn açdıq və filan işləri gördük? Çox gözəl və əzizdir. Amma məsələ bunlardan daha ciddidir.[182]

**Strateji elmi proqram yazmaq**

Bundan daha əhəmiyyətlisi odur ki, ölkə üçün bir elmi strategiya hazırlayın. Ölkənin strategiyası nədir? Görün, elmi baxımdan bizim ölkəmiz haradadır, haraya çatmalıdır, hansı istiqamətlərdə hərəkət etməlidir. Əvvəl bunu hazırlayın, sonra görək ümumiyyətlə, bu fənn üzrə bu qədər sinif və bu qədər müəllim olmalıdır, yoxsa yox. Bu məsələlərin özünə də şübhə edə bilərik. Yaxud diqqətdən kənarda qalan hansısa fənnə əlavə diqqət lazımdır, yoxsa yox. Bu yalnız sizin əlinizlə mümkündür. Siz etməsəniz, ölkədə heç kəs bunu etməyəcək. Demək istəyirəm ki, bu gün bu məsuliyyət sizin üzərinizə düşür. Nazirlər də bu işi sizin əlinizlə görməlidirlər. Bu başqa yolla mümkün deyil. Bu məsələlər üzərində düşünün. Əlbəttə, hökumət etməlidir. Yəni dövlət qurumları bu işə rəhbərlik etməlidirlər. Lakin işi görən sizlər və sizin mərkəzlərinizdə elmi işlərlə məşğul olanlardır.

Deməli, birinci tövsiyə ölkənin gələcəyi üçün kompleks elmi proqram hazırlamaqdır. Demirəm bu proqram 20 illik, yaxud 25 illik olsun. Onun üçün zaman təyin edə bilərsiniz, məncə edəcəksiniz də. Bu zaman 10 illik, yaxud 20 illik ola bilər. Çünki bu gün elm elə bir şey deyil ki, insan çox ehtiyatsızlıq etsin və desin ki, 25 ildən sonra. Ümumiyyətlə, 25 ildən sonra elm sahəsində nəyin baş verəcəyini bilmirik. Çünki elmin hərəkəti möhtəşəm və heyrətləndirici bir hərəkətdir. Bəlkə də sizin burada proqramları daha qısa və ölkənin quruculuq proqramlarından qat-qat ixtisarla etməniz lazım ola bilər. Bu bir məsələdir.[183]

---

[182] Yenə orada.

[183] Yenə orada.

**Universitetlərin çoxlu qanunsuz tətilləri**

Universitetlərdə az-çox qanunsuz tətillər var. Misal üçün, dərs ilinin əvvəlində bir neçə gün tətil olur. Semestrin sonunda da bir neçə gün tətil olur. Yeni semestrin başlanması, bayram günləri bir neçə gün tətildir. Bunları bir-birinin üstünə qoysanız, böyük zaman olar. Heyfdir.

Bəzən tələbələr imtahan verməyə gedirlər, amma imtahan götürən müəllim gəlib-çıxmır. Bu baş verib, mənim xəbərim var. İmtahan indi deyil. Bəs nə vaxtdır? Misal üçün, sabah. Ertəsi gün gedirlər, imtahan yoxdur. Nə vaxtdır? Gələn həftə. Yəni universitetin proqramsızlığından irəli gələrək tələbə üçün çaşqınlıq yaranır. Bu bəzən müəllim tərəfindən olur, bəzən də müdiriyyət tərəfindən.[184]

**Dünyanın elm mərkəzləri ilə əlaqəni gücləndirmək**

Elm sahəsində iradların daha birisi dünyanın elm mərkəzləri ilə əlaqənin az olmasıdır. Mən bir neçə il bundan əvvəl bir universitetə getdim. Mənə şikayət etdilər ki, elmi jurnallar almağa pul vermirlər. Dedim ki, pulu nə qədər edir? Çox az bir məbləğ dedilər. Mən o zaman prezident idim, doğrudan da xəcalət çəkdim ki, bu qədər pul üçün gəlmisiniz. Hökumətə dedim və düzəldi.

Mən elə bilirdim ki, ondan sonra elmi mərkəzlərlə əlaqələr çoxalıb. İndi məlumat verirlər ki, xeyr, bizim universitetlərmizin dünyanın elm mərkəzləri ilə əlaqəsi çox deyil. Mənim fikrimcə, bu əlaqə günbəgün gücləndirilməlidir.[185]

**Kitabxanalar üçün kitab almağın lazımlığı**

Kitabxana və mütaliə mənbələri də belədir. Problemlərin biri də budur. Bəzi universitetlərin kitabxanaları haqqında məlumat verdilər ki, inqilabdan sonra demək olar, bir kitab belə almayıb. Bu doğrudan da çox

---

[184] Yenə orada.

[185] Yenə orada.

acınacaqlıdır: tələbə və müəllimlər mütaliə etmək araşdırmaq istəyirlər, amma kitab yoxdur.[186]

**Tələbələrdə elmi həvəs oyatmaq**

Biz bu gün universitetdə tələbələrin elmə marağı baxımından çatışmazlıqla üzləşmişik. Tələbə çalışır ki, semestri tez bitirsin, dərslər qurtarsın və iş dalınca getsin. Təəssüf ki, onların çoxu bitirdikdən sonra da işsiz qalırlar, çünki iş bazarı yoxdur. Bunu düzəltmək lazımdır. Mənim eşitdiyimə görə, həm daxildə olan, həm də bursla gedib xaricdə təhsil alan tələbələrdə bu nöqsan mövcuddur. Tələbənin elm öyrənməyə və alim olmağa həvəssizliyi bir eyibdir. Mənim fikrimcə, bu həvəssizliyi aradan qaldıracaq amil tədqiqat mərkəzləridir. Bu sahədə çox işlər görülməlidir.[187]

**Nisbi gözütoxluq hissi və məişət problemlərinin həlli**

İndi bu münasibətlə toxunmaq istədiyim başqa bir məsələ müəllimlər haqqındadır. Məişət problemləri baxımından müəllimlər üçün əsaslı bir şey fikirləşmək lazımdır. Mənim fikrim həmişə bu olub ki, elm adamı üçün məişət məsələləri ikinci dərəcəli olmalıdır. Hər halda, bu da bir yoldur. Fikrim budur ki, yeni elmin əsasını qoyan və dünyada elmi inkişaf etdirən alimlərin çoxu, ən azı tədqiqat və əsas işlərini görən dönəmdə yaşayış məsələlərinə, rifaha, məişətə, rahatlığa, maşın sürməyə, hansısa evdə yaşamağa qarşı etinasız olmuşlar. Əlbəttə, nailiyyətlər əldə etdikdən sonra sərvət onlara üz tutub. Bu başqa məsələdir.

Doğrudan da fikrim budur ki, bizim tədqiqatçı və alimlərimiz yaşayışda və dünyaya aid məsələlərdə, nisbətən olsa belə, zahid xarakterə malik olmasalar, işlər lazımi həddə düzəlməyəcək. Bu mənim fikrimdir. Əgər bacarırsınızsa, bu fikri yayın. Özünüz bu sözü qəbul edirsinizsə, çox yaxşı, bu fikri təbliğ edin. Bu, çətinlikləri bir qədər azaldacaq. Lakin nə qədər ki, bu hiss təmin olunmayıb, hər halda, müəllimlərin məişət məsələlərinə, ev və məişət problemlərinə diqqət yetirilməlidir. Qoy

---

[186] Yenə orada.
[187] Yenə orada.

bununla artıq get-gəllər, çoxlu siniflər, müxtəlif dərs saatları, dərs verərkən yuxusuzluq və mütaliəyə diqqətsizlik problemləri aradan qalxsın.[188]

**Müəllimlərə hörmət**

Müəllim məsələsi təkcə məişət məsələsi deyil, elmə və alimə hörmət məsələsidir. Bunlar mütləq lazımdır. Bu doğrudan da universitetdə bir qayda olmalıdır; necə ki, hövzələrdə belədir. Orada müəllimə dəyər və hörmət tanıyırlar. Hətta tələbələr müəllimləri haqqında adi danışıqlarında "dedi" və "gəldi" sözlərini deyil, daha hörmətli ifadələr işlədirlər və müəllimə qarşı bir növ təəssübkeşlik halətləri var. Bu çox yaxşıdır. Əgər universitetdə də bu vəziyyət yaransa və müəllim hörmət duysa, əlbəttə, çox yaxşı olar. Əgər cənab nazirlər indi müəllimlər üçün bir iş görə bilsələr, şübhəsiz, bu iş çox faydalı və inkişafa səbəb olar. Baxmayaraq ki, mən yenə də birinci fikrimdə (elm adamlarının nisbətən olsa belə, zahid xarakterə malik olmalarının vacibliyi fikrində) qalıram.[189]

**Universitetlərdə din və əxlaqı ciddi saymaq**

Universitetlə və sizinlə əlaqədar olan məsələlərdən biri də "tələbə, din və əxlaq", yaxud "universitet, din və əxlaq" məsələsidir. Uzun illərdir həm müsəlman olan, məsələlərə dini və iman nöqteyi-nəzərindən yanaşan bizlər, həm də Qərbin çoxlu nəzər sahibləri dünyadakı elmi inkişafın indiki vəziyyətinə ciddi surətdə etiraz edirik və edirlər. Sizin hamınız bu barədə mütləq eşitmisiniz və bir çox məsələləri bilirsiniz. Bilirsiniz ki, elmin dindən ayrılığı böyük fəlakətlərə səbəb olub. Bəli, bu haradasa düzəldilməlidir. Gəlin biz bunu sınaqdan keçirək. Necə ki, bu gün bizim alimlərimizin, mütəxəssislərimizin və ölkənin yüksək elmi məmurlarının arasında dindar, əxlaqlı, inqilabçı və həqiqətən imanlı insanlar, Allaha şükür olsun ki, çoxdur. İnqilab nəsli elm mərkəzlərinin çoxunu tutmuşdur. Bu çox yaxşıdır, lakin ümumiləşməlidir.

Təəssüf ki, digər tərəfdən, din və əxlaq məsələləri sahəsində bir reaksiya, əksüləməl, yaxud əks-hücum baş verir. Əlbəttə, onlar bir qədər

---

[188] Yenə orada.
[189] Yenə orada.

tez başladılar, bu tez başlamaqda da naşılıq etdilər. Çünki universitetdə dinə, əxlaqa və mənəviyyata sarı hərəkət hələ zəifləməyib, lakin onlar başladılar. Düzdür, bəzi uğurları da oldu, amma vaxtında başlasaydılar və sizin tərəfinizdən reaksiya olmasaydı, bəlkə də uğurları qat-qat çox olardı. Mənim fikrimcə, universitetlərdə bu məsələni ciddi saymaq lazımdır.[190]

**Universitetlərdə elm, düşüncə və mənəviyyatın inkişafı**

Bu gün universitet elm, düşüncə və mənəviyyat inkişafı üçün səyə həmişəkindən daha ehtiyaclıdır. Ona görə yox ki, bizim tələbələrimiz bu üç sahədə keçmişdən geridədirlər. Hamı bilir ki, bizim bugünkü universitetimiz İslam inqilabının sayəsində hər üç sahədə keçmişdən çox öndə, üstün və sürətlidir. Əslində, ona görə ki, əvvəla ölkənin başucalığını və müstəqilliyini qorumaq indiki nəsli bütün elmi, dini və siyasi sahələrdə tərbiyə etməkdən asılıdır; ikincisi isə bu gün bu xalqın düşmənləri gənc nəsli, xüsusən də tələbələri yenidən öz zəhərli təxribatlarına hədəf seçmişlər.[191]

**Universitetlə icraçı qurumlar arasında yaxın əməkdaşlığın zəruriliyi**

Mən dəfələrlə yüksək rütbəli dövlət məmurlarına, bir dəfə də cənab Doktor Müinə və digər cənablara dedim ki, indi ölkədə çoxlu layihələr qeyri-elmi şəkildə görülür və effekti az olur. Əgər bunları universitetlərə tapşırsalar, həm universitetlər üçün iş, gəlir yeri və təcrübə olar, həm də o qurumlar üçün elmin faydası toxunar. Bir tərəfdən ölkənin müxtəlif icraçı qurumları - texnika, sənaye, tibb, əczaçılıq, ictimaiyyət, statistika və digər qurumları arasında və digər tərəfdən öz sahələrində universitetlər arasında sıx əməkdaşlıq yaradılmalıdır. Yəni sizin nəzəri cəhətdən öyrətdiyiniz elm universitetlərin çox məhdud laboratoriyalarından əlavə real və praktik laboratoriyaya da daxil olsun və əməkdaşlıq baş tutsun.

Mən öncə də demişəm ki, eşitdiyimə əsasən, dünyanın elmi cəhətdən bəzi inkişaf etmiş ölkələrində müxtəlif işçi qurumlarının – zavodların və

---

[190] Yenə orada.

[191] Tələbələrin İslam cəmiyyəti konfransının ikinci iclasına müraciətindən: 1998.

böyük şirkətlərin sahibləri tələbələrin elmi müdafiə iclasında iştirak edir və əməkdaşlıq üçün nəzərdə tutduqları tələbəni seçirlər. O tələbə təhsilini davam etdirməlidir və işə başlamaq istəmir. Lakin eyni zamanda təhsili davam etdirdiyi dövrdə o tələbə ilə müqavilə bağlayır, onu cəlb edirlər; həm onu bildiyində və əldə etdiyində daha real edirlər, həm özlərini elmlə təchiz edirlər, həm də maddi kömək olur; yəni hər cəhətdən faydalıdır.[192]

**Böyük elmi fəaliyyətin universitet rektorlarının vəzifəsi olması**

Məgər siz neçə il universitet rektoru olacaqsınız?! Hər halda, zaman məhduddur. Sizin indi çalışdığınız universitetdə sizdən öncə bir neçə rektor olmuşdur, inşallah böyük xidmətlər göstərdikdən sonra da digər şəxslər sizin yerinizi tutacaqlar. Bir neçə məhdud ildir - iki il, beş il, on il; çox məhduddur. Bu bir neçə ilə böyük işlərlə, elmi sahələrdə düzgün, həmişəyaşar və faydalı hərəkətlərlə can bəxş edin.[193]

**Universitet rektorlarının elmi məqbulluğu**

1985-86-cı illərdə bir söz dedim, amma bəzi adamların çox əbəs səs-küyünə səbəb oldu. O söz universitet rektorlarının elmi baxımdan üstün olması barədə idi. Yəni universitetin, ali təhsil müəssisəsinin başında duran şəxs elmi baxımdan məqbul olmalıdır ki, müəllimlərin qədrini bilsin.[194]

**Universitetlərdə elmi və mənəvi şəraitin yüksəldilməsi**

Çalışın universitetin həm mənəvi, həm də elm və tədqiqat şəraitini günbəgün yüksəldin.

Bir cəmiyyətin, bir toplumun, bir quruluşun ən böyük bəlası budur ki, özünü məqsədə çatmış fərz etsin, hərəkəti, fəaliyyəti, ümidi və amalı unutsun. Çünki dayanmağın özü geriliklə yanaşıdır, demək olar ki, geri qayıtmağın başqa bir ifadəsidir. Mühüm olan budur ki, bir gəncə lazım

---

[192] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.

[193] Yenə orada.

[194] Yenə orada.

olan amillərin inkişafına səy göstərilsin. O amillər də elm, tədqiqat, mənəviyyat, mənəviyyata və amallara diqqətdən ibarətdir.[195]

**İnkişaf proqramında tədqiqata və elmi yeniliklərə diqqət**

İran İslam Respublikasının möhtərəm prezidenti cənab Xatəmi!

Allah-Taalanın lütf və mərhəməti və həzrət Bəqiyyətullahın (ə) nəzər-diqqəti ilə konstitusiyanın 110-cu maddəsinə uyğun olaraq üçüncü beşillik proqramın ümumi siyasətləri elan olunur:

...İstedadların çiçəkləndirilməsinə diqqət, elmi yaradıcılığa və yeniliyə həvəsləndirmə, tədqiqat işini gücləndirmək və ölkənin elm və texnologiya qabiliyyətini yüksəltmək;

Tədqiqatın inkişafı və mütərəqqi texnologiyaların ötürülməsini sürətləndirmək üzərində təkidlə ölkənin müdafiə sənayesinin gücləndirilməsi, inkişafı və yenilənməsi.[196]

**Özünəinam və yenilik - universitetin missiyasi**

Bu gün universitet mənsublarının birinci missiyası bu istiqaməti qorumaq və ölkənin gənc nəslinin elm və düşüncə istedadını çiçəkləndirməyə çalışmaqdır. İslam quruluşu göstərmişdir ki, xalqımız həyatın bütün sahələrində inkişaf üçün böyük potensiala malikdir. İnqilabın bu uzun yoldakı məqsədi asılılıq və tabelikdən qurtulmaqdır. Elmi mühit dünyanın inkişaf etmiş elmindən bütün mümkün bəhrələri götürməklə yanaşı, özünə güvənməli, yaradıcı və araşdırıcı olmalıdır. Beynəlxalq istismarçı düzən özünün təbliğat amilləri ilə elm və texnologiya karvanından geriqalmış xalqlarda həmişə həqarət, gücsüzlük və ehtiyac hissini gücləndirməyə, onları daim özünə möhtac saxlamağa çalışmışdır.

Mərhum imamın universiteti İslama uyğunlaşdırmaq üzərində çoxlu təkidi bundan ötrü idi ki, ölkənin ali təhsilli gənc nəsli bu bacarıqsızlıq və ehtiyac hissindən qurtulsun və ölkəni keçmiş asılılığın təsirlərindən xilas etsin.

---

[195] Bazar ertəsi görüşlərində Əmir Kəbir adına Sənaye Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışından: 1999.

[196] Üçüncü beşillik proqramın ümumi siyasətlərinə dair möhtərəm prezidentə müraciətindən: 1999.

Bu gün ölkənin universitet mənsublarının - tələbələrin, müəllimlərin, rektor və müdirlərin üzərinə böyük vəzifə düşür. İnqilab gənc nəsildə özünəinamı dirçəldə bilmişdir. Sözügedən böyük və tarixi vəzifə bu mübarək hissi qorumaq, gücləndirməkdir.[197]

**Universitetlərdə elmi inkişafı davam etdirmək**

Həm universitet rəhbərləri olan siz, həm nümayəndəlik orqanında çalışanlar, həm universitet müəllimləri və digər məsul işçilər son 10-15 ildə elmi inkişafa doğru başlamış hərəkətin dayanmamasına çalışmalıdırlar. Bizim düşmənlərimiz universitetin hər hansı bir bəhanəyə görə tətil olunmasını və tələbənin dərs oxumamasını istəyirlər. Bir neçə il bundan öncə ölkədə bəzi mütəxəssislərin azlığından kədərlənirdik, indi bəziləri çoxluğundan kədərlənirlər ki, onları nə edək. Bəllidir ki, elmi hərəkət yaxşı olmuş və çoxlu fənlər yaranmışdır. Bunlar bir xalqın qənimətləridir, bunların qədrini bilmək lazımdır. Bu məsələlərdə problemin yaranmasına qoymayın.[198]

**Universitetlərdə parlaq istedadlara şərait yaratmaq üçün proqram hazırlamaq**

Mən bu münasibətlə buraya təşrif buyurmuş məmurlardan, həmçinin sözümün və səsimin çatdığı digər şəxslərdən istəyirəm ki, bu sahəyə həvəsləndirmə və şərait yaratma işlərini davam etdirsinlər. Bu gənclər çox yaxşı göstərdilər ki, əvvəla yaxşı istedadları var, ikincisi səy də göstərirlər. Biz daha nə istəyirik?! İstedad var və səy də göstərilir. Biz imkan yaratmalıyıq ki, istedadlı şəxs özünü elmi baxımdan inkişaf etdirə, tədqiqat baxımından zənginləşdirə bilsin və digərləri ölkənin bu sərvətindən istifadə etsinlər.

Universitetlərdə parlaq istedadlar üçün xüsusi mərkəzlər açılmalıdır. Necə ki, biz parlaq istedadlar üçün tam orta təhsil məktəbləri açdıq. Universitetlərin, tədqiqat mərkəzlərinin və bu işlərə ayrılan büdcənin bir

---

[197] Universitet mənsublarının və tələbələrin həzrət İmam Xomeyninin xatirəsinə həsr olunan xüsusi toplantısına müraciətindən: 1999.

[198] Bazar ertəsi görüşlərində İsfahan Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışından: 1999.

hissəsi nümunəvi istedadlara şərait yaratmaq işinə sərf olunmalıdır. Onlara şərait yaratmaq öz növbəsində digərlərini həvəsləndirir, cəlb edir və elmi inkişaf dairəsini genişləndirir. Parlaq istedadı olub ali təhsil almış və indi ölkəyə qayıtmış şəxslə maraqlanmalı, ona diqqət yetirməli, yolunu açmalı və digərlərini gücləndirməsinə imkan yaratmalıdırlar. Bu, əziz cənabların oturub proqram hazırlamalı olduğu işlərdəndir. Əlbəttə, mən eşitdim ki, Şərif Sənaye Universiteti bu məsələ ilə məşğul olur, lakin bir universitet kifayət deyil, bütün universitetlər məşğul olmalıdır. Ali təhsil aparatı bu məsələ ilə mütləq məşğul olmalıdır.[199]

**Ölkədə elmi məmurların ağır vəzifəsi**

Əvvəldə qeyd etidiyim məsələni yenidən təkrarlayıram: Elmi işdə çalışan məmurlar şərait hazırlamalı və hamı kömək etməlidir. Nümunəvi və üstün gənclər üçün həm riyazi, həm təbii, həm humanitar elmlərdə, xüsusən də fars ədəbiyyatında, dini elmlərdə, fəlsəfədə və düşüncə məsələlərində yollar açılmalıdır. Bütün bu fənlərdə parlaq istedadı olanların önünün açıq olmasına və inşallah inkişaf etmələrinə ehtiyacımız var. Bu, məmurların vəzifəsini ağırlaşdırır. Ümidvarıq Allah yenə də sizə yardım etsin, beynəlxalq yarışlarda və öz elmi işlərinizdə uğurlarınız günbəgün çoxalsın; həm özünüz sevinəsiniz, həm də bizi sevindirəsiniz.[200]

**Ölkədə elmin hərəkətini dayandırmaq üçün göstərilən səylər**

İkinci məsələ budur ki, bizim universitetlərimiz bir neçə ildir elmi baxımdan yaxşı inkişaf etmişlər. Əvvəldə alim olmağa sarı hərəkət zəif idi, amma indi hərəkət tempi artmış və daha sürətlənmişdir. Lakin bəzi əllər bu hərəkəti dayandırmağa çalışırlar. Biz əl tormozunu çəkib qatarı saxladıqda isə yenidən əvvəlki sürətinə çatana qədər çox vaxt itəcək.[201]

**Beyinlərin qaçışının qarşısını almağın yolu**

---

[199] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 1999.

[200] Yenə orada.

[201] Bazar ertəsi görüşlərində İsfahan Tibb Universitetinin müəllimləri ilə görüşdə çıxışından: 1999.

Əgər bu gənclərin elm və tədqiqat sahəsində inkişaf etməsini istəyiriksə, həm onların yaradıcılıq qüvvəsinə fürsət verməli, fikirləşməyə və işləməyə vadar etməliyik, həm də inkişaf etmələri üçün şərait yaratmalıyıq. Kim inkişaf etdiyini hiss etsə, onun üçün bu imkanı yaradan mühiti sevəcək. Biz ölkədə lazımi imkanları yaratsaq, gənclərimiz burada qalmağı üstün tutarlar; ən azı onların əsas hissəsi və əksəriyyəti belə edərlər və bu gün mövcud olan vəziyyət yaranmaz. Təəssüf ki, indi fəal və işgüzar beyinlər və parlaq istedadlar beynəlxalq müsabiqələrdə seçilir və asanlıqla ovlanırlar. Bununla maraqlanmaq lazımdır.

Hər halda, işi görən sizsiniz, nəticə ilə də siz maraqlanmalısınız. Əsas və mühüm amil budur ki, burada iştirak edən siz qardaş və bacıların hamısı - istər müəllimlər, istər məsul şəxslər çalışıb bu gəncləri dini, inqilabı və ölkəni sevən şəkildə yetişdirməlisiniz.

O deməsə də mən bilirəm ki, bir məsələ hamınızın ürəyində var. Mən də təsdiq edirəm ki, bu gün elm və tədqiqat işinə lazımi dəyər-qiymət verilmir; hamı vermir. Amma kim bacarırsa, bu qiyməti versin ki, digərləri, yəni əsasən dövlət məmurları da buna qatılsınlar.[202]

**Gələcəyi quracaq gəncləri yetişdirməyə dair ağır vəzifə**

Bu iş ağır məsuliyyət və şirin vəzifədir. Düşünürəm ki, sizin universitetinizin malik olduğu bu xüsusiyyətlərə - fəal beyinlərin və yaxşı istedadların toplanmasına, elm və tədqiqat işinin sürətliliyinə görə burada elmi fəaliyyət göstərmək, tədris və tərbiyə etmək, ölkənin, bizim tarix və taleyimizin gələcəyinə sahib olacaq gənclərin uğruna şahid olmaq bir elm adamı üçün çox şirindir. Allah bu vəzifəni sizin hamınıza mübarək etsin və bu ağır məsuliyyəti ən yaxşı şəkildə görmənizə yardım etsin![203]

**Universitetdə dindarlığı qorumaq**

---

[202] Şərif Sənaye Universitetindəki görüşdə çıxışından: 1999.

[203] Yenə orada.

Ölkənin elmi gələcəyinə qarşı məsuliyyət hissi baxımından universitetdə dindən çox ehtiyatlı olmaq sizin borcunuzdur. Və sözsüz ki, bu yalnız uşaqları mədudlaşdırmaq üçün deyil.[204]

**Universitet işinin cəmiyyətlə əlaqəsi**

Xoşbəxtlikdən, sizin universitetiniz bəzi universitetlər kimi bu böyük və yaxşı xüsusiyyətə malik olub cəmiyyətlə iş və elm əlaqəsi qura bilmişdir. Bu çox yaxşı təcrübədir.[205]

**Din təbliğinin kənarında elmi inkişaf**

Elmə diqqət, dərs oxumağa, dərin biliyə və elmi inkişafa əhəmiyyət - bu gün həqiqətən ölkə üçün çörəkdən də vacib olan bu işlər elə bir şey deyil ki, ölkə məmurları onlarla məşğul olmasınlar, yaxud universitetləri İslama uyğunlaşdırmaq istədiklərindən onları yaddan çıxarsınlar. Bu əsla düzgün deyil. İlk gündən deyilib ki, universitet elm yeridir. Lakin elm yeri veyil və özbaşına yer ola da bilər, olmaya da bilər; dindar yer ola da bilər, olmaya da bilər. Tövsiyə olundu ki, bu elm mərkəzi həm də dindar mərkəz olsun. Lakin heç zaman bu fikri irəli sürmək olmaz ki, dini cəhətlər üzərində təkid göstərildiyindən elmi cəhətlər ikinci dərəcəli olmuşdur. Xeyr, belə deyil.

Bunun üçün oturub düşünməli və plan hazırlamalısınız. Universitet rektorlarının keçirdikləri seminarlarda - mən də işlərimin çoxluğuna rəğmən, bəzən onlarla görüşürəm - bu suala maksimum diqqət yetirilməlidir: nə edək ki, universitet elmə qiymət verilən yer, elm şirinliyinin məkanı olsun?[206]

**Universitetdə siyasətbazlıq - elmi hərəkətə maneə**

Bilin ki, indi siyasət, partiya və bu kimi adlarla ölkə universitetlərində görülən işlərin çoxu bu qiymətləndirmənin və təsirin qarşısını almaq üçündür. Bir neçə ildir bizim universitetlərimiz bir qədər

---

[204] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2000.

[205] Bazar ertəsi görüşlərində İsfahan Sənaye Universitetinin məsul işçiləri ilə görüşdə çıxışından: 2000.

[206] Yenə orada.

elmi hərəkətə başlayıblar. Sənaye universitetləri - sizin universitetiniz, Şərif universiteti və digər bəzi universitetlər elm inkişafını göstərmişlər. Onlar bunun qarşısını almaq və maneçilik törətmək istəyirlər. Tələbə həyəcanlı "Yaşasın!", "Ar olsun!" şəraitinə düşdükdə daha dərs oxumağa həvəsi qalmaz, dərsdən möhkəm yapışan tələbəni də digərləri ələ salarlar və oxumaq mənfi bir iş sayılar. Siz buna çarə qılmalısınız. Bunlar əsaslı məsələlərdir. Tələbə nə zaman digər işlərlə məşğul olmuşdursa, elm də zəifləmişdir.[207]

**Universitetdə elmi zəiflədən amil: əxlaqi özbaşınalıq**

İkinci məqam budur ki, universitetlər nə zaman əxlaqi özbaşınalığa sarı getdilərsə, elm zəiflədi; bunun oyan-buyanı yoxdur. Bu məsələlərə diqqət yetirmək lazımdır, bunlar çox mühümdür. Ümidvarıq Allah ölkənin, elmin və tələbənin gələcəyini düşünən siz xeyirxah insanlara yardım etsin və mühüm işlər görə biləsiniz.[208]

**Universitetlərin elmi hərəkətinə qarşı mübarizə**

Ölkədə elmin hərəkəti yaxşıdır. Lakin bu hərəkəti dayandırmağa çalışırlar. Mən bunu hiss edirəm. Universitetlərə məxsus olan və zahirən siyasi görünən çoxlu məsələlər əslində belədir. Zahirən baş qatmaq, qızışdırmaq və mühiti gərgin saxlamaq üçündür, əsl məqsəd isə universitetin elmi hərəkətinin qarşısını almaqdır. Halbuki biz hələ çox geridəyik və çox çalışmalıyıq. Mənim universitetlərin məsul şəxslərindən, o cümlədən buraya təşrif buyurmuş siz möhtərəm cənablardan gözlədiyim budur ki, nəyin bahasına olursa-olsun universitetin elmi mühiti zərər görməsin, tələbənin və müəllimin diqqətini elm və tədqiqat işinin, xüsusən də universitetlərdə aparılan tədqiqat işinin əhəmiyyətinə yönəldin.[209]

**Beyinlərin qaçışının qarşısını almağın yolu**

---

[207] Yenə orada.

[208] Yenə orada.

[209] Bazar ertəsi görüşlərində Gilan Tibb Universitetinin məsul şəxslər ilə görüşdə çıxışından: 2000.

Bəzi cənabların toxunduğu məsələ doğrudur; yəni bəzi şəxslər elmi işlərini burada görmək istəyirlər, lakin mümkün olmadığından gedib başqa yerdə görürlər, 5-10 il orada qalır və sonra ölkəyə qayıdırlar. Belə nümunələr çoxdur. Sizin özünüzdə xoşbəxtlikdən, nümunəsi vardır; qayıdıb gəlir və burada işləri ilə məşğul olurlar. Fərz edək qayıtmaq istəməsələr də, biz burada oturub kədərlənmək və bu beyinlərin bayıra getməməsi barədə fikirləşmək əvəzinə, oraya gedib lazımi bacarıqlar əldə etdikdən sonra onları ölkəyə qaytarmaq barədə düşünək; yəni siz bunu düşünün. Əgər siz burada elmə şərait yaratsanız və tədqiqat işi ilə ciddi məşğul olsanız, oraya gedənlər qayıdarlar. Əgər elmin səviyyəsi yüksəlsə, getmək həvəsində olanların çoxusu getməyəcək, çünki burada elmlə məşğul ola bildiklərini görəcəklər.[210]

**Elm və tədqiqatın qarşılığında pul yığmaq mədəniyyətinə qarşı mübarizə**

İndi dünyada çoxları belə yaşayırlar. Ən azı son dövrlərdə, bizim son tariximizdə və həmçinin dünyanın digər yerlərində belə olub ki, elm, ədəbiyyat və tədqiqat adamları cəmiyyətin ən sərvətliləri olmayıblar. Maddi baxımdan cəmiyyətin ən sərvətliləri ya daha julik, ya daha dinsiz olanlar, ya əxlaqi dəyərlərə daha az əhəmiyyət verənlər və ya ən azı "qoçaq"lar olmuşlar. Dünyanın harasında ən elmlilər ən sərvətlilərdir?! Belə bir şey yoxdur. Bəli, alim məntiqli və normal şəraitlə təmin olunmalıdır, lakin onda alıb-satan dəllallıq peşəsi kimi pul yığmaq və sərvət toplamaq həvəsi yaratmaq olmaz; buna mane olmaq lazımdır. Mənim fikrimcə, bu siz cənabların görməli olduğu işdir. Bu gün də olmasa, bir gün bunu etməyə məcbursunuz.[211]

**Siyasətbazlıq amili**

Mənim bədbin olduğum məsələlərdən biri universitetlərin vəziyyətidir. Mən bu siyasi şüarların və universitetlərdə aparılan zahirən

---

[210] Şərif Sənaye Universitetinin məsul şəxsləri və müəllimləri ilə görüşdə çıxışından: 2000.

[211] Yenə orada.

siyasi işlərin arxasında çox təhlükəli olan başqa bir məqsəd görürəm və o, universitetdə elmi tətil etməkdir. Qalmaqal, şüar və hay-küy olan universitet elmlə lazımınca məşğul olmaz. Universitetdə həm müəllim, həm də şübhəsiz ki, tələbə üçün zəruri olan siyasi dərk siyasətbazlıqla, özü də onun pis növü ilə - təəssüf ki, bəzi universitetlərdə bu iş adi haldır - səhv salınmamalıdır.

Universitetdə çalışan siz cənablar bunu təmin etməlisiniz. Hər halda, müəllimsiniz, rektorsunuz, müxtəlif sahələrdə çalışırsınız. Siz universitetin özündən, yaxud xaricindən olan bəzi qüvvələrin çox kiçik və əhəmiyyətsiz məqsədlərdən - hansısa seçki, mövqe, layihə və ya şəxsdən ötrü universitetdə güclü təməl olan elmi, Allah eləməmiş, zəiflətməsinə mane olun. Siz bu barədə fikirləşin, proqram hazırlayın, aidiyyətli şəxslər də inşallah bütün ölkə üçün işlər görsünlər.[212]

**Düşməndən zərbə görən iki cəhət**

Mən ölkənin ən yüksək məmurlarına da bu məsələni demişəm və fikrim budur ki, biz iki cəhətdən düşməndən zərbə ala bilərik: biri iqtisadi məsələlər, biri də ölkədə elmi inkişaf cəhətindən.

Əlbəttə, elm inkişafı elə bir şeydir ki, onu kəmiyyət ölçüləri ilə ölçmək olmaz. Bu gün bizim tələbəmiz, universitetimiz, müəllimimiz, elm və təhsil fənlərimiz çoxdur, amma bəlli deyil ki, bunlarla düzgün nəticəni əldə etmək mümkün olsun.[213]

**Elmi nümunələr üçün imkanların və elmdə qısa yolların zəruriliyi**

Əgər sizin nəsil ölkəni elmi baxımdan özünütəminə çatdıra bilməsə, yəni biz yenə də digərlərinə yalvarmalı olsaq, oturub onların kəşf və ixtiralarını gözləsək və heç bir qısa yol tapmasaq, əmin olun ki, ölkənin taleyi yaxşı olmayacaq. Mən bu baxımdan çox nigaranam. Deyirlər elmi nümunələr gedirlər, daim də buna haqq donu geyindirirlər. Mənim müəllim və rektorlarla çoxlu iclaslarım olub, oturub birgə müzakirə etmişik. Dedikləri bu sözlərin heç biri, məsələn, təhlükəsizliyin

---

212 Yenə orada.
213 Universitet rektorları ilə görüşdə çıxışından: 2000.

olmamasına görə elmi nümunələrin qaçması düzgün deyil. Öz universitetlərimizdə laboratoriya, tədqiqat mərkəzləri və araşdırma imkanları olsa və gənc alimlərə iş verə bisələr, şübhəsiz, bu məsələlər qarşıya çıxmaz. Mənim fikrimcə, problemlər buna görədir.[214]

**Elm və sənayenin əlaqəsinə diqqət**

Elm və sənayenin əlaqəsi barədə bəzi sözlər deyildi. Bu da mənim nəzərdə tutduğum əsas məsələlərdən biridir. Mən həm öncəki hökumət zamanı möhtərəm prezidentə, həm indiki möhtərəm prezidentə təkidlə demişəm ki, tədqiqat və universitet nailiyyətləri ilə ölkənin real sənaye və əkinçiliyi arasında əlaqə məsələsinə özləri rəhbərlik etsinlər. Mən dedim ki, bu iş müxtəlif idarələrin fövqündə duran bir işdir. Prezident aparatında universitet və sənayenin əlaqəsi şöbəsi yaradılmalıdır. Möhtərəm prezidentlər çalışıb və hər ikisi bunu istəyiblər.[215]

**Tədqiqat üçün daha artıq büdcə**

Büdcəni mən təyin etsəydim, şübhəsiz, indi parlamentdə qəbul olunan büdcələrin çoxunun üzərindən xətt çəkib həmin pulu tədqiqat üçün ayırardım. Mənim fikrimcə, bu büdcələrin çoxunun bizə nə dünyəvi faydası var, nə axirət faydası, nə də bizi kiminsə yanında hörmətli edir.[216]

**Daha çox elmi inkişaf arzusu**

Ölkənin bütün universitetlərinin elmi, praktik və tədqiqat baxımından daha artıq inkişafını arzulayıram. Ümidvaram ki, bu arzuma çatacağam.[217]

**Elm və düşüncə nailiyyətləri ilə kifayətlənmək - inqilabın qətli**

Universitet bu sahədə mühüm rol ifa edə bilər. Mən elə universitetin tərəfdarıyam ki, qayda-qanunlu, tərəqqi istəyən, xalqa üz tutan, aktiv, elm

---

[214] Vəhdəti Gücləndirmə Şöbəsinin üzvləri ilə görüşdə çıxışından: 2001.

[215] Əmir Kəbir adına Sənaye Universitetinin müəllimləri ilə görüşdə çıxışından: 2001.

[216] Yenə orada.

[217] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

və düşüncə işinə həvəskar olsun. Mən heç zaman universitetə, universitet mənsublarına bu gün elm, düşüncə və mədəniyyət baxımından əlimizdə olanlarla kifayətlənib mühafizəkarlıq göstərməyi tövsiyə etmirəm. Xeyr, universitet inkişaf nərdivanı ilə daim qalxmalı və irəliləməlidir. Belə düşünürəm ki, mühafizəkarlıq, əlimizdə olanlarla kifayətlənmək, bütün elm və mədəniyyət sahələrində iradə və irəliləyiş istəyinin olmaması inqilabın qətlinə bərabərdir. İnqilab ümumiyyətlə, iri addım deməkdir. Onun ardınca da başqa iri addımlar atılmalıdır. Məfhumları düzgün anlamaq, bilmək və düzgün çərçivələrə salıb hərəkət etmək lazımdır.[218]

**Hökumətin elmi nümunələrə dair vəzifəsi**

Axırıncı məqam bu universitetdə və digər universitetlərdə olan olimpiada tələbələri və elmi cəhətdən seçilmiş tələbələr barədədir. Mən onların barəsində iki söz demək istəyirəm: birinci söz budur ki, hökumət və məmurlar onların qədrini bilsinlər, onlar üçün imkan yaratsınlar. Zehni və elmi baxımdan üstün olanlar da təkcə onlar deyillər. Gənc və qeyri-gənc tələbə və müəllimlər arasında belə olanlar çoxdur. İmtahanlarda, təcrübələrdə və müxtəlif müsabiqələrdə onların üstünlükləri tamamilə aşkar olunmuşdur. Dövlət onların qədrini bilməli, elmi inkişafına şərait yaratmalıdır. Onlar hansısa ehtiyac üzündən öz çevrələrindən uzaqlaşmamalıdırlar.[219]

**Tədqiqat üçün daha artıq büdcə və imkanları qanuniləşdirmək**

Məgər bu bir neçə ildə tədqiqat barədə az danışıblar?! Məgər az tövsiyə olunmuşdur?! Cənab Doktor Müin çıxışında elan edir ki, bizim tədqiqat problemimiz var və uyğun büdcəmiz yoxdur. Nə üçün yoxdur? Hökumət tədqiqata layiq olduğunu düşündüyü miqdarda müəyyən büdcə və müəyyən faizli bir layihə hazırlayıb parlamentə göndərsin, parlament də təsdiq etsin. O zaman hamı onu icra etməyə məcbur olar. Nə üçün etməzlər?! Mən siz millət vəkillərinə və həmçinin məmurlara deyirəm ki, indi nəzəriyyə yürütmək zamanı deyil, həyata keçirmək və icra etmək

---

[218] Yenə orada.
[219] Yenə orada.

zamanıdır. Bizim çatışmazlığımız əslində budur. Əlbəttə, bir zaman məmləkət məmurlarının ümumi səviyyəsi elə olmaya bilər, ölkənin elm və tədqiqata ehtiyacını anlamaya bilərlər. O zaman o qədər demək lazımdır ki, hamı anlasın. Lakin belə olmadıqda və məmurlar daim bu işlə məşğul olan şəxslərə tövsiyə etdikdə işin əngəlini tapmaq lazımdır. İşin əngəli budur ki, bunlar həyata keçmir. Bu yaxşı ideya və təfəkkürləri ümumi sahələrdə həyata keçirin.[220]

**Elm mərkəzləri və universitetlərlə sənayenin əlaqəsinin zəruriliyi**

Buna əsasən, elm və sənaye fəaliyyətinin hər ikisi lazımdır. Odur ki, mən sənaye, yaxud elm işi ilə məhdud etmək istəmirəm. Həqiqətən hər ikisi lazımdır. Onun bir hissəsini siz edirsiniz, bir hissəsini də başqa yerlər, o cümlədən universitetlər etməlidir. Sizinlə universitetlərin, elmi qurumların arasındakı əlaqə də günbəgün möhkəmlənməlidir. Hansı sahədə olsanız - istər Müdafiə Nazirliyində, istər korpusda, istər orduda bizim indi malik olduğumuz elmi beyinləri və universitetlərdə elmi baxımdan yaxşı işlər görən və nailiyyətlər əldə edən yaxşı gəncləri özünüzə birləşdirməlisiniz. Bu zaman həm onların elmi əməl və təcrübə işlərinə qatılar, bir addım irəliəyər, həm də sizin özünüz onların elmi nailiyyətlərindən istifadə edərsiniz. Əlbəttə, sizin əksəriyyətiniz elm adamlarısınız. Çünki elm olmasa, sizin gördüyünüz bu işlər şübhəsiz, baş tutmaz. Sizin mürəkkəb sənaye işiniz elmə əsaslanır və çox da dəyərlidir. Lakin onu genişləndirin, istifadəsi mümkün olan bütün elmi kadrlardan istifadə edin. Təbii ki, bu işi geniş miqyasda hökumət etməlidir. Mən də dəfələrlə həm cənab prezidentə, həm dövlət və universitet məmurlarına tövsiyə etmişəm. Gərək çalışıb ölkənin sənayesini bütün sahələrdə elm mərkəzlərinə birləşdirsinlər.[221]

**Tədqiqat büdcəsinin və imkanlarının azlığı**

---

[220] Bazar ertəsi günlərinin ümumi görüşündə çıxışından: 2001.

[221] Korpusun Hərbi Hava Qüvvələri layihəsinin məsul şəxsləri ilə görüşdə çıxışından: 2001.

Bu sahədə bizim bəzi imkanlarımız var; siz çıxışlarınızda qeyd etdiniz və mən də xəbərsiz deyiləm. Ölkəmizin indiki çatışmazlıqlarını göstərən statistik rəqəmlər də vardır: ölkənin ümumi büdcəsində tədqiqatın payının çox az olması, universitet, tələbə və məktəblərin ehtiyacı olan emalatxana və laboratoriyalar problemi, sizin toxunduğunuz və çox acınacaqlı məsələlərdən olan elmi jurnalların olmaması problemi. Bunların xərcli azdır, amma bizim üçün bu qədər problem olmuşdur.[222]

**Büdcə təyin edərkən elm və tədqiqatın birinciliyi**

Fərz edək büdcənin müəyyən miqdarı üstündə Təhsil Nazirliyi ilə Sənaye və Mədən Nazirliyi, yaxud məsələn, Əkinçilik Nazirliyi arasında mübahisə yaranır və həqiqətən iş o yerə çatır ki, biz büdcəni ya bu nazirliyə verməliyik, ya o biri nazirliyə. Sizin fikrinizcə hansı birincidir?

Mənim fikrim budur ki, Sənaye və Mədən Naziri, yaxud Əkinçilik Naziri bilməlidir ki, onların sahəsinin inkişaf etməsi üçün elm və tədqiqat inkişaf etməlidir. Siz görün bu gün genetik mühəndislik dünyada necə inkişaf edir. Bizim bu gün özümüzün ən yüksək növdən olan az məhsuldar düyümüzü çox məhsuldar bir növə çevirmək problemimiz var. Nə üçün bu elmi sahəyə girişmirik ki, məsələn, ölkənin mövcud meyarlarına əsasən, istehsalı sərf etməyən Sədri düyüsünü daha məhsuldar edək? Nə üçün Amul-2 və Amul-3 düyülərini - yəni İranın ən aşağı düyü növlərini becərdirik? Mən Gilana son səfərimdə dedim ki, biz bəlkə tədqiqat fəaliyyəti ilə bu yaxşı və xoşagələn düyünü çox məhsuldar bir düyüyə çevirə bildik. Bu iş qeyri-mümkündür?! Bu gün dünyada açılmış bu elmi tədqiqat yoluna və illərdir bu yolda aparılan işlərə rəğmən, bizim burada "belə bir şey mümkün deyil" - deməyimiz düzgündür?! Bunu qəbul etmək olar?![223]

**Tədqiqat - digər sahələrdə inkişafın şərti**

---

[222] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışından: 2001.

[223] Yenə orada.

Elm və tədqiqat ölkənin əkinçiliyi, sənayesi, mədəniyyəti və bir çox başqa sahələri üçün şərtdir və büdcədə buna riayət olunmalıdır. Buna yalnız hökumət deyil, parlament də riayət etməlidir. Bu iş üçün bizdə milli iradə olmalıdır. Sizin komissiyanız elmin mövqe və məqamını elə müdafiə etməlidir ki – bu həm də haqlı müdafiədir - Sənaye, Əkinçilik, yaxud Ticarət komissiyası bu komissiyanın işinin onlarla rəqabətdə olduğunu və onların payını almağa çalışdığını hiss etməsin; əksinə, bilsin ki, bu iş onlara köməkdir, onların işinə müqəddimədir və fəaliyyətlərini genişləndirə bilər.[224]

**Ölkənin elm və tədqiqat maneələrini aradan qaldırmaq**

Başqa bir məsələ budur ki, biz indi problemin harada olduğunu tapmalıyıq. Məsələn, dayandığı müşahidə olunan bir kanal var və biz bu kanalın ortalarında problem yarandığını bilirik. Bunu axtarıb tapmalıyıq. Bu çox əhəmiyyətlidir. Bəzi işlər asan və müsbət təsiri çoxdur. Bəzi işlər isə çətindir, lakin onların da müsbət təsiri çoxdur. Bunları axtarıb elə bir iş görmək lazımdır ki, ölkənin elm və tədqiqat potensialı həqiqətən düzgün məcrasına düşsün. Mənim fikrimcə, əgər əvvəldən başlayası olsaq, məktəblərdən başlamalıyıq.[225]

**Sənayenin universitetlərin tədqiqat mərkəzləri ilə əlaqəsinin çatışmazlıqları**

Əsaslı məqamlardan başqa birisi elm və sənayenin birləşdirilməsidir. Mən universitetlərin məsul şəxsləri ilə və hökumətlərlə bu barədə söhbətlər etmişəm; həm qabaqkı hökumət zamanı cənab Haşimiyə demişəm, həm indiki hökumət zamanı cənab Xatəmiyə. Bu heç bir nazirliyin işi deyil, yalnız prezidentin işidir. Sizə deməyim də bundan ötrüdür ki, bununla ciddi məşğul olun və həyata keçməsini istəyin.

Mənim fikrim budur ki, bu gün ölkənin sənayesi ilə elmi qurumları arasında qarşılıqlı işgüzar əlaqə və lazımi əməkdaşlıq mövcud deyil. Dəlili də budur ki, mən Əmir Kəbir Universitetinə, Şərif Sənaye Universitetinə və

---

[224] Yenə orada.
[225] Yenə orada.

bəzi başqa təhsil və tədqiqat mərkəzlərinə gedəndə tədqiqatçılar mənə ölkənin sənaye qurumlarının onlardan kömək istəməməsindən şikayət edirlər. Sonra nümunə kimi onlara müraciət olunan və çox uğurla yerinə yetirdikləri işlərin siyahısını oxuyurlar və mən doğru dediklərini görürəm. O işlərin bəzisi müdafiə məsələlərində olub və mən işin içində olub görmüşəm ki, bunlar istər müharibə dövründə, istər ondan sonra mühüm işlər görmüşlər və bacardıqlarına inanırlar.

Mən axırıncı ramazan ayında burada 700-800 universitet müəllimi ilə geniş iclas keçirdim. Çoxları çıxış etdilər. Onların əksərinin gileyi bu idi ki, ölkə sənayesində bizim elmimizdən istifadə olunmur. Bu bir tərəfdən. Digər tərəfdən də bizim sənayemiz həmin zavodda işə götürülmüş bir neçə mühəndisin inhisarında qalmışdır. Halbuki sənayeyə yeni düşüncə, ideya və tədqiqat qoşulsa, işə başqa bir sürət verər və yenilik yaradar.[226]

**Qərb ölkələrində elm və sənayenin möhkəm əlaqəsi**

Xaricdən gələn bəzi alim dostlarla görüşlərin birində eşitdim ki, hansısa Avropa ölkəsində tələbələr öz elmi işlərini müdafiə edəndə həmin ölkənin əsas sənaye sahiblərindən bəziləri də iştirakçılar arasında oturmuşdular. Deyir biz öyrəndik ki, onlar tələbələrin bəzilərini indidən seçməyə və onlarla müqavilə bağlamağın nə zaman lazım olduğunu öyrənməyə gəlmişlər. Deyir həmin iclasda insanları dərindən tanıyan sənaye müdiri, yaxud sənaye sahəsinin elmi işlər üzrə müavini bəzi tələbələrlə danışdı ki, təhsillərini bitirdikdən sonra – onlar bəlkə də təhsillərini davam etdirəcəkdilər – onları zavoda və sənaye işinə göndərsin. Mən o qardaşlara dedim ki, o vəziyyətlə bizim bu vəziyyətimiz arasında nə qədər fərq var?! Bunlar bir-birinə birləşməlidir. Birləşmənin yolu da budur ki, həm ölkənin sənayesinə, həm də elm və universitet qurumlarına nəzarəti olan bir mərkəz bu işi öhdəsinə götürsün. Mən həm qabaqkı möhtərəm prezidentə, həm də indiki möhtərəm prezidentə dedim ki, prezident aparatında Sənaye və universitetin əlaqə mərkəzi yaradılsın.[227]

---

[226] Yenə orada.
[227] Yenə orada.

**Hökumət və parlament elm və sənayenin yaxşılaşdırılması üçün məsuliyyət daşıyır!**

Bizim hamımız ölkənin elm və sənaye reallıqlarını bilirik. Mən statistik rəqəmləri dəfələrlə görmüşəm, reallıqları bilirəm və bu vəziyyətdən əziyyət çəkirəm, lakin çarəsinin də sizin əlinizdə olduğunu düşünürəm. Məncə daim danışılan bu milli iradə parlamentin, hökumətin, xüsusən də nazirlərin iradəsi deməkdir. Mən də sizin qulluğunuzdayam. Bunun üçün nə vaxt mənim ölkədə hərəkət yaradacaq bir mövqe bildirməm lazım olsa, bunu edərəm; çünki mən buna inanıram. Lakin əməli işi siz görürsünüz. Odur ki, bu işlə məşğul olmalısınız.[228]

**Elmin faydasının universitetlərdə dindarlığın artmasından asılı olması**

Əgər öyrətdiyiniz tələbələrin həqiqətən ölkənin və xalqın işinə yaramasını istəyirsinizsə, onları dindar etməlisiniz. Dindar olduqda elmləri həqiqətən xalqın işinə yarayacaq. Sözsüz ki, bu iş yalnız nümayəndəlik orqanlarının üzərinə düşmür, universitetin məsul şəxslərinin, müəllimlərin və dərs vəsaitinin də üzərinə düşür. Hamı ümumilikdə bu işə kömək etməlidir. Bunun elmi işlə heç bir ziddiyyəti yoxdur. Onunla da lazımınca məşğul olun. Bu iki faktor ruh və cisim kimi həmişə bir-birinin yanındadır; bu iki kanal bir-birinə birləşməlidir.[229]

**Qərbin elm mərkəzlərinin İslam fəlsəfəsinə diqqəti**

İslam fəlsəfəsinin varlıq aləminin və fəlsəfənin mühüm məsələlərində çox əhəmiyyətli sözləri var. Bu gün dünyanın mühüm beyin mərkəzlərinin çoxunda İslam fəlsəfəsi hörmətə və diqqətə layiq bir fenomen kimi müzakirə olunur. Məşhur universitet müəllimlərindən biri - adını çəksəm, hamınız onu tanıyarsınız. Allah rəhmət eləsin! Dəyərli universitet müəllimlərindən idi; həm humanitar elmləri bilirdi, İslam fəlsəfəsini oxumuşdu, həm də Qərb elmlərini, Qərb fəlsəfəsini, ədəbiyyat və tarixi öyrənmişdi və xarici dilləri mükəmməl bilirdi – vəfatından bir neçə il öncə

---

[228] Yenə orada.

[229] Bazar ertəsi günlərinin ümumi görüşündə çıxışından: 2001.

yaradıcılıq məzuniyyəti çərçivəsində səhv etməsəm, bir müddət Avropada qalmışdı. O, İrana qayıdanda bizim dostlarımıza demişdi və onlar da mənə söylədilər ki, bu gün humanitar elmlərə və fəlsəfəyə dair məşhur elm mərkəzləri və universitetlər Şeyx Ənsari və Molla Sədra kimi şəxsiyyətlərə təşnədirlər.

Şeyx Ənsari İslam hüqunun nümayəndəsidir, Molla Sədra da İslam fəlsəfəsinin. Bunlar - Şeyx Ənsari və Molla Sədra orada çox da tanınmasalar da, şübhəsiz ki, hər ikisi İslam dünyasının dahilərindəndir. Onlarla tanış olan hər bir kəs qarşılarında hörmət və təzim hissi keçirir. Biz bu böyüklərin qədrini bilmirik. İslam fəlsəfəsinə, Molla Sədra fəlsəfəsinə, mərhum Əllamə Təbatəbainin və bu sahələrdə işləyənlərin tədqiqatlarına universitet proqramlarında diqqət yetirilməlidir.[230]

**Tədqiqat şəhərcikləri yaratmaq**

Bizim üçün göstərilən başqa bir məsələ tədqiqat şəhərcikləridir. Bu sahədə fəaliyyət göstərən dostların bəzisi iki-üç il qabaq İsfahandan buraya gəlib bu şəhərçiklər barədə geniş söhbət etdilər. Mən də bu barədə fikirlərimi bildirdim və zənnimcə, bizim dəftərxanamız o zaman bununla məşğul oldu. Lakin bizə göndərilən analitik və kompleks araşdırmadan görünür ki, bu məsələyə çox diqqət yetirmək lazımdır; İsfahanın tədqiqat və elm şəhərciyini mümkün və tələb etdiyi qədərincə yaxşılaşdırmaq və təkmilləşdirmək, eləcə də yeni şəhərciklər yaratmaq üçün kömək göstərmək və dəstək vermək lazımdır. Bu, mühüm işlərdəndir. Əlbəttə, bu məlumatlarda mühüm görünən odur ki, şəhərciklər düzgün idarə olunmalıdır. Yəni düzgün elmi istiqaməti və idarəsi olmalıdır, məlumatlı şəxslər proqram hazırlamalı, nə iş gördüklərini bilməli və məqsədlərini müəyyən etməlidirlər ki, büdcə də həqiqətən öz yerində işlədilsin.[231]

**Tədqiqat çatışmazlıqlarını düzəltmək üçün məmurların əməli işi**

Tədqiqat sahəsində çox danışılmışdır və çoxlu dostlar istər bizimlə görüşlərdə - bu barədə universitet müəllimləri, hökumətdən,

[230] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2001.
[231] Yenə orada.

parlamentdən və digər yerlərdən olan elm və mədəniyyət işçiləri ilə görüşlər keçirilmişdir – istər bizim qulağımıza çatan ümumi çıxışlarda xoşbəxtlikdən, tədqiqatın əhəmiyyətinə təkid göstərirlər.

Əvvəla biz gözləyirik ki, bunlar söz həddində qalmasın. Çünki bir neçə ildir tədqiqata dair bu təkidlər olunur, lakin məsul şəxslərin – istər məmurların, istər universitetlərdə elmi işlə məşğul olanların hansının əli bizə çatırsa, keçmiş gileylərinin hələ də yerində qaldığını görürük: onlar düzgün iş görülmədiyini və filan qədər çatışmazlığın olduğunu deyirlər.

Mənim fikrimcə, bu müzakirənin yeri də bu şuradır. Əlbəttə, prinsipcə, istəyən Təhsil, Tədqiqat və Texnologiya Nazirliyi və Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyidir. Bunu hamıdan çox bunlar istəyirlər. Parlament qanun qəbul etməli, İdarəçilik və Planlaşdırma Komitəsi büdcə yardımları göstərməlidir. Lakin bunların hamısı ilə maraqlanmaq lazımdır və mənim fikrimcə, bu şura bunu edə bilər; həm dəstəyə borclu olan şəxslərlə söhbət edər, həm də işə məsuliyyətli şəxslərdən, yəni hökumətdən, parlamentdən və digər qurumlardan bu işlə məşğul olmalarını və tədqiqata həqiqətən dəyər vermələrini istəyər.[232]

**Proqram yoxsulluğunun həlli üçün ciddilik**

Bu gün elm, tədqiqat və sənaye məsələsi İslam Respublikası quruluşunun ən vacib və ən təcili işlərindən biridir. Biz bu sahədə geri qalmışıq. Bu geriliyin müxtəlif cəhətlərini mən dəfələrlə universitet söhbətlərimdə demişəm. Bu barədə yeni söz danışmaq istəmirəm. Bir neçə ay bundan əvvəl Əmir Kəbir Universitetində, ondan qabaq da digər universitet iclaslarında elm və tədqiqat sahəsində proqramlaşdırmanın yoxsulluğuna dair, həmçinin elm və sənayenin birləşdirilməsi barədə öz fikirlərimi geniş surətdə dedim və demək olar ki, bu işdə sizdən kömək istədim. Yəni bu işi görməli olan mən deyiləm, sizsiniz. Biz bu sahədə quruluşun və dövlətin diqqətini əks etdiririk. Əlbəttə, bununla da kifayətlənmirik; təkcə sizə, yaxud cənab doktor Müinə deməklə kifayətlənmirik. Mən hər biri bir münasibətlə gələn parlamentə, cənab prezidentə və dövlət məmurlarına da bunu təkidlə demişəm. Lakin belə

---

[232] Yenə orada.

işlərin ciddi iradəyə ehtiyacı var, kəmər bağlayan lazımdır. Bu sahədə kəmər bağlayan kimdir? Təhsil Nazirliyi və universitetlərin idarəsinə məsuliyyət daşıyan siz cənablar. Bu məsələni ciddi saymaq və ciddi məşğul olmaq lazımdır. Bu elə məsələlərdən deyil ki, təkrar etməklə və danışmaqla həll olunsun.[233]

**Ölkənin elm və qərar mərkəzləri arasında həqiqi əlaqə**

Mən prezidentlik dövrümdən indiyə qədər universitet adamı olan müxtəlif nazir və məmurlara həmişə tövsiyə etmişəm ki, icra işinin yanında mütləq universitetdə öz əməli işlərini davam etdirsinlər. Yəni israrlı olmuşam ki, qərar mərkəzləri ilə ölkənin elmi çevrəsi arasında həqiqi və praktik əlaqə qorunsun. Mən hətta o zaman Baş nazirimiz cənab Mühəndis Musəviyə - əlbəttə, o zaman o, vaxt tapmadı - və digər nazirlərə təkidlə tövsiyə edirdim ki, universitetə getsinlər, dərs götürsünlər, həftədə 1-2 saat elmi mühitdə olsunlar. Yəni universitet əhəmiyyətli yerdir.[234]

**Büdcə ayrılmasında elm və tədqiqatın prioritet olması**

Dostlar məndən tədqiqat büdcəsinə dair kömək etməyimi istədilər. Əmin olun ki, ölkənin büdcə bölgüsü və uyğun prioritetlərin təyini rəhbərin ixtiyarında olsaydı, mən elm və tədqiqatı birinci prioritetlərdən edərdim. İndinin özündə də müvafiq mərkəzdə çalışan dostlara, burada iştirak edən möhtərəm nazirin özünə və prezidentə ölkənin birinci dərəcəli 3, yaxud 4 prioritetini elan edərkən elm məsələsini dedim.[235]

**Ölkə problemlərinin yeganə uzunmüddətli həll yolu**

Mənim ciddi fikrim budur ki, ölkə problemlərinin uzunmüddətli həlli bu yolla mümkündür, başqa yolla yox. Yəni biz elm və tədqiqat sahəsində inkişaf etməliyik. Elmin bəhrə verməsi, elm səviyyəsinin yüksəlməsi üçün də mütləq tədqiqat lazımdır. Tədqiqat olmadan mümkün deyil. Buna görə, mənim bu sahədə edə biləcəyim kömək budur ki, dövlət

---

[233] Universitet rektorları ilə görüşdə çıxışından: 2001.
[234] Yenə orada.
[235] Ölkə universitetlərinin müəllimləri ilə görüşdə çıxışından: 2002.

məmurlarına təkidlə tövsiyə etməliyəm və mütləq edəcəyəm. İnşallah həm Təhsil Nazirliyi, həm İdarəçilik və Planlaşdırma Komitəsi, həm də digər aidiyyətli orqanlar və prezident aparatının bəzi şöbələri mütləq bu məsələ barədə ciddi işlər görsünlər. İslam Şurası Məclisi də bu ehtiyac üçün vəzifəsini yerinə yetirməlidir.[236]

**Səmərəsiz büdcələrin tədqiqatın xeyrinə silinməsi**

Ölkədəki büdcələrin çoxu prioritet deyil. Seminar və toplantıların bir çoxu faydasızdır. Fikrimcə, mən ötən il, yaxud iki il öncə burada dedim ki, bu məclis əsl seminardır, heç bir xərci də yoxdur. Bəzi alimlər bir yerdə əyləşib ölkənin mühüm məsələlərindən biri - yəni ali təhsil barədə sözlərinin məğzini deyirlər. Əgər pul və zaman baxımından seminarlar üçün çəkilən xərclərin faydası olmasa - çox zaman da faydası yoxdur – onlar kənara qoyulmalıdır. Nisbətən çoxlu büdcə alan bu mərkəzlərin çoxunun fəaliyyəti əsla prioritet deyil. Bu büdcələr mütləq tədqiqat işlərinə, Paster institutuna və bu kimi digər sahələrə yönəlməlidir. Dövlət qurumları bu məsələ ilə maraqlanmalıdırlar. Mən də inşallah yazılı şəkildə bildirəcəyəm.[237]

**İcraçı məmurların elm və tədqiqat mərkəzləri ilə əməkdaşlığı**

Sənaye məsələləri ilə məşğul olan möhtərəm nazirlərin biri bir məsələ barədə mənimlə söhbət edir və bir iş görmək istədiyini deyirdi. Mən dedim ki, siz hökumətin mərkəzinə çox yaxın olan bu Əmir Kəbir Universitetinə gedin. Mən oraya gedib sənaye işlərini və məhsullarını görmüşəm. Görün problemlərinizi nə qədər həll edə bilərsiniz. Bizim bu məmur dostumuzun çox ürəyincə oldu, zənnimcə, bu işlə maraqlandı, yaxşı nəticələrə çatdı, yaxud yaxın gələcəkdə çatacaq. Əgər məmurlar universitetin yolunu öyrənsələr, elm və tədqiqat mərkəzləri ilə ünsiyyətdə olsalar, şübhəsiz, bu mərkəzlərin işi yaxşılaşacaq, elm və tədqiqat mərkəzlərinin də işi gedəcək. Ümidvarıq inşallah inkişaf etdikcə bu məqsədlərə yaxınlaşacağıq.[238]

---

[236] Yenə orada.
[237] Yenə orada.
[238] Yenə orada.

**Universitetin elm və düşüncə fəaliyyətinə optimistlik**

Mən universitetə və tələbə hərəkətinə optimistəm. Danışıqlardan isə göründü ki, bəzi tələbələr belə deyillər. Bu optimistlik xam xəyaldan qaynaqlanmır. Hər halda, biz ömrümüzü bu işlərlə keçirmişik. Bu yaşda və mənim vəziyyətimdə bir insan üçün xamxəyal olmaq çox da ehtimal olunmur. Mən universitetlərin vəziyyətindən - istər elmi, istər mədəni, istər əxlaqi və mənəvi vəziyyətindən geniş məlumat alıram. Bütün bu məlumatların nəticəsi dediyimdir: optimistlik.[239]

**Elmi nümunələrin təcrid olunması - ölü, yaxud gərgin mədəni şəraitin nəticəsi**

Təəssüf ki, bir qrup siyasətpərəstlik və bir qrup antisiyasət məqsədi ilə daim ölkənin elmi-mədəni ab-havasını ölü sükutuna, yaxud burulğan sayağı təlatümə çevirmək istəyirlər ki, bu çaxnaşmada yalnız hakimiyyət, sərvət və tribuna sahibləri təsirli olub hərəkət yarada bilsinlər, ictimai təfəkkür səviyyəsini endirib bütün milli fürsətləri hədər versinlər, xalqın sinirlərini korlasınlar, yanlış və dəyərsiz qəbilə çatışmalarına, yaxud azğın əcnəbi mədəniyyətinə rəvac versinlər, nəticədə ağıl və duyğu sahibləri sakit olsunlar, səssiz qalsınlar, qəlb və ağıl sahibləri kənarda qalsınlar, təcrid olunsunlar, yorulsunlar və unudulsunlar. Belə bir şəraitdə cəmiyyət inkişaf etməz, iddialar təkrar, sabit, dayaz və dəyərsiz olar, heç bir düşüncə istehsal olunmaz və yeni söz deyilməz, bir qrup adam daim özünü təkrarlayar və başqa bir qrup yalnız Qərbi tərcümə edər, öz qabaqcıl şəxsiyyətlərinə tabe olan cəmiyyət və hökumət də zəifliyə və geriliyə düçar olar.[240]

**Hərbi qurumların universitetlərdən istifadəsi**

Elm və tədqiqat işinizə ciddi yanaşın. Bu çox yaxşı işdir. Sizə demək üçün qeyd etdiyim başqa bir məqam budur ki, mütləq universitetlərdən istifadə edin. Əlbəttə, gördüm ki, bəzi peşəkar və mahir universitet

---

[239] Universitetlərin nümunəvi tələbələri ilə görüşdə çıxışından: 2002.
[240] Elmi hövzə tədqiqatçılarının nəzəriyyə kürsüləri haqda məktubuna cavabdan: 2003.

müəllimlərindən istifadə etmisiniz. Bu işi davam etdirin. Sizin ehtiyaclı olduğunuz bir çox işlərin elmi universitetlərdədir. Onlar sınaq üçün yer tapmırlar və sizin də o elmə ehtiyacınız var. Buna görə, ölkənin əsasən universitetlərdə olan elmi ilə əlaqənizi bacardıqca möhkəmləndirin, tədqiqat və elm işini də inkişaf etdirin.[241]

**Elm və tədqiqata ciddi yanaşmaq**

Mənim fikrimcə, mühüm olan bəzi dostların da toxunduğu bir məqamdır. O məqam ölkədə elmə, tədqiqata, elmin və tədqiqatın idarəsinə baxışdır. Bu barədə ciddi işlərə zəruri ehtiyac strateji bir məsələdir. Şübhəsiz ki, bu sahədə mənim də üzərimə məsuliyyət düşür və onu yerinə yetirəcəyəm.[242]

**Elmin lazımi məqsədlərə uyğun inkişafı**

Elm dəyərlidir. Elmin dəyərini artıran amillərdən biri də budur ki, ehtiyaclara uyğun olaraq tənzimlənmiş müəyyən məqsədlərlə inkişafa doğru getsin. Fikir mexanizmi elm istehsal edən qurumları alimdən, alim düzəldən sinifdən və alimin fəaliyyət göstərdiyi mərkəzdən istifadəni tənzim edib, onların hamısından yaxşı bəhrələndirə bilər. Bunlar lazımi işlərdir, mütləq görülməlidir. Mən də Allahın lütfü ilə bu sahədə mümkün səyimi mütləq göstərəcəyəm.[243]

**Geriliyi düzəltmək üçün istedadlı gənclərə şərait yaratmaq**

Mən düşünürəm ki, gənclərimizin istedadından daha artıq istifadə olunmalıdır. Gənclər öz istedadlarını ölkələrinin inkişafı və xalqın məcburi tarixi geriliyini düzəltmək istiqamətində işlətmək üçün yer tapmalıdırlar. Bu xalq özünün dəyərli istedadını bu gün tapmamışdır. Bu bizim yerli sərvətimizdir, tariximizə məxsusdur və bizdə dərin kökü olan bir məsələdir. Siz görün elm tarixi nə qədər iranlı alimi siyahıların başında və özünün ən yaxşıları sırasında qeyd etmişdir. Bunlar həqiqətdir. Bu gün də

---

[241] Keşikçilər Korpusunun Hərbi Dəniz Qüvvələrinin brifinq zalında çıxışından: 2003.
[242] Şəhid Behişti Unversitetinin müəllimlərilə görüşdə çıxışından: 2003.
[243] Yenə orada.

biz həmin xalqıq. Bu tarixi istedada rəğmən, uzun əsrlər boyu, xüsusən də müstəmləkənin və xarici istismarın başlandığı dövrdən iranlının yüksək istedadı vurulmuş və qarşısı alınmışdır.[244]

**Faydalı və insani texnologiyaları seçmək**

Əlbəttə, düzgün iş budur ki, məsul şəxslər indidən əsas istiqamətləri müəyyən etsinlər və bizim hansı texnologiyanı istədiyimizi görsünlər. Çünki hər bir texnologiya yaxşı deyil. Texnologiya mütləq bir dəyər deyil, təbiətdə mövcud olan imkanlardan istifadə etmək üçün bir vasitədir. Biz baxmalıyıq ki, hansı mərkəz və hansı məqsədlə bundan istifadə edir. İslam düşüncələrindən ilham almış düzgün və insani məqsədləri nəzərə alaq və bəşərin həyat səviyyəsinin yüksəlişi, birinici növbədə öz ölkəmiz və cəmiyyətimiz, ikinci növbədə isə bütün dünya üçün doğrudan da faydalı və təsirli olan texnologiyanı seçək və üzərində işləyək.[245]

**Proqram hazırlayarkən elm və düşüncə sahiblərindən istifadə**

Həm cənab Mühəndis Çəmran, həm də cənab Əhmədinejad qeyd etdi ki, işlərdə elmi üsullardan istifadə olunur. Bu çox zəruri və lazımdır. Mən də bu məsələ üzərində təkid göstərirəm. Elmdən, düşüncədən, proqramdan və elmi şəxslərdən itifadə edin. Bacardığınız qədər ağıl sahiblərinin fikirlərini öz ağlınıza əlavə edin və ağıl ehtiyatınızı gücləndirin ki, işləri görə biləsiniz.[246]

**Elmi nümunələrə özəl tədqiqat imkanları yaratmaq**

Bizim istedadlı gənclərimiz var. Bu gənclərlə xüsusi maraqlanmaq lazımdır. İnsan həqiqətən dəyərli istedadlar müşahidə edir. Onların bəzisi müəyyən mütaliə və araşdırmalar üçün xarici ölkələrə gedir və orada yaxşı qarşılanırlar. Orada bu qrupu həvəsləndirirlər, onlar üçün imkan yaradırlar. Hamısı da pul məsələsi deyil ki, deyək bu gənc oranın puluna cəlb olunur. Düzdür, beləlləri də ola bilər. Lakin onlar üçün mühüm olan

---

[244] Parlaq istedadlı şagirdlərlə görüşdə çıxışından: 2003.
[245] Elmi nümunə tələbələrlə görüşdə çıxışından: 2003.
[246] Tehran şəhərinin meri və bələdiyyə üzvləri ilə görüşdə çıxışından: 2003.

tədqiqat, inkişaf və elmi yenilik imkanıdır. Biz müxtəlif fənlərdə çalışan bu gəncləri əldən verməməliyik. Əlamətlər göstərir ki, bunların çox dəyərli və bəzən nadir istedadları var. Xüsusi bir qurum bu gənclərin işlərini yoluna qoymaq məsuliyyətini üzərinə götürməlidir. Əgər bu qrup bir imtiyaza malik olmaq istəsə, qarşılarında idarə dolanbacları, müxtəlif problemlər, təhqir və sair işlər olmasın, həmin qurum həqiqətən xüsusi tərzdə onların əlindən tutub layiqli yerlərində əyləşdirsin.

Bu məsələ hamının danışdığı "beyinlərin qaçışı" mövzusudur. Təəccüblü budur ki, beyinlərin qaçısı məsələsini həm tələbələr deyirlər, həm müəllimlər, həm rektorlar, həm də ölkə məmurları. Bu məsələni hamı deməməlidir, kimlərsə özünə götürməli və bunun üçün bir şey fikirləşməlidir. Əlbəttə, bəzi işlər də görülmüşdür.

Bir dəfə bu otaqda möhtərəm məmurların biri və istedadlı gənclərin bir qrupu ilə bir iclasımız vardı. Həmin iclasda mənə məlumat verildi ki, hansısa işlər görülüb, amma gənclərin bir neçəsi söhbət edəndə dedilər ki, deyilən işlər görülməmişdir. Mən bu məlumatın bir hissəsində səhv gördüm. O məmur yalan danışmırdı, şübhəsiz, səmimi danışırdı, amma bəlli idi ki, bu yolda problem və maneələr mövcuddur, çətin idarə yolu və bürokratiya dalanları işin düzgün görülməsinə imkan verməmişdir. Bu problemlər bizim bu işlərlə məşğul olmaq üçün xüsusi bir qurum yaratmamızı tələb edir. Gəncləri bu işə məyus etmək olmaz. Biz bu işi görə bilərik. Bu iş ciddi şəkildə Mədən İnqilab Ali Şurasının proqramına salınmalı və onun üzərində işlənməlidir.[247]

**Universitetlərin sənayeyə birləşdirilməsi üçün büdcə ayırmaq**

Ali təhsilə bağlı dostların - istər tələbələrin, istər müəllimlərin, istərsə də bəzi rektor və müdirlərin mənimlə görüşlərdə dəfələrlə dedikləri bir məsələ budur ki, universitetlərdə ali təhsil məsələsinə proqram və büdcə baxışı istehlak qurumlarına baxış kimi olmamalıdır. Yəni düşünməməliyik ki, bura daim pul verməli və pul xərcləməli olduğumuz bir yerdir. Əslində bu quruma elm, sərvət və qüdrət istehsal edən bir yer kimi baxmaq lazımdır. Buraya sərmayə qoyuluşu çox qazanclı bir işdir. Əlbəttə, mən

---

[247] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2004.

bilirəm ki, tədqiqat büdcəsi çox artmışdır, lakin fikrimcə, bu sahədə nə qədər işləsək, çox deyil.[248]

**Universitetlərin sənayeyə birləşdirilməsində ciddilik**

Mən bir müddət öncədən universitetlərin sənaye ilə əlaqəsi məsələsini irəli sürmüşəm. Bu barədə cənab Xatəmi ilə söhbət etdim, əvvəllər də cənab Haşimi ilə söhbət etmişdim. Bu sahədə bəzi işlər görülmüşdür, lakin məncə çox ciddi çalışmaq lazımdır. Əlbəttə, bəzi universitetlər birbaşa sənaye qurumları ilə müqavilə bağlayırlar, lakin bu işi ciddi şəkildə inkişaf etdirmək və bir mərkəz yaratmaq lazımdır ki, bizim elm mərkəzi olan universitetlərimiz sənaye mərkəzləri ilə əlaqədə olsunlar.[249]

**Elm və tədqiqat mərkəzlərində siyasi təmayülləri qarışdırmamaq**

Siyasət və siyasətbazlıq cizgiləri ümumiyyətlə, bu işlər qrupuna girməməlidir. Mən sizə təkidlə deyirəm ki, ehtiyatlı olun, siyasi məsələlər elmi iş zonasına əsla daxil olmamalıdır. Bu sözün mənası o deyil ki, bir gənc alim siyasətdən xəbərsiz olmalıdır. Biz düşünürük ki, Allah adamları və mənəvi insanlar da siyasi prosesləri izləməli və siyasət sahəsində fəaliyyət göstərməlidirlər. Amma bu o demək deyil ki, insan elm, tədqiqat, sənaye və hər hansı bir növdən olan işdə siyasi təmayül və rəğbətləri təsirli və təyinedici bilsin. Bu, mütləq işi korlayacaq.[250]

**Birləşdirmə və ixtisarın yerinə elmi əməkdaşlıq**

Daxili işləri də bir-biri ilə əlaqəli və razılıq əsasında etmək lazımdır. Dedim ki, mən birləşdirmə və ixtisara qarşıyam. Mən deyirəm ki, paralel iş görülürsə də, eybi yoxdur, bizim çatışmazlığımız bunlardan çoxdur. Biz bu sahələrdə 100-150 il geridəyik. Hələ inqilabdan sonra bəziləri fikrə düşmüş və özlərində bu sahələrə giriş cəsarəti tapmışlar. Bu işlərə girişmək üçün inqilab bizə özünəinam verdi. Bir qədər qaçıb özümüzü o yerlərə

---

[248] Yenə orada.

[249] Yenə orada.

[250] Gənc alimlərlə görüşdə çıxışından: 2004.

çatdırmalıyıq; heç bir eybi yoxdur. Şübhə yoxdur ki, bu dəyərli elm və mədəniyyət yarışmasında təməlləri güclü və bacarıqları çox olanlar önə keçəcəklər. Çox gözəl, bütün yarışmalar kimi tədricən kimlərsə örnək olacaq və sonra hamı onların arxasınca gedəcək. Mən birləşdirmənin və ixtisarın tərəfdarı deyiləm, lakin əməkdaşlığın tərəfdarıyam. Bir-birinin təcrübələrindən istifadə etsinlər. Yaxşı işlər görülməkdədir və təcrübəli insanlar da var.

Mərhum cənab Əhməd Birəşk vəfatından iki-üç il öncə bir iş üçün buraya gəlmişdi. O, geniş bir ensiklopediyanın əsasını qoymuşdu və deyirdi ki, işləməkdəyik. Mən soruşdum ki, nə qədər yazmısınız? Bir qədər yazmışdılar. O, təcrübəli, güclü elm və tədqiqat təməlinə malik insan idi, xüsusən işə həvəsi həqiqətən müstəsna idi. Mən bilmirəm sizin bunlarla əlaqəniz var, yoxsa yox; bunların təcrübələrini bilirsiniz və təcrübələr mübadilə olunur, yoxsa yox; yaxud Ensiklopediya fondu ilə əlaqəniz var, yoxsa yox? Bunlar da bəzi işlər göməkdədirlər. Təcrübələri ötürün, bir-birinizə kömək edin və işləri bacardığınız qədər kamilləşdirin. İşin bir-iki qrupda təkrar olunmasından əsla qorxmayın. Bu elə işlərdəndir ki, işin inkişafına zərbə vurmamaq şərti ilə paralel işləməyin heç bir eybi yoxdur.[251]

**Elm və tədqiqat üçün təşkilati idarəçiliyin zəruriliyi**

İnqilab bu divarları, sərhəd və məhdudiyyətləri götürdü, elmi özünüdərk yaratdı. Amma bu iş müdiriyyətsiz, hərəkətsiz, əzm və iradəsiz bir yerə çatmayacaq. Bütün işlər kimi elm və tədqiqatın da proqramlı idarəçiliyə ehtiyacı var. Düzdür, bu işin bir hissəsi dövlət məmurlarına aiddir, bir hissəsi universitetlərin, bir hissəsi də elm mərkəzlərinin məsul şəxslərinə. Siz Universitet cihadı olaraq bu məsələ ilə məşğul olmaqda və məsuliyyət hiss etməkdə ən yaxşı mərkəzlərdənsiniz. Əlbəttə ki, bunu edirsiniz. Xoşbəxtlikdən, mən şahidəm və görürəm ki, sizin elmi işdə inkişafınız çox yaxşıdır. Bunu davam etdirin.[252]

---

[251] Böyük İslam Ensiklopediyası Fondunun Elmi Şurasının üzvləri və Rəyasət Heyəti ilə görüşdə çıxışından: 2004.
[252] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2004.

**Proqramları yamsılamaq yerinə inkişaf etmiş təhsil üsullarından istifadə**

Elm öyrətməkdə insan dünya hadisələrini bir an kimi diqqətdə saxlamalı, gənclərin kamilləşməsi və elm öyrənməsi üçün onlardan istifadə etməlidir. Mən hansısa ölkənin proqramlarını götürüb yamsılamağa əsla yaxşı baxmıram, buna sərt müxalifəm. Hər bir yerin öz tələbi var. Bundan əlavə, təhsil proqramları olan bu ölkələrin çoxunun məqsədi bizimlə bir deyil. Mən bunu əsla tövsiyə etmirəm. Lakin təhsil inkişaflarını və təhsil məsələlərini öyrənmək, dərs proqramlarında, tədris metodunda və sinif idarəsində onları işlətmək lazımdır.[253]

**Məmurların tədqiqat layihələrinin davam etdirilməsinə diqqəti**

Tədqiqat, elm istehsalı, sənaye və elmin əlaqəsi, yeni işlər görülmüş tədqiqat parkları və digər məsələlərə diqqət yetirməlisiniz ki, davam etsin və bu ağac boy atsın. Bunlara bacardığınız qədər qulluq edin. Bu sizdən qalacaq ən yaxşı işlərdəndir.[254]

**Elmi nümunələrin tanınmasının və yetişməsinin inqilabın səmərələrindən olması**

Sizin elmi nümunələr barədə dedikləriniz mənim düşündüyüm sözlərdir: elmi nümunə yetişdirmək üçün şərait yaratmaq, nümunəvi istedadları tapmaq, elm və tədqiqat zirvələrinə doğru getməkdə onlara kömək etmək. Bunların hamısı çox mühüm işlərdir. Əlbəttə, bu işlər ölkəmizdə başlanmışdır. Keçmişdə, yəni inqilabdan öncə ölkədə əsla belə bir şey mövcud deyildi, hətta onun əksinə işlər görülürdü, yəni əslində elmi nümunələri məhv edir, gənclərdə ümidi öldürməyə çalışırdılar. Elə adamı məşhurlaşdırmağa çalışırdılar ki, Qərb variantını kamil surətdə oxuyub, icra edib, ona inansın, özü nəsə nəzəriyyə irəli sürməsin, kəşf və ya ixtira etməsin. Bunun mənası odur ki, ölkəmiz və xalqımız həmişə

---

[253] Ölkənin maarif müdirləri ilə görüşdə çıxışından: 2004.

[254] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2004.

başqalarına tüfeyli və onların davamçısı olsun. Bəllidir ki, belə bir ölkə inkişaf etməz.

Keçmişdə vəziyyətimiz belə idi, amma inqilab ruhiyyələri və vəziyyəti dəyişdirdi. İndi bir neçə ildir Allahın lütfü ilə elmi nümunələrə, tələbə və alimlərə diqqət cari proqramlarda yer alır. Lakin indiyədək edilənlər kifayət deyil. Hər halda, dostların dediklərinin çoxu diqqət mərkəzində olan məsələlərdir. Bunlar üçün bəzi işlər görülüb, fəaliyyətlər göstərilib, inkişaflar əldə olunub və inşallah daha artıq olunmalıdır.[255]

**Elmi nümunələrin yetişməsinin peşəkar və işgüzar idarəçiliyə ehtiyacı**

Biz elmi nümunələr yetişdirməkdə - onun ümdə hissəsi universitet təhsili sahəsindədir - həm təhsil və həm tədqiqat işində daha artıq diqqətə ehtiyaclıyıq. Ölkənin məsul şəxsləri bu məsələyə real, düzgün, düşünülmüş və qısa müddət üçün qeyri-maddi baxışla baxmalıdırlar. Baxmayaraq ki, uzun müddətdə, şübhəsiz, bunların sayəsində sərvət, ölkənin maddi inkişafı və tərəqqisi də baş verəcək, lakin universitet məsələlərində qısa müddət üçün iqtisadi və maddi məsələləri düşünmək olmaz. Belə deyil ki, bu baxış indi mövcud olmasın. Mən görürəm ki, həm İdarəçilik və Planlaşdırma Komitəsində, həm də hökumətdə bu baxış mövcuddur. Bu işlərin başında duran məmurların özləri əksərən universitet mənsubu və ali təhsilli adamlar, təhsilin və tədqiqatın qədrini bilənlərdir. Lakin proqram hazırlanmalıdır, idarəçilik lazımdır.

Cənabların yaxşı ifadələrlə toxunduqları bu məsələ - yəni elmi nümunələrin mühacirətinin, yaxud beyinlərin qaçışının bir hissəsi, şübhəsiz, imkan və şərait məsələləri və bir hissəsi mənəvi məsələlərlə əlaqədardır. Amma bir hissəsi də idarəçiliyə bağlıdır. Biz həm Təhsil Nazirliyində və müxtəlif tədqiqat sahələrində, həm də universitetlərin idarəçiliyində bu məsuliyyətləri öhdəsinə götürən insanların bu məsələlərlə işgüzar, bişmiş və düşünülmüş şəkildə rəftar etməsinə ehtiyaclıyıq. Şübhəsiz ki, ölkədə elm və tədqiqat karvanının inkişafının yaxşı idarəçiliyə, bəzi dostların sözü ilə desək, nəzarətə, diqqətə, proqrama,

---
[255] Gənc alimlər və tələbələrlə görüşdə çıxışından: 2004.

istiqamətə və məqsəd müəyyənləşdirməyə ehtiyacı var. Tədqiqat işi üçün strategiyamızın nə olduğunu bilməliyik. Nə edək ki, tədqiqat və bu təhsil ölkəyə faydalı olsun, ölkənin işinə yarasın.[256]

**Məmurların elm və universitetin əhəmiyyətini dərk etməsinin zəruriliyi**

Mənim fikrimcə, məsələnin məğzi budur ki, biz universitetin və elmin əhəmiyyətini bütün vücudumuzla dərk edək. Bu baş tutsa, görülməli işlərin çoxu öz-özünə görülər. "Biz" dedikdə məqsədim budur ki, həm siz universitet başçıları, həm Təhsil Nazirliyinin, həm Səhiyyə Nazriliyinin, həm İdarəçilik və Planlaşdırma Komitəsinin məsul şəxsləri, həm də bütün ölkədə ümumi işlərə məsuliyyət daşıyanlar elmin və onun mühüm şərtlərindən olan universitetin ölkənin bu günü və sabahı üçün hansı rola malik olduğunu bilsinlər.[257]

**Ölkənin xilası üçün mühüm baca**

Mənim universitetlərə get-gəl etməyim, universitet müəllimlərinə və müdirlərinə hörmət barədə təkidli tövsiyələrim, ölkənin məsul şəxslərinə həmişə universitetlərlə və elm mərkəzləri ilə əlaqədə olmalarını, onların sözünü dinləmələrini tapşırmağım və özümün də imkan daxilində buna əməl etməyim ondan ötrüdür ki, bu işlərin ölkəmizi onda yaradılan xroniki xəstəliyin törətdiyi fəsadlardan xilas edəcək ən mühüm amillərdən biri olduğunu bilirəm. Allaha şükür olsun ki, inqilabla bu sahədə böyük dəyişikliklər baş verdi. Bu bizim əsas sözümüzdür.[258]

**Universitetlərdə elmi nailiyyətləri prioritet seçmək**

Universitetlər elmə əhəmiyyətli yanaşmalıdırlar. Əhəmiyyətli yanaşmaq təkcə qəlbə aid olan iş deyil, əməl lazımdır. Bu əməlin ciddi şərt və proqramlara ehtiyacı var. Universitetin zaman və imkanlarından hər hansı bir qeyri-elmi iş üçün istifadə etmək, təbii ki, elmi iradəni zəiflədəcək.

---

[256] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.
[257] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışından: 2005.
[258] Yenə orada.

Əgər o iş zərurət həddində olsa, eybi yoxdur, amma ifratçılıq elmi baxışa, elmi hərəkətə, quruculuğa və bunların ardınca, bizim ehtiyacımız olan elmi qürura zərər vuracaq. Əgər məqbul və nikbin bir ifadə işlətmək istəsək, deməliyik ki, bizdə sıçrayış əmələ gəlmişdir. Sıçrayış məqsəd deyil, hərəkətin müqəddiməsidir. Hərəkət də mənzil başına çatmaq üçün vasitədir. Bunların hamısı üçün iş və ciddi çalışmaq lazımdır.[259]

**Gənc və istedadlı müəllimlərə şərait yaratmaq**

Mənim fikrim budur ki, gənc müəllimlərə yer verilməlidir. Qeyd etdiyim müəllimlik istedadımızın və qabiliyyətimizin çox əsas hissəsi bu gənclərə aiddir; son bir neçə ildə təhsil almış gənclərə. Bəziləri xaricə də getmiş və elm öyrənmişlər, bəziləri bizim universitetlərimizdə və ya tədqiqat mərkəzlərimizdə işləmişlər. Bu gün bizdə çox istedadlı və çox perspektivli müəllimlər çoxdur. Təcrübəli və qədim müəllimlərin təcrübə və elmindən maksimum istifadə etmək, bu gənclər üçün də imkan yaratmaq lazımdır ki, fəaliyyət göstərsinlər və inkişaf etsinlər. Bunlar fayda bəxş etməkdən əlavə inkişaf da edirlər.

Gənclik barədə mühüm bir məqam var. Mən onu dəfələrlə təkrarlamışam. Gəncliyin ən mühüm məqamı hövsələdir. Bunu biz qocalar yaxşı anlayırıq. Gənclərin özləri yaxşı diqqət yetirmirlər. İnsan zamanın və ömrün keçməsini təcrübə edəndə bəzən istedadı, meyli və marağı olur, amma hövsələsi olmur. Hövsələ imkanı gənc üçün ən mühüm amildir. Gəncin hövsələsi var, işin dalınca gedir, məsələnin kökünə çatır, nəticə əldə etmək üçün dərindən araşdırır. İnsana maraqlanma, axtarış, yorulmazlıq və dərin araşdırma həvəsi verən gənclik hövsələsindən maksimum istifadə etmək lazımdır. Bu gənclərə yer vermək lazımdır.

İstedadları universitetə cəlb etmək lazımdır. Universitetlər xaricində yaxşı istedadlar mövcuddur. İmkan daxilində bu istedadları universitetlərə cəlb edin.[260]

**Elm istehsalına şərait yaratmaq**

---

[259] Yenə orada.
[260] Yenə orada.

Məyusluq yaratmaq çox pisdir. Bu sözün əsas müraciət obyekti müəllimlər və təhsil mərkəzlərinə rəhbərlik edən, müəllimləri bu iş üçün səfərbər və fəal etməli olan sizlərsiniz. Onlara imkan yaradın, inanın ki, bacararlar; bu inamın arxasında onlar üçün iş görün, proqram hazırlayın, şərait yaradın.[261]

**Tədqiqata dəstəyin zəruriliyi**

Bu reallığa əsasən, biz elm və elmi inkişaf üçün çalışmalıyıq. Əlbəttə, elmi inkişaf təqlidlə hasil olmur, yaradıcılıqla, sərhədləri aşmaqla, tanınmayan yerlərə sarı irəliləməklə və onları fəth etməklə hasil olur. Universitetlərin və tədqiqat mərkəzlərinin vəzifəsi çox ağırdır. Məncə bəzi dostların tədqiqatın əhəmiyyəti barədə söylədikləri tamamilə düzgündür. Dövlət məmurları da tədqiqatdan ibarət olan bu təməli və əsası diqqətdə saxlamalı, bilməlidirlər ki, fəal tədqiqat mərkəzləri olmadan nə elm və nə texnologiya inkişaf edə bilər. Həm universitetlərimiz, həm də universitetlərdən xaricdəki tədqiqat mərkəzləri inşallah himayə olunsunlar və qayğı görsünlər.[262]

**Elmi Nümunələr Fondunun vəzifələri**

Təəssüf ki, hələ də tam fəallaşmayan bugünkü Elmi Nümunələr Fondu ölkənin bütün aidiyyətli qurumlarının yardımı ilə elmi nümunələri ümidləndirmək, mühit və məişət sarıdan onların razılıq hissini təmin etmək üçündür. Elmi Nümunələr Fondunun vəzifələrindən biri budur ki, bir elmi nümunənin beynindəki çaşqınlıqlara, onun məişət problemlərinə, ölkənin vəziyyətinə dair yanlış təsəvvürünə, yaxud getmək istədiyi ölkənin vəziyyətinə dair suallarına cavab versin. Bunlar Elmi Nümunələr Fondunun görə biləcəyi işlərin böyük bir hissəsidir.[263]

**Elmi fəaliyyət və nəzəriyyə yürütmək - humanitar institutların missiyasi**

---

[261] Yenə orada.

[262] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2005.

[263] Yenə orada.

Siz ölkənin təhsil və elmi inkişaf sahəsində bir canlanma yaratmalısınız. Sizin əsas missiyanız budur. Çalışın bizim müsəlman və mömin alimlərimiz humanitar elmlərin müxtəlif fənlərində elə mütəxəssis olsunlar ki, dünya onların fikirlərindən istifadə etsin. Bu gün dünyada, hətta yolunu azmış Qərb dünyasında həqiqət axtarışında olan çoxlu insanlar var. Onların arasında düzgün və haqq söz axtaran alim və tədqiqatçı insanlar da çoxdur, az deyil. Dünyanın hər hansı bir nöqtəsində - Avropa, Asiya, Amerika ölkələrində və digər yerlərdə belə bir insan bir məsələni axtaranda bu kompüter mərkəzində sizin elmi əsərinizi, göstərdiyiniz yeni sözü, fikri və yolu tapmalıdır. Biz universitetdən bunu istəyirik. Universitetin məzunu bu niyyət və fikirlə məzun olmalıdır. Bu baxımdan, universiteti gücləndirin. Mənim dediyim Proqramlaşdırma və elm istehsalı hərəkatının sizin universitetinizdə və humanitar elmlər sahəsində işi budur ki, bacardığınız qədər öyrənin və araşdırın.[264]

**Elmi məsafələri qət etməkdə universitetin vəzifəsi**

Təkcə İmam Sadiq (ə) Universitetinin yox, ümumiyyətlə, bu ölkədə bütün universitetlərin vəzifəsi budur ki, bu elmi qət etsinlər. Nə qədər bacarırsınız, elm öyrənin. Mən Mədəni İnqilab Ali Şurasının iclasında elmi-mədəni sahədə ən təsirli məmurlara demişəm ki, siz ölkənin elmi-mədəni mühəndislərisiniz. O iclasda demişəm ki, iki əsas şaxə mövcuddur: humanitar və fundamental elmlər. Hər birinin öz yeri var. Əgər biz burada humanitar elmlər üzərində dayanırıqsa, mənası bu deyil ki, riyaziyyat, fizika, kimya və biologiya əhəmiyyətsizdir. Xeyr, orada da mənim yüzfaizli təkidim var. Onların da öz adamları və şəxsiyyətləri var. Humanitar elmlərin də öz adamları və özü üçün şəxsiyyətləri olmalıdır. Bu iki əsas şaxə - yəni humanitar və fundamental elmlər üzərində ölkədə fikir, elm, pul və təbliğat cəhətindən sərmayə qoyulmalıdır ki, inkişaf etsinlər. Elmi yüksək səviyyədə inkişaf etdirmək lazımdır.[265]

**Elm, texnologiya, sənaye və inkişaf silsiləsi**

---

264 İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

265 Yenə orada.

Biz elmlə tam mənada bir cihad kimi məşğul olmalıyıq. Mən bunu gənclərə, müəllimlərə və universitetlərə deyirəm. Bundan əlavə, yalqız və tək elm də kifayət etmir. Biz elmi texnologiyaya, texnologiyanı sənayeyə, sənayeni ölkənin inkişafına birləşdirməliyik. Ölkənin inkişafına səbəb olmayan sənaye faydalı deyil; texnologiyaya çevrilməyən elmin faydası yoxdur. Məktəb, universitet və tədqiqat mərkəzlərinin vəzifəsi ağırdır.[266]

**Düşmənin universitetlərə dair siyasətləri və məmurların vəzifəsi**

Ölkənin elmi hərəkətinə qarşı çıxan, universitetləri, tədqiqat və elm mərkəzlərini elm və tədqiqatdan uzaqlaşdırmaq istəyən şəxslər düşmənə işləyirlər. Düşmən bu insanlara ən qiymətli mükafatı verməyə hazırdır. Məsuliyyətli qurumların vəzifəsi budur ki, xalqın düşmənlərini tanısınlar, onların istiqamətlərini bilsinlər, xalqın hüququnu müdafiə etsinlər, ölkədə təhsili və elmi inkişafı müdafiə etsinlər. Bu, məsuliyyətli qurumların vəzifəsidir.[267]

**Elmi nümunələrin köməyi ilə ümumi elmi xəritənin təsviri**

Ölkədə ümumi elmi xəritəyə ehtiyacımız var. Biz bilməliyik ki, adı dəfələrlə çəkilən iyirmiillik mənzərənin məqsədlərinə çatmaq üçün bizim ümumi elmi xəritəmiz nədir. Bunu təsvir etməliyik. Sonra bu xəritəni əməli strategiyalara, zamanlı və nizam-intizamlı proqramlara uyğun şəkildə bir cədvəl kimi tədricən doldurmalı və təkmilləşdirməliyik. Bu iş baş tutmayıb. Bizim buna ehtiyacımız var. Bu iş seçilmiş və görkəmli şəxslər, ölkənin universitet, təlim-tərbiyə və digər aidiyyətli dairələrində çalışan düşüncə sahibləri tərəfindən həyata keçə bilər və keçməlidir.[268]

**Elm istehsalı şüarını icra etmək üçün idarəçilik və sərmayə qoyuluşu**

Xoşbəxtlikdən, bu gün biz hansı universitet və tələbə məclisində iştirak ediriksə, görürük ki, Elm istehsalı və proqramlaşdırma

---

[266] İmam Rzanın (ə) müqəddəs məqbərəsində çıxışından: 2006.
[267] Həzrət İmam Xomeyninin vəfatının 17-ci ildönümü mərasimində çıxışından: 2006.
[268] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışından: 2006.

hərəkatından danışırlar. Bu indi bir ənənəyə çevrilmişdir. Lakin onu sözün həqiqi mənasında həyata keçirməyə çalışmalı, elmi cücərtməliyik. Bu elə bir şey deyil ki, idarəçilik və sərmayə qoyuluşu olmadan öz-özünə gözəl formada baş tutsun.[269]

**Tədqiqatçıların ruh yüksəkliyini artırmaq üçün Elmi Nümunələr Fondunun işi**

Növbəti məsələ Elmi Nümunələr Fondu barədədir. Mənim fikrimcə, iki ildən artıqdır ki, biz bunu müzakirəyə çıxarmışıq. Məsələnin zahiri bir fond, müəssisə və idarədir, lakin məğzi budur ki, ölkədə belə bir təşkilat yaransa, mənim fikrimcə, ölkənin elmi çevrəsi, universitetlərin və tədqiqat mərkəzlərinin elmi siması əsaslı şəkildə dəyişər. Tədqiqatçının və elm adamının arxayınlığı mühüm məsələdir. Müharibədə əhval-ruhiyyənin hər şeydən mühüm olduğu kimi, elmi mühitdə də belədir. Bu əhval-ruhiyyənin də bir mərkəzə ehtiyacı var. Biz bunu Elmi Nümunələr Fondu formatında yaratdıq.[270]

**Ali təhsilin yüksək pillələrinin məzunlarının elmi işdə çalışması**

Sonrakı məsələ budur ki, biz magistratura və doktorantura pillələrinin məzunlarını mütləq universitetlərə və tədqiqat mərkəzlərinə daxil etməliyik. Bunun üçün proqram lazımdır. Bu gənc istedadla və həvəslə bu qədər qaçmış, buraya çatmış, doktorantura, yaxud magistratura pilləsini bitirmişdir. Bundan sonra nə etməsi barədə sərgərdan qalmamalıdır. Bunları cəlb etmək üçün proqram hazırlamaq lazımdır. Bunların çoxunun problemi maddiyyat deyil. Elm adamı elmi iş görmək istəyir. İndi möhtərəm nazir dedi ki, tədqiqat və təhsil mərkəzlərini genişləndirmiş və onun üçün pul almışlar. Bu xəbər məni doğrudan da sevindirir. Bu iş lazımdır. Ölkədə salınan elm və texnologiya parkları da - sonra ona toxunacağam - yaxşı işlərdir, amma azdır. Bunların üzərində mərkəzləşib işləmək lazımdır. Çalışıb elə etmək lazımdır ki, indiyə qədər həvəslə və zövqlə qaçmış və bir iş olacağını güman etmiş bir gənc əlində

---

[269] Yenə orada.
[270] Yenə orada.

heç bir işin olmadığını, boynuna heç bir məsuliyyətin düşmədiyini görməsin. Mən idarə məsuliyyətini nəzərdə tutmuram, elmi məsuliyyəti, onu sevindirəcək elmi iş və fəaliyyəti deyirəm.[271]

**Ali təhsilin yüksək pillələrində təhsil alan gənclərdə çalışmaq hissi və elmi kimlik yaratmaq**

Bəzi gənclər buraya gəlib bu hüseyniyyədə bizim nüvə proqramlarımız barədə bir sərgi təşkil etdilər. Orada otaqlar düzəltdilər ki, mən müxtəlif işləri görüm. Bir neçə saat bu otaqlara baxdım. Məni özünə cəlb edən çox gözəl və sevindirici bir neçə məqamdan biri bu idi ki, əksəri, bəlkə də 90 faizi 20-30 yaş arasında olan bu gənclərin işləmək, çalışmaq, elmi və praktik şəxsiyyət hissi keçirdiklərini gördüm. Bu çox dəyərli və mühüm bir haldır. Biz ali təhsilin yüksək pillələrində təhsil alan tələbə və gənclərin hamısında bu hissi yaratmalıyıq. Bunlar həm inkişaf edirlər, həm də fayda yetirirlər; bəhrə verən gənc bir ağac kimidirlər: həm meyvə verir, həm də özü inkişaf edir.[272]

**Elmi Şura üzvlərinin dərəcə meyarı**

Buradakı çıxışlarda da toxunulan başqa bir məsələ Elmi Şura üzvlərinin dərəcə meyarı məsələsidir. Bu meyarlar nədir? Bəli, məqalə, ISI jurnalları və digər belə məsələlərin hamısı yaxşı və düzgündür. Lakin bunlar yeganə meyar olmasın. ISI jurnallarında dərc olunan məqalələrin özü də həmişə meyar deyil. Mütəxəssis və ekspertlərin dediyinə görə, bunların da müxtəlif səviyyələri var, daimi bir meyar hesab olunmur. Lakin başqa meyarlar da mövcuddur: misal üçün, tələbə yetişdirmək. Tələbə və şagird yetişdirməkdə uğurlu fəaliyyət, yaxud elmi məsələlərdə yeni bir ideya da meyardır. Belə müxtəlif meyarları yazmaq və Elmi Şurada nəzərə almaq olar.[273]

**Müxtəlif fənlərə bərabər baxış**

---

[271] Yenə orada.
[272] Yenə orada.
[273] Yenə orada.

Başqa bir məsələ elmi fənlərə baxış bərabərliyidir. Bu əvvəldə dediyim ümumi xəritədən asılıdır. Əgər o xəritə mövcud olsa, təbii ki, müxtəlif fənlərə baxış bərabər olar, qəfildən bəzi elmlər uzun müddət kənarda qalmaz, bəzi elmlər, misal üçün, tibbin, yaxud mühəndisliyin bəzi gəlirli sahələri əhəmiyyətli və birinci dərəcəli olub fənlərin çoxunu sıxışdırıb-çıxarmaz. Necə ki, ölkədə humanitar elmlərin bəzi sahələri və fundamental elmlərə dair fənlər uzun illər diqqətdən kənarda qalmışdır. Araşdıran olsa, güman ki, bu məsələdə pis niyyətin ipuclarını tapa bilər.[274]

**Universitetlərin kəmiyyət və keyfiyyət inkişafına diqqət**

Biz söz və danışıqlarımızda universitetdə keyfiyyət baxımından inkişaf etməli olduğumuzu təkrarlayırıq. Mən bunu qəbul edirəm, lakin bu, kəmiyyət inkişafını inkar etmək deyil. Bizə kəmiyyət baxımından da inkişaf lazımdır. Biz hələlik universitet və tədqiqat mərkəzlərinin çox olmasından qazanc götürəcəyik. İyirmiillik mənzərədə bizim məqsədimiz regionda elmi baxımdan birinci yeri tutmaqdır. Bunun keyfiyyət baxımından hərəkətə ehtiyacı olduğu kimi, kəmiyyət və say artımına da ehtiyacı var; tələbə, universitet və tədqiqat mərkəzlərinin və bu sahədə günbəgün qarşıya çıxan amillərin artmasına. Bunlara nail olmaq lazımdır. Gərək mənzərə sənədini təmin edəcək həddə çataq.[275]

**Daimi mütaliə və tələbə ilə məşğul olmaq üçün müəllimlərin zamana ehtiyacı**

Sonrakı məqam müəllimlərin həqiqi elmi dərəcələrinin yüksəlişi və aktuallığı məsələsidir. Biz elə bir iş görməliyik ki, müəllimimizin mütaliə etməyə vaxtı olsun. Bu işin idarəsi sizin öhdənizə düşür. Məhərrəm ongünlüyündə bu məclisdən o məclisə gedib "iki kəlmə danışım, sizə dua edəcəyəm" - deyən bəzi rövzəxanlar kimi bu universitetdən o universitetə, o universitetdən bu universitetə gedən müəllim tələbəyə kömək edə bilməz. Mənim müəllimlərlə ildə bir-iki dəfə iclasım olur. Yəqin ki bəziləriniz o iclaslarda olub, bəziləriniz də televiziyadan baxıblar.

---

[274] Yenə orada.
[275] Yenə orada.

Müəllimlərin özləri etiraf və qəbul edirlər ki, bu onların problemi və işlərinin nöqsanıdır. Əlbəttə, gəlir üçün çalışırlar və təxminən demək olar ki, çarələri də yoxdur. Amma siz bunu təmin etməlisiniz. Qeyd etdiyim kimi, bu sahənin məsul şəxsləri sizlərsiniz. Sizə demək lazımdır ki, bununla maraqlanın, bunun üçün bir şey fikirləşin.

Müəllim tələbəyə vaxt ayırmalıdır. Müəllim otağında oturmalıdır ki, tələbə gəlib ondan soruşsun və danışsın. Nəinki ibtidai və orta məktəb müəllimi kimi sinifdə bir dərsi keçsin, sonra da tabaşiri atıb desin ki, xudahafiz. Bunun faydası yoxdur. Tələbəyə və öz mütaliəsinə vaxt ayırmalıdır. Oturub mütaliə etsin. Mütaliə etməyən müəllimin dərsi həqiqətən, heç olur.

Bizim hövzə dərslərimizin yaxşı cəhəti budur ki, müəllim mütaliəsiz dərs desə, sabah şagird onun dərsinə getməyəcək. Bir müddətdən sonra dərsi yüz nəfərdən əlli və iyirmi nəfərə çatacaq, sonra da tətil olacaq. Amma universitet belə deyil. Zavallı şagird təyin olunan sinfə gəlməyə, dərsləri təyin olunan müəllimlə oxumağa və onun qiymətini almağa məcburdur. Buna bir söz də deyə bilmir. Bu baxımdan, bu, universitetin eybidir və hövzənin bu müsbət keyfiyyəti onda yoxdur. Hər halda, siz elə edin ki, müəllimin özü elmi səviyyə baxımından inkişaf etsin.[276]

**Tədqiqat üçün büdcə ayrılması ilə maraqlanmaq**

Sonrakı məsələ tədqiqat barədədir. Çox təkrar edildiyindən buna tam diqqət olunmur. Bu, ibadət zikrləri kimidir: insan adət kimi təkrarlayır, fikri isə başqa yerdədir. Dördüncü proqramda ümumi daxili məhsulun üç faizə qədərini tədqiqat büdcəsi üçün nəzərdə tutmuşdular. Qabaqcadan dedilər ki, dördüncü proqramın sonuna qədər tədqiqat büdcəsi üç faizə çatmalıdır. Ötən il də burada müəllimlərin toplantısında tədqiqat büdcəsi haqqında danışıldı. Bir nəfər dedi ki, tədqiqat büdcəsi filan qədər olub, mən dedim ki, yox, bir faizə çatıb və bu ilin axrına qədər bir faiz yarıma çatacaq. Amma bu yaxınlarda mənə məlumat verdilər ki, 0.6 faiz olmuşdur. İndi deyəsən, həmin 0.6 faizin də hamısını verməyiblər, 0.45 faizini veriblər. Belə olmaz.

---

[276] Yenə orada.

Əvvəla, bu, beşillik proqram və qanundur, həyata keçməlidir. Proqramdan kənara çıxmaq qanunu pozmaq deməkdir. Həm də ölkənin gələcəyi bundan asılıdır. Biz elm istehsalı, tədqiqat və bu kimi məsələlər barədə bu qədər danışaq, amma tədqiqat büdcəsi verilməsin, azalsın, diqqətdən kənarda qalsın?! Belə olmaz. İndi biz kimin yaxasını tutaq?! Əgər cənab prezidentə desək, deyəcək hökumətin iclasında deyilməlidir. Gərək bu iki nazirin yaxasını tutaq, bunlardan istəyək ki, hökumətdə bununla maraqlansınlar. Tədqiqat məsələsi doğrudan da kiçik məsələ deyil.[277]

**Elm və texnologiya parklarına diqqət**

Son bir neçə ildə yaradılan elm və texnologiya parkları yaxşı işdir. Üç-dörd il öncə dostların yanında bu sahədə mənim üçün məlumat verdilər. Çox yaxşı işdir, amma eşitmişəm ki, ölkədə mövcud olan təxminən on elm və texnologiya parkının iki-üçündən artığı fəal deyil, digərləri dayanmışdır. Bu da aidiyyətli şəxslərin diqqət göstərməli olduğu yaxşı işlərdəndir.[278]

**Tədqiqat və tədqiqatçılarla maraqlanmaqda hökumətin ciddiliyinin zəruriliyi**

Tədqiqat, elm və texnologiya məsələsinə diqqət yetirmək lazımdır. Təxminən iki həftə öncə universitet rektorları ilə keçirdiyimiz iclasda bəlli oldu ki, proqramda nəzərdə tutduğumuz və bizim müəyyən qədər artdığını güman etdiyimiz tədqiqat büdcəsi azalmışdır. Mən indi məruzələrdə belə eşitdim: "Biz tədqiqat işi üçün çalışmaqdayıq". Xeyr, o məlumata əsasən, mən dedim ki, (ümumi daxili məhsulun) onda altı faizinə çatmışdır. Buna əsasən, bizim tədqiqat büdcəmiz azalmışdır. Biz bir faiz yarıma çatdırmalı idik və proqramın sonuna qədər bu büdcə üç faizə çatmalı idi. Amma nəinki bir faiz yarıma çatmadı, hətta bir faizdən də aşağı endi. Yaxud məsələn, Elmi Nümunələr Fondu barədə mən o gün də danışdım və etiraz etdim. Bu etiraz mənim fikrimcə, mühümdür və siz

---

[277] Yenə orada.
[278] Yenə orada.

bununla məşğul olmalısınız. Tədqiqatçılara Dəstək Fondu da belədir. Tədqiqatçılara Dəstək Fondu və bu növ işlər bizim qabaqkı hökumətlərdə bir neçə illik ardıcıl təkidimizlə yaranmışdır. Bunları saxlamaq olmaz. Bunlar çox vacib və mühüm işlərdir. Yaxud Elm və sənayenin əlaqə şöbəsi barədə son 15-16 ildə iki möhtərəm prezdentlə israrla söhbət etdim, amma olmadı. Bu şöbəni yaratmalısınız. Bu mühüm və əsaslı işlər ayrı-ayrı sahələr arasındadır; yəni mütləq prezident aparatına bağlı olmalıdır, Təhsil, yaxud Təlim və Tərbiyə Nazirliyinə və ya digər sahələrə bağlı ola bilməz. Bu, mütləq prezidentin nəzarəti altında və oradan idarə olunmalıdır.[279]

**Elm və sənaye mərkəzlərini bir-birinə birləşdirmək məsələsi**

Petrokimya tədqiqatları mərkəzi haqda deyilən məsələ ilə mütləq məşğul olun. Bu çox mühüm məsələdir. Bu mənim təkid göstərdiyim məsələdir: elm və tədqiqat mərkəzlərinin elm və tədqiqatdan istifadə edən mərkəzlərlə birləşdirilməsi. Bunlar bir-birini nəzarətdə saxlasınlar və bir-birindən istifadə etsinlər; həm onlar bunların tədqiqatına, həm də bunlar onların fəaliyyətinə istiqamət verə bilsinlər.[280]

**Tədqiqatları məqsədyönlü etmək və təkmilləşdirmək üçün informasiya arxivi təsis etmək**

Bir məqam da bəzi dostların sözlərində deyiləndir. Mən də burada qeyd etmişdim ki, təkidlə tapşırım. O da budur ki, biz mühüm tədqiqat və araşdırma məsələsini məqsədyönlü etməliyik; yəni ölkənin doğrudan da nəyə ehtiyacı olduğunu bilək və tədqiqatları həmin istqamətlərə yönəldək. Bəzi dostların sözlərində buna təkid vardı. Tamamilə doğrudur. Bunun üçün bizə mərkəzi informasiya arxivi lazımdır. Görsünlər nə lazımdır, nə yerinə yetirilmişdir, bir tədqiqatı təkmilləşdirmək üçün nə lazımdır ki, bu müxtəlif hissələr bir-birinin yanına qoyula bilsin.[281]

---

[279] Prezdent və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2006.
[280] Gənc alimlərlə görüşdə çıxışından: 2006.
[281] Universitet müəllimləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2006.

**Ölkədə elmi imtiyazların meyarını dəyişdirmək**

Biz universitetdə elmi imtiyazın verilmə sistemini bu məsələlərə uyğunlaşdırmalıyıq. Misal üçün, ISI jurnalında bir, yaxud bir neçə məqalə nəşr etdirməyin özü kifayət etmir. Yəni bizim tədqiqatçımız elmi dərəcə əldə etmək üçün ölkəyə heç bir faydası olmayan, ölkənin tədqiqat ehtiyaclarından heç birini təmin etməyən bir məqalə hazırlamaq və istehsal etmək haqda düşünməməlidir. Bəli, onun jurnal sahibləri, yaxud başqa bir şəxs və başqa bir yer üçün faydalı olması mümkündür, amma ölkəyə faydalı deyil. O bu işi yalnız elmi dərəcədən ötrü görür. Bu sistem dəyişməlidir. Bu düzgün deyil.

Elmi imtiyazların verilmə sistemində və uyğun əsasnamələrdə hansı tədqiqat işinin ölkənin ehtiyacına uyğun olması, hansı işin tədqiqatlar məcmusunu tamamlaması nəzərə alınmalıdır. Bəzən hansısa sahələrdə bizim məcmu işlərimiz var, amma onun orta halqaları yoxdur. Bu halqaları təkmil etmək çox əhəmiyyətlidir. Deməli, elmi tədqiqatı ölkənin sənaye və digər həyati ehtiyaclarına uyğunlaşdırmaq lazımdır.[282]

**Fundamental elmlərin əhəmiyyəti**

Elm və tədqiqata aid bütün sahələr, həmçinin fundamental elmlər mənim dəfələrlə təkidlə dayandığım məsələlərdəndir. Hansı ölkə harayasa çatmışdırsa, fundamental elmlərlə çatmışdır.[283]

**Ölkədə tədqiqatların vahid idarəetmə mərkəzinə ehtiyacı**

Tədqiqatın idarəsi çox əsaslı məsələlərdəndir. Mən bunu ramazan ayında tələbə və ya müəllimlərlə keçirdiyim iclasda demək üçün qeyd etmişdim. İndi yadımda deyil bu iki məclisin hansı idi, amma vaxt olmadı, ona görə indi deyirəm. Tədqiqat üçün idarəçilik lazımdır. Biz dönə-dönə deyirik ki, tədqiqat büdcəsi, misal üçün, 0.47 faizdən 3 faizə çatmalıdır. Biz onun maddi və kəmiyyət cəhəti üzərində söhbət edirik. Düzdür, bu lazımdır da, amma bunun bir keyfiyyət cəhəti də var. Eyni və lazımsız tədqiqatlar aparılmamalıdır. Mühüm olan fundamental, tətbiqi və təcrübi

---

[282] Yenə orada.
[283] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

tədqiqatlardır. Üç növ tədqiqat var. Onların hər birinin ölkə tədqiqatları məcmusunda öz payı və çəkisi var. Bizim problemlərimizdən biri budur ki, bu tarazlığa riayət etmir, onu nəzərə almırıq. Ölkədə tədqiqatları idarə etmək lazımdır. Və bu, əzizlərin, bu fəal və işə hazır hökumətin iradəsi ilə həyata keçməlidir.[284]

**Hökumətin elmi nümunələrlə əməkdaşlığının zəruriliyi**

Əlbəttə, bu ekspert işində mənim həm sizinlə, həm də cənab prezidentlə dəfələrlə söhbət etdiyim məsələ - elmi nümunələrlə əməkdaşlıq məsələsi də var. Elmi nümunələrdən istifadə edin. Ölkədə elmi istedadlar çoxdur, bu qrupla və onunla əlaqədar təşkilatlarla məhdud deyil. Ölkədə elmi nümunələrimiz həqiqətən, az deyil; universitetlərdə, istehsalat və tədqiqat mərkəzlərində var. İnsan hərdən belə insanlarla rastlaşdıqda görür ki, hamısı kömək etmək istəyir. Bunları axtarın. Sözsüz ki, elmi nümunələrin özlərini təqdim etmələri əməldə görünməlidir. Bu, mühüm məsələdir.[285]

**Elmi nümunələrlə iclasın iki məqsədi**

Bizim bugünkü məclisimiz, mənim fikrimcə, iki məqsəd üçündür: Biri milli və ümumi səviyyədə simvolik məqsəddir. Biz istəyirik ölkənin ictimai fikrində ölkədə elmi hərəkatın ciddiliyinə, ölkə məmurlarının bunu istədiklərinə, bununla ciddi məşğul olduqlarına, elm, elm öyrənən və elmi nümunə üçün dəyər tanıdıqlarına dair inam yaransın. Bu gün bizim buradakı hərəkətimizin və toplantımızın simvolik mənası budur.

İkinci məqsəd ölkə məmurlarına - dövlətin və müxtəlif qurumların məsul şəxslərinə yenidən xatırlatmaqdır. Bilsinlər ki, bu istəyi icra etməlidirlər. Ümumi və icra siyasətlərində ölkənin elmi inkişafı və tərəqqisi qəti proqram sayılsın. Bu iki məqsəd inşallah hasil olmuşdur.[286]

**Quruluşun qərar mərkəzlərini elmi sahəyə yönəltmək**

---

[284] Yenə orada.

[285] Hökumət həftəsi münasibəti ilə prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2007.

[286] Gənc alimlərlə görüşdə çıxışından: 2007.

Mən ötən illərdə və buna bənzər məclislərdə dəfələrlə demişəm ki, bizim belə illik məclisimizin bir simvolik cəhəti var. Yəni istəyirik ki, bu görüş quruluşun ölkə müəllimlərinə, tədqiqatçılarına və universitet mənsublarına hörmətinin ifadəsi olsun. Lakin təsəvvür etmək olmaz ki, bu məclis nümayişkaranə bir məclisdir, əksinə, gözlənilən budur ki, bu məclisdə bəzi mövzuların deyilməsi quruluşun qərar mərkəzlərini, möhtərəm nazirləri, müxtəlif məmurları, bizim özümüzü elmi işə, universitet işinə və bu sahədə inkişafa yönəltsin.[287]

**Hökumətin icra nəzəriyyələrinin universitetlərdə müzakirəsi**

Hökumətin icra nəzəriyyələrini sınaq mərhələsindən öncə universitetlərdə və tədqiqat mərkəzlərində müzakirəyə çıxarmaq çox yaxşıdır. Əlbəttə, mən sizə deyim ki, dövlət məmurları və möhtərəm prezident çox zaman bu işi gördüklərini deyirlər. Demək olmaz ki, heç vaxt görmürlər. Mən bu məsələni dəfələrlə məmurlara, o cümlədən çox işgüzar, zəhmətkeş və səmimi prezidentimizə demişəm. O da deyir ki, biz bunu edirik, universitetdə müzakirə etdik, yaxud hansısa tədqiqat qrupu işlədi. Amma hər halda, yaxşı ideyadır.[288]

**Elm mərkəzləri arasında əməkdaşlığın zərurliyi**

Xoşbəxtlikdən, Elmi Nümunələr Fondu və cənab Doktor Vaizzadə, Allaha şükür olsun ki, çox yaxşı fəaliyyət göstərirlər. Mən çox sevinirəm ki, onlar işə başlamışlar. Lakin mövcud olan zəif nöqtələri tapmalı və bir-bir aradan qaldırmalıdırlar.

Zəif cəhətlərdən biri əlaqəsizlikdir. Elm və texnologiyaya aid sahələrdə tam əlaqə yaranmalıdır. Biz sənaye və universitetin əlaqəsi məsələsini irəli sürdük. Allaha şükür ki, bu sahədə işlər görülür və daha çox işlər görüləcək. Məsul şəxslər elmi nümunələrin tədiqiqat, sənaye və digər mərkəzlərlə əlaqəsi barədə bəzi müjdələr vermişlər. Lakin elm mərkəzlərinin özləri arasında uyğunluq çox lazımdır. Təhsil və Səhiyyə nazirliklərinin prezidentin Elm və texnologiya müavinliyi, Elmi

[287] Universitet rektorları və müəllimlərilə görüşdə çıxışından: 2007.
[288] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşündə çıxışından: 2008.

Nümunələr Fondu, Elm və Sənaye Tədqiqatları Komitəsi və bu sahələrdə çalışan digər qurumlarla daimi bir əlaqəsi və əməkdaşlığı lazımdır. Bunlar bir-birini vurmamalı, bu sahədə boşluq yaranmamalıdır.[289]

**Elmi nümunələrlə iclasların ilk məqsədi**

Mən istəyirəm ki, müəllimə və alimə ürəkdən və candan göstərdiyim hörmət cəmiyyət miqyasında əks olunsun. Bizim alim və müəllimlərimizin cəmiyyətdən hörmət görmələrinə ehtiyacımız var.

Elmi inkişaf etdirmək üçün ən yaxşı həvəsləndirici amil elm adamına hörmət etməkdir. Bizim universitetlərimizin müəllimləri, tədqiqat mərkəzlərimizin görkəmli şəxsləri, elmi nümunələri elmi cəhətdən dəyərli və nümunə insanlar sayılırlar.

Buna görə, bu məclis birinci növbədə bundan ötrüdür və bu məqsəd Allahın lütfü ilə bizim oturub-durmağımızla hasil olur. Siz əziz dostlar, qardaş və bacılar bilin ki, mən alimə və elmə hörmət və dəyər tanıyıram, qəlbimdə təzim göstərirəm və bütün ölkədə hamının – məmurların, adi camaatın və müxtəlif idarələrin bu hissə malik olmalarını və bunu əməldə göstərmələrini istəyirəm; sözsüz ki, görsənir də.[290]

**Milli media vasitəsi ilə elmi nümunələri təqdir etməyin zərurliyi**

Burada deyilməsi lazım olan başqa bir məsələ - baxmayaraq ki, onun dinləyicisi əslində başqa adamdır – elmi nümunələrə hörmət məsələsidir. Bu söz əslində bizim media qurumlarımıza, xüsusən də milli mediaya, radio və televiziyaya aiddir. Siz aparılan təbliğata diqqət yetirin: artistlər, xarici aktyorlar və müxtəlif adlar təbliğ olunur. Məsələn, televiziyada yarış keçirib sual verirlər ki, filan filmin qəhrəmanının adı nədir; əgər desən və bilsən, qalib olacaqsan. Bunu bilməsən nə olar ki?! Məgər hansı qüsur yaranar?! Fərz edin milyonlarla insan bu filmi görməyiblər, bu sənətkarı, yaxud aktyoru tanımırlar. Bu, nöqsandır?! Onu tanımaq üstünlükdür?!

Dəfələrlə demişəm ki, mən peşəkar idmanın tərəfdarıyam... Lakin sözüm budur ki, biz nə üçün nümunəvi alimi nümunəvi idmançıdan az

---

[289] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışından: 2008.

[290] Elmi nümunələr və universitet müəllimləri ilə görüşdə çıxışından: 2008.

dəyərləndirməliyik?! Bizim nə qədər yüksək elmi nümunələrimiz var! Bizim o qədər elmi nümunələrimiz var ki, digər ölkələrin əli onlara çatsa, tez götürüb apararlar. Onları uca tutmaq lazımdır.

İndi mən misal üçün, mərhum Kazimi Aştiyaninin adını çəkirəm. Mən dəfələrlə onun adını çəkmişəm. Dünyadan da köçmüşdür, Allah ona rəhmət eləsin! Cənab Doktor Vaizzadə başqa bir əziz gəncin adını çəkdi; ötən il burada bizim aramızda idi, bu il isə vəfat etmişdir. Bunları uca tutmaq, tanıtdırmaq lazımdır. Biz tarixi elmi dahilərimizi də təbliğ etmirik. Ölkəmizin əhalisinin çoxu müxtəlif sahələrin böyük alimlərini tanımırlar. Yalnız fiqhdə, fəlsəfədə, dini elmlərdə yox, hətta bu gün dünyada geniş yayılmış fənlərdə - fizikada, riyaziyyatda, kimyada, mexanikada bizim öz tariximizdə görkəmli alimlər olmuş, böyük işlər görmüşlər. Onların bəzi ixtiralarından bu gün də istifadə olunur. Nə bizim gənclərimiz onların adlarını bilirlər, nə onlar təbliğ olunur, nə də xatırlanırlar. Bu böyük qüsurdur. Bu da mütləq düzəldilməlidir.[291]

**Elmi prioritetlərin təyin edilməsi**

Mənim tövsiyə kimi demək istədiyim ikinci məsələ budur ki, elmi ehtiyac və prioritetləri özümüz təyin edək və bunu təhsil proqramlarımıza salaq. Humanitar, fundamental və təcrübi elmlərin müxtəlif sahələrində, yaxud tədqiqatın müxtəlif səviyyələrində tam mütaliə və araşdırma nəticəsində bəzi prioritetlər təyin etmək mümkündür. Bunlar nəzərə alınmalı və proqramlara salınmalıdır. Biz məhdud imkan və çoxlu ehtiyaclarla özümüzə icazə verməməliyik ki, prioritet olmayan bir işə düşüncə, pul, zaman və insan sərmayəsi ayıraq. Bu da bir məsələdir.[292]

**Qədim və gənc müəllimlərdən istifadə**

Bizdə geniş yayılmış mövzulardan biri qədim və yeni müəllim məsələsidir. Bunun mübahisəli bir məsələyə çevrilməsinə qoymamalıyıq. Əgər məndən soruşulsa, deyərəm ki, bizim qədim və stajlı müəllimə də ehtiyacımız var, gənc, yeni və həvəskar müəllimə də. Onların hamısına

---

[291] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışından: 2008.
[292] Elmi nümunələr və universitet müəllimləri ilə görüşdə çıxışından: 2008.

ehtiyacımız var. Əlbəttə, mən tədris məsələsində bunun tərəfdarı deyiləm ki, bağlı halqalar yaradılsın, o müəllimlərin övladları olan və işə başlamaq istəyən gənclərə yol verilməsin. Xeyr, Elmi şura səviyyəsində belə hallara mane olmaq, gənclərin gəlməsinə imkan yaratmaq lazımdır.

Lakin qədim və təcrübəli müəllimlər, müxtəlif sahələrdə stajı olanlar quruluşun ehtiyatlarıdır. Bunladan maksimum istifadə etmək lazımdır. İllərlə bu fəndə işləyib bişmiş, çoxlu təcrübə toplamış və ölkənin sərvəti sayılan təcrübəli müəllimdən, həmçinin dəyərli bir universitetdə özünün doktorantura pilləsini yenicə bitirib uyğun fənn üzrə həvəslə və aktiv şəkildə dərs deməyə hazır olan təzə nəfəsli gəncin heç birindən keçmək olmaz. O təcrübəli, stajlı və qədim qocaya da ehtiyacımız var, bu yeni, elmi fəallığa və həvəskarlığa malik olan və işləyib çalışmaq istəyən yeni gəncə də. Gərək hər ikisindən istifadə edək. Bizim insani qüvvəyə ehtiyacımız var. Çalışıb hər ikisindən bəhrələnməliyik.

Bizim kadra ehtiyacımız var. Mənim fikrimcə, təhsil və tədqiqat mərkəzlərini inkişaf etdirmək üçün hər iki qrupdan istifadə etməliyik. Bundan əlavə, işə hazır olan tələbələr üçün də elmi iş yerləri açmaq və elmi nümunələri cəlb etmək olar.[293]

**Humanitar elmlər sarıdan nigaranlıqlar**

Bizə verilən məlumata əsasən, ölkəmizin təxminən üç milyon yarımlıq möhtəşəm tələbə toplumunun təxminən iki milyonu humanitar fənlər üzrə təhsil alırlar. Bu bir baxımdan insanı nigaran edir. Bizim humanitar elmlərdə yerli işimiz və İslam tədqiqatımız nə qədərdir? Məgər humanitar elmlərdə hazır kitabımız nə qədərdir? İslam dünyagörüşünə etiqadlı olub, sosiologiya, psixologiya, politologiya, yaxud digər fənn üzrə tədris etmək istəyən sanballı müəllimimiz məgər nə qədərdir ki, bu fənlərdə bu qədər tələbə qəbul edirik?

Humanitar elmlərin çoxlu mövzuları materializmə, insanı heyvan sayan, Allah-Taala qarşısında məsuliyyətsiz bilən, insana və dünyaya mənəviyyatsız baxışa əsaslanan fəlsəfələrə söykənir. Bu humanitar elmləri tərcümə edib qərblilərin dediyini və yazdığını olduğu kimi gətirib

---

[293] Yenə orada.

gənclərimizə öyrətməyimiz, ilahi və dini əsaslara və öz dəyərlərimizə qarşı şübhə və etiqadsızlığı dərs formasında gənclərə ötürməyimiz çox da yaxşı hal deyil.

Buna həm dövlət orqanlarında, məsələn, Təhsil Nazirliyində, həm Mədəni İnqilab Ali Şurasında, həm də burada mövcud olan qərar mərkəzlərində, universitetlərin özündə və universitetlərdən xaricdə diqqət yetirmək lazımdır. Hər halda, çox əhəmiyyətli bir məsələdir.[294]

**Dəqiq elmi nəzərlərə tabe olmağın zəruriliyi**

Mütəxəssis rəylərindən maksimum istifadə edin! Mən tövsiyə etmirəm ki, bu gün beynəlxalq iqtisadiyyatın ölkələrə diktə etməkdə olduğu bütün iqtisadi formul və nəzəriyyələrə tabe olasınız. Xeyr, bu bizim fikrimizin tam ziddinədir. Siz düzgün yollar axtarın, lakin elmi əsaslı və dəqiq mütəxəssis rəylərinə mütləq tabe olmaq lazımdır; xüsusən də pul və bank məsələlərində əsla ehtiyatsızlıq etmək olmaz. Yəni bunlar çox zərif məsələlərdir. Siz görürsünüz ki, yersiz və biçimsiz bir addım gözlənilmədən dəhşətli məsafə yaradır. Biz onu qət edincə çox xərc çəkməli və vaxt itirməliyik.[295]

**Bugünkü inkişaf reallıqlarına əsasən inkişaf proqramları hazırlamaq**

Burada iştirak edən möhtərəm məmurlara - möhtərəm nazirlərə, Elmi Nümunələr Fondunun möhtərəm sədrinə, prezidentin xanım müavininə və digər məmurlara müraciətlə xatırlatmaq istəyirəm ki, siz proqramları bu reallıqlara əsasən hazırlamalısınız.

Bu il alim gəncdən eşitdiyim bir il və təbii ki, on il öncə tələbə, yaxud məzun gənclərimizdən eşitdiyimdən çox üstün, bişmiş və dərindir. Mən həmişə universitet mənsubları ilə əlaqədə olmuşam. Bilirsiniz ki, hər il müxtəlif münasibətlərə görə gənclərlə bir neçə görüşüm olur, belə məclislər keçiririk, söhbət edirlər, danışırlar, fikirlərini bildirirlər.

---

[294] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.
[295] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2009.

Mənim ölkə proqramlarından əlavə özümün bir dəyərləndirməm var. Mən bu dəyərləndirmədə bu gün malik olduqlarımızla on il öncə malik olduqlarımız arasında gözəçarpan fərq müşahidə edirəm. Yəni inkişaf aydın şəkildə özünü göstərir. Möhtərəm məmurlar gələcək üçün bu reallığa əsasən proqram hazırlasınlar. Əziz gənclərin burada toxunduqları məqamlar dəqiqliklə ölkənin elmi hərəkətinə, gələcəyinə və inkişafına hesablanmış məsələlərdir. Bəllidir ki, gənclər əsaslı məsələlərə yaxşı diqqət yetirirlər.[296]

---

[296] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 2009.

## Dördüncü fəsil: Elmi nümunələr

**Qərblilərin beyinləri oğurlamaqdan ötrü pusqu qurması**

Böyük ehtimalla sizin hər biriniz beyinləri oğurlamaq üçün fürsət gözləyənlərin mikroskopu altındasınız; bunu bilin. Onlar mənbələri, mədənləri, sərvətləri, hiss və həvəsləri oğurladıqları kimi beyinləri də asanlıqla oğurlayırlar. Xalq, valideynlər zəhmət çəkib, məktəb çalışıb bir gənci səmərəyə çatdırıb, onun istedadı çiçəklənib, sonra isə əcnəbi bir ölkə gəlib bir qədər pulla onu götürüb aparır, ixtiyarına təhsil imkanları buraxır, elmi laboratoriyalarda, emalatxanalarda və ali məktəblərdə işlədir. Nəticədə, bu xalqınkı və ona xidmət göstərməli olan parlaq istedad bəzən xalqın düşməninə xidmət edir.[297]

**Bu ölkənin sərvəti kimi qalın!**

Ehtiyatlı olun ki, düşmən sizə tamah salmasın, ona xoş üz göstərməyin. Siz öz xalqınıza, ölkənizə və İslama məxsussunuz. Bu səbəbdən özünüzü ölkəniz, xalqınız və İslam üçün bir sərvət kimi qoruyun. Həm siz bu işi görməlisiniz, həm də cənablar inşallah hazırlıq işlərini görüb düşməni məyus etsinlər və sui-istifadəyə qoymasınlar.[298]

**Zamanı tanımayan alim batilin xidmətində durar!**

İslam quruluşunun əsası elədir ki, elm, iman və aydınlıq birgə, lakin hər birinin özünəməxsus yeri olmalıdır. Elm vasitə və bundan əlavə, məhdud bir dairədə bilgi və məlumatın səbəbidir. Hər bir elm həyatın bir hissəsini işıqlandırır və insana - öz sahibinə bilgi verir. Aydınlıq başqa bir sahədə bilgidir. Bu sözdə məqsədim elmi lüğətlərdə başa düşülən intellektuallıq deyil, siyasi leksikonda başa düşülən tərifdir; yəni həyatın gedişatını, ölkənin siyasi arenasında mövcud həqiqətləri, düşmənləri, dövlətləri və mübarizəni tanıyan, dünyanın və həyatın ictimai və əsaslı məsələlərinə dair kompleks baxışı olan insan. İnsanlarda bu aydınlıq və ayıqlıq olsa, onları, həyatlarını təhdid edən əsas təhlükələrdən xəbərdar

---

[297] Elmi olimpiadalarda iştirak edən şagirdlərlə görüşdə çıxışından: 1995.
[298] Yenə orada.

edər. Ayıq, aydın ruha malik olmayan bir alimin haqqa xidmət etməsi asan olduğu kimi, bir gün batilə xidmət etməsi də asan olar.[299]

**Zamanı tanımadan öyrənilən elmin nəticəsi**

Pəhləvilər dövründə ölkənin azsaylı mütəxəssisləri elmsiz, mərifətsiz və mədəniyyətsiz hakimlərin boyunduruğu altına girdilər. Onlar asanlıqla elm, mərifət və mədəniyyətdən heç bir bəhrəsi olmayan hegemon və nadan Rza xana boyun əydilər, qarşısında ikiqat oldular və təzim göstərdilər. Məhəmmədrza da nadanlıq və mədəniyyətsizlikdə atasının tayı idi. Bu fərqlə ki, o, Avropada tərbiyə almış savadsız idi, İsveçin, Fransanın və İngiltərənin kabarelərində, mağazalarında, əyləncə mərkəzlərində ingilis və fransız dillərini öyrənmişdi. Sahib olduğu yeganə müsbət cəhəti bu idi. O, Avropa tərbiyəsi görmüşdü, avropalılar kimi qalstuk bağlayır, əl verir, digərlərinin sağlığına badə qaldırır, əyləncə mərkəzlərinə gedir və eyş-işrətlə məşğul olurdu. Elm və savaddan isə heç nəyi yox idi. Amma Fars ədəbiyyatında işləmiş bir müəllim Tehran Universitetinin müəllimlərinin önündən keçən bu savadsız adamın ayaqqabısını öpdü. Onun adını çəkmirəm, ölümündən illər ötüb. Bəzən ətrafda peyda olan, fürsət tapan kimi dinə, İslama və İslam Respublikası quruluşuna hücum edən, özünü azadlıqsevər və ziyalı kimi aparan bəzi cücə ədiblər həmin cənabın qalıqlarıdır. Əyilib o rəzil bədbəxtin ayaqqabısını öpdü. Bəzi gənclər dedilər ki, müəllim, siz böyük alimsiniz, yalnız şah olduğuna görə əyilib nadan və savadsız birinin ayaqqabısını öpdünüz?! Dedi ki, şah heybəti məni tutdu.

Bu, ziyalı olmayan və ziyalılığın insana verdiyi lazımi mərifətdən uzaq bir alimin dəyəridir. Bunun dinlə əlaqəsi yoxdur. Ola bilsin, insan dindar olmasın, amma hər kəsin həddini bilsin. Şah heybəti nədir?! Şah kimdir?! Savadsız və nadan şah qələt edib ayağını universitetə qoyur. Gəlirsə də, siz universitet müəllimi onun qarşısında belə torpağa düşməlisiniz?! Elm sahiblərinin çoxu bu elmi və onun vasitəsilə əldə

---

[299] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışından: 1995.

etdikləri ad-sanı harada xərcləməli olduqlarını bilmədilər. Əgər bilsəydilər, o zaman zalım şah rejimi ilə işləməzdilər.[300]

**Əxlaqsız fitri istedad işə yaramır!**

Siz elmi sevməli, dəyər bilməli, Allah üçün və saf niyyətlə öyrənməlisiniz. Mənim əzizlərim! Siz həm də nəfsinizi saflaşdırmağa çalışın, özünüzdəki əxlaqi təməlləri gücləndirin. Alim, tədqiqatçı insanlar bir ölkə üçün çox böyük sərvətlərdir, amma bu şərtlə ki, əxlaqi bünövrələri möhkəm, vicdanı diri olsun. Əks təqdirdə, elmin faydası olmayacaq.[301]

**Bu nəslin istedadlarının məsuliyyəti**

Bizim geri qalmışıq və bunu inşallah siz düzəltməlisiniz. Bu zəhmət və məsuliyyət hazırkı nəslin üzərinə düşür. Hərəkəti bir qədər sürətləndirin və elmi işlə məşğul olun. Sizin Allaha şükür ki, yaxşı istedadınız var, onu işlədin. Şübhəsiz, çox uzaq olmayan gələcəkdə onun şirin səmərələrini görəcəksiniz; həm özünüz görəcəksiniz, həm inşallah bütün ölkə. Çalışıb ölkəni elmi baxımdan digərlərinə ehtiyacsız etməliyik.[302]

**Yaddaş və istedad milli sərvətlərdir!**

İkinci məsələ budur ki, onların özləri bu istedad əmsalını və yaddaşı milli sərvət bilsinlər. Bunlar milli sərvətlərdir, şəxsi deyil. Bunlardan ölkə, xalq və ailələri üçün istifadə etsinlər. Bunlar Allahın verdiyi əmanət və sərmayələrdir, xüsusi mülk deyil. Deməsinlər ki, dövlət bizə qayğı göstərmədi. Əgər qayğı göstərməsə də, bu, üzr sayılmır. Bunu dedim ki, inşallah 15-20 il sonra görkəmli elmi şəxsiyyətlər olacaq bu yaxşı gənclər yadda saxlasınlar.[303]

**İstedadların tələf olmasında təqsirkar**

---

[300] Yenə orada.

[301] Tehran Universitetindəki sual-cavab toplantısında söhbətlərindən: 1998.

[302] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 1999.

[303] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

Bizim elmi gələcək və bununla bağlı dediklərimizin hamısı iki-üç təmələ əsaslanır. Əsas təməllərdən biri sizin dərs oxumanızdır. Siz gərək dərs oxuyasınız. İstedadlı və əlaçı olmaq bir imtiyazdır, amma mütləq o demək deyil ki, parlaq istedadın sahibi öz cəmiyyətinin, ölkəsinin, yaxud daha kiçik çevrənin taleyi üçün faydalı və təsirli bir şəxsiyyətə çevriləcək. Çoxlu istedadlar tələf olur. Bu isə həmişə imkan yaratmayanların təqsiri deyil. Çox zaman istedad sahibinin özünün pis idarəçiliyinə və pis seçiminə görə belə olur. Bunu yaddan çıxarmayın. Yaxşı istedadı olan şəxs nəfsini və həvəsini elmdən üstün tutsa, istedadı öləcək.

İstedadı öldürən amil həmişə insandan xaricdə deyil, bəzən və çox zaman özünün pis seçimidir; ya nəfs, həvəs, şəhvət, pulsevərlik, vəzifəpərəstlik və bu kimi məsələlərin təsiri altına düşür və uyğun olmayan bir insanın əlində vasitəyə çevirilir, ya da əvvəldən dərs oxumur. Çoxlarının istedadı yaxşıdır, amma dərsə həvəs göstərmir, dərs oxumurlar. Görürsünüz ki, qəbul imtahanında çox yüksək nəticə göstərmişdir, amma sonra ondan gözləněni etmir; yəni istedadını işlətmir.[304]

**Beyinlərin qaçışının onların mühacirəti ilə fərqi**

İkinci məsələ beyinlərin qaçışına aiddir. Mən bir dəfə bir tələbə toplantısında dedim ki, bununla bağlı digərləri qədər narahatlıq keçirmirəm. Bir qrup gənc görür ki, burada onların təhsil imkanları mövcud deyil, bir imkandan istifadə edib gedir və özlərini elmi cəhətdən yetişdirir, təkmilləşdirirlər. Mən bu məsələni hamının fəryad qopardığı qədər böyük hesab etmirəm. Mühüm olan qaçışdır. Cənab Qumi gözəl ifadə işlətdi; dedi ki, insanların mühacirətini onların qaçışı ilə qarışdırmaq olmaz. Bəli, mənim sözüm də budur. Bir zaman siz elm öyrənmək üçün mühacirət edirsiniz. Məgər İslam deməyib ki, elm Çində olsa belə, gedib öyrənin?! [305] Siz görün ozamankı Ərəbistan xalqının günün elm mərkəzlərindən olan Çinə səfəri nə qədər məşəqqətli idi. Bu gün heç bir

---

[304] İftar mərasimindən sonra tələbələrlə görüşdə çıxışından: 2001.

[305] "Vəsail əş-şiə" c. 27, səh: 27.

ölkəyə mühacirət etmək onun onda biri qədər çətin deyil. Bununla belə, demişlər ki, gedin təhsil alın, öyrənin.[306]

**Mühacirət edən beyinlərin ölkəyə qayıtmasının zəruriliyi**

Əlbəttə, siz də gedib təhsil almalı, öyrənməlisiniz. Heç kim mane olmur ki, kimsə gedib ölkəmizdə olmayan və digər yerlərdə olan laboratoriyalarda bir şey oyrənsin, amma bu, qaçış və qayıtmamaq niyyəti ilə olmamalıdır. Buradakı hər hansı çatışmazlığa görə geri dönməmək düzgün deyil. Məgər özünüz demirsinizmi "öz evimiz, öz vətənimiz"?! Bunun özü bir haqq yaradır. Siz bu bölgənin, bu torpağın, bu vətənin məhsulusunuz, buranınsınız və buraya borclusunuz. Sizin istedadınız, təhsiliniz və hər bir uğurunuz buraya aiddir.

Siz bu hisslə gedib dərs oxusanız, işləsəniz, elmi uğur qazansanız da, öz ölkənizə aid olduğunuzu, onun tarixi, mədəni və coğrafi baxımdan bəzi çətinliklərə dözməyə layiq bir yer olduğunu bilməlisiniz. Sizin vətəniniz böyük bir yer və əhəmiyyətli bir ölkədir, onun böyük tarixi, zəngin mədəniyyəti var. Ölkəniz bu gün də keçmiş əsrlər kimi əlində məşəl tuta və dünya ondan bəhrələnə bilər. Bu gün buna əlverişli imkan yaranmışdır və siz bu məşəli yandıranlardan ola bilərsiniz. Hər bir dönəmdə belə imkan yaranmır, hər bir elmi-mədəni irsdə belə çıxar olmur. Sizdə bu potensial var və bununla fəxr etməlisiniz.[307]

**Xaricdə təhsil alanların problemi: elmi-mədəni kimliyin unudulması**

Bir dönəmdə ölkənin gənc nəslinin başına böyük bir bəla gəldi. O da bu idi ki, onlar elm öyrənmək üçün başqa ölkələrə getdilər, elm öyrəndilər, amma daha əhəmiyyətli bir şeyi unudub orada qoydular. Bu, onların elmi-mədəni və milli kimliyi idi. Onlar qayıtdıqları ölkələrində dəyərli alim olmalarına baxmayaraq, bir əcnəbi kimi rəftar etdilər, öz ölkə və xalqlarının köklü məqsədlərinə lazımi xidməti göstərə bilmədilər. Bir dönəmdə ölkədən gedib Avropa ölkələrində təhsil alanların çoxu asılılığa

---

[306] Yenə orada.
[307] Yenə orada.

səbəb oldular. Bu, ona görə idi ki, onlar öz kimliklərini itirdilər. Bir xalq o zaman tərəqqi və yüksəlişə nail ola bilər ki, elmi öz milli başucalığına vasitə etsin. Bir ölkəni başucalığından və milli qürurundan ayırsalar, qlobal güclər üçün alətə çevrilər. Və bunun da dəyəri yoxdur.

Düzdür, inqilabdan sonra bizim tələbələrimizin vəziyyəti tamamilə dəyişib, İslam birlikləri fəal olandan və dəyərlər sahəsində işləyənlərin fəaliyyəti artandan sonra çox yaxşı işlər görülmüşdür. Mənim məlumatım qədərincə, Şərqi Avropanın İslam birliklərinin - yəni burada iştirak edən siz əziz qardaş və bacıların dini və islami dəyərlər, milli iqtidar və istiqlaliyyəti qorumaq sahəsində fəaliyyəti dəyərli olmuşdur.[308]

### Elmi nümunələrlə müştərək narahatlıqlar

Mən sizi diqqətlə dinlədim. Siz indi mənim də narahat olduğum əsas məsələlərə diqqət yetirirsiniz. Siz fundamental elmlərə, tədqiqata, elm və düşüncə inkişafı üçün münasib şərait yaratmağa, dünyanın hər bir yerində olan elmdən istifadəyə, digərlərinin elmindən bəhrələnməyi onların bütün mədəni-ideoloji nəzərlərindən bəhrələnməklə qarışdırmamağa toxundunuz. Bunlar mənim gənclərə, tələbələrə, cəmiyyətin bilikli və istedadlı təbəqəsinə dair əsas narahatlığımı təşkil edən məsələlərdir. Allaha şükür edirəm ki, məni düşündürən və beyinlərə hopub ümumi tələblərə çevrilməsi üçün universitet mənsublarına, universitetlərin məsul şəxslərinə və gənclərə dediyim bu sözlərin nəticə verdiyini görürəm. Siz istedadlılar indi həmin məsələlər üzərində dayanırsınız.[309]

### Elmi nümunələrin mühacirəti üçün proqram hazırlamaq

Bu işdə başqa bir cəhət var və o, elmə eşqdir. Mən bir-iki il öncə buraya gəlmiş gənclərə dedim ki, elmi nümunələrin ölkədən getməsinin adını özlərini təkmilləşdirmək və dünyanın mövcud imkanlarından istifadə etmək üçün mühacirət adlandırmaq olar. Ancaq bu niyyətlə ki, bu

---

[308] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsilə görüşdə çıxışından: 2002.

[309] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışından: 2002.

təkmilləşdirmə onları yetişdirən və onlara xidmət göstərən ölkələri və xalqları üçün olsun.

Bəzi dostlar dedilər ki, İslam insanları elm öyrənməyə həvəsləndirmişdir və elm öyrənmək lazımdır; dünyanın harasında elm varsa, ondan istifadə etmək mümkündürsə və bizim getməyimiz üçün maneə yoxdursa, xalq və ölkəmizdən ötrü gedib öyrənməliyik. Bunlar üçün işlər görülməli və sizin birinizin sözü ilə desək, proqram hazırlanmalıdır. Nizam-intizamlı proqramla gedib elm öyrənib qayıtsınlar. Bunlar vacib işlərdir. Biz bunu hökumətdəki dostlarımızdan istəmişik.[310]

**Elmi nümunələrin elm istehsalına iradəsi**

Elmin cəmiyyətdə inkişaf etməsi lazımdırsa, sözsüz ki, məmurlar imkanları təmin etməlidirlər. Mən bu sözü sizə deyirəm, hökumət və nazirlikdəki dostlara isə başqa söz deyirəm. Onlara deyirəm ki, kömək etsinlər. Dəfələrlə də söhbət etmişik, amma mənim övladlarım kimi olan siz əzizlərimə deyirəm: Elm istehsalı və elmdə dərinliklə məşğul olun. İstedadınız və zehni hazırlığınız varkən buna çalışın. Şablon bilgilər öyrənmək, yaxud qiymət almaq barədə düşünməyin, elm barədə fikirləşin. Əlbəttə, bunun üçün elm və tədqiqata dəstək mədəniyyəti və şəraiti lazımdır. Lakin bu amillərə üstün gələcək başqa bir amil sizin meyliniz, həvəsiniz, iradəniz və istəyinizdir. Ölkəni elmi baxımdan qurmağa səy göstərin.

Mənim müraciətim yalnız sizə deyil. Ölkədə sizdən öncə də elmi nümunələr olmuşdur, sonra da olacaq. Hər hansı fənnin elmi nümunələri daxildə elmi gücləndirməyə, istehsal etməyə çalışmalıdırlar.[311]

**Ölkədə elmi nümunələri aşkara çıxarmağın fayda və zərərləri**

Bu gün ölkədə elmi nümunələr yetişir və beynəlxalq olimpiadalarda çıxış edirlər. Düzdür, bunun zərəri də var; dostumuz işarə vurdu: şəxsiyyətləri tanıtdırmaq işgüzar fikir və beyin axtaran kompaniyaların və pullu təşkilatların onları oğurlamaq işini asanlaşdırır. Lakin bu, öz-

---

[310] Yenə orada.

[311]Yenə orada.

özlüyündə cəmiyyətimizdə yaranan elm hərəkatının, ölkəmizin və gənc təbəqəmizin elmdə özünü sübuta yetirmə cəsarətinin göstəricisi idi.[312]

**İnkişafın heç bir həddi ilə qane olmamaq**

Elmi inkişaf yolunu heç zaman üzünüzə bağlamayın və elmi inkişafın heç bir həddi ilə qane olmayın. Bəşərin mənəvi sahələrdə qazana bildiyi bütün inkişaflar - elm, əxlaq, din və uca mənəvi dəyərlər tükənməzdir, həmişə inkişaf imkanı var və yol sonsuzdur. İnşallah həm elmi sahələrdə, həm dini, mənəvi və özünüislah sahələrində günbəgün inkişaf edəsiniz.[313]

**Elmi nümunələr və elm işinin icrası**

Əgər hər hansı bir elm və tədqiqat işini əsas məqsədimiz və işimiz bilməsək, nəzərdə tutduğumuz heç bir iş düzəlməyəcək; nə inkişaf, nə sənaye, nə də ictimai işlər. Biz elmə prinsipial şəkildə diqqət yetirməli, proqramlarda və hər yerdə elmə baxışı artırmalıyıq. Düzdür, bunun idarəsi dövlət məmurlarına aiddir, lakin həyata keçirmək və səhnədə olmaq elmi nümunələrin üzərinə düşür.[314]

**İstedadlı gənclərin vəzifəsi**

Müxtəlif istedadlara uyğun olaraq gənclərimizin istedadı bütün sahə, sənaye və elmlərdə - fəlsəfədə, ədəbiyyatda, incəsənətdə və dini təlimlərdə işə salınmalıdır. Bunlar sizin işinizdir. Siz bütün müsəlman cəmiyyətlərinin gənclərinə örnək ola bilərsiniz. Necə ki, inqilabın əvvəlindən bu günə qədər Allahın lütfü ilə belə də olmuşdur.[315]

**Elm istehsalında əsgərlik hissi**

Mənim əzizlərim! Mənim sizə demək istədiyim budur: Siz bu sahədə döyüşdəki əsgər hissi ilə çalışmalısınız. Məsələnin məğzi budur. Biz heç kimi nəyəsə məcbur etmək istəmirik və bu iş müharibə dövrünün icbari

---

[312] Yenə orada.
[313] Elmi nümunə şagirdlərlə görüşdə çıxışından: 2002.
[314] Bazar ertəsi günlərinin ümumi görüşündə çıxışından: 2003.
[315] Parlaq istedadlı şagirdlərlə görüşdə çıxışından: 2003.

əsgərliyi kimi deyil. Burada elmi nümunə tərbiyə, inkişaf və elm istehsalı sahəsində bir əsgər kimi işləməlidir. İşləməsə də, kimsə onun yaxasını tutmayacaq, lakin bir gün bütün xalqın və ölkənin yaxasını əsaslı və böyük problemlər tutacaq. Biz ölkəmizdə bunu təcrübə etdik.[316]

**Elmi nümunələrin və məmurların qarşılıqlı gözləntiləri**

Bilin ki, istedadlı bir insan məsuliyyətli qurumlardan, haqlı olaraq, onun istedadını inkişaf etdirmələrini və onun qədrini bilmələrini gözlədiyi kimi, bu ölkə, xalq, ailə, valideynlər, cəmiyyət və quruluş da ondan həqiqətən can-başla çalışmasını gözləyir. Ən istedadlı şəxslər də çalışıb səy göstərməsələr, dərs oxumasalar, işlərini sonacan davam etdirməsələr, istedadları donar və tədricən məhv olar. Bu istedad müxtəlif fənlərdə çiçəkləndikdə və böyük işlər görə bildiyinizdə də mənəvi cəhətdən özünüzü güclü saxlayın ki, şübhələr sizi o tərəf-bu tərəfə çəkməsin. İstedadları çox yaxşı olan və böyük həddə də çiçəklənmiş bəzi şəxslər var, amma bir yerdə bir ehtiras, yaxud düşüncə uçurumu qarşıya çıxsa, sürüşərlər. Özünüzü möhkəm saxlayın. Adətən əcnəbilər yaxşı istedadlıları bu ölkədən aparmaq üçün tələlər qururlar. Onların qarşısında da ciddi müqavimət göstərməlisiniz.[317]

**Gənclərin əxlaq və mənəvi saflıqla yanaşı elm öyrənməsi**

Əziz gənclər! İstər humanitar elmlər, istər Quran elmləri, istər təbii elmlər, istər digər elmlər sizi dini və əxlaqi inkişafdan saxlamasın. Siz bunların hamısına birgə malik olmalısınız. Əziz qardaşımızın məclisin əvvəlində oxuduğu ayədə deyilir ki, Allah-Taala Peyğəmbəri (s) təlim vermək və paklamaq üçün göndərdi.[318] Deməli, təlim və paklıq bir-birinin yanındadır, onları ayırmayın.

"Elm adamı təbii olaraq dəyər, mənəviyyat və əxlaqdan vaz keçməlidir" düşüncəsi tamamilə səhv və idxal edilmiş bir fikirdir, məsihi Avropasında mövcud olan keçmişə əsaslanır, İslam cəmiyyəti ilə, İslam

[316] Gənc alimlərlə görüşdə çıxışından: 2004.
[317] Nümunəvi Quran və olimpiada şagirdləri ilə görüşdə çıxışından: 2004.
[318] "Bəqərə"/129; "Cümə"/2.

dərki və təlimləri ilə əsla uyğun deyil. Alim dəyərli və əxlaqlı olsa, hansı fəndə olursa-olsun, bəşəriyyətin və ölkəsinin yüksəlişi üçün ona bel bağlamaq olar. Belə alimin məqsədləri dəyərli, hərəkəti insaniyyətin, ədalətin, dəyərlərin xeyrinə və bu gün dünyada mövcud olan qəribə nizamsızlığa qarşı olar. Siz çalışın gələcəkdə belə alimlərdən olun, öz məqsədlərinizi belə məsələlərdən seçin, dünyanın çarxını düzgün istiqamətdə yönəldənlərdən olun. Bunu özünüzə məqsəd seçin. Bu mümkündür. Əlbəttə, bu məqsədə çatmaq üçün çoxlu işlər görmək lazımdır.[319]

**Elmi nümunələrin qayıtmaq məqsədi ilə xaricə getməsi**

Mən bir neçə dəfə demişəm ki, elmi nümunələrin ölkədən çıxması mütləq şəkildə mənfi bir məsələ deyil. Çünki ola bilsin bir elmi nümunə ölkədən xaric olsun, bəzi ixtisaslara yiyələnib yenidən qayıtsın və ölkəyə xidmət etsin. Əlbəttə, daha yaxşı olar ki, istedadın çiçəklənməsi üçün lazım olan şərait ölkənin özündə yaradılsın; laboratoriyalar, elm və tədqiqat mərkəzləri olsun. Daha yaxşısı budur. Əgər yoxdursa, elmi nümunələr getsinlər; dünya genişdir. Lakin onların getməsi proqramlı şəkildə olmalıdır; yəni gedən bilsin ki, nə üçün gedir, nə etmək istəyir, lazım olanı öyrənəndən sonra ondan necə istifadə edəcək.

O elmdən ölkənin inkişafı, xalqının tərəqqisi, ölkəsinin digər elm adamlarına kömək etmək üçün istifadə etmək istəyir, yoxsa onu bir kanadalı, amerikalı, yaxud avropalı biznesmenin şirkətində işlətmək istəyir?! Bu, elmi baxımdan görkəmli bir insan üçün ən böyük təhqirdir: çalışsın, zəhmət çəksin, işləsin, ölkəsinin bütün imkanları bu gənc alimin ərsəyə gəlməsi ilə nəticələnsin, amma o, dünyanın hansısa nöqtəsində olan, heç nə anlamayan, heç nə bilməyən, insanlıq düşməni olan hansısa zavod, yaxud kompaniya sahibinin xidmətində dursun və ondan alət kimi istifadə etsinlər.

Bir elmi nümunə o zaman başıuca və şərəflidir ki, öz ölkəsinin, evinin və xalqının vəziyyətinin yaxşılaşmasında, boynunda haqqı olan insanların həyatının, gələcəyinin və tarixinin parlamasında rol oynasın. Siz yalnız

---

[319] Gənc alimlər və tələbələrlə görüşdə çıxışından: 2004.

ölkənizdə çalışdığınızda parlaq simaya malik olarsınız. Heç bir iş görməyən minlərlə ali təhsilli gəncin arasında fizika, tibb, yaxud İran ədəbiyyatı sahəsində çalışıb ölkədə ölməz bir şəxsiyyətə çevrilən bir gənci fərz edin. Ölməz şəxsiyyətlər bunlardır. Ölkədə bizim tibb, fizika, ədəbiyyat, fəlsəfə və bəzi humanitar elmlərdə görkəmli şəxsiyyətlərimiz var. Ölkə bunlarla fəxr edir. Ölkə gedib hansısa topluma, yaxud şəxsə aid bir biznes təşkilatına üzv olan mühəndislə, həkimlə, yaxud ali təhsilli bir şəxs və alimlə fəxr etmir. O gedib bir insanın uşaqları, qızları, oğlanları, itləri və xidmətçiləri üçün pul istehsal etmişdir. Bunda fəxr etməli bir şey yoxdur. Fəxr odur ki, insan öz ölkəsi daxilində, öz ölkəsi üçün tərəqqi, inkişaf və hörmət yarada, gerilikləri aradan qaldıra bilsin. Bu baxımdan, kimsə bu niyyətlə istər burada, istər xaricdə hər hansı dərsi oxusa, hansısa sahədə işləsə, dəyərli olar. Hər halda, belə məsələlərin məqsəd və siyasətlərinin təyin və onları icra etmək işi sözügedən fondda həyata keçə bilər.[320]

### Təkəbbür və qürurdan ehtiyatlı olmaq

Hər halda, bunu sizə deyim, mənim əzizlərim! Sizlər elmi nümunəsiniz, əzizsiniz, gözümüzün işığısınız. Amma yadınızda qalsın ki, nə qədər alim olsanız, bir o qədər təvazökar olmalısınız. Bunu yaddan çıxarmayın. Məbada elmi nümunə olmaq, Allah eləməmiş, sizdə qürur yaratsın! Elmi nümunə olmaq mütləq məğrur olmaq demək deyil. Əlbəttə, mən sizdə bunu görmürəm, nurlu simalarınız belə göstərmir, amma hər halda, ehtiyatlı olun. Ölkənin elm adamları təkəbbürdən tamamən uzaq olmalıdırlar. Elmi uğurlarınız nə qədər çox olsa, harada yeni bir nailiyyətə imza atsanız və daha artıq müvəffəqiyyət əldə etsəniz, daha təvazökar və xalqa daha yaxın olun. Bu sizin naliyyətlərinizin və varlığınızın faydasını daha da artıra bilər.[321]

### Siyasətlə elmi-mədəni sahənin fərqi

---

[320] Yenə orada.

[321] Yenə orada.

Bizim fikrimiz də budur ki, siyasət çoxları, o cümlədən düşüncə və elm adamları üçün müvəqqəti sahədir, onların ümumi və ictimai kimliyinin əsas elementi deyil. Bu xüsusiyyətə malik olan amil elm və mədəniyyətdir. Bu, daimidir: "İnsanlara fayda verən bir şey isə yer üzündə qalar"[322]. Düzdür, siyasi işlər də xidmətdir, həm də çox əhəmiyyətli və dəyərlidir; istər hakimiyyətin rəhbərliyi həddində, yaxud ümumiyyətlə, siyasi aləmə qoşulmaq mənasında. Lakin bu işlərin xisləti müvəqqətidir. Müvəqqəti olmayan, daimi olan və insanın həyatı boyu davam edən amil mədəni və elmi işdir. Elm adamları belədirlər. Elm adamları yüz il də yaşasalar, onların elmi işi kəsilmir, əsas kimlikləri kimidir. Lakin siyasi xidmət və rolları azalıb-çoxalır, çox zaman da bitir.[323]

**Elmi yeniliklərin idarəsi**

Proqramlaşdırma və elm istehsalı hərəkatını biz irəli sürdük. İndi təxminən on il ötür və bu gün bir təlatüm yaranmışdır. Bunu kim yaratmışdır? Mən yalnız bir kəlmə dedim. Bu işi siz gördünüz, bizim tədqiqatçımız, gəncimiz, müəllimimiz gördü. Yenilik belədir. Bu yeniliyi idarə etmək cəmiyyətin düşüncə, mədəniyyət nümunələrinin, hövzə və universitet ziyalılarının vəzifəsidir. Nə yeniliyi vurmaq lazımdır, nə də hər yeniliyə təslim olmaq. Yaxşı, bu yenilik nə üçündür? İnkişaf üçündür. İnkişaf nədir? Bunu izah etməliyik.[324]

**Özünəinamın gücləndirilməsi**

Özünəinamı zəiflədən amillərdən çəkinmək lazımdır; xüsusən də elmi nümunələr. Bunların bəzisini mən dedim. Özünüz fikirləşin, araşdırın. Özünəinamı gücləndirən amilləri qabartmalısınız. Siz tələbə nəşriyyələrində, müəllim sinifdə, tələbələr öz dərnəklərində və təsir dairələrində bu işi görsünlər.[325]

**Elmi nümunə mədəniyyəti**

---

[322] "Rəd"/17.
[323] İslam Ensiklopediyası Fondunun Rəyasət Heyəti ilə görüşdə çıxışından: 2004.
[324] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.
[325] Yəzd vilayəti universitetlərinin tələbələri ilə görüşdə çıxışından: 2008.

Elmi nümunənin öhdəçi olması mədəniyyətini cəmiyyətə yayaq, yalnız gözləntiləri yox. Əlbəttə, gözlənti məntiqlidir, yerindədir, əbəs deyil. Lakin onun kənarında öhdəlik, borcluluq hissi olmalıdır; yəni bu böyük toplumun bir fərdi olaraq mənim üzərimə hansı vəzifə düşür, hansı işi görməliyəm. Bunlar çox mühümdür.[326]

---

326 Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 2009.

## Beşinci fəsil: Universitet tarixi

**Bizim universitetimizin əsası qeyri-dini təməllər üzərində quruldu!**

Qərb dünyasında elmi tədqiqatın zirvəsi sayılan on doqquzuncu əsr dindən ayrılmaq və dinin həyatdan çıxarılması əsridir. Bu təfəkkür ölkəmizdə də təsirini buraxdı və bizim universitetlərimizin bünövrəsi qeyri-dini təməllər üzərində quruldu. Din alimləri universitetdən üz çevirdilər, universitet də onlardan və elm hövzələrindən. Bu acınacaqlı hal həm elm hövzələrinə, həm də universitetlərə mənfi təsir göstərdi.[327]

**İslam əxlaqından və milli vicdandan uzaq şəxslərin universitetlərə rəhbərlik etməsi**

Xəmiri dindən və elm hövzələrindən ayrı yoğrulan universitet nə dini, nə İslam əxlaqı, nə siyasi əxlaqı, nə də ölkəsinə və xalqına hörməti olan bir ovuc insanın əlinə düşdü. Son yetmiş ildə Əmir Kəbir kimi bəzi insanlardan və ondan sonrakı çox azsaylı bir neçə nəfərdən başqa bu ölkədə ali təhsil işlərinə rəhbərlik edənlərin çoxu öz xalqlarının maraqlarını üstün tutmayan, bu xalqın və ölkənin gələcəyindən daha çox başqa məsələlər haqda fikirləşən insanlar idilər.

Təsadüfi deyil ki, İran xalqı öz elmi keçmişi, parlaq istedadı, zəngin və dərin İslam mədəniyyəti, əsrlər boyu meydana çıxmış çox böyük alimləri, oxumağa və öyrənməyə olan təbii həvəsi ilə yanaşı, dünyanın elm və bilik zirvələrinə sarı dördnala hərəkət etdiyi 150-200 ildə geriqalmış xalqlardan olmuşdur.

Əgər bu xalqı öz ixtiyarına buraxsaydılar, elmdə öncül olardı, əvvəldən cəmiyyətlərin daxilindən baş qaldıran və çiçəklənən elmlərin çoxunda inkişaf edərdi, dünya ilə birgə irəliləyər və bu qədər geri qalmazdı.[328]

**Universitetin təməlini qoyanların antidin düşüncələri**

[327] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışından: 1989.
[328] Yenə orada.

Səbəbi budur ki, universitetin bünövrəsini elə adamlar qoydular ki, nəinki dinin əsasını qəbul etmirdilər, hətta onu kökündən məhv etməyə çalışırdılar. Məgər belə deyil?! Ölkəmizdə universitetin, Avropa mədəniyyətinin tarixçəsi budur. Bu mədəniyyəti gətirənlər belə məsələləri əbəs sayırdılar. Yeni ziyalılıq ümumiyyətlə, belə doğuldu: antidin, dinə zidd və onu məhv etməyə çalışan amil kimi. Universitet də sözügedən yeni Avropa ziyalılığının törədiyi və inkişaf etdiyi yer idi. Buna görə mühit qeyri-dini oldu.[329]

**Universitetin bünövrəsi dinlə ziddiyyət üzərində quruldu!**

Avropalılar nail olduqları cəlbedici elmi tərəqqiləri və yeni elmi düşüncələri İslam ölkələrinə daxil edərkən onlardan xalqı dindən uzaqlaşdırmaq, ürəklərdə olan din-iman şöləsini söndürmək və dini vicdan oyaqlığını aradan qaldırmaq üçün istifadə etdilər. Buna görə də universitetləri əvvəldən etiqadsız bünövrə üzərində yaratdılar.

İlk dövrlərdə təhsil üçün gedən gənclərin hər bir qrupu avropalıların antiislam təbliğatına tuş gəldilər. Qərb mədəniyyətinin ilk yetirmələrinin hamısını demirəm, amma əksəriyyəti dinə biganəlik və hətta ədavət hissi keçirən insanlar idilər. Əlbəttə, iradələrin zəifliyi, güclü və yeni dini təbliğatın olmaması da təsirli idi.

Universitetin, yəni günün elmi nailiyyətlərinə uyğun alim insanlar yetişdirən mərkəzin özülü dinsizliklə və dinə ziddiyyətlə qoyuldu. İllərlə bu məsələni köklü şəkildə və diqqətlə davam etdirdilər. Yəni nəinki universitetlərdə din faktorunu zəiflətdilər, hətta onunla mübarizəyə qalxdılar.[330]

**İnqilabdan öncəki universitetin hövzə barədə təsəvvürü**

İnqilabdan öncə universitet mənsubları ruhaniləri çoxdanışan, nadan, çox gözləntisi olan və heç bir şey bilməyən insanlar hesab edirdilər. Mən onların çoxu ilə rastlaşmışam. Məsələn, bir məclisdə bir hövzə tələbəsi ilə

---

[329] Mədəniyyət və Ali Təhsil Naziri, nazirliyin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışından: 1990.

[330] Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə elmi hövzə və universitet tələbələri ilə görüşdə çıxışından: 1990.

oturub iki sanballı söz eşidəndə deyirdilər ki, maraqlıdır, doğrudan da ruhanilər arasında sizin kimilər var? Halbuki o, adi bir tələbə idi. Onlar ruhaniləri tanımırdılar, ölkənin elm və bilik adamlarının ruhanilik barədə təsəvvürü yanlış idi. Elm hövzəsi bünövrədən elm və tədqiqat mərkəzi olmuşdur. Ölkəmizdə elm hövzələri qədimdən mənfəət güdməyən elmin mərkəzi olmuşdur. Lakin onlar hövzələri elmdən uzaq yer bilirdilər.[331]

**Dini inancın kökünü kəsmək üçün universitet açmaq**

Universitet hər bir ölkə üçün əslində, hər şeydir. Tələbə cəmiyyətin gələcəyinin təminatçısıdır. Bu günün tələbəsinə baxıb hər bir cəmiyyətin sabahının necə olacağını bilmək, yaxud güman etmək olar. İranda dini inancı kökündən qoparmaq niyyətilə universitetə gedən və tələbə mühitini antidin təfəkkür, xəyal və məşğuliyyətlərilə bulayan insanlar nə etdiklərini çox yaxşı anladılar və öz çirkin məqsədlərindən ötrü doğrudan da əsas amil üzərində dayandılar.

Bilirsiniz ki, İranda universitet açılanda və ölkəmizdə yeni elmlərə maraq yarananda - əlbəttə, bu iş çox lazım idi və çox gec başlandı; əslində, 100 il əvvəl başlamalı idi - elə o zamandan seçim və proqramlarda dini vurmağa başladılar.

İnsan bəzi məsələlərə həqiqətən adət edib, onların əhəmiyyətini anlamır. Biz tağut dövründə adət etmişdik və belə başa düşürdük ki, universitetə gedən hər bir gənc dinsiz çıxacaq. Bu fikir hələ də yanlış olaraq bir çox beyinlərdə var. O zaman isə doğru idi; yəni məlum idi ki, universitet dinə və dindarlığa dözməyən bir yerdir. Hər şeydə belə şərait yaratmışdılar.

Onlar düşünülmüş şəkildə elə proqram hazırlamışdılar və istədiklərinə nail oldular. Bu ölkədə təxminən əlli il, yaxud bir qədər də artıq müddət ərzində yeni elmə, təcrübəyə və Qərb mədəniyyətinə bir qədər yaxınlaşanlar öz ənənələrindən və əsl İslam inancından bir o qədər uzaqlaşırdılar. Təbii ki, bizim cəmiyyətimiz müsəlman idi və hər halda, ali

---

[331] Mədəni İnqilab Ali Şurasının təşkil edilməsinin yeddinci ildönümü münasibəti ilə şura üzvləri ilə görüşdə çıxışından: 1991.

təhsillilərimizə müəyyən təsir göstərirdi. Eyni zamanda, o fikirlərə müxalif və zidd amillər də cəmiyyətdə vardı. Onlar bu barədə düşünməmişdilər.[332]

**Pəhləvi rejiminin ideal universiteti**

İslam Respublikasının yaranmasından öncəki əlli ildə ölkə universitetlərinin siyasətini təyin və ona rəhbərlik edənlər indiki yolun əksinə gedirdilər. Onların ideal universiteti yalnız elmdə yox, hətta düşüncədə, mədəniyyətdə və arzularda da Qərbdən asılı, Qərbin şagirdi və ona tabe olan universitet idi. Qərbdə yayılmış fərziyyə və nəzəriyyələrdən təsirlənmək, yalnız elm və texnoligiyada yox, hətta əxlaqda, siyasətdə, incəsənətdə, rəftarda və adət-ənənələrdə də onlara qeyd-şərtsiz tabe olmaq asılı və azğın Pəhləvi quruluşunun universitet üçün bəyəndiyi, proqram hazırladığı və icra etdiyi əsas faktorlar idi. O rejimin ümumi proqramında universitet İranın öz dini və milli kimliyindən uzaqlaşmasına sarı hərəkətinin avanqardı olmalı idi.[333]

**Keçmiş rejimdə yaranan elmi gerilikdə universitetin proqramını hazırlayanların rolu**

Şübhəsiz, azğın rejimin əlli ildən artıq sürən hakimiyyəti dövründə ölkənin elmi gerliyinin günahının mühüm bir hissəsi ölkə universitetini elə istəyən və onun üçün proqram hazırlayan şəxslərin üzərinə düşür. Onlar belə bir təfəkkür altında yetişmiş vəzifəli şəxslərin ləyaqətsizliyinin böyük hissəsində şərikdirlər.[334]

**İnqilabdan öncəki universitetə hakim mədəniyyət**

İnqilabdan öncəki universitet xalqın təlatümlü okeanı arasında ucqar bir ada idi. Mömin, dindar və yaxşı müəllim və tələbələri çıxsaq, o zaman universitet elə vəziyyətdə idi ki, oraya girsəydiniz, ümumi mədəniyyətə, imana, inamlara və xalqın etiqadlarına arxa çevirməli idiniz. Universitet müəllim və tələbələrin böyük əksəriyyəti üçün məhz şəxsi məqsədlər yeri

---

[332] Qum şəhərində ölkənin bir çox tələbə birlikləri ilə keçirilən görüşdə çıxışından: 1995.
[333] Universitet mənsublarının və tələbələrin həzrət İmam Xomeyninin xatirəsinə həsr olunan xüsusi toplantısına müraciətindən: 1999.
[334] Yenə orada.

idi. Siyasi və mübariz bir qrupdan başqa digər şəxslərin fikri-zikri şəxsi məsələlər idi; ictimai məsələlər haqda düşünmür, cəmiyyətlərinin dərdlərini hiss etmirdilər.

O zaman bir tələbə üçün ən mühüm arzu bu idi ki, hansısa bir yolla özünü sərhədlər xaricinə çatdıra bilsin. Universitet Qərbə vurulmuşdu, yenilik yaratmaq istəmirdi. Müəllim və tələbədə bu meyl vardı, amma universitetə hakim ənənə bu deyildi, şah rejiminin güclü şəkildə rəvac verdiyi asılılıq mədəniyyəti idi. Universitet daxilində ziyalılıq iddiasında olan şəxslər də xalqın ziyalıları deyildilər, xalqdan uzaqlaşmış kafe ziyalıları idilər. Onların çoxu inqilabdan sonra getdilər və indi də Avropa ölkələrində kafe adamlarıdır, çevrələrinin çoxu kafe çevrəsidir. Universitetin vəziyyəti belə idi.[335]

---

[335] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

## Altıncı fəsil: Təhsil

**Tələbənin məziyyətləri**

Sizin dinləyicilərinizin gəncliyə aid olan bu üç imtiyazdan əlavə, bir üstünlüyü də var. O da budur ki, onlar savadlı və elm adamıdırlar. Bu baxımdan, bir şeyi başa salmaq üçün insanın çətinlik çəkdiyi və mətləbi düzgün dərk edə bilməyən insandan üstündürlər. Bu da bir üstünlükdür.[336]

**Təhsil sisteminə yenidən baxış**

Mən yenidən baxış tərəfdarıyam. Nəticənin nə olmasını demək istəmirəm. Nəticə nə olursa-olsun, yenidən baxış yaxşıdır. Yəni təhsil idarəçiliyinin vəziyyəti barədə düşünmək çox yaxşıdır. Bu işi mütləq görün.[337]

**Təhsilin zamanına nisbətən az elmi nəticə**

Mənim elmi məsələlər barədə fikrim budur ki, universitetlərdə zamana uyğun elmi bəhrə götürülmür. Mən universitetlərlə əlaqəsiz deyiləm; buraya bizim yanımıza həm ölkə universitetlərinin rektorları gəlir və bəzən nəsə soruşurlar, həm də tələbələr get-gəl edirlər. Mən universitetdəki bəzi məsələlərdən ümumi olsa da, məlumatlıyam. Mənə verilən məlumatlara əsasən, universitetdən təhsil sahəsində ona qoyulan vaxt qədərincə elmi bəhrə götürülmür. Tədqiqat sahəsi isə ayrıdır və onun üçün geniş rövzəxanlıq lazımdır. O öz yerində. Nisbətən yaxşı vəziyyəti olan təhsildə də bu nöqsan var.[338]

**Əzbərləmək yerinə tədqiqatçı yetişdirmək**

Buna əsasən, mənim mühüm bir tövsiyəm budur ki, elm və tədqiqat işləri orada əsas olsun, dəyər sayılsın. Bunun başqa bir cəhəti odur ki,

---

336 Fəqih rəhbərin universitetlərdəki nümayəndəliklərinin üzvlərilə görüşdə çıxışından: 1997.
337 Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.
338 Yenə orada.

beyinlər tədqiqatçı yetişsinlər, onlara yalnız məlumat verilməsin. Siz dərsin və işin keyfiyyətini, tədris metodunu elə etməlisiniz ki, üzündən əzbərləmək yerinə dərinə getmək və kökünü tapmaq barədə düşünsünlər. Bunun üçün proqram hazırlamaq isə öz işinizdir. Bu bəlkə heç Təhsil Nazirliyinə də aid deyil. Ona aid olsa da, siz tələb etməlisiniz.[339]

**Universitetdə yenilik və elm istehsalı**

Universitetlərin mühüm vəzifələrindən biri elmi düşüncə yeniliyindən ibarətdir. Ehkamçılıq təkcə dini mühitlərin və dini düşüncələrin problemi deyil. Bütün yerlərdə ehkamçılıq, doqmatizm, düzgün məntiqlə yanaşmadan insana yeridilənlərə tabe olmaq bir bəladır. Bir elm mərkəzinin və universitetin ideal vəzifəsi budur ki, elmi məsələlərdə yenilikçi olsun. Elm istehsalının həqiqi mənası da məhz budur. Elm istehsalı təkcə elmin köçürülməsi deyil. Elmi yeniliklər birinci dərəcəli əhəmiyyətə malikdir. Bunu ona görə deyirəm ki, bir ənənə olsun. Bu yenilik təkcə müəllimlərə deyil, həm də tələbələrə və bütün elmi çevrələrə aiddir.[340]

---

[339] Şərif Sənaye Universitetinin məsul şəxsləri və müəllimləri ilə görüşdə çıxışından: 2000.

[340] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

## Güclü məqalələr

Ensiklopediya üçün hazırlanan məqalələrin ən yüksək elmi tədqiqat həddində olmasına çalışın. Çünki ölkəmiz İslam mədəniyyətinin elmi ehtiyatına, dərin kök və keçmişinə, kitab və aliminə malik olmaqla İslamın mərkəzi və bazası kimi tanınır. Burada hazırlanan İslam ensiklopediyasının məqalələri qüvvə və elmilik baxımından imkan daxilində birinci olmalıdır. Odur ki, yekun iş üçün təcrübəli redaktorlardan istifadə olunsun.[341]

## Tədqiqat və yenilikdə mədəni xəstəlik

Biz dünyada hər tərəfdən güclü düşmənlərin ədavəti ilə üz-üzə qalmışıq. Onlar həm xalqın ümumi mədəniyyəti, zehniyyəti, rəftarı və həm tədris işi və kadr yetişdirmək sahəsində məqsədlərimizə çatmağa mane olurlar. Biz düşmənin ədavətinə münasib proqram hazırlamalıyıq. Ümumi mədəniyyət məsələsində müşahidə edirik ki, bizim cəmiyyətimizdə, misal üçün, idarə və dövlət qurumlarında süründürməçilikdən, xüsusən də bəzi orqanların işindən çox şikayət olunur; xalqın işləri rahatlıqla görülmür, bu gün-sabah edilir, xalqın işinə qayğıkeş şəkildə baxılmır. Bunlar mədəni bir xəstəliyə və nöqsana görədir. Yaxud müşahidə edirik ki, bizim işgüzar elmi şəxsiyyətlərimiz universitetlərdə, iş yerlərində, tədqiqat mərkəzlərində bir tədqiqatçı üçün çörəyi, suyu və şöhrəti olmayan, amma zəhməti çox olan yenilik və ixtiralara az girişirlər, daha asan işlərlə məşğul olurlar. Bu, mədəni bir xəstəlikdir.

Elm dünyasında baş verən dəyərli tədqiqatlar kimlərin vasitəsi ilə görülmüşdür? Adətən tədqiqat dövründə məşhur olmayan, tədqiqata, elmə və əməklərinin bəhrəsinə sevgi ilə baxan, zəhmətlə işə başlayan və əziyyətinə dözən şəxslər vasitəsi ilə görülmüşdür. Bu işin nəticəsi bir xalq üçün möhtəşəm olmuşdur. Düzdür, siyasətlər də onların elm və tədqiqat məhsulundan bədxah şəkildə sui-istifadə etmişlər. Biz siyasətin sui-istifadəsini tədqiqatın və onların məqsədlərinin adına yaza bilmərik. Əgər

[341] İslam Ensiklopediyası Fondunun üzvləri ilə görüşdə çıxışından: 1989.

bizdə bunlar azdırsa, mədəni bir xəstəliyə görədir. Biz bunu müalicə etməliyik. Bunun məktəb, universitet və digər yerlərin işinə aidiyyəti yoxdur, başqa bir proqramlı mədəni baxış, fəaliyyət və çalışmaq tələb edir. Və biz bu işi görməliyik.

Həqiqətən Mədəni İnqilab Ali Şurasının mühüm işlərindən biri ümumi mədəniyyəti araşdırmaq, ölkəmizin bugünkü mədəni xəstəliklərini tapmaq, ixtisaslı, xeyirxah, inqilabçı şəkildə və müxtəlif qurumlara tövsiyə ilə onların müalicəsini öyrənməkdir. Bu, işin mühüm bir hissəsidir və yaxşı olar ki, Mədəni İnqilab Ali Şurası bununla məşğul olsun. [342]

**Universitetlərdə keyfiyyətin aşağı olması**

Mən mövcud nöqsanları müəyyən qədər bilirəm, siz isə məndən də yaxşı bilirsiniz. Bizim ibtidai və orta məktəblərimizin problem və nöqsanları var. Bizim universitetlərimizin keyfiyyət problemləri var. Son illərdə kəmiyyətə bir qədər fikir verilsə də, keyfiyyətin aşağı olması hamının qəbul etdiyi və bildiyi bir həqiqətdir. Tədqiqat mərkəzlərinin çatışmazlıqları və bəzi tədqiqatçılarımızın həvəssizliyi də mövcud problemlərdən biridir.[343]

**İnqilabi ruhun elmi tədqiqat büdcəsindən mühüm olması**

İnqilab odur ki, hər bir şeydə dəyişiklik yaransın. Dəyişikliklərdən biri də ölkənin elm məsələsindədir. Deməyin ki, bizim pulumuz və büdcəmiz yoxdur. Bəli, pulla çox işlər görülür. Lakin düşünürəm ki, ölkənin bütün elm və bilik qurumları məsələyə inqilabçı gözlə baxmalıdır; övladı suya düşüb boğulmaqda olan bir şəxs kimi; inqilabdan qabaqkı dövrdə heç bir şeyi - nə həyat yoldaşını, nə uşağını, nə yaşayışını, nə evini, nə rahatlığını düşünən və bütün həyatını bir iş görməyə sərf edən mübariz insan kimi. Ölkənin elmi qurumları belə irəliləməli və bununla da bu yolda olan maneələr həqiqətən aradan qaldırılmalıdır. Universitetlərdə elm, tədqiqat və tətbiqi araşdırmalar üçün iş görmək lazımdır.

---

[342] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1989.
[343] Yenə orada.

Bu gün Allaha şükür olsun ki, nazirlik və universitetlər hizbullahçı təşkilatlardır. Mən siz cənabların çoxunu yaxından tanıyıram, işinizə, məqsədinizə və imanınıza bələdəm. Gözləyirəm ki, bu məsələ, yəni elm və biliyin inkişaf etdirilməsi ilə məşğul olasınız.[344]

**Universitetlərdə tədqiqat səviyyəsinin yüksəlməsinə ehtiyac**

Mənim fikrimcə, universitetlərdə tədiqiqat işi qərib və məzlumdur. Siz elə etməlisiniz ki, tədqiqat sahəsində təhsilə oxşar iş görülsün, yaxud onun qədər qayğı göstərilsin. Doğrudan da bu işi görməlisiniz, bu diqqət və qayğı göstərilməlidir. Tələbədə elmə həvəs yaradan də tədqiqatdır. Çünki tədqiqatın əksinə olaraq, dərs və təhsil çalışqan və həvəskar tələbə üçün də yorucu olur. Tədqiqat elə işdir ki, tələbənin özü çalışır, işləyir. Bu, heç şübhəsiz, universitetlərdə elmə marağı artıracaq.[345]

**İxtisaslı tədqiqatlara daha artıq diqqət**

Tədqiqata və elmin inkişafına da diqqət yetirilməlidir. Xoşbəxtlikdən, biz ölkədə su və elektrik enerjisi sahələrində nisbi özünütəminə çatmışıq. Bu gün bizim mühəndislərimiz elə bəndlər düzəldirlər ki, keçmişdə ölkədə belə bir potensialın olması təsəvvür də olunmurdu, buna ümumiyyətlə, icazə verilmirdi. Bu gün bu böyük işləri öz uşaqlarımız, mühəndislərimiz və inqilabın mömin gəncləri görməkdədirlər. Bunları bu sahələrdə elmi cəhətdən nə qədər artıq təmin etsəniz, dəyərlidir, etimadlıdır, işin inkişafını və ölkədən xaricə ixracını da təmin edəcək. Odur ki, işiniz əhəmiyyətlidir.[346]

**Rəğbətlə görülən tədqiqat işi**

Qardaşımıza deyirdim ki, tədqiqat işi görsün. Tədqiqat işi eşq və həvəslə görülməlidir. İnsanı məcbur edib desələr ki, tədqiqat apar, o zaman bu, əlbəttə, quru və həyəcansız bir şey olar, fayda da yetirməz. Lakin sizin sevdiyiniz və maraq göstərdiyiniz, qəbul imtahanlarında iştirak

---

[344] Mədəniyyət və Ali Təhsil Naziri, nazirliyin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışından: 1990.

[345] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.

[346] Bazar ertəsi günlərinin ümumi görüşü zamanı çıxışından: 1998.

etdiyiniz, universitetdə dərsini oxumaqda olduğunuz, yaxşı müəlliminizin də olduğu bir fəndə təchizatlı bir iş otağı da var; fikrinizin və yeniliyinizin nəticəsini oraya aparıb həyata keçirə bilsəniz, çox yaxşı olar.[347]

**Tədqiqatda kəmiyyət və keyfiyyət dəyişikliyi**

(Universitet cihadı təşkilatı) tədqiqatı rəhbər tutmaqla imkanı həddində universitetləri durğunluq, donuqluq, əzbərləmələrə əsaslanmaq və tədqiqatdan uzaqlaşmaq halından çıxara bilər. Biz universitet orqanlarının, möhtərəm universitet müəllimlərinin və tədqiqat müdirlərinin işini əsla görməzdən gəlmək istəmirik. Lakin Universitet cihadı xüsusiyyətlərinə malik olan - gənc, inqilabçı və dindar olan, idarə vəzifəsindən çox etiqad, iman və inqilab vəzifəsinə arxalanan bir orqan və qrup tədqiqat işini öhdəsinə götürdükdə prinsipcə onun xüsusi keyfiyyəti olmalı, misilsiz şəkildə inkişaf etməlidir.

Buna əsasən, ölkə universitetlərini elm və tədqiqata yönəltmək istiqamətində hərəkət bu sərlövhədə yerləşdirilmişdir. Universitet cihadında da əvvəldən universitetlərin elmi keyfiyyətini yüksəltmək nəzərdə tutulmuşdu. Hamı bilir ki, inqilabdan öncəki universitetlərdə daha çox üzündən oxumaq vardı, nəinki yaradıcılıq, yenilik və özünəinam. Onda hətta dərinlik də az idi. Düzdür, müəllimlər vardı, alimlər yetişirdilər, lakin onları universitetin sistemi yetişdirmirdi. Bir zaman bir yaxşı elmi rəhbər, bir qayğıkeş pedaqoq, yaxud bir həvəskar şagird işi davam etdirib bir şeyə nail olurdu.

İnqilabdan öncəki universitetin ümumi sistemi əsla tədqiqatçı yetişdirən, dərin, yaradıcı və yenilikçi tədqiqatlar aparan və elmi dalanları açan deyildi, belə bir işi təbliğ etmirdi. Siz isə bu işi görə bilərsiniz. Allaha şükür olsun ki, ölkənin inqilabdan sonrakı universitetləri çox yaxşı inkişaf etmişdir. Bu, əsla öncəyə aid deyil.[348]

**Tədqiqatlara dəstəkdə böyük maddi qazanc**

---

[347] Gənc həftəsi münasibətilə gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.

[348] Universitet cihadının üzvləri ilə görüşdə çıxışından: 1999.

Bizim burada sərmayə qoymaqdan başqa çarəmiz yoxdur. Biz indi elə yerlərə sərmayə qoyuruq ki, məsələn, yaxın gələcəkdə on faiz, iyirmi faiz, yaxud bəzi yerlərdə möcuzə olsa, əlli faiz maddi qazanc götürək. Əgər meyar maddi qazanc da olsa, bir qədər dözsək, burada söhbət on faiz, iyirmi faiz və yüz faiz deyil, daha çoxdur. Ölkədə bu qədər alim, tədqiqatçı, qurucu, müxtəlif elmlərlə məşğul olan və idarə edən bu qədər kadr yetişir. Əgər uzunmüddətli baxışla baxsaq və bir qədər davamlı olsaq, maddi baxımdan da ölkə ehtiyacsız olacaq. Odur ki, tədqiqata dəstək mühüm məsələdir.[349]

**Tədqiqata rəğbətin zəruri olması**

Radar istehsalı barədə davamlı olaraq məlumatlar aldığımız 1-2 il öncədən məni sevindirən bu idi ki, dostlar çox məhdud və çox zəif bir şəraitdə bu işi şövq və rəğbətlə görürdülər. Bu, sözügedən əsas məsələdir. Əgər ölkədə tədqiqatın inkişaf etməsini istəyiriksə - hər şey kimi elm və texnologiyanın əsası da tədqiqatdır - insanlarda tədqiqata rəğbət yaranmalıdır. Tədqiqata rəğbət digər şeylərdən çox fərqlidir, ümumiyyətlə, başqa bir şeydir, bir mədəniyyətdir. Maliyyə yardımı və rifah köməyi öz yerində lazımdır. Amma həvəs olmadan tədqiqatın baş tutması imkansızdır.

Sizin məndən yaxşı xəbəriniz var və görürsünüz ki, dünyanın bütün böyük kəşfləri, yaxud mənşəyi tədqiqat və kəşflər olan ixtiralar işə yapışan və ticarət ardınca düşməyən insanlardan baş vermişdir. Ticarət tacirə, sifarişçiyə və bu kimi şəxslərə məxsusdur. Tədqiqatla məşğul olan şəxs isə sevərək bu işlə məşğul olur. Bu bir mədəniyyətdir. Bu mədəniyyəti universitetlərdə dirçəltmək lazımdır.[350]

**Universitetdə elm və tədqiqata diqqət azlığının zərəri**

Mən universitet barədə bəzi mətləblərə toxunacağam. Əlbəttə, bunlar tibb universitetlərinə məxsus deyil, ölkənin bütün universitet toplumuna

---

[349] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2000.

[350] Bazar ertəsi görüşlərində İsfahan Sənaye Universitetinin məsul işçiləri ilə görüşdə çıxışından: 2000.

məxsusdur. Mən hiss edirəm ki, universitetlərdə elmi inkişafın əleyhinə bəzi işlər planlaşdırılır. Bizim qısamüddətli və uzunmüddətli proqramlarımız var və bu ölkənin idarəsi onlara bağlıdır. Əgər məmurlar bəzi proqramların icrasına diqqətsiz yanaşsalar, yaranan nöqsanları istədikləri vaxt aradan qaldıra bilərlər; yəni gec olmaz. Lakin bəzi işlərdə diqqətsizlik baş versə, vaxtın ötməsi mümkündür; yəni düzəlməsi qeyri-mümkün olmasa da, çox gec düzələn zərərlər qarşıya çıxar. Belə məsələlərdən biri də ölkənin elmi işidir.

Əgər biz ölkədə elmi işi əhəmiyyətsiz saysaq, elmə, tədqiqata və tədqiqatçı yetişdirməyə rəğbət olmasa, yaxın gələcək üçün heç bir təsiri olmaya bilər, amma uzaq gələcək üçün ölkədə elə problem yaranar ki, asanlıqla düzəlməsi mümkün olmaz. Yəni bizim on illərlə düçar olduğumuz və indinin özündə də böyük həddə altını çəkdiyimiz vəziyyət yaranar.[351]

**Universitetlərin ən mühüm işi**

Sizin sözləriniz arasında universitetlər üçün həmişə narahat olduğum məsələləri eşitdiyimə çox sevinirəm. Bir universitet elm və tədqiqatın inkişafına çalışır, ən mühüm qayğısı tədqiqat məsələsidir. Sizin hamınız bunu tələb edirsiniz. Ölkədə tədqiqatın inkişafına imkanların yaradılması sizin hüququnuzdur. Bunlar mənim üçün çox gözəl və ürəkaçandır. Biz də universitetlərin bu işlərlə məşğul olmasını istəyirik.[352]

**Universitetin sənayedən ayrılığının ikitərəfli ziyanı**

Sənaye imkanlarının ölkədə elm və tədqiqat səviyyəsinin yüksəlməsinə uyğun olaraq artması lazımdır. Belə olmasın ki, universitetlərimizdə çoxlu elm və tədqiqat işləri görülsün, lakin ölkənin real vəziyyətinə təsir göstərməsin. Bunlar mücərrəd şəraitdə oturub tədqiqat aparsınlar, elm, düşüncə və nəzəriyyə yürütsünlər, lakin reallıqla əlaqələri olmasın. Onlar da elm və sənaye inkişafından məhrum

[351] Bazar ertəsi görüşlərində Gilan Tibb Universitetinin məsul şəxslər ilə görüşdə çıxışından: 2000.
[352] Əmir Kəbir adına Sənaye Universitetinin müəllimləri ilə görüşdə çıxışından: 2001.

olduqlarına görə sənaye, yaxud əkinçilik işini qüsurlu, qeyri-düzgün, geriqalmış və zəif formada aparsınlar. Bu, ikitərəfli ziyandır; yəni həm elm və tədqiqat, həm də sənaye, əkinçilik və digər əməli sahələr ziyan görür.[353]

### Tədqiqatın istiqamətləndirilməsi və idarəsi

Tədqiqatı istiqamətləndirmək lazımdır. Tədqiqatın mütləq şəkildə və hər hansı bir formada olması yaxşı deyil, müəyyən istiqamətdə aparılmalıdır. Yəni ölkənin tədqiqat, texnika və elm işlərini təkmilləşdirən mövzular tədqiq olunmalıdır. Tədqiqat işindəki pərakəndəlik onların bəzisinin bəlkə də faydasız, yaxud az faydalı olmasına bais olur.[354]

### Universitetlərdə elm və tədqiqata diqqətin gözəçarpan səmərələri

...İşə başlamalı və bunu həyata keçirməlisiniz, təsiri də duyulmalıdır. Demirik ki, bu iş 1, yaxud 2 ilə bilinməlidir. Xeyr, lakin elmə, alimə və tədqiqata diqqət, eləcə də ölkədə elm və sənayeni birləşdirmə prosesi başlandıqda və ölkə ehtiyaclarına uyğun şəkildə həyata keçdikdə, yəni ölkənin prioritetləri nəzərə alınıb elm və tədqiqat işinin və sənaye zəncirinin itmiş halqaları bərpa olunduqda, universitetlərdə bu sahəyə təbii həvəs və diqqət yaranacaq və bu, hiss olunacaq.

Bu, gizli qalmır və nə olduğuna baxmaq üçün 10 il gözləməyə ehtiyac olmur. İşin gedişində təsiri tamamilə duyulacaq, başlandığı bəlli olacaq; özünüz deyəcəksiniz ki, bu məqsədlə universitetdə bir cihad başlanmışdır. Bu işlər doğrudan da cihad kimidir. Bu baxımdan, biz bu barədə deyilənlərə bir şey əlavə etmirik və sizin inandığınız, nəticəyə gəldiyiniz, bizim də uzun müddətdir dəfələrlə təkrarladığımız məsələni yenidən xatırladırıq.[355]

### Proqramlaşdırma hərəkatı - ölkənin əsas məsələsi

---

[353] Yenə orada.
[354] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2001.
[355] Universitet rektorları ilə görüşdə çıxışından: 2001.

Ölkənin əsas məsələləri iqtisadiyyat və elm məsələsi, universitetlərdə elmi işin yüksəldilməsi və universitetlərdə, tələbə və müəllimlərlə görüşdə dəfələrlə irəli sürdüyümüz Proqramlaşdırma hərəkatıdır.[356]

**Dünyanın şirkətləri və elmi təşkilatları ilə zərərsiz əlaqə yaratmaq**

Mənim fikrimcə, dünyanın elmi təşkilatlarının hər biri ilə elmi əlaqə yaxşıdır; əlbəttə, bu şərtlə ki, ziyanla nəticələnməsin. Elmi münasibət və iqtisadi əlaqə öz-özlüyündə çox yaxşıdır. Bizim fikrimizcə, şirkətlərlə və elm ocaqları ilə əlaqənin eybi yoxdur.[357]

**Alimlərdə öhdəliyin sərhədi**

İnsan alim və ali təhsilli gənclərin bir qrupunun hər bir cəmiyyətin alimlərinin üzərinə düşən ağır məsuliyyəti hissi edərək bir yerə toplaşdığını, gələcəyə baxışla problemləri araşdırdığını və həll yolu axtardığını görəndə həzz alır. Bu işi görməyən çoxlu alimlər də var. Nə üçün? Çünki məsuliyyət hiss etmirlər. Qəribə sərhəddir! Alim - müəyyən bir bacarığa malik olan şəxs deməkdir. Bu bacarığa malik olanların bir qrupu fikirləşir ki, sabah zəlzələ olsa, təhlükəli virus yayılsa, öz sözləri ilə desək, təbii böhran yaransa, biz və digərləri nə iş görə bilərik, yaxud ümumiyyətlə, nə iş görmək olar? Sonra düşünür, proqram hazırlayır və hazırlıq görürlər. Başqa bir qrupda da həmin elm və bacarıq var, lakin ya bu fikrə düşmürlər, ya da əhəmiyyətsiz yanaşırlar. Məsuliyyətin sərhədi budur.[358]

**Təbii və humanitar elmlərin nəticələrinin qəti olmaması**

Yalnız humanitar sahələrdə yox, bütün sahələrdə, hətta inkişafın çox olduğu təbii sahələrdə də elmin nəticələri qəti deyil. Görürsünüz ki, bu gün hansısa dərmanın filan xüsusiyyətə malik olduğunu, üç il sonra isə bunun 180° əksini deyirlər. Halbuki gedib ölçüblər, dəqiq alətlərlə bütün xüsusiyyətlərini görüb sınayıblar, eyni zamanda sonradan nəticə yanlış

---

[356] 13 Aban (4 Noyabr) gününün ildönümü münasibəti ilə tələbə və şagirdlərlə görüşdə çıxışından: 2002.

[357] Şəhid Behişti universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2003.

[358] Həkim Bəsici ilə görüşdə çıxışından: 2003.

çıxır və çox da uzun olmayan müddətdən sonra analizlərin dəyişdiyini görürsünüz. Humanitar elmlər təbii elmlər kimi inkişaf etməyib. Buna görə, elmi metodlara, elmi işlərə əhəmiyyət verin, amma onların nəticələrinə yüz faiz inanmayın ki, gözünüz önündə hissolunan və aydın təcrübə olduqda tənqid edə biləsiniz.[359]

**Universitet cihadının faydaları və onu genişləndirməyin zəruriliyi**

Xoşbəxtlikdən, Universitet cihadı təşkilatı gözlənənləri həyata keçirdi. Bəlkə də bir zaman düşünürdülər ki, bu təşkilat nümunə üçün düzəltdiyimiz bir istixanadır. Bu gün isə bu istixana cəmiyyəti gülüstana çevirir. Nəinki nümunə yetişdirməklə kifayətlənməyib, hətta öz səmərələrini də daşırır. Bu statistikalar - onları qabaqcadan mənə göndərmişdilər və baxmışdım - çox mənalıdır. Siz bəzi sahələrdə elmin ön sıralarında hərəkət etməkdəsiniz, ölkənin elm, sənaye və texnologiya baxımından inkişafı üçün onu işlədirsiniz, tədqiqatı inkişaf etdirirsiniz. Mənası odur ki, bu daha istixana deyil, böyüməkdə olan açıq və ətirli bir mühitdir. Mən bu böyümənin tərəfdarıyam. Bu, günbəgün artmalıdır.

Qeyd olunan birinci məlumatda kök hüceyrələrin istehsalı, çoxaldılması və dondurulması vardı. Mən bu dəyərli tədqiqat işindən çox sevindirici məlumatlar almışam. Yadımda olan budur ki, bunlar dünyada ilk dəfə olaraq, insulin düzəldən hüceyrələr istehsal etmişlər və bu yaxınlarda qəzetdə oxudum ki, ürəyi müalicə etmək üçün onun kök hüceyrələrini sınaq və əməliyyat mərhələsinə çıxarıb peyvənd ediblər. Digər məsələlərin hər biri də Universitet cihadının səmərəliliyinə bariz misallardır.[360]

**Tədqiqat məhsullarının cəmiyyətin ehtiyacı ilə müqayisəsi**

Filan qədər kitab nəşr etdirdiyimizi, filan qədər tədqiqat apardığımızı və filan qədər bacarıqlı kadr topladığımızı söyləməyimiz kifayət etmir, biz ehtiyacın miqdarına baxmalıyıq; bazarda tələbatın miqdarını bilib təklifi

---

[359] Təlim və Tərbiyə Nazirliyinin Tədqiqat müavinliyinin əməkdaşları ilə görüşdə çıxışından: 2003.

[360] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2004.

onunla müqayisə etməliyik. Təbii ki, bu söz yalnız sizə ünvanlanmır, bütün quruluşa aiddir.[361]

**Tələbə tədqiqatlarını tətbiqi etmək**

Təhsil zamanı, yaxud onun sonunda tələbə və müəllim tərəfindən bir dissertasiyanın, yaxud tədqiqat işinin hazırlanmasına çox qiymətli saatlar sərf olunur. Bu mövzuların seçimi plan əsasında və ölkənin ehtiyaclarına uyğundurmu? Müəllim və tələbənin müştərək halda və yaxud ümumi şəkildə yerinə yetirdiyi tədqiqat məhsulu icra və əməl mərhələsinə çatırmı? Bunun vasitəsi ilə bizim universitetimiz, elmimiz və tədqiqat dərəcəmiz inkişaf edir, yoxsa yox? Bəzi tələbələr öz dissertasiyalarını cildli və qəşəng şəkildə mənə göndərirlər. Mən kitabxanamda bir şkafı bu dissertasiyalar üçün ayırmışam. Təəssüf ki, onları oxumağa vaxtım olmur, lakin üzərlərində gördüyüm adların bəzisi çox maraqlı və gözəldir, adamda oxumağa həvəs yaradır. Bəzisi də çox kənar, ölkənin elmi, praktik və icra sahəsindən çox uzaq mövzulardır. Dəyərli saatların sərf olunduğu bu tədqiqat, dissertasiya və elmi işi səmərəli etmək üçün hansı çıxış yolu var?[362]

**Mənzərə sənədinə uyğun olaraq inkişafı ölçməyin universitetlərin vəzifəsi olması**

Mənzərə sənədinin bəzi hissələri universitetlərə aiddir. Yaxşı olar ki, bu sənədin müxtəlif hissələri üzərində araşdırma aparılsın. Bu sənəddən elm və tədqiqat layihələri çıxarılsın, sonra bir il, iki il ərzində işin inkişafı ilə müqayisə olunsun. Hər halda, iyirmi ili bir addıma getmək olmaz. İyirmiillik işi iyirmi ilə görmək olar, o da əgər yaxşı görülsə. Buna əsasən, bir ildən, yaxud iki ildən sonra bəlli olmalıdır ki, biz bu sahədə nəyəsə nail olmuşuq, yoxsa yox. Bu, müəllim və universitetlərin işidir; oturub bu sənəd üzərində işləsinlər, maneələri ölçsünlər, dövlət məmurları və

---

[361] "İslam mədəniyyəti və düşüncəsi" Tədqiqat Mərkəzinin üzvləri ilə görüşdə çıxışından: 2004.

[362] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.

ölkənin məsul şəxsləri kömək etsinlər, maneələri aradan qaldırmaq üçün yol göstərsinlər. Bu çox əhəmiyyətli işlərdən biridir.[363]

**ISI hakimlərinin Qərb təfəkkürünə əsaslanmayan məqalələr əleyhinə mövqeyi**

Son məqam yenə də elmi məsələlərə qayıdır. Biz tədqiqat işlərində və elmi məqalələrimizi ISI jurnallarında dərc etdirməkdə bəzən problemlərlə rastlaşırıq. Düzdür, qeyd olunduğu kimi, çap olunmuş məqalələrimizin həcmi yaxşıdır, amma xəbərim var ki, xüsusən humanitar elmlərdə ISI jurnallarının bəzisi ümumiyyətlə, bizim tədqiqatçılarımızın məqalələrini çap etmirlər. Nə üçün? Ona görə ki, onların elmi əsaslarına uyğun deyil. Bəli, fəlsəfədə, psixologiyada, pedaqogikada və digər mövzularda bizim sözlərimiz var. Bizim tədqiqatçımız araşdırma aparıb və bir nəticə alıb. Bizim istədiyimiz kimi, bir sərhədi keçib, amma bu sərhəd həmin elmin vətəni olan Qərb və onun dəyərləri ilə uyğun deyil. Buna görə məqaləni çap etmirlər. Bu, liberal-demokratiya dünyasının sözün həqiqi mənasında açıq olduğunu və hamının istədiyi sözü danışa bildiyini düşünən bəzi şəxslərin sadəlövhlüyünə cavabdır. Xeyr, onlar hətta elmi işləri də meyar əsasında görürlər.

Bu, xəbərdaredici və ibrətamiz məsələlərdəndir. Əgər məlumatınız yoxdursa, araşdırın, sözümün doğru olduğunu görəcəksiniz.

Biz eşitmişdik ki, Stalin dövründə hökumət öz elmi tədqiqat mərkəzlərinə deyirdi ki, biz bu nəticəni əldə etmənizi istəyirik. Elm azad deyildi. Düzdür, bunu da amerikalılar və qərblilər deyirdilər. O zaman biz şübhə etmirdik ki, belədir. Amma indi mən şübhə edirəm. Bunların o qədər yalan danışdığını görürəm ki, deyirəm bəlkə bu da Stalinə atılan böhtandır. Yalan, yoxsa doğru olduğunu bilmirəm, amma deyirdilər ki, elmi araşdırmanın nəticəsi dialektik materializmə zidd olsaydı, qəbul olunmurdu. Deyirdilər elə tədqiqat aparmalısınız ki, məhz bu nəticə əldə edilsin. İndi biz liberal-demokratiya dünyasında bunu öz gözlərimizlə görməkdəyik, lakin modern, səliqəli, nəzakətli, ütülü və qalstuklu

---

[363] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışından: 2005.

formasında. Bir müsəlman tədqiqatçının elmi araşdırması ISI hakimlərinin meyarlarına zidd olduqda dərc edilə bilməz.[364]

**Sənaye ilə universitetin əlaqəsinin faydalarına dair kiçik bir nümunə**

Dünən Sərçeşmə misi kompleksində, ali tədqiqat işlərinin məhsullarına baxmağım üçün kiçik bir sərgi düzəltmişdilər. Dedim bunu hansı orqanın köməyi ilə hazırlamısınız? Dedilər universitetin köməyi ilə. Bu əziz xanım qız sənaye və universitetin əlaqəsinə toxundu. Bu mənim bir neçə ildir maraqlandığım məsələ və Allahın lütfü ilə böyük həddə həyata keçmiş şüarlardandır. Dedim hansı universitet? Tehran Universitetinin, Şərif Sənaye Universitetinin, Kermanın Şəhid Bahünər Universitetinin və ölkənin digər universitetlərinin tələbələrinin bu mövzularda yazdığı magistratura və zənnimcə, doktorantura dissertasiyalarından istifadə etmiş, onları stolun üstünə düzmüşdülər.[365]

**Elmi araşdırmalarda qayda-qanunlu azadlıq**

Buna əsasən, "biz nə edək?", yaxud "bizim tədqiqatımızın nəticəsi rəhbərin fikrinə müxalif olsa, nə etməliyik?" sualları mənim fikrimcə, çox da düzgün və məntiqli deyil. Siz tədqiqat aparmağa borclusunuz. Siz düşünməli, işləməli və nəticə əldə etməlisiniz. Sizin nəticənizi rəhbər və qeyri-rəhbər elmi nailiyyət kimi götürməli və ölkə üçün onun əsasında proqram hazırlamalıdır. Elmi tədqiqatın şərti azad olmasıdır, lakin qaydasız yox, əqli şəkildə.[366]

**Yerli mədəniyyətə əsaslanan texnologiya və elmi nəzəriyyələrin istehsalı**

İnkişaf budur ki, biz ehtiyacımız olan bütün elmləri hər kəsdən öyrənək, praktika və tətbiq mərhələsinə çatdıraq, müxtəlif tədqiqatlar aparaq, elmin dairəsini genişləndirək, fundamental, tətbiqi və təcrübi

---

[364] Yenə orada.
[365] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.
[366] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

tədqiqat işləri görək, texnologiya, yaxud yeni texnologiya ərsəyə gətirək və yaxud onu təkmilləşdirək; idarəetmə təhsili sahəsində dünyanın nailiyyətlərini öyrənək, onu öz ehtiyaclarımıza, adətimizə və mədəniyyətimizə uyğun şəkildə qavrayaq, təhlil edək və cəmiyyətimizə uyğunlaşdıraq. Ölkəmizdə mövcud olan ictimai problemlər barədə tədqiqat aparaq, onları aradan qaldırmağın yollarını tapaq. İsrafçılıqla mübarizə yolunu öyrənək. İsrafçılıq bir ictimai xəstəlikdir. Ona qarşı mübarizə yolu nədir? Xarici məhsulu daxili məhsula tərcih etməyə qarşı mübarizənin yolu nədir? Bunlar tədqiqat tələb edir. Universitetlərdə tədqiqat layihələri götürün, müəllim və tələbələr işləsinlər. Tədqiqatın nəticəsini ölkənin məmurlarına, mediaya verin ki, yayılsın və mədəniyyət formalaşsın. Bu olur inkişaf.[367]

**Universitet cihadının xüsusiyyətləri**

“Universitet cihadı” iki sözdən təşkil olunmuşdur: cihad və universitet. Onda həm cihad olmalıdır, həm də universitetə uyğunluq. Cihad işi görməyin xüsusi mənası var. Hər bir iş cihad deyil.[368]

**"Cihad" xüsusiyyəti**

Cihad sözü - çalışmaq, səy göstərmək deməkdir, lakin cihad təkcə bu deyil. Cihad mübarizə deməkdir. Mübarizənin növləri var: elmi mübarizə, mətbuat mübarizəsi, siyasi mübarizə, iqtisadi mübarizə, hərbi mübarizə, açıq mübarizə, gizli mübarizə. Bunlarda müştərək cəhət odur ki, hamısı hansısa bir düşmənin, maneə və əngəlin qarşısındadır. Dosta qarşı mübarizə mənasızdır. Mübarizə düşmən qarşısında olur.

Fərz edin, repressiya dövründə bir insan həftədə, misal üçün, beş kitab oxuyurdu. Böyük iş idi, amma mübarizə deyildi, çalışmaq deyildi. Cihad olması üçün gərək elə kitab oxuyaydı ki, onun tağut və zalım rejimlə mübarizəsində təsiri olaydı. O zaman cihad olardı. Cihadın mahiyyəti budur.

---

367 Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.
368 "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışından: 2007.

Sizin cihadınızın əhatə dairəsi elm və texnologiyadır. Yəni siz burada xəncərdən, nizədən və J-3-dən istifadə etmirsiniz, beyindən, insanın daxili imkanlarından, fikirdən, qələmdən, gözdən və belə şeylərdən istifadə edirsiniz.

Toplum elmi toplumdur, amma hansı istiqamətdə olmalıdır ki, cihad olsun? Bu, mühüm məsələdir. Görün sizin ölkəniz, inqilabınız və bu inqilabın təsvir etdiyi məqsədlər üçün hansı inadkar düşmən pusqu qurmuşdur və siz hansı düşmənə qarşı mübarizə aparmalısınız. İşiniz həmin yolda olanda olur cihad.[369]

**Elm və tədqiqatın cihad olmasında mühüm amil**

Buna əsasən, siz həmin məqsədlərin düşmənlərini nəinki narazı salmayan, hətta sevindirən elmlə məşğul olsanız, bu, cihad olmayacaq. Fərz edək Universitet cihadı, yaxud ona bağlı hansısa müəssisə desin ki, filan ildə mənim yüz, yaxud beş yüz məqaləm ISI jurnalında nəşr olunmuşdur. Bu, meyar deyil. Məqalələr hansı mövzuda, hansı istiqamətdə idi və hansı işinizə yarayırdı? Sizin amallarınızla düşmən olanlar bu məqaləyə qarşı necə mövqe bildirdilər? Onlar təhlükə hiss etdilərmi? Yoxsa onlar bundan təhlükə hiss etmədilər? Əlbəttə, söhbət onların siyasi adamlarından gedir, elm adamlarının baxışı başqa cürdür.

Cənablar kök hüceyrələrdən, klonlaşdırmadan və digər işlərdən danışanda, mən, yaxud başqası da bunu tərifləyəndə ABŞ rəsmiləri elan etdilər ki, genetik elmlər üçün də Hakimlər Şurası yaradılmalıdır. Bunun mənası nədir? Sizin bu fəndə uğur qazandığınıza görə düşmənin ağrısı tutmuşdur. Mən aydın misallarını deyirəm. Bunun minlərlə misalı var.

Siz misal üçün, bir radar düzəldə bilsəniz və ölkənin səmasının heç bir yerindən heç bir məxluq girə bilməsə, o gün düşmənin ağrısı tutacaq. Yəni bu birbaşa düşmənə dəyən oxdur. Və belə bir iş cihaddır.

Cihad hərəkətində, elmində və tədqiqatında bu amil mütləq şərtdir. Düşmən dedikdə məqsəd ABŞ deyil. Bizim aydın düşmənimiz ABŞ və qlobal hegemonizmdir, amma düşmənlərin də növləri və qisimləri var. Bir zaman böyük bir iqtisadi kartel sizin, məsələn, sement zavodu

---

369 Yenə orada.

tikmənizdən narahat olur, maneə törədir, qoymur. Burada mənə verilən məlumatlarda bu məsələ də vardı. İstəyirlər bir Hakimlər Şurası da sement üçün düzəltsinlər; yəni hamı zavod açıb sement istehsal edə bilməsin.[370]

**"Universitet" xüsusiyyəti**

Universitetə gəlincə isə, bu o deməkdir ki, sözügedən fəaliyyətin miqyası yüksəkdir, tələbə, müəllim, fəal elmi beyinlə münasibdir. Bütün işlərdə buna riayət olunmalıdır. Heç bir fəaliyyətdə avamçılıq və avamın bəyənməsi meyar olmamalıdır. Düzdür, bəzi fəaliyyətlər elmi fəaliyyətdir və yaxşıdır. Məsələn, bu tədqiqat belədir. Amma humanitar elmlərdə, misal üçün, ədəbiyyatda buradan deyilən söz adi bir ədibin sözündən dərin, səviyyəcə yüksək olmalıdır. Humanitar elmlər sahəsində - biz onda işləmişik və bilirik; misal üçün, ölkəmizin qədim elmləri olan tarix, ədəbiyyat və fəlsəfədə - çoxlu məsələlər var. Bunların bəzisi adi sözlərdir, Universitet cihadı deməsə də, başqa birisi deyə bilər. Universitet cihadı isə ən üstün və yüksək sözü ortaya qoymalıdır.

Misal üçün, siz Quran üzərində işləyirsiniz. Çoxları bununla məşğuldur və bu, yaxşı haldır. Bilirsiniz ki, mən Quran fəaliyyətləri ilə maraqlanan və bu sahədə xüsusi məsuliyyət hiss edənlərdənəm. İnqilabdan öncədən belə olmuşdur, indi də belədir. Yəni fikrimcə, bir məsciddə on gəncin toplaşıb Quran oxuması gözəldir, bunu sevirəm. Lakin siz Quran üzrə fəaliyyət göstərmək istəyirsinizsə, bu, universitetdən kənar mərkəzlərin Quran fəaliyyətindən fərqlənməlidir. Buna görə, siz digərləri kimi hansısa qarinin səsini, üslubunu, təcvidi, xoş səsi və digər məsələləri təkrarlasanız, düzdür, çox yaxşıdır, amma Universitet cihadının Quran fəaliyyəti bu deyil, bundan daha dərin olmalıdır.

Görün Quran məsələsində universitet adamının dərkinə münasib olan nədir? Quran öyrənməyə, Quranı dərk etməyə can atın. Sizin Quran oxuyanınız elə olsun ki, onun Quranını dinləyən məclis Quran məfhumlarını qəlbində hiss etsin. Sizin Quran məclisiniz həm də Quran

---

[370] Yenə orada.

məfhumları məclisi olsun. Bunlar üçün yaradıcılıq lazımdır. Bu sizin işinizdir.[371]

**Universitet cihadına ümid**

Biz ölkənin elmi gələcəyi üçün həm də Universitet cihadına ümid bəsləyirik.[372]

**Tədqiqatları tətbiqi etməyin zəruriliyi**

Bəzi gənclərin də dediyi məsələ, yəni tədqiqat və ixtiraların tətbiqi edilməsi məsələsi mənim təkid göstərdiyim məsələlərdəndir. Ola bilsin biz bir tədqiqat aparaq, tədqiqatçımız bir təbliğat layihəsində yaxşı yerlərə çatsın, amma bu, ölkənin vəziyyətində, inkişaf və tərəqqisində rol oynamasın, yəni milli sərvətə çevrilməsin. Biz elmimizi milli sərvətə çevirməliyik. Bunun üçün çalışmaq, proqram hazırlamaq lazımdır. Bunun kənarında yenə sözügedən ümumi elmi xəritədə yer alan bir məqam da var. Biz elm və texnologiya işlərini təkmilləşdirməliyik. Bu işlərin məcmusunda bəzi boşluqlar var. Gərək həqiqi bir istehsal xətti düzəldilsin və elm bütün cəhətlərdən öz məqsədlərinə çata bilsin.[373]

**Tədqiqat - təhsilin qida mənbəyi**

Bir məsələ də təkraridir, amma əhəmiyyətli olduğuna görə deyirəm. Bu, tədqiqat və araşdırma barədədir. Biz hökumətin iclasında da tövsiyə etmişik, bəzi məmurlarla, o cümlədən cənab prezidentin özü ilə xüsusi iclaslarda da demişik. Lakin məsələnin başqa bir tərəfi universitetlərin özünə aiddir. Onlar tədqiqat üçün ayrılan büdcəni düzgün cəlb etməli, düzgün və öz yerində xərcləməlidirlər. Çünki tədqiqat təhsilin qida mənbəyidir.

Biz tədqiqata ciddi yanaşmasaq, yenə də uzun illər gözümüzü xarici mənbələrə dikməli və dünyanın bir tərəfində bir nəfərin tədqiqat aparmasını gözləməliyik ki, ondan, yaxud tədqiqat əsasında yazdığı

---

[371] Yenə orada.
[372] Yenə orada.
[373] Gənc alimlərlə görüşdə çıxışından: 2007.

əsərlərdən istifadə edib burada öyrədək. Belə olmaz. Bu, asılılıq, sözügedən tərcüməçilik, bir ölkə və bir universitet üçün elmi şəxsiyyətin müstəqil olmamasıdır.

Bir ölkənin universiteti, elmi mühiti dünya ilə elmi əlaqələrdən, elm mübadiləsindən, elm öyrənməkdən çəkinməməlidir. Mən dəfələrlə demişəm ki, biz şagirdlik etməyə utanmırıq. Müəllim tapılsa, biz onun yanına gedib şagirdlik edərik, amma həmişə və hər bir yerdə şagird qalmağı eyib bilirik. Belə olmaz. Bir elmi toplumun elmi inkişafın şərti sayılan tədqiqatda zəifliyi nöqsandır. O, elmi baxımdan özünə arxalanmalıdır. Əlbəttə, başqalarından da istifadə etsin, dünya ilə də mübadilə aparsın. Bu zaman elmi mübadilələrdə özünə layiq yeri tuta bilər. Öz elminə, tədqiqatına arxalansa, dünyada və elmi mübadilələrdə təsirini görər.[374]

**Əzbərləmək yerinə araşdırma hissini gücləndirmək**

Bir məsələ tələbədə tədqiqat və araşdırma hissini gücləndirməkdir... Təhsil sistemində yeniliyə dair vacib işlərdən biri budur: təhsil sistemi elə tənzim olunmalıdır ki, bizim gəncimiz tədqiqata, dərin elm və biliyə həvəs göstərsin, əzbərləməyə can atmasın.

Təəssüf ki, hələ də universiterlərimizdə müəllimin birsaatlıq dərsə bir neçə yüz səhifəlik kitab təyin etdiyini görürük. Nə üçün? Nə qədərinin faydalı olduğu bəlli olmayan sözləri əzbərlətdirmək və gəncin beynini lazımsız məlumatlarla doldurmaq nəyə lazımdır?

Gərək səlahiyyətli şəxslər gənclərimizi tədqiqata, dərin elmə və araşdırmaya sövq edən sistem hazırlasınlar. Bizim gənclərimizin istedadı doğrudan da yüksəkdir. Ölkənin orta istedad əmsalı çox yaxşıdır.[375]

**Tədqiqat və daxili ehtiyaclar**

Əvvəla, tədqiqata çox diqqət yetirilsin, ikincisi isə tədqiqat ölkənin ehtiyaclarına hesablansın. Yəni həqiqətən ehtiyacımız olan mövzularda tədqiqat aparaq.

---

[374] Universitet rektorları və müəllimlərilə görüşdə çıxışından: 2007.

[375] Elmi nümunələr və universitet müəllimləri ilə görüşdə çıxışından: 2008.

Mən dəfələrlə həm Mədəni İnqilab Ali Şurasında çalışan dostlara, həm də bəlkə burada demişəm ki, ISI jurnallarında məqalələrin dərci bizdə elmi inkişafa meyar olmamalıdır. Biz bilmirik ki, təklif olunan, həvəsləndirilən və müəllifi təqdir edilən məqalə məhz ölkəmizə lazımlı məqalə olsun. Biz özümüz müəyyən etməliyik ki, nə barədə məqalə yazaq, nə haqda tədqiqat aparaq. Sözsüz ki, beynəlxalq dərgilərdə işıqlandırılması zəruridir və işıqlandırılacaq da. Məqsəd budur ki, biz tədqiqatımızı öz ehtiyacımıza uyğun edək.[376]

[376] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

## Təhsil mərkəzini İslama uyğunlaşdırmaq

Elm və tədqiqat mərkəzlərinin müəllim və müdirləri ölkə inkişafının əsas sütunu sayılan elm və tədqiqat səviyyəsinin yüksəldilməsinə dair yetərli diqqətlərinin yanında, təhsil mühitinin İslama uyğunlaşdırılmasına, idxal olunmuş mədəniyyətin mənfi təsirlərinin aradan qaldırılmasına, ölkə gələcəyinin ümidləri olan tələbə və şagirdlərin dini və siyasi bünövrəsinin gücləndirilməsinə də çalışmalı, yaradıcı və güclü proqramlarla savadsızlığın kökünü kəsməyi, elmi bütün cəmiyyət səviyyəsində artırmağı müqəddəs məqsəd kimi izləməlidirlər.[377]

## Universitetlərdə şəriət hökmlərinə boyun əymək

Mənim dəfələrlə çıxışlarda və universitet mənsubları ilə keçirilən müxtəlif tədbirlərdə söylədiyim başqa bir məqam da var. Bu bəlkə də təkrar ola bilər, lakin əhəmiyyətlidir və deməliyəm. Bu məsələ universitetlərdə din məsələsidir. Din dedikdə dindarlığı nəzərdə tuturam, bəzi ziyalıların dinə dair yanlış təfsirini və din barədə yanlış təsəvvürləri demirəm. Təcrübə göstərdi ki, bu təsəvvürlərin bir qara pul qədər də dəyəri yoxdur. Mən ömrümü bu məsələlərə həsr etmişəm, boşuna danışmıram. Dindarlıq, İslam hökmlərinə boyun əymək, onları qəbul etmək, onlara təslim olmaq... Quran da bunu deyir: "Allah yanında din yalnız İslamdır".[378] İslam nədir? "Kim üzünü Allaha təslim etsə"[379] nə deməkdir? Bu, dindir, şəriət hökmlərindəki tərənnümü də budur. Görəsən bizim universitetlərimiz belədir?[380]

## Dinsiz alim istəmirik!

Elm barədə dediyimiz bütün bu sözlər o zaman əsl mənasını tapır ki, sizin yetişdirdiyiniz alim dindar olsun. Dinsiz alim çoxdur. Amerikaya,

---

377 İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.

378 "Ali-İmran"/19.

379 "Bəqərə"/112.

380 Mədəniyyət və Ali Təhsil Naziri, nazirliyin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışından: 1990.

İngiltərəyə, Fransaya gedin; o qədər böyük və yüksək rütbəli alimlər var ki, sizin onlara çatmağınıza hələ çox var. Lakin onlar dinsiz, dinə, bizim məqsəd və ideallarımıza qarşıdırlar. Məgər biz belə alimlər yetişdirmək istəyirik?! Məgər İslam Respublikası dinsiz alim yetişdirmək istəyir?![381]

**Dərs oxumağın dindarlıqla eyni zamanda olması**

Təşkilatınızın tibbi, yaxud başqa bir təşkilat olmasından asılı olmayaraq, universitetdə hansısa bir şəxs "bu sözləri boşlayın, qoyun dərslərini oxusunlar" – deyə düşünsə, yanlış düşünmüşdür. Onlar dərslərini dindarlıqla oxumalıdırlar. Dindarlıq elə bir şey deyil ki, onun üçün zaman təyin edək və deyək ki, indi dərsinizi oxuyun, sonra dindarlığa başlayarsınız. Dindarlıq bu deyil. Dindarlıq insan varlığının və zehninin bir hissəsidir; insanla inkişaf edir, çiçəklənir və onun bütün hərəkətlərinə təsir edir. Din həyata yad bir şey deyil. Din bir kəlmə sözdə, işarədə və bir mövqedə təsirini görsədir. Dini etiqadı olan insan məgər bir müddət dinsiz yaşaya bilər?![382]

**Müəllimin vasitəsi ilə dinsizliyin yayılması**

Əlbəttə, bir müəllimdən belə gözlənti yoxdur. Bir müəllim məsihi də ola bilər. O, ümumiyyətlə, bunu qəbul etmir, eybi yoxdur, onu dəvət edin gəlsin. Namaz qılmayan dinsiz bir müəllimi dəvət etməyin də eybi yoxdur. Lakin ehtiyatlı olun ki, bu müəllim dinsizliyi yaymağa çalışmasın. Bu müqəddəs məsələyə toxunmasa, gəlməsinin eybi yoxdur. Lakin toxunsa, gəlməsin. Bu mənim daimi mövqeyimdir. Həmişə fikrim bu olub və indi də belədir. Gəlib bir elm öyrətmək və o elmin ruhu olan etiqadı alıb məhv etmək istəyən müəllim gəlməməlidir. O, təhlükəli oğrudur.[383]

**Universitetdə din təlimlərinin güclü və əsaslı təqdimi**

Ruhanilərin universitetlərdə təmsil olunması elm və dinin təmsil olunması deməkdir. Universitetlər elm ocağı, dindar insanların orada

---

[381] Yenə orada.

[382] Yenə orada.

[383] Yenə orada.

olması səbəbindən həm də din ocağıdır. Ruhanilik də din elmini güclü, məntiqli, universitetə münasib və universitet mənsublarının səviyyəsinə uyğun şəkildə təqdim edir. Bu, məsələnin elmi tərəfidir. Din təlimləri ən uca elmlərdən, ən güclü zehni və fəlsəfi mövzulardan, bəzi sahələrdə ən mühüm ictimai və həyati məsələlərdən sayıldığından, elmi şəkildə ortaya qoyulmalıdır. Burada zəif əsaslandırmadan və qüsurlu izahdan ciddi şəkildə çəkinmək lazımdır. Çünki bütün buların əks təsiri olar. Pis müdafiə etmək - vurmağın və hücum etməyin ən mühüm üslublarındandır.

Buna əsasən, ruhani, tələbə və din alimlərinin universitetlərdə təmsil olunması İslam maarifini bütün sahələrdə məntiqli, başadüşülən, güclü və istinadlı formada təqdim etməkdən ötrüdür. Bu, məsələnin elmi tərəfidir.[384]

**İslama uyğunlaşdırmaya qarşı istehza**

Baxın, mən bir dəfə universitetləri İslama uyğunlaşdırmaq haqqında danışdım, bəziləri buna əhəmiyyətsiz yanaşdılar, bunun geniş və dərin mənasını görmədilər. Odur ki, universitetlərdə əhəmiyyəti daha az olan məsələlərlə məşğul oldular. Bəziləri də digər tərəfdən fəryad qopardılar ki, universitetləri İslama uyğunlaşdırmaq beyinlərin qaçışı və ehkamçılıq deməkdir və sair. Baxın, bunlar düşmənin güclü hücumudur. İslama etiqadı olmayanlar onun həqiqi və universal formada universitetə yol açdığını görəndə o qədər əl-ayaqlarını itirirlər ki, ağızlarına gələni danışırlar.

Mən televizora baxırdım, gördüm ki, universiteti İslama uyğunlaşdırmaq barədə boş-boş danışır və bu təşəbbüsü ələ salırlar. Bir neçə nəfər dəyirmi masada əyləşib danışırdı. Halbuki universitetləri İslama uyğunlaşdırmağın dərin və geniş mənası var və mənim fikrimcə, bu, universitetlər üçün hər şeydən vacibdir.[385]

**Elmliliyin və özünəinamın İslam xüsusiyyətlərindən olması**

Universitetin elmli olmasını da istəsəniz, gərək İslama uyğunlaşsın. İslama uyğunlaşmanın meyarlarından biri də elmə yiyələnmək,

---

[384] Fəqih rəhbərin universitetlərdəki nümayəndələrilə görüşdə çıxışından: 1996.

[385] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.

dərinləşmək, müəllim və tələbənin özünə inanması, güvənməsidir. Məsələ bundan ibarət deyil ki, biri qoluqısa köynəklə gəlsin, yaxud birinin saçının üç-dörd teli görünsün. İslama uyğunlaşdırmaq məsələsi bunlar deyil. Düzdür, İslam universitetinin xüsusiyyətlərindən biri budur ki, orada dindarlıq əksər forma olsun. Çünki bizim cəmiyyətimiz İslam cəmiyyətidir və onda dindarlıq əksər formadır.[386]

### İslama uyğunlaşma və dindarlıq

İslama uyğunlaşmanın mənası budur ki, cəmiyyətdə ümumiyyətlə, dinsiz və qeyri-dini adam olmasın?! Özünü zahirdə dindar göstərən olmasın?! Xeyr, bunlar var. Kimsə onları cəzalandırırmı?! Kimsə hətta dinsiz olanları və qeyri-müsəlmanları cəzaya məhkum edirmi?! Təqib edirmi?! Deməli, belə deyil. Din əksər forma olmalıdır. Universitetin İslama uyğunlaşmasının mənası da budur, universitetin dindarlaşması da bu deməkdir. Üstəlik, dindarlıq universitetin İslama uyğunlaşmasının bir hissəsidir, hamısı deyil. Universitetin İslama uyğunlaşması odur ki, elmi özü istehsal etsin. Necə ki, İslam bir gün xalqda bu hissi yaratdı. Hansı ki, elmlə heç bir əlaqəsi yox idi.[387]

### İslamın düşüncə prinsipləri əsasında elm istehsalı

İslam dini elm üçün ucalıq və şərəf tanıyır; özü də əsl şərəf, alət və vasitə kimi yox. İslam elmi nur bilir. İslama uyğunlaşsa, universitetə bu təfəkkür gələcək; İslam elmləri sahəsində bir formada, digər elmlərdə də başqa bir formada. Biz hətta bəzən humanitar elmlər fakültəsinin dərs kitablarında bunun tam ziddinə sözlər görürük. Görürük ki, əcnəbi qarşısında gücsüzlük, hücum qarşısında iradəsizlik və düşmən qarşısında təslimçilik öyrədilir. Bu, düzgün deyil. Bu, İslama uyğunlaşmanın tam ziddinədir. İslama uyğunlaşmaq - yəni insanın fikir və düşüncə ayağının altında olan möhkəm sütunlar üzərində dayanmaq, onun üzərində bina

---

[386] Yenə orada.

[387] Yenə orada.

qurmaq, inkişaf etmək, çağlamaq və törəmək. İslama uyğunlaşdırmaq budur.[388]

**İslam universitetinin bəzi xüsusiyyətləri**

İslamın universiteti çiçəklənmiş, həvəskar və elmin uca tutulduğu bir universitetdir; orada alim əzizdir, müəllimin hörməti var, tələbəlik ibadət sayılır. Siz harada belə bir şey tapa bilərsiniz ki, tələbə qürbət qəsdi edib dərs oxusun?! Bunlar çox əhəmiyyətli məsələlərdir. İslam universiteti budur. Qeyd etdim ki, onun bir hissəsi də dindarlıqdır; yəni orada fəsad və günah əlamətləri olmasın, oğlan-qız məsələsi, bəzi bəyənilməz hallar və haram işlər olmasın; cəmiyyətin daxili, mənim və sizin evimiz kimi, universitet daxilində də olmamalıdır. Buna əsasən, universiteti İslama uyğunlaşdırmaq məsələsi çox mühümdür.

Bəli, çoxlu böyük insanlar zəhmət çəkdilər, çalışdılar, dərs vəsaitləri üzərində işlədilər. Allah zəhmətlərinin əcrini versin! Bu işlər davam etdirilməlidir. Lakin bunu əsas məsələ kimi diqqətdə saxlayın: universitetdə mənəviyyat və əxlaq; universitet, elm və əxlaq.[389]

**Tədqiqatlarda mənəvi istiqamət**

Yenə də əxlaq və mənəviyyatla əlaqədar olan başqa bir məsələ Universitet cihadıdır. Mən bilmirəm burada o qardaşlardan kimsə var, yoxsa yox. Universitet cihadı əsasən mənəvi, mədəni və əxlaqi bir qurumdur. Düzdür ki, öhdəsinə tədqiqat işi qoyulub və onu yerinə yetirməlidir. Məmləkətdə tədqiqat çox yaxşıdır. Lakin tədqiqat mərkəzi Universitet cihadından başqa bir şeydir. Universitet cihadı tədqiqat aparmalıdır; bunu edirlər və çox da yaxşıdır. Lakin bəlli mənəvi və inqilabi məqsədlərlə olmalıdır ki, cihad sözü ona aid edilə bilsin.[390]

**Təhsilin mənəvi məqsədlərinə malik olan İslam universiteti**

---

388 Yenə orada.
389 Yenə orada.
390 Yenə orada.

Qısaca deyim ki, mən İslamın universitetini elə universitet bilirəm ki, orada elm həqiqi bir dəyərdir, insan elmi çörək qazanmaq üçün öyrənmir. Əziz Peyğəmbərimiz (s) buyurur ki, hətta Çində olsa belə, elmi öyrənin.[391] Yəni o günün şəraiti ilə əgər Hicazdan Çinə qədər getmək lazım olsa da, elm öyrənmək üçün gedin. O gün nə qədər pul və nə qədər qazanc üçün bir nəfərin dəvəyə, yaxud gəmiyə minib Çinə getməsi mümkün idi? Məgər maddi qazanc qarşısında belə bir çətinlik mümkündürmü?! Bunun mənası odur ki, elmin dəyəri böyükdür. İslamın universitetində də belə olmalıdır.[392]

**Şərif Universitetinin iki üstün xüsusiyyəti**

Şərif Sənaye Universiteti haqqında bir cümlə deyim. İnsan bu universitetin tarixçəsində iki üstün xüsusiyyəti müşahidə edir: biri elmi, biri isə inqilabi və dini xüsusiyyət. Yəni sizin universitetiniz həm universitetə məxsus elmi fəaliyyətlər, həm də inqilabi və dini fəaliyyətlər baxımından uğurlu və öncül universitetlərdən biridir.

Möhtərəm rektor toxundu ki, universitetin məşhur şəhidləri olmuşdur; məsələn, Şəhid Abbaspur, Şəhid Vəzvai, Şəhid Şuridə, inqilabdan öncə şəhid olan Şəhid Şərif Vaqifinin özü. Bunların hər biri bir şəhiddir, lakin tamamilə fərqli və parlaq şəxsiyyətlərə malikdirlər. Quruculuq cihadının yaradılmasında, məcburi müharibədə, keşikçilər kopusunun ilk heyətində, inqilabın ilk illərinin inqilabi və siyasi fəaliyyətlərində bu universitetin görkəmli şəxsləri iştirak etmişlər. Yəni bu universitet din və inqilab sözünü çox aydın şəkildə başa düşüb tələbələr, müəllimlər, kafedra müdirləri, universitet rektorları arasında və universitetin özündə göstərən bir universitetdir.

Bu universitet elmi baxımdan da yüksək səviyyədədir. Biz bir neçə dəqiqə bundan əvvəl möhtərəm müəllimlərin yanında idik. Bizi bəzi statistikalarla tanış etdilər. Düzdür, mən onların çoxu haqda məlumatlı

---

[391] "Vəsail əş-şiə" c. 27, səh: 27.

[392] Tehran Universitetində sual-cavab toplantısında söhbətlərindən: 1998.

idim. Beynəlxalq yarışlarda, elmi sahələrdə, parlaq istedadların cəlb olunmasında bu universitet uğurla çıxış etmişdir.[393]

**Düşüncə və elmi Allah yolunda işlətmək**

Siz imkan və həvəsin qədrini bilmiş, onu təhsil, elm inkişafı və kamilliyiniz yolunda işlətmiş şəxslərdənsiniz. İndi bunu Allah üçün işlətmək zamanıdır. Bu da Allahınkıdır, hamısı Allaha məxsusdur, bizim bütün varlığımız Allahındır. Düşüncə və elmi Allah naminə müxtəlif sahələrdə işlədin.[394]

**Dinə yönəltmək - bütün müəllimlərin borcu**

Hər bir alimin elmi öyrətmək və kimdənsə öyrəndiyi elm əmanətini kimlərəsə təhvil vermək vəzifəsindən əlavə, mənim fikrimcə, başqa bir vəzifəsi də var və o, tərbiyədən ibarətdir. Elmin və onun öz sahibinə bəxş etdiyi mənəvi yüksəlişin xüsusiyyəti tələb edir ki, alim ətrafını nəzərdə tutduğu ən yaxşı örnək əsasında tərbiyə etsin. Bu da hər bir alim üçün ikinci vəzifədir. Cəmiyyətimizin İslam inanclarına və dini tərbiyəyə inamına görə deyə bilərik ki, ən yaxşı örnək İslam örnəyidir. Həqiqət də budur.

Mənim fikrimcə, bu gün universitetlərin üzərinə bu vəzifə düşür və müəllimlər tədrisin kənarında həm də tələbələrini İslama və dinə yönəltməlidirlər. Mən düşünmürəm ki, dinə yönəltmə din təlimləri sinfində olmalıdır. Din təlimləri dərs sinfidir, orada dini bilgi verilir: mənəviyyat, irfan, fiqh, təfsir və sair. Dinə sövq etmək yalnız o siniflərə məxsus deyil, imanı və dini öhdəlik hissi olan hər bir kəsin borcudur.[395]

**Dindar yetişdirmək**

Universitetlərin İslama uyğunlaşması onların müsəlman və mömin kadrların ixtiyarında olmasından asılıdır. Yəni bu sahədə belə köklü dəyişiklik gözlənilir. Hər halda, mühit İslam mühitidir, müdir, müəllim və

---

[393] Şərif Sənaye Universitetindəki görüşdə çıxışından: 1999.
[394] Müharibə əlilləri ilə görüşdə çıxışından: 1999.
[395] Universitet rektorları və müəllimləri ilə görüşdə çıxışından: 1999.

tələbələr hamılıqla müsəlmandırlar və universitet İslama etiqadlı şəxslərin ixtiyarındadır. Lakin universiteti İslama uyğunlaşdırmaq məsələsini irəli sürən və izləyən adam kimi fikrim budur ki, universitetin ab-havası dindar insan yetişdirməlidir. Əsas məsələ budur. Əlbəttə, İslama uyğun universitet yalnız dindar universitet deyil. İslama uyğun universitet şübhəsiz ki, elm, tədqiqat və digər belə məsələlər baxımından öncül olmalıdır. Lakin bizim nəzərdə tutduğumuz xüsusiyyət dindar etməkdir. Əgər bu olsa, İslam ab-havası sayəsində digər məsələlər də həllini tapar.[396]

**Dini mühit sayəsində elm və tədqiqat səviyyəsinin artması**

Əgər universitetin elm, tədqiqat, insaniyyət, xidmət və digər bu kimi məsələlərlə məşğul olmasını istəyirsinizsə, mühiti dindar etməlisiniz; hətta kimsə dinə dərindən inanmasa və ona vasitə kimi baxsa da.[397]

**Elm hövzələrinin təhsil mədəniyyətini götürmək**

Baxın, bəzən yayınmalar baş versə də, elm hövzələrində ənənə belədir: pul qazanmaq üçün dərs oxuyan şəxs qınanır. Yəni mədəniyyət belədir. Bu o demək deyil ki, heç kim belə deyil, amma olsa da, bunu gizlətməyə məcburdur. Çoxları da bu işin pis olduğuna görə öz daxillərində həmin hissi öldürürlər. Yaxud tanınmaq və məşhur olmaq üçün dərs oxuyan qınanır. Avropa və Qərb ənənəsində belədir. Onlar fəxr edirlər ki, pul qazanmaq üçün dərs oxuyuruq. Bu da bir mədəniyyət və dəyərləndirmədir.

Məncə, dünyanın bəlli hissəsində yaranan elmi inkişaf bu düşüncə tərzindən irəli gəlmir; yəni biz deyə bilmərik ki, pul üçün çalışdıqlarına görə inkişaf etmişlər. Xeyr, təsadüfən inkişaflara səbəb olan şəxslər əksərən ən azı yaxın gələcək üçün və ən azı ilk dəyər kimi pula və şöhrətə əhəmiyyət verməmişlər.

Məncə, bizim universitetlərimizdə bu hiss güclənməlidir: elmin, tədqiqatın, alim olmağın özünə dəyər vermək hissi. Yəni insan alim

---

396 Yenə orada.

397 Bazar ertəsi görüşlərində Gilan Tibb Universitetinin məsul şəxslər ilə görüşdə çıxışından: 2000.

olduqda çoxlu pulu, evi, villası və maşını olan insanın qızıl-gümüşünün çəkisi qədər olmasa da, vücudunda dəyərli bir amilin olduğunu hiss etsin. İndi bizim dini hövzələrimizdə bu hiss var. Əlbəttə, qeyd etdiyim kimi, belə düşünməyən və pul ardınca qaçan hövzə tələbəsi, alimi, qoca və gənc ruhani də var. Yəni iddia etmirik ki, bu tərbiyə hamıda yüz faiz nəticə göstərir, lakin bu orada bir ənənədir.[398]

**Elmi inkişafın universitetləri İslama uyğunlaşdırmaqla yanaşı olması**

Bəziləri universitetləri İslama uyğunlaşdırmağı elmə diqqətsizlik kimi başa düşdülər, halbuki belə deyil. Təsviri planlaşdırılan bu portret nədən ibarətdir? Onun bir əsas xətti universitetlərin İslama uyğunlaşmasından, başqa bir əsas xətti elmdən, başqa biri də müəllimlə, təhsil şəraiti ilə və bu kimi məsələlərlə maraqlanmaqdan ibarətdir. Bunlar ümumilikdə portreti cızır. Bizim yalnız bir xətti nəzərdə tutub bunun kifayət etmədiyini, düzgün olmadığını, yaxud zəif olduğunu söyləməyimiz mənasızdır. Təəssüf ki, tənqidçilər belə edirlər.[399]

**Elm və universitet vadisində iman**

Bu ixlas, iman, həvəs və iş hər yerdə mümkündür. Elm, bilgi, inkişaf, yenilik, elmi yaradıcılıq, təlim və tədris sahəsində də eynilə belədir. Nümunəsi bizim universitetlərimizin mömin müəllimləridir. Əlbəttə, Bəsic toplumu yalnız universitetlərimizdəki imanlı və mənəviyyatlı şəxslərdən ibarət deyil. Allaha şükür olsun ki, bu gün ölkə universitetlərində çoxlu mömin müəllimlər var. Biz sevinirik ki, Allahın lütfü ilə bu ad və bu mədəniyyət universitetlərdə də özünü bariz şəkildə göstərir. Bu, universitetlər üçün çox səmərəli ola bilər.[400]

**Gənc müəllimlərə şərait yaratmaq**

---

[398] Şərif Sənaye Universitetinin məsul şəxsləri və müəllimləri ilə görüşdə çıxışından: 2000.

[399] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışından: 2001.

[400] Tələbə Bəsicinin müəllimləri ilə görüşdə çıxışından: 2001.

Mənim tövsiyəm budur ki, Bəsic üzvü olan bu müəllimlər birliyini bu ad altında imkan daxilində genişləndirin. Bu gün Allahın lütfü ilə universitetlərimizdə çox olan mömin müəllimləri, qardaş və bacıları bu qrupdan bilin, tanıyın və oraya daxil edin. Dövlət qurumları da onların fəaliyyəti və inkişafı üçün şərait yaratmalıdır. Bu gün bizim ali təhsilli, savadlı, intellektual, işə qüvvəli və həvəskar gənc müəllimlərimiz çoxdur. Onları qapı arxasında saxlamaq olmaz. Onları elmi işə qoşmaq lazımdır ki, xalqa maksimum bəhrəni yetirə bilsinlər. Elm də gənclik qüvvəsi ilə və imanla daha keyfiyyətli olur. Mənim əzizlərim! Bu gün ölkəmizin buna ehtiyacı var. Ölkəmizin sizin işlərinizə ehtiyacı var.[401]

**Qeyri-dini dərslərdə eşq və imanın aşılanması**

Siz siniflərdə elm dərsini iman dərsi ilə yanaşı etməlisiniz. Düşünürəm ki, tələbə və şagirdin düşüncəsinə və qəlbinə iman aşılamaq birbaşa dini olmayan dərslər vasitəsi ilə daha mümkün və daha təbiidir, nəinki yalnız dini dərslərlə. Dini dərs din bilgisi verir, lakin iman və dini eşq bəzən digər dərslərdə tələbənin beyninə daha asan ötürülür. Bunun qədrini bilin və çox dəyərli olan bu imkandan istifadə edin.[402]

**Universitetlərin İslama uyğunlaşmasının həqiqi mənası**

Biz universitetlərin İslama uyğunlaşdırılması məsələsini irəli sürəndə buna qarşı çıxan bir qrupdan əlavə, müvafiq olan başqa bir qrup da elə bildi ki, fikrimiz universitetləri mollalaşdırmaqdır. Məqsəd bu deyil. Məqsəd odur ki, universitet sözün həqiqi mənasında özünə aid olan bütün sahələrdə İslam vəziyyətində və istiqamətində olsun. Elmin İslama uyğunlaşmasının mənası odur ki, təcrübi və digər elmlərdə İslamın nəzəri var? Xeyr, elm sahəsində İslama uyğunlaşmaq odur ki, elmi yaxşı öyrənin, öz yerindən öyrənin və yenilik yaradın. Dediyimiz elm istehsalı - İslamdır. Hər bir yerdən elm öyrənmək - İslamdır. Universitetin İslama uyğunlaşması dedikdə məqsəd budur. İslama uyğunlaşma üç-dörd tələbəyə, özü də paltar geyinməkdə və bu kimi məsələlərdə aid olan bir şey

---

[401] Yenə orada.
[402] Yenə orada.

deyil. Bunlar da İslama uyğunlaşmanın bir parçasıdır, amma mənası budur ki, ümumi olaraq universitetin yanaşması islamçı-inqilabçı məqsədlər istiqamətində olsun.

Sizin kimi hörmətli rektorlar ehtiyatlı olmalısınız ki, universitet bu yoldan yayınmasın. Bəziləri universiteti bu yoldan yayındırmaq istəyirlər. Onlar üçün fərqi yoxdur ki, universitetdə üç-dörd qız, yaxud oğlan İslama riayət edir, yaxud etmir. Onlar universiteti İslam məqsədlərindən və İslam quruluşunun həssas olduğu bütün məsələlərdən daşındırmaq, yayındırmaq istəyirlər. Universitetdə bunun əksinə işlər görülməlidir. Siz bu məsələni diqqətdə saxlayın. Mən bunu universitet müəlliminə deyə bilmərəm. Universitet müəlliminin öz rolu və işi var. Bu işin məsuliyyəti sizin, Təhsil Nazirliyinin və aidiyyətli məmurların üzərinə düşür.[403]

**Siyasi ehkamçıların universitetə güclü zərbəsi**

Mənim əzizlərim! Universitet elm mərkəzidir. Elmə maneçilik törədən heç bir şeyə orada yer yoxdur. Universitet əsas zərbəni siyasi ehkamçıların tələbələr arasındakı işlərindən görür. Universitet elm və tədqiqat yeri olmalıdır. Universitet elə bir yer olmalıdır ki, orada hiylə, saxtakarlıq və çaşdırıcı işlər ya olmasın, ya da az olsun. Qalmaqalla yaşayanlar, dava-dalaş olmadan yaşamağa çətinlik çəkənlər universitetdə iş görə bilməməlidirlər. Universitetdən, tələbə gənclərimizdən, müəllimlərdən və rektorlardan gözlənilən budur. Yolu da ayıq olmaqdır.[404]

**Dini və siyasi mübahisələrin elmi şəkildə bəhs olunması**

Fərz edin bir siyasi mövzu var. Çox gözəl, siyasi fərq və münaqişələr təbii bir şeydir. Ümumiyyətlə, təkcə siyasi sahələrdə yox, hətta dini sahələrdə də fikir ayrılığı inkişafa kömək edir. Bunun eybi yoxdur. Mən özüm hövzə tələbəsiyəm, ömrümü bu sahədə keçirmişəm, elm hövzələrində olmuşam, görmüşəm ki, elm hövzəsində məşhur nəzərin ziddinə olan bir sözü demək günah sayılmır, lakin şərti var. Şərti budur ki, irad bildirmək və müzakirə etmək elmi şəkildə olsun.

---

[403] Universitet rektorları ilə görüşdə çıxışından: 2001.

[404] Universitetlərin elmi nümunə tələbələri ilə görüşdə çıxışından: 2002.

Fərz edin, universitetdə fikir ayrılığına səbəb olan bir siyasi məsələ müzakirə olunur. Bunun nə eybi var?! Fikir və nəzər sahiblərini dəvət etsinlər, gəlib sakit bir mühitdə məsələni müzakirə etsinlər, onlardan elmi yanaşma istənilsin. Dini sahələrdə də belə bir şey mümkündür. Bir tərəfdən də tələbələr üçün deyilən məsələlərin çoxu İslam və məzhəb məsələləri ilə yaxından əlaqədardır. Bu, hövzənin alim və mütəfəkkirlərinin aktivliyinə və nəticədə, İslam təfəkkürünün inkişafına bais olar. Bunu istəməliyik, bunun ziddinə olan heç bir iş universitet və hövzəyə münasib deyil. Dava-dalaş salmaq, yumruq düyünləmək, boş şey üstündə çəkişmək və bəzi dostların çox təəssüflə dediyi kimi, müqəddəslərə hörmətsizlik etmək yaxşı deyil.[405]

**Qərb texnologiyasının üstünlüyü və Qərb mədəniyyətinin təbliği**

Dünyanın bəzi bölgələrində qız və oğlanın, qadın və kişinin bir-biri ilə əlaqəsi çox adidir və buna heç bir etiraz edilmir. Yəni iki kişinin, yaxud iki qadının bir-biri ilə təmasda olduğu kimi, qadın və kişi də bir-biri ilə münasibət qurur. Bizim ölkəmizdə və İslam mühitində isə əsla belə deyil. İslam ölkəsində bu cəhətə nə qədər yaxınlaşmışıqsa, əcnəbi mədəniyyətindən təsirləndiyimizə görə olmuşdur. Onlar texnologiyada bizdən güclü olduqlarından bunu bizə ötürmüşlər. Əgər biz elm və texnologiya baxımından Avropadan güclü olsaydıq, onların bu münasibətini məsxərə edər, vəhşilik adlandırardıq. Onlar elm və texnologiya səbəbindən bu mədəniyyəti yaymışlar. İndi biz öz universitetlərimizdə bunu təbliğ etməliyik?![406]

**Universitetləri İslama uyğunlaşdırmağın müxtəlif cəhətləri**

Universitetlər İslama tam uyğunlaşmamışdır. İslama uyğunlaşmaq təkcə hicaba riayət etmək və digər bu kimi işlər deyil. Elm və tədqiqatın həyata keçməsi İslama uyğunlaşmaqdır. Əgər universitetin tamamilə

---

[405] Yenə orada.
[406] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2002.

İslama uyğunlaşmasını istəyiriksə, onda bütün cəhətlərə riayət olunmalıdır, lakin olunmur. Siz çalışmalısınız. İş siz tələbələrin əlindədir.[407]

**Böyük elmi işlərin alimlərin öhdəçi ruhunun səmərəsi olması**

Sizə deyim ki, dünyanın müxtəlif elmi sahələrində bütün böyük işləri bu öhdəliyə malik şəxslər etmişlər; istər müsəlman, istər qeyri-müsəlmanlar. Çünki bu öhdəçi ruhun hər bir insanda olması mümkündür. O, dərin bir dini inanca arxalandıqda isə təbii ki, daha davamlı, daha mənalı, daha istiqamətli və daha uzunömürlü olar. Ancaq mömin olmayanın da həmin öhdəliyə malik olması mümkündür. Bütün dünyada insanların məişətini yaxşılaşdırmaq üçün mühüm elmi axtarışlara həmin öhdəlik və öhdəçi hiss səbəb olur, böyük kəşflər ərsəyə gətirir. Mən bu ixtira və kəşflərdə olan kommersiya maraqlarından xəbərsiz deyiləm, lakin onların əsas amili insanda olan öhdəçi hissdir. Əgər elmə, insana və insaniyyətə qarşı bu hiss olmasaydı, şübhəsiz, bu gün sizin təbabətdə gördüyünüz nailiyyətlər əldə edilməzdi. Bunun qədrini bilin. Bu öhdəçi hiss çox dəyərlidir.

Müqəddəs müdafiə dövründə bizim yüksək rütbəli həkimlərimizi, dəyərli cərrahlarımızı və birinci dərəcəli mütəxəssislərimizi xəstəxana və klinikalardan düşmən xəttinin bir neçə kilometrliyinə aparan amil belə öhdəçi hiss idi. Mən Xuzistanda öz həkim uşaqlarımızın düşməndən 7-8 kilometr aralıda açdığı bir xəstəxananı yaxından gördüm. Bilirsiniz ki, 8 kilometr məsafə orta səviyyəli bir qumbaranın altı deməkdir. Həmin uşaqlar Favda yüksək imkanlı və təmiz bir səhra xəstəxanası təşkil etdilər. İraqlılar Favı alanda ondan nə qədər istifadə etdilər! İnsan bu xəstəxanalara daxil olanda həzz alırdı. Sizin sözünüzlə desək, bu xəstəxananın yaraşıqlı, gözəl və qəşəng hotelinqi elə idi ki, insan oranın səhra olduğunu yaddan çıxarırdı: təmiz, ağ, parıltılı, doktor hazır, əməliyyat otağı hazır, cərrah hazır; uşaqları gətirir və orada dərhal

---

[407] Şəhid Behişti Universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2003.

cərrahiyyə əməliyyatı edir, lazım olduqda geriyə göndərirdilər və nə qədər insan xilas olurdu. Bu, sözügedən öhdəçi hissdir.[408]

**Elmi inkişaf praktika vadisində**

Sizin dininiz elminizin də artmasına səbəb oldu. Çünki elmi əməl və təcrübə vadisinə çıxardığınızda həm çiçəklənir, həm də çoxlu tanınmaz tərəflərlə rastlaşır və onları kəşf edir. Hədisdə göstərilir ki, elm əməli səsləyir, ona deyir ki, gəl. Əməl onun ardınca gəlsə, çox yaxşı olur; gəlməsə, elm də gedir.[409] Bizim elmin çoxlu sahələrində inkişaf etməməyimiz buna görədir.

Mən dəfələrlə həm indiki, həm də qabaqkı hökumətə təkidlə demişəm ki, bir rəzə salıb bir-birindən ayrılmış bu iki hissəni - elm və sənayeni, elm və texnologiyanı, elm və əməli birləşdirin, zavodları universitetlərə calayın; həm zavodlar fəal olsun, həm universitetlər. İndi bir qədər başlayıblar. Əlbəttə, bu işi siz etmisiniz, yəni elmi əməl vadisinə çıxarmısınız və elm daha da çiçəklənmişdir. Buna əsasən, sizin hər biriniz sübut etdiniz ki, elm və iman nəinki bir-biri ilə zidd deyil, hətta bir-birini daha artıq çiçəkləndirirlər də.[410]

**Mömin gənclərin elmi inkişafda qabaqcıl olması**

Bunu da deyək ki, çoxlu elmi inkişaflarda mömin, dindar və hizbullahçı gənclərin rolu böyükdür. Bunu da bilsinlər. Düşmən öz təbliğatlarında dindarların bu işlərdə geri qaldıqlarını göstərmək istəyir, halbuki belə deyil. Bizim dindar kadrlarımız və mömin gənclərimiz bu sahələrin çoxunda qabaqcıldırlar və işləri dəyərlidir. Görülən böyük işlərin çoxunu bizim gənclərimiz Allaha diqqətlə, zikrlə və şükür səcdəsi ilə görmüşlər. Bunlar olduqca dəyərlidir.[411]

**Bir mədəniyyət kimi Universitet cihadının mənası**

---

[408] Həkim Bəsici ilə görüşdə çıxışından: 2003.
[409] Nəhcül-bəlağə, hikmət 336.
[410] Həkim Bəsici ilə görüşdə çıxışından: 2003.
[411] Tehranın cümə namazı xütbələrindən: 2003.

Mənim fikrim budur ki, bu söz birləşməsinin, mənəvi dəyər ifadə edən cihad sözünün elm, bilik və universtetlə birləşməsinin mesajı vardır. Bu onu göstərir ki, cihad elmi və həmçinin elmi cihad vardır. Bu sizin məşğul olduğunuz işdir. Sizin elminiz cihad elmidir, cihadla və ictihadla birgədir, dilənçilik və oturub elmin oradan-buradan hədiyyə olunmasını gözləmək yoxdur. Elmə sahib olmaq üçün onunla məşğul olursunuz. Bu, cihad elmi, mücahidlikdən, ictihaddan və fəaliyyətdən qaynaqlanan elmdir. Digər tərəfdən, siz həm də cihadla məşğulsunuz. Cihad - uca və müqəddəs bir məqsəd yolunda mübarizədir. Onun müxtəlif sahələri var. O sahələrdən biri adətən başa düşülən silahlı müharibələrdir. Onun siyasət sahəsi da var, elm sahəsi də, əxlaq sahəsi də. Cihad sözünün işlədilməsində meyar budur ki, baş verən bu hərəkət məqsədli və aradan qaldırılmasına çalışılan maneələrlə üzbəüz olsun. Bu olur mübarizə. Cihad belə bir mübarizədir; ilahi məqsədli olduqda, həm də müqəddəs olur.

Siz elmi mübarizə aparırsınız. Bəllidir ki, bu işinizin çox qatı düşmənləri var. Onlar bu elm və tədqiqat işinin baş tutmasını istəmirlər. Buna görə düşünürəm ki, Universitet cihadı təkcə bir orqan deyil, həm də bir mədəniyyət, istiqamət və hərəkətdir. Biz cəmiyyətdə bu mədəniyyətə rəvac versək və onu möhkəmləndirsək, ölkəni başucalığına, iqtidara və həqiqi müstəqilliyə daha yaxınlaşdırmış olarıq.[412]

**Universitetlərdə planlaşdırılmış antidin hərəkətlərində məqsəd**

Universiteti və tələbəni dinsiz, mənəviyyatsız etmək üçün bəzi işlər görürlər. Mənim fikrimcə, onun bir qədəri diqqətsizlikdən olsa da, bir qədəri planlı şəkildə görülür. Bu işdə çoxları təqsirkardır; həm universitetlərdə təqsirkar var, həm nazirliklərdə və dövlət qurumlarında. Bəziləri planlı şəkildə ölkənin elm, elmi inkişaf, elmi tərbiyə və elmi perspektiv mərkəzi olan universiteti və tələbəni mənəviyyatdan uzaqlaşdırmaq istəyirlər; isətiylər ki, onda iman, təqva, mənəviyyat, Allaha və dinə bağlılıq olmasın. Qətiyyətlə deyirəm ki, bu, ölkənin maraqlarına zidd bir hərəkətdir.[413]

---

[412] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2004.
[413] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışından: 2004.

**İslam universitetinin şərtləri**

İmam buyurur: "Mən istərdim ki, elmə vadar etmək üçün şagirdlərin başı üzərində qamçılar ucalsın". Bunun mənası nədir? İslam elmə müqəddəslik bəxş edib. Elm müqəddəs bir şeydir. Elm öyrənməyə çalışmaq müqəddəsdir. Belə deyil ki, elm başqa vasitələr kimi təkcə pul qazanmağa alət olsun. Elmlə pul da qazanılır, amma onun müqəddəsliyi qorunmalıdır: "Elm nurdur".[414] Elmin nur olduğunu yadda saxlamaq lazımdır. İslam universitetinin xüsusiyyətlərindən biri budur. Hamı elə bilir ki, biz İslam universiteti dedikdə məqsədimiz hicabların düzgün olması, oğlanların qısaqol köynək geyinməməsi və saçlarını uzatmamasıdır. İslam universitetinin mənası bunlar deyil. İslam universiteti iman, məqsəd, müqəddəs şövq, İslam rəftarı və mömincəsinə elm öyrənmək baxımından İslam universiteti olmalıdır. İslam universitetinin şərti bunlardır; sonra isə belə elm öyrənməyə istiqamət vermək.[415]

**Bugünkü dünyanın çatışmazlığı**

Əgər siz əsl İslamın mahiyyətini və gözəlliklərini zinətli elm libasında təqdim edə bilsəniz, böyük iş görmüş və görkəmli şəxslərin bu işlərə qoşulmasına yol açmış olarsınız. Elm və mənəviyyatın, elm və imanın, elm və əxlaqın sintezi dünyanın bugünkü çatışmazlığıdır. İslam universiteti elm və imanla, elm və mənəviyyatla birgə yoldaşlıq edir, elmi öyrənir, onun istiqamətini əxlaq və imandan alır.[416]

**Tələbənin araşdırıcı beyni - dini tərbiyəyə şərait yaradan amil**

Tələbə gəncin beyni araşdırıcıdır. Bu çox yaxşı haldır. Bəziləri elə bilirlər ki, bu, mənfi cəhətdir. Xeyr, müsbət cəhətdir. Bəzən bizdən o qədər soruşmurlar ki, axırda darıxırıq. Tələbə soruşmalıdır ki, deyilməsi lazım olanlar ona deyilsin. Dini, etiqadi, siyasi, elmi və tövhid məsələlərindən

[414] "Misbah əş-şəriə", səh. 16.
[415] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.
[416] Yenə orada.

soruşacaq ən yaxşı insanlar tələbə gənclərdir. Bu istedad və şəraitə görə biz universitetlərin tərbiyəvi, dini və mədəni mühiti üçün çalışmalıyıq.[417]

**Universitet cihadının həqiqi kimliyi**

Universitet cihadının bu imkanları var. Mən Universitet cihadına çox güvənirəm. Böyük, yaxşı işlər görmüsünüz və qeyd etdiyim kimi, ilk gündən təqva üzərində qurulmuşdur. Universitet cihadını tanıdığım ilk gündən indiyə qədər din və təqva yolunda olmuşdur. Onu din və təqva əsasında da saxlayın.

Mən bir neçə il bundan əvvəl Universitet cihadından olan əzizlərin qarşısında bir mətləbə toxundum. Yadımda da deyildi, onu mənim üçün gətirdilər, oxudum və yadıma düşdü. Bu düzgün iman kimliyini qoruyub saxlamaq lazımdır. Xoşbəxtlikdən, belə də olub və indiyədək qalmışdır. Bu təşkilatın bünövrəsi, idarəetmə və iş tərzi, istiqamət və istəklər yaxşı olmuşdur.[418]

**Dini düşüncənin yüksəlişi**

Hər halda, universitetlərdə dini təfəkkürün yüksəldilməsinə çox ciddi yanaşmaq lazımdır. Ehtiyatlı olun ki, bizim tələbəmiz və ziyalımız üçün fikir boşluğu yaranmasın. Bizim deməli və qane etməli sözümüz çoxdur. Təbliğatı dərinləşdirmək lazımdır. Yeni, güclü və ziyalı meyarları ilə uyğun sözlər seçmək lazımdır.

Mənim dini ziyalılığımızın olub-olmaması haqda söhbətlərdən acığım gəlir. Dini məsələlərə, İslam təfəkkürünə yaradıcı və yeni baxış elə ziyalı baxışıdır, mənası da bidətçilik deyil. Yəni zaman ötdükcə insan eyni əsasları öyrəndiyi yeni cəhətlərlə dərk və bəyan etsin. Biz bunu yaddan çıxarmamalıyıq.[419]

**Elm adamlarının Bəsici**

---

[417] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışından: 2006.

[418] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışından: 2007.

[419] Universitet rektorları və müəllimlərilə görüşdə çıxışından: 2007.

Bir xalqın ümumi Bəsici - onun, xüsusən də elm öyrənməkdə olan şagird və tələbə gənclərin daimi hazırlığı və sayıqlığı deməkdir.[420]

**Bəsic üzvlərinin bütün sahələrdə ön cərgədə durması**

Müharibə Bəsicin bütün mənası deyil. Bəsic həyatın bütün sahələrinə şamil olur. Quruculuq növbəsi çatanda Bəsic öncüldür; yardım və xidmət zamanı çatanda öncüldür; çox dəqiq, incə və həssas tədqiqatlara ehtiyac duyulanda ön cərgədədir. Siz bu gün baxın, mürəkkəb və çox çətin nüvə texnologiyasında çalışanlar dindar gənclərdir. Belələri Bəsicin təbii və həqiqi hissələrini təşkil edirlər. Hər yerdə belədir.

Çox fəal və qabaqcıl olan Royan müəssisəsi və mərhum Doktor Kazimi bir Bəsic üzvü olduğuna görə fəxr edirdi. Onun mömin və fəal gənclərinin təbiət və xarakterləri Bəsic xarakteridir; orada da Bəsic, orada da iman, orada da Bəsic xüsusiyyətlərindən olan özünəinam.[421]

**Elm və Sənaye Universiteti və mömin kadrlar yetişdirmək**

Allaha şükür olsun ki, Elm və Sənaye Universiteti həm elmi, həm də inqilabi nailiyyətlərə malik universitetlərdəndir. Əgər biz universitetlərin mühüm vəzifələrindən birini mömin, dəyərli, ölkənin idarəsinə yararlı və bacarıqlı kadrlar yetişdirmək olduğunu qəbul etsək, sizin universitetiniz bu sahədə ən lazımlı və ən öncül universitetlərdən biri sayılmalıdır. Bu universiteti bitirib ölkənin müxtəlif sahələrində mühüm rol ifa edənləri saymaqla qurtarmaz.

Bu məclisdə dostlar şəhidlər haqda danışdığından, mən də nümunə üçün deyim ki, dəyərli insan, uca və həmişəyaşar sərkərdə olan cənab Hacı Əhməd Mütəvəssilianı yaxından tanıyırdım, işini, əhval-ruhiyyəsini və fəaliyyətini görmüşəm. O, müqəddəs müdafiənin görkəmli fiqurlarından idi. Siz əziz gənclər bizə çoxlu dərslər öyrədən bu dəyərli insanların, xüsusən də bu əziz sərkərdənin Fəthülmübin, Beytülmüqəddəs və digər əməliyyatlara aid həyatını oxuyun. Adı bu böyük insanın adı ilə yanaşı

---

[420] Bəsic üzvü olan şagird və tələbələrlə görüşdə çıxışından: 2007.

[421] Bəsicin nümunəvi Aşura və əz-Zəhra batalyonları ilə görüşdə çıxışından: 2007.

çəkilən Şəhid Mahmud Şahbazi də belədir. Bunlar bu universitetin böyük fəxridirlər.

Allaha şükür olsun ki, inqilabçı, öhdəlikli, izgüzar, fəal və cəsarətli olan bugünkü prezident də bu universitetin məzun və müəllimlərindəndir. Bunlar bu universitet üçün çox yaxşı və dəyərli nailiyyətlərdir.[422]

**Zabitlik Universitetinin özəl xüsusiyyətləri**

Zabitlik Universiteti eyni zamanda həm elm mərkəzidir, həm cihad mərkəzi, həm qərarlı və dəmir iradəli insanların yetişdiyi məkan. Elm, cihad, iman və möhkəm iradə bir yerə cəm olduqda elə insanlar yaradır ki, dünya o insanlara görə öz gələcəyinə ümidvar ola bilər.[423]

**Tələbə təbəqəsinin İslama təmayülü**

Bu gün siz İslam ölkələrinin hansı universitetinə getsəniz, tələbələr və təhsilli gənc təbəqə arasında İslama təmayül və sevgi görərsiniz. Bunlar kommunistlərin, müxtəlif ateist cərəyanların asanlıqla cəlb etdiyi şəxslərdir. Bu gün bu təmayüllər minimuma enmiş və baxışlar İslama yönəlmişdir. Bizim regionumuzdakı mürtəce hökumətlərin, asılı, əsir və zəlil hökumətlərin inqilab əleyhinə işləməsi bundan ötrüdür; başa düşür, təmayülləri, xüsusən də gənclərinin və xalqlarının bu inqilaba, quruluşa və burada ucalmış İslam bayrağına səmimi sevgisini görürlər.[424]

**Universitetdə mənəviyyatın səmərələri**

Bəzi dostlar mənəviyyat barədə danışdılar. Mən universitetin mənəvi mühit olması ilə tam razıyam. Bəzi dostların haqlı olaraq bəyan etdiyi bu təhlükəsizlik və təhlükəsizlik hissi mənəviyyatla hasil olur. Bacardığımız qədər Allahla, Allahı yad etməklə, qeyb aləminə diqqətlə, dinin əsaslarına, hökmlərinə və şəriətə boyun əyməklə, ilahi hökmlər qarşısında təslim olmaqla gənclərin mənəvi potensialını gücləndirməliyik. Bizim bu gəncimiz nə qədər çox ibadətçi, nə qədər çox dindar olsa, Allahı nə qədər

---

[422] Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdə çıxışından: 2008.
[423] İmam Hüseyn (ə) Universitetinin məzuniyyət mərasimində çıxışından: 2009.
[424] Kürdüstan vilayətinin şiə və sünni ruhaniləri ilə görüşdə çıxışından: 2009.

çox yad etsə, Allaha nə qədər çox ehtiyac duysa və Allaha sarı nə qədər çox ehtiyac əli uzatsa, onun əməli, rəftarı, düşüncəsi daha zərərsiz olar və cəmiyyət ondan daha çox faydalanar.[425]

[425] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2009.

## Beşinci bölmə: Hövzələr

### Birinci fəsil: Hövzənin keçmişi

**Yeni elmlərin hövzəyə daxil olmamasının amilləri**

Yeni elmlər elm hövzələrinə yol tapmadı. Həm də axtarmaq lazımdır ki, heç olmasa əvvəllər hövzələrdə tədris olunan qeyri-dini elmlər nə üçün hövzələrə daxil edilmədi və özləri həmin elmlərin varisləri, sahibləri və mütəfəkkirləri olan alimlər onları rədd etdilər. Bunun iki səbəbi vardı. Hər iki səbəb qərblilərin dünya miqyasında təbii elmlərə sahiblənmələrinə görə idi. Biri odur ki, din alimləri kafirlər və din düşmənləri tərəfindən yayılan elmə bədbin yanaşır və onu rədd edirdilər. İkinci səbəb isə bu idi ki, həmin düşmən və kafirlər öz elmlərinin onlara öyrətmək istəmir, dini mərkəz olan elm hövzələrinə buraxmırdılar. Hər ikisi bir-birindən qaçır, bir-birinə düşmən olmuşdular. Əsas səbəb də bu idi ki, bütün dünyada, o cümlədən İslam ölkələrində elm antidin siyasətlərin əlində alətə çevrilmişdi.[426]

**Dinin hövzələrin elmi fəaliyyəti sayəsində qalması**

Birinci məsələ elm hövzələrinin rolu barədədir. Bizim cəmiyyətimizdə istər keçmişdə, istər indi və istər gələcəkdə bu rol haqda çox araşdırma aparılmalıdır. Ruhani toplumundan xüsusən elm hövzəsini seçdik. Çünki bura din alimlərinin tarlası və gələcəkdə fəqahətin - ictihada lazım olan fiqh, üsul və digər elmlərin səmərəli ağaclarının yetişdiyi yerdir. Bu hövzələr tarix boyu dini qoruyub təbliğ etməyi bacarmışlar. Əgər elm hövzələrinin əvvəldən bu günədək çəkdiyi zəhmətlər olmasaydı, şübhəsiz, dindən və dini həqiqətlərdən əsər-əlamət qalmazdı. Dinin qalması hövzələrin elmi fəaliyyətinə borcludur.[427]

**Elm və ruhaniliyin minillik imici**

Mən dəfələrlə demişəm ki, indiki ruhani nəslinin hörmətinə görə xalqın İslam inqilabına meyl göstərdiyini düşünməməliyik. Bu, səhvdir.

---

[426] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışından: 1989.

[427] Fiqin ali-ixtisas (xaric) dərsinin əvvəlindəki söhbətlərdən: 1991.

Əslində ruhaniliyin tükənməz bir ehtiyat olan minillik hörməti bu qələbə və uğurlara səbəb oldu. Bu minillik hörmət uzun əsrlər boyu böyük alimlərin elm və təqvası sayəsində qazanılan imicdən ibarətdir. Yəni bu işdə Əllamə Hillinin rolu olub, Mühəqqiqin rolu olub, Məclisinin rolu olub, Birinci və İkinci şəhidlərin rolu olub, Şeyx Tusinin rolu olub, Seyid Mürtəzanın rolu olub, Şeyx Ənsarinin rolu olub, uzun əsrlər boyu Nəcəfdə çalışan böyük alimlərin rolu olub, Qum böyüklərinin rolu olub, mərhum Hacı Şeyx Əbdülkərim Hairi Yəzdinin rolu olub, mərhum cənab Bürucerdinin rolu olub; yəni minlərlə görkəmli insan ömürlərini paklıq və təqva içində keçirdilər, yüksək səviyyəli alimlər yetişdirdilər, elmi əsərlər yaratdılar və bir cəmiyyəti, bir xalqı tədricən köklü formada ruhaniliyə inandırdılar. Belə deyil ki, bir dövrün və nəslin xalqı bir şəxsi istəsin, amma sonrakı nəsil istəməsin. Bir sevgi köklü və dərin olduqda insani xislətlər kimi bir nəsildən digər nəslə ötürülür; Hüseyn ibn Əlinin (ə), yaxud Əhli-beytin məhəbbəti kimi.[428]

**Səfəvilərin Şiə fiqhi və kəlamı üzərində haqqı**

Mən Səfəviləri dəyər düşməni kimi göstərənlərdən fərqli olaraq, demək istəyirəm ki, onlar nəinki adi şiəlik, hətta Şiə elmi, fiqhi və kəlamı üzərində də böyük haqqa malikdirlər. Yolu açıb şiə alimlərini yetişdirən və yüksəldən onlar olmuşlar. Əvvəlcə Livandan Mühəqqiq Kərəki kimi böyük alimlər gətirdilər, sonra da yerli alimlər yetişməyə başladı.[429]

**Hövzənin elmi və mənəvi zənginliyi**

Dəfələrlə dediyim kimi, elm hövzəsinin ehtiyat baxımından heç bir çatışmazlığı yoxdur. Yəni bu hövzədə din elmlərinin xalqın ehtiyacı olan fiqhdən, üsuldan tutmuş kəlama, təfsirə və digər fənlərə qədər bütün sahələrdə böyük elm, mənəviyyat və təqva ehtiyatları mövcuddur.[430]

---

[428] Mübarək ramazan ayı ərəfəsində məscid imamları, ruhani və təbliğatçılarla görüşdə çıxışından: 1993.

[429] Müqəddəs Ərdəbilinin xatirəsinə həsr olunan elmi konfransın Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

[430] Qum Elm Hövzəsinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

**Din alimləri**

Bizim tariximiz misilsiz gözəlliklərlə doludur. Tarix boyu din alimləri həqiqətən maddi və dünyəvi tamahdan uzaq ən müqəddəs fəaliyyətin timsalı olmuşlar. Bu o deməkdeyil ki, alimlər arasında dünya adamı olmamışdır. Xeyr, şübhə yoxdur ki, dünya adamı olan alim də olmuşdur. Bu həm də o demək deyil ki, dəyərli elmi iş görmüş, elm və tədqiqatla məşğul olmuş alimlər dünyəvi məqamlara çatmayıblar. Məsələn, Mühəqqiq, Əllamə, Şeyx Cəfər Kaşif əl-Ğita və digərləri yüksək rəyasət məqamına da nail olublar. Söhbət bundan getmir. Söhbət bundan gedir ki, istər fiqhdə, istər üsulda, istər təfsirdə, istər bir zaman hövzələrdə tədris olunan və digər yerlərdə mövcud olmayan elmlərdə, məsələn, riyaziyyatda, məntiqdə aparılmış ən yüksək və ən güclü elmi tədqiqatlar nə pul, nə peşə, nə də dünyəvi və maddi maraq üçün işləyən şəxslər tərəfindən baş vermişdir.[431]

**Ruhanilərin Allah naminə elmi fəaliyyət tarixi**

Kiminsə həkim olmaq və pul qazanmaq üçün tibb elmini öyrənməsi mümkündür, lakin din libası ilə pul qazanmaq üçün kiminsə özünü zəhmətə salıb fiqh elmində bu qədər tədqiqat aparması lazım deyil. Əgər kimsə Allah eləməmiş, din və elm libasından dünyəvi ehtiyaclarını təmin etmək üçün sui-istifadə etmək istəsə, tədqiqatla və elmi işlərlə məşğul olmadan da edə bilər. Belə deyil ki, ruhanilik aləmində, yaxud din libasında kimin elmi çoxdursa, qazancı da çox olsun. Xeyr, nə keçmişdə və belə bir şey olmuşdur, nə də bu gün var. Deməli, nəticə alırıq ki, fəqahət elminin və onun şaxələrinin – məsələn, üsul elminin, yaxud digər birinci dərəcəli İslam elmlərinin, məsələn, təfsir, kəlam, hikmət və fəlsəfənin zirvəsini yaradanların dünyəvi marağı olmamışdır. Onların məqsədi ilahi və ən azı elmi məqsəd olmuşdur. Bəzilərində ilahi məqsəd olmamışsa da, dünyəvi məqsəd də olmamışdır. Bu çox dəyərli məsələdir. Şiə ruhaniliyi tarixinin bu xüsusiyyətləri tanıtdırılsa, həqiqətən, yaxşı olar. İnsan digər tarixlərdə belə xüsusiyyətləri az müşahidə edir. Əlbəttə, demək istəmirik ki, dünyada belə şey olmamışdır. Xeyr, insafla desək, dünyanın digər

[431] Əhvaz Elm Hövzəsində Xuzistan ruhaniləri ilə görüşdə çıxışından: 1997.

yerlərində də olmuşdur; harada inkişaf və nailiyyət varsa, çox zaman belə səmimilikdən irəli gəlir. Lakin bizim ruhaniliyin bu işdə uzun və davamlı tarixi vardır.[432]

**Ən dərin və ən geniş hüquq məcmusu**

Siz bu gün də Əhli-beyt fiqhinə müraciət etsəniz, onda ən dərin, ən məzmunlu və ən şaxəli fərdi və ictimai hüquq toplusunu görərsiniz. Yəni heç bir hüquq toplusunda fərdi və ictimai məsələlərə - ailəyə, hökumətə, bəşərin ümumi fəaliyyətlərinə, məsələn, ticarətə, işə və digər sahələrə aid məsələlərə bu qədər dərin və tədqiqi şəkildə diqqət yetirilməmişdir. Belə bir fərdi və ictimai hüquq toplusu dünyada ən azı nadir, İslam fiqhində isə misilsizdir. Biz digər İslam məzhəblərinin, məsələn, yaxşı tanıdığımız dörd Əhli-sünnə məzhəbinin, yaxud Zeydiyyə və ya İbaziyyə firqələrinin fiqhi ilə müqayisədə deyirik ki, Şiə fiqhi həqiqətən, fərqli və üstündür. Bu da bizim böyük və hörmətli ruhanilik tariximizin başqa bir cəhətidir.[433]

**İslam tarixinin ən böyük elm toplusu**

Qum Elm Hövzəsi həqiqətən, dəyərli bir hövzədir. Mən bir neçə il öncə bir dəfə Feyziyyə mədrəsəsinin auditoriyasında dedim ki, şübhəsiz, İslam tarixinin əvvəlindən bu günə qədər Qum Elm Hövzəsinin bu günü kimi böyük, dərin və keyfiyyətli elm mərkəzi olmamışdır. Şübhəsiz ki, elm hövzələri olmuş, Bağdadda, Hillədə, Nəcəfdə, Kərbəlada və digər yerlərdə böyük alimlər olmuşlar. Lakin belə böyük sayda, bu çeşiddə, bu qədər müəllim, şagird və dərslərlə belə bir şey olmamışdır. Bugünkü elm hövzəsinin mərhum Ayətullah Bürucerdinin dövründəki elm hövzəsi ilə çox fərqi var. O zaman biz bu elm hövzəsində idik, Feyziyyə və Höccətiyyə mədrəsələrinin tələbəsi idik. O hövzənin çoxlu parlaq və dəyərli cəhətləri vardı, lakin bugünkü hövzədə böyük müəllim və şagird izdihamının kənarında olan fəaliyyət, ayıqlıq və məsuliyyət hissi o zamanla müqayisəolunmazdır. Əlbəttə, o zaman da çox böyük və dəyərli

---

[432] Yenə orada.

[433] Yenə orada.

müəllimlər vardı; bunda şübhə yoxdur. Lakin bu gün hövzədə elə xüsusiyyətlər var ki, o zaman yox idi.[434]

**Qum - İslamın düşüncə və elm paytaxtı**

Qum şəhəri yetmiş ildir İslam dünyasının düşüncə və elm paytaxtıdır. Mərhum Ayətullah Hairinin hicri tarixi ilə 1340-cı ildə Quma gəlişindən etibarən bu şəhər İslam və Şiə dünyasının əsas elm mərkəzinə çevrildi və mərhum Ayətullah Bürucerdinin dövründə öz zirvəsinə çatdı. O dövrlərin məhsulu Böyük İmam kimi möhtəşəm və misilsiz şəxsiyyətin meydana çıxması idi. Qumun bu parlaq keçmişi var və həmişə dövrün ehtiyacına cavab vermişdir.[435]

**Müasir dövrdə hövzənin təbii geriliyi**

Elm hövzələri müasir dövrdə təbii olaraq dövrdən bir qədər geri qaldılar. Buna görə də heç kəsi günahlandırmaq olmaz. Çünki iniqilabın baş verməsi və cəmiyyətdə bu güclü şimşəyin çaxmasından qaynaqlanan yeniliklərin sürəti hər şeyi geridə qoydu. Bizim cəmiyyətimizin ziyalıları da, universitetlərimiz də lazım olduğundan geridədir, elm hövzəsi də. Yəni bu möhtəşəm yenilik bütün ətrafına, müxtəlif səviyyələrə və çox dərinliklərə qədər təsir buraxdı. Biz bu yenilikdən geriyik. Hövzə bir qədər geridədir, lakin lazımi sürətlə və ciddiliklə bunu düzəltmək olar.[436]

**Elm hövzəsi - canlı varlıq**

Hövzə müxtəlif hissələrə malik bir tam olaraq canlı bir varlıqdır; inkişafı və xəstəliyi, hərəkəti və fəaliyyəti, dayanması və durğunluğu, həyatı və ölümü var. Canlı bir varlıqdır. Dəlili də elm hövzələrinin tarixidir. Misal üçün, altıncı əsrin sonlarından səkkizinci əsrin əvvəllərinə qədər Hillə Elm Hövzəsi rövnəqli bir hövzə idi. Xacə Nəsirəddin Tusi Hilləyə gedəndə orada böyük alimlər toplaşmışdı. Mənim yadımda olan qədərincə,

---

[434] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin alim, müəllim və tələbələrinin böyük toplantısında çıxışından: 2000.

[435] Qum əhalisi ilə görüşdə çıxışından: 2001.

[436] Ölkənin elmi hövzələrinin müəllimləri, tələbələri, təbliğatçıları və tədqiqatçıları ilə görüşdə çıxışından: 2007.

orada təxminən iyirmi-iyrimi beş böyük alim vardı. Onların biri Mühəqqiq Hilli idi, biri əllamənin atası, biri “Cami əş-şəraye” kitabının müəllifi olan Yəhya ibn Səid Hilli idi və ilaxir. Bu, Hillə hövzəsi idi. Lakin Hillə hövzəsi bu gün yoxdur. Nəcəf hövzəzi bir zaman ilkin rövnəqindən sonra hərəkətsiz qaldı. Nəcəf hövzəsində məşhur alim və görkəmli şəxsiyyət yox idi. Sonra Vəhid Bəhbəhaninin şagirdləri, o cümlədən Bəhrülülum və Kaşif əl-ğita onu elə rövnəqləndirdilər ki, mənim fikrimcə, iki yüz ildir onların zəhməti Nəcəf hövzəsini inkişaf etdirir. Onların fiqhdə məharəti və işlərinin dərinliyi hövzəni aktivləşdirdi, canlandırdı və beləcə, Allaha şükür olsun ki, son dövrlərə qədər canlı qaldı.

Qum hövzəsi yox idi. Qədimdə ilkin canlanmadan sonra rövnəqsiz və zəif bir hövzə vardı. Hacı Şeyx Əbdülkərim Hairi gəldi və hövzə canlandı. Elm hövzəsi belədir.[437]

---

[437] Yenə orada.

## İkinci fəsil: Elmi nümunələr

### Dindən yeni söz istehsal etmək

Elm hövzəsi böyük bir istehsal qurumu və insan zavodudur, daim istehsal etməlidir: kitab istehsal etməlidir, insan və alim istehsal etməlidir, dindar istehsal etməlidir, düşüncə istehsal etməli və yeni söz deməlidir. Yeni söz bitməmişdir. Bizim böyüklərimiz deyirlər ki, nə zaman Qurana müraciət edir və üzərində fikirləşiriksə, əvvəllər dərk etmədiyimiz sözü dərk edirik. Çox gözəl, bu, yeni sözdür. Bəziləri deməsinlər ki, nə qədər yeni söz varsa, hamısı dindədir, daha hansı yeni söz istəyirsiniz. Bəli, biz bu dini düzgün tanımamışıq. Biz dinin yeni sözlərini çıxarmalıyıq: "Yarın zülfü haqda bir ömür danışmaq olar". Belə deyil ki, dinin bütün sözləri bizim minbərlərdə, elmi kitablarda, təbliğatda və risalədə dediyimiz üç-dörd kəlmə sözdür. Xeyr, bunlardan çoxdur. Siz davam edin, Allah sizə yeni söz göstərəcək.[438]

### Dini təqdim etmək üçün tədqiqat və yenilik

Elm hövzələrinin zirvəsi olaraq Qum Elm Hövzəsi və onun ardınca digər elm hövzələri elə etməlidirlər ki, Allahın dini xalqın arasında rəğbətlə və həvəslə qarşılansın. Dini xalqa Allahın istədiyi kimi təqdim etmək lazımdır. Bunun da tədqiqata, yeniliyə, aydınlığa, dünyadan xəbərdar olmağa, dünya həvəslərindən uzaqlaşmağa ehtiyacı var; hamıda olmasa da, ən azı böyük hissədə və ən azı vəzifəli şəxslərdə. Görürsünüz ki, təqlid müctəhidliyi üçün İslamda nə qədər çətin şərtlər nəzərdə tutulur: nəfsini saxlamaq, dinini qorumaq, həvəslərinə qarşı çıxmaq, Allahın əmrinə itaət etmək və sair.[439]

### Yeni mövzuları tanımaq və şəriət hökmünü araşdırmaq

---

[438] Həzrət Mehdinin (ə) doğum gününün ildönümündə Qum Elm Hövzəsinin alim, müəllim və tələbələrinin toplantısında çıxışından: 1992.

[439] Hövzə və Universitetin Birliyi Günü münasibətilə tələbələrlə görüşdə çıxışından: 1993.

Bəşər həyatının bütün sahələrinə təsir göstərən, yeni hadisə və fenomenlərin sürətini keçmişə nisbətən dəfələrlə artıran texnika, sənaye və elm inkişafından irəli gələrək fiqhin cavab verməsi üçün bir çox mövzular ortaya çıxır, şəriət hökmü bilinməyən mövzuların sayı da eyni nisbətlə artır. Şübhəsiz, bu mövzuların hökmünü bilmək üçün fiqhin qaynaqları və həmçinin fəqahət üslubu yetərlidir. Lakin onların mövzusunu tanımaq, fiqhin ümumi qaydalarını tətbiq etmək üçün lazımi tədqiqat aparmaq lazımdır. Həmçinin fiqhdə bəhs olunan və hökmü bəlli olan bir çox mövzular bu gün o qədər dəyişmiş və əvəzlənmişdir ki, hökmlərinin keçmişdə deyilənlərdən ibarət olduğunu söyləmək çətin olur.[440]

**Yeni məfhumların kəşfi və yeni alətlərdən istifadə ilə fiqhi təkmilləşdirmək**

Dövrün fəqihləri bir tərəfdən aydınlıq, elmi qüvvə və fəqahət üslubuna sadiqliklə və digər tərəfdən azadfikirlilik və elmi cəsarətlə fiqhdə yeni məfhumlar kəşf edib kitab və sünnəyə istinadla yeni hökmlər təqdim etsinlər. Bu, fiqhi təkmilləşdirməkdir. Bundan əlavə, fiqhə dair ümumi və ixtisaslı kitab və risalələrin yazılmasında yeni üslublardan, yeni elm və texnikalardan və hətta elmi işi asanlaşdıran mütərəqqi alətlərdən istifadə etmək lazımdır. Bütün bunlar fiqhin təkmilləşdirilməsinə kömək edir.[441]

**Hövzənin elmi yeniliyə, inkişafa və yenilənməyə ehtiyacı**

Hövzələrdə ikinci qayda olan növbəti məsələ elmi inkişaf və elmi aktuallıq məsələsidir. Cənablar! Mən demək istəyirəm ki, Cəvahir kitabının müəllifi kimi - imam deyirdi ki, bizim fiqhimiz Cəvahir fiqhidir - böyük fəqihlərin əsas xüsusiyyəti öz dövrlərinin geniş yayılmış fiqh düşüncələrində yeniliyin tərəfdarı olmalarıdır. Hövzələrdə elmi və fiqhi inkişaf ruhu olmalıdır. Mən görürəm ki, bəzən bir neçə nəfər bir fiqh mövzusunda yeni söz deyirlər, sonra ətrafdan onlara hücum olunur ki, siz nə üçün bu sözü dediniz.[442]

---

[440] İslam Fiqh Ensiklopediyasının elmi-ixtisaslı konfransına müraciətindən: 1994.
[441] Yenə orada.
[442] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1994.

**Ali Məhkəmə üçün alim kadrlar yetişdirmək**

İslam Respublikası quruluşunun Ali Məhkəməsinə hər şeydən öncə elm, ayıqlıq və bilgi lazımdır. Odur ki, elm hövzələri, hüquq institutları və məhkəmə hüququ ilə bağlı müəssisələr öz nümunəvi alimlərini Ali Məhkəməyə göndərsinlər; xüsusən elm hövzəsi özünün ən dəyərli alim, müctəhid və şəxsiyyətlərini göndərsin. Necə ki, bu ölkədə ən qədimdən belə olmuşdur.

Yəni elm hövzəsinin bütün müctəhidləri olmasa da, bəzi böyük müctəhidləri bir qrup yaratsınlar; bəziləri tədris etsinlər, bəziləri tədqiqat aparsınlar, bəziləri şagird yetişdirsinlər, bəziləri inşallah fəqahətin yüksək mərhələlərini keçib yüksək dərəcələrə çatsınlar, bəziləri də öz alim kadrlarını Ali Məhkəməyə göndərsinlər. Bu bir vəzifədir. Hüquq institutları və məhkəmə hüququ üzrə kadr yetişdirən müəssisə və təşkilatlar da həmçinin göndərsinlər və Ali Məhkəmə onları qəbul etsin. Bu bir vəzifədir.[443]

**Qərbin şübhələrinə cavab vermək**

Mən Qum alimlərinin bir qrupuna dedim: Siz bir nəfərin hansısa Avropa universitetinə gedib hansısa müəllimdən dinə dair iki kəlmə söz öyrənməsini və sonra sizin evinizdə din əleyhinə etiraz kimi söyləməsini gözləmək yerinə, təşəbbüsü ələ alın, ondan qabaq özünüz gedib o bilgiləri öyrənin, əsaslandırmanızı gücləndirmək üçün düzgün olandan istifadə edin, səhv olanı deyin və düzəldin ki, gənclərimizin beyni şübhələr qarşısında vaksinlənsin.[444]

**Elmlərin bərpası**

Hövzə yaranmış boşluğu doldurmaq üçün qüvvədən düşmüş köhnə məfhumların yerinə yenilərini yaratsın. Məfhumlar köhnəlir, zaman ötdükcə tədricən öz təravətini itirir. Müxtəlif fikir və nəzərlərin daxil olması və zamanın ötməsi nəticəsində bir fikir sarsılıb ilkin

---

[443] Ali Məhkəmənin sədri, məsul şəxsləri və hakimləri ilə görüşdə çıxışından: 1995.
[444] Mazandaran vilayətinin ruhaniləri ilə görüşdə çıxışından: 1995.

möhkəmliyindən uzaqlaşdıqdan sonra onun yerinə yeni məfhumlar qoyulmalıdır.

Məfhumlar köhnəlir. Bütün elmlərdə belədir. Köhnəlmiş söz, mövzu və məsələlərin yerini doldurmaq üçün yeniləri ortaya qoyulmalıdır. Hər bir elmdə beyin fəzası lazımi məfhumların həcmi baxımından təkmilləşdirilməlidir. Bu, bərpadir. Bunun üçün çox çalışmaq lazımdır.[445]

**Yeni üfüqlər kəşf etmək**

Ondan da mühüm olan inkişaf məsələsidir. Çiçəklənmə - inkişaf etmək, bir addım irəliləmək və yeni üfuqlər kəşf etməkdir. Çiçəklənmə eyni mövzunu daha dərindən araşdırmaq deyil. Fərz edin, altıncı əsr aliminin bir növ dəlil göstərdiyi bir məsələni biz daha diqqətlə araşdıraq, onun bəzi dəlillərini möhkəmlədək, bəzilərini rədd edək və məsələnin möhkəmlənməsinə səbəb olaq. İş təkcə bu deyil. Yeni üfuqlər açılması həm elmin özünə, yəni fiqhə, həm də elmin məhsuluna, yəni fiqh məsələlərinə aiddir. Üsul, kəlam və digər elmlər də belədir.[446]

**Fiqhin tədqiqat metodunda təkmilləşmənin zəruriliyi**

Yeniliyin olmaması - yəni fəqahət məsələsinin özü ilə məşğul olmamaqdır. Fəqahət bizim fiqh adlandırdığımız məsələnin tədqiqat metodudur. Bu dərsi oxumayınca, kitab və sünnə əsasında tədqiqat aparmağın yolunu öyrənə bilməzsiniz. Fəqahət - fiqhin tədqiqat metodudur. Bunun özünün də inkişafa ehtiyacı var. Bu, ideal deyil, təkmilləşməkdə olan bir şeydir. İddia etmək olmaz ki, biz bu gün fəqahətin zirvəsinə çatmışıq, daha bu metoddan yaxşısı ola bilməz.

Şeyx Ənsaridən sonra fiqh metodikasında yeniliyin yarandığı dövr, mənim qüsurlu zənnimə əsasən, mərhum Ayətullah Bürucerdinin dövrüdür. O, metodika işində yeni mərhələ açdı.

Hansı dəlilə əsasən bizim alimlərimiz və böyük tədqiqatçılarımız bu metodlara əlavə edib onları təkmilləşdirə bilməzlər?! Ola bilsin bu bəzi məsələləri də əhatə etsin və nəticələrin çoxu dəyişilsin. Metodların çoxu

---

[445] Qum Elm Hövzəsinin alim və müəllimləri ilə görüşdə çıxışından: 1995.

[446] Yenə orada.

dəyişildikdə məsələlərin cavabları da dəyişiləcək və fiqh başqa cür olacaq. Bu, vacib işlərdəndir.[447]

**Elmi düşüncələrdə alimlərin yeniliyinə ehtiyac**

Bir dönəmdə Şiə fiqhində misilsiz, yaxud nadir bir qrup peyda oldu. Bunlar mərhum Mirzə Şirazinin və mərhum Axund Xorasaninin şagirdləri idilər. Söhbət elmi düşüncələrdən gedir. Bunların yenilənməyə və bərpaya ehtiyacı var. Alimlərin, böyüklərin, nəzər sahiblərinin yenilikləri hövzələrə kömək və onları təmir etməlidir. Bizim həyata və vəzifələrimizə aid bütün məsələlərdə inkişaf etdiyimiz halda elmi məsələlərimizdə qüvvədən düşmüş, yaxud ona bənzər sözlərlə kifayətlənməyimiz düzgün deyil. Elm böyükləri daim işləməlidirlər. Əlbəttə, bu iş ixtisaslı bir işdir, lazımi və yetərli həddən bir az aşağıda olan şəxslərin də işi deyil. Onlar daim yeni düşüncələr təqdim etməli və hövzələri elmi təravət halında saxlamalıdırlar. Bu da bərpanın bir nümunəsidir.[448]

**Metodların bərpasının elm məsələlərindən öndə olması**

Bir cəhətdən bundan mühüm olan məsələ elmi metodların bərpasıdır. Elmi əsas və sözlərə diqqətdən əlavə elmi metodlara da diqqət yetirmək lazımdır. Yüksək elmi ixtisaslarda diqqət yetirilən bəzi metodlar böyüklərin, alim və mütəxəssislərin daim diqqət mərkəzində olmalıdır.[449]

**Metod və fikirlərdə yenilik**

Nəcəf Elm Hövzəsində üsul məktəblərinin inkişaf dövründə mərhum Ayətullah Naini kimi yenilikçi bir insan üsul elmini bir addım irəliyə apardı. Bu böyük alim yenilikçiliyinə və ehkamçı olmadığına görə üsul elmində yeni bir səhifə açdı. Bu, bütün məsələlərdə lazımdır. Metod və fikirlərdə doqmatizm böyük bəladır. Əgər doqmatizm olsa, heç bir yenilik, heç bir hərəkət və yerdəyişmə baş verməyəcək.[450]

---

[447] Yenə orada.

[448] Məşhəd Elm Hövzəsinin tələbələri ilə görüşdə çıxışından: 1997.

[449] Yenə orada.

[450] Yenə orada.

**Yenilik çərçivələri**

Növbəti məsələ yeni düşüncə və yenilik məsələsidir. Ehkamçılıq yoxdursa, deməli, yenilik var. Bəs yenilik nə deməkdir? Əsas məsələ budur. Bəzi adamlar elə bilirlər ki, yenilik insanın gözünü yumub ağzına gələni danışmasıdır. Bu, yenilik deyil. Düzgün çərçivələrdə olan yenilik yaxşıdır. Çərçivələri də elm hövzələrində öyrənmək lazımdır. Belə olmasın ki, kimlərsə yenilik adı altında bütün ənənə və metodları, prinsipial və köklü məsələləri sual altına alsınlar.

Fiqhdə həmişə yenilik olmuşdur. Bizim fəqihlərimiz əsaslandırma və ictihad fəqahətinin 1200 illik tarixi boyu yenilik etmişlər. Lakin düzgün yenilik həddindən yayınan hər bir kəs barmaqla göstərilmiş və tanınmışdır; anlamışlar ki, bu, səhv edir, yanılır, çünki düzgün çərçivələri aşır.

Mən burada yenifikirlilik və yenilik üçün lazımi çərçivələri qeyd etmişəm: dini təfəkkür çərçivəsi, hövzə dəyərləri çərçivəsi, elmi metodlar çərçivəsi. Yəni elmi metodlardan kənara çıxmaq yenilik deyil, cəfəngiyatdır. Xoşbəxtlikdən, bu gün elm hövzələrində fiqh metodikası nizam-intizamlı və elmi bir metoddur. Bu mövzu da çox mühümdür və buna diqqət yetirmək lazımdır.[451]

**Azadfikirliliyin mənası və onun elm hövzələri üçün zəruriliyi**

Növbəti məsələ azadfikirlilikdir. Azadfikirlilik nə deməkdir? Yəni qarşı tərəfin fikrinə dözmək. Azadfikirliliyin mənası bu deyil ki, insan bütün düzgün prinsip və əsasları buraxsın və bir şeyi düşüncə kimi irəli sürsün. Xeyr, mənası bu deyil, amma yeni bir söz deyildikdə ona dözmək lazımdır. Mənim gözlədiyim budur.

Müxalif sözə dözməyin mənası bu deyil ki, siz onu qəbul edə, yaxud cavabsız qoyasınız. Xeyr. Mən Qumdakı söhbətdə bu barədə geniş danışdığıma görə indi təkrar etmirəm. Mənası budur ki, sözün deyilməsinə icazə verin, sonra onu dəlillə rədd edin.

---

[451] Yenə orada.

Elmi müzakirə şəraiti elə olmalıdır ki, insan yeni fikrini söyləyə bilsin. Xüsusən düzgün ictihad əsaslarına söykənən elmi müzakirələrdə müxalif sözə dözüm olmalıdır.[452]

**Hövzə elmlərində yenilik üçün tədqiqatçı yetişdirmək**

Bu gün elm hövzələrinin özündə ortaya qoyulan məsələlərdə, məsələn, İslam fəlsəfəsində, İslam fiqhində, İslam hermenevtikasında tədqiqat, araşdırma və yeniliyə hazır şəxslər olsun. Bizim üsul elmində araşdırdığımız bəzi mövzular, məsələn, sözlər bəhsi və digər mövzular bu gün dünyanın fəlsəfə institutlarında bəhs olunan çox mühüm məsələlərdəndir; bunların barəsində tədqiqat aparsınlar və yenilik etsinlər.

Siz möhtərəm cənablar bilin ki, bu işlər əsasən gənclik dövrünün işləridir, daha çox gənclik dövrünə məxsusdur. Nə qədər ki, sizdə gənclik qüvvəsi və gənclik hissi var, bunun qədrini bilin.[453]

**Düşüncə bazarında fikir ehtiyatlarının inkişafı**

Bu gün elə bir gün deyil ki, biz öz kadrlarımızı və onlarda olan elmi, insani və zehni potensialı boş yerə xərcləyək. Bu gün bunlara ehtiyac var. Bu gün elə gün deyil ki, dəyərli bir adam şəhərin, yaxud kəndin bir tərəfində oturub desin ki, kitab yazıram, nə vaxtsa istifadə olunacaq. Xeyr, bu gün elə gündür ki, bütün düşüncə ehtiyatları inkişaf üçün müzakirəyə çıxarılmalı, həm inkişaf etməli, sınaqdan keçib güclənməli, həm də istifadə olunmalıdır. İndi o zaman ötüb ki, misal üçün, qoca bir arvad öz sandıqçasına bir qədər pul qoyub dar günə saxlasın. Xeyr, bu gün həmin pulu bir istehsal işinə yatırır və qısa müddət ərzində on dəfə artırırlar. Bu həm onun özünə xeyirdir, həm də pulun dövriyyəsindən qazananlara.

Bu gün sərmayələri bir tərəfdə saxlamaq zamanı deyil. Kimin istedadı, beyin və fikir sərmayəsi varsa, iş bazarına çıxarmalıdır. İş bazarı təkcə istehlak bazarı deyil ki, mütləq bir yerdə işləməsini deyək. Bu istedad

---

[452] Yenə orada.

[453] Fiqhin ali ixtisas (xaric) dərsindəki söhbətlərdən: 2000.

və fikirlər işlənməlidir ki, onlardan istifadə olunsun, güclənsinlər və düşüncələr arasında əlaqə yaransın.[454]

**Hövzə mütəxəssislərinin əməkdaşlığı ilə antidin düşüncələrinə qarşı elmi mübarizə**

Bəzi insanlar lazımi səlahiyyətlərə yiyələnmədən elə sahəyə girir və fikir bildirirlər ki, qərəzli olmasa da, ən azı cahilanə fikirlərdir. Əgər onda siyasi qərəzlər, cinah maraqları, maraq güdən və xəyanətkar məqsədlər varsa, daha pisdir. Cəmiyyətimizdə mövcud olan bu hal çox pis haldır. Düzdür, təkcə bu günə məxsus deyil, həmişə olmuşdur. Lakin bu günün keçmişə nisbətən bir özəlliyi var. Keçmişdə cahillər din haqqında fikir bildirirdilər, lakin məhdud avam çevrələrində. Kimsə təbliğatçı, yaxud hər hansı bir adla dinə dair danışırdı və məhdud bir avam çevrə onun sözünü qəbul edirdi.

Bu günün həmin zamanla fərqi budur ki, İslamın əsaslarına və dini elmin təməllərinə dair səhv sözlər avamcasına, lakin bəzəkli qəliblərdə, yeni fikir və elm qəlibində deyilir, halbuki elm deyil, səhvdir. Buna qarşı elmi tədbir görməyə ehtiyac var. Hökumətin tədbiri ayrıdır. Hökumətlər hər yerdə bu sahələrə girə bilməzlər və girmirlər. Düzgün və təsirli də deyil. Lakin elm adamları bu işdə aktiv olmalıdırlar.

Dinin özünə, fəlsəfəsinə, etiqadi əsaslarına, İslam Respublikasının atributları olan İslam təlimlərinə - misal üçün, konstitusiyada və digər yerlərdə göstərilən məsələlərə, İslam fiqhinə, Peyğəmbər və imamların davranışına dair elə söhbətlər edilir ki, nə tarixə əsaslanır, nə hədisə, nə Qurana, nə fiqh metodikasına, nə bəlli dini əsaslara, nə də çox dərin və zərif bir fənn olan fiqh üslubuna. Heç bir şeyə əsaslanmadan alimnüma şəkildə, gözəl və səlis ifadələrlə bəyan olunur. Bu işi görənlər təəssüf ki, cəmiyyətin aparıcı və görkəmli şəxslərinin bir qismidir. Keçmişlə fərqi budur. Onlar elmli insanlara zərbə vurur, onların yolunu kəsirlər. Odur ki, buna qarşı tədbir görülməlidir. Qeyd etdim ki, belə yerlərdə tədbir düşüncə, elm tədbiri, mübahisə sahəsində cəsarətli tədbirdir. Bu işlərin arxasında siyasi maraqların, Allah eləməmiş, xain və fəsadçı məqsədlərin

---

[454] Yenə orada.

durduğunu qəbul etsək, o zaman siz elmi cavab verərkən qalmaqal yaratmalarını, rüsvayçılıq etmələrini, qara yaxmalarını gözləmək lazımdır.

Din alimləri dinin təhrifi qarşısında sakit oturmamalıdırlar. Bu məsələlərə qarşı qeyri-elmi tədbir görmək, təkfir etmək səhvdir; fəryad qoparmaq ki, bu, küfr etdi və sair. Bunun faydası yoxdur. Çoxlarının bundan xoşu gəlir; ona görə ki, bu zaman elmi tənqiddən kənar qalırlar. Əgər elmi tənqid olsa, söz diqqətlə araşdırılar, söz və onun sahibi rüsvay olar. Bu iş görülməlidir.

Elm adamları, din başçıları və dinin bayraqdarları bu hadisələrdə elmi işlər görməli, sözü müzakirə etməli, araşdırmalı və eybini aydınlaşdırmalıdırlar ki, ardınca söz sahibinin eybi aşkara çıxsın: "Hidayət yalnız sapqınlığın yayıldığı cəhətdən yayılır". Bu, mərhum Seyid Şərəfüddinin sözlərindəndir. Onlar sapqınlığı hansı yolla yayırlarsa, hidayəti də həmin yolla yaymaq lazımdır. Həmin cahil, yaxud qərəzli şəxsin - biz indi mühakimə yürütmürük, hər ikisi mümkündür – müxtəlif adlarla insanlara yanlış, zəif, köksüz və qeyri-peşəkar bilgilər verdiyi kimi, elm və din adamları da köklü, xalis bilgilər verib o fikrin səhv olduğunu bəyan etsinlər.

Elm hövzələrində bu işləri görəcək alimlərin olmadığını düşünmək yanlışdır. Allaha şükür ki, bizim gənclərimiz, alimlərimiz arasında belələri çoxdur. Düzdür, ola bilsin birinin tədqiqat bacarığı yüksək olsun, nitq qabiliyyəti zəif. Bir nəfər araşdırma adamı olub o tədqiqatçıya vacib qeydləri götürsün. Bir nəfər dil bilsin, fərz edin, bir sözün kökünü hansısa qərbli hüquqşünasın, yaxud filosofun yazısında tapsın, tədqiqatçı isə o dili bilməsin və bunu bacarmasın. Bunlar bir-birinə birləşdirilməli, bir-birini təkmil etməli, bir-birinə kömək edib düzgün fikri gözəl, güclü və möhkəm şəkildə açıqlaya bilən şəxsin ixtiyarına qoyulmalıdır. Bu gün sizin vəzifələrinizdən, elm hövzələrinin və din alimlərinin vəzifələrindən biri budur. Bunu yaddan çıxarmaq olmaz. Bu çox əhəmiyyətlidir.[455]

## Elm inkişafının təhdidi: ehkamçılıq

---

[455] Yenə orada.

Məsələlərə yeni baxışla baxmamaq, zamanın ötüşünü və insanların düşüncə yeniliyini görməzliyə vurmaq, fikir və düşüncə tərəqqisini inkar etmək ehkamçılıq, doqmatizmdır. Siz hansı elmə baxsanız, o elmin yüksəliş və inkişafının ehkamçılıq əleyhinə bir fəryad olduğunu görərsiniz. Əgər mühafizəkarlıq və görməyə adət etdiyimiz hər bir şey üzərində möhkəm dayanmaq yaxşı bir şey olsaydı, üsulumuz da inkişaf etməzdi, fiqhimiz də min il öncədən indiyə qədər bu qədər dəyişib inkişaf etməzdi. Həyatın bütün işləri belədir. Ehkamçılıq ən böyük təhdidlərdən biridir.[456]

**Düşüncə və əməl özbaşınalığından çəkinməyin zəruriliyi**

Ehkamçılığın əksi düşüncə və əməl özbaşınalığıdır. Veyillik və özbaşınalıq həm düşüncədə, həm əməldə fəlakətdir. Düşüncədə belədir ki, insan fikir və düşüncə bazarında təklif olunan hər bir şeyə dəyərləndirmədən, tənqidi gözlə baxmadan və düzgün anlamadan yanaşsın. Əməldə özbaşınalıq da təqvanın əksidir. Təqva diqqətli və ehtiyatlı olmaqdır ki, heç bir əməl, söz, hal və hiss meyarlara zidd olmasın. Bu, təqvadır. Bunun əksi isə veyillik və özbaşınalıqdır. Bu özbaşınalıq və veyillik hissinin ardınca qəbulda, əməldə və dərkdə səhlənkarlıq gəlir. Bu hissə düçar olanların vəziyyəti yaxşı olmaz.

Xüsusən Qərbi kor-koranə yamsılamaq belə bəlalardan biridir: Qərb sivilizasiyası elmi baxımdan inkişaf etdiyindən və bərbəzəkli olduğundan onu kor-koranə yamsılmaq və oradan gələn hər bir şeyi qəbul etmək; istər fəlsəfəni, istər əxlaqı, istər digər sözləri.[457]

**Fikir istehsalı sahəsində ifadə azadlığı mədəniyyəti**

Mən çox təəssüf edirəm ki, bəziləri ölü sükut və durğunluqla çərənləmək və küfr demək bataqlığı arasında üçüncü yol tanımır, bunların hər hansı birindən uzaqlaşmaq üçün digərinə üz tuturlar. Halbuki İslam inqilabı həm düşüncə diktatorluğunu və ehkamçılıq mədəniyyətini, həm də Qərbin məhdudiyyətsiz və eqoist azadlığını tənqid edib düzəltməyə,

---

[456] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin müəllim, alim və tələbələrinin böyük toplantısında çıxışından: 2000.

[457] Yenə orada.

ifadə azadlığının heç bir şeylə yox, məntiqlə, əxlaqla, digərlərinin mənəvi və maddi hüququ ilə şərtlənib ictimai və siyasi mədəniyyətə çevrilməsinə, hürriyyətin, ədalətin, məntiqiliyin və insafın geniş yayılmasına, düşüncələrin bütün sahələrdə fəallaşmasına və oyanmasına, əziz Peyğəmbərin (s) və onun Əhli-beytinin rəvayətlərinə əsaslanan fikir və nəzəriyyə toqquşmasının nəticəsi olan mədəni-ideoloji doğuşun alim və mütəfəkkirlərin ikinci adəti olmasına görə baş verdi. Xüsusən də İslam mədəniyyəti və İslam sivilizasiyası həmişə yeni problemlərlə, digər məktəb və sivilizasiyalarla döyüşdə çiçəklənmişdir.[458]

**Günün düşüncə ehtiyaclarını təmin etmək üçün yeni mütəhhərilərə ehtiyac**

Bizim Mütəhhəriyə həmişə ehtiyacımız var. Bir fərd kimi Şəhid Mütəhhəridə dayanmaq olmaz. Bizim cəmiyyətimiz və islami fikir toplumumuz onun elmi nailiyyət və yeniliklərinə əsaslanaraq digər yeniliklər də əldə etməlidir. Bizim növbəti onilliklər üçün mütəhhərilərə ehtiyacımız var. Çünki hər günün yeni fikir ehtiyacları var.[459]

**İslam düşüncəsinin istehsalı üçün lazım olan amillər**

Mərhum Şəhid Mütəhhərinin 1960 və 70-ci illərdə bu ölkənin elm və düşüncə mühitində gördüyü işi öyrənmək lazımdır. O özünün güclü fikri və yüksək düşüncəsi ilə o zamana qədər islami məsələlər sahəsində heç kəsin daxil olmadığı sahələrə girdi və ölkədə yayılmış, yaxud yayılmaqda olan təfəkkürlərə, Şərqin və Qərbin tərcümə ilə idxal etdiyi fikirlərə qarşı mübarizəyə başlayıb, dərin, geniş və tükənməz fəaliyyətə başladı. O, həm marksistlərlə mübarizə cəbhəsində çox dəqiq bir cihada qalxdı, həm də Qərb təfəkkürləri və liberalistlərlə mübarizə cəbhəsində. Bu rol çox əhəmiyyətlidir. Həm böyük cəsarət və özünəinam tələb edir, həm müxtəlif sahələrdə fikir və ictihad qüvvəsi, həm də qəti inam. Bu böyük insanda

[458] Elmi hövzə tədqiqatçılarının nəzəriyyə kürsüləri haqda məktubuna cavabdan: 2003.
[459] "Pak hikmət" konfransının təşkilatçıları ilə görüşdə çıxışından: 2004.

bunların hamısı vardı: həm alim, həm çox mömin idi, həm imanına yəqini vardı, həm də özünəinamı. Bunlar lazımdır.[460]

**Qum Elm Hövzəsində azad diskussiyaların təşkil edilməsinin zərurliyi**

Ən vacib məsələlərdən biri azadfikirlilikdir. Burada bu mövzuya toxundular. Nə üçün Qumda azad diskussiyalar təşkil olunmur? Bunun nə eybi var?! Bizim elm hövzələrimiz elmi azadfikirliliyin beşiyidir. İndinin özündə də bununla fəxr edirik. Elm hövzəsindən başqa təhsil mərkəzlərində belə bir şey yoxdur ki, şagird dərsdə müəllimə irad bildirsin, acıqlansın, müəllim də ondan ədavət və qərəz duymasın. Tələbə azad şəkildə iradını bildirir, müəllimdən çəkinmir, müəllim də bundan əsla incimir və narahat olmur. Bu çox mühüm məsələdir və hövzəyə məxsusdur.

Bizim elm hövzələrimizdə elə böyüklər olmuşdur ki, həm fiqhdə müxtəlif üslubları öyrənmişlər, həm də daha köklü olan digər məsələlərdə. Filosof, arif və fəqihlər bir-birinin yanında yaşamış, işləmişlər. Bizim hövzələrimizin keçmişi belədir. Birinin bir elmi əsası vardı, digəri onu qəbul etmirdi. Alimlərin həyatına baxsanız, bunu görərsiniz.[461]

**Müxalif fikri vurmaq və kafir elan etmək yerinə nəzəriyyə kürsüləri təşkil etmək**

Bir nəfər fiqhdə nadir bir fikir irəli sürür. Çox gözəl, qəbul etməyin. Nəzəriyyə kürsüsü təşkil olunsun və diskussiya aparılsın. Beş nəfər, on nəfər alim gəlib onun fikrini dəlillə rədd etsinlər. Bunun eybi yoxdur. Bir fəlsəfi və ya etiqadi nəzəriyyə irəli sürülərkən də belə etmək lazımdır. Təkfir və bu kimi məsələləri hövzədən yığışdırmaq lazımdır; özü də hövzə daxilində böyük və görkəmli alimlərə qarşı. Sözünün bir hissəsi mənim fikrimə müxalifdir deyə ona ağzıma gələni deməliyəm?! Belə olmaz. Buna tələbələrin öz daxilindən başlamaq lazımdır. Bu elə bir şeydir ki, tələbələrin özlərinin vasitəsi ilə mübahisə və müzakirə kürsüləri təşkil

---

[460] Yenə orada.
[461] Yenə orada.

etmək və qeyd etdiyim azadfikirlilik hərəkatı olmadan mümkün deyil. Bunu elm hövzəsində adət halına salın, jurnallarda, yazılarda işıqlandırın. Bir nəfər fiqhdə bir söz deyirsə, başqa biri onun əleyhinə bir risalə yazsın, kimsə onu qəbul etməsə, o da bir tənqidi yazı yazsın. Bir-biri ilə elmi mübahisə etsinlər, eybi yoxdur. Mənim fikrimcə, elmi mübahisə yaxşıdır.[462]

---

[462] Yenə orada.

### Üçüncü fəsil: Hövzə tələbələri və ruhanilər

**Din aliminin vəzifəsi: xalqın din elmini gücləndirmək**

Əgər bir şəhərdə din elminin ağacı möhkəm, səmərəli və qol-budaqlı olmasa, o bölgənin əhalisində dini ruh inkişaf etməz və düşmənə əlverişli şərait yaranar.

Əziz qardaşlar və möhtərəm din alimləri! Bizim bu libasımız və mövqeyimiz həmişə məsuliyyətli olmuşdur. Biz elə bir zaman fərz edə bilmərik ki, onda din alimi adi məsuliyyətlərin fövqündə duran mühüm məsuliyyət daşımasın. Həmişə belə olmuşdur. Bu, elmin xislətinə görədir: "Ümmətimin iki qrupu islah olunsa, bütün ümmətim islah olunar, fəsada uğrasa, bütün ümmətim fəsada uğrayar"[463]. Onların birincisi fəqihlər, ikincisi isə hakimlərdir. Bizim dövrümüzdə bunların hər ikisi birləşmişdir. Bu gün biz ruhanilərin üzərinə həmin ağır vəzifə və məsuliyyətlərdən əlavə məsuliyyətlər də düşür.[464]

**Mütaliə və tədqiqatın zəruriliyi**

Alim onun elminə ehtiyaclı insanlar qarşısında məsuliyyət daşıyır: "Siz onu (kitabda olanları) gizlətməyib, insanlar üçün aydınlaşdırmalısınız"[465]. Əvvəlcə bu sözün özünü başa düşmək lazımdır. Biz başa düşməliyik ki, başa düşdüyümüzü izah edə bilək. Deməli, başa düşmək də bizə vacib, zəruri və qaçılmazdır. Biz öz dərkimizi günbəgün artırmalıyıq. Bizim bildiklərimiz bilmədiklərimizin qarşısında səhra və zəmilər qarşısındakı bir saman çöpü kimidir. Bizim bildiyimiz nədir? İnsan hər bir kitabı açanda görür ki, onda bizim boş qabımızın möhtac olduğu çoxlu sözlər var. Hanı dərinlik? Hanı istedad? Bu qədər anlamaq üçün qismət hanı? Hər halda, biz çalışmalıyıq.

Bizə və xalqımıza lazım olan bilgilərə nisbətən bir şey bilmirik. Biz dərs oxumalı və mütaliə etməliyik. Mən burada ev tapşırığı vermək

---

[463] "Tühəf əl-üqul", səh: 50.

[464] Buşəhr vilayətinin Elm Hövzəsinin ruhani və tələbələri, cümə və məscid imamları ilə görüşdə çıxışından: 1992.

[465] "Ali-İmran"/187.

istəmirəm. Gərək mütaliə, araşdırma və təfəkkürlə biliyimizi artıraq ki, nəsə çatdıra biləssk.[466]

**Təhsildə ciddilik**

İnsanın bu libası geyinib dərs oxumaması mənasız bir şeydir; bir şeyi qəsb etmək kimidir. Bu paltar, necə deyərlər, bir uniforma və rəsmi geyim növü olub, xüsusi bir qrupa məxsusdur. Bu qrup kimlərdir? Din alimləri. Deməli, "alim" sözü insana şamil olmalıdır, əks təqdirdə, faydasızdır.

Bilirsiniz ki, elm təklikdə kifayət etmir. Əgər elm olsa və təqva olmasa, elmin olmadığı yerə yüz rəhmət! Təqvasız elm çox təhlükəlidir.[467]

**Yeniliyi kəşf etmək və müxtəlif ixtisaslı alimlərin fəndlərindən istifadə**

Dərs, elmi mübahisə və tədqiqatla məşğul olmaq, özünü əziz İslama səmərəli səviyyəyə çatdırmağa bacardıqca çalışmaq lazımdır. Çalışmaq lazımdır ki, tədqiqat qüvvəsi indi hövzə tələbələrində, xüsusən də siz əziz və fəal alimlərdə olduğu kimi canlı formada hər yerə yayılsın.[468]

**Dərs, elmi mübahisə və araşdırma**

Hövzənin tələbə və alimləri tədqiqatı, elmi və tədrisi özlərinin birinci işləri bilsinlər və bundan ötrü bütün səylərini göstərsinlər. Hövzənin bütün fənlərində tədqiqat aparmaq lazımdır.

Qum Elm Hövzəsinin tələbə və alimləri dərsi, elmi mübahisəni və araşdırmanı ciddi saysınlar, tətilləri azaldıb işin həcmini artırsınlar, hər bir fürsətdən istifadə etsinlər, daimi mübahisə ənənəsini və hövzələrin gur vaxtında görünən elmi mübahisə və fiqh qruplarını dirçəltsinlər, tələbələr dərs oxumaqdan yorulmasınlar, daim oxusunlar, dərs oxumağın qayda-

---

[466] Yenə orada.

[467] Həzrət Mehdinin (ə) anadan olmasının ildönümündə Qum Elm Hövzəsinin nümunəvi tələbələrinə hədiyyə verilməsi və bəzi tələbələrin əmmaməqoyma mərasimində çıxışından: 1992.

[468] İmam Baqir (ə) adına elmi hövzənin xarici ölkələrə ezam olunan tələbələri ilə görüşdə çıxışından: 1992.

qanunlarına əməl etsinlər. Yazılarda diqqətli olmağa çalışsın və onları müəllimlərə göstərin.[469]

**Keçmiş alimlərin elmi nüfuzunu qorumağın yolu**

Əgər bütün xalqın, müxtəlif təbəqələrin bir yerə toplaşmasını istəyirsinizsə, ruhanilər orada olmalıdırlar. Əgər ruhanilər və din alimləri bir yerə toplaşsalar, bütün təbəqələr, yaxud xalqın böyük əksəriyyəti də oraya yığışar. Bu bizim ölkəmizin uzun illər və hətta əsrlər boyu sübuta yetmiş bir xüsusiyyətidir.

Bunun səbəbi nədir? Səbəb ruhaniliyin vəziyyətidir. Mən dəfələrlə demişəm ki, xalqın indiki ruhani nəslinin hörmətinə görə İslam inqilabına dəstək verdiyini düşünməməliyik. Bu səhvdir. Əslində, onların tükənməz bir ehtiyat olan minillik hörməti bu qələbə və uğurlara səbəb oldu. Bu minillik hörmət uzun əsrlər boyu böyük alimlərin elm və təqvasının məhsuludur. Dinin və ruhanilərin xalq arasında bu hörməti belə böyük təsir buraxa bilirsə, deməli, o pak, alim və müqəddəs sələflərin hörmətini qorumalıyıq. Əks təqdirdə, həmin oturuşmuş amil tədricən yox olacaq. Bunun xisləti belədir. Bəs onların hörmətini necə qorumalıyıq? Bunun özü geniş söhbətdir.

Əvvəla, onlar alim idilər, biz də onların elmini inkişaf etdirməyə çalışmalıyıq. Onların elmi böyük və mühüm irsdir. Hansısa bir ixtisasa yiyələnmiş olsalar da, İslamın hüquqi və fiqhi məsələlərindən, İslam fəlsəfəsindən, İslam kəlamından bir şey anlamayan üç-dörd nəfərin hörmətsizlik və təhqir etmələrinə baxmayın. İslam fiqhi və onda olan Şiə fiqhi mütəxəssis və intellektuallar üçün heyrətamiz bir şeydir.

Zarafat deyil ki, Cəvahir kitabının müəllifi kimi bir insan oturub təkbaşına əvvəldən axıra qədər bütün fiqhi elə dəqiqliklə yazsın və İslam hüququna dair ensiklopediya ərsəyə gətirsin. Bu, möcüzəyə bənzər bir şeydir. Şeyx Ənsari, Riyaz kitabının müəllifi, istər ən qədimlərdən, istər sonrakılardan olan digər böyük alimlər də belə olmuşlar. Şeyx Müfidin iki

[469] Fiqhin ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərdən: 1992.

yüz, Əllamə Hillinin üç yüzə yaxın əsəri var. Xacə Nəsirəddin Tusi və Şeyx Tusi də ayrı cür. Mütəxəssislər üçün bunların mesaj və mənası böyükdür.

...Onların elmi çox olmuşdur. Bugünkü elmi təbəqə o irsi uca tutmaq və sözügedən hörməti qorumaq istəyirsə, elmdə inkişaf etməlidir; həm hövzə, həm də qeyri-hövzə alimləri.

Bu elm barədə. Paklıq və təqva haqda da məsələ bəllidir. Dünyaya həris olan, haramlardan çəkinməyən alim rədd edilir. Bu o demək deyil ki, alim həyatın ləzzətlərindən məhrum olmalıdır. Əslində, bəzi mərhələlər var və insan o mərhələlərdə həqiqətən ləzzətlərə göz yummalıdır.[470]

**Minbər və təbliğat alimcəsinə olmalı və dinləyicilərin problemlərinin həllinə yönəlməlidir!**

Fərz edin, siz natiqlik və təbliğat işində çalışırsınız. Çox gözəl! Sözlər alimcəsinə olmalıdır. Zəif sözdən, mütaliəsiz minbərdən çəkinmək lazımdır. İslam məsələlərinə dair ən yaxşı və ən yeni sözləri bilmək lazımdır. Üç-dörd dəfə az çıxış etməyimiz mümkündür, eybi yoxdur. İnsan yaxşı danışmaq üçün az danışmağa məcburdur.

Məsələn, universitetlərdə, orduda və yaxud korpusda təbliğatla və ruhaniyə məxsus işlə məşğul olan şəxs öz dinləyicilərinin düşüncə ehtiyacını məharətlə bilməli, dillə söyləməsələr də, beyinlərində hansı düyünün, çaşqınlığın və sualın olduğunu bilməli və elmi yolla həll etməlidir. Əgər bacarsa, özü həll etsin, bacarmasa, özündən elmli birisinin yanına gedib həllini öyrənsin. Elmin səviyyəsi belə yüksəlir.[471]

**Elm şərtinə diqqət**

Kim harada fəaliyyət göstərirsə, elm, dərs və təhsil işi ilə birbaşa əlaqəsi olmasa da, məsələn, məhkəmə işlərindədirsə, bu məsələlərə diqqət yetirməlidir. Düzdür, məhkəmə işləri elmi işlərdir, lakin təhsil və elmi inkişafla birbaşa əlaqəsi yoxdur. Biri hakimdir, biri İslam hüquqşünasıdır;

---

[470] Mübarək ramazan ayı ərəfəsində məscid imamları, ruhani və təbliğatçılarla görüşdə çıxışından: 1993.
[471] Yenə orada.

diqqətlə işləyib çalışmalı və müxtəlif hadisələr barədə Allahın həqiqi hökmünü tapmalıdır.

Deməli, bu nəsil istər elm, istərsə də təqva və paklıq baxımından sələflərin hörmətini qorumağa borcludur.[472]

**Hövzə tələbələrinin üç vəzifəsi**

Lakin sual budur: Bu gün biz əmmaməlilərin üzərinə düşən vəzifələrin nə olduğunu bilirik, yoxsa yox? Bu çox mühüm məsələdir. Bu gün bu paltarın dünyada malik olduğu əhəmyyətə görə bizim vəzifəmiz nədir? Elm adamları üçün söylənən üç məşhur vəzifə var: Birincisi elmi vəzifədir; yəni alim olmaq, elmli danışmaq. Çünki bu geyim elm geyimidir. İkincisi təqva vəzifəsidir; yəni həqiqətən təqva yoluna qədəm qoymaq, əməlin düzgünlüyü üçün qəti və həqiqi əsasa malik olmaq. Üçüncüsü siyasi ayıqlıqdır; çünki bizim səhvimiz bir nəfərin deyil, sözümüzü dinləyən toplumun səhvidir.

Hövzə tələbəsi yaxşı dərs oxuyub savadlanmağa, müəllim can-başla tədris etməyə, ruhani peşələrindən birində çalışan şəxs öz qərəzsizliyini, tərəfsizliyini və dünyaya etinasızlığını əməldə göstərməyə və hamı söz birliyini qorumağa çalışmalıdır. İxtilaf, ikitirəlik, bir-birinin canına düşmək və sair belə işlər elm adamına yaraşmaz və məsuliyyətləri ağırlaşdırar. Çünki bu, xalqın əhval-ruhiyyəsində təsir buraxır.[473]

**Qeyri-elmi işdə çalışanların vəzifələrindən biri elmi işi davam etdirmək olmalıdır!**

Siz cənablar elm işinizi bitmiş saymayın. Sizin hər biriniz müctəhid də olsaydınız, yenə işləməli idiniz. Ölkənin müxtəlif icra işlərində - istər məhkəmə, istər təbliğat qurumlarında, istər mətbuatda və mədəni işlərdə, istər universitetlərdə, istər xalq arasında, istər məscid və minbərlərdə çalışan din alimləri elmi işi və inkişafı öz vəzifələrindən saymalı, onu tərk etməməlidirlər.[474]

---

[472] Yenə orada.

[473] Təbrizin alim və ruhaniləri ilə görüşdə çıxışından: 1993.

[474] Fiqhin ali-ixtisas (xaric) dərsinin birinci günündəki söhbətlərdən: 1993.

**Mənəvi paklıq olmadan elmin zülmət olması**

Cənablar! Əgər kimsə elmə yiyələnsə, müctəhid olsa, yüksək məqamlara ucalsa, lakin haqqı qəbul etməyə hazır olmasa, nəfsi ona hakim olsa, şəxsi istək və təmayülləri aydın məsələləri ondan gizlətsə, belə bir şəxsin İslam dünyasına nəinki heç bir faydası olmaz, hətta bəzən cahillərdən də zərərli olar. Əgər bir şəxs ən elmli və ən savadlı müctəhid olsa, lakin İslam quruluşunun bu gün müsəlman İranda necə haqlı əsaslar naminə qiyam etdiyini, günah, fəsad və zülmə söykənən cahil quruluşu məhv etdiyini anlayıb görə bilməsə - belə ki, bu gün də böyük şeytan olan ABŞ-dan tutmuş onun köməkçi və mütəffiqlərinə qədər fəsada və günaha əsaslanan bütün quruluşlar və dünyanın bütün azğınları bu quruluşla vuruşurlar – hətta onların səsinə səs versə, onlar üçün yem düzəltsə, onların təhrikinə sevinsə, ən savadlı alim və fəqih olan bu insanın başına kül ələnsin! İslam düşmənlərinin radiolarının təriflərinə ürəkdən sevinən alimin başına kül ələnsin! O ağlamalıdır. Elm və ictihadı çox yüksək səviyyədə olsa da, əslində, elm deyil, cəhalətdir; nur deyil, zülmətdir. Çünki nur olsaydı, əvvəlcə belə şəxslərin özlərini hidayət edərdi.[475]

**Hövzə tələbələrinin tədqiqatda və elmi dərinlikdə ciddiliyi**

Ruhanilərin ciddi şəkildə məşğul olmalarını düşündüyüm məsələlər bu dediklərimdir: Birincisi budur ki, dini bilgilər ruhanilər arasında genişlənməli və dərinləşməlidir. Yəni gənc tələbə və alimlər çox ciddi şəkildə din elmlərini öyrənsinlər. Bu gün elə bir gün deyil ki, biz öz peşə məharətlərimzə, bildiklərimizə və ixtisasımıza güvənmədən mühüm və açar vəzifələri yerinə yetirə bilək. O zaman avam dillə desək, mayasız fətir olar. Bu, bizim hamımızın üzərinə bir vəzifənin düşməsinə bais olmuşdur. O vəzifə budur ki, kim harada olsa, bir addım irəliləsin; bəziləri elmi tədqiqatla, bəziləri Quran, hədis, yaxud dəyərli dini ədəbiyyat üzərində işləməklə, bəziləri də başqa yollarla.

Mən ruhanilərin bir qrupuna deyirdim ki, kimsə Şəhid Mütəhhərinin əsərlərindən onunu seçib əvvəlindən axırına qədər diqqətlə oxusa və

---

[475] Fiqhin ali ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1994.

dərindən öyrənsə, onların din elminin dəyərli bir toplusu olduğunu anlayar. Din elmi yalnız hansısa fiqh kitabından ibarət deyil.[476]

**Mənəvi paklığın nəticəsi**

Əgər elm hövzələrində elmi həvəsin olduğunu, lakin bu həvəsin və elmi işin quruluşun ehtiyaclarını lazımi həddə təmin etmədiyini görsək, yenə də mənəvi paklıq məsələsinə diqqət yetirməliyik. Çünki hövzələrdə əxlaq, mənəvi paklıq və ondan irəli gələn saflıq olsa, oxunan hər bir söz xalqın və cəmiyyətin xeyrinə olmalıdır.[477]

**Ruhaninin iki vəzifəsi: düşüncə və onun izahı**

Cəmiyyətdə ruhanilərin üzərinə iki vəzifə düşür: biri beyin işidir, digəri isə dil işi. Bir cəmiyyətdə bütün mütəfəkkir, alim və ziyalıların işi beyin işidir. Din alimlərinin işi də belədir; düşünüb xalqı hidayət etməli, xalqa yol göstərməlidirlər. Lakin bundan əlavə, din alimlərinin başqa bir işi də var və bu, dil işidir: "Din dörd amillə ayaqda qalır: natiq alimlə..."[478]. Quranda nə qədər "xalqa izah etmən üçün", "bu, xalq üçün bəyandır" kimi sözlər deyilmiş, demək və izah etmək üzərində təkid göstərilmişdir. Bu, din alimlərinin vəzifəsidir.[479]

**Ən çox mənəviyyatın və həqiqətin hövzə tələbələri arasında olması**

Bəzi insanların toplaşdığı və bizim şahidi olduğumuz məclislər arasında mənim üçün bəlkə də bu məclis kimi şirin və gözəl olanı yoxdur. Elm və təhsillə məşğul olan, insaniyyətin islahı və Allahın razılığı yolunda çalışan bir qrup gənc buraya toplaşmışdır. Bu toplantı müxtəlif dəyərlərin bədii, gözəl və möhtəşəm kompozisiyasıdır və mən dəfələrlə demişəm ki, ümumilikdə, ən çox səmimilik, mənəviyyat və həqiqət hövzə tələbələri arasındadır.[480]

---

[476] Mazandaran vilayətinin ruhaniləri ilə görüşdə çıxışından: 1995.

[477] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1994.

[478] "Bihar əl-ənvar", c. 2, səh: 67.

[479] Yenə orada.

[480] Qum Feyziyyə mədrəsəsində iranlı və xarici ruhani və tələbələrlə görüşdə çıxışından: 1995.

**Bügünkü dünyada təbliğat aparmaq üçün elm və tədqiqatın zəruriliyi**

Yenə də bu xüsusiyyətlərə aid olan və siz əzizlərə deməli olduğum məsələ elm öyrənmək və düşüncə silahı ilə silahlanmaq üçün fürsəi qənimət bilməkdir. Bu hövzədə istedadlar hədər getməməlidir.

Mən bir neçə il öncə Sarayevo şəhərinə və keçmiş Yuqoslaviyanın bəzi bölgələrinə degib müsəlmanları yaxından gördüm. Onların yaşayış tərzi tamamilə qeyri-islami, duyğuları isə islami idi. O zaman hələ kommunist rejimi hakimiyyətdə idi, lakin müsəlman bir ölkənin prezidentinin gəldiyini gördükdə küçələrə çıxırdılar və sevincdən gözləri yaşarırdı; onlar iranlı heyətin kişilərinin paltarını, qadınların çadrasını öpürdülər.

Bu duyğu əbədilik deyil. Lakin yaxşı bir təbliğatçı tutarlı bir düşüncə və məntiqlə oraya getsə, onu əbədilik edə bilər. Mənim əzizlərim! Bu işləri kim görəcək? Bu gün dünyanın sizə çox ehtiyacı var. Bizim şəhərlərimiz, kəndlərimiz, universtetlərimiz, xalqımız da belədir. Bu ehtiyacı təmin edəcək yeganə amil elm, tədqiqat və təfəkkürdür.[481]

**Elmi işə həvəs və hövsələ**

Elm adamlarının uğurları elmə, elmi işə həvəs və hövsələyə borcludur.[482]

**Düşüncə cihadı**

Cihadların biri də düşüncə cihadıdır. Düşmənin bizim fikrimizi yayındırması və səhvə salması mümkündür. Xalqın fikrinin aydınlığı yolunda çalışan, yayınmanın qarşısını alan və yanlış anlaşmaya mane olan hər bir kəs düşmənlə qarşı-qarşıya dayandığından fəaliyyəti də cihad sayılır; özü də mühüm bir cihad. Deməli, bu gün ölkəmiz cihad mərkəzidir.[483]

---

[481] Yenə orada.
[482] Ayətullah Musəvi Ərdəbili ilə görüşdə söhbətlərindən: 1995.
[483] “Məhəmməd Rəsulullah” diviziyasının komandirləri ilə gorüşdə çıxışından: 1996.

**Alimlərin ağır məsuliyyət amili**

Bu gün hamının vəzifəsi bir şeydir. Biz bu vəzifə barədə bir qədər düşünməli və üzərində dayanmalıyıq. Güman ki, hər iki firqənin mütəvatir hədislərinə əsasən, Peyğəmbər (s) belə buyurmuşdur: "Alimlər peyğəmbərlərin varisləridir".[484] Yəni onların üzərinə düşən məsuliyyət və əmanət bunların üzərinə düşür; varisliyin mənası budur. Əlbəttə, bu varisliyin əhatəsi daha genişdir. Yəni "siz onların məsuliyyətini öhdənizə götürmüsünüz" - deyiriksə, mütləq onların bəzi vasitə və alətlərinə də malik olmalısınız. Bunların da ən mühümü din elmidir. Odur ki, səhv etməsəm, həmin hədisin davamında deyir: "Peyğəmbərlər dinar və dirhəmi deyil, elmi irs qoyurlar".

Sözsüz ki, elmi kimin üçünsə əbəs yerə qoymurlar. Peyğəmbərlərdən irs çatan elm və bilgi onların üzərinə düşən vəzifəyə görədir. Şübhəsiz ki, bu vəzifə də irslərdən biridir.[485]

**Ruhaniliyin elm və mənəviyyat şərti**

Ruhaniliyin əsas şərti iki amildir: biri elm, biri mənəviyyat. Ruhanilikdə bu iki amil əsas təməllərdir. Bizim ruhaniliyimiz digər dinlərin ruhaniliyi kimi deyil. Oralarda din elmi yalnız dini mətnlərə, səmavi kitaba və onunla bağlı bəzi rəvayətlərə aiddir. İslam isə dünya və axirət dini olduğundan ruhaniliyin elmi də geniş və əhatəlidir. Bir tərəfdən etiqadlara, inanclara, fəlsəfəyə və etiqadi əsaslara, digər tərəfdən də çox geniş və əhatəli dini fəqahətə şamil olur. Bunun söhbəti çox uzun, geniş və dərindir. İslam ruhaniliyində din elmi həqiqi elm, mürəkkəb bilgi və peşəkar əməldir. Bir şərt budur.[486]

**Hövzədə gənc alimlərin vəzifəsi**

Bu gün gənc alimlərə vacib olan iş yaxşı dərs oxumaq, din elmini - yəni fiqhi, kəlamı, təfsiri və əqli elmləri yaxşı öyrənmək, onlar üçün vaxt

---

484 "Əl-Kafi", c. 1, səh: 32.

485 Urmiya müsəllasında ruhanilərlə görüşdə çıxışından: 1996.

486 Ölkənin cümə imamları ilə görüşdə çıxışından: 1996.

ayırmaq, təbliğatı bir sənət növü kimi öyrənmək və təbii ki, saleh sələflərimizin ən böyük yadigarı olan mənəviyyatı, paklığı və ixlası həmişə yadda saxlamaqdır. Bunlar vacib işlərdir. Bütün bunların kənarında dövrün vəziyyətindən, inkişaflardan, düşmən cəbhələrindən, dostların bəzən tanınmayan və çox qiymətli imkanlarından xəbərdar olmaq zəruridir. Siz gənc alimlər bu sahədə həm özünüzü təmin etməli, həm böyüklərə, müəllimlərə, alimlərə, ömürlərini dini araşdırmalarda keçirənlərə kömək etməlisiniz. Çünki siz gəncsiniz və günün məsələləri ilə tanışlığınız daha çoxdur.[487]

**Dini əsaslandırma metodikasını sıradan çıxarmağa çalışanlar**

Bəziləri deyirlər ki, dini elmi üsul və metodlarla öyrənən, əsaslandıran və bəyan edən siz ruhanilər kənara çəkilin, biz gəlib onu metodsuz, üsulsuz, elmsiz və hazırlıqsız ürəyimiz istəyən şəxsə bəyan edək. Siz kənara çəkilin, biz deyək. Ürəkləri belə istəyir. Bunu elm hövzələrində genişləndirib yaymağa çalışırlar da. Bu gün hövzələrin problemlərindən biri budur.[488]

**Universitetlərdə çalışan ruhanilərdə elm və düşüncə qüvvəsi**

Bir xüsusiyyət elm xüsusiyyətidir. Tərəf-müqabilinizin ehtiyacı qədərincə əlidolu getməlisiniz. İnsanın yüksək səviyyədə bacarığı olmayınca, aşağı səviyyədə olanı yüksəldə bilməz. Siz kimi yuxarıya çəkmək istəsəniz, öz sinənizə qədər çəkə bilərsiniz.

Buna əsasən, insan öz səviyyəsini və elmi bacarığını yüksəltməlidir ki, yuxarıya çəkə bilsin. Qarşı tərəfi kiçik görmək, sualını dəyərsiz, ehtiyacını səviyyəsiz və özünü az tələbatlı güman etmək olmaz. Kim tərəf-müqabili ilə belə rəftar etsə, məğlub olacaq, ünsiyyət və təsir işində uğur qazana bilməyəcək.[489]

**Müxtəlif düşüncələrlə tanışlığın zəruriliyi**

---

487 Əhvaz Elm Hövzəsində Xuzistan ruhaniləri ilə görüşdə çıxışından: 1997.

488 Məşhəd Elm Hövzəsinin tələbələri ilə görüşdə çıxışından: 1997.

489 Fəqih rəhbərin universitetlərdəki nümayəndəliklərinin üzvlərilə görüşdə çıxışından: 1997.

Dünyanın müxtəlif düşüncələri ilə tanışlıq hövzələr üçün lazım və zəruri məsələlərdəndir. Bu, baş verməsə, təbliğat üçün istədiyimiz və gördüyümüz işin düzgün yerinə yetiriləcəyinə əmin ola bilmərik. Əgər dinləyicilərimizi tanımasaq, onları əhatə edən düşüncələri tanımasaq, beyinlərində olmayan və onları maraqlandırmayan bir söz deyib əbəs iş görmüş olacağıq. Tərəf-müqabilləri, dinləyiciləri tanımaq və seçmək lazımdır. Bəzi şəxslər müəyyən qruplarla əlaqə yarada bilirlər, başqaları da başqa qruplarla. Tərəf-müqabili seçmək lazımdır. Elm hövzəsinin idarəçiləri bu sahələrdə fəaliyyət göstərməli və proqram hazırlamalıdırlar. Dinləyiciləri, onların suallarını və onlara hakim düşüncələri öyrənmək lazımdır. Bu gün dünyada yeni şübhələr və təzə sözlər ortaya qoyulur. Onların bəziləri elmi, yaxud yarımelmi əsaslara malikdir. Dini təbliğ, dinin fikrini bəyan etmək, başqa sözlə desək, dini müdafiə və ya izah etmək istəyən şəxs dünyadakı yeni düşüncə və sözlərin nə olduğunu bilməlidir. Bizim hövzələrimizə bu tanışlıq vacibdir.[490]

**İslamın gənc mütəfəkkir nəsli**

Bu gün Allaha şükür olsun ki, elm hövzələrində, bəzi universitetlərdə və digər mərkəzlərdə İslam mütəfəkkirlərinin yeni gənc nəsli yetişmişdir. Onlar düşmənin planlarına rəğmən, mətləbləri incələyir, təhlil və izah edirlər. Baş tutmasını istəmədikləri iş baş tutdu və İslam ağacının yeni şaxələri cücərdi. Ona heç bir şey edə bilmirlər. Bu gün düşmənin düşündüyü şübhələrə cavab olaraq yolaçan və həlledici sözlər deyilir. Bu əlaqə beləcə qalacaq.[491]

**Təhsildə məzəmmət olunmuş məqsədlərdən çəkinmək**

Fiqh mövzularına başlamazdan öncə şərafətli "Tühəf əl-üqul" kitabından bir hədis deyək: "Ey Nöman oğlu! Elmi üç məqsədlə öyrənmə!"[492] (İmam Sadiq (ə) buyurur ki,) elmi bu üç məqsəddən ötrü öyrənmə: Biri budur ki, onunla riya etmək, özünü ona-buna göstərib alim

[490] Yenə orada.

[491] Ərdəbil vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2000.

[492] Bu, İmam Sadiqin (ə) Mömin ət-Taqa buyurduğu bir hədisdir: "Tühəf əl-üqul", səh: 313.

olduğunu demək istəyəsən: "Elmi özünü göstərmək üçün öyrənmə!" İkincisi budur ki, elmi fəxr etmək üçün öyrənmə. Güman ki, birinci məqsəd, yəni özünü göstərmək adi xalq arasında "mən aliməm" deməkdir. İkincisi isə alimlər arasında özünü göstərməkdir. Yəni elm öyrənməkdə məqsəd bu olsun ki, alimlərin arasında fəxr edib “bəli, biz də bunu bilirik” desin. Elmi bunun üçün də öyrənmə. Üçüncüsü budur ki, mücadilə və mübahisə etmək üçün elm öyrənmə. Mücadilə sərt mübahisədir. Bu, şərafətli Quranda da var. Merac gecəsinin hadisələrində deyir ki, öz gözü ilə gördüyü məsələ barədə onunla mübahisə və mücadilə edirsiniz?![493] Bu hədisə əsasən, həzrət buyurmuşdur ki, bu üç məqsədlə elm öyrənmə. Əslində elmi bilmək və əməl etmək üçün öyrənmək lazımdır, özünü göstərməkdən, mübahisə və mücadilə etməkdən ötrü yox.[494]

**Elmi tərk etməkdə məzəmmət olunmuş məqsədlər**

“Və onu üç məqsəddən ötrü tərk etmə...”. Bu üç məqsəddən ötrü də elmi buraxma: biri cəhalətə rəğbətdir. Bəziləri bilməmək istəyirlər. Sanki bilməklə və elmlə inadkarlıqları var. Təəccüb etməyin. Dünyada bir sözə də qulaq asmayan, yaxud digərlərini bir söz dinləməkdən də çəkindirən insanlar var. Onlar da bu elmin vücuda gəlməsinə imkan vermək istəmirlər. Bəziləri özləri qulaq asmırlar, bəziləri digərlərini qulaq asmaqdan çəkindirirlər, həmin elmlə tərsliklərinə görə onu öyrənməmələrini istəyirlər. Burada ümumi bir cümlə şəklində buyurur: “cəhalətə rəğbətdən ötrü”. Görəsən burada deyilən elmdə məqsəd imamların sözlərində işlənən elm, yəni din elmi və fiqhdir? Mümkündür. Buna əsasən, cəhalətə rəğbət – yəni bu məsələdə cəhalət, bu elmə nisbətən cəhalətdir. Amma ola bilsin kimsə desin ki, xeyr, burada "əl" artikli bütün elmlərə şamil olduğunu göstərir: elmə cahil olmaq istəyindən ötrü heç bir elmi buraxma. Bəzən insanın marağı və ya vaxtı olmur. Bu başqa məsələdir. Amma burada deyilir ki, elmi onun özü ilə tərslik etməkdən ötrü tərk eləmə.

İkincisi budur ki, elmə zahidlik və rəğbətsizlik səbəbindən onu buraxma. Zahidlik - könülsüzlük və rəğbətsizlik deməkdir. Elmi ona

---

[493] "Nəcm"/12.

[494] Fiqhin ali ixtisas (xaric) dərsindən: 2000.

rəğbətsizlik üzündən tərk etmə. Yəni bir şeyi bilmək sənin üçün o qədər az əhəmiyyətli olmasın ki, ona meylsiz olasan.

Üçüncüsü budur ki, xalqdan utanmağa görə elmi tərk etmə. Bəzi adamlar elm öyrənməyi sanki özlərinə yaraşdırmırlar. Halbuki əgər eşitsələr, otursalar, öyrənsələr, onlara bəzi üstünlüklər bəxş edər. Amma eyni zamanda istəmir, elm öyrənməyə utanırlar. Sanki öz məqamlarını elm öyrənməkdən uca bilirlər.[495]

**Hövzədə ciddi dərs oxumağın zəruriliyi**

Mənim çıxışımın son hissəsi siz əzizlərə tövsiyə və xatırlatmalardır. Birincisi budur ki, əzizlər, dərs oxumağa ciddi yanaşın, proqramda olan qüsurlar sizi dərsdən saxlamasın. Xeyr, nə qədər ki, proqram dəyişməyib, mövcud proqram ciddi şəkildə icra olunmalıdır. Gərək dərs oxuyasınız. Orta pilləni bitirənə qədər mənim tövsiyəm budur. Orta pillədə təhsil alan tələbələr onu bitirməyincə dərsdən başqa heç bir işlə məşğul olmasınlar. Dərs çox ciddidir, çox əhəmiyyətlidir. Elm və savad əsas amildir. Onsuz heç bir rol ifa edə bilməz və ya düzgün ifa edə bilməzsiniz. Səhv rol ifa etmək də kənarda durmaqdan qat-qat ziyanlıdır.[496]

**Elmi və siyasi özünəinam**

Mənim siz əzizlərə digər tövsiyəm budur ki, elmi və siyasi baxımdan özünüzdə tam özünəinam yaradın. Sizin elminiz olduqca dəyərli, bəşər həyatının çoxlu düyünlərini açan elmdir. Sizin siyasi ayıqlığınız, siyasi mövqeyiniz, həmçinin düşüncə ayıqlığı, düşüncə və etiqad mövqeyiniz müxtəlif mühitlərə təsir etməlidir. Gənc tələbə müxalif düşüncə tufanları ilə üzləşdikdə qorxmamalı, vahiməyə düşməməlidir. Özünüzdə bu qüruru, özünəinamı və özünə güvənmə qüdrətini mütləq yaradın. Getməli yollar vardır.[497]

**Tələbənin ilk vəzifəsi**

---

[495] Yenə orada.
[496] Yenə orada.
[497] Yenə orada.

Bizim tələbəmizin ilk vəzifəsi dərs oxumaq və alim olmaqdır. Burada elm sözündə mənim məqsədim hövzə elmidir; yəni fiqh, fəlsəfə, kəlam, üsul, bunlara bağlı olanlar, bunların əsas və müqəddimələri. Mən təkid edirəm ki, elm hövzəsi bizim mədrəsə elmimizlə məşğul olsun. Biz siyasətlə, yaxud ictimai xidmətlərlə məşğul olub mənəviyyat və düşüncə işlərimizdən qalmamalıyıq. Alim olmaq lazımdır. Alim olmağa çalışın və elminizlə cəmiyyəti də alim edin.[498]

**Şəhid Mütəhhərinin kitabları**

Fəlsəfəni, fiqhi, mərhum cənab Mütəhhərinin fikirlərini öyrənin. Mənim fikrimcə, hər bir tələbə üçün vacib işlərdən biri cənab Mütəhhərinin bütün kitablarını əvvəldən axıra qədər diqqətlə oxumaq və müzakirə etməkdir; istər şərh etdiyi fəlsəfə üsullarını – onun şərhi mütləq lazımdır - istər yazdığı digər əsərləri, məsələn, İlahi ədalət, Cəbr və ixtiyar, İslam və zamanın tələbləri və sair kitabları. Hövzənin proqramı sahəsində çalışan cənablar buna şərait yaratsınlar. Bunlar tələbəni inkişaf etdirən amillərdir. Demək istəmirəm ki, cənab Mütəhhərinin bu kitablarda dediyi sözlər yüz faiz nöqsansızdır. Xeyr, siz oxuyun, nöqsanını tapın, şərh yazın, deyin ki, bu söz zəifdir; istər iqtisadiyyatda, istər din maarifində, istər tövhiddə, istər digər məsələlərdə. Cənab Mütəhhəri ibadət adamı idi. Mən onunla yaxından tanış olmuşam və bu xüsusiyyəti görmüşəm. İbadət adamı olmaq insanı pak və şəffaf saxlayır.[499]

**Təəssübkeşlik və Qərbə uyğunlaşma - iki qeyri-elmi yanaşma**

Biz meydanda idik və o zaman aparılan bəzi mübarizələrin elmi olmadığını görürdük. Bu mübarizələr təəssübkeşlik və etiqad üzündən idi; oxumadan, başa düşmədən, nə olduğunu bilmədən bir sözü rədd edirdilər. Geniş bir sözün bir tərəfini özlərinə aid edir, onunla vuruşur və mübarizə aparırdılar. Bu, ehkamçılığı, durğunluğu və qeyri-elmi yanaşmanı yada salırdı. Bir qrup insan da yeni və idxal edilmiş fikirlərin təsiri altına düşüb İslamı, İslam təfəkkürünü bunlara uyğunlaşdırmağa çalışırdı. Dinin

---

[498] Qəzvin şəhərinin alim və hövzə tələbələri ilə görüşdə çıxışından: 2003.

[499] Yenə orada.

boynuna minnət də qoyurdular ki, biz İslamı gənclərin bəyəndiyi və xalq tərəfindən qəbul edilən vəziyyətə gətirmişik. Bəzən aşdan isti kasaya dönüb bu fikirlərin sahiblərindən bir neçə addım da irəliyə gedirdilər. Qorxurdular ki, olmaya irticaçılıqda-filanda ittiham edilsinlər. Biz bəzi yerlərdə bunu da gördük. Onlar nübüvvəti, tövhidi, məadı, imamət, fiqh, İslamın siyasi və ictimai məsələlərini İslama yad məktəblərdə, bəzən ateizmdəki oxşarlarına sarı çəkir və minnət də qoyurdular ki, biz İslamı hamıya sevdirdik, qəbul etdirdik və s. Bu da başqa bir yayınma idi. Bunların hər ikisi yayınmadır.[500]

**Ayıq və təqvalı ruhanilərin elmi inkişafda rolu**

Mənəviyyat, dəyər və din çırağını yanar saxlamaq üçün işə girişən sizlər olmasanız, bütün bu inkişaflar dəyərsiz olar və hətta antidəyərə çevrilər. Elm hövzələrinin əhəmiyyəti burada bəlli olur. Bu baxışa görə sizin işiniz bütün işlərdən əhəmiyyətlidir. İnkişaf halında olan bir cəmiyyətdə elmli, aydın baxışlı, aydın düşüncəli, qorxmaz, mömin, ismətli, geniş məlumatlı və ilahi qorxusu olan bir təbəqənin olması bu inkişafların azğınlıq, sapqınlıq istiqamətində və tarixi prosesdə süqut məqsədilə işlədilməyəcəyini müjdələyir. Dini elmlər üzrə təhsil alan siz gənclərin rolu budur. Bunun qədrini bilin. Bu çox əhəmiyyətlidir.

Mənəviyyat, təqva, dəyər və dini hidayətlə yanaşı olan sivilizasiya, elm və maddi inkişaf dünyanın təcrübə etmədiyi bir şeydir. Biz dünyanın ən inkişaf etmişləri cərgəsinin başında duracağıq. Görürsünüz ruhanilərin və siz gənclərin rolu nə qədər həssasdır?![501]

**Hövzə tələbələrinin tədqiqatçı səviyyəsinə qədərki təhsildə ciddiliyi**

Bizim cəmiyyətimizdə din elminə, din məntiqinə və əsaslandırmasına malik olan, fəlsəfədə, kəlamda, yeni fəlsəfədə işləyən və şübhə yayanlarla diskussiya aparan yüzlərlə şəxsiyyət olsa, görün

---

[500] "Pak hikmət" konfransının təşkilatçıları ilə görüşdə çıxışından: 2004.

[501] Ayətullah Müctəhidi adına elmi mədrəsənin tələbə və müəllimləri ilə görüşdə çıxışından: 2004.

cəmiyyətdə hansı böyük hadisə baş verər! Həmin qrup tərəfindən dünya səviyyəsində müxtəlif dillərdə minlərlə elmi kitab, jurnal və məqalə nəşr olunsa, görün dünyanın bu nöqtəsindən bütün düşüncə mühitinə hansı işıqlı günəş saçar! Bunların hamısı mümkündür, xəyal deyil. Bunların puç və mənasız arzular olduğunu güman etməyin. Xeyr, bunlar əlçatan reallıqlardır. Lakin əli uzatmaq, özünü bu həqiqətə çatdırmaq və onu tutmaq lazımdır. Bunun üçün iradə olmalıdır. Gərək ciddi şəkildə dərs oxuyasınız. Mənim tələbə gənclərə həmişəki tövsiyəm budur. Bu gün elm hövzələrinin ixtiyarında olan elmləri öyrənin və özünüzü dərin tədqiqat həddinə çatdırın. İnsan başdansovdu işlərlə tədqiqatçı, fəqih və filosof olmur. Gərək bu təməlin hər bir kərpicini möhkəm şəkildə bir-birinin üzərinə düzüb zirvəyə çatasınız.[502]

**Hövzənin bugünkü inkişaf etmiş nəsli – din elmindən gözlənilənlərin təminatçısı**

Elm hövzəsinin - istər mübarək Qum hövzəsinin, istər Məşhəd və İsfahan hövzələri kimi digər böyük hövzələrin nailiyyətləri barədə çox danışılmış, bu barədə müjdələr verilmişdir və verilir.

Bu gün hövzələrdə inkişaf etməkdə olan nəsil şübhəsiz, bizim dini elm mərkəzindən gözlədiyimiz böyük işləri görə biləcək. Bu şərtlə ki, bu hərəkət dayanmasın, günbəgün təkmilləşsin və inkişaf etsin.[503]

**Keçmişdə böyüklərin yüksək elmi dözümlülüyünə nümunə**

Mərhum Hədaiq sahibi ilə mərhum Vəhid Bəhbəhani bir-birinə müxalif idilər. Hər ikisi eyni zamanda Kərbəlada yaşayırdı, birgə elmi mübahisələr də edirdi. Bir gecə onlar şəhidlər ağası İmam Hüseynin (ə) pak məqbərəsində bir məsələ üstündə mübahisəyə başladılar. Bu iki ruhani sübh azanına qədər ayaq üstə mübahisə etdilər. Vəhid Bəhbəhani o zaman nisbətən gənc idi, lakin Hədaiq sahibi qoca kişi idi. Onlar bir-biri ilə mübahisə də edirdilər, amma hər ikisi bir idilər, hər ikisi tədris edirdilər. Mən eşitdim ki, Vəhidin şagirdləri - Vəhid əxbarilərin qatı əleyhdarı idi -

---

[502] Yenə orada.

[503] Yenə orada.

olan Riyaz sahibi və digərləri gedib Hədaiq sahibinin dərsində də iştirak edirdilər. Belə olmuşdur. Biz hövzədə dözümlülük səviyyəsini yüksəltməliyik. Bəli, birinin fəlsəfi zövqü var, birinin irfan zövqü var, birinin fiqh zövqü. Ola bilsin bir-birlərini qəbul etməsinlər.

Mən bir neçə ay öncə Məşhəddə dedim ki, mərhum ağa Şeyx Müctəba Qəzvini uca hikmət fəlsəfəsinə, Molla Sədranın üslubuna qarşı idi. O bu məsələdə olduqca kəskin və sərt idi. İmam isə Molla Sədra məktəbinin xülasəsidir. Təkcə fəlsəfi sahədə yox, irfanda da belədir. Amma mərhum ağa Şeyx Müctəba imamı nəinki qəbul, hətta təbliğ də edirdi; ömrünün sonuna qədər imamı təbliğ etdi. O, imamı görmək üçün Məşhəddən Quma gəldi.

Mərhum ağa Mirzə Cavad Tehrani Məşhəddə həmin məktəbin görkəmli nümayəndələrindən idi, imamın televiziyadan yayımlanan təfsir dərsinə etiraz etmişdi, amma cəbhəyə getdi. Mənim özümə dedi. Həm o, həm mərhum ağa Mirvarid belə idilər, amma müdafiə də edirdilər. Üslub və məktəb baxımından müxalif, lakin siyasi, ictimai və dostluq baxımından bir idilər, bir-birinə dözürdülər. Qumda belə olmaq lazımdır.[504]

**Birliyi qorumaqdan ötrü aşkar mücadilənin yerinə elmi mübahisə aparmaq**

İslam ümmətindən olan qardaşlar bir-birinin hörmətini saxlasınlar. Öz etiqadlarını qorusunlar, lakin digərlərinin hörmətini, hüququnu, onların düşüncə və etiqadlarının hörmətini saxlasınlar, mübahisə və diskussiyanı elmi məclislərə həvalə etsinlər. Alim və mütəxəssislər istəsələr, elmi məclisdə oturub məzhəb mübahisələri etsinlər. Ümumi yerdə, elmi incələmə və təhlil qabiliyyəti olmayanlarla mübahisə etmək isə bir-birini yamanlamaqdan fərqli bir şeydir. Alimlər və məmurlar bunu idarə etsinlər. Bu barədə bütün müsəlman qrupların üzərinə vəzifə düşür.[505]

---

[504] Yenə orada.

[505] Yenə orada.

## Hövzələrdə digər İslam elmlərinə diqqətin zəruriliyi

Bizim hövzəmizdə Quran təcrid olunmuşdur; məsələn, Quran elmi, Qurana aid məsələlər. Keçmiş alimlərimiz bu gün Quran elmləri adı altında tanınan elmə dair çoxlu kitablar yazmışlar və indi də xoşbəxtlikdən, bəziləri bu elmlə məşğul olurlar. Müstəqil bir elm olan təfsir də, hədislə tanışlıq, hədis elmi də belədir. Bu elmə dərindən yiyələnmək yaxşı təsnifat və istifadələrlə nəticələnir. Təəssüf ki, biz indi bunların hamısından məhrumuq. İş və tədqiqatın lazım olduğu rical elmi də belədir. Yaxşı kitablar yazılsa da, rical elmində böyük boşluq hiss olunur. Biz rical rəvayətçilərini tanımaqla sünnə sahəsində özümüzə elmi əsas formalaşdırmaq istəyirik. Bunun üzərində işləmək lazımdır. Həmçinin tarix də çox əhəmiyyətlidir, ondan hətta fiqhdə də istifadə etmək olar. Bir çox fiqh məsələləri tarixlə əlaqədardır, lakin biz buna az diqqət yetirmiş və hətta bunu kəşf etməmişik. Əlbəttə, mən burada tarixi müstəqil elm kimi nəzərdə tuturam. Bu bir İslam elmidir. Kimlərsə tarixdə işləməlidirlər.[506]

## Yeni dərs kitabları yazmağın zəruriliyi

Qum Elm Hövzəsinin və digər elm hövzələrinin problemlərindən biri dərs vəsaitləri ilə əlaqədardır. Dərs kitablarından danışan kimi deyirlər ki, hansısa böyük alim də həmin kitabları oxuyub; daha inqilabçı olanlar deyirlər ki, imam həmin dərsləri oxuyub imam oldu. İmam doğrudanmı həmin dərsləri oxuduğuna görə imam oldu?! İmam xüsusi bir gövhər idi. Sizin imamda müşahidə etdiyiniz böyüklük bu dərs kitablarını oxumaqdan irəli gəlmir. Bundan əlavə, mərhum imamın bu kitabları oxuduğu dövrlə indiki dövr arasında 60-70 il zaman fərqi vardır.

Yeni dərs kitabı hazırlayın. Nə eybi var ki, bir qrup oturub yeni dərs kitabı yazsın?! Deyirlər ki, biz Şəhid Sani olmarıq. Şəhid Sani olmazsınız, amma bizim bugünkü fəqihlərimizin bir çoxu keçmiş fəqihlərdən elmlidirlər. Mən demirəm ki, elmi dərəcələri və istedadları onlardan çoxdur. Bəlkə də onların dövründə olsaydılar, onlar kimi ola bilməzdilər,

[506] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1991.

amma onların çoxunun fiqhi dərk səviyyəsi bizim keçmiş fəqihlərimizin çoxundan yüksəkdir. Nə üçün olmaz?! Üsul kitabı hazırlayın, fiqh kitabı hazırlayın, müxtəlif səviyyələr üçün dərsliklər yazın, dərs vəsaitlərini dəyişdirin.[507]

**Hövzənin dərs vəsaitində yenilik**

Həqiqətən xətrini çox istədiyimiz əziz dostlarımızdan biri mənə deyirdi ki, hövzədə plastik məhsul düzəltmək olmaz; Mütəvvəl, sonra Məalim, sonra Qəvanin, sonra Lüməni şərhi ilə birgə əvvəldən axıra qədər oxumaq lazımdır. Mən ona dedim ki, mən demirəm plastik məhsul düzəldin; mən deyirəm ki, bu gün dünyada dəmirdən də bərk olan məhsuldan kağızdan da nazik bir səhifə düzəldirlər, bunu edin.

Yenilik etməliyik. Məgər belə böyük və bu qədər istedadlı bir toplumun dərs vəsaitində yeniliyi olmaya bilər?! Fərdi işin nəticəsi olmur, kollektiv işlər görülməlidir.[508]

**Hövzə dissertasiyası barədə**

Biri Təhsil müavinliyidir. O, proqram altında olan mədrəsələri və ixtisas institutlarını idarə etməli, təhsil üçün proqram və dərs vəsaiti hazırlamalı, dissertasiya şəhadətnaməsi verməli, tələbələrdən dissertasiya yazmalarını istəməlidir. Siz cənablar nə üçün dissertasiya yazmırsınız? Bir tələbə bir pillədə dörd-beş il təhsil alır, sonra ona bir mövzu verirlər, müəllim ona elmi rəhbərlik edir və bir elmi iş ərsəyə gəlir. Bu çox yaxşıdır. İndi bizim hövzə tələbələrimiz beş, altı, on il ali-ixtisas (xaric) dərslərinə getdikdən sonra bir elmi rəhbər götürsünlər, onlara bir fiqh mövzusu verib desinlər ki, işləyin. Görün bu yolla nə qədər mövzular həll olunacaq. Universitetlərin mənim maraqlandığım mövzularda yazılan bəzi dissertasiyalarını mənə gətirirlər, görürəm ki, çox yaxşıdır və bu gənclər yaxşı işləyirlər. Hövzə gənclərinin istedadı onlardan çox olmasa da, az

---

[507] Həzrət Mehdinin (ə) doğum gününün ildönümündə Qum Elm Hövzəsinin alim, müəllim və tələbələri ilə görüşdə çıxışından: 1992.

[508] Yenə orada.

deyil. Allaha şükür olsun ki, zəhmətkeşlikləri və tədqiqata həvəsləri də yüksəkdir.[509]

### Hövzədə müxtəlif İslam elmlərinə diqqətin zəruriliyi

Mənim fikrim budur ki, biz bayırdan nəyin lazım olduğuna və sonra onu hövzədə necə və hansı proqramla yaratmağın mümkünlüyünə baxmalıyıq. Əvvəla, bizim yalnız fiqh və üsul elminə ehtiyacımız yoxdur; baxmayaraq ki, fiqh və üsul hövzənin gördüyü ən əsaslı işdir. Nə üçün? Çünki cəmiyyət İslam şəriəti ilə idarə olunur, İslam şəriəti də fiqhlə əldə edilir və üsul elmi onun müqəddiməsidir. Bizim bütün müqəddimələri ilə - üsul, ədəbiyyat və lazım olan digər elmlərlə birgə olan fiqhə ehtiyacımız var. Hədis də lazımdır. Biz ilahi hikməti Quran və hədisdən öyrənməliyik. Deməli, hədis önəmli bir şərtdir, həm də çox genişdir, Quranın təfsirçisidir və lazımdır. Təfsir, Quran elmləri, Quran hermenevtikası, Quran, hikmət və kəlamla tanışlıq lazımdır. Hikmət və kəlam da bugünkü mental, praktik və siyasi sistemin əsas bünövrəsinin təminatçısı kimidir.

Əlbəttə, hikmət və kəlamda həmişə bizim kitablarımızda mövcud olan klassik mövzuları işləməməliyik. Əsas və təməl mövzuların kənarında dünyada elm və fəlsəfə inkişafının meydana çıxardığı mövzularla da məşğul olmalıyıq. Qərb fəlsəfəsinin yenilik və inkişafları olmuşdur. Qərb təfəkkürü getdiyi yolları son yüz ildə getmişdir. Yeni yollar peyda olmuşdur. Marksizm Qərb təfəkkürü və fəlsəfəsində mühüm bir dönəm idi. Ondan sonra yeni təfəkkürlər meydana çıxmışdır. Bəziləri onun əks istiqamətindədir, bəziləri isə tamamilə əks olmasa da, müxalif istiqamətdədir.[510]

### İslam fəlsəfəsinə ehtiyac və hövzənin Qərb fəlsəfəsi ilə tanışlığının zəruriliyi

Bir alim və mütəfəkkir İslam fəlsəfəsindən xəbərsiz halda oraya gedib hansısa Qərb mütəfəkkirinin, yaxud filosofunun sözlərini öyrənir və gəlir. Hər bir məktəbdə hər halda üç-dörd məntiqli söz və ondan da artıq buna

---

509 Yenə orada.

510 Fiqhin ali-ixtisas (xaric) dərsinin birinci günündəki söhbətlərdən: 1993.

bənzər söz vardır. Bunları gətirib bizim düşüncə mühitimizdə yayır, gənclərimizin müdafiəsiz və silahsız beyni də bütünlüklə qəbul edir.

Materialist və Allaha etiqadsız bir düşüncə ilə ilahi və fiqhə söykənən bir quruluş qurmaq mümkündürmü?! İslam həyatını istəyirsinizsə, ilahi düşüncəniz olmalıdır. Burada bizim fəlsəfəmiz təşəbbüsü ələ almalı, beyinləri silahlandırmalı, suallara cavab verməli və hətta sual irəli sürməlidir. Bizim fəlsəfəçi mütəfəkkirlərimiz, elm hövzəmizin fəlsəfə və kəlam ixtisasında təhsil alan tələbələr Qərb mütəfəkkirlərinin sözlərini, yeni fikirlərini öyrənməli, onların nə dediyini, sözlərinin nə olduğunu bilməlidirlər. Hövzədə elmi səfərlər təşkil etmək və çoxlu işlər görmək lazımdır.[511]

**Hövzənin dörd əsas fənni üzrə mütəxəssis yetişdirmək**

Fiqh, hədis, təfsir və hikmət! Düzdür, bunların kənarında digər elmlər də var və onlardan istifadə olunur; qeyri-əsas elmlər də var. Məsələn, bu gün bəzi mədrəsələrdə xarici dillər, humanitar elmlər üzrə bəzi fənlər - psixologiya, sosiologiya, hətta dəqiq elmlər, məsələn, riyaziyyat oxuyurlar, astronomiya oxuyurlar. Bunların eybi yoxdur. Bunların olması yaxşıdır, lakin o dörd fənn üçün peşəkar alim və mütəxəsisslər lazımdır.[512]

**Dini əsaslandırma elmi bir metoddur!**

Fəqahət bir tədqiqat metodudur, elmdir. Bu elmi öyrənmək lazımdır. Dini öyrənmək, araşdırmaq üçün hamıya yol açıqdır, lakin dini araşdırmanın bir elmi metodu var və bu, avam işi deyil; kim necə gəldi Quran və sünnədən nəticə çıxara edə bilməz. Ruhaniliyin əsas elmi fiqhdir. Əlbəttə, İslam fəlsəfəsi və irfanı da var və hər ikisi fəqahətin geniş mənasının daxilindədir.[513]

**Hövzə elmlərini asanlaşdırmaq**

---

[511] Yenə orada.

[512] Yenə orada.

[513] Şagird və tələbələrlə görüşdə çıxışından: 1995.

Hövzənin keyfiyyətini artırmaq lazımdır ki, əvvəla, hövzə təhsili asanlaşsın. Çünki müasir dövr sürət və asanlıq dövrüdür. Siz görürsünüz ki, savadsız bir adam təhsilə başlayır, bir neçə il ötdükdən sonra bir mütəxəssisə çevrilib işə başlayır; həkim, mühəndis, yaxud humanitar və ya texniki elmlər üzrə ekspert olur. Elmsiz bir insan qısa müddət ərzində bir mərhələni keçirib bir yerə çatır. Yəni indi elə dövrdür ki, insanlar öz məqsədlərindən ötrü uzun illər gözləyə bilməzlər. İndi kompüter dövrüdür, işlər asanlıqla və sürətlə görülür.[514]

**Hövzədə yeni təhsil vasitələrindən istifadə**

Mən bəzi dostlara dedim ki, az müddətdən, məsələn, bir neçə ildən sonra kompüter insan həyatında bugünkü oxumaq və yazmaq savadı kimi özünə yer açacaq. Bu gün kiminsə oxumaq və yazmaq savadı olmadıqda tamamilə geri qaldığı kimi, bir qədər ötdükdən sonra kimsə kompüterlə işləyə bilməsə, həmin həddə geri qalacaq. Bizim yoldaşlarımız ulaqla hərəkət etsələr, biz də onların kənarında piyada yeriyə bilərik, uzaqbaşı bir qədər geri qalacağıq. Amma onlar avtomobillə, biz isə piyada, yaxud ulaqla hərəkət etsək, çox geri qalacağıq. Hər halda, sürətlə hərəkət etmək üçün bir vasitə tapmağa məcburuq.

Bu məsələnin bizim dərs və elmlərimizin mahiyyətinə heç bir aidiyyəti yoxdur, məzmun və mahiyyət öz halında qalır, biz yalnız vasitələri dəyişdiririk. Bu gün kimsə Tehrandan Quma getmək istəyəndə bir qatır, yaxud dəvə götürüb gedə bilməz. Avtobus var; minir və iki saata çatır. Nə üçün özünü gecikdirməlidir?! Bunun üçün məzmunları dəyişdirməyə lüzum yoxdur ki, kimsə "ağa, hövzə əldən çıxdı", yaxud "bizim elmlərimiz əldən çıxdı", yaxud "xalq savadsız oldu" - desin. Xeyr, həmin elm, həmin savad, bilgi və məlumat var, lakin keçmişdə onlardan fərqli şəkildə istifadə edirdilər. İndi dünyada hər şey inkişaf etmişdir və bu inkişaflardan istifadə etmək lazımdır. Əgər istifadə etməsək, geri qalacağıq.[515]

---

[514] Qum Elm Hövzəsinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

[515] Yenə orada.

**Tədris və təhsil metodlarında inkişaf**

İnkişaflardan biri də təhsil və tədris metodlarına və elmlərin təsnifatına aiddir. Bunlar dünyada inkişaf etmişdir. Bu gün dünyada bütün sahələr belə inkişaf edir. Biz bu yollardan istifadə etməsək, sanki çap sənayesindən, avtomobildən, yaxud mikrofondan istifadə etmirik. İndi kimsə mikrofondan istifadə etməyə bilər?! Çoxlu şagirdi olan bir müəllimin mikrofondan istifadə etməsi təbiidir. Təşkilati məsələlərdə, tədris və təhsil metodlarında və bu tip işlərdə elmi inkişaflardan istifadə də belədir. Əgər işə bu baxışla başlasaq, məncə hövzənin işi çətin olmaz.[516]

**Ən şərafətli elm**

Hər bir elm dəyərli, böyük məqsədlərə malik olan elmlər isə daha dəyərlidir. Dəyərdə heç bir elm məqsədi insanların xilasından, hidayətindən, sapqın insanların qaranlıq beyinlərinə və həyatlarına işıq saçmaqdan ibarət olan elmə çatmaz.[517]

**Mütərəqqi tədris metodlarından istifadə**

Baxın, dediyimiz bu üslublar yalnız vasitədir. Deməli, ən mütərəqqi üslublardan istifadə edib tədqiqat və təbliğata lazım olan dərsləri keçmək olar. Hövzənin icbari dərslərindən olmasa da, təbliğata lazım olan dərslər var; məsələn, xarici dil. Fərz edin dünyada 5, 6, yaxud 7 mühüm dil var, bunları bilməsək, işimiz alınmaz: ingilis, urdu, ərəb və digər dillər. Kimsə bu dilləri bilməsə, təbliğat sarıdan əlibağlı olar. Bunları əksər, yaxud bütün tələbələrə öyrətsinlər; həm təbliğat, həm də dünyada mövcud elmi mətnlərdən istifadə etmək üçün.[518]

**İnsanların ehtiyacını aradan qaldırmaq üçün elmə həvəsləndirmə**

Elmə həvəsləndirmək, əsasən, onun ehtiyaclı insanlara çatdırılmasından ötrüdür. Bəllidir ki, İslam təlimlərində təkid göstərilən

---

[516] Yenə orada.
[517] Məşhəd Elm Hövzəsinin tələbələri ilə görüşdə çıxışından: 1997.
[518] Qum Elm Hövzəsinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1997.

elm tövhid elmi və dini bilgilərdir. Onu təbliğ, ona əməl etmək çox əhəmiyyətli, onu əldə etmək çox dəyərlidir.[519]

**Elm hövzəsi - dini ixtisasın yeganə mərkəzi**

Şübhəsiz, bu elm və tədqiqatların mərkəzi elm hövzələridir. Bu o demək deyil ki, elm hövzələrindən kənarda olanların İslam məsələləri barədə düşünməyə haqları çatmır. Söhbət haqdan getmir. Söhbət bundan gedir ki, bu tədqiqatlara zəruri imkan və hazırlıqlar elm hövzələrindən başqa yerlərdə yoxdur. Həkim olmağa hər kəsin haqqı çatır, lakin bunun üçün tibb institutuna girmək lazımdır. Biz müəllimin, elmin, laboratoriyanın və mütəxəssisin olmadığı yerdə elm axtara bilmərik. Dini dərk, dini ixtisaslara yiyələnmə yeri də elm hövzələridir. Düzdür, hər bir kəsin müəyyən məlumatının olması mümkündür, lakin mütəxəssis olmaq üçün elm hövzələrinə və elmi mütəxəssislərin yanına getmək, onlardan öyrənmək lazımdır.[520]

**Hövzənin İslam elmlərində elmi-ixtisas təhsilinin əhəmiyyəti**

Elm hövzəsi cavabdeh olmalıdır. Bu gün elm hövzələrinin əhəmiyyəti yalnız buna görə deyil ki, dini təbliğ edə bilərlər və etməlidirlər. Sözsüz ki, bu, mühüm və ümdə vəzifələrdən biridir. Lakin təbliğatdan daha əhəmiyyətli, yaxud ən azı onun qədər əhəmiyyətli olan elmi ixtisasın, dini əsas və təlimlərin təhsilidir; istər fiqh, istər fəlsəfə, istər növbəti mərhələdə digər elmlər. Odur ki, hövzələrin, din alimlərinin, din müəllimlərinin və din təhsilinin əhəmiyyəti böyükdür.[521]

**Hövzələrdə əsas elmlərin prioritet olması**

Hövzələrdə hansı mövzuların əsas sayılması barədə dəfələrlə danışmışıq, indi də deyirik: Elm hövzələrində əsas fənlərin birincisi fiqhdir, ikincisi kəlam, üçüncüsü fəlsəfə. Fiqh - elm hövzələrinin fəqərə sütunu, kəlam - elm hövzələrinin təməllərindən biri və fəlsəfə - elm hövzələrinin

---

[519] Fəqih rəhbərin universitetlərdəki nümayəndəliklərinin üzvlərilə görüşdə çıxışından: 8 1997.

[520] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söbhətlərdən: 1999.

[521] Yenə orada.

qəti ehtiyaclarındandır. Yaxşı və işgüzar müəllimlər, həvəskar və araşdırıcı tələbələr bu üç elmi öyrənməlidirlər. Hövzələr bu sahədə aktiv, dinamik və həvəslə hərəkət etməlidirlər. Eyni zamanda bunlarla kifayətlənmək olmaz. Bunlar əsas fənlərdir. Bunların kənarında digər lazımlı elmlər də var. Təfsirlə tanış olmaq lazımdır. Fiqhin kənarında lazımi müqəddimə kimi üsul elmi öz yerində qalmalıdır. Kitab və sünnəni anlamaq üçün hazırlıq sayılan müxtəlif elmlərlə, məsələn, hədis, rical və digər elmlərlə tanış olmaq lazımdır. Bunlardan əlavə, din təbliğatı fənnini də öyrənmək lazımdır.[522]

**Təhsilin kənarında tədqiqat**

Əlbəttə, bu işləri işinizin kənarında görməlisiniz. Tələbələr belə tədqiqat işləri ilə yanaşı dərsi və hövzənin əsas elmi ehtiyatlarını tərk etməməlidirlər. Gözlənilən budur ki, təhsil olsun, kənarında bunlar da olsun. Bunların hər ikisi bir-birinə kömək edirlər; həm tədqiqat təhsilə kömək edir, həm də təhsil tədqiqata. Siz (Höccətül-İslam Seyid Hadi Rəfii) söylədiniz ki, bəzi cənablar çox əhəmiyyətli yanaşırlar. Belə xüsusiyyətlər elmi cəhətdən diqqətlə araşdıran şəxslərdə görünür. Bilikliliyin qayəsi təhsildən irəli gələn tədqiqat ruhudur. Odur ki, cənablar dərsi davam etdirməlidirlər. Əlbəttə, bir tələbə kiminsə dərsinə getməyə ehtiyac duymaya bilər. Çox gözəl, tədqiqatla məşğul olsun.[523]

**Hövzənin dərs kitablarını dəyişdirməyin zəruriliyi**

Natiqlər dərs vəsaiti barədə danışdılar. Tamamilə doğrudur. İndi zamanı yadımda deyil, amma mən Quma səfərlərin birində... Bəli, qardaşların biri dedi ki, on ildir. Bilmirəm. Mən elə bilirdim üç-dörd il bundan əvvəl olub. Mən Qumda alimlərlə iclasda dərs kitablarının dəyişdirilməsindən danışdım, dərhal etirazlar ucaldı. Əlbəttə, bilirdim ki, bəziləri buna qarşı çıxacaqlar. Amma dərs kitablarının dəyişilməsi lazımdır, mütləq dəyişilməlidir, bunda heç bir şübhə yoxdur.

---

[522] Yenə orada.
[523] İmam Hadi (ə) müəssisəsinin üzvləri ilə görüşdə çıxışından: 2001.

Bir qardaşımızın burada toxunduğu dəlili qeyd etdim. Çox güclü dəlildir. Əgər dərs kitablarını dəyişdirmək pis olsaydı, gərək Məalim kitabını oxuyaydıq, daha Qəvanin, Rəsail, Füsul və Kifayə nə üçün yazıldı? Bəli, bu düzgündür, indi də belədir.

İndi də dərs kitabı mütləq dəyişdirilməlidir. Çalışmaq lazımdır ki, tələbənin diqqəti məsələni başa düşməyə yönəlsin, mətnin mənasını anlamağa yox. Bu, hünər deyil ki, biz mətni anlaşılmaz edək, yaxud anlaşılan olmasına kömək etməyək, mətn dolaşıq qalsın və tələbənin çoxlu vaxtını tutsun. Bunun harası hünərdir, harası yaxşıdır, bunda hansı fayda var?! Yox, mətni elə aydın edək ki, məsələni anlamağa istedadı olan onun üzündən asanlıqla anlasın. Müəllim də mətni başa salmağa çətinlik çəkməsin və təkcə məzmunu bəyan etsin.

Kifayəni yeni Kifayəyə çevirək. Nə eybi var?! Məkasib kitabında mətləbləri bəyan edərkən şeyxin üslubu daim ictihadi çək-çevir etməkdir. Çünki bu kitab Şeyx Ənsarinin xaric (ali ixtisas) dərsidir. Məkasib elə-belə kitab deyil. Kim Şeyx Ənsari kimidir?! Bu qədər məkasib yazıblar, lakin onun xaric dərsi yazılı formaya salınmışdır. Şeyxin xaric dərsində oturan adam üçün yaxşıdır, mətləbi daim bu tərəfə çəkir, o tərəfə çəkir, ehtimal irəli sürür. Lakin fiqhi əsaslandırılmış mətn üzündən öyrənmək istəyən üçün yaxşı deyil, tələbə çətinliyə düşür. Bunu asanlaşdırsınlar. Şeyxin həmin mətləblərini başqa bir kitabda, lakin səlis və aydın şəkildə yazsınlar. Şeyxin hər bir məsələdə olan tədqiqatını gözəl surətdə bəyan etsinlər. Amma diqqətli olsunlar ki, onun dediyi olsun, yeni kitabda həmin sözü yazsınlar. Bu olacaq yeni Məkasib. Bu, vacib işdir. Mənim fikrim budur. Ola bilsin hövzənin məsul şəxsləri, müdirləri və bəzi görkəmli insanlar qəbul etməsinlər və bu iş baş tutmasın. Amma bir gün, şübhəsiz, baş tutacaq.[524]

---

[524] Yenə orada.

## Beşinci fəsil: Tədqiqat

### Hövzənin tədqiqat mərkəzlərinin missiyası

Hövzənin çoxlu tədqiqat mərkəzi olmalıdır ki, bütün bu sahələrdə bir istehsalçı kimi daim və modern formada işləsin, məhsul versin. Əgər rejim üçün bir məsələdə sual yaransa, məsələn, torpaq və musiqi məsələsində, daha geniş bir çərçivədə iqtisadi sistemdə, xarici münasibətlərdə, digər xalqlarla əlaqədə, valyuta məsələlərində, dövlət məmurlarının dəyərləndirilməsində və hər bir rejimin həmişə əsaslı şəkildə üzləşdiyi bu tip yüzlərlə məsələdə biz hansı əsasla qanun qəbul edək, hansı əsasla idarə qaydaları tənzimləyək və işləyək? Bir mərkəz belə suallara cavab verməlidir.[525]

### Tədqiqat - hövzədən gözlənilən işlərdən biri

Biz ölkəmizin İslam dünyasındakı mövqeyinə baxdıqda hövzədən beş əsas iş gözləyə bilərik. Hövzənin özü həyatda qalması üçün o beş işdən təxminən üçünə ehtiyaclıdır, iki işə də hövzədən kənarda ehtiyac var. Əlbəttə, bizim apardığımız bu bölgü kompleks deyil.

Birinci iş təqlid müctəhidliyindən və fətva verməkdən ibarətdir. Xalq həmişə təqlid müctəhidinə və müftiyə ehtiyaclıdır, onu yetişdirmək və işi də hövzənin üzərinə düşür. İkinci iş müəllim yetişdirməkdir. Hövzənin təbii ki, özündə yetişməli olan müəllimlərə ehtiyacı var. Üçüncü iş elmi məsələləri araşdırmaq və yazmaqdır; istər bayırdan hövzəyə təklif olunan, istərsə də hövzənin özünə aid mövzularda. Həmçinin kitab yazan tədqiqatçı və müəlliflərə ehtiyacı var; həm hövzədən kənardakılar üçün lazım olan, həm fiqh mövzularında yeni tədqiqatları ehtiva edən və yeni əsaslandırma metodunu bəyan edən kitabları - imam bu müraciətdə və qabaqkı müraciətlərin birində ona toxundu – həm də dərs vəsaitini.

Bu üç iş daha çox hövzənin daxilinə, o biri iki iş isə xaricinə aiddir. Dördüncüsü məhkəmə, beşincisi isə təbliğatdır.[526]

---

[525] Qum Elm Hövzəsinin tələbə və müəllimlərinin nümayəndələri ilə görüşdə çıxışından: 1989.

[526] Yenə orada.

**Yeni üsullarla fiqhi daha dərindən mənimsəmək**

Fiqh və fəqahət hövzələrdə inkişaf etməlidir. Bu inkişaf həm dərinlik baxımından, həm genişlik və həyat məsələlərini əhatə etməsi baxımından olmalıdır. Fiqh dərinləşməli, indikindən dərin olmalıdır; necə ki, siz Əllamə Hillinin dövründəki fiqhin Şeyx Tusinin dövründəki fiqhdən dərin olduğunu, yəni müxtəlif fikir və nəzərlərlə üzləşdiyini, zaman ötdükcə xüsusi formada dərinləşib mürəkkəbləşdiyini görürsünüz. Məsələn, Mühəqqiq Saninin - Əli ibn Əbdülali Kərəkinin dövründəki fiqh əllamənin dövründəki fiqhə nisbətən daha dərindir. Yaxud misal üçün, şeyxin Məkasibdəki fiqhində daha çox dərinlik vardır. Biz bu dərinliyi artırmalıyıq. Dərinliyin mənası bu deyil ki, əlavə və lazımsız tədqiqatlarla məşğul olaq. Xeyr, məsələni incələmək, onu yeni üsullarla araşdırmaq və dərinləşdirmək lazımdır. Tədqiqatçılar bunun metodlarını öyrənə bilərlər.

**Fiqh metodikasında yenilik**

Biz fiqhi genişləndirməliyik. Bizim fiqhimiz fəqahət səviyyəsinin genişliyi baxımından inkişaf etməli və həyatın bütün sahələrinə şamil olmalıdır.

Çox gözəl. Biz nə üçün fiqh kitablarımızda və fiqhin müxtəlif bölmələrində lazımi araşdırma aparıb həyatın idarəsi üçün yollar tapmayaq?! Deməli, həm səviyyə baxımından inkişaf etməli, daha çox genişlənməlidir, həm də üslub baxımından. Qeyd olunan bu fiqh metodikasının yeniliyə və inkişafa ehtiyacı var. Daha effektiv olması onun üzərində işləmək lazımdır.[527]

**Tədqiqat və araşdırmanın yeni üsullarından istifadə**

Hövzə yeni tədqiqat üsulları ilə tanış olmalıdır. Tədqiqat dedikdə məqsədimiz həm dərin araşdırmadır, həm də geniş araşdırma. Avropa metodlarında bunun hər ikisinə tədqiqat deyirlər. Adlarla işimiz yoxdur, bu da bir növ araşdırmadır. Bu gün hər iki tədqiqat növünün yeni üsulları var. Müəllimlər tələbələri yönəldirlər, qrup işləri görülür və kollektiv

---

[527] Yenə orada.

tədqiqat təqdim olunur. Kollektiv tədqiqat fərdi tədqiqatdan daha etimadlıdır; onda mübahisələr az, inkişaf isə çox olur. Hövzədə bu üsullardan istifadə etməliyik.[528]

**Tədqiqatın idarəsi**

Hövzənin tədqiqat qurumları olmalıdır. Əgər bir nəfər oturub özü üçün tədqiqat aparırsa, bu, sözsüz ki, dəyərli işdir, lakin belə böyük təşkilatın işi bu deyil. Mərhum Ayətullah Bürucerdi illərlə Bürucerddə idi, tək-tənha bir dünya tədqiqar apardı. İndi sizin belə böyük bir təşkilatda apardığınız tədqiqatlar bir nəfərin tədqiqatlarının yarısı qədər də olmasa, bunun nə qiyməti var?! Bu gün bir elmi təşkilatda tədqiqat işinin mütərəqqi qayda-qanunu və üsulu var; kompüter var, kollektiv tədqiqat var, lazımi mövzular var. Amma hövzədə birisi lazım olmayan bir mövzuda tədqiqat aparır; iki nəfər bir mövzunu araşdırır və eyni əsər təqdim edir. Tədqiqat işi üçün idarəçilik və nizam-intizam lazımdır. Elm hövzəsində bu nizam-intizam yoxdur.[529]

**Hövzədə az xərclə ərsəyə gələn nəfis elmi işlər**

Xalq bilmir ki, elm hövzələrində nə qədər nəfis və dəyərli elmi fəaliyyət göstərilir; bilmir ki, elm hövzəsinin mühüm fənlərində çox dəyərli işlər maddi cəhətdən necə ucuz qiymətə görülür. Hövzənin çoxlu işləri az xərclə görülür. Halbuki eyni iş adi idarələrdə, universitetlərdə, nazirliklərdə və digər yerlərdə görülsə, bəlkə də beş dəfə, on dəfə artıq xərc götürər. Hövzə mahiyyətcə qənaətcildir, əbəs, faydasız və böyük xərc tələb edən zahiri işlərə diqqətsizdir. Xalqın çoxu bunları bilmir.

Hövzələrdə nə qədər gözütox və iddiasız alim, tələbə işləyir, dərs oxuyur, tədqiqat aparır və mütaliə edir. Dünyanın böyük alim və tədqiqatçılarının gizli bir yerdə, qaranlıq bir otaqda oturub böyük zəhmətlə yeni bir şey kəşf etdikləri kimi, bunlar da eləcə və çətin məişət şəraitində

---

[528] Yenə orada.

[529] Həzrət Mehdinin (ə) doğum gününün ildönümündə Qum Elm Hövzəsinin alim, müəllim və tələbələrinin toplantısında çıxışından: 1992.

irfanda, fəlsəfədə, fiqhdə, üsulda, ricalda, hədisdə, təfsirdə və digər sahələrdə yeni düşüncələr yaradırlar. Bu işləri stolsuz, kondisionersiz, təşkilatsız, katibəsiz, telefonsuz edirlər.[530]

**Yeni vasitələrdən istifadənin zəruriliyi**

Mənim fikrimcə, bu işlərlə bu gün elm hövzələrində tədqiqat bir ildə ötən yüz il qədər inkişaf edər. Həqiqətən belədir. Biz bir dəfə bir hədisi nə qədər axtardıqsa, tapmadıq, axırda da işdən daşındıq. İndi ürəyiniz istəyən qədər qarşınızdadır; sanki deyir: "Əmr et, gətirim". Odur ki, tədqiqatdan qaçmaq üçün həqiqətən bəhanə yoxdur. Bu gün tədqiqatla məşğul olan gənclərin tədqiqat aparmamaq üçün üzrləri yoxdur.

Elə bir gün də gələ bilər ki, məsələn, bu cihazların birini sizin başınıza birləşdirəcəklər; elmi-fantastik ədəbiyyatda olduğu kimi. Bəlkə də kiçik bir cihaz düzəldəcəklər, qulağa qoyulan bir eşitmə aparatı kimi başınıza qoyacaqsınız və bütün bu məlumatlar beyninizdə əks olunacaq. Belə olacaq. İradə edib düyməni basan kimi tez o hədis yadınıza düşücək və oxumağa başlayacaqsınız.

Belə olacaq. Elm budur. Dərd burasındadır ki, bugünkü gündə də bəzi şəxslər qədim üsullardan əl çəkmirlər.[531]

**Namazın kəlam, irfan və ictimaiyyət cəhətlərini araşdırmaq**

Namazı uca tutmağın başqa bir əlaməti onun elmi mütaliəsi və tədqiqatıdır. Elm hövzələrində namaz və onunla bağlı məsələlər ən geniş fiqh mövzularını təşkil etdiyi kimi, namazın kəlam, irfan və ictimai cəhətləri də belə olmalıdır. Din alimləri, tədqiqatçı və yazıçılar bu barədə məqalə və kitablar yazsınlar. Dinin təbliğ olunduğu bütün kürsülərdə namaz barədə müxtəlif üsullarla və müxtəlif cəhətlərdən təkrar-təkrar bəhs olunsun. Müxtəlif pillələrin dərs kitablarında namaz barədə münasib

---

[530] Fiqhin ali ixtisas (xaric) dərsinin birinci günündəki söhbətlərdən: 1993.
[531] İslam Elmlərinin Kompüter Tədqiqatları Mərkəzinin üzvləri ilə görüşdə çıxışından: 1993.

olaraq qısa, yaxud geniş, lakin hər iki halda dərin və güclü mövzular yerləşdirilsin.[532]

**Kəlam elmində yeni düşüncənin istehsalı**

Kəlam sahəsində işdən söhbət ediriksə, tez üç-dörd kəlam kitabının yazılması təsəvvür olunmasın. Hövzənin işi daha artıq kitablar nəşr etdirmək deyil, təkmilləşməkdə olan fikir istehsal etməkdir. İstehsal artsa, növbə nəşrə də çatacaq. Nəşr ikinci mərhələdir. Elə bilməyək ki, bir mövzuda on kitab yazdıq və iş bitdi. Xeyr, hövzə kəlam sahəsində yeni düşüncə istehsal etməlidir.[533]

**Güclü düşüncə dalğaları və tədqiqi məhsulları artırmağın zəruriliyi**

Hövzənin indi burada iştirak edən böyüklərindən biri bir neçə il öncə İngiltərəyə getmiş, orada bir kitabxana görmüşdü. Mənə buyurdu ki, bu kitabxananın bir mərtəbəsi son bir neçə ildə qərblilər tərəfindən yazılmış əxlaq kitablarına məxsus idi. Bu bir neçə ildə Qum Elm Hövzəsi nə qədər əxlaq kitabı yazmışdır? Onun mində biri, on mində biri? Fikrimcə, bundan da azdır. Bu hələ əxlaqdır və bilirsiniz ki, Qərbin əxlaqla arası yoxdur. Əlbəttə, onların əxlaq kitabları daha çox əxlaq fəlsəfəsi, əxlaqın rəddi, qeyri-mənəvi və maddi əxlaq barədədir. "Merac əs-səadət" və "Came əs-səadət" kitablarından sonra biz hövzələrimizdə hansı kitabı yazmışıq? Düzdür, son bir neçə ildə elmi bir əsər kimi ortaya qoymağa layiqli bir neçə əxlaq kitabı yazılmışdır.

Bu məsələ eynilə hüquqda da müşahidə olunur. Siz görün mədəni hüquqda, cəza hüququnda, müxtəlif hüquqi mövzularda necə çeşidli tədqiqatlar aparılmışdır. Bu iş həm Qərbdə, həm də şiə olmayan İslam dünyasında baş vermişdir. Biz bu sahələrdə, insafla deməliyik ki, çox geri qalmışıq. Hələ bu bizim öz ixtisasımızdır; hövzələrin ixtisası əsasən fiqhdir.

---

[532] Şiraz şəhərində keçirilən illik namaz toplantısına müraciətindən: 1994.
[533] Qum Elm Hövzəsinin alim və müdirləri ilə görüşdə çıxışından: 1995.

Görün fəlsəfə, kəlam, yeni kəlam, din fəlsəfəsi, dinşünaslıq və digər sahələrdə nə qədər yazıb və işləyiblər. Bunların hamısı səhv də ola bilər. Amma hər halda, cəmiyyətin beyin mühitinin bir hissəsini dolduran elm və düşüncə məhsuludur. Siz hal-hazırda haradasınız? Bunlarla necə mübarizə aparmaq istəyirsiniz? Haradadır Əbdülcəlil Razi Qəzvini ki, bu dövrə uyğun ən-Nəqz kitabını yazsın və bir kitab yox, bu sahələrdə bəlkə də on min kitab yazılsın.[534]

**İşlənmiş mövzuları dərinləşdirmək kifayət etmir!**

Bugünkü tədqiqatçı, misal üçün, Şeyx Ənsarinin işlədiyi mövzularla, eyni sahədə daha dərinliyə getməklə kifayətlənməməlidir. Tədqiqatçı yeni üfüqlər kəşf etməlidir. Bu iş keçmişdə də olmuşdur. Misal üçün, Şeyx Ənsari iki dəlil arasında ziddiyyət zamanı hakimlik məsələsini kəşf etmişdir.

Fiqhin metodlarında yeni üfüqlər açmaq lazımdır. Hansı dəlilə görə bizim böyüklərimiz, fəqih və tədqiqatçılarımız bu işi görə bilməməlidirlər?! Doğrudan da müasir alimlərin bəzisi elmi qüvvə və dəqiqlik baxımından sələflərdən geri qalmırlar. Lakin hövzədə bu iradə hərəkətə gətirilməlidir.[535]

**Hövzədə dərin və məzmunlu araşdırmaların zəruriliyi**

Bir məsələ araşdırma məsələsidir. Bu gün Qumda həqiqətən tədqiqat işi başlanmışdır və müxtəlif qurumlar müxtəlif yerlərdə mətnləri araşdırmaqla və bu kimi işlərlə məşğuldurlar. Lakin nizam-intizamsız görülən tədqiqat işləri bəzi adamlar üçün yanlız çörək ağacıdır. Yəni bir qrup tələbə pul almaqdan ötrü bir neçə saat tədqiqat işi görür. Bu gün hövzəyə aşılanan tədqiqat da universitet mənasında olan tədqiqatdır; yəni mətnlərin üzündən tədqiqat aparırlar. Hövzənin fəxri budur ki, tədqiqatı dərin və məzmunludur. Biz bunu əldən verməməliyik. Tədqiqatçılara müxtəlif mövzular verib desinlər ki, gedin bu sualların cavabını tapın. Hövzənin özü bu işi idarə etsin və lazım olduqda pul da verilsin. Hər

---

[534] Yenə orada.
[535] Yenə orada.

halda, siz mühüm və yaxşı işlər görmək üçün mövzular üzərində işləməlisiniz. Bir neçə yaxşı tələbəyə pul da verin ki, işləsinlər.[536]

**Hövzə tədqiqatlarında yeni cihazlardan istifadə**

Mənim kompüterim var, ondan istifadə edir, ən çətin tapılan hədisləri də bir neçə dəqiqə ərzində tapıram. Qumda hazırlanan bu proqramda - bu proqramlar fikrimcə, ibtidaidir və yetərincə təkmilləşdirilməyib - bir düyməyə vurmaqla çoxlu hədislər kağız üzərində yazılır və ünvanı ilə birgə insanın ixtiyarına keçir. Kim istəsə, ehtiyat üçün (çap versiyasına) baxa bilər. Nə üçün bundan istifadə olunmasın?![537]

**Yeni üfüqləri kəfş etməyin zəruriliyi**

Mən Allaha çox şükür edir və sevinirəm ki, həm gənclik enerjisinə, həm də elmə malik bir qrupun bizim böyük elmi hövzəmizdə tədqiqat işində çalışdığını görürəm. Tədqiqat və dərinlik olmadan, yeni düşüncə sahələrini fəth etmədən heç bir iş görmək olmaz. Elm hövzələrində bizim qüsurumuz bu olub: tədqiqat apardığımız fiqh, yaxud üsul məsələlərində də - bizim tədqiqatımızın çoxu əsasən bu iki sahədə olmuşdur – yeni üfüqlərə çox zaman az diqqət yetirmiş və eyni mövzunu daha dərindən araşdırmağa üstünlük vermişik. Böyük fəqihlərin gördüyü işlərdən xəbərdarsınız. Bu işlərin bəzisi heyrətamizdir, amma hamısı şaquli formada get-gedə dərinləşir, heç bir üfüqi genişlənmə yoxdur və insan yeni sahələr müşahidə etmir.

Fərz edin, icmali elmin yüz, yaxud yüz on beş şaxəsi var və bir nəfər onunu da əlavə edir. Yaxud fərz edin, şübhəli paltar barədə yeni bir tədqiqat aparır, düşüncə və baxış dairəsinə isə çox zaman bir şey artırılmır. Odur ki, biz işlənməmiş mövzulara girişdikdə, məsələn, fəqihin rəhbərliyi, İslam hökuməti, yaxud İslam cihadı məsələsini araşdırdıqda mövzunun üfüqlərinin bəyan olunmadığını görürük.[538]

---

[536] Qum Elm Hövzəsinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1995.
[537] Qum Elm Hövzəsinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1997.
[538] Ayətullah Əmini və Dini Ekspertlər Məclisinin bir neçə tədqiqatçısı ilə görüşdə söhbətlərindən: 2000.

**İslam quruluşu üçün tətbiqi tədqiqatlar**

Mühüm məsələlərdən biri budur ki, bizim tədqiqatımız tətbiqi olmalıdır. Yəni praktikadan uzaq olan quru tədqiqatla məşğul olmaq az zamanda və az fürsətdə uzaq yolla getmək deməkdir. Siz görün bütün təkallahlıların, islahatçıların, Allaha və İslama iman bəsləyənlərin arzuladığı İslam quruluşunun bu gün nəyə ehtiyacı var; bunu axtarmalısınız. Biz bu işlərlə həqiqətən gec məşğul olduq. Kaş inqilabın əvvəlindən sizin kimi yüz nəfər peyda olub nə müharibəyə qoşulaydı, nə də siyasətə; gedib oturaydı və İslam quruluşu üçün bu məsələləri araşdıraydı.[539]

**İslam quruluşunun ehtiyacını təmin etmək**

Bu gün mühüm olan budur ki, biz bu quruluşun elmi düşüncə, əsas və güclü mental təməlləri sarıdan nəyə ehtiyaclı olduğuna bilək və İslam hökumətinin gücləndirilməsinə dair önfərziyyə ilə araşdırma aparaq. Bəzi xırda tədqiqatçıların nə qədər elmi çəkisinin olduğu bəlli deyil. Yaxşı olmaları da mümkündür, bunda sözümüz yoxdur. Onların nöqsanı budur ki, bu önfərziyyəni görməzdən gəlmişlər, İslam hökumətinin, fəqih, yaxud fiqh hakimiyyətinin şəriət baxımından legitimliyi barədə mücadilə, mübahisə və şübhə yaymaqla məşğuldurlar.

Biz bu fərzlə araşdırmalıyıq ki, İslam dini cəmiyyəti və bəşəriyyəti maddi və mənəvi cəhətdən idarə etmək üçün gəlmişdir. Önfərziyyə budur ki, hakimiyyət İslamın və İslam quruluşunun əlindədir və bu quruluş idarə etmək istəyir, oturub digərlərinin idarəsinə tamaşaçı olmaq istəmir. Bu fərzlə bütün tədqiqatımıza istiqamət verməli və ehtiyaclarımızı ölçməliyik. Gərək ehtiyaclarımıza baxaq və onları təmin edək.

Bu gün bəzi şəxslər tərəfindən İslamın siyasi quruluşunun ən ibtidai və ən aydın əsaslarına puç dəlillərlə irad tutulur. O da bundan ibarətdir ki, ümumiyyətlə, İslamın siyasətlə işi var, yoxsa yox. Yəni bir zaman İslam hərəkatının cürət və qüdrətlə, özünə və çoxlu resurslarına güvənərək güclü şəkildə bəyan etdiyi və ona əsasən bir siyasi quruluş qurduğu bir amili zəif, əsassız və məntiqsiz sözlərlə sual altına almaq istəyirlər. Əgər belə olsa,

---

[539] Yenə orada.

elmi və nəzəri baxımdan həqiqətən mənasız, dəyərsiz və puç olan bu sözlərdən sonra dinin heysiyyəti, hörməti və sevgisi qorunarmı?! Bu onu göstərir ki, onlar səhnəni boş görürlər. Əgər elmi-mədəni baxımdan güclü şərait olsaydı, bu söz deyilən kimi məsxərə olunsaydı, təbii ki, deyilməzdi. Lakin kimlərinsə bu sözləri dediyini görürük. Odur ki, bizim bu tədqiqata çox ehtiyacımız var. Biz bu ehtiyacların nə olduğunu bilməli və onları təmin etməliyik.[540]

**Düşüncə yeniliklərinin dünyaya hakim nəzəriyyələrdən təsirlənməməsi**

İnqilabdan öncə İslam yeniliklərində səhv edənlərdən biri də mənəm: "Mən nəfsimə bəraət qazandırmıram"[541]. O zaman nadir istisnalardan başqa bizim hamımız bir səhvə düçar olurduq. O da budur ki, dünyanın siyasi ədəbiyyatına hakim təfəkkürlər bizim istiqamətimizə təsir göstərirdi. Məsələn, bir zaman sosializm dünya ədəbiyyatında çox uca və yüksək mövqeyə malik idi. İslama etiqad bəsləyənlərdən və İslam üçün işləmək istəyənlərdən kim İslam iqtisadiyyatı barədə araşdırma aparırdısa, bir yolla məsələni sosializmə sarı çəkirdi; hətta həqiqətən İslama etiqadlı olanlar da. Yayınmaların çoxu buradan başlandı. Bəzi nəzəriyyələr tədqiqatçının beynində təsir buraxdı, düzgün incələmə aparılmadan qəbul olundu.

Doğrusu, həmin bəla keçmişdəkindən çox az olsa da, təəssüf ki, bu gün də mövcuddur. Bu gün sekulyarizm və digər mövzular bir yana, hətta demokratiya haqda deyilən sözlər də Qərb demokratiyasına qayıdır, Qərb demokratiyası meyar götürülür, halbuki onun müxtəlif növləri vardır.

Biz bu demokratiyanı meyar götürür və hakim edirik. Səhv olan budur. Dinin sözünü bəyan etmək lazımdır. Bütün sahələrdə belədir. Hakim Qərb mədəniyyətinin bizim düşüncəmizə hər hansı müdaxilə və təsirinə imkan verməməliyik.

Müxtəlif tədqiqatlarda bəzi şəxslərin səhvlərə yol verdiyi müşahidə olunur. Məncə, bu səhvlərin əksəriyyətnin mənşəyi budur: Quran və

---

540 Yenə orada.

541 "Yusuf"/53.

sünnənin höccət olmasını və İslam quruluşunun haqlılığını deyil, Qərbdə geniş yayılmış təfəkkürləri önfərziyyə seçirlər.[542]

**Hövzədə tədqiqat sisteminin vahid idarəsi**

Bu gün Qum Elm Hövzəsində xoşbəxtlikdən, bəzisi hövzəyə, bəzisi hövzədən xaricə və bəzisi xüsusi sahələrə aid olan çoxlu araşdırmalar aparılır, gənc tələbə və alimlər tədqiqat işləri görürlər. Hövzənin müdiriyyəti bunları bir-birinin təkmilinə yönəltməlidir. Belə ki, bu tədqiqatların məcmusu düşmənin düşüncə və təbliğat hücumundan xəbər tutmaq və ona qarşı mübarizə imkanı yaratsın, müxtəlif sahələrdə aparılan tədqiqatlar tətbiqi cəhətə malik olsun, kim bir tədqiqat qrupu yaratmaq istəsə, hövzənin müdiriyyəti ilə məsləhətləşsin, onun tövsiyələrinə əməl etsin və kimin nə iş gördüyü bilinsin. Hövzədə tədqiqat proqramına ümumi nəzarət olmalı, təkrar, əbəs və faydasız araşdırmalar aparılmamalı, hövzənin zamanı tələf edilməməlidir. Bu, çox vacib işdir.[543]

**Dəqiq tədqiqat işi**

Bir məsələ budur ki, bəzi işlərin adı tədqiqat olsa da, daha çox xidmətdir, tədqiqat deyil. Bu o demək deyil ki, xidmət əhəmiyyətsiz bir şeydir. Xeyr, o da mühümdür, lakin xidmətin kənarında dəqiq tədqiqat işləri görülməsə, xidmət düzgün edilməyə də bilər. Təkidlə bildirirəm ki, hövzənin bütün fəaliyyətlərində tədqiqat və araşdırma məsələsinə bir qayda kimi baxılsa, yaxşı olar.[544]

**Tədqiqatda təkrar və paralel işlərdən çəkinmək**

Nəzərə çarpan ikinci məsələ budur ki, bu işlərdə əvvəla təkrar var. Biz burada bir neçə elektron-informasiya işi müşahidə etdik. Bəllidir ki, onları idarə edənlər çox peşəkar və həvəskar insanlardır, amma bəzi işlər

---

[542] Ayətullah Əmini və Dini Ekspertlər Məclisinin bir neçə tədqiqatçısı ilə görüşdə söhbətlərindən: 2000.

[543] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin müəllim, alim və tələbələrinin böyük toplantısında çıxışından: 2000.

[544] Qumda hövzə tələbələrinin ixtisaslı sərgisinə baxış keçirərkən etdiyi söhbətlərdən: 2000.

təkrardır. Paralel iş küfr deyil, lakin potensialı tələf edir. Buna əsasən, bir məsələ budur ki, bəzi işlərdə təkrarçılıq aydın görünür. Necə ki, biz dedik və nümunəsini göstərdik. Bəzi işlərin də forması bir-biri ilə fərqli, məzmunu isə birdir. Bilinir ki, bu iş digər otaqda görülən işlə eynidir. Tədqiqata böyük ehtiyacımızı nəzərə alsaq, belə təkrar işlər bəlkə də israfçılıq sayılır.[545]

**Tədqiqat çatışmazlıqlarının hərtərəfli təmini**

Dünən də işarə vurduğumuz kimi, hövzənin tədqiqat işləri bir-birini tamamlamalı, hövzənin öhdəsinə düşən bütün ehtiyacları təmin etməlidir. İnsan burada onu hiss etmir, ümumi olaraq bütün çatışmazlıqların əhatə olunması duyulmur. Bilirsiniz ki, sərhəddəki hər bir radarın bir şüası var və bir dairəni əhatə edir. Radarları müəyyən məsafələrlə düzürlər və ümumilikdə boş nöqtə qalmır; yəni bir-birini təkmil edirlər, düşmən təyyarəsi, düşmən qüvvəsi heç bir tərəfdən ölkə sərhədini pozub daxil ola bilmir. Siz belə olmalısınız. Sizin bu radarlarınız - məqsədi dini müdafiə etmək, dinin və İslam maarifinin təbliğinə hazırlıq olan tədqiqat mərkəzləri elə tənzim olunmalı, bir-birinin kənarında elə düzülməlidir ki, hər bir nöqtəni əhatə etsin. Bu indi hiss olunmur. Bunu necə yaratmaq olar?

Mən düşünürəm ki, hamı qəbul etsə, hövzənin müdiriyyəti bu məsuliyyəti üzərinə götürə bilər. Yəni tədqiqat boşluqlarını görsün və tədqiqatçını oraya yönəltsin. Tədqiqat mərkəzi açmaq istəyən şəxsi də bu sahəyə yönəldib desin ki, burada bizim çatışmazlığımız var. Yaxud təkrarçılıq edənləri boş sahələrə yönəltsin. Elə etsinlər ki, ümumilikdə kompleks bir əhatə dairəsi yaransın. Əlbəttə, əvvəldə qeyd etdiyim kimi, bizim böyük tədqiqat potensialımız var, kadr və düşüncə baxımından heç bir problemimiz yoxdur, lakin bu işlərin gecikməsindən ötrü narahatıq. Əgər hövzənin müdiriyyəti bunu idarə etsə, bu narahatlıq da aradan qalxar.[546]

**Tədqiqat müdiriyyətinin sözünü qəbul etmək**

---

[545] Yenə orada.

[546] Yenə orada.

Bu müdiriyyət hövzənin bütün işlərində söz deyə bilməli və özünün fikri olmalıdır; o cümlədən tədqiqat məsələsində nəzəri olmalıdır ki, bu iş pərakəndəlikdən xilas olsun. Tədqiqatla məşğul olanlar, böyük alimlər, dəyərli şəxsiyyətlər, təqlid müctəhidləri və digərləri harada olsalar, bunu qəbul etsinlər. Yəni müdiriyyətin bu səlahiyyətini - tədqiqat mərkəzlərini lazımi mövzulara yönəldib boşluqları doldurmasını hamı qəbul etsin. Bu, vacib işdir.[547]

**Yerində saymaqdan qurtuluş**

Bildiyiniz kimi, tədqiqat, yenilik və dərinlik olmadan insan heç bir sahədə uca məqsədlərə çata bilməz. Əgər bu yenilik – yəni dərin tədqiqat və araşdırma olmasa, nəticədə yerimizdə sayacaq və dünyadan geri qalacağıq.[548]

**Tədqiqatlara dini hidayətin hakim olması**

Bir məsələni xatırladım: Xahiş edirəm xüsusən düşüncə məsələlərində tədqiqat aparan qardaşlar dini hidayət xəttinin itməsinə qoymasınlar. Biz dini kitab yazan elə şəxslər gördük ki, məqsədləri xalqı azdırmaq deyildisə də, nəticə elə oldu. Din adı, din məqsədi ilə və din üçün görülən bəzi işlər sonda xalqı dindən uzaqlaşdırır. Çalışın tədqiqat sahələrinin heç birində belə ziyan və faciə yaranmasın. Çünki o zaman bunun bəlası qurtarmaq bilməyəcək.[549]

**Tədqiqata diqqətin Qum hövzəsinin yaxşı addımı olması**

Qumda görülən yaxşı işlərdən biri müxtəlif tədqiqat işlərinə diqqətdir. Keçmişdə belə deyildi; tələbələr uzaqbaşı öz dərslərini dərindən oxuyur, araşdırır və mütaliə edirdilər. Yəni nadir hallar istisna olmaqla, müxtəlif elmi üfüqlərə açıq baxış mövcud deyildi. Peyğəmbərin (s) məktubları kitabını yazan mərhum Əhmədi Miyanəcinin işi hövzədə bir fenomen sayılırdı. Bu məsələ bir hövzə tələbəsini maraqlandırır,

---

[547] Yenə orada.
[548] Yenə orada.
[549] Yenə orada.

Peyğəmbərin (s) məktublarını araşdırır, yüz dəfə özünü danlayır – adətən insan özünü danlayır və deyir ki, bunun fiqhə, üsula və dərsə aidiyyəti yoxdur - və bu işi sona çatdırır. Bu, nadir bir məsələ idi. Əlbəttə, rical istisnadır və bəzi şəxslər, məsələn, Hacıağa Musa və digərləri onu araşdırırdılar. Çünki rical hər halda, fiqhi araşdırmanın şərtlərindəndir. Lakin hövzə işinin kənarında olan digər tədqiqatlar əsla adət olmamışdı. Mərhum Bürucerdi müxtəlif sahələrə dair aydın baxışa malik olsa da, bu iş praktik olaraq hövzədə görülməmişdi və bizim dövrümüzdə belə bir şey yox idi.

Bu gün isə belə deyil; Allaha şükür, hövzədə olduqca çoxlu tədqiqat mərkəzləri fəaliyyət göstərir. Mən Quma son səfərimdə tədqiqat mərkəzlərinin sərgisinə baxdım. Onların işləri haqda bir siyahı düzəltmişdilər. Sərgidən qabaqkı gecə yorğun olsam da, oturub onların hamısını əvvəldən axıra qədər oxudum. Düzdür, o işlərin bəzilərinin mövzusu çox da dəyərli deyildi, bəzisi də təkrar idi. Amma onların arasında çox yaxşı işlər də vardı. Bu, Qumun yeni baxış tərzini göstərir. Bu, çox gözəldir. Sizin işiniz də bu məqsədlə görülən yaxşı işlərdəndir. Bunu davam etdirin.[550]

**Tədqiqat kompleks olmalıdır!**

Gərək tədqiqat qrupları məsələnin kökünə qədər gedib araşdırsınlar. Fərziyyənin doğru və ya yanlışlığına dair elmi faktların hamısını qeyd edib yekun nəticə çıxarsınlar.[551]

**Alimanə tədqiqin əhəmiyyəti**

Mən iki məqamı xüsusilə vurğulamaq istəyirəm: tədqiqat və incəsənəti. Tədqiqat işi çox mühümdür. Alimanə araşdırma ilə görülən iş hətta avam camaat üçün də dəyərli və gözəl olur. Sözsüz ki, alimanə iş böyük sözlər danışmaq deyil, elmi əsaslı və düzgün iş görməkdir; hamının başa düşdüyü və avam dillə deyilsə də. Eşitdiyiniz kimi, bəzi inkişaf etmiş ölkələrdə elmi araşdırmaların bütün sahələrinə böyük büdcələr ayrılır.

---

[550] İmam Hadi (ə) müəssisəsinin üzvləri ilə görüşdə çıxışından: 2001.
[551] Yenə orada.

Milli medianın işlədiyi mədəni məfhumlarda və müxtəlif məsələlərdə araşdırma aparmaq çox mühüm işlərdəndir.[552]

**Düşüncə istehsalı baxımından geriliyin qarşısını almaq**

Başa düşməliyik ki, biz geridəyik. Düşüncə bazarında - istər əqli, istər ictimai elmlərdə, istər hüquq və fiqhdə, istər tarixi və digər sahələrdə düzgün və ya səhv olmasından asılı olmayaraq, hər gün yeni söz ortaya qoyulur. Bizim işləyib çalışmadığımıza və görməli olduğumuz işi görmədiyimizə görə dünyanın fikir mərkəzləri də dayanıb gözləmirlər, daim istehsal edirlər. Düzgün və haqq, eləcə də səhv və batil məhsullar istehsal olunur. Gözləmək olmaz ki, dünyanın düşüncə məhsulları tərcümə olunsun, onlara əl gəzdirilsin, bir müddət ötəndən sonra buraya çatsın, universitetdə, yaxud elm hövzəsində bizim gəncimizi cəlb etsin və biz ondan sonra ziyanı və təhlükəni uzaqlaşdırmaq barədə fikirləşək. Xeyr, bu fikirləri qarşılamaq və uyğun düşüncə mərkəzləri ilə üz-üzə gəlmək olar.[553]

**Çoxluq yerinə dərinlik**

Hər bir qurumun məhsulları bir meyardır. Sizin məhsullarınız yaxşı və məqbuldur. Qeyd etdiniz ki, üç yüzdən artıq əsər çap olunmuşdur. Bu, dəyərli işdir, amma demək istəyirəm ki, məsələləri dərindən incələmək onların azalmasına səbəb olsa da, eybi yoxdur. Yəni meyar məhsulların həcmi yox, keyfiyyəti olmalıdır. Əlbəttə, bəllidir ki, işin özü istifadə üçündür. Çünki fayda götürülməyən elmin elə də dəyəri yoxdur. Gərək istifadə olunsun və təbii ki, cəmiyyətin, bizim gənclərimizin və inkişaf etməkdə olan nəslimizin arasında yayılsın. Lakin birinciliyi bu məsələyə vermək olmaz. Birinciliyi işin düzgünlüyünə, rəftarda insafa və işdə dərinliyə vermək lazımdır.[554]

**Düzgün üslubla dində yenilik imkanı**

---

[552] Teleradio Verilişləri Şirkətinin əməkdaşları ilə görüşdə çıxışından: 2004.
[553] "İslam mədəniyyəti və düşüncəsi" Tədqiqat Mərkəzinin üzvləri ilə görüşdə çıxışından: 2004.
[554] Yenə orada.

Bəzi adamlar elə bilirlər ki, dində yenilik imkansızdır. Bizim islami və dini mənbələrimizin xəzinəsi tükənməzdir. Biz öz imkanlarımız qədərincə bu çağlar bulaqdan yanlız bir neçə vedrə su götürmüşük; çalışırıq müxtəlif sahələrdə yeni düşüncə və sözlər istehsal edək. Quran tükənməz bir okeandır. Onda çoxlu həqiqətlər var. Bəlkə də biz dünyanın əksər həqiqətlərini Qurandan öyrənə bilərik, hələ öyrənməmişik. Düşünmək, araşdırmaq, yenilik etmək və müsəlman mütəfəkkirlərin qarşısına yeni söz qoymaq bizim işlərmizdən biridir.

Təbii ki, bütün işlər kimi bu iş də öz üsulu və yolu ilə görülməlidir. Bunun bir metodu var və o metoddan xaric bir iş görmək olmaz. İşdə mütəxəssis olmayan bir şəxsə heç zaman demək olmaz ki, bu fəndə yenilik et. Bu, kitab və sünnə ilə tanış olan mütəxəssislərin işidir.

Bizim bütün sahələrdə, hətta fiqhdə də yeni və aydın düşüncələri olan imam kimi bir şəxsimiz var. Siz görürsünüz ki, müsəlman İranın təqdim etdiyi İslam xalqlara şəkər kimi şirin gəlir və hər yerə yayılır.[555]

**İslam yeniliyində yanlış üsul**

(Quruluşun) ən əsaslı xətlərindən biri onun islamçılığı, biri xalqınkı olması, biri də yeniliyi və yaradıcılığıdır.

İslamçı olmağın müxtəlif xüsusiyyətləri vardır... Onun mühüm bir cəhəti budur ki, İslam ictihadı bütün ehtiyaclara cavab verə, fəqih, mütəkəllim və filosofların elmi dəstəyi yollar aça bilər.

Biz İslam həqiqətlərini bəyan edərkən İslam yeniliklərini digərlərinin səhv əsasları ilə uyğunlaşdırmaqla bu gözəlliyi məhv edib korlamamalıyıq. Biz digərlərindən öyrənməkdən utanmırıq; bilmədiyimizi öyrənirik, digərlərinin söylədiyi yaxşı sözü də qəbul edirik. Bu, İslamın əmridir. Lakin İslamın sözünü bəyan edərkən əsl İslam sözünü deməliyik.[556]

**Fəqihlərin vasitəsi ilə fiqhi iş**

Biz müşahidə edirik ki, ölkəmizdə bəzi qadın və kişilər qadına aid beynəlxalq konvensiyalarla uyğunlaşmaq üçün İslam hökmləri ilə

---

[555] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2006.
[556] Həzrət İmam Xomeyninin vəfatının 18-ci ildönümü mərasimində çıxışından: 2007.

oynamağa, onları azaldıb-çoxaltmağa çalışırlar. Bu səhvdir. Mən demək istəmirəm ki, qadınlara aid fiqh hökmlərimizdə deyilən məsələlərin hamısı mütləq son sözdür. Xeyr, mahir və peşəkar bir fəqihin vasitəsi ilə aparılan bir tədqiqatla bu gün qadın barədə mövcud olan hansısa fiqh hökmünün dəyişməsi mümkündür. Bunun eybi yoxdur. Bu mümkündür və baş vermişdir.

Buna əsasən, fiqh məsələlərində belə bir şey mümkündür. Lakin görülməli iş fiqh əsaslarına yiyələnmiş mahir bir fəqih tərəfindən görülməlidir; özü də fiqh metodikasına əsasən və fəqahət üslubu ilə. Kimsə qərblilərlə, hansısa beynəlxalq konvensiya ilə - onları hazırlayanlar düşüncə təməlləri baxımından İslam əsasları ilə yaşayan və İslama etiqadlı bir xalqdan fərqlidirlər - uyğunlaşmaq üçün İslam hökmlərinin bir tərəfini yonub kəsməməlidir. Bu tamamilə yanlışdır, əsla başadüşülən deyil.[557]

**Tədqiqi fiqh hökmlərinin doğruluğu**

Əziz bacılar! Qadın məsələləri sahəsində fəaliyyət göstərən, düşünən və çatışmazlıqları görənlər çıxış yolunu İslamın hökmlərini dəyişdirməkdə görməsinlər. Xeyr, İslamın hökmləri tədqiqatla əldə olunduğu və İslamın əsaslarına uyğun olduğu təqdirdə tamamilə düzgün və məsləhətə uyğundur. Hansısa beynəlxalq təşkilatda, beynəlxalq iclasda hansısa qərarın çıxarıldığına və məsələn, hansısa beynəlxalq konvensiyanın qəbul olduğuna görə biz gəlib qorxu ilə qarışmış dar baxışla öz təfəkkürlərimizi və fiqhimizi dəyişdirməliyik?! Bu, mənim fikrimcə, düzgün deyil.[558]

**Qədir-Xum məsələsində tədqiqatın zəruriliyi**

Əziz qardaş və bacılar! Qədir-Xum məsələsi bir neçə cəhətdən diqqətəlayiqdir.

Məsələnin bir cəhəti İslamın və İslam hərəkətinin istiqaməti məsələsidir. Bu bizim etiqadlarımızdan olan vilayət cəhətidir. İmamət məsələsinə və Peyğəmbər (s) - yəni əslində Allah-Taala tərəfindən imamın

---

[557] Həzrət Fatimeyi-Zəhranın (ə) doğum gününün ildönümü ərəfəsində alim qadınlarla görüşdə çıxışından: 2007.
[558] Yenə orada.

təyin olunmasına etiqad məsələnin bir cəhətidir. Əgər müsəlmanlar bu hadisəyə tədqiqi gözlə baxsalar, təsdiq edərlər ki, Peyğəmbərin (s) son həccindən qayıdarkən səhranın ortasındakı bu böyük hərəkətinin, bəlli müqəddimə və sonluqla Əmirəlmömininin (ə) adını çəkməsinin, "Mən kimin mövlasıyamsa, Əli onun mövlasıdır" - deyə təqdim etməsinin əziz Peyğəmbərin (s) vəfatından sonra İslamda hökumət və vilayət xəttinin təyinindən başqa heç bir mənası yoxdur. Mənası yalnız budur.

İslam dünyasının tədqiqatçıları tarix boyu bu hadisədən və Peyğəmbərin (s) bu sözündən bu mənanı anlamışlar. Bəlli olur ki, İslama görə hökumət məsələsi yalnız kimlərinsə İslam cəmiyyətinin başında durması, dövlətin idarəsi və xalqın həyatının nizam-intizama salınması deyil. İslama görə məsələ yalnız bundan ibarət deyil. İslamda hakimiyyətin imamət mənası vardır.[559]

### Kuleyni dövründə Şiənin elmi hərəkəti

Kuleyni dövrü də həssas və çətin dövrdür. O, hicri tarixi ilə təxminən 260-cı ildə dünyaya gəlmişdir. Bu, İmam Həsən Əsgərinin (ə) vəfat etdiyi və kiçik qeybətin başlandığı ildir. Onun hicrətin 329-cu ilində vəfat etdiyini nəzərə alsaq, deməli, həyatı Şiə tarixinin ən mürəkkəb və ən həssas dönəmlərindən olan kiçik qeyb dövrünü tam əhatə edir. Şeyx Kuleyni ömrünün təxminən son iyirmi ilini İmam Mehdinin (ə) dörd naibinin yaşadığı Bağdadda keçirmişdir. Kuleyninin həyatında olan bu xüsusiyyətlər Şiənin elmi hərəkəti barədə araşdırma aparanlar üçün diqqətəlayiqdir.[560]

### Kafi kitabının elmi qaynaq olması

Kafi kitabı 1100 illik bir dövrdə - mərhum Kuleyninin hicrətin 329-cu ilindəki vəfatından dövrümüzə qədər ötən min ildən artıq müddətdə elmi

---

[559] Mübarək Qədir-Xum bayramında xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 2007.

[560] Siqətül-İslam Küleyninin xatirəsinə dair beynəlxalq konfransa müraciətindən: 2009.

qaynaq olmuş, şiə cəmiyyətləri arasında əl-əl gəzmiş və heç zaman heç bir şiə fəqihi, mütəkəllimi, yaxud təfsirçisi ona ehtiyacsız olmamışdır.[561]

[561] Yenə orada.

**Hövzənin informasiya arxivi haradadır?**

Bizə vurulan ittihamlara, verilən söyüşlərə, əleyhimizə yazılan kitablara uyğun olaraq ehtiyacları bilməliyik. Hövzənin informasiya mərkəzi və arxivi haradadır ki, bunlara baxsın, o mövzular barədə tədqiqat aparıb yazsın. Hövzənin görməli olduğu işlərdən biri budur. Yəni bir mərkəzi olsun və dünyada inqilab haqda yazılan bütün kitabları toplasın; həm birbaşa inqilab barədə olanları, həm inqilabla əlaqədar olaraq Şiəliyi və ya İslamı təhqir edənləri, həm də bizi tərifləyən və bəzən özümüzün diqqət yetirmədiyimiz üstün cəhətlərimizi xatırladan kitabları.

Bu mərkəzdə çalışan hövzə tədqiqatçıları bu kitabların ölkə daxilindəki oxşarlarını da toplamalı və araşdırmalıdırlar. Tədqiqatçı deyəndə tez əldən düşmüş qoca kişilər yada düşməsin. Sizin özünüz kimi gənc tədqiqatçılar oturub bunları qisimlərə bölsünlər, inqilab təfəkkürünü, zehniyyətini, avropalıların ifadəsi ilə desək, inqilab ideologiyasını - təəssüf ki, hələ bu sözün farsca ekvivalentini tapmamışıq – yazsınlar, onu bir cild kitabla və bir sözlə yox, geniş şəkildə bayıra ötürsünlər. Əgər bizdən "inqilabınız nədir?" deyə soruşsalar, deyək ki, budur. Bu işi siz görməsəniz, əksərən səlahiyyəti çatmayan digər şəxslər görəcəklər.[562]

**Hövzənin beyin məsələlərində məhdud olması və dünya hadisələrindən xəbərsizliyi**

Qərb dünyasında elmi tədqiqatın zirvəsi sayılan on doqquzuncu əsr dindən ayrılmaq və dinin həyatdan çıxarılması əsridir. Bu təfəkkür ölkəmizdə də təsir buraxdı və bizim universitetimizin bünövrəsi qeyri-dini təməllər əsasında quruldu. Din alimləri universitetdən üz çevirdilər, universitet də din alimlərindən və elm hövzələrindən. Bu kədərli məsələ həm elm hövzələrinə, həm də universitetlərə pis təsir buraxdı.

Elm hövzələrinə pis təsir buraxdı; çünki din alimlərinin fəaliyyətini yalnız və yalnız dinin zehni məsələlərində məhdudlaşdırdı və onları xarici

[562] Qum Elm Hövzəsinin tələbə və müəllimlərinin nümayəndələri ilə görüşdə çıxışından: 1989.

dünyadan xəbərsiz etdi. Elmi inkişaflar onlar üçün məchul qaldı. Yeniliyə təmayül ruhu, İslam fiqhində və dini hökmlərin araşdırılmasında yeniliyin zərurəti hövzələrdə aradan qaldırıldı, yaddan çıxdı. Dinin və İslam fiqhinin tədqiqində bu dəyişkənlik həmişə mövcud olmuşdu. Çünki fiqh cəmiyyətin ehtiyacını təmin etmək üçün Quran və sünnəyə əsaslanır. Hövzələr həyat reallığından, dünyada baş verən hadisələrdən və həyata keçən nəhəng dəyişikliklərdən xəbərsiz qaldı və bir sıra fiqhi, əksər hallarda cüzi məsələlərlə məhdudlaşdı. Fiqhin əsas məsələləri, o cümlədən cihad, hakimiyyət, İslam cəmiyyətlərinin iqtisadiyyatı, xülasə, dövlət fiqhi təcrid oldu, yaddan çıxdı, tərk edildi. Cüzi, çox cüzi və əksər hallarda həyatın mühüm məsələlərindən uzaq məqamlara daha artıq diqqət yetirildi. Bu, elm hövzələrinə vurulan zərbə idi. Siyasi qüvvələr də bundan istifadə etdi və təbliğatla, şeytan üsulları ilə hövzələri bacardıqları qədər həyat yeniliklərindən uzaq saxladılar.[563]

**Alimin səmərəlilik şərtlərindən biri**

Bu gün siz çox təqvalı alim olsanız, lakin zamanınızı tanımasanız, təhlükə və səhvə qabiliyyətli və az faydalı olacaqsınız. Bunun hekayəsi çox uzundur: "Zamanını tanıyan alimə şübhələr hücum etməz".[564] Biz elə alimlər gördük ki, İslam və müsəlmanlar üçün faydalı ola bildikləri dövrdə fayda yetirmədilər, bəzən hətta zərər və zərbə də vurdular. Deməli, belə oldu: elm, təqva, siyasi və ictimai ayıqlıq. Bu ayıqlıq sizin ixtiyarınızda olan bir silahdır. Bu üç xüsusiyyətlə ön xəttin əsgərləri olmalısınız.[565]

**Dünyada yeni yaranmış düşüncələr qarşısında hazırlıq**

Hövzə dünyanın elmi hadisələrinin içində olmalıdır. Bu gün siz bilməlisiniz ki, misal üçün, sosiologiyada dünyada hansı nəzəriyyə və fikirlər var, hansı düşüncələr irəli sürülür. Bəzən bu fikirlərdə yaxşı məqamlar olur, onları götürün; xoşagəlməz nöqtələr də var, onlar buraya

---

[563] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışından: 1989.
[564] "Tühəf əl-üqul", səh: 356.
[565] Həzrət Mehdinin (ə) anadan olmasının ildönümündə Qum Elm Hövzəsinin nümunəvi tələbələrinə hədiyyə verilməsi və bəzi tələbələrin əmmaməqoyma mərasimində çıxışından: 1992.

gəlməzdən öncə münasib müdafiəni hazırlayın və cəmiyyətin beynini vaksinləyin. Belə olmasın ki, gələndə, bir qrup gedib oxuyanda və tərəfdarı olanda biz deyək ki, bəli, filankəs filan məsələ barədə belə deyib və bu söz filan-filan dəlillərə görə düzgün deyil. Bu, mübarizə yolu deyil. Deməli, tədqiqat, araşdırma, dünya həqiqətlərindən, bilgilərindən, dünyanın elmi vəziyyətindən xəbərdar olmaq elm hövzəsinə lazım olan işlərdəndir.[566]

**Hövzənin dünyanın elmi hadisələrində iştirakı**

Elm hövzəsi dünyanın elmi iş və hadisələrindən kənarda qalmamalıdır. Elmi hadisələrin içində olmaq lazımdır. Əlbəttə, bu o demək deyil ki, sabah Qumdakı tələbələrin hər biri desin: çox gözəl, biz dünyanın elmi hadisələrinin içində olmaq istəyirik, deməli, dərslərimizi kənara qoyaq, əvvəlcə bir qədər xarici dil öyrənək və sonra gələk. Xeyr, ümumilikdə hövzə belə olmalıdır, tələbələrin hər biri yox. Hövzə dünyanın elm və düşüncə kanallarından ayrı düşmüş bir hovuz olmamalıdır; bəzi axınların qoşulduğu və bəzi axınların xaric olduğu böyük bir dəniz olmalıdır; bəzi düşüncələr ona daxil olmalı və bəzi düşüncələr ondan xaric olmalıdır. Siz dünyanı doyurmalısınız. Hövzə kənarda qala bilməz. Bunlar Qum Elm Hövzəsi ilə bağlı bizi düşündürən məsələlərdir.[567]

**Elmi inkişaflardan, xüsusən də humanitar elmlərdən xəbərdar olmaq**

Qum və digər hövzələr dünya hadisələrindən kənarda qalmamalıdırlar. Hövzəyə rəhbərlik edən şəxslər bir şey düşünüb elə etsinlər ki, tələbələr dünya məsələlərindən xəbərdar olsunlar. Bunlar dünya inkişaflarından, dünya hadisələrindən, müxtəlif sahələrdə - istər təbii elmlərdə, istər xüsusən də humanitar elmlərdə yeni kəşflərdən və elmi mövzulardan uzaq qalmamalıdırlar. Nə üçün? Ona görə ki, fətva

---

[566] Qum Elm Hövzəsinin müəllim və tələbələrinin toplantısında çıxışından: 1992.
[567] Yenə orada.

vermək üçün mühüm bir şərt mövzunu tanımaqdır. Əgər fəqih mövzunu tanımasa, şəriət dəlillərindən ilahi hökmü layiqincə əldə edə bilməz.[568]

**Şiə fiqhini tanıtdırmaq**

Şiə fiqhi tanınmır və çox zaman qeyri-müsəlmanların İslam fiqhi barədə araşdırmalarında yer almır. Qeyri-şiələr tərəfindən yazılan elmi fiqh kitablarında Şiə görüşləri çox zaman diqqətdən kənarda qalır. Dünya və hətta İslam ensiklopediyalarında bu fikirlər çox zaman məzhəblərin fiqh görüşləri arasında itib-batır. Bu fiqh çox geniş, dərin və mütərəqqidir. Bəlkə demək olar ki, İslam məzhəblərinin heç biri təklikdə bu üç xüsuyyətli fiqhə malik deyil. Bu fiqhi tanıtdırmaq, dünya toplumlarına, digər İslam məzhəblərinin fiqh kitablarına və dünyanın hüquq araşdırmalarına daxil etmək elmə və alimlərə xidmətdir. Bu iş düzgün və məntiqli şəkildə görülməlidir.[569]

**Hövzə dərslərini ehtiyacları aradan qaldırmağa yönəltmək**

Elm hövzəsinin əsasən insan kapitalından ibarət imkanlarının bir zərrəsi də hədər getməməli, dərsin bir saatı da faydasız, əbəs və bəlli ehtiyaclara diqqətsiz keçməməlidir. Hövzədə dərs oxuyan tələbə ehtiyaclardan birini aradan qaldırmaq istiqamətində hərəkət etməlidir; yəni ya ölkənin daxili, ya xarici üçün, ya kitab yazmaq, ya tədqiqat aparmaq, ya da tədris etmək üçün özünü hazırlamalıdır.[570]

**Dinə qarşı yeni şübhələrlə tanışlıq**

Bugünkü dünya dünənki dünyadan fərqlidir. Bugünkü dünya qəribə bəşəri bilgilərin mövcud olduğu dünyadır. Bu dövrdə də çoxlarının məsələn, əlli il öncəki kimi az savadlı olması mümkündür, lakin sizin dinləyiciləriniz yalnız bunlar deyillər, həm də alim və mütəfəkkirlərdir. Siz dinin sözünü məntiqi əsasla, güclü və ən yaxşı formada tənzim və təqdim etməlisiniz. Bunun üçün dünyanı yaxşı tanımanız, onun inkişaflarından

---

[568] Fiqhin ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərdən: 1992.

[569] İslam Fiqh Ensiklopediyasının elmi ixtisas konfransına müraciətindən: 1994.

[570] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1995.

xəbərdar olmanız, bizə və dinimizə qarşı irəli sürülən şübhə və iradları bilməniz gərəkir. Çünki bu gün dinlə mübarizə üçün daha İbn Kəmmunənin şübhələrini, yaxud yox olanın yenidən yaranması şübhəsini irəli sürmürlər. Bu gün digər şübhələr var. Ruhanilər onları öyrənməli və bilməlidirlər.[571]

**Siyasi və mədəni cərəyanları tanımaq**

Ayıqlıq başqa bir məsələdir. Ayıqlıq dedikdə məqsədim siyasi məsələlərdə ayıqlıqdır. Ayıqlıq - həyat cərəyanlarını tanımaqdır. Ayıqlığın elmlə yanaşı olması zəruri deyil. Elə alimlər var ki, ayıq deyillər, başqa sözlə desək, dünya məsələlərindən, həyatın axarından, siyasi və mədəni hadisələrdən bir şey anlamırlar; əksinə, alim olmayan elə insanlar var ki, bu məsələləri dərk edirlər. İnqilab dövründə ayıq insanların bir təbəqəsi ölkənin hadisələrini, hakim rejimi, mübarizəni və düşməni tanıyırdılar, amma heç bir elmi ixtisasları yox idi. Adi xalqın çoxu ayıq idi. Onların müqabilində yüksək elmlərə yiyələnmiş bəzi müəllimlər, alimlər, hətta din alimləri də var idi ki, həyatın axarını, mübarizəni, siyasəti, hegemonizmi və o dövrün mənfur rejimini tanımırdılar. Buna əsasən, elm və ayıqlıq məsələləri bir-birindən ayrı məsələlərdir.[572]

**Keçmiş Şiə alimlərinin zamandan geri qalmaması**

Siz görün o zaman bizim alimlərimizin elmdə, fiqhdə və kəlamda öz dövrlərinin xalqı üçün nə qədər əsərləri vardı. Keçmişdə yaşamış azsaylı alimlər böyük işlər görmüşlər. Əgər ozamankı Bağdada nisbətən İslam dünyasının uzaq bölgələri olan Nişapurda, Bəlxdə, Həratda, yaxud Tusda yaşayan bir neçə nəfər şiənin fiqhə, yaxud kəlama aid sualları olurdusa, Şeyx Müfid Bağdaddan onlara yol göstərirdi. Yəni Şeyx Müfid öz zamanından geri deyildi.

Yaxud Şeyx Tusinin dövründə Əhli-beyt məktəbinin düşməni "sizin kitabınız yoxdur" – deyən kimi Şeyx Tusi özü təklikdə işə başladı, ən

---

[571] Mazandaran vilayətinin ruhaniləri ilə görüşdə çıxışından: 1995.

[572] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışından: 1995.

böyük rical kitabını xülasə etdi, özü də ayrı bir rical kitabı və bir də biblioqrafiya yazdı. Yəni gecikmədən Kəşşinin rical kitabını xülasə etdi, özünün ər-Rical və əl-Fihrist kitablarını yazdı.

Hələ "fiqhiniz yoxdur" deyən şəxsin iradı evindən bayıra çıxmamışdı ki, birdən o zamanın səviyyəsinə görə sanballı və güclü tədqiqat əsəri olan Məbsut təqdim olundu. Əgər Məhəmməd ibn Zəkəriyya Razinin dilindən üş-dörd ateist sözü çıxırdısa, Seyid Mürtəza Razi cəld onun əleyhinə kitab yazırdı və sözünün cavabsız qalmasına imkan vermirdi. Əgər Əhli-beytin inadkar düşməni olan hansısa yazıçı bir kitab yazıb Şiə həqiqətlərini və əməllərini ələ salırdısa, Əbdülcəlil Razi Qəzvini dərhal ən-Nəqz kitabını yazıb qarşısına qoyurdu. Buna əsasən, fiqh və kəlam sahələrində şiəyə kim bir söz desəydi, qüdrətlə və elmi dillə ona cavab verirdilər, rəqibin və düşmənin sözü təsirsiz qalırdı.

Son dövrlərə qədər vəziyyət belə olmuşdur. Hindistanda bir nəfər peyda olub Şiə əleyhinə, şiələri məzəmmət etmək üçün və guya Əhli-beytin mədhində "Töhfə İsna əşəriyyə" kitabını yazdı. Seyid Hamid Hüseyn ona cavab olaraq dəyərli Əbəqat kitabını yazdı. Səhv etməsəm, "Töhfə İsna əşəriyyə" kitabına cavab üçün təxminən on kitab yazılmışdır.

Mən hindistanlı şiə alimlərinin kitablarına aid bir mündəricata baxırdım. Onların arasında birinci dərəcəli alimlər də vardı. Fikrimcə, bu kitabın əleyhinə on və bəlkə də daha artıq kitab yazılmışdır. Elm hövzələri öz dövrlərindən geri qalmırdılar. Bir nəfər peyda olub əlyazma formasında olan bir kitabında bir söz yazırdı, digəri onun bir nüsxəsini yayırdı, başqa birisi oxuyurdu. Bu müddətdə dörd-beş nəfər ondan xəbərdar olurdu. Şiə alimi tez həmin işə eyni yolla cavab verirdi. Bəzən daha sərt və daha sürətli olurdu, ondan daha yaxşı çalışırdı və geri qalmırdı.

Şəhid Əvvəlin (Birinci şəhidin) dövrünə qədər əllamənin və Fəxrülmühəqqiqinin kitabları kimi fiqh kitablarımız adətən özündə Əhli-sünnənin görüşlərini də ehtiva edirdi. Amma o dövrdən sonra Şiə alimləri adətən Əhli-sünnənin görüşlərini yazmırdılar. Siz görürsünüz ki, həmin kitablarda Əhli-sünnə fəqihlərinin nəzərləri müxtəlif dəlillərlə cavablandırılmışdır. Təkcə Xilaf kitabına baxmayın, Şeyx Tusi orada təkcə

icma dəlilinə söykənmişdir. Əllamənin və digərlərinin, eləcə də Şeyxin özünün kitablarının adətən möhkəm və geniş dəlilləri var.[573]

**Elm hövzəsinin zamandan geri qalması**

Bu gün isə belə deyil. Bu gün elm hövzəsi öz dövründən çox geridədir, bir addım, iki addım söhbəti deyil. Sanki ata minmiş iki nəfər bir yerdə birgə gedirlər. Birinin atı digərinkindən daha iti qaçır. Atı zəif qaçan sonradan avtomobil tapır. Təbiidir ki, atı iti qaçan onun tozuna da çatmaz. Bu gün vəziyyət belədir. Hal-hazırda fiqh, fəlsəfə, kəlam və hüquq dalğaları dünyanı bürümüşdür. Bizsə özümüzə baxdıqda görürük ki, zamanla məsafəmiz çoxdur. Hətta əxlaqda da belədir.[574]

**Prinsiplər üzərində təkid və ehkamçılıqdan çəkinmək**

Ehkamçılığı prinsip və dəyərləri qorumaqla səhv salmayın. Hövzə prinsipləri qorunmalıdır. Bu, ehkamçılıqdan fərqli bir şeydir. Ehkamçılığın mənası odur ki, biz elmi hərəkətimiz üçün zəruri və vacib ehtiyaclarımızı görməzdən gələk. Ehkamçılığın mənası budur. Əgər sizin elmi inkişafınız üçün nəsə lazımdırsa, onu təmin etməlisiniz. Əgər qısa, təhlükəsiz, yaxud daha səmərəli bir yol varsa, o yolu tapmalı, sonra da onun nəqliyyat vasitələrini əldə etməlisiniz. Bunun oyan-buyanı yoxdur. Əgər iki ayağınızı bir başmağa dirəyib "xeyr, mən həmişə bu tərəfdən getmişəm,ində də bu tərəfdən gedəcəyəm" - desəniz, təbii ki, iş korlanacaq. Hövzələrdə doqmatizm olmamalıdır. Hövzələrin ən yeni düşüncəli alimləri tələbələr üçün ən səmərəli şəxslər olmuşlar.[575]

**Hövzələrin İslam düşüncələri və elmlərində sıçrayışının zəruriliyi**

Biz bu gün elm hövzələrinə bağlı şəxslər kimi bu qlobal fenomenə diqqət yetirib İslam mövzularında öz elmi rəftarımız barədə yeni bir düşüncəni, hərəkəti və sıçrayışı planlamalı, onun bünövrəsini qoymalıyıq. Əsasında bu siyasi hərəkətin vücuda gəldiyi bir elmin - yəni İslam

---

573 Qum Elm Hövzəsinin alim və müəllimləri ilə görüşdə çıxışından: 1995.
574 Yenə orada.
575 Məşhəd Elm Hövzəsinin tələbələri ilə görüşdə çıxışından: 1997.

bilgilərinin, İslam kəlamının və İslam fiqhinin bu gün dünyanın elmi və siyasi mərkəzlərində bu qədər diqqət mərkəzində olduğunu müşahidə ediriksə, biz daha çox düşünməli, daha diqqətli olmalı, dini fikir sahibləri və din alimləri kimi öz işimizin əhəmiyyətini yenidən dəyərləndirməliyik.[576]

**Ehtiyaclara hesablanan İslam tədqiqatı və təbliğatı**

Siz bilin ki, din təbliğatı, tədqiqatı və kitab yazmaq işi çox mühümdür. Siz oturub kitab və sünnədən bir İslam əsasını və düşüncəsini çıxarın, sonra onu nizama salın, internetə ötürün, yaxud universitetlərin, teleradionun ixtiyarına buraxın və bununla öhdənizə düşən işi yerinə yetirin. Həm də bu işləri yüksək səviyyədə görün. Tarix, hədis və təfsir sahələrində işləyin. Hər halda, iş görün. Axtarın, istedadınızı işlədin, görün bu gün boşluq haradadır. Əlbəttə, Allaha şükür olsun ki, sizin bəziləriniz çox mühüm işlər görürsünüz. Biz demirik ki, bu işləri buraxın və tədqiqatla məşğul olun. Xeyr, vaxtı olan və tədqiqat işi görə bilən şəxslərə deyirik. Hər halda, bu təşkilat fəaliyyətinə və mövqeyində möhkəmliyinə görə Allah-Taalanın lütf və mərhəmətini cəlb edə bilər. Danışılan sözlərdən qorxmayın.[577]

**Düzgün dini düşüncə boşluğunun nəticəsi**

Xalis, qədim və düzgün düşüncələrin boşluğu müşahidə olunduqda saxta və yalançı düşüncələr, qeyri-sağlam və qeyri-düzgün fikirlər bazara çıxır. Bu təbii haldır. Çünki müştəri həmişə orada dayanmışdır. Əgər xalqa təmiz, düzgün və yaxşı məhsul təklif etsələr, xalq tanıdığı təqdirdə pis məhsula tərəf getməz. Lakin bu yandan boşluq yaransa, saxta malların bazarı qızışar. Təəssüf ki, bu gün bizim cəmiyyətimizdə müşahidə olunan budur. Zahiri çox gözəl olan saxta qızıl sikkələr, zahiri çox gözəl olan saxta pullar əslində etibarsızdır, amma adi camaat bunu seçə bilmir.

İslam düşüncələri bazarında bu gün vəziyyət belədir. Hər tərəfdən bir nəfər qalxıb başa düşülməsinin və dərk olunmasının dini qaynaqlar

---

[576] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1999.
[577] Həqqani mədrəsəsinin üzvləri ilə görüşdə çıxışından: 1999.

üzərində elmi əsaslara ehtiyacı olan din məfhumları, uca İslam anlayışları haqda uyğun əsaslara malik olmadan fikir yürüdür və özlərindən danışırlar: İslam belə deyir, İslam elə deyir. O söhbət və minbərdə bir kəs də yoxdur ki, ondan "İslam bu sözü harada deyir" - deyə soruşsun. Bütün bəşər məfhumlarını İslamın baxışından izah edirlər; azadlığı izah edirlər, insanlığı izah edirlər, insan hüquqlarını izah edirlər, ədaləti izah edirlər. Haraya və hansı İslama istinad etdikləri isə bəlli deyil.

Bu, çox pis haldır. Bəzi insanlar lazımi səlahiyyətlərə malik olmadan elə mövzuda fikir bildirirlər ki, qərəzli olmasa da, ən azı cahilanədir.[578]

**Yanlış dini nəzəriyyələrin yeni düşüncə adı ilə ortaya qoyulması**

Bu günün həmin zamanla fərqi budur ki, İslamın əsaslarına və dini elmin təməllərinə dair səhv sözlər avamcasına, lakin bəzəkli qəliblərdə, yeni fikir və elm qəlibində deyilir, halbuki elm deyil, səhvdir. Buna qarşı elmi tədbir görməyə ehtiyac var. Hökumətin tədbiri ayrıdır. Hökumətlər hər yerdə bu sahələrə girə bilməzlər və girmirlər. Düzgün və təsirli də deyil. Lakin elm adamları bu işdə aktiv olmalıdırlar.

Dinin özünə, fəlsəfəsinə, etiqadi əsaslarına, İslam Respublikasının atributları olan İslam təlimlərinə - misal üçün, konstitusiyada və digər yerlərdə göstərilən məsələlərə, İslam fiqhinə, Peyğəmbər və imamların davranışına dair elə söhbətlər edilir ki, nə tarixə əsaslanır, nə hədisə, nə Qurana, nə fiqh metodikasına, nə bəlli dini əsaslara, nə də çox dərin və zərif bir fənn olan fiqh üslubuna. Heç bir şeyə əsaslanmadan alimnüma şəkildə, gözəl və səlis ifadələrlə bəyan olunur. Bu işi görənlər təəssüf ki, cəmiyyətin aparıcı və görkəmli şəxslərinin bir qismidir. Keçmişlə fərqi budur.[579]

**Din mənbələrindən dövrün ehtiyacına uyğun düşüncənin istehsalı**

Bütün mədəniyyətlər kimi İslam mədəniyyəti üçün də iki əsas amil lazımdır: biri fikir istehsalı, biri kadr hazırlığı. İslami fikir bir dəniz kimi dərindir, bir okeandır. Okeanın sahilinə gedən adam bütün okeanı

---

578 Fiqhin ali ixtisas (xaric) dərsindən: 2000.

579 Yenə orada.

tanıdığını iddia edə bilməz. Sahilə yaxınlaşan, yaxud bir neçə metr suda irəliləyib bir nöqtədə batan adam da okeanı tanıdığını deyə bilməz. Bu böyük okeanın dərinliyinə getmək və onu kəşf etmək - burada kitab, sünnə və bütün bunlardan istifadə olunur - hamının görməli olduğu bir işdir; elə bir işdir ki, zaman boyu yerinə yetirilməlidir. Bu böyük elm okeanında hər bir zamana uyğun fikir istehsal etmək mümkündür.

Bir zamanlar mərhum Şəhid Mütəhhərinin sözləri deyiləndə bəzilərinə qəribə gəlirdi. Şəhid Mütəhhərinin sözləri Quranın, İslamın sözləri idi. Lakin dinlə, Quranla və İslamla işləyən adamların çoxu o sözlərlə tanış deyildilər. Bu, bütün zamanlarda ayıq mütəfəkkirlər, quranşünaslar, hədisşünaslar, Quran və hədisdən nəticə çıxarma üslubu, İslam maarifi, Quranda, İslam hədisində və İslam sünnəsində bəyan olunan mətləblərlə tanış olanlar üçün mümkündür. Əgər onlar dövrün ehtiyacını, sualını və bəşəriyyətin istəyini bilsələr, İslam mənbələrindən günün sözünü çıxara bilərlər. Yeni söz, bəşəriyyət üçün bələdçi və yolaçan düşüncə həmişə var.[580]

**İslam fəlsəfəsinin ümumi tədrisinin zəruriliyi**

Digər məsələ zamandan geri qalmamaqdır. İndi dünyada tez-tez yeni düşüncələr meydana çıxır, siyasi və iqtisadi cəhətdən hakim qüvvələrlə əlaqəsinin miqdarına uyğun olaraq yayılır. Bunun oyan-buyanı yoxdur. Qərbdən baş qaldırmış fəlsəfi nəzəriyyələri - bəzi hissələr ümumiyyətlə, fəlsəfə deyil və ona fəlsəfə adı qoymaq səhvdir, bəzi hissələr isə fəlsəfədir, həm də bəzi sözləri dəqiq və düzgündür – digər cəmiyyətlərdə israrla yayırlar. İstəyirlər ki, fəlsəfə deyəndə ancaq Kantın, Hegelin, Dekartın, Spinozanın və digərlərinin fəlsəfəsi yada düşsün, öz fəlsəfələri əsla yadlarına düşməsin.

Mən sizdən soruşuram: İran xalqının elmi-mədəni inkişafının düşmənləri bu işdə müvəffəq olublar, yoxsa yox? Cavab budur: Bəli, təəssüf ki, böyük həddə müvəffəq olublar. İndi siz universitetə gedin və Ədəbiyyat institutunun Fəlsəfə departamentindən nəyi tədris etdiklərini soruşun. Görün Məşair, Əsfar, Mənzumənin şərhi, Şəvahid ər-rübubiyyə

---

[580] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2000.

və digər bu kimi kitabları tədris edirlər? Əsla! Bunların adlarını da eşitməyiblər. Hegelin və Kantın kitablarını isə tədris edirlər. Biz indi bu işin qarşısını almaq şəraitində deyilik. Əlbəttə, əgər bir zaman bu məmləkətdə qayğıkeş və müdrik şəxslər olsaydılar və universitetlərdə çalışan xainlər imkan versəydilər, bir yolla bunu nəzarətə götürərdilər, amma bu işi görməyiblər. Biz bu gün bu işin qarşısını almırıq; nə istəyirlər gəlib desinlər.

Biz öz fəlsəfə və kəlamımızı öyrənməli və yaymalıyıq. Bunlar iki şeydir. Kimsə düşünməsin ki, biz kəlamı öyrənirik, daha fəlsəfə nədir? Xeyr, kəlam bir yerdə problemi həll edir, amma Qərb fəlsəfələri ilə güc sınamaq və savaşmaq gərəkdiyində fəlsəfə lazımdır.[581]

**İdxal olunan müxtəlif düşüncələrin elmi qarşılaşmaya ehtiyacı**

Bizdə keçmişdə də idxal edilmiş fikirlər olmuş, amma bu qədər geniş və təsirli olmamışdır. Bizim tariximiz elmi təfəkkürlərimizə, fiqhimizə, fəlsəfəmizə, kəlamımıza daxil edilən belə qeyri-sağlam fikir əlamətləri ilə doludur. Lakin bu gün əlaqələr genişlənmiş, cəmiyyətin fikir mühitinə zahiri gözəl olan cürbəcür sözlər daxil olmuşdur. Bu baxımdan, düzgün və elmi bir mübarizəyə ehtiyac yaranmışdır.[582]

**Şəhid Mütəhhəridən sonra elm hövzələrinin ağır vəzifəsi**

Bu gün biz həqiqətən də, Şəhid Mütəhhərinin düşüncə süfrəsinin ətrafında oturmuşuq. Bunda heç bir şübhə yoxdur. Cəmiyyətin elmi mühiti müxtəlif sahələrdə, o cümlədən fəlsəfi, dini-ictimai və dini-siyasi sahələrdə hələ də onun düşüncəsinə borcludur. Bu gün bizim ona ehtiyacımız var, amma o da kifayət etmir. Çoxlu yeni sözlər var. İrad və şübhələrin çoxu Şəhid Mütəhhəridən sonra meydana çıxıb. Bunlara cavab verməl lazımdır. Bu baxımdan, elm hövzələrinin boynuna ağır vəzifə düşür.[583]

**Tələbə yetişdirməkdə elm hövzəsinin vəzifələri**

---

[581] Qəzvinin hövzə alimləri və tələbələri ilə görüşdə çıxışından: 2003.
[582] "Pak hikmət" konfransının təşkilatçıları ilə görüşdə çıxışından: 2004.
[583] Kermanın alim və ruhaniləri ilə görüşdə çıxışından: 2005.

Deməli, elm hövzələrinə lazım olan birinci iş dini təhsili dərinləşdirməkdir. Dərs oxumaq və işləmək lazımdır. Elm hövzələrinin düşüncə istehsalı olmalı, alim, aydın, pak, dünyanı tanıyan, dünyanın siyasi məsələləri ilə tanış olan ruhanilər yetişdirməlidir. Bizim problemlərimizdən biri dövrün vəziyyətini tanımamaqdır. Bəzilərinin elmi və təqvası da var, lakin dayanıb işləməli olduqları yeri və səngəri tanımırlar. Sanki bir nəfər öz cəbhəsi ilə düşmən cəbhəsi arasında durub öz səngərini itirir və düşməninin istiqamətini səhv salır; atəş açır, lakin bəzən dostlarının başına güllə yağdırır.

Dünyanın siyasi və düşüncə coğrafiyasını tanımamaq, həmçinin düşmənin mərkəzləşdiyi və baxış xətti olan nöqtəni, ədavət və kin kamanından atılan oxun yolunu tanımamaq bizim üçün çox problem yaradır. Elmi sahədə işləməli, siyasi baxımdan ayıq olmalı, şəxsi baxımdan da özümüzü paklamalı, mənəviyyat əldə etməliyik. Ruhani paklığın və saflığın simvoludur.[584]

**Hazırkı dövrdə din alimlərinin çoxlu problemləri**

Hər bir dövrün tələbi var. Bir zaman İslamın Quran kimliyini müdafiə etmək üçün kitablar yazırdıq, dəlillər göstərirdik, danışırdıq; bir qrup dinləyici, mürid və istəyən də vardı. Bunları bizdən eşidirdilər və işimiz görülürdü. Tağut rejimi də bundan artığına icazə vermirdi. Bəziləri daha zirək olub daha geniş fəaliyyətlər göstərirdilər, bəziləri də minimumla kifayətlənirdilər. Bəs bu gün necə?

Bu gün mənim və sizin məsuliyyətimizi ağırlaşdıran iki amil var. Bir amil düşüncə təbliğatı yollarının inkişafıdır. Siz görün bu gün televiziya, radio, elektron cihazlar, internet və digər rabitə vasitələri dünyada hansı məqsədlərə xidmət edir. Bu gün hegemonizm xəncər göstərməklə kifayətlənmir; xəncər də göstərir, amma onun kənarında xalqları yanlış düşüncəyə, yanlış yola, zülmkar və fəsadçı üsula məcbur etdirmək üçün digər onlarla vasitədən istifadə edir.

Bu gün danılmaz faktlarla sübuta yetmişdir ki, Hollivudun böyük kino şirkətləri ABŞ-ın hegemon dairələri ilə sıx əməkdaşlıq edir. Bu gün

---

[584] Yenə orada.

çoxlu sənət adamlarının, rejissorların, aktyorların, pyes yazanların, ssenaristlərin və investorların yer aldığı onlarla böyük film şirkətinin toplandığı bu böyük film və kino mərkəzi bəlli məqsədlərin xidmətində hərəkət etməkdədir. O məqsədlər ABŞ dövlətini də idarə etməkdə olan hegemon siyasətin məqsədlərindən ibarətdir. Bunlar kiçik məsələlər deyil.

Bu gün siz İslamı, dini, həqiqəti və düz yolu həm xalqa göstərmək, həm də xalqı bu yola çıxarmaq üçün böyük problemlərlə üz-üzə qalmısınız. Gərək özümüzü dövrə uyğunlaşdıraq. Şübhələr yüz il, iki yüz il bundan öncəki şübhələr kimi deyil. Sizin övladınızın, tələbənizin, hətta şagirdinizin beyninə yeridilən şübhələr günün şübhələridir. Buna qarşı kim mübarizə aparmaq istəyir? Din alimlərindən və əqidə sərhədçilərindən başqa kim bu zəhərli oxların qarşısında dayanmalıdır?![585]

---

[585] Kürdüstan vilayətinin şiə və sünni ruhaniləri və hövzə tələbələri ilə görüşdə çıxışından: 2009.

## Yeddinci fəsil: Universitetlə birlik

### Hövzə və universitet birliyinin mənası

İslam quruluşunda elm və din yanaşı hərəkət etməlidir. Hövzə və universitetin birliyi budur. Hövzə və universitetin birliyinin mənası bu deyil ki, mütləq hövzə ixtisasları universitetdə və universitet ixtisasları hövzədə tədris olunsun. Xeyr, buna lüzum yoxdur. Əgər hövzə və universitet bir-birilə əlaqədə olsa, əməkdaşlıq etsələr, bir-birinə yaxşı münasibət bəsləsələr və kömək göstərsələr, elm və din adlı bir müəssisənin iki şöbəsi olacaqlar. Elm və din bir müəssisədir, birgədir. Bu müəssisənin iki şöbəsi var: biri elm hövzələri, digəri isə universitetlər. Amma bunlar bir-biri ilə əlaqədə, bir-birinə qarşı nikbin olmalı, birgə işləməli, bir-birindən ayrılmamalı və bəhrələnməlidirlər. Bu gün elm hövzələrinin öyrənmək istədiyi elmləri universitet mənsubları onlara öyrətsinlər, universitet tələbələrinin ehtiyacı olan din və dini bilgiləri də hövzə alimləri onlara öyrətsinlər. Universitetlərdə ruhani nümayəndələrinin fəaliyyəti buna görədir. Çox yaxşı olar ki, bu əlaqələr proqramlı şəkildə idarə olunsun. Bu ən yaxşı və ən təbii vəhdətlərdən biridir.

Bildiyiniz kimi, repressiya dövründə - zalım rejimin ruhaniləri ali təhsilli insanlardan ayırmaq üçün bütün vasitələrdən istifadə etdiyi zaman bir qrup ayıq, alim, ağıllı, məsləhəti bilən və xeyirxah ruhanimiz universitetlərlə əlaqələri möhkəmləndirdilər. Bu yönümdə ən yaxşı işlər mərhum Ayətullah Mütəhhəri kimi alimlərin universitetlərdə çıxışları idi. Mərhum Doktor Müfəttih də belə ruhanilərin ən fəal və aktivlərindən idi.[586]

### Hövzə və universitetin müştərək tədqiqatları

Böyük İmamın təkid göstərdiyi məsələlərdən biri hövzə və universitetin əlaqəsidir. Elm hövzəsi bu sahədə nə iş görmək istəyir? Hövzə və universitetin əlaqəsi necə təşkil olunacaq? Bizdə hövzə və universitetin əməkdaşlıq qurumu var. Düzdür, çox dəyərli və yaxşı işlər görmüşdür, lakin o böyük işə nisbətən yalnız kiçik bir hissəni əhatə etmişdir. Müştərək tədqiqatlar, araşdırmalar və işlər görülə bilər.

---

[586] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışından: 1989.

Hövzə tələbələri öz dövrlərinin bilgiləri ilə tanış olmalı və günün elmlərini öyrənməlidirlər. Əlbəttə, bu o demək deyil ki, onlar öz dərslərini buraxmalıdırlar. Hövzə proqramları əhatəli olmalı, tələbələri lazımi bilgilərlə tanış etməlidir.[587]

**Hövzə və universitet və onların arasında birlik**

Bunu hamı başa düşür. İmam və digər böyük şəxsiyyətlər demək istəmirdilər ki, universitetlər yığışıb Quma getsinlər, yaxud Qum hövzəsinin bir şöbəsi olsunlar, yaxud Qum hövzəsi gəlib universitetlərə birləşsin, yaxud onların bir şöbəsi olsun. Heç kəs bunu istəmədi və demədi. Məsələ budur ki, bizim tələbə yetişdirən iki orqanımız var: Biri dini məfhumlara və onun təbliğinə aid elmlərə, dini mövzularda yeniliyə, həyatda aktual və yeni məsələləri anlamağa aiddir. Bu, hövzədir. Onun işi dini məsələləri araşdırmaq, yalnız mehrabın küncünə, yaxud evin bir tərəfinə yox, əslində həyatın bütün sahələrinə dair Allahın hökmlərini öyrənməkdən ibarətdir. Bu qrup bunu öyrənməli, yeni hökmləri araşdırmalı, ondan olmayan qatqıları təmizləməli və onu münasib dillə hər bir cəmiyyətdə və hər bir zamanda hər bir tərəf-müqabilə ən gözəl şəkildə çatdırmalıdır. Bu, hövzə orqanının vəzifəsidir və adı elm hövzəsidir.

Başqa bir tələbə orqanı da var. Bu tələbə orqanı dinə bağlı məsələləri çıxmaq şərtilə, xalqın digər işlərinin idarəsi ilə əlaqədardır. Xalqın gəliri, qazancı, binası, yolu, bədəni, müxtəlif iş və məsələləri var. Xalqın həyati işlərində də tədqiqat lazımdır. Xalqın həyatını yaxşılaşdırmaq və sahmana salmaq üçün müxtəlif elmlər, növbənöv biliklər var. Bu orqan da belə elmləri öyrənməklə məşğuldur. Bunları öyrənib mütəxəssis və nəzər sahibi olur, uyğun araşdırma aparır, cəmiyyətdə icra etməyə hazırlayır; dünyanın yeni tədqiqatlarını öyrənir və öz növbəsində yeniliklər edib bəşəriyyətə təqdim edir. Bu da başqa bir tələbə orqanıdır.[588]

**Hövzə və universitetin birliyinə dair sadə bir təsəvvür**

---

[587] Qum Elm Hövzəsinin tələbə və müəllimlərinin toplantısında çıxışından: 1992.

[588] Hövzə və Universitetin Birliyi Günü münasibətilə tələbələrlə görüşdə çıxışından: 1993.

Təsəvvür edin biz hövzə və universitetin vəhdətindən danışdıqda mənası bu olsun ki, bütün elmi kafedralar hövzədə də açılsın. Xeyr, məqsəd bu deyil. Kafedra öz yerində açılır, hövzə də özünün coğrafi məkanında. Vəhdətin mənası bu deyil ki, bu oraya getsin, o buraya gəlsin və hamısı bir yerdə, bir mühitdə, bir tavan altında yaşasınlar. Bu, mürəkkəb və mühüm bir məsələnin ibtidai şəkildə başa düşülməsidir. Yaxud heç kim güman etməsin ki, biz hövzə və universitetin birliyindən söhbət etdikdə hövzə metodlarının eynilə universitetdə tətbiq olunmasını istəyirik. Xeyr! Əlbəttə, hövzənin bəzi metodları çox yaxşıdır və universitet onları öyrənməlidir. Necə ki, biz hövzədə bəzi tədqiqat metodlarını universitetdən öyrənirik.[589]

**Hövzə və universitetin yaxşı üsullarının mübadiləsi**

Hər halda, hər bir elmi mühitdə hövzənin bəzi metodlarını öyrənsələr, yaxşı olar. Yeri gəlmişkən, bu da o demək deyil ki, hövzənin hər bir tədris metodu yaxşıdır. Biz hövzənin bəzi üsullarına irad bildiririk. Buna hövzə mənsublarının özləri də həmişə irad bildirirlər. Məqsəd bu deyil ki, hövzədə olan hər bir şey universitetə gətirilməlidir. Əlbəttə, hövzədə olan hər bir yaxşı metodu universitetdə öyrənməlidirlər, universitetdə olan hər bir yaxşı metodu da hövzədə. Ənənəvi və yeni yaxşı metodlar bir-birini təkmilləşdirir. Çünki biz hər bir yeni şeyə qarşı çıxmırıq.[590]

**Hövzə və universitetin birliyinin dərinləşməsi**

Biz deyirik ki, hövzə və universitet onlar üçün lazım olan xarici metodlardan da istifadə etsin, özümüzdəki faydalı klassik metodlardan da. Hövzə və universitetin əlaqəsi məsələsində söhbət bu deyilən həddədir, onların birliyi isə bundan çox genişdir, ümumiyyətlə, başqa bir şeydir. Məsələ budur ki, ölkəmizdə iki elm və təhsil xətti mövcuddur. Onun biri cəmiyyətin dəyərlər sisteminə aid olan elmlərlə bağlıdır. Bu xətt hövzədir;

---

[589] Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə hövzə və universitet tələbələri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 1994.
[590] Yenə orada.

dinlə, əxlaqla və ilahi fəlsəfə ilə məşğuldur. Hövzələrin işi elmi iş və oradakı elmi incəliklər çox yüksək və dərin olsa da, cəmiyyətin dəyərlər sisteminə, eləcə də din və əxlaqa xidmət edir.

Digər elmi xətt, yəni universitet cəmiyyətin digər ehtiyaclarına hesablanıb. Cəmiyyət elmsiz, sənayesiz, elmi inkişafsız və yeni kəşflərsiz yaşaya bilməz. Bəşər birinci dərəcəli məişət imkanlarına ehtiyaclı olduğu qədər elmə və alimə də ehtiyaclıdır. Müxtəlif elmlər – tibb, texnologiya, hətta incəsənət və ədəbiyyat da insan həyatına lazımdır.[591]

**Universitetsiz hövzənin nəticəsi**

Elmsiz bir cəmiyyətin həyatı acı, zəif, bədbəxt və uğursuz olar. İkinci xətt həyatın zəruri ehtiyaclarını təmin etməyə çalışır. Bu iki elmi xətt, yəni universitet və hövzə çox lazımdır. Onların hər hansı olmasa, cəmiyyətin əsas iki sütunundan biri dağılmış olar. Məsələn, hövzə olsa, lakin universitet olmasa, nəticə nə olar?

Nəticə xalq və ölkəmizin problemlərə düçar olması, geri qalması və nəhayət, düşmənin elm bəhanəsi ilə bu ölkəyə hökmranlıq etməsi olar. Nəticə budur. Çünki bir ölkədə elm, sənaye, texnika olmasa, başqa bir ölkə bunları ölkəyə satacaq. Lakin neçəyə? Özü istədiyi qiymətə; müştəri ölkənin bütün maddi sərvətlərinin qiymətinə. Deyəcək ki, siz yeraltı sərvətlərinizi mənə verin, mən də sizə sənaye məhsullarımı verim. O da müəyyən mənada çarəsiz qalacaq. Pəhləvi rejimi dövründə bu iş baş tutdu. Neftlə elmə sərmayə yatırmadılar. Bir qədər pul xərcləmədilər ki, ən azı gələcəkdə əcnəbilərə möhtac olmasınlar. Bu işi görmədilər. İran heç nəyi hesablamadan öz pulunu Qərbin hesabına köçürdü, Qərb də yenə də seçim etməklə və dəllalbazlıqla məhsullarını İran bazarına gətirdi. Buna görə də, cəmiyyətimiz asılı və elmsiz bir cəmiyyətə çevrildi, bir alim və tədqiqatçıya iş şəraiti tapılmadı.

Fərz edək, bir cəmiyyətdə hövzə, mənəviyyat və əxlaq var, lakin elm yoxdur. Bu elmsizlik onun axırına çıxar. Çünki düşmən o cəmiyyətə lazım olan elmi məhsulu hətta mənəviyyatının qiymətinə ona sırıyar və satar. Bu

---

[591] Yenə orada.

cəmiyyət bir müddət dözüb lazımi məhsulları ölkəsinə daxil etməyə bilər, amma sonunda buna məcbur olar.[592]

**Hövzəsiz universitetin nəticəsi**

Əgər bir ölkədə, cəmiyyətdə yaxşı universitet olsa, amma yaxşı elm hövzəsi olmasa, vəziyyət necə olar? Ondan da pis olar. Bu zaman ölkədə elm inkişaf edər, lakin qeyri-insani məqsəd və dəyərlər istiqamətində. Zülmün, hegemonizmin, ayrıseçkiliyin, iffətsizliyin, hətta milli amallara xəyanətin xidmətində duran elm olar. Mənim əzizlərim! Təəssüf ki, şah dövründə belə oldu. Universitet açdılar, amma əsasını dindən, hövzədən ayırdılar. Elm hövzəsi də ayrı idi, universitet də. Ona görə də çox pis nəticələr əldə etdik. Bu haqda danışacağam. Deməli, universitetsiz və yalqız hövzə cəmiyyətin ehtiyaclarına kifayət etmir. Hövzəsiz və yalqız universitet də kifayət etmir.[593]

**Ölkənin iki elm qanadı arasında ziddiyyətin nəticəsi**

Əgər universitet din və İslam dəyərlərinə, elm hövzələrinin təmin etməyə çalışdığı dəyərlərə, hövzə də yeni elmlərə qarşı çıxsa, bir-birinə kömək göstərməli, quruluşun iki təməli və uca bəşəri zirvələrə pərvaz etmək üçün iki qanad olmalı bu iki elmi xətt bir-birinin əleyhinə işləməyə başlayar. Bu zaman nəticə nə olar? Ən pis nəticələr qarşıya çıxar. Çünki iki amil quruculuq əvəzinə bir-birini sıradan çıxarmağa çalışarlar və bu çox təhlükəlidir. Mənfur Pəhləvi rejiminin ortalarında bunun üçün plan cızmışdılar.[594]

**Pəhləvi rejiminin hövzə və universitet qarşısında siyasətləri**

Əvvəl istədilər hövzəni bağlasınlar, gördülər olmur. Nə üçün? Çünki istəyirdilər universitet olsun, hövzə isə olmasın. Rza xan bu üsulu seçmişdi. Sonra gördülər ki, alınmır, mümkün deyil. Buna görə Pəhləvi şahlığının ortalarında ikinci planı icra etdilər. İkinci siyasət bu idi ki, hövzə olsun,

---

[592] Yenə orada.

[593] Yenə orada.

[594] Yenə orada.

lakin universitetlə heç bir əlaqəsi olmasın, universitetə, hər bir yeni elm və texnologiyaya bədbin yanaşsın. Bu bir tərəfdən. Digər tərəfdən də təbliğatla və digər yollarla universiteti bacardıqları qədər hövzə əleyhdarı, din və ruhani əleyhdarı kimi yetişdirdilər, universitetlərdə və yeni elm mərkəzlərində ruhaniləri və din elmini gözdən saldılar. Ruhaniləri zəhlətökən, ziyanverici, savadsız, müftəxor bir qrup kimi tanıtdırdılar. Nə üçün? Ona görə ki, pak, mömin və ixlaslı bir tələbə gənc bir ruhaninin yanına getməyə əsla maraq göstərməsin. Universitetlərdə də bu məqsədlə müxtəlif işlər gördülər. Onların planı belə idi. Nəticə nə oldu? Nəticədə nisbətən uzun bir dövrdə bizim universitetlərimiz yararsız məzunlar yetişdirdilər.[595]

### Universitet elminə dəyər istiqamətinin verilməsi

Hövzə və universitetin birliyi - bu iki xəttin bir-birinə üz tutmasıdır. Yəni universitet elm və təhsili hövzənin elmi metodlarla araşdırma apardığı və tədris etdiyi İslam və əxlaq dəyərləri istiqamətində aparsın. Elm din və əxlaq istiqamətində, insan naminə, əcnəbi asılılığından qurtulmaq, milli istiqlaliyyətimizi təmin etmək, İslam ümmətinin başucalığı, ABŞ-ın, yaxud Avropanın daha elm vasitəsi ilə xalqları bədbəxt edib tapdaya bilməməsi üçün olsun, qalxana və uçuş vasitəsinə çevrilsin... Bütün bunlar o zaman baş verəcək ki, universitet hövzədən öyrənsin, hövzədə olan din və əxlaq dəyərləri universitetə yol tapsın.[596]

### Hövzənin universitet üsullarından istifadəsi

Əlbəttə, elm hövzəsi də inkişaf etmək və ehkamçılıqdan çıxmaq üçün universitetdə qəbul olunan elmi metodları öyrənməlidir. Bu gün Allaha şükür olsun ki, hövzə bu baxımdan çox inkişaf edib. İmamın nəzərdə tutduğu birlik budur. Bu bütün ölkəni, həm hövzəni, həm universiteti kamil həddə çatdıracaq xüsusiyyətdir.[597]

---

[595] Yenə orada.

[596] Yenə orada.

[597] Yenə orada.

**Universitetin hövzənin elmi həmkarı olması**

Mən elm hövzəsindəki əziz qardaşlara tövsiyə edirəm ki, hövzə və universitetin ayrılığına və ziddiyyətinə çalışan təxribatın növbəti dəfə səmərəyə çatmasına qoymasınlar. Universiteti elmi həmkar bilin: siz bir fəndə təhsil alırsınız, onlar digər fənlərdə; bir elmi təşkilat sizsiniz, biri də ölkənin universitetləri. Düşmən hövzə ilə universitet arasında həmişə nifrət və ədavət yaratmağa çalışmışdır. Buna imkan verməyin. Bir universitetdə kiminsə yanlış hərəkəti hansısa hövzədə birisinin səhv işi kimidir; nə onu ümumiləşdirmək olar, nə bunu. Əlbəttə, hövzə və universitetin əlaqəsində məqsədim sırf duyğusal əlaqədir. Sözsüz ki, elmi-praktik əlaqə də mümkündür, lakin indi bundan danışıram.[598]

---

[598] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin müəllim, tələbə və alimlərinin böyük toplantısında çıxışından: 2000.

## Səkkizinci fəsil: Hövzənin rəhbərliyi

**Ayətullah Bürucerdinin elmi metodlarının davam etdirilməsi**

Mərhum Ayətullah Bürucerdi vəfatından otuz il sonra İslam Respublikası quruluşu sayəsində anılır və uca tutulursa, yaxşı olar ki, elm hövzələri və onun rəhbərləri bununla kifayətlənməyib o həzrətin hələ də yeni olan elm və tədqiqat metodlarını davam etdirsinlər, təkmilləşdirsinlər və İslam fəqahətini inkişaf etdirsinlər.[599]

**Hövzələrdə Quran məfhumlarının təcrid olunması**

Əsas fənn fiqh olsa da, hövzələrdə digər İslam elmlərini unutmaq olmaz. Məsələn, hövzələrdə Quran elmi, Quranla tanışlıq, Quran məfhumları və Quranla ünsiyyət bir elm və fənn kimi mövcud olmalıdır. Bizim tələbələrimiz Quranı, ən azı onun bir hissəsini əzbərləməli, onunla ünsiyyətdə olmalıdırlar. Quranda o qədər İslam məfhumları var ki, biz fiqh araşdırmalarında onlar barədə fikirləşmirik. Elm hövzələrində Quranın təcrid olunması və Qurandan uzaq düşməyimiz bizə çoxlu problemlər yaratmışdır, bundan sonra da yaradacaq.[600]

**Müxtəlif ixtisaslara dəyər vermək**

Keçmişdə hövzədə kimsə elmdə inkişaf etmək istəsəydi, təfsirdə işləməli deyildi. Möhtərəm bir alim və ruhani təfsirdə işləsəydi, bu onun savadsız kimi tanınmasına bais olardı. Buna görə də, bu dərsi tərk edirdilər. Siz Allah, bu, faciə deyil?! Əslində, əksinə olmalıdır, deməlidirlər ki, filankəs böyük təfsir mütəxəssisi və müəllimidir, filankəs fəlsəfə, kəlam və ya tarix mütəxəssisidir. Belə məsələlər keçmişdəki kimi, bu gün də hövzədə dəyər sayılmalıdır.[601]

**Hövzə beyinlərindən bəhrələnməmək**

---

[599] Ayətullah Bürucerdinin vəfatının otuzuncu ildönümü tədbirinə müraciətindən: 1991.
[600] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1991.
[601] Yenə orada.

Bu gün hövzədə yaxşı tədqiqatçı və mütəfəkkirlərimiz var. Elm hövzəsində elə beyinlər var ki, dünyanın tədqiqat mərkəzlərindən hansı biri öz fənlərində belə insanlar yetişdirmiş olsaydılar, bu gün dahiləri olardı. Bu da bizim bədbəxtliklərimizdən biridir. Bu gün elm hövzələrində elə beyinlər var ki, onlar dünyanın hansısa tədqiqat müəssisində riyaziyyat, fizika, təbii elmlər, yaxud astronomiya sahəsində çalışsaydılar, bu gün günəş kimi parlayardılar, dünyada hər gün bir işləri qeyd olunardı. Lakin belə beyinlər bizim hövzəmizdə adi insanlardır. Bu o demək deyil ki, kimsə onları dəyərləndirmir. Bu bir şey deyil. Məsələ burasındadır ki, bunlardan lazımi istifadə olunmur. Deməli, bizim hövzəmizin ləyaqət və istedad baxımından bu imkanı var.[602]

### Ərəb dilində sanballı fiqh jurnalı

Bizə fiqh məsələlərini fiqhin elmi dili olan ərəbcə bəyan edən elmi bir fiqh jurnalı lazımdır. Kimsə farsca yazmaq istəsə də yazsın, amma jurnalın əsas dili ərəb dili olsun. Tədqiqatçılar bir fiqh jurnalı təsis edib orada məqalə yazsınlar. Hörmətli alimlərdən biri də dərslərindən birini tətil edib jurnalın rəhbərliyini öhdəsinə götürsün. Məgər İslam fiqhini inkişaf etdirmək üçün bu jurnalın faydası o dərsin faydasından azdır?! Tədqiqatçı və alimlər yeni fiqh mövzularını araşdırsınlar, yazsınlar, tənqid etsinlər, fiqhi inkişaf etdirsinlər, dünyanı Şiə fiqhi ilə tanış etsinlər. Ensiklopediyalarda İbaziyyə fiqhindən sonra bizim fiqhimiz haqda məlumat verirlər. Bəlkə də heç bir fiqhin bu qədər kitabı, tədqiqatı və mühüm mətni yoxdur, yaxud az fiqhdə belə bir şey var, amma bu zəngin irsdən heç kəsin xəbəri yoxdur. Bunları bayıra ötürək ki, dünyanın elmi jurnallarında əks olunsun.[603]

### Hövzədə istedadların aşkarlanmasının zərurliyi

Bizim hövzə tələbələrimiz, alimlərimiz arasında parlaq istedadlar var. Onların arasında əllamə hillilər, mühəqqiq hillilər və şeyx ənsarilər tapılar.

---

[602] Həzrət Mehdinin (ə) anadan olmasının ildönümündə Qum Elm Hövzəsinin alim, müəllim və tələbələrinin toplantısında çıxışından: 1992.
[603] Yenə orada.

Bunlar haradadırlar? Bəziləri məişət dərdində, bəziləri də çətin bir dərs kitabının olub-olmazını tapmaq dərdində. Həqiqətən, nə etsinlər? Bunları yetişdirən bir kəs yoxdur. Mən 2-3 il öncə həqiqətən, ürəkdən sevdiyim çox düşüncəli, yenilikçi və böyük bir alimə dedim ki, siz bu alim və tədqiqatçıların bir qrupunu Qumun bir yerinə toplayın, onlara tədqiqat işi tapşırın, onlar üçün büdcə ayırın. Amma iş davam etmədi və təəssüf ki, bu işlər görülmür. Mənim iradım bu deyil ki, nə üçün filankəs bu işi görməyib. Bəllidir ki, bu işlər fərdi görülmür. Bu işlər üçün təşkilati idarəçilik lazımdır.[604]

**Hövzədə yeni üsullardan istifadənin zəruriliyi**

Bu gün bir baxımdan dünyanın ümid bəslədiyi bu qurum özünü dövrün şəraiti, imkanları və inkişafları ilə uyğunlaşdırmalıdır. Dünyanın universitetləri, tədqiqat mərkəzləri öz tələbə və tədqiqatçılarına araşdırma imkanları yaradırlar, biz isə keçmişdə alimlərimizin əlləri boş olduğuna görə istifadə etdikləri qədim üsullarla işləyirik. Məgər bu, rəvadır?! Ümumiyyətlə, yolverilməzdir. Bu, inkişafın vacib olduğu yerlərdəndir. Siz bu gün Qumdan Tehrana getmək istəyəndə bir ulaq tapıb addım-addım buradan Kuşək Nüsrətə, oradan Əliabada və digər yerlərə, 4-5 gündən sonra da Tehrana çata bilməzsiniz. Belə bir şey imkansızdır. Siz bir avtomobilə minir, 1-2 saatdan sonra Tehranda olursunuz. Bizim ixtiyarımızda belə nəqliyyat vasitəsi var. Biz fiqh oxuyuruq, sürətli cihazlardan da istifadə edirik. Məgər bunların ziddiyyəti var?! Biz fiqh oxuyuruq, lakin fiqh üçün kompüterdən də istifadə edirik. Biz fiqh oxuyuruq, lakin yeni tədqiqat üsullarından da istifadə edirik. Biz fiqh oxuyuruq, amma kollektiv iş alətlərindən də istifadə edirik.[605]

**Hövzədə yaradıcılıq və yenilik yolu açmaq**

Elm hövzəsi elmi üsul, təcrübə və nailiyyətlərin qiymətli irsinə sahibdir. Bu ixtisaslı və elmi irsdən bəhrələnmək və onu zənginləşdirmək üçün yaradıcılıq qüvvəsindən istifadə etmək lazımdır. Necə ki, saleh

---

[604] Yenə orada.

[605] Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 1992.

sələflər də öz yaradıcılıqları ilə dini elmləri indiki səviyyəyə çatdıra bilmişlər. Hövzə öz övladlarının elm və ixtisas yeniliklərinə yol açmalı, din elminin yeni məhsullarına hörmətlə baxmalı, onların sahiblərini həvəsləndirməli, eyni zamanda ənənəvi təməllərə naşıcasına və özbaşına müdaxiləyə icazə verməməli, cahil və qərəzli nəzərlərin işlədilməsi üçün inkişaf və hərəkət imkanı yaratmamalıdır.[606]

**Hövzədə mütərəqqi elmi üsullardan istifadə**

Bu söz hövzənin struktur ənənələrinə və tədris metodlarına da aiddir. Şübhəsiz, bu sahədə dəyərli nailiyyətlər çoxdur. Onlar hövzə sisteminin məziyyətlərindən sayılırlar və hər bir struktur dəyişikliyində qorunmalıdırlar. Lakin bu haqq söz başqa bir haqq iddianı unutdurmamalıdır. O budur ki, hövzə öz inkişafı üçün elm mərkəzlərində geniş yayılmış üsul və vasitələrdən istifadə etməli, özünü daha uğurlu təhsil imkanlarından məhrum etməməlidir. Yeniliklərin tələbələrə ən yeni nailiyyətləri asanlıqla öyrənmək imkanı yaradan bir dünyada din tələbəsinin nöqsanlı və eyibli üsullarda yenilikdən qalması rəva deyil.[607]

**Digər hövzə elmlərinə diqqət**

Fiqh elm hövzələrinin elmi fəaliyyətinin mərkəzi olmuşdur və həmişə də olmalıdır. Düzdür, bəşərin həyat şəraitinin inkişafı həmişə olduğu kimi ilahi hökmlərin əldə olunmasına təsir göstərmişdir və bundan sonra da göstərəcək. Lakin bununla yanaşı tam diqqətdə saxlanması lazım olan iki məsələ vardır: Biri budur ki, digər İslam elmləri, məsələn, təfsir, hədis, fəlsəfə, kəlam, rical və sair elmlər mütləq diqqət mərkəzində olmalı, hövzənin əsas proqramlarında yer almalı, onlar üçün ixtisaslı mədrəsələr, institutlar təşkil olunmalıdır. Belə olsa, elm hövzəsinin yaratdığı və yetişdirdiyi bu elmlər öz beşiyində yad və hövzə bu sahələrdə başqasına möhtac olmaz.

---

[606] Hövzənin Siyasəti Təyinetmə Şurasının yaradılması münasibəti ilə Qum Elm Hövzəsinin Müdərrislər Cəmiyyətinə müraciətindən: 1992.

[607] Yenə orada.

Digəri budur ki, fiqhi araşdırmada və mövzuların təyinində təsirli olan humanitar və digər elmlərə diqqət yetirilməlidir və dövrün fəqihi həmçinin mövzuların düzgün təyinindən ibarət olan düzgün əsaslandırma vasitələri ilə təchiz olunmalıdır. Aydın məsələdir ki, mövzunu düzgün tanımaq ilahi hökmün düzgün tanınmasında böyük rola malikdir.[608]

**Hövzənin yeni elm və texnologiyalardan istifadəsi**

Məncə, bəşəriyyətin Allahın lütfü ilə, din və peyğəmbərlərin təlimləri sayəsində əldə etdiyi bu yeni elmi nailiyyət (kompüter) mühüm yerlərdə işə yarayır və onunla bütün sahələrdə böyük işlər görülür. Deməli, biz dəyərli elmi irsimizin bu elmə biganə qalmasına imkan verə bilmərik. Mənim bu gün görülən bu işdə iki məqsədimdən biri və əsas ümidim bəlkə də budur ki, bu yolla hövzəni yeni elmlərlə, onların işləndiyi yerlərlə və öz işlərimizdən ötrü onlardan istifadə ilə tanış edək. Bu yeni elm və texnologiyanın önünü kəsmək, yaxud onu inkar etmək olmaz. Hər bir ixtisasdan, hər bir yeni elmin budağından və qığılcımından istifadə etmək lazımdır. Yeni elmlərin qanadları üzərinə minib özünü istədiyin yerə çatdırmaq lazımdır. Bu baxımdan, bu, mübarək işdir, bunu Qumu və hövzəni yeni elmi inkişaflarla və onlardan istifadə ilə tanış etməmizə hazırlıq edə bilərik. Mühüm olan budur ki, insan elmlərdən və onların nəticələrindən istifadə etməyə vərdiş etsin.

Bu gün möhtəşəm bir kitabxananın məlumatları çox kiçik həcmli bir cihaza sığır. Yazıblar ki, Əbülfərəc İsfahani kitablarını qırx dəvəyə yükləyib özü ilə aparırdı. Haradasan? Yuxudan ayıl, Əbülfərəc! Gör ki, qırx və hətta dörd yüz min kitabı bir səhifə üzərində kiçik bir aparatla daşımaq və istədiyin hər bir hissəni ondan çıxarmaq olur. Bu gün dünya belədir; yeni imkanlardan istifadə etmək lazımdır. Biz təəssüf ki, hələ öyrənməmişik, adət etməmişik. Ürəyimiz istəyir ki, bu kitabları yenə də vərəq-vərəq axtaraq.[609]

---

[608] Yenə orada.

[609] Qum Elm Hövzəsinin İslam Elmlərinin Kompüter Tədqiqatları Mərkəzinin üzvləri ilə görüşdə çıxışından: 1993.

**Fəqih və tədqiqatçılar - hövzənin iki mühüm səmərəsi**

Bizim fikrimizcə, hövzənin səmərələri birinci növbədə böyük fəqihlərdir. Hövzə, təqlid müctəhidləri daxil böyük fəqihlər yetişdirmək üçün təkan götürməlidir. Bunların arasında rayonların və Tehranın böyük alimləri olsun, hansı şəhərdə otursalar, xalq elmlərindən istifadə etsin. Əvvəlcə belə şəxslərin yetişməsinə iradə göstərilməlidir. İkinci növbədə əhəmiyyət baxımından bundan az olmayan tədqiqatçı və müəllimlər elmi inkişaf etdirirlər. Onlar bu məqsədlə və yeni araşdırmalar aparmaq üçün hövzələrdə qalıb fəaliyyət göstərirlər.

Bəlkə də təqlid müctəhidi, yaxud bir şəhərin böyük alimi və ya ictimai, siyasi xadim kimi fəaliyyət göstərən bir şəxs yalnız elmi inkişaf etdirmək üçün hövzədə oturan tədqiqatçı ilə elm və əməl baxımından bərabər deyil. Biz bir elmi müşkülə düşdükdə tədqiqatçıya tapşırırıq ki, araşdırsın və nəticəni hövzənin ixtiyarına buraxsın. Bu iki qrupun sözsüz ki, ortaq və fərqli cəhətləri vardır.[610]

**Fiqhdə yeni fikir cəsarəti və onlara qarşı dözümlülük**

Son zamanlar bəzi elmli, yaxşı və yeni düşüncəli fəqihlər bəzi fikirlər irəli sürürlər. Onları irəli sürməyin eybi yoxdur. Elm hövzəsində yeni sözləri eşitmək taqəti çox olmalıdır; o sözü deyən fəqih fətva vermək həddinə çatmasa da. Ola bilsin ayrısı ona bir şey əlavə etsin və fətva versin. Buna görə mən Qumun böyüklərinə və möhtərəm müəllimlərinə tövsiyə etdim ki, bir fiqh jurnalı nəşr etdirsinlər və onda yalnız yeni fiqhi düşüncə və baxışlar ortaya qoyulsun.[611]

**Hövzədə güclü ixtisaslı jurnalların nəşri**

Əlbəttə, həmin böyük şəxsiyyətlər bu işi görmədilər. Gənclərin bir qrupu bu sahədə işləyiblər. İdeal olmasa da, bu iş birinci addım kimi təqdirəlayiqdir. O böyük iş isə hələ də görülə bilər. Əgər Qum hövzəsində iki və hətta üç fiqh jurnalı olsa da, çox deyil. Fəlsəfəyə məxsus bir jurnal olsun. Allaha şükür ki, kəlam üçün bir jurnal var, lakin tirajı azdır və

---

[610] Fiqhin ali-ixtisas (xaric) dərsinin ilk günündəki söhbətlərdən: 1993.

[611] Fiqhin ali-ixtisas (xaric) dərsinin əvvəlindəki söhbətlərdən: 1994.

tanınmır. Bəlkə sizin çoxunuz adını eşitməmiş, üzünü görməmisiniz. Amma mən Allaha şükür olsun ki, görmüşəm və bu işin məsul şəxslərinə təşəkkür edirəm. Elm hövzəsində İslam elmlərinə dair günbəgün yeni düşüncələr irəli sürülməlidir; hamısından mühümü və birincisi də fiqhdir.[612]

**Gələcək üçün daha artıq hövzə tədqiqatçılarına ehtiyac**

Hövzənin müxtəlif fənlərdə müəllimə, tədqiqatçıya, müəllifə və mütəxəssisə ehtiyacı var. Allaha şükür olsun ki, bu ehtiyac hövzələrdə təmin olunur. İşə hazırlıqlı tədqiqatçı, müəllim, mütəxəssis, alim və müctəhidlər var. Lakin siz elm hövzəsinin iyirmi ildən sonrakı vəziyyətinə baxsanız, görərsiniz ki, bunlar azdır. Siz iyirmi ildən sonraya diqqətlə baxın və görün nə lazımdır. Görəcəksiniz ki, bu gün elm hövzələrində olan böyüklərin sayı azdır. Bizim ən mühüm ehtiyaclarımızdan biri budur. Elm hövzələri tədqiqatçı və alim yetişdirməlidir ki, bu ehtiyac aradan qalxsın.[613]

**Hövzənin müstəqil diplomu**

Hövzə diplom verməlidir. Mən bunu bir dəfə də demişəm. İctihadın təsdiqi məsələsi hövzənin qədim üsullarındandır, bu gün də çox yaxşı bir şeydir. Bəzi cənablar düşünürlər ki, biz hövzə tələbəsinin təhsil səviyyəsini göstərmək istədikdə universitetin hansısa pilləsi ilə, məsələn, bakalavr, magistratura, yaxud doktorantura ilə bərabər olduğunu deməliyik. Bu işi görməyə lüzum yoxdur. Hövzə təhsili bir cürdür, universitet təhsili başqa cür. Əlbəttə, bu iş haradasa lazım ola bilər; məsələn, hövzənin məzunu akademik diploma ehityaclı bir vəzifədə çalışmaq istəyəndə. Təbii ki, o zaman bu şəxsin diplomunun hansı həddə olduğu bilinməlidir. Lakin hövzənin ehtiyacı məsələsi bunların fövqündə durur. Bizim müxtəlif səviyyələrdə və müxtəlif ixtisaslara yiyələnmiş ruhanilərə ehtiyacımız var. İstedadlar müxtəlifdir. İstedadlar tanınmalı, dərslər oxunmalı, pillələr bir-

---

[612] Yenə orada.

[613] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1995.

birindən ayrılmalı və gənc alimlər hövzələrdə işləməlidirlər. Çünki bu təbəqənin çoxlu səmərəsi olacaq.[614]

**Hövzə məzunları vasitəsi ilə cəmiyyətin ehtiyaclarının təmin olunması**

Elm hövzəsi cəmiyyətin ehtiyaclarını təmin edən bir zavod kimi daim işləməli və özünün tədqiqatçı, təbliğatçı, müəllim, müəllif və digər ruhani peşələrinə uyğun məhsulunu istehsal etməlidir. Hövzə proqram hazırlamalı və bilinməlidir ki, məsələn, beş ildən sonra dünyanın müxtəlif bölgələri və ölkə daxili üçün nə qədər təbliğatçı yetişəcək. Həmçinin Quran, təfsir və digər hövzə elmləri sahəsində, eləcə də universitetlər və İslam maarifi dərsləri üçün müəllim, şübhələrə cavab vermək üçün tədqiqatçı və müəllif yetişdirməkdən ötrü sistemli proqramı olmalıdır.[615]

**Məqbul hövzə çərçivələri daxilində olan yeni sözə dözmək**

Bu cəsarət peyda olmalı və hövzə bunu qəbul etməlidir. Əlbəttə, belə olmasın ki, kim nə desə, hövzə qəbul etsin. Amma eyni zamanda məqbul çərçivələrdə olan yeni söz inkar edilməməlidir.[616]

**Təbliğat bir elmdir!**

Təbliğat da bir iş və peşədir; bir elm də ola bilər və elmdir, tədris olunmalıdır. Biri yaxşı, biri pis alınır. Biri bir söz danışmaq istəyir, amma onun əksini danışır. Bu hal çox zaman yaranır, düzgün təbliğat üsullarını bilməmək səbəbindən bir nəfər elə bir söz deyir ki, niyyyətində olanın əksi başa düşülür, özü isə bundan xəbər tutmur. Yaxud misal üçün, gedib təbliğ edir, amma təbliğat psixologiyasını bilmir, xalqa uyğun olmayan sözü danışır, universitetə lazım olanı kənddə danışır, kəndə lazım olanı zavodda. Buna əsasən, hövzədə elmi metod öyrətmək, tapmaq və təbliğat üçün lazımi elmlərin, misal üçün, ictimai psixologiyanın tədrisi yoxdur.[617]

---

[614] Yenə orada.
[615] Yenə orada.
[616] Qum Elm Hövzəsinin müəllimləri və nümunə tələbələri ilə görüşdə çıxışından: 1995.
[617] Yenə orada.

**Din elmi olmayan kilsənin təbliğat öncüllüyü**

Kilsə din elmi baxımından sıfırdır. Düzdür, keşişlər arasında professorlar və müxtəlif fənlərdə, misal üçün, biologiya və botanikada dərs oxumuş adamlar var. Bu elmlər ruhaniliklə əlaqədar elmlər deyil. Amma hər halda, bəzi məsihi ruhanilər bunları öyrənmişlər. Məşhur kəşflərin müəllifləri arasında bəzi keşişlər var, məsələn, riyaziyyat və tarix oxuyublar. Lakin kilsə yazılı, dərin və əsaslı formada din elminə malik deyil. Lakin bununla yanaşı, təbliğat baxımından öndədir.[618]

**Yeni düşüncələrin tənqidi üçün açıq elmi mühit yaratmaq**

Düşüncə inkişafı üçün açıq şəraitlərin yaradılması lazımdır. Bu iş hövzədə görülməlidir; bu onu canlandıracaq və müsbət nəticə verəcək. Fiqh, kəlam və əqli elmlər üçün birliklər təşkil olunmalıdır. Məsələn, yeni fiqh mövzularını araşdırmaq üçün yeddi, səkkiz, on elmli tələbədən ibarət bir birlik yaradılsın. Bunların bir mərkəzi olsun, iclaslar keçirsinlər, fiqh mövzusunda çıxışlar təşkil etsinlər. Təharət fəslindən diyə fəslinə qədər fiqhin hər hansı kiçik və yaxud böyük məsələsində kimin yeni sözü, mətləbi və fikri olsa, oraya gətirsin, onlar baxsınlar. Əgər sözün özünün yox, təməllərinin düzgün olduğunu, tələbə dəlillərinə və araşdırmalarına söykəndiyini və alim şəkildə ortaya qoyulduğunu görsələr, qeyd etsinlər, növbəyə salsınlar, bu şəxs bir gün gəlib auditoriya qarşısında çıxış etsin, məsələni sərbəst şəkildə açıqlasın və bəziləri də iradlarını bildirsinlər.[619]

**Doqmatizm qarşısında yeni düşüncə**

Doqmatizm məsələsinin ardınca yeni düşüncə və yenilik məsələsi gəlir. Əgər doqmatizm birinci bəladırsa, yeni düşüncəlik və yenilik birinci vəzifə hesab olunmalıdır. Azadfikirlilik məsələsi də yeni düşüncə və yenilik məsələsinə şamil olan bir amildir. Bunların məna və hüdudları aydın olmalıdır. Düşmənin bizim üçün xətt və nişan çəkməsindən və azadfikirliliyi izah etməsindən öncə - onun buna nə mental səlahiyyəti var, nə praktik səlahiyyəti, nə bizi hövzə kimi tanıyır, nə də bizim keçmişimizi

---

[618] Yenə orada.

[619] Yenə orada.

bilir - bizim özümüz fikirləşməli, bu məsələləri dərk etmək və yeniləmək üçün keçmişimizdən, mənəvi irs və resurslarımızdan kömək almalıyıq.[620]

**Hövzənin zamanla ayaqlaşması**

İmamın bəyan etdiyi zaman və məkan məsələsi də bu qəbildəndir. Əlbəttə, imam böyük bir fəqihdir. Fəqihin nəzər və əsaslandırmalarında zaman və məkanın təsiri çox əsaslı bir məsələdir. Bəzi şəxslər imamın sözünü düzgün anlamadılar, ümumiyyətlə, məqsədinin nə olduğunu bilmədilər, zaman və məkan məsələsində ifrata və təfritə vardılar. Lakin bu, elmi üsulların bərpasında təsirli amildir.

Hövzə bəhslərində, hövzələrin müxtəlif təbliğat və elm üsullarında da belədir. Hövzə daim özünübərpa halında olmalı və zamandan geri qalmamalıdır.[621]

**Elm mərkəzlərinin genişləndirilməsi tələsik baş verməsin!**

Elm və tərbiyə sahəsində bacardığınız hər bir işi görün, bu sahələrdə hər bir təxiri yolverilməz hesab edin. Genişləndirmə işi ilə mən də müvafiqəm, lakin bu iş əsla tələsik baş verməməlidir.[622]

**Qum Elm Hövzəsinin mərkəzli idarəçiliyinin zəruriliyi**

Belə möhtəşəm Qum Elm Hövzəsinin - bəlkə də həqiqətən dünyada heç bir elmi təşkilat bu qədər böyük deyil; demək olar ki, müəllimlərinin sayı şagirdlərdən çox olan yeganə yerdir. Orada müəllim, yəni elmi qüvvə və kadr güman ki, şagirddən çoxdur - güclü və təsirli müdiriyyəti yoxdur. Görün indi hövzədə nə qədər sinif var, nə qədər dərs deyilir. Çünki tələbələrin hər biri əslində bir müllimdir və tədris edirlər.

Hövzənin müəllimləri öz sahələrində elə mütəxəssisdirlər ki, bəlkə də dünyada az ixtisasın müəllimləri öz işlərində bu qədər peşəkar, mahir və güclüdürlər. Belə müstəsna və özəl sistemə və böyük topluma malik bir hövzə çox mühüm mərkəzdir. Həqiqətən, dünyada belə yüksək kəmiyyətə,

---

[620] Məşhəd Elm Hövzəsinin tələbələri ilə görüşdə çıxışından: 1997.

[621] Yenə orada.

[622] Beynəlxalq İslam Elmləri Mərkəzinin İdarə Heyətinin üzvləri ilə görüşdə çıxışından: 1997.

bir neçə onminlik tələbəyə, çoxlu müəllimə, bu qəribə nüfuza - xalqın taleyi bunların işlərinə bağlıdır – malik heç bir elm və təhsil məkanımız yoxdur.[623]

**Ehtiyac duyulan bütün İslam elmlərinə diqqət**

Elə hövzəmiz olmalıdır ki, onda yetərincə alim və tədqiqatçı təlim-tərbiyənin ən yaxşı üsullarından istifadə edib ehtiyac duyulan bütün İslam elmlərini – fiqh, təfsir, hədis, etiqad prinsipləri və fiqh qaydalarından tutmuş digər lazımi elmlərə qədər tədris etsinlər.[624]

**İdeal hövzənin göstəriciləri**

Hər il bir qədər fəqih yetişsin. Müəyyən edin ki, məsələn, bizim mərkəzimiz üçün bu qədər fəqih çatmır və yetişdirilməlidir. Məsələn, hər iyirmi il üçün bizə təqlid müctəhidliyi həddində və bütün xüsusiyyətlərə malik yüz fəqih lazımdır, digər İslam elmlərində - fəlsəfədə, kəlamda, dini məsələlərdə, onların dərinləşdirlməsində və genişləndirilməsində işləyib araşdırma aparmaq üçün filan qədər tədqiqatçıya ehtiyacımız var. Çünki dini məsələ və bilgilər sabit və əbədi şeylər deyil.

Elə şeylər var ki, 20-30 il öncə bizim üçün yeni dini məsələlər hesab olunurdu, amma bu gün hamının ixtiyarındadır və din haqda daha yeni məsələlər meydana çıxır. İnsan hər gün din barədə yeni bir nəticəyə gəlir. Bir fəqihin, dinşünasın, Quranla əlaqədə olan bir insanın dini məlumat və bilgilərinin son həddi yoxdur. Necə ki, ehtiyaclara əsasən bizim fiqh hökmlərimizdə daim yeni şaxələr yaranır və fəqihlər bu şaxələrdə yəqinə çatırlar; kəlamda da belədir, fəlsəfədə də, digər məsələlərdə də. Dini bilgilər daim dini araşdırma və mütaliəyə ehtiyaclı sahələrdir.

Fərz edin, belə bir hövzədə mədrəsələr, tədris və tədqiqat mərkəzləri işləyir. Harada təbliğatçıya, məscid imamına və Quran müəlliminə ehtiyac duyulsa, bu mərkəzə müraciət edir və tez onlara lazımi miqdarda və lazımi xüsusiyyətlərə malik təbliğatçı göndərilir.

---

[623] Qum Elm Hövzəsinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1997.

[624] Yenə orada.

Biz belə bir hövzə istəyirik. İdeal hövzə budur. Harada bir şübhə irəli sürülsə, burada cavabı hazırdır. Harada din əleyhinə bir kitab yazılsa, ona qarşı iki kitab hazırdır. İslam tarixinə dair kimin bir şübhəsi olsa, burada tədqiqat mərkəzi var, dərhal həmin hissəni ətraflı izah edir. Bizə belə hövzə lazımdır.

İndiki vəziyyət, idarə üsulu, tədris keyfiyyəti və təhsil sistemi ilə belə bir hövzə ərsəyə gələn deyil. Əvvəlcə həqiqətən, bir qrup oturub lazım olanı təsvir etsinlər və qərar çıxarsınlar. Gənc tələbə və müəllimlər bu hərəkətin hansı səmtə getdiyini bilsinlər. O zaman gənc alimlər işinizi dəstəkləyəcəklər, sizi tək buraxmayacaqlar. Bu birinci mərhələdir: hövzənin məqsədlərinin, yaxud başqa sözlə desək, ideal vəziyyətinin təsviri mərhələsi.

İkinci mərhələ bu məqsədə çatmaq üçün lazım olan hərəkət və hazırlıqlardır. Proqramdan öncə bunun baş verməsini istəsək, hansı işlər lazımdır? Kitab yazmaq, elmlərin izahı, lazımsız hissələri ayırmaq, əl-ayağa dolaşanları və heç bir faydası olmayanları kənara tullamaq, bu gün mövcud olmayan, tələbə və müəllim üçün ehtiyac duyulanları əlavə etmək.

...Buna əsasən, bu da bir hissədir; yəni lazım olan hazırlıqların və işlərin izahı mərhələsi.

Üçüncü mərhələ konkret proqram mərhələsidir; yəni ümumi layihədə müəyyən olunanları proqram formasına salmaq.[625]

**Hövzələrdə yeni təbliğat üsullarından istifadə**

Bu gün din təbliğatı bir elmi fəndir. Bu gün dünya universitetlərində tədris olunan ictimai əlaqələr fənni əslində təbliğat üsullarıdır. Öz tərəf-müqabillərimizlə ünsiyyət qurmaq üçün bizim yaxşı ənənəvi üsullarımız var, lakin əsla yetərli deyil. Tövsiyə etmək istəmirəm ki, hövzə tələbələri gedib ictimai əlaqələr kursu keçsinlər. Təkidlə tövsiyə etmək istəyirəm ki, elm hövzəsinin əsas idarəçi və rəhbərləri öz işlərini bu elmin nəticələrinə uyğun proqramlaşdırsınlar və onun zəruri məsələləri xüsusən təbliğat sahəsində proqram hazırlayanların ixtiyarına qoyulsun.[626]

---

[625] Yenə orada.
[626] Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1999.

**Hövzə - elm və tədqiqat məkanı**

Hövzəyə münasib işlər hansılardır? Məzmun və ya formaca elmi işlərdir. Hövzənin iki kimliyi var: Biri elm və bu kimi məsələlərdir; yəni alim və fəqihlər yetişdirən yer. Bu öz yerində. Həm elm, həm tədqiqat, həm əxlaqi tərbiyə, həm də rəngarənglik lazımdır. Bütün bunlar alim yetişdirən mərkəz olan hövzənin birinci və əsas kimliyidir.[627]

**İslam hökuməti fenomeni qarşısında düşmənlərin şübhə yayması**

Mühüm məsələlərdən biri budur ki, bizim tədqiqatımız tətbiqi olmalıdır. Yəni praktikadan uzaq olan quru tədqiqatla məşğul olmaq az zamanda və az fürsətdə uzaq yolla getməkdir. Siz görün bütün təkallahlıların, islahatçıların, Allaha və İslama iman bəsləyənlərin arzuladığı İslam quruluşunun bu gün nəyə ehtiyacı var; bunu axtarmalısınız. Biz bu işlərlə həqiqətən gec məşğul olduq. Kaş inqilabın əvvəlindən sizin kimi yüz nəfər peyda olub nə müharibəyə qoşulaydı, nə də siyasətə; gedib oturaydı və İslam quruluşu üçün bu məsələləri araşdıraydı. Biz bu sahələrdə bir qədər geridəyik. İslam hökuməti fenomeni, islami və fiqhi təsirlə üzləşən düşmənlərimiz cəld işə başladılar, seminar keçirdilər, tədqiqat apardılar, ezamiyyətə göndərdilər, dağıdıcılıq, mübarizə və çəkişmə istiqamətində müxtəlif cəhətlərlə maraqlandılar və yaxşı nəticələr aldılar. Biz bu gün bu şübhələrdə və danışılan sözlərdə onun əlamətlərini müşahidə edirik. Biz daha tez başlamalı idik. Hər halda, gecikmişik.[628]

**Hövzədə elmi elita yetişdirməyə diqqət**

Mən bilmirəm siz işin hansı mərhələsindəsiniz və nə edə bilərsiniz. Ümumi şəkildə bilirəm ki, bu elmi təşkilatların əsas işlərini elmi nümunələr görürlər. Hövzəni elmi nümunələr yüksəldirlər; onlar kitab yazırlar, inkişaf və tərəqqi onlara məxsusdur, digərləri bunlarla yol gedir

[627] Qum Elm Hövzəsinin Ali Şurası ilə görüşdə çıxışından: 2000.

[628] Ayətullah Əmini və Dini Ekspertlər Məclisinin bir neçə tədqiqatçısı ilə görüşdə söhbətlərindən: 2000.

və hərəkət edirlər. Odur ki, elmi elita yetişdirmək hərbçi yetişdirmək kimidir; hərbçilər yetişdirmək və onlar üçün imkan yaratmaq lazımdır.[629]

**Hövzədə elmi nümunələri tanımaq və yetişdirmək**

Elmi nümunə bəzən, kitab yazdıqlarını və tədris etdiklərini buyurduğunuz şəxslər kimi aktual nümunələrdir. Bəzi şəxslər də potensial nümunədirlər, insan güclü istedadlarının olduğunu anlayır; gözlərində, sözlərində, danışıq və rəftarlarında istedad əlamətləri parlayır və istedadla dolu olduqlarını başa düşürük. Baxın, mümkün olan həddə bunları da tapın. Əlbəttə, bu işlər üçün bir dəyərləndirmə və diqqət mərkəzinə ehtiyacınız var. Bu barədə kiməsə göz yummanız və komplimentiniz olmamalı, reallıq nədirsə, o da olmalıdır. Özünü göstərmək, bəzi uzunçuluqlar, dəyərsiz, az dəyərli və çox həcmli işlər elmi nümunəliyə uyğun deyil. Bunlar həqiqətən, bir-biri ilə səhv salınmamalıdır.[630]

**Hövzə nümunələrini unutmağın zərəri**

Təəssüf ki, o zaman bu gün mövcud olan şərait və inkişaf amilləri yox idi. Biz həqiqətən nümunə olan çox yaxşı tələbələrin bəzisini gördük; elmi buraxıb digər yerlərə getdilər və onlardan istifadə olunmadı. Güclü istedadlı şəxslər də çox zaman dalğın olurlar; bu da var. Onlar əksərən dalğındırlar. Yəni haradasa mümkün olmadığını gördükdə qalxıb gedirlər. Hamısı olmasa da, əksərən belədirlər. Odur ki, bunlarla çox məşğul olmaq lazımdır. Əgər maraqlanmasanız, digər yerlərə gedəcəklər; gedib universitet təhsili alacaqlar, başqa müəssisələrdə tədqiqatçı kimi çalışacaq və inkişaf edəcəklər. Yəni hövzədən küsəcək və daha hövzəninki olmayacaqlar.[631]

**Hövzədə yenilik istəmə mədəniyyətinin zəruriliyi**

Elm hövzələrində təhsil və digər məsələlər barədə həm biz çox sözlər demişik, həm digərləri deyib və xatırladıblar. Bu barədə deyilməyən söz

---

[629] Elmi hövzələrin Rifah və tibb xidmətləri bölməsinin İdarə Heyətinin üzvləri ilə görüşdə çıxışından: 2000.
[630] Yenə orada.
[631] Yenə orada.

azdır. Əlbəttə, demək, eşitmək bir məsələdir, onların bir mədəniyyət, ehtiyac formasına düşməsi və məmurların onları həll etməyə məcbur olması başqa bir məsələdir. İkincisi hələ baş verməmişdir.

Mənim bu gün elm və elm hövzələri barədə demək istədiyim bir-iki məsələ var. Fikrimcə, hövzələr üçün çoxlu işlər lazım olsa da, bunlar daha zəruridir. Bunlar yaddadır; deyilmiş və bəlkə də təkrar olunmuşdur.[632]

**Proqram hazırlayan daimi quruma ehtiyac**

Bir məsələ hövzələrdə proqram məsələsidir. Biz bir dəfə tələbə və müəllimlərin toplantısında dedik ki, hər bir kiçik qurumun, idarənin və universitetin öz iş proqramı vardır. Elm hövzəsi böyük bir təşkilat və müxəlif fənlərdə - fiqhdə, təfsirdə, üsulda, kəlamda, fəlsəfədə və digər sahələrdə böyük alim və tədqiqatçıları olan nəhəng bir təşkilat olduğuna görə proqram hazırlayan daimi bir qurumu olmalıdır. Elm hövzələrində, məsələn, Qum Elm Hövzəsində olan şəxsiyyətlərin keyfiyyəti baxımından həqiqətən, onları adi elmi qurum və təşkilatlarla müqayisə etmək olmaz. Bu elm hövzələrində böyük şəxsiyyətlər, tədqiqatçılar və bu qədər gənc vardır. Bunların arasında nə qədər elmli şəxslər, tədqiqatla məşğul olanlar və istedadlı insanlar var. Belə böyük, dərin, bu qədər kəmiyyət və keyfiyyəti olan bir qurumun daimi proqram şöbəsi olmalıdır. Düzdür, bu gün əksər hövzələrdə, yaxud hamısında, xüsusən də Qum Elm Hövzəsində həqiqətən inkişaflar görünür; müdiriyyət var, proqram var, lakin bu proqramlar belə böyük həcm və keyfiyyətə münasib deyil.[633]

**Dünyanın müasir elm və düşüncə istehsalına müvafiq proqram**

Əgər biz bu gün bu qədər potensialı olan Qum üçün hansı proqramın lazım olduğunu bilmək istəsək, dünyaya, onun ehtiyacına, elm hövzəsi ilə əlaqədar düşüncə, nəzəriyyə, söz və məsələlərin günbəgün və anbaan meydana çıxmasına baxmalıyıq; elm hövzələrilə birbaşa əlaqəsi olmayan fənn və elmlərdə yox, birbaşa əlaqəsi olan məsələlərdə. Dünyada daim yeni sözlər ortaya qoyulur; əxlaqda, hüquqda, fəlsəfədə, din fəlsəfəsində,

---

[632] Fiqhi ali ixtisas (xaric) dərsinin əvvəlindəki söhbətlərdən: 2000.

[633] Yenə orada.

kəlam məsələlərində daim yeni sözlər meydana çıxır. Bu o demək deyil ki, bu sözlərin hamısı düzgün, yaxud mühümdür. Bu o deməkdir ki, bu sözlər dünya xalqının zehninin böyük bir həcmini özünə aid edir.

Bu gün dünyada mövcud olan sürətli əlaqələrə görə - dünyanın bir tərəfində deyilən hər bir söz, fikir, məntiq, şübhə və həll yolu tez bir zamanda dünyanın o tərəfinə çatır, yaxud çata bilər - Qum Elm Hövzəsi kimi bir hövzə proqram hazırlamalı, bu gün dünyada müxtəlif sahələrdə müzakirə olunan məsələləri araşdırmaq üçün hazır kadrları olmalıdır.[634]

**Müxətlif elm və tədqiqatlar üçün istedadları tanımaq**

Növbəti məsələ hövzədəki istedadları tanımaqdır. Mən bir neçə ay öncə hövzənin möhtərəm müdirlərinə bunu dedim. Bu hövzə müxtəlif istedadlar toplusudur. Bunlar tanınmalıdır. Müxtəlif iş, bilgi və məlumatlar, müxtəlif elm və tədqiqat fəaliyyəti üçün istedadlar tanınmalıdır. Bu tanışlıq istedadlardan düzgün bəhrələnməyə çox kömək edəcək.[635]

**Böyük həcmli tədqiqat istedadlarına diqqətin zəruriliyi**

Bu gün bu sərgiyə baxış məndə iki hissi dirçəltdi: Biri sevinc və ümid hissidir. Çünki burada əsasən tədqiqata aid çoxlu rəngarəng və geniş işlər nəzərə çarpır. Bünövrə və əsas diqqət tədqiqat və yenilik üzərindədir. İkinci hiss indiyədək hövzədəki parlaq istedaddan istifadə etmədiyimizə görə təəssüfdür. Biz indi bunlara baxırıq və xoşumuz gəlir. Bəlkə hələ də bundan yüz qat artıq istedad və potensial diqqətimizdən kənarda qalıb. İnsan buna görə narahat olur.

Hər halda, özünü itirmək problemi həll etmir. Hövzənin müdrik şəxsiyyətləri və əsasən müdiriyyəti oturub düşünməli, hövzənin müəllim və gəncləri vasitəsi ilə əldə olunmuş bu işləri davam etdirsinlər və dayanmasına imkan verməsinlər.[636]

---

[634] Yenə orada.

[635] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin müəllim, alim və tələbələrinin böyük toplantısında çıxışından: 2000.

[636] Qumda hövzə tələbələrinin ixtisaslı sərgisinə baxış keçirərkən etdiyi söhbətlərdən: 2000.

**Hövzənin böyük məsuliyyəti və güclü müdiriyyətə ehtiyac**

Hövzə çox böyük bir təşkilatdır. Hövzə bu böyük kəmiyyətə, çox uca, dəyərli və bənzərsiz keyfiyyətə və üzərinə götürdüyü bütün bu işlərə görə məsuliyyət daşıyır. Dünyada hansı elm, təhsil və tədqiqat təşkilatının üzərinə bu qədər məsuliyyət düşür?! Xalqın dininin məsuliyyəti, bütün müsəlmanların hidayəti məsuliyyəti hövzənin üzərinə düşür. Buna əsasən, belə böyük və bu xüsusiyyətlərə malik hövzənin siz gənclərdən qabaqkı nəslinin, yəni bizim etdiyimiz və bu gün sizin irs apardığınız səhlənkarlıqlara rəğmən, bir yerə çatmasını istəsək, güclü bir müdiriyyət və mərkəz olmalıdır.[637]

**Qum Elm Hövzəsinin inkişafları**

Bu gün xoşbəxtlikdən, bizim bəzi böyük hövzələrimiz bu baxımdan çox inkişaf etmişdir. Bu gün Qum hövzəsi çox səmərəli və böyük bir hövzə olmuşdur. Bu gün Qum hövzəsi rəngarənglik, yenilik, günün məsələləri ilə tanışlıq və bəzi yerlərdə hətta dərinlik baxımından öz keçmişindən öndədir. Lakin bu yetərli deyil, ölkənin bütün nöqtələrində fəaliyyət göstərən hövzələr rövnəqlənməli və orada böyük alimlər oturmalıdırlar.[638]

**Çoxlu islahatların həyata keçməməsinə rəğmən, hövzənin təbii inkişafı**

Mənim bu illər ərzində elm hövzəsi barədə verdiyim təkliflərin – istər tələbə və müəllimlərlə keçirdiyimiz, yüzlərlə, bəzən minlərlə insanın iştirak etdiyi ümumi toplantılarda, istər hövzənin bəzi məsul şəxsləri, yaxud hövzə böyükləri, təqlid müctəhidləri və alimlərlə keçirdiyimiz kiçik və xüsusi iclaslarda deyilən təkliflərin çoxu hələ həyata keçməmiş, yaxud yarımçıq şəkildə həyata keçmişdir. Lakin biz görürük ki, İslam inqilabının özündən irəli gələn, onun səmərələrindən olan və savabı Böyük İmamımızın pak ruhuna gedən fəal dini və elmi hərəkətdən bu qədər nailiyyətimiz olmuşdur. Sözügedən islahatçı fikirlərin çoxu hələ həyata

---

[637] Yenə orada.

[638] Kermanın dini alim və ruhaniləri ilə görüşdə çıxışından: 2005.

keçməmişdir, lakin istehsal, keyfiyyət və dəyərli insan kapitalı bu gün müşahidə etdiyimiz səviyyədədir.

Bir nümunəsini mən bu axşam cənabların sözlərində gördüm, mənim üçün doğrudan da çox gözəl idi. Digər nümunələrini mənimlə görüşən bəzi hövzə alimlərində müşahidə etmişəm. Bir-iki il bundan öncə əqli elmlərdə, fəlsəfə, kəlam, irfan və məntiqdə araşdırma aparan bir qrup hövzə alimində də bunu gördüm. Universitetlərlə əlaqəsi olan hövzə alimlərinin bir qrupu mənimlə görüşdü; orada da məndə bu hiss canlandı. Bu çox əhəmiyyətli bir məqamdır. Yəni elm hövzələrində kadr inkişafı belədir. Bu ab-havanın və təbii şəraitin belə bir nəticəsi var.[639]

**Həyata və ölümə malik hövzə üçün gələcəyə baxış ehtiyacı**

Bu günə baxmayın, sabah da var. Sabah necə olacaq? Onu bu gün siz müəyyən etməlisiniz.

Əgər bu gün hövzənin sütunları - yəni müdirlər, fikir sahibləri, müəllimlər, görkəmli şəxsiyyətlər iradə göstərib düzgün fikirləşsələr və proqram hazırlasalar, hövzə iyirmi ildən sonra səviyyə, dərinlik və genişlənmə baxımından indikindən dəfələrlə yaxşı olacaq. Əgər indi bir iş görməsək, əsla bəlli deyil ki, Qum hövzəsi gələcəkdə indiki həddində qalacaq, yoxsa yox. Böyüklər, tədqiqatçılar, yaxşı alim, fəqih və filosoflar hövzədən gedirlər. Bunların yerinə digər şəxsiyyətlər inkişaf etməli, çiçəklənməli, onların yerini tutmalı və onlardan daha artığını etməlidirlər. Bu iş görülsə, gələcəyə bu baxış olsa, sabah yaxşı olacaq. Əgər bu gün Qum hövzəsində gələcəyə bu baxış olmasa və mövcud vəziyyətlə razılaşsaq, indi hövzəni birtəhər idarə etməyimizlə qane olsaq, sabah ya hövzəmiz olmayacaq, ya da tənəzzülə uğramış bir hövzəmiz olacaq.[640]

**Hövzədə gələcəyə baxışın zəruriliyi**

Hövzənin həm müdirləri, həm Ali Şurası, həm böyük alimləri, həm böyük təqlid müctəhidləri bilməlidirlər ki, biz iyirmi ildən sonrakı Qum,

---

[639] Ölkənin elmi hövzələrinin müəllimləri, tələbələri, təbliğatçıları və tədqiqatçıları ilə görüşdə çıxışından: 2007.
[640] Yenə orada.

İsfahan, Məşhəd, yaxud digər şəhərlərin hövzələri barədə bu gün düşünməliyik. Otuz ildən sonrakı hövzələr barədə düşünməliyik. Otuz ildən sonra nə deməkdir? Yəni təsir imkanları, insanları və məmləkətləri fəth etmək imkanları baxımından güman ki, bugünkü dünya ilə heç bir oxşarlığı olmayan bir dünya. Bir əzizimiz burada informasiya texnologiyasını gözəl şəkildə izah etdi. İyirmi il öncə bu texnologiya yox idi, elə-belə bir şey idi, amma bu gün görün necədir.

Biz onda bu gün üçün fikirləşsəydik, bu gün boşluqda qalmazdıq. Bu gün hər bir evdə, hər bir məktəbdə, hər bir tərəfdə, natiqlərin birinin sözü ilə desəm, hər bir kənddə informasiya texnologiyası mövcuddur. Elm hövzəsi geri qalmaq isətyir? Gələcək otuz ili belə müqayisə edin; əlbəttə, bir qədər daha artıq sürətlə. Yəni ötən iyirmi ildə elmin sürəti gələcək iyirmi, otuz ildəki sürətindən, elm və texnologiya inkişafından dəfələrlə az olacaq.

O gün bəlkə də müxtəlif fikir sahibləri, müxtəlif ideologiyalar, azğın firqələr, pis niyyət sahibləri sizin universitetlərinizin, məktəblərinizin siniflərini, evlərinizdəki övladlarınızı asanlıqla ələ alıb istədiyini edəcək və siz heç bir iş görə bilməyəcəksiniz. Elm hövzəsində o gün barədə fikirləşmək lazımdır. Məsuliyyət daşıyan elm hövzəsidir. Xalqın dindarlığının məsuliyyəti ruhanilərin üzərinə düşür. Ruhani də elm hövzəsinin övladı və məhsuludur. Məsuliyyəti belə ölçək ki, çiynimizdə hansı yükün olduğunu bilək. Bu, gələcəyə baxış barədə.[641]

**Hövzənin təcrid olunmasının qarşısını almaq üçün yeniliyin idarəsi**

Bir məsələ budur ki, yeniliyi idarə edin. Baxın, əziz qardaş və bacılar, yenilik qaçılmazdır. Yenilik ilahi yaradılışın qanunudur. Mən dəfələrlə demişəm ki, yenilik baş verəcək. İndi yeniliklə razılaşmayan bir şöbəni, bir varlığı təsəvvür edin. O zaman bu iki vəziyyətdən birində olacaq: ya öləcək, ya təcrid olunacaq. Ya dəyişilmiş və yenilənmiş vəziyyətlərin qovğasında yaşamaq imkanı tapmayacaq, əl-ayaq altında əzilib məhv olacaq, ya əgər sağ qalsa da, təcrid olunacaq; son günlərdə bir qəzetdə oxuduğum meşə

---

[641] Yenə orada.

adamı kimi. Bir insan qırx il əvvəl gedib Mazandaran meşəsinə və xarici mühitlə çox zəif əlaqəsi olub, özünü təcrid edib. Getmək, dəyişiklikdən qaçmaq olar, amma təcrid olunmaqla. Hövzə yenilikdən qaçmaq istəsə, əgər ölməsə, diri qalsa da, təcrid olunacaq. Düzdür, din faktoru onu ölməyə qoymayacaq, amma təcrid olunacaq. Günbəgün daha artıq təcrid olunacaq.

Yenilik labüddür. Lakin yeniliyin iki tərəfi var: düzgün istiqamətdə olan yenilik, səhv istiqamətdə olan yenilik. Biz elə etməliyik ki, bu yenilik düzgün istiqamətdə baş versin. Bu, hövzənin aparıcı şəxslərinin vəzifəsidir. Hövzənin müdirləri, alimləri, nəzər sahibləri buna çalışmalıdırlar. Yenilikdən qaçmaq olmaz. İndi dedilər ki, təhsil və tədqiqat üsulunda, tələbə qəbulunda, dərs vəsaitində - bütün bunlarda yenilik lazımdır. Deməyin ki, on il, on beş il bundan qabaq lazım idi və bu proqramı yazdıq. Çox gözəl, bu proqram on il əvvəlin idi, görün onu necə təkmilləşdirmək olar. Yenilik budur. Yəni zamanla yenilənmək, vaxtında hərəkət etmək, hadisələrdən geri qalmamaq.[642]

**Hövzə diplomuna dair yeniliyin idarəsi**

Yeniliyi qəbul və idarə etmək, həm də çox ehtiyatlı olmaq lazımdır. Baxın, burada diplomdan söhbət düşdü. Mən əvvəldən hövzənin müstəqil diplomu üzərində təkid göstərənlərdənəm, indi də fikrim budur: hövzə Təhsil Nazirliyinin adı altında yox, öz adı ilə diplom verməlidir. Çünki hövzənin adı hər bir nazirliyin adından daha köklü, güclü və mühümdür. Hövzə öz diplomunu versin. Diplomun adını nə istəyirlər qoysunlar. Bəzi dostlar etiraz etdilər ki, nə üçün doktorantura, magistratura adlarından qaçıb adını üçüncü-dördüncü pillə qoyursunuz. Mənim bu barədə fikrim yoxdur, oturub müzakirə etsinlər, hansı qərara gəlsələr, o da olsun. Mən diplomun özünü qəbul edirəm, lakin diplompərəstlik zərərlidir. Tələbənin diplom üçün dərs oxumağı döyük bir eyibdir. Bu, yeniliyin sözügedən orta xəttidir. Diplom sahəsində yeniliyi idarə etmək budur. Diplom verin,

---

[642] Yenə orada.

amma həmişə yeni təhsil sisteminin eybi hesab etdiyimiz diplompərəstlikdən çəkinin. Bu, bir nümunədir.[643]

**Münasib yenilik**

Digər tərəfdən, dedik ki, yenilik idarə olunmalıdır. Diqqət olunmalıdır ki, elmi çəki azalmasın, şeyxin sözünün səviyyəsi aşağı enməsin; axundun üsul elmindəki sözünün səviyyəsi enməsin. Tələbə bu gün bizim fiqh və üsulumuzda mühüm və təsirli amillər olan bu əsaslara qarşı elmi boşluqda qalmasın. Mətn düzgün, yaxşı və ərəbcə olsun. Mən hövzənin bəzi yazılarına baxıram. Bu cəhətdən bizim bir qədər çatışmazlığımız, nöqsanımız var. Belə güclü və möhkəm yazıların mətnində və qələmində nöqsan olmasa, İslamın elmi toplumlarının hansı birinə getsə, dəyərli və qiymətli bir əsər kimi tanınar; çünki ərəb dilindədir, bizim elmi dilimiz ərəb dilidir və hamı istifadə edə bilir.

Buna əsasən, yenilik qaçılmazdır. Bu, yeniliyin bir-iki nümunəsi idi, nümunələr çoxdur. Onların çoxunu siz dostlar sözlərinizdə dediniz, mən də təsdiqləyirəm. Yenilik idarə olunmalıdır. Bu da bir məsələdir.[644]

**İlk mərhələlərdə hövzə müdiriyyətinin ən mühüm işi**

Biz hövzədə müdiriyyəti təkmilləşdirməliyik. Bəli, xoşbəxtlikdən son illərdə Ali İdarə Şurası və hövzədə müdiriyyət məsələsi qəbul olundu, iş görüldü, faydalarını da görürsünüz. Mən bu axşam cənabların sözlərindən bildim ki, hövzədə on iki elmi-ixtisaslı birlik var. Çox yaxşıdır, mən bunu bilmirdim: iqtisadiyyat elmi birliyi, psixologiya elmi birliyi, rical elmi birliyi, tarix elmi birliyi. Əlbəttə, bəzilərini bilirdik. Bu, müdiriyyətin işidir. Əgər müdiriyyət olmasa, belə bir iş baş verməz. Lakin hövzədə təşkilatçılıq və idarəçilik sahəsində indiyə qədər görülən işlərlə kifayətlənmək olmaz.

Bizim nöqsanlarımız var. Əvvəla Ali Şura siyasət təyin etmək məsələsinə çox əhəmiyyətli yanaşmalıdır. Elm hövzələrində birinci və prinsipial mərhələlərdə ən mühüm iş siyasət təyin etməkdir. Bu siyasətin müxtəlif cəhətləri var. Məgər biz demirik ki, elm istehsal etmək istəyirik?

---

643 Yenə orada.

644 Yenə orada.

Yaxşı, hansı elmi? Fiqh elminin inkişafı nə deməkdir? Misal üçün, üsul elminin inkişafının mənası nədir? İnkişaf etsin, yəni nə eləsin? Bu inkişafın istiqaməti necədir? Bütün bunlar cavabı lazım olan suallardır. Ali Şura mərkəzində təyin edilən siyasətlər bu suallara cavab verir. Elm hövzəsinin gələcəyi üçün aydın mənzərə təsvir olunmalıdır.[645]

**Mənzərə sənədinin hazırlanması üçün Hövzə Ali Şurasının iki xüsusiyyəti**

Ölkə üçün iyirmiillik mənzərə sənədi yazıldığı kimi, gəlin hövzə üçün də iyirmiillik, onillik bir mənzərə hazırlayaq. Bu, elm hövzəsinin Ali Şurasının işidir.

Ali Şura bu işi nə zaman görə bilər? O zaman görə bilər ki, onun möhtərəm üzvləri bunun üçün kifayət qədər vaxt ayırsınlar, buna vaxtları olsun. Yəni hövzənin Ali Şurasına üzvlük əsas işlərin yanında ikinci dərəcəli bir iş olmamalıdır. Siz görün bir universitetin idarəsi, yaxud bir qurumun siyasət təyin edəni necə işləyir. Belə böyük elm hövzəsi - istər Qum, istər Məşhəd, istər İsfahan hövzəsi kənardan idarə oluna bilməz. Vaxt sərf olunmalıdır. Bu bir məsələ.

İkincisi budur ki, çox güclü bir ekspert dəstəyi olmalıdır. Xoşbəxtlikdən, bizim hövzəmizdə bu ekspert dəstəyi mövcuddur: sizin özünüz, bu axşam çıxış edənlərin və etməyənlərin çoxu. Yəqin ki, elm hövzəsində belə gənc və düşüncəli tələbələr çoxdur. Bunlar şübhəsiz, hövzənin ekspert dəstəyini təmin edə bilərlər. Hövzə işlərində bizim kənar adama heç bir ehtiyacımız yoxdur. Bu kadrlardan istifadə etmək olar. Təbii ki, bu ekspertlər də işləməli, çalışmalıdır. Ali Şuranın işlərindən biri budur.[646]

**Proqram şurası yaratmağın zəruriliyi**

Ali Şuranın yanında hövzədə müdiriyyət orqanı var. Bu, çox əhəmiyyətlidir. Hövzə üçün mütləq proqram hazırlayan şura olmalıdır. Bəzi cənablar da çıxışlarında dedilər ki, proqramlar bəzən uyğun olmur.

---

[645] Yenə orada.

[646] Yenə orada.

Yaxud bir bacımız qadınlara aid proqramlar barədə dedi ki, proqramlar müxtəlif səviyyələrə münasib deyil. Bunlar tamamilə yerli iradlardır. Bunları kim düzəltməlidir? Modern proqram inkişafları ilə tanış olan bir heyət.

Bu gün proqram hazırlamaq digər elmlər kimi bir elmdir. Bu, təkcə anadangəlmə istedada bağlı deyil. Düzdür, o da təsirlidir, amma bu gün bu, elmi bir işdir. Bu işin mütəxəssislərindən istifadə etmək lazımdır. Onlar ekspert heyətində iştirak edib proqram hazırlasınlar.[647]

**Müəllimlərin dərəcələrə bölünməsi üçün elmi şuraların təşkil edilməsi**

Bir məsələ də alim və müəllimlərin ictimai mövqeyi məsələsidir. Bu da bizim problemlərimizdən biridir. İndi bəzi dostlar bir təklif irəli sürdülər, mən onu açıqlamaq istəyirəm. Təklif budur ki, Qumda Elmi Şura yaradılsın. Yəni müxtəlif pillə və fənlər üçün rəsmən elmi şuralar qəbul olunsun. Bir nəfər bir həddə çatdıqda, bir imtahandan keçdikdə Qum Elmi Şurasının üzvü olsun. Bu, elmi bir ad olsun. Əlbəttə, mən bunun oxşarını bir neçə il bundan öncə Müdərrislər cəmiyyətinin möhtərəm üzvlərinə dedim. Dedim dairəni bir qədər genişləndirsinlər, amma deyəsən nəzərdə tutulan formada olmadı və həyata keçmədi. İndi bu forma irəli sürülür.[648]

[647] Yenə orada.
[648] Yenə orada.

## Birinci hissə: Ötən əsrlərin alimləri

### 1. Əllamə Məclisi

**Əllamə Məclisinin mütəxəssisliyi**

Mənim fikrimcə, mərhum Məclisi bizim tariximizin böyük və məzlum alimlərindən biridir. Ona görə böyük alimdir ki, elmi baxımdan məqamı çox ucadır; hədis, rical elmləri üzrə mütəxəssisidir, fəqihdir, hədisşünasdır. Biharda işlənsə, ondan on böyük və dəyərli kitab çıxar. Yəni kimsə Məclisinin hədis problemlərinin həlli və çətin hədislərin izahı barədə yazdığı sözlərini toplasa, bütün sahələrdə çox dəqiq elmi sözlərlə dolu olan bir neçə cildlik qalın bir kitab alınar.[649]

### 2. ŞeyxƏnsari

**Mədəni hüquq, vergi və digər sahələrdə Şeyx Ənsarinin dərin fikirləri**

Şeyx gəlir, alış-veriş barədə və bu gün bütün dünya üçün lazım olan digər məsələlər barədə ən dəqiq və ən dərin fikirləri bəyan etmişdir, bu gün dünyanın bütün hüquqşünaslarının işləyib çalışdığı mədəni hüquqa aid məsələləri söyləmişdir. Məsələn, biz şeyxin xumsunu, yaxud zəkatını görməmişik, amma onun sözlərində xums və zəkat barədə də dəqiq nəzərlər tapmaq olar. Vergi və digər məsələlərdə şeyxin dərin elmi və istifadəyə qabiliyyətli nəzərləri elmi cəhətdən təhlil, bəyan və izah edilsin. Şeyxin kitabını yalnız onun-bunun ixtiyarında qoymağımız kifayət etmir.[650]

**Şeyx Ənsari - mühüm məsələlərdə yenilikçi**

Cəvahir müəllifinin fikirləri ilə Şeyx Ənsarinin fikirlərini müqayisəli araşdırmadan sonra bu nəticə alınır ki, ümumiyyətlə, şeyxin nəzəri başqa cürdür və o, yenilikçidir. Müxtəlif məsələlər barədə Cəvahirin çatışmazlığı

---

[649] Əllamə Məclisinin xatirəsi münasibəti ilə İsfahan universitetlərinin müəllimləri ilə görüşdə çıxışından: 1993.

[650] Şeyx Mürtəza Ənsarinin xatirə tədbirinin Təşkilat qrupunun üzvləri ilə görüşdə çıxışından: 1994.

yoxdur, lakin şeyxin sanki hər bir mühüm məsələ barədə yeni sözü var, yeni fikir ortaya qoyur.[651]

**3. Molla Sədra**

**Molla Sədra və Şeyx Ənsarinin fikirlərinin izahına və təhlilinə ehtiyac**

Təəssüf ki, filosoflarda da nəzəriyyələrin izah edilməməsi nöqsanı mövcuddur. Məsələn, mən dostlara "Molla Sədranın kitabı bizim ixtiyarımızdadır, lakin onun nəzəriyyələri izah edilməmişdir" - deyəndə bu işi görmədilər. Siz görün Qərbin böyük filosof, yaxud hüquqşünasları - məsələn, Hegel və Kant barədə nə qədər kitab yazılmış, fikirləri nə qədər təhlil olunmuş və qənaətlər söylənmişdir. Biz şeyxin nəzərləri barədə belə işləməliyik. Düzdür, bizim alim və müctəhidlərimiz fiqh mövzularında şeyxin nəzərlərindən bəhs etmişlər, lakin əslində öz nəzərlərini bəyan etmişlər. Yəni məsələn, səhvlərini demək üçün bəhs etmişlər.

Mənim fikrimcə, şeyxin nəzərlərinin təhlili vacib bir işdir. Bu barədə kitablar yazmaq olar.[652]

**4. Mühəqqiq Ərdəbili**

**Mühəqqiq Ərdəbili - İran alimləri sırasının başlanğıcı**

Mühəqqiq Ərdəbili onuncu əsrə aiddir. O, təxminən onuncu əsrin hamısını əhatə etmişdir: 920-930-cu illərdə doğulmuş, 993-cü ildə vəfat etmişdir. Onun şagirdləri əksərən livanlılardır; Məalim və Mədarik kitablarının müəllifləri Livandan Nəcəfə onun dərsinə getmişlər. Yəni Mühəqqiq Ərdəbilidən sonra nə qədər baxsanız, böyük alimlərin hamısı iranlıdır və dəyərli ərəb alimi azdır; Şeyx Cəfər kimi bir neçə nəfərdən başqa hamısı iranlı alimlərdir. O, Şiə fiqhi tarixində qədimdəkilərdən sonrakı mərhələdə əslində İran alimləri sırasının başında durur. Bu bir məsələ.[653]

---

[651] Yenə orada.

[652] Yenə orada.

[653] Müqəddəs Ərdəbilinin xatirəsinə həsr olunan elmi konfransın Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

**Nəcəfin Mühəqqiq Ərdəbilinin dövründən çiçəklənməsi**

İkinci məsələ Nəcəfdir. Mühəqqiq Ərdəbilidən öncə Nəcəfdən çox da xəbər yoxdur. Biz deyirdik ki, Nəcəf məsələn, min il Şiə elminin paytaxtı olmuşdur. Bəli, Şeyx Tusi Nəcəfə gələndən sonra Nəcəf hövzəsi bir müddət mərkəz oldu. Amma sonra rövnəqdən düşdü; ya Hillə mərkəz oldu, ya Şam. Düzdür, az-çox şəxsiyyətlər vardı, lakin çox da tanınmırdılar. Yenə görürük ki, Nəcəf Mühəqqiq Ərdəbilinin paytaxtıdır. O, Nəcəfi mühüm elm mərkəzinə çevirdi, biri o birindən sonra böyük alimlər - Vəhidin şagirdləri və digərləri dövrümüzə qədər Nəcəfi mərkəz etdilər. Məsələn, Şeyx Ənsarinin dövründən Nəcəf zirvədədir. Bu da mərhum Mühəqqiq Ərdəbilinin başqa bir xüsusiyyətidir.[654]

**5. Şeyx Kuleyni**

**Şeyx Kuleyninin elmi şəxsiyyəti**

Şeyx Kuleyni də dəyərli və görkəmli elmi şəxsiyyətdir. O, Rey və Bağdad hövzələrində uzun illər elm öyrənmiş, əllidən çox müəllim və şeyxlərdən hədis eşitmiş və digər tərəfdən Əhli-beyt məktəbinin tələbələrinin böyük bir qrupunu yetişdirmişdir. Bunun özü Şeyx Kuleyninin elmi üstünlüklərinə dəlildir.

Kuleyni yalnız bir mühəddis deyildi. Kafi kitabının bablara bölünməsi, onların düzülüşü və adlarının seçimi - məsələn, Ağıl və cəhalət kitabı, Höccət kitabı, Tövhid kitabı və sair - göstərir ki, Kuleyni böyük bir mühəddis olmaqdan əlavə, həm də mahir bir mütəkəllimdir. Onun işlətdiyi üsul, adlar və məzmun dövründə geniş yayılmış kəlam məsələlərinə əsaslanır. Həmçinin şeyxin Kafi kitabına yazdığı müqəddimə dəyərlidir, onun kəlam və digər elmlərə dərindən yiyələndiyini göstərir.[655]

**Kafi kitabını və onun müəllifini uca tutmağın zərurliyi**

Hər halda, mənim fikrimcə, Kuleynini uca tutmaq elmi, dini və Şiəliyi uca tutmaqdır. Kafi də dəyərli əsərdir. Bu şərəfli kitab və onun

---

[654] Yenə orada.

[655] Siqətül-İslam Küleyninin xatirəsinə dair beynəlxalq konfransa müraciətindən: 2009.

böyük müəllifi barədə nə qədər elmi iş görülsə və onlar nə qədər uca tutulsalar, yaxşıdır.[656]

[656] Yenə orada.

## İkinci hissə: Müasir alimlər

### 1. İmam Xomeyni

### İmamın şəxsiyyətinin elmi cəhətləri

İmam böyük bir şəxsiyyət idi. Kaş bütün xalq, xüsusən də ölkənin indiki gənc nəsli imamın şəxsiyyətinin gözəlliklərini və parlaqlığını onun yaxınlarının hiss edib gördüyü kimi görə biləydilər. İmam həqiqətən xarizmatik bir şəxsiyyət idi, müxtəlif fənlərdə dərin elmi vardı, təkcəhətli və bir sahənin alimi deyildi. O, böyük bir filosof, böyük bir arif və fəqih, dəyərli və üstün bir üsul alimi və məktəb sahibi idi. O, həm də əxlaq müəllimi idi; yəni insan hansı cəhətdən baxırsa, onda dəyərli elmi cəhətlər müşahidə edir.[657]

### İmamın elmi cəsarət üzərində təkidi

Biz bu ölkə üçün nə istəsək, imamı nəzərə almalı, onun iştirakını təmin etməli, xəttini, yolunu və işarəsini diqqətdə saxlamalıyıq ki, ona çatmaq mümkün olsun. Siz bu ölkə üçün nə istəyirsiniz? Əlbəttə, müştərək cəhətlər var, amma hər halda, hərənin bir cür fikirləşdiyi məsələlər də var. Biri düşünür ki, bu gün problemlərin həll olunması üçün bu ölkə elmi zirvəyə çatmalıdır. Çox gözəl. Bu işin görülməsi üçün imamın xatirəsini yaşatmalıyıq. Çünki ölkənin elmi nəslinə söz və əməllə bu cürəti verən, dünyanın elmi nəhəngləri qarşısında özünəinam bəxş edən imam idi.[658]

### 2. Əllamə Cəfəri

### Əllamə Cəfərinin fəaliyyətinin tədqiqatla məşğul olan gənclərə örnək olması

Cənab Cəfəridə dəyərli xüsusiyyətlər vardı. Mənim fikrimcə, bunların hamısı elm və tədqiqatla məşğul olan gənc nəslə örnəkdir. O tədqiqat işlərinə başlayanda çox gənc idi. Əlbəttə, mən təxminən 1955-1956-cı illərdə onu tanıdım. O, Nəcəfdən təzə gəlmişdi; gənc, dəyərli,

---

[657] Həzrət İmam Xomeyninin yüzillik yubiley tədbirlərinin Təşkilat Komitəsinin üzvləri ilə görüşdə çıxışından: 1999.

[658] Yenə orada.

tədqiqatçı, aktiv idi. Bizim böyüklərimiz - məsələn, mərhum cənab Milani, Məşhəddə olan digər ağalar və həmçinin tələbələr ona hörmət edirdilər. Onda həqiqətən, tədqiqat, araşdırma ruhu, həvəskarlıq və elmi şövq müşahidə olunurdu. Bu ruhiyyə gənclik dövründən ömrünün sonuna qədər davam etdi. O zaman onun təxminən otuzdan bir qədər artıq yaşı vardı. Bütün bu gənclik şövqü elm və düşüncə işinə, araşdırmaya, yazmağa, tədqiqata, mütaliyəyə və belə işlərə sərf olunurdu. Onun qeyri-adi yaddaşı və elmi istedadı vardı. Bu vəziyyət son dövrə qədər davam etdi. Bu, möhtəşəm bir şeydir.[659]

### 3. Şəhid Mütəhhəri

#### Şəhid Mütəhhərinin əsərlərində olan yeni baxış

Gənclər, xüsusən də elmlə məşğul olan ruhani, müəllim, tələbə və yazıçılar Şəhid Mütəhhərinin əsərləri ilə yaxından ünsiyyətdə olsunlar, onun kitablarını oxusunlar. Bu kitablar oxucuya həqiqətən, geniş və çox zaman yeni baxış bəxş edir.[660]

#### Şəhid Mütəhhərinin elmi şəxsiyyəti

Mərhum Şəhid Mütəhhəri çox dərin, düşüncəli və dolu bir insan idi, bu tədqiqatlar üçün lazımi elmi vardı: fəlsəfə bilirdi, kəlam bilirdi, fiqh və tarix bilirdi. Araşdırdığı mövzunun bütün tərəflərini çək-çevir edirdi. Məhz buna görə də əsərləri çox dəyərlidir. Mən bir dəfə hövzə tələbələrinə dedim ki, insan təkcə onun əsərlərini əvvəldən axıra qədər diqqətlə oxusa, İslam maarifinin yüksək bir səviyyəsinə yiyələnə bilər. İndi siz bu əsərləri ixtisar etmiş, nizama salmısınız. Bu, çox yaxşı və dəyərli işdir.[661]

#### Şəhid Mütəhhəri və İslam düşüncəsinin istehsalı

O özünün güclü fikri və yüksələn düşüncəsi ilə o zamana qədər dini məsələlər arasında heç kəsin girmədiyi mövzulara girişdi və ölkədə

---

[659] Ustad Əllamə Məhəmmədtəqi Cəfərinin ailəsi və vəfat mərasiminin Təşkilat qrupunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1998.

[660] Müəllim və fəhlələrlə görüşdə çıxışından: 1992.

[661] Bazar ertəsi görüşlərində Şəhid Mütəhhərinin əsərlərinin mütaliə layihəsinin İmam Sadiq (ə) Universitetindən olan təşkilatçıları ilə görüşdə çıxışından: 2000.

yayılmış, yaxud yayılmaqda olan təfəkkürlərlə, Şərqin və Qərbin tərcümə ilə idxal etdiyi fikirlərlə mübarizəyə başlayıb, özünü dərin, geniş və tükənməz elmi işlərə daxil etdi. O, həm marksistlərlə mübarizədə çox dəqiq bir cihada başladı, həm də Qərb təfəkkürləri və liberalistlərlə mübarizədə.[662]

**Şəhid Mütəhhərinin idxal olunmuş düşüncələrə qarşı elmi mübarizəsinin təsirləri**

O dövrdə Şəhid Mütəhhərinin hünəri bu idi ki, ictihad qüvvəsi ilə, insafla, nəqli və əqli elm mədəniyyəti ilə cəbhənin ortasında dayandı və bu düşüncələrlə əlbəyaxa oldu, İslam təfəkkürünü aydın, təmiz və şübhəsiz şəkildə ortaya qoydu. Onun əleyhinə çox danışdılar, çox iş gördülər, amma o, işini davam etdirdi. Bu çox əhəmiyyətli bir roldur və cəmiyyətimizin sonrakı təfəkkürlərinin bünövrəsinə çevrildi. Mən qəti şəkildə inanıram və dəfələrlə də demişəm ki, bizim inqilabımızın, quruluşumuzun islami təfəkkür cərəyanı əsas etibarilə Şəhid Mütəhhərinin təfəkkürlərinə söykənir. Yəni onlar islami bünövrə və təməllərdir; biz İslam təfəkkürlərində onlardan bəhrələnmiş və İslam quruluşuna nail olmuşuq. Şəhid Mütəhhərinin fikirləri o zaman da islami fikir arzusunda olan və əcnəbilərin güclü təfəkkür zərbələri altında qalan gənclər üçün təhlükəsiz yer idi. Marksistlər bir cür hücuma keçirdilər, qərbpərəstlər bir cür. Bu hücumlar həm universitetlərdə vardı, həm digər yerlərdə, həm də hətta elm hövzələrində. Şəhid Mütəhhəri bu dərin və möhkəm təfəkkürün sayəsi altında qorunmaq üçün bu şəxslərə bir səngər və sığınacaq oldu. Onlar bununla həm öz dinlərini qorudular, həm müdafiə olundular, həm də yeni sözləri oldu.[663]

**Şəhid Mütəhhərinin müvəffəqiyyətinin sirri**

Şəhid Mütəhhəri nə üçün uğur qazandı? Nə üçün bizim düşüncə mühitimizdə belə güclü və geniş təsir buraxdı? Çünki özünü hazırlamaq üçün çoxlu elmi səy göstərdi və sonra da bu elmi ehtiyatı xərcləməkdə heç zaman tənbəllik etmədi. Mərhum Mütəhhərinin rahatlığı yox idi; daim qeydlər götürmək, qeydləri sahmana salmaq, çıxış hazırlamaq, dini fikir və düşüncə sahələrində müxtəlif şübhələri tapmaq və cavab verməklə məşğul

---

[662] "Pak hikmət" konfransının təşkilatçıları ilə görüşdə çıxışından: 2004.
[663] Yenə orada.

idi. Bu insanda ümumiyyətlə, tənbəllik yox idi. O, elmi ehtiyatı və əməli işi ilə təsir buraxa bildi.[664]

**Mübariz din alimləri**

Ölkənin din elminə təqdim etdiyi mübariz alimlərinə görə Fars vilayətinin bənzəri azdır. Mirzə Şirazini hamı tanıyır. Böyük alim olan mərhum Seyid Əliəkbər Əsiri Şiraz şəhərində qiyam edib ingilislərin, xaricilərin müdaxiləsinə qarşı çıxdı və sonra da sürgün edildi, lakin işinin təsiri qaldı. İkinci Mirzə - Mirzə Məhəmmədtəqi Şirazi Birinci Dünya Müharibəsindən sonrakı illərdə ingilislərin işğalı qarşısında İraq xalqının apardığı mübarizənin rəhbəri idi. Mərhum Seyid Əbdülhüseyn Lari təxminən yüz il öncə Fars vilayətinin qeyrətli və şücaətli əşirətlərinin köməyi ilə mübarizəyə qalxan dəyərli və üstün bir şəxsiyyət idi... Mərhum Seyid Nurəddin Hüseyni Şiraz şəhərində xalqın müqəddəslərini təhqir edən əcnəbi səfirlik əməkdaşını yerə uzadıb öz əli ilə şallaqladı, ilahi hökmü icra etdi və tam şücaətlə zalım rejimə qarşı siyasi və ictimai mübarizəyə qalxdı.

Ruhani mübarizələrinin başlandığı dövrdə də mərhum Ayətullah Şəhid Dəstğeyb, mərhum Ayətullah Məhəllati və digər alimlər Şirazın Ətiq came məscidini öz mübarizələrinin mərkəzinə çevirdilər. Şiraz alimlərinin mübarizələrinin şöhrəti və o ruhaniliyin sözçüsü kimi mərhum Ayətullah Dəstğeybin həmin günlərdə çıxışları İranın hər tərəfinə yayıldı.[665]

**Şəhid Mütəhhəridə kamil müəllim cəhətləri**

Böyük şəhidimiz olan mərhum Ayətullah Mütəhhəri barədə bu cümləni də deyim: O böyük insanın rəftarı həqiqətən kamil və məsuliyyətli bir müəllimin rəftarı idi. O, bir İslam mütəfəkkirinə ehtiyac duyulan heç bir sahəyə girməkdən çəkinmədi. Nəyisə nəzərə almaq və hansısa mülahizələr onun önünü kəsə bilmədi; istər siyasi sahələrdə, istər düşüncə sahələrində.

---

[664] Kermanın din alimləri və ruhaniləri ilə görüşdə çıxışından: 2005.
[665] Şiraz əhalisi ilə görüşdə çıxışından: 2008.

O dövrdə bizim gənclərimizin beyninə dolmuş müxtəlif suallara cavab verərkən Şəhid Mütəhhəri bəzi dini aydınlıq iddiaçıları kimi din məntiqi və din məzmunu haqda dini pərdə altında və dini qəliblə əcnəbi fikirlərini təqdim etmədi. O bunun tam əksinə olaraq, əsl dini məfhumları günə, dinləyicilərin sual və ehtiyacına münasib şəkildə təqdim edirdi, xüsusi bir dəstənin, qrupun, düşüncə cərəyanının tərifi barədə düşünmürdü. Düşüncə geriliyi, mürtəcelik, din sahəsində ehkamçılıq və köhnəpərəstlikdən irəli gələn səhv düşüncələrlə şiddətli mübarizə apardı; bidətlərlə, azdırıcı və eklektik düşüncələrlə apardığı mübarizə kimi. Bu, o böyük insanın xüsusiyyəti idi.

O yorulmadı, daim çalışdı. Universitet və hövzə titulu ardınca da düşmədi. Fikir və düşüncə sahəsinin bir döyüşçüsü kimi meydana atıldı. İxlasla işlədi, Allah-Taala da işinə bərəkət verdi. Bu gün şəhadətindən otuz il ötdükdən sonra o böyük insanın sözləri yenidir, canlıdır, sanki bu gün üçün yazılmışdır. O zaman da müxtəlif düşüncə səviyyələrində olan bəzi şəxslər onun söz və düşüncəsindən istifadə edir, cavablarını alırdılar, düşüncələrin inkişaf etdiyi və araşdırıcı beyinlər üçün çoxlu məsələlərin həll olunduğu bugünkü gündə də yeni suallara cavab verir. Bu, ixlasla yanaşı olan dərin düşüncənin xüsusiyyətidir.[666]

---

[666] Ölkə müəllimləri ilə görüşdə çıxışından: 2010.

## Altıncı bölmə: Proqramlaşdırma hərəkatı

### Birinci fəsil: Məfhumlar

**Proqramlaşdırma hərəkatının əsl həqiqəti**

Proqramlaşdırma hərəkatı yalnız kompüter proqramları hazırlamaq deyil, hər bir inkişafın həqiqəti və ruhu, elm və onun istehsalıdır. Proqramlaşdırma hərəkatının ruhu elm istehsalı və xalqın istedadını işə salmaqdır. Əgər bir xalq öz kimliyi ilə öz ayağı üstə dursa, onda bu məna güclənəcək və inkişaf edəcək, əks təqdirdə, həmişə başqalarının ardınca düşəcək və nəyəsə nail olsa da, yenə də başqalarının ardıcılı olacaq.[667]

**Elmi dərindən mənimsəməkdən əlavə, həm də istehsal etmək**

Əhəmiyyətli olan elm istehsalıdır. Dostlar bəzi statistikalar göstərdilər, mən də qəbul edirəm. Tədqiqat inkişafları və dünyanın mötəbər elmi jurnallarında çap olunan məqalələr barədə də məlumatlar verildi. Lakin unutmayın ki, elm istehsalı, yəni elmin sərhədlərini keçib inkişaf etmək elm öyrənməkdən və dərin biliyə malik olmaqdan fərqli bir şeydir. Bizim birinciyə ehtiyacımız var. Əlbəttə, bu o demək deyil ki, ikincisinə ehtiyacımız yoxdur; ehtiyacımız var, lakin kifayət etmir. Alimlərin müxtəlif elmi sahələrdə, istər humanitar, istərsə də təcrübi elmlərdə yazı və araşdırmalarının yaxşı başa düşülüb, insanın təyin meyarına və uyğun sahədəki son qərarına çevrilməsi yaxşı deyil.[668]

**Proqramlaşdırma hərəkatında məqsəd**

Bir neçə il öncə ilk dəfə Əmir Kəbir Universitetində Proqramlaşdırma hərəkatı məsələsini irəli sürdüm. Proqramlaşdırma hərəkatı elmi istehsal etmək, elmin sərhədlərini yarmaq və böyük bir hərəkat vücuda gətirməkdir. Bu təklif yaxşı qarşılandı və bu gün görürəm ki, universitetlərin, müəllimlərin və məsul şəxslərin sözlərində təkidlə

---

[667] Bazar ertəsi görüşlərində ölkənin Tələbə Nəşriyyələri İttifaqının üzvləri ilə görüşdə çıxışından: 2003.

[668] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.

vurğulanır. Əlbəttə, bir müddətə qədər bəziləri deyirdilər ki, biz ümumiyyətlə, bu sözün mənasını anlamırıq. Bəziləri də şübhə yayırdılar ki, elm məgər istehsal ediləsidir?! Əlbəttə, əbəs mübahisələr edirdilər və deyirdilər ki, nə üçün deyirsiniz elm istehsalı. Siz adını nə istəyirsiniz qoyun, məqsəd bəllidir.

Proqramlaşdırma hərəkatı budur ki, elmi sahədə oturub əlinizi uzatmayın ki, başqaları əksinlər, meyvələrini toplasınlar və özlərinə lazım odluğundan artığını gətirib sizin əlinizə qoysunlar. Get ək, suvar, başqalarının düzəltdiyi binanın üzərində bina tik. Bizim məqsədimiz bu idi. Bəziləri deyirdilər biz başa düşmürük. İndi də hərdən eşidirəm ki, bəzi insanlar ümidsiz danışırlar. Deyirlər məgər biz bacararıq?! Bəli bacararıq. Biz müxtəlif sahələrdə elmi cəhətdən bu gün dünyada yeni sayılan işlər görə bilərik. Bu, bütün sahələrdə tamamilə mümkündür.[669]

**Elm istehsalı hərəkatı və onun elmi istiqaməti**

Sonrakı məsələ Elm istehsalı hərəkatıdır. Biz 6-7 il öncədən bu məsələni demiş, müzakirəyə çıxarmışıq. Bəli, indi bu məsələnin ətrafındakı bəzi mövzular doğrudan da vaxt itirmək və baş qatmaqdır. Misal üçün, elm istehsalının mənası nədir? Elm istehsal olunasıdırmı? Elm kəşf ediləsidirmi? İndi kəşf ediləsidirmi, istehsal ediləsidirmi, tədqiq ediləsidirmi; nə desələr, məqsəd bəllidir. Biz deyirik ki, maddi sivilizasiyanın, həyat məsələləri ilə bağlı sivilizasiyanın mütərəqqi və inkişaf etmiş texnologiyalarının bünövrəsi elmdir. Əgər bu elmi digərlərindən almaq və özünüz istifadəçi olmaq istəsəniz, heç bir yerə çatmayacaqsınız. Bu elm daxildə cücərməlidir.

İnsanın bir şeyi başqasından, onun öyrətmək istədiyi həddə öyrənib şagirdlik etməsi, yaxud həmişə şagird qalmaması fərqli şeylərdir. Mən dəfələrlə demişəm ki, bir xalq həmişə şagird qala bilməz. Biz bir zaman elm və mədəniyyət dünyasında müəllim idik, indi şagird mərhələsinə enmişik. Bir müddət də çox tənbəl şagird olmuşuq, amma bu gün hərəkətə başlamışıq və inkişaf etməliyik; xüsusən də fundamental elmlərdə. Bu elmlər həqiqətən hər bir elmi hərəkətin və mütərəqqi texnologiyanın nəzəri

---

[669] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışından: 2005.

bünovrəsidir. Mən təkid etmişəm və edirəm. Əlbəttə, bu diqqətin və elmi istiqamətləndirmənin yanında əmələ, ölkənin ehtiyaclarını nəzərə alıb o istiqamətdə hərəkət etməyə də diqqət yetirməliyik. Bu da ikinci mühüm məqamdır.[670]

**Yeni düşüncənin dəyəri**

Bir elm adamının canında yeni bir düşüncənin meydana çıxması, yeni bir nəticənin yaranması təbii bir cücərmədir. Qoyun bu cücərmə baş versin, inadkarlıq etməyək, deməyək ki, məmurlar bizim işimizi yaxşı qarşılamadılar, onda biz də filan işi görək. Xeyr, sizin işinizin dəyəri o qədər yüksəkdir ki, onun davam edib-etməməsi məmurların köməyindən asılı deyil. Bəli, bəllidir ki, məmurların köməyi bəzən həyati əhəmiyyət kəsb edir; o öz yerində. Mənim sizə tövsiyəm budur.[671]

**Yenilik zərurəti**

Bəzi iqtisadi nəzəriyyəçilər deyə bilərlər ki, cənab, olmaz, əgər iqtisadi inkişafa nail olmaq istəyirsinizsə, mütləq təbəqələr arasındakı fərqi qəbul etməlisiniz. Məhz burada biz yeniliyi yada salırıq. Belə düşünməməliyik ki, Qərbin iqtisadi proqramları bəşər nailiyyətinin son həddidir. Xeyr, bu da bir proqramdır, bunun da bir dövrü var. Bu dövr bitəcək və yeni düşüncə meydana çıxacaq. Axtarın həmin yeni fikri tapın.[672]

**Hər yerdə yenilik**

Yenilik xüsusi bir yerə məxsus deyil. Laboratoriyada, tədqiqat mərkəzində, sinifdə, elm hövzəsində, universtetdə, sənaye mərkəzində, idarədə, tarlada, bağda - hər yerdə yaradıcı və yenilikçi insanların

---

[670] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışından: 2006.

[671] Yəzd vilayətinin elmi nümunələri ilə görüşdə çıxışından: 2008.

[672] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışından: 2008.

yaradıcılığı hər bir işi bir addım irəliyə apara və ümumilikdə ölkəni mühüm bir keçiddən keçirə bilər.[673]

**Yeniliyin mənası**

Yenilik bir-birinin ardınca yeni layihə yaratmaq demək deyil. Yenilik - düşüncədə, fikirdə yenilikdir, yeni yolları tapmaq və onları işin proqramı və bələdçisi kimi hökumətin - istər bu hökumətin, istər gələcək iyirmi ilə qədər digər hökumətlərin ixtiyarına buraxmaqdır. Yeniliyin mənası odur ki, yeni üsullar tapaq.[674]

**Elm istehsalının dünyəvi faydalarına diqqət**

Bir yayınma budur ki, dünyanı unutsunlar. Dünyanı unutmaq həyat və məişət nemətlərini unutmaq və onlara etinasız yanaşmaqdır. Keçmişdə dindar toplumda baş verən çoxlu problemlər kimi bu da başqa bir yayınmadır: axirət və din məsələlərinə diqqət, dünya nemətlərinə və Allah-Taalanın bu dünyada yaratdığı istedadlara diqqətsizlik. Bu da yayınmalardan biridir: "O sizi yerdən (torpaqdan) yaradıb oranı abadlaşdırmanızı istədi".[675] Allah sizə yeri abadlaşdırmağı əmr etmişdir. Abadlıq nədir? Yəni maddi aləmdə mövcud olan tükənməz istedadları bir-bir kəşf etmək, onları insanın istifadəsinə vermək və insanı bu vasitə ilə irəliyə aparmaq. Bizim dediyimiz elm, elmin istehsalı və bu kimi məsələlər bundan ötrüdür.[676]

---

[673] Şiraz əhalisi ilə görüşdə çıxışından: 2008.
[674] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2008.
[675] "Hud"/61.
[676] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2009.

## İkinci fəsil: Əməli işlər üçün proqramın zəruriliyi

### Elm istehsalı - texnologiyanın dayağı

İnkişaf etmiş elm olmadan heç bir yerdə inkişaf etmiş texnologiya və əsaslı iş mümkün deyil. Yəni hər bir şey sonradangəlmə olacaq. Bir ölkənin digərlərinin inkişaf etmiş texnologiyasını gətirməsi mümkündür, lakin o ölkənin daxilində bu texnologiya elmə söykənməsə və elmdən irəli gəlməsə, faydası yoxdur, içərisinə su tökülmüş bir hovuz kimi olacaq və özündən su çıxan quyudan fərqlənəcək. Odur ki, siz elm istehsalı üçün çox işləməlisiniz. Siz elm işi üçün nə qədər çalışsanız, çox deyil və demək olmaz ki, biz çox işlər görməkdəyik. Xeyr, elmi iş sahəsində nə qədər inkişaf etsəniz, yenə də daha çox çalışmalı olduğunuzu hiss etməlisiniz.[677]

### Elmin daxildən baş qaldırması

Bu, elmin xüsusiyyətidir. Elm iqtidar vasitəsidir. Elmi əldə etmək lazımdır, bundan başqa çarəmiz yoxdur. Qeyd etdiyim kimi, gələcəkdə ölkənin ümumi idarəçiliyindən tutmuş quruculuq işlərinə, şəhərlərin gözəlləşdirilməsinə və səhiyyəyə qədər bütün sahələrdə ölkənin tərəqqi və inkişaf halında olmasını istəyirsinizsə, elmli olmalısınız; özü də daxildən aşıb-daşan elm. Bizə elmin çeşməsi lazımdır, onun hovuzu yox. Siz özünüz aşıb-daşmalısınız. Əgər digərləri elmi çıxarıb onun artığını - həm də adətən köhnə artıqları verirlər, elmi yeniliklər özlərində qalır - bizə versələr, yenə həmin vəziyyət qalacaq və bəlkə daha pis olacaq.[678]

### Dünyada təsirli elmi rol üçün təsirli proqram hazırlamaq

Əziz qardaş və bacılar! Proqram hazırlayın. Elə edin ki, 20 ildən sonra bu ölkədə elmi istedadı olan bir şəxs dünyanın elmi toplumlarında baş qaldıra bilsin və İran ölkəsi dünyada bu baxımdan söz sahibi olan cəmiyyətlərdən biri olsun. İndi belə deyil. Hətta bizim işlədiyimiz və bizdə

---

[677] Bazar ertəsi görüşlərində Tehran Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışından: 1996.

[678] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.

tarixi kökü olan elmlərdə, hətta əxlaq elmində də onlar bizdən çox kitab yazmış, çox araşdırma aparmışlar.[679]

**Qərbin qəti saydığı elmi nəzəriyyələrinə şübhə ilə yanaşmaq**

Bizim müəllim və tələbələrimizin mütəfəkkir beyinləri Qərbdən gələn və bəzilərinin nəzərində Allah vəhyi hesab olunan, azacıq şübhə edilməsi mümkün olmayan hüquqi, ictimai və siyasi məfhumları müxtəlif elmlərin böyük tədqiqat mərkəzlərində çək-çevir etməlidirlər. Onların qarşısında sual qoymaq lazımdır. Mütləqçiliyi sındırmaq və yeni yollar tapmaq lazımdır; həm özləri istifadə etsinlər, həm də bəşəriyyətə təklif olunsun. Bu gün ölkəmizin buna ehtiyacı və universitetdən belə bir gözləntisi var. Universitet gərək universal və dərin bir proqramlaşdırma hərəkatına başlasın, iş və əmək sahibləri özümüzdən olan elmi yeniliklərlə İslam dəyərlərinə və din təfəkkürünə söykənən ədalətli və inkişaf etmiş bir cəmiyyətin bünovrəsini möhkəmləndirsinlər. Bu gün ölkəmiz universitetdən bunu istəyir.[680]

**Proqramlaşdırma hərəkatı üçün elmi təkliflər irəli sürmək**

Siz tədqiqat və bu kimi sahələrdə mənə yazılı şəkildə qurucu təkliflər verməmisiniz. Düzdür, yaxşı söhbətlər etdiniz, lakin nə iş görmək barədə yalnız dostların biri təklif etdi və o da bu idi ki, bir müşavirə qrupu yaradılsın. Bu müşavirə qrupu yaxşı bir şeydir. Mən indi də müxtəlif məsələlərdə, xüsusən universitet və ölkənin elmi məsələlərində səlahiyyətli şəxslərlə çox məsləhətləşirəm. Məsləhətləşmə çox möcüzə etmir. Siz gəlin özünüz fikirləşin, mənim dediyim bu Proqramlaşdırma hərəkatı barədə təklif yazın. Biz tələsmirik, demirik ki, bir, yaxud iki ay ərzində təkliflərinizi verəsiniz. Oturub fikirləşin, bir-iki ildən sonra yenə bizim yanımıza gəlin və deyin ki, təklifimiz budur; yəni həqiqətən praktik çıxış

---

[679] Yenə orada.

[680] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

yolları göstərin. Biz reallıqlara əsaslanaraq irəli sürülən təklifi çox yaxşı qarşılayır və inşallah mümkün həddə həyata keçirməyə çalışırıq.[681]

**Hövzə və universitetin metodik elmi mübahisələrə ehtiyacı**

Mən həmişə belə layihələrlə müvafiq olmuşam, bundan sonra da onları dəstəkləyəcəyəm. Qum Elm Hövzəsinin möhtərəm İdarə Şurasından istəyirəm ki, böyük və möhtərəm təqlid müctəhidlərinin məlumatı və yardımı, hövzənin dəyərli müəllim və tədqiqatçılarının əməkdaşlığı və iştirakı ilə fiqh, üsul, fəlsəfə, kəlam, təfsir və digər dini tədqiqat mövzuları üçün, eləcə də cəmiyyətin nəzəri və praktik suallarına cavab hərəkatını fəallaşdırmaq üçün belə bir imkan yaratsınlar.

Hörmətli Mədəni İnqilab Şurasından, xüsusən də onun möhtərəm sədrindən istəyirəm ki, bütün universitet elmlərinin inkişafı, tərcümə mətnlərinin tənqidi, elm və sənaye sahəsində, xüsusən də humanitar elmlərdə və İslam maarifində yaradıcılıq və istehsal dövrünün başlanması üçün bu ideyanı prioritet seçsinlər, bu böyük iş üçün tədricən şərait yaransın və universitetlərimiz yenidən İslam sivilizasiyası yaratmağın, elm inkişafının, texnologiya və mədəniyyət istehsalının ön sırasında dursunlar.

Şübhəsiz, hər iki qurum universitet və hövzə alimlərinin, o cümlədən sizin ideyalarınızdan istifadə edəcək ki, məsələnin bütün cəhətlərinə riayət etməklə hövzə və universitetin bütün elmi çərçivələrində suallara cavab, elmi mübahisələr və metodik nəzəriyyə yürütmək hərəkatını oturuşdurub, ona həvəsləndirsinlər. Ümidvaram bu ideyanın icrası süründürməçiliklə üzləşməsin və inqilabın iyirmi beş illiyindən öncə onun ilk mühüm səmərələri görünsün.[682]

**Elm istehsalı hərəkatı və sənaye ilə birləşmə**

Elm sahəsində 2-3 ildir daim təkrarladığımız Proqramlaşdırma və elm istehsalı hərəkatı həyata keçməlidir. Bu, şüarçılıq deyil. Mən bu işlə maraqlanıram və mümkün olan bütün mərkəzlərə tövsiyə etmişəm. Lakin

---

681 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışından: 2002.

682 Elmi hövzə tədqiqatçılarının nəzəriyyə kürsüləri barədə məktubuna cavabdan: 2003.

icra işini mən görmürəm, icraçı qurumlar görməlidir. Allaha şükür olsun ki, bu iş başlanmışdır. Lakin elm istehsalı məsələsinə ciddi yanaşmaq lazımdır. Biz bütün sahələrdə - istər təbii, istər humanitar elmlərdə elm istehsal etməliyik. Mənim dəfələrlə təkid göstərdiyim elm və sənayenin birləşməsi məsələsi həyata keçməlidir. Bütün bunların yolu var və proqrama salına bilər.[683]

**Elm istehsalı şüarının həyata keçməsi üçün ciddi proqram**

Mən ölkə universitetlərində elm istehsalı və elmi yenilik şüarını irəli sürdüm. İndi gənc universitet mənsubları ilə görüşdüyüm zaman xoşbəxtlikdən, görürəm ki, istər tələbələr, istər universitet müəllimləri söhbətlərində bu məsələyə ciddi baxırlar. Şüar gözəldir, lakin bu, kifayət etmir. Bu şüarın həyata keçməsi üçün ciddi hərəkət planı olmalıdır.[684]

**Elm və düşüncə işlərində incəsənətin əhəmiyyəti**

Əgər radio və televiziyadan yayımlanan elm işlərində, elmi fikirlərdə incəsənət üsullarından istifadə olunsa, onların davamlılığı və cəlbediciliyi artar. Bütün sahələrdə tədqiqat və incəsənət üzərində təkid lazımdır.[685]

**Elm və mədəniyyət adamları vasitəsi ilə Proqramlaşdırma hərəkatının təbliği**

Əlinə qələm götürən və mədəni işdə çalışan şəxslər elm və təhsili günbəgün təbliğ etməlidirlər. Biz elmi yenilik və proqramlaşdırma hərəkatı şüarını irəli sürmüşük. Gözlənilir ki, elm adamları, din adamları, qələm sahibləri, universitet və hövzə mənsubları bu istiqamətdə hərəkət etsinlər və çoxları hərəkət etmişlər. Lakin bəzilərinin bu həqiqi ehtiyacla - elmi hərəkət bu ölkənin həqiqi ehtiyacıdır - yanaşı hərəkət etmədiklərini görürük. Bunlar belə qruplar barədə yaxşı əlamət göstərmir.[686]

**Elm və texnologiya inkişafında əlliillik məqsəd**

---

[683] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2003.
[684] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2004.
[685] Teleradio Verilişləri Şirkətinin işçiləri ilə görüşdə çıxışından: 2004.
[686] Həmədan əhalisinin böyük toplantısında çıxışından: 2004.

Mən bu otaqda sizin kimi gənclərin bir qrupuna dedim ki, indidən iradə ilə başlayın ki, əlli ildən sonra bu ölkə bütün sahələrdə bəşəriyyətə ən yeni texnologiya və elmi nəzəriyyələr təqdim edə bilsin. Siz bu niyyətlə hərəkət edin. Əgər əlli ildən sonra oraya çatmaq istəsəniz, indi görməkdə olduğunuz işlər çox deyil, addım atmaq və sürətlə hərəkət etmək lazımdır.[687]

**Fars dilini beynəlxalq elm dilinə çevirmək**

Mən tələbə məclislərinin birində dedim ki, siz bu barədə fikirləşin: əlli ildən sonra ölkəniz elə bir mövqedə olmalıdır ki, kimin elmi inkişafa ehtiyacı olsa, dilinizi öyrənməyə məcbur olsun. Yəni sizin ölkəniz o qədər elm və tədqiqat əsəri istehsal etsin ki, əsasən ABŞ və bəzi ölkələrin texnologiyasının inkişafı səbəbindən bu gün ingilis dilinin yayıldığı kimi, siz də elmi inkişafınızın ardınca dünyada fars dilini yayasınız. Siz zirvədə durmağı bacarmalısınız. Bu mümkün və iradə ilə çalışsaq, qətidir.[688]

**Növbəti əlli il üçün universitetdən gözlənti**

Mən bir dəfə universitet tələbələrinə dedim ki, sizdən gözləntim çox deyil. Mən ölkənin elmi toplumu olan sizdən gözləyirəm ki, əlli ildən sonra dünyanın yüksək elmi mövqeyində durasınız. Bu, istedadlı bir xalqdan çox gözləntidir?! Əgər bunun baş verməsini istəyiriksə, indidən çoxlu işləməliyik. Şərti tənbəllik, diqqətsizlik, xəsislik etməmək, bu yoldan qorxmamaq, elmi elitaya şərait yaratmaq və onları yetişdirməkdir. Bəzi sahələrdə bizim dünya ilə məsafəmiz çox deyil. Həmin sahələrdə - məsələn, adlarını çəkdiyim və xoşbəxtlikdən, dünyanın inkişafı ilə məsafəmizin çox olmadığı sahələrdə səyimizi artıra bilərik. Bu da bir işdir və dövlətin vəzifələrindəndir. Şərait yaratmaq lazımdır. Bu gənclər işə və anlamağa can atırlar, bunlara imkan yaradılmalıdır.[689]

---

[687] Böyük Rəhbərin gənc ixtiraçı və yaradıcılarla görüşündə çıxışından: 2005.
[688] Ölkənin elmi nümunələri və tələbələrlə görüşdə çıxışından: 2005.
[689] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2006.

## Üçüncü fəsil: Cəmiyyətdə elmə təmayül və mədəniyyət yaratmaq ruhunun bərqərar olması

### Cəmiyyətdə elmi ruhun bərqərar olması

Belə bir proqramda sizin dediyiniz məqsədlərdən əlavə, başqa bir məqsəd də nəzərdə tutula bilər və o, cəmiyyətdə elmi ruhun bərqərar edilməsidir. Bunun özü mühüm bir şeydir. Daha tələbə məsələsi deyil ki, elmə həvəs göstərsin, elmi fənlərlə məşğul olsun. Bizim yaşadığımız cəmiyyətdə xalqda, hətta bir kəndlidə də elmə rəğbətin olub-olmaması əhəmiyyətli məsələdir. Bu, iki növ həyata səbəb olur. Biz gərək düzgün yollarla, hər bir mümkün vasitə ilə cəmiyyətdə birincisini təmin edək və yaradaq.

Biz nə qədər inkişaf etsək, bu rəğbət cəmiyyətdə elmi ruha daha müsbət və dərin təsirlər göstərəcək. Bu təsirlərdən biri budur ki, hər kəs elm öyrənməyə və elmsizlikdən qaçmağa həvəslənəcək. Misal üçün, bir əkinçini fərz edin. Bilir ki, əkinçiliyi üçün dərmandan, gübrədən və elmi üsuldan istifadə etsə, bu il üç ton əvəzinə dörd ton buğda götürəcək. Bir nəfər var ki, burada ümumiyyətlə, bir elmin, üsulun, qanunun mövcud olmasına inanmır; düşünmür ki, biz bu qanunu öyrənsək, yaxşı işləyərik. Bu əkinçi ilə qanunun olduğuna və bunun ona faydalı olacağına inanan şəxs arasında fərq var. Bu şəxs qanunu öyrənməyə həvəs göstərir, ümumiyyətlə, laqeyd olan, inanmayan və "hamısı boş sözdür" - deyən şəxs kimi etmir. Biz cəmiyyətin müxtəlif səviyyələrində bu elmi ruhu yaratmalıyıq. Elmə rəğbət çox mühüm məsələdir.[690]

### Diploma meylin yerinə elmsevərlik hissi

Mənim əzizlərim! Lazım olan iş və təlimdir. Əziz müəllimlər! Gəncləri yetişdirin, yeniyetmələri iş, müstəqillik və elmsevərlik hissi ilə yetişdirin, diplomsevərlik hissi ilə yox. Diplom nədir?! Diplom fərdin

---

[690] İran İslam Respublikası radiosunun Elm şöbəsinin əməkdaşları ilə görüşdə çıxışından: 1992.

müəyyən bilgilərə yiyələndiyini göstərmək üçün olsa, yaxşıdır. Lakin təsir mənşəyi ola bilməz. Mühüm olan elmdir.[691]

**Orta məktəblərdə dərs və tədqiqata rəğbət**

Orta məktəblərdə elə iş görülməlidir ki, gənc bütün varlığının dərsə, elmə və tədqiqata yönəlməli olduğunu bilsin. Bu bir məsələdir; yəni indiki və gələcək nəsillərdə elmə, tədqiqata, dərsə, savadlanmağa və alim olmağa rəğbət yaratmaq. Əgər bu iş görülsə, o zaman kitab oxumaq problemi də həll olunar. Ölkəmizdə kitab oxumaq problemimiz var, xalqın kitab oxumağa hövsələsi çatmır. Bu həmin məsələyə görədir.

Buna əsasən, orta məktəblər bütün fəaliyyətlərində bu iki vəzifə və meyarı diqqətdə saxlamalıdır: ölkənin elmi-mədəni gücünü dərinləşdirmək və gənclərdə həqiqi imanı möhkəmlətmək.[692]

**Tədqiqatın ümumi inama çevrilməsi**

Bizim ilk işimiz dəfələrlə təkrar etdiyimdir. Biz elm və tədqiqatı ümumi bir inam şəklinə salmalıyıq ki, bu işə ümumi səy göstərilsin; yəni həqiqətən, bütün quruluş üçün əhəmiyyətli olsun, bir hissəsi üçün yox.[693]

**Elmi nümunələrlə iclaslarda məqsəd**

Mənim fikrimcə, bu məclisin qurulması bir simvolik məqsədə görədir. Biz itsəyirik ki, bu işlə elmə, cəmiyyətin istedadlarına, elmi nümunələrinə hörmət göstərək, ölkədə yüksək istedad əmsalına malik olan bir düşüncə və beyin meyarı uca tutulsun və ona dair bir yarışma, şövq, ümumi hərəkət və hörmət yaransın. Siz elə şəxslərin nümunələrisiniz ki, biz cəmiyyətdə İslam quruluşunun, məmurların və bütün ölkənin onlara hörmət etdiyini elan etmək istəyirik. Bu, siz əzizlərin bəzisinin dilində və beynində olan mədəniyyət formalaşdırmaqdan ötrüdür. Əlbəttə, bu məclisin mənim üçün

[691] Beynəlxalq Əmək Günü münasibəti ilə fəhlələrlə görüşdə çıxışından: 1995.
[692] Təlim və Tərbiyə Naziri və nazirliyin məsul şəxsləri ilə görüşdə çıxışından: 1997.
[693] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışından: 2001.

digər böyük faydaları da var. Mən gənclərlə keçirdiyim əksər məclislərdən faydalanıram.[694]

**Zorla mədəniyyətə çevrilmiş "Biz bacarmırıq" fikri ilə mübarizə**

Bir əzizimiz dedi ki, mən cümə namazında belə demişəm: "Ölkənin elm adamlarından gözləyirik ki, əlli ilə qədər dünyaya elm ixrac edək". Bu, qeyri-mümkün bir şey deyil. İndi siz özünüzə müraciət edin; əgər bu söz sizə imkansız və absurd görünürsə, bilin ki, hələ də "siz bacarmırsınız, bacarığınız yoxdur!" deyib, zorla yeritdikləri ənənə hələ beyinlərinizdə mövcuddur. Bu yalançı ənənəni yox etməliyik. Bu tamamilə mümkündür.[695]

**Yaradıcılığa həvəsləndirmə və elmi nəzəriyyələrdə rəqabət**

Nəzəriyyə və düşüncə istehsalı hövzə və universitetdə ümumi bir dəyərə çevrilməli, nəzəri və praktik ağlın müxtəlif sahələrində nəzəriyyəçilər təqdir edilməli, yenilikçilərə mükafatlar verilməli, sözləri dinlənməlidir ki, digərləri də yaradıcılığa və ictihada həvəslənsinlər. İdeyalar məntiq, əxlaq çərçivəsində və islami inkişaf istiqamətində bir-biri ilə rəqabət aparmalı və yarışmalıdırlar ki, İslam dünyası kimliyini və izzətini geri qaytarsın və İran xalqı yenidən layiqli olduğu beynəlxalq mövqeyə nail olsun.[696]

**Elm istehsalı barədə danışmaqda məqsəd**

Biz elm istehsalı barədə dəfələrlə universitetdə danışmışıq, yenə də danışırıq, gələcəkdə də inşallah danışacağıq. Onun mənası bu deyil ki, hər bir dinləyicimizdən elm istehsal etməsini istəyirik. Mənası budur ki, bu, dəyər, məqsəd və ardınca fərdi maraqlar gələn ümumi hərəkət olsun.[697]

---

[694] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışından: 2002.

[695] Universitetlərin nümunəvi tələbələri ilə görüşdə çıxışından: 2002.

[696] Elmi hövzə tədqiqatçılarının nəzəriyyə kürsüləri haqda məktubuna cavabdan: 2003.

[697] Şəhid Behişti Universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2003.

**Elm istehsalı şüarının ümumi inama çevrilməsi**

Mən mənası elmin təqlid və tərcümə vəziyyətindən çıxması olan elm istehsalı, yaxud Proqramlaşdırma hərəkatını irəli sürəndə məsələ bu qədər aktual deyildi. İndi hansı universitetə gedirəmsə, görürəm müəllim, tələbə və tədqiqatçı Proqramlaşdırma hərəkatından danışır. Bu, yaxşı haldır. Bir toplumda yaranan inam güclü və müntəzəm hərəkətin dayağıdır. Biz bunu istəyirik. Mən deyirəm ki, siz bu məsələlərdə ciddi olmalısınız. Ölkə məsələlərini və gələcəyi oyuncaq hesab etmək olmaz.[698]

**Proqramlaşdırma hərəkatının universitet mənsublarının ümumi inamına çevrilməsi**

Mən görürəm ki, gənclər arasında yayılmasını və inam halına düşməsini arzu etdiyimiz anlayışların çoxu bu gün onların özləri tərəfindən yayılır. Siz gənclər, həmçinin müəllimlər və möhtərəm rektorlar elm istehsalından, Proqramlaşdırma hərəkatından, universitetlə sənayenin əlaqəsindən və ölkəmizin izdihamlı gənc toplumunda yatmış çoxlu ümidlərdən danışırsınız. Bunlar mənim ümid və arzularımı təşkil edən amillərdir. Bunları universitetlərdə deyəndə özüm də ümidvar idim. Lakin çoxları deyirdilər ki, bunun faydalı yoxdur.[699]

**Tədqiqatı və tədqiqatçını qorumaq**

Qardaşların biri istixana misalını vurdu. Bu, düzgün misal deyil. Ölkədə ümumi mühit elmin təbliği, istehsalı, genişləndirilməsi, tədqiqi, eləcə də alim və tədqiqatçı yetişdirmək üçün əlverişli olmalıdır. Ümumi mühit belə olduqda mənası bu deyil ki, bütün evlərdə, yaxud cəmiyyətin hər bir nöqtəsində araşdırma aparılmalıdır. Xeyr, elmin öz yerində vücuda gəlməsi lazımdır. Ümumi mühit elmi mühit olacaq, tədqiqat mühiti olacaq, lakin elm və tədqiqat münasib və uyğun yerdə inkişaf edəcək; məsələn, universitetlərdə, tədqiqat mərkəzlərində və bu tip yerlərdə. Buna əsasən, istixana düzəltmək və istixana mühiti yaratmaq söhbəti əsla yoxdur.

---

[698] Tələbə təşkilatları, mərkəzləri, nəşriyyələri, dini birlikləri və elmi nümunə tələbələrlə görüşdə çıxışından: 2003.

[699] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.

İstixana o işə yarayır ki, bəzək üçün bir şey düzəltsinlər və gül bayıra çıxanda 24, yaxud 48 saat stolun üstündə qalsın. Sonra isə o gül daha işə yaramır. Mühit elə olmalıdır ki, bu məhsulu qorumaq və ondan bəhrələnmək mümkün olsun.[700]

**Xalqı elm istehsalına qarşı həssas etmək**

Ölkədə elm məsələsi çox əhəmiyyətlidir. Dəqiq və hərtərəfli araşdırma ilə insan bir neçə məsələnin çox vacib olduğunu anlayır. Onlardan biri elmdir. Gələcək üçün bizim elmə ehtiyacımız var. İrəli sürülən proqramlaşdırma, elm, düşüncə və fikir istehsalı hərəkatı ciddi sayılmalıdır. Xoşbəxtlikdən, şərait əlverişlidir və çox yaxşı qarşılanır. Xalqı elm, təhlükəsizlik, elmi nümunələr yetişdirmək, milli iqtidar baxımından həlledici və təkanverici iş və yaradıcılıqlara qarşı həssas edin.[701]

**Bütün elmlərdə istehsalçılıq hissi**

Elm təkcə maddi deyil, humanitar elmlər də çox əhəmiyyətlidir. Elmin bütün sahələrində sözün əsl mənasında başucalığı duymalı, bir millət və bir elmi cəmiyyət olaraq, özümüzdə elm istehsalçısı olmaq və elm zirvələrini fəth etmək hissini yaratmalıyıq. Bu kimin işidir? Bunun ən mühüm təməllərindən biri universitetlərdir.[702]

**Elmin intrinsik dəyərinə inam yaratmaq**

Elmi nümunələr bu mədəniyyəti cəmiyyət arasında digərlərindən çox genişləndirə bilərlər. Bir insan fəlsəfi, irfani bilgilərlə, yaxud müxtəlif bəşər elmlərindən hər hansı biri ilə tanışlığı və incəsənət zövqünə malik olmağı bir dəyər bilsin; heç kəs bilməsə də, pula çevrilməsə də, dar düşüncələr bazarında düzgün və yaxşı müştərisi olmasa da. Bu mədəniyyət çox yaxşı mədəniyyətdir. Bu, ölkədə elm, tədqiqat və incəsənət axınını inkişaf etdirə bilər və bizim buna ehtiyacımız var. Belə olmasın ki, biz incəsənətlə, yaxud elmlə məşğul oluruqsa, maddi bir qarşılığa görə olduğunu təsəvvür edək

---

[700] Gənc alimlərlə görüşdə çıxışından: 2004.
[701] Teleradio Verilişləri Şirkətinin sədri və müdirləri ilə görüşdə çıxışından: 2004.
[702] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışından: 2005.

və əgər burada bir şey əldə etməsək, başqa bir yerə gedək. Düzdür, insanların təbiəti bəzən bu işlərə çəkilir, lakin dini və islami mədəniyyət bu deyil.[703]

**Elm və texnologiya istehsalının Allah yolunda cihad olması**

İstehsal nədir? Məqsədim yalnız məhsul istehsalı deyil. İstehsal geniş bir çərçivədə xalqın şüarı olmalıdır. İş, elm, texnologiya, sərvət, bilgi, fürsət, iqtidar, məhsul, işgüzar insanlar istehsalı - bunların hamısı istehsaldır. Bizim xalqımız həm hökumət və həm xalq olaraq bu istehsala səy göstərməlidir. Bu, milli təhlükəsizliyin, ölkənin iqtidar və inkişafının təminatçısıdır. Bu bir cihaddır. Mən bu gün həm məsul şəxslərə, dövlət məmurlarına, həm də xalqa, xüsusən də siz gənclərə deyirəm ki, bu bir cihaddır. Bu gün elm, əmək, yaradıcılıq, xalqın ehtiyacı olan məhsul, bacarıqlı kadr, fürsət və başucalığı istehsalı - bunların hər biri bir cihaddır. Allah yolunun mücahidi istehsal edəndir. Elmi həm öyrənməli, həm də istehsal etməliyik. Biz alim bir ölkə olmalıyıq.[704]

**Elmin cəmiyyətin əsas ümumi istəyinə çevrilməsi**

Dəfələrlə dedik və bundan sonra onlarla, yüzlərlə dəfə də deyəcəyik; siz də deyin və elə edin ki, cəmiyyətin beyni bunlara vərdiş etsin, elmsevərlik və elmin əsas sayılması hissi bütün sahələrdə cəmiyyətə hakim olsun.[705]

**Elm istehsalı məsələsinin ümummilli mövzuya çevrilməsi**

Ciddi şəkildə sizinlə əlaqədar olan başqa bir məsələ də elm istehsalı məsələsidir. Xoşbəxtlikdən, mən görürəm ki, universitetlərdə elm istehsalı və elmin sərhədlərini aşmağın zəruriliyi ümumi bir istəyə çevrilmişdir. Bu mənim üçün çox sevindirici və ümidvericidir. Bunu icra etməlisiniz. Mənim bu əzizlərimin elm, tədqiqat, araşdırma, elmi nümunə yetişdirmək, əlaqə mərkəzləri yaratmaq və digər məsələlər haqdakı təkliflərinin hamısı

---

[703] Kerman vilayətinin elmi nümunələri ilə görüşdə çıxışından: 2005.

[704] İmam Rzanın (ə) məqbərəsində çıxışından: 2006.

[705] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışından: 2006.

elm istehsalı istiqamətindədir. Bu çox dəyərlidir və bu yolu davam etdirmək lazımdır. Biz geridəyik.[706]

---

[706] Yenə orada.

## Dördüncü fəsil: Mövcud imkanlar və hərəkətin zəruriliyi

### Elmi yenilik və elm istehsalı cəsarəti

Bizim öz elmi səviyyəmizə çatmağa və ondan daha çox, daha əsaslı və daha mühüm şəkildə elmi sahədə qərar verməyə ehtiyacımız var. Gərək elmi bir hərəkətə qərar verək. Əlbəttə, elmi hərəkət olmuşdur, gizlətmək, örtmək və ölkədə keçmişə nisbətən həqiqətən, bir elmi oyanış olan bu hərəkətdə əməyi keçənlərin haqqını görməzliyə vurmaq olmaz. Lakin elmi inkişafda, elmi baxış və müntəzəmlikdə müstəqilliyə dair görməli olduğumuza nisbətən indiyədək az işləmişik, yenə davam etdirməliyik, elmi cəsarətimiz olmalıdır; yəni elmdə yenilik cəsarəti, bu gün dünyada elmin ön sıralarında hərəkət edən digərlərinin elmi məsələlərinə azad baxış cəsarəti; elmi cürət və cəsarət hissini, düşünmək və elm istehsalı cəsarətini qaytarmaq. Hansı ki, bir gün ölkəmiz, xalqımız, tariximiz bu qabiliyyətə malik olduğunu dünyaya göstərmişdir.

Şübhəsiz, biz elm sahəsində bu gün irəlidə hərəkət edənlərin əksəriyyətindən öndə gedə bilən bir xalqıq. Bizim keçmişimiz bu istedadı göstərir. Bu gün də əlverişli şərait vardır. Bəziləri tərsinə göstərmək istəsələr də, ölkənin siyasi vəziyyəti elmi inkişafa, ölkədə elm və mədəniyyətin genişlənməsinə və qeyd etdiyim cəsarət və müstəqillik istəyinə kömək edir. Buna əsasən, biz elmdə digərlərini keçməyə əsla ümidsiz olmamalı, cəsarətlə bu işi davam etdirməli və bunu istəməliyik. Bunun üçün ümumi iradə lazımdır. Mən siz dostların çoxlarının çıxışında bunu müşahidə edirəm. Ümidvaram ölkə məmurları nikbinliklə bu barədə ciddi düşünsünlər. Mən də şübhəsiz, bu məsələni izləyəcək və bu düşüncəyə kömək edəcəyəm.[707]

### Elm və sənayenin qarşılıqlı əlaqəsinin bəhrələri

Universitet elmi sənayeyə və istehlak bazarına birləşsə, istehsalı daha fəal, daha sıx, daha məqsədyönlü və daha tətbiqi olar və nə haqda tədqiqat aparmalı olduqlarını bilərlər. Ölkənin sənayesi elmə birləşdikdə inkişaf və çiçəklənmə yaranar. Belə işlər görmək lazımdır. Tədqiqatı sənayeyə

---

[707] Universitet rektorları ilə görüşdə çıxışından: 2000.

birləşdirmək mühüm keçidlərdən biridir. Əgər siz haqlı olaraq tədqiqat büdcəsinin azlığından şikayət edirsinizsə, bunun özü tədqiqat büdcəsinin bir hissəsini təmin edəcək. Yəni sənaye tədqiqat işinə daxil olduqda onun üçün maliyyə dəstəyi yaranır və problemlərin bir qədərini azaltmağa kömək edir. Buna əsasən, elm, elm istehsalı, daxili istedadları çiçəkləndirmək ciddi və həyati bir işdir.[708]

**Elm istehsalı üçün ixlaslı cihad**

Bir ölkə üçün universitet və elm çox mühümdür. Bir ölkə üçün hansı elmi fəaliyyətin qurucu olduğunu bilmək çox önəmlidir. Bir xalq o zaman elmdə üstünlük qazana bilər ki, bu sahədə deməyə sözü olsun. Digərlərinin elminə baxmaq və ən çoxu onu öyrənmək - özü də onların məsləhət bilib təlim verdiyi və digərlərinin ixtiyarında qoyduğu həddə öyrənmək ölkəyə heç bir elmi şərəf gətirmir. Elmi kəşf və istehsal etmək lazımdır. Əlbəttə, bunun yolu alim olmaqdır. Bir xalq digərlərinin elmini öyrəndikdən sonra özü elm istehsal etməlidir.

Bu bir cihad istəyir. Gözü özünün maddi gələcəyində olan və müddəti bəlli olmayan bir neçə il yaşayıb onu təmin etməyi düşünən şəxs ixlasla bu cihada qoşula bilməz. Biz müşahidə edirik ki, bəzi insanlarımızın mədəniyyətində bəzi sahələrdə özünü oda-suya vurmaq və çalışmaq var, lakin elmdə sanki belə bir şeyi mənasız sayırlar. Belə olmaz. Elm sahəsində özünü oda-suya vurmaq və işləmək lazımdır. Elm bəsicinin xüsusiyyətlərindən biri budur. Fəaliyyətin əsas amili də universitetdə çalışan mömin və müəllim qardaş və bacıların bu təşkilatıdır.[709]

**Elm istehsalı şüarlarını həyata keçirmək**

Unutmayın ki, bizim verdiyimiz bu şüarlar əməl mərhələsinə çatmasa, mənasız və məzmunsuz sözlərə çevriləcək. Dayanmadan eləcə "elm istehsalında proqramlaşdırma dirçəlişi", yaxud "tərcümə elmindən çəkinmək" və sair sözləri desək, amma əməl etməsək, bu şüarlar

---

[708] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışından: 2001.

[709] Tələbə Bəsicinin müəllimləri ilə görüşdə çıxışından: 2001.

ürəkbulandırıcı və yorucu sözlərə çevrilib geri qayıdacaq. Buna görə işə girişmək lazımdır. Əlbəttə, mənim fikrim budur ki, siz bacarırsınız. Məndə bu sahədə heç bir şübhə yoxdur ki, bizim bugünkü nəslimiz - məqsədim təkcə gənc nəsil deyil, sizlər, elm və tədqiqat işində çalışan bu nəsil - bu bacarığa malikdir; həm onun üçün proqram hazırlamaq gücündədir, həm də onu son addıma qədər idarə etmək bacarığında. Allaha şükür olsun ki, sizdə bu işləri bacaran çoxlu insanlar var. Odur ki, bu işə başlamaq lazımdır.[710]

**Elm istehsalı üçün məmurların əməli işi**

Mən xüsusən elm və tədqiqat üzərində həssasam. (Prezident) nəsihət edir ki, biz elm və tədqiqatla məşğul olmalıyıq. Mən demirəm ki, nəsihət etməyin. Xeyr, nəsihət edin, amma icraçı qurumdan nəsihətdən artığı gözlənilir. Quru və boş nəsihət mənim kimi tələbənin işidir. Dövlət qurumlarının görməli olduğu iş icradır. Möhtərəm Təhsil naziri mənim yanıma gəlib nazirliyin büdcəsinin azlığından şikayət edir. Çox gözəl. Bu elm və tədqiqat cənab prezidentin tövsiyə, nəzər sahiblərinin təkid və Təhsil nazirinin şikayət etdiyi məsələdir. Mən də bir neçə ildir – həm qabaqkı, həm indiki prezidentin dövründə onların hər ikisinə müəyyən təklif vermiş və nə iş görməli olduqlarını demişəm; bildirmişəm ki, elmin inkişafı üçün bu işi görməlisiniz. Universitetin sənaye və əkinçiliyə birləşdirilməsi üçün formul tapılmalıdır. Bu kanal da prezidentdən başqa bir yolla icra olunası deyil. Yəni bu işi nazir görə bilməz, səviyyəsi üstün olan prezident aparatından görülməlidir. Bunun imkanları və büdcəsi olmalı və prezident kimi bir şəxsiyyətə arxalandığı bilinməlidir.

Mən Əmir Kəbir Universitetində, Şərif adına Sənaye Universitetində, müxtəlif tələbə məclislərində, müəllimlərlə və bu işə marağı olan bütün şəxslərlə görüşdə ölkədə elm hərəkatına – Elm istehsalı və proqramlaşdırma hərəkatına dair geniş söhbətlər etmişəm. İndi də Allahın lütfü ilə bir qədər ağızlara düşüb və mədəniyyət formalaşmışdır. Lakin bu, sözdür və necə deyərlər, iki yüz söz yarımca iş qədər deyil. Əlbəttə, bəzi yerlərdə yarım, yaxud bir iş qədərdir, amma hər halda, əməl deyil.

[710] Universitet rektorları ilə görüşdə çıxışından: 2001.

Təsadüfən, işin böyük gözəlliklərindən biri budur ki, bizim gözlərimiz eyni yerə dikilmişdir. Lakin iş icra olunmalıdır.[711]

**Elm istehsalına çalışmaq**

Sizin istedadınız var, fərz edirik ki, inşallah elm və düşüncə təkamülünüz üçün imkanlar hazırdır və həvəs göstərdiyiniz fəndə elmi iş görə bilərsiniz. İndi sizin səyiniz nəyə yönəlməlidir? Mənim fikrimcə, hamısından mühüm olan budur ki, bizim elm adamlarımızın səyi elm istehsalına yönəlsin. Biz digərlərinin əsərlərinin tərcümə və tədrisi ilə kifayətlənməməliyik. Bu o demək deyil ki, onları öyrənməyək; heç kəs demir ki, digərlərindən öyrənməyək. Öyrənmək lazımdır, lakin elm istehsal edilməlidir.[712]

**Elm istehsalı üçün istedadların mübarizliyi**

Bizi bu fikrə cəsarətləndirən amil ölkə daxilində istedadların olmasıdır. Lakin dostlar, itedadlar təklikdə kifayət etmir. Mənim təkidim budur ki, istedad lazımi şərtdir, yetərli şərt deyil. İstedadın yanında alim, mütəfəkkir və müəllimlərin çalışması da lazımdır. Bu, dövlət qurumlarının işini inkar etmək deyil; müəllimlərin problemlərini görməzliyə vurmaq da deyil. Bunun özü bir həqiqət və yerli gözləntidir ki, elm adamları universitetdə elm istehsalı ilə, elm sahəsində yenilikçi və qurucu baxışla, mənim elmi mühitdə Proqramlaşdırma hərəkatı adlandırdığım məsələ ilə məşğul olsunlar. Bizim buna ehtiyacımız var. Düzdür, ən böyük məsuliyyət dövlət qurumlarının üzərinə düşür.[713]

**Elmi diskussiyaları və nəzəriyyə yürütmək məsələsini davam etdirməyin zəruriliyi**

Əziz övladlar və qardaşlar! Sizdən, hövzə və universitetdə çalışan həmfikirlərinizdən istəyirəm ki, bu ideyaların həyata keçməsinə və səmərə verməsinə qədər uzun müddət keçsə də, bununla məşğul olun; nə məyus

---

[711] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2002.

[712] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışından: 2002.

[713] Ölkə universitetlərinin müəllimləri ilə görüşdə çıxışından: 2002.

olun, nə tələsin, ancaq çiçəklənmə və yaradıcılıq yolu olan bu işi nəyin bahasına olursa-olsun görmək lazımdır. Bu inqilab qalmalı, özünün tarixi və qlobal proqramını nəticəyə çatdırmalıdır. Hövzə və universitetin ikinci nəslində bu əzmkarlıq, oyanış və özünütanıma hissi oyanmışdır. Bu nəsil ifrat və təfritdən əziyyət çəkir, tərəqqi və təkamül yolunu nə ehkamçılıqda, nə də özünü unudub təqlidçilik etməkdə, əksinə, ictihad həvəsində və elmi-dini düşüncə istehsalında görür, əxlaq və məntiq qaydalarına sadiqliklə yanaşı, hövzə və universitetdə nəzəriyyə yürütmək və diskussiya cəsarətinin oyanmasını istəyir, sual və şübhələri cavabsız qoymamaq qərarına gəlmişdir. Bunun özü bir qələbə və nailiyyətdir və bunu uca tutmaq lazımdır. Bizim elmi nümunələrimiz hərc-mərclik və diktatorluq arasındakı normal nöqtəni tapa bilmişlərsə, deməli, yeni dövr başlanmışdır.

Bəli, azadlıqdan qorxmaq, diskussiyadan qaçmaq, tənqidi qaçaq məhsula, yaxud zahiri bir işə çevirmək olmaz. Necə ki, diskussiya yerinə mücadilə etmək, azadlıq yerinə nalayiq sözlər işlətmək və məsuliyyətdən qaçmaq olmaz.[714]

**Bugünkü elmin bəşəri istedadlar qarşısında çox az olması**

Bəşərin bu günə qədər tapdığı bu elm Allahın insan vücudunda yaratdığı istedadlar qarşısında sıfırdır. Mən bəlkə bir dəfə demişəm və siz eşitmisiniz ki, uyğun elmi fənlərdə mütəxəssis olan, real elmi fəaliyyətlərlə məşğul olan alimlər bu nəzəriyyəni vermiş və bu həqiqəti kəşf etmişlər: insan vücudunda hisslərin dəqiqliyi kimi elə istedadlar var ki, bəşər hələ onların çox kiçik bir hissəsindən istifadə edə bilmişdir. Əgər bəşər bu istedadın əlli faizindən istifadə edə bilsə, dünyada mövcud olan bu rabitə texnikaları təsirsiz və faydasız olar.[715]

**Elm və universitetdən gözlənti**

Bizim siz möhtərəm müəllimlərə və elmi cəmiyyətimizin, istər Tibb Universitetinin, istər digər universitetlərin bütün mənsublarına birinci və

---

[714] Elmi hövzə tədqiqatçılarının nəzəriyyə kürsüləri haqda məktubuna cavabdan: 2003.
[715] İmam Mehdi (ə) Mədəniyyət Fondunun üzvləri ilə görüşdə çıxışından: 2003.

əsas sözümüz budur: Siz yaxşı istedad və bacarıqlara maliksiniz, amma elm karvanından geri qalmısınız. Bir yol tapın. Bilinməyən məsələlərin tədqiqatçısı və araşdıranı olun, universitetlərdə bu həvəsi dirçəldin. Çoxlu məsələlər hələ kəşf olunmayıb, lakin qəfildən bir nəfər onları kəşf edir. Yeni kəşf və yeni yol tapmaq da mütləq dünyada ən inkişaf etmiş texnologiyalara malik olmaqdan asılı deyil. Xeyr, müxtəlif sahələrdə özümüzdən və elm adamlarından bunu gözləmək olar.[716]

**"Bacarmırıq" siyasəti ilə mübarizə**

Biz özümüzü üçüncü dünya ölkələrinə aid blokadadan xilas etməliyik. Bu yalnız bizim vəzifəmiz deyil, bəlli bir dönəmdə elm karvanından geri qalmış bütün dünya xalqlarının borcudur. Mənim ekspert və mütəxəssislər tərəfindən təsdiq olunan qəti fikrim budur ki, biz bu işi görə bilərik. Düşmənlərin ümdə siyasətlərindən olan "bacarmarıq" və "bacarmazsınız" möhrünü beynimizdən silməliyik. Əlbəttə, mən hiss edirəm ki, bu sahədə də inkişaf edə bilərik. İndi görürəm ki, siz universitet müəllimləri və tələbələri elmi mühitlərdə Proqramlaşdırma və elm istehsalı hərəkatını əməli və aktual şüar kimi qeyd edirsiniz. Biz bu fikrə düşmüşük, bu məsələ şüar və istək formasına düşmüşdür. Bu, böyük uğurdur.[717]

**Elm istehsalında aydın üfüq**

Mən üç-dörd il bundan qabaq Tehran universitetlərinin birində dedim ki, ölkənin elm və tədqiqat büdcəsini tənzimləmək mənim əlimdə olsaydı, məsləhət olduğu kimi edərdim, lakin bu imkan mövcud deyil. Müxtəlif sahələrdə məsuliyyət daşıyan şəxslərin qanuna müvafiq səlahiyyətləri var, onları yerinə yetirməlidirlər. Dedim ki, universitetdə ənənəyə çevrilməsi üçün çox əhəmiyyətli olan elm istehsalı və Proqramlaşdırma hərəkatı cəbhəsində sərhədi keçmək məsələlərini ortaya qoyuram. Bu baş versə, daha narahatlıq olmayacaq; çünki on minlərlə, yüz minlərlə etiqadlı və müştaq qəlb, gənc və yorulmaz beyin və cisim bu işə qoşulacaq. Mən ölkənin bu ümid və müjdə carçılarını bu gün görürəm.

---

[716] Tehranın Şəhid Behişti Unversitetinin müəllimlərilə görüşdə çıxışından: 2003.
[717] Ölkənin universitet müəllimləri ilə görüşdə çıxışından: 2003.

Həmişə özümə və dinləyicilərimə demişəm ki, üfüq aydındır. Bu gün də təkidlə bildirirəm ki, üfüq çox aydın və parlaqdır və iş siz gənclərin əlindədir.[718]

**Humanitar elmlərdə elm istehsalının zərurliyi**

Yenilik və elm istehsalı bütün məsələ və elmlərdə, xüsusən də humanitar elmlərdə lazımdır. Çünki humanitar elmlərlə tanış olanların bildirdiyi kimi, biz bu elmlərdə yalnız qərblilərin fikirlərini tərcümə etməklə məşğuluq. Onlar bəzi sözlər demiş, yazmışlar, biz də onları öz təhsil mərkəzlərimizdə deyir, tədris və təkrar edirik. Şərait yaratmaq lazımdır; xüsusən humanitar elmlərin bir hissəsində yeni işlər görəcək dəyərli şəxslərimiz var; məsələn, fəlsəfədə çox böyük imkanlarımız var.[719]

**Proqramlaşdırma hərəkatının müəllim və gənclərin ümumi istəyinə çevrilməsi**

Bunu bilin ki, mən yalnız "Proqramlaşdırma hərəkatı başlansın" deməklə kifayətlənməmişəm. Bir hərəkat və mübarizə deməklə, sərəncam və fərman verməklə başlanmır, onun şəraitini təmin etmək lazımdır. Mən deyirəm ki, bu Proqramlaşdırma hərəkatı başlanmışdır. Çünki bu gün onun özü geniş yayılmış fikrə və ümumi istəyə çevrilmişdir. Bu çox əhəmiyyətli məsələdir. Çoxları bizim bacardığımıza, elmi yaratmalı və onun sərhədlərini yarıb inkişaf etməli olduğumuza əsla diqqət yetirmirdilər. Bəzi dostların dediyi bu söz düzgündür: əzbərçi olmaq kifayət etmir. Bəziləri digərlərinin məlumatlarını əzbərləməklə kifayətlənirdilər. Amma bu gün bizim gənclərimizin, müəllimlərimizin, elmi nümunələrimizin çoxunda bu istək, əzmkarlıq və hiss vücuda gəlmişdir ki, elmi istehsal etmək lazımdır. Mənim də təkidim budur və bunu istəyirəm. İşi görən də siz elm adamları və həmçinin indi buraya təşrif buyurmuş elmi nümunələrdir. İradə göstərməli və ümidsiz olmamalısınız. Bu qardaşımızın dediyi kimi: "Biz varıq və olacağıq". Siz olmalısınız, etməlisiniz. Bizim və sizin tarixi vəzifəmiz budur. Bu ölkənin

---

[718] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.
[719] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 2004.

taleyi bu gün bizim verəcəyimiz və həyata keçirəcəyimiz qərardan asılıdır.[720]

**Yeni elmin sərhədlərini keçmək**

Yeni elmlər çox səmərəlidir. Biz universitetlərdə dərs oxuyan gəncləri elmə, tədqiqata və araşdırmaya həvəsləndiririk; eşidir və görürsünüz. Mən universitetlərə gedib tələbə gənclərlə və müəllimlərlə söhbət edirəm, onları elmin sərhədlərini keçməyə həvəsləndirirəm; sərhədləri keçsinlər, yenilik yaratsınlar və elm istehsal etsinlər. Bunlar vacib işlərdir.[721]

**Elmdə cihad hissi**

Sizin adınız Universitet cihadıdır. Bu ad üzərində dayanın. Bu ada uyğun olaraq həqiqətən cihad edin. Cihad - yəni Allah üçün məqsədli fəaliyyət olanda, şübhəsiz, yanında uğur da olacaq. Bizim bütün sahələrdə elmi inkişaf sərhədlərinə sarı gedən yolumuz, əmin olun ki, müstəqillik, Allaha təvəkkül və iman uğrunda işləmək hissi olmadan keçilməyəcək. Bu yolu cəld keçməli, qısa yollar tapmalı və özümüzü çatdırmalıyıq. Elmin sərhədlərini yarıb yeni sərhədlər yaratmalıyıq. Bu iş mümkündür, çünki bura elm ölkəsidir və siz bunun mümkün olduğunu göstərdiniz.[722]

**Elm və texnologiya sərhədlərini keçmək imkanı**

Bir gün onlar bizdən öyrəndilər və bizim şagirdimiz oldular, sonra isə bizə müəllimlik etdilər. İndi də biz onlardan öyrənirik, onların şagirdi oluruq və sonra onlara müəllimlik edəcəyik. Buna görə ölkəmizin tələbə, tədqiqatçı və alim nəsli bilsin ki, bu gün elmi üstünlük qərblilərdədir, amma sizin əmək və iradəniz sayəsində yaxın gələcəkdə onu sizdən öyrənə bilərlər.

Elmin sərhədlərini yarın. Proqramlaşdırma hərəkatı dedikdə mənim siz gənc və müəllimlərdən gözlədiyim budur. Elmi istehsal edin, elmin sərhədlərinə sarı gedin, fikirləşin, işləyin. İş və fəaliyyətlə elmin bugünkü

---

[720] Gənc alimlərlə görüşdə çıxışından: 2004.

[721] Ayətullah Müctəhidi adına elmi mədrəsənin tələbə və müəllimləri ilə görüşdə çıxışından: 2004.

[722] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2004.

sərhədlərindən keçmək olar; bəzi fənlərdə tez, bəzi fənlərdə isə gec. Texnologiya da belədir. Elm texnologiyanın inkişafına hesablanmalıdır. Texnologiya da çox əhəmiyyətli və yüksək mərhələdir. Biz texnologiyada da inkişaf edə bilərik; necə ki, inkişaf etmişik.[723]

**Elm və texnologiya inkişafı üçün gənclərin özünə güvənməsi**

Allaha şükür ki, bu gün bizim gənc nəslimizdə bu cürət, cəsarət, igidlik və özünəinam yaranmışdır. Supergüclərin hiyləgər əngəlləri bizim xalqımızın və gənclərimizin əhval-ruhiyyəsinə təsir göstərmir. Bu çox böyük fürsətdir. Bunu bu formada inkişaf etdirin və qorxmayın; nə elmi sahədə qorxun, nə texnologiyada, nə siyasi sahədə, nə də yeniliklərdə.[724]

**Təcrübi elmlərdə yeni üfuqlər açmaq**

Biz təcrübi elmlərdə də işləməli, özümüzdə elmi inkişaf bacarığı, yeni yol və üfüqlər açmaq istedadı yaratmalıyıq. Məqsədimiz bu olmalıdır, gözlənilən budur. Xöşbəxtlikdən, biz inkişaf etmişik; bunu açıq-aydın görmək olar.[725]

**Dünyanın elm sərhədlərində ölkənin öncüllük imkanı**

Biz "elmin sərhədlərini yarmalı və günün elmi sözündən bir addım önə keçməliyik" deyəndə bu, bəzilərinə inanılmaz görünür. Mən deyirəm biz elə bir yerə çatmalıyıq ki, dünyanın hansısa bir tərəfində bir tədqiqatçı, bir alim hansısa elmi, yaxud fəlsəfi nəzəriyyəni bilmək istəyəndə sizin dilinizi öyrənməyə məcbur olsun. Biz belə deyəndə bəziləri şübhə ilə yanaşırlar. Mən bunun mümkünlüyünü düşünür və gözlərim önündə görürəm. Biz iradə göstərsək, 20-30 ildən sonra elə bir iş görə bilərik ki, dünyada elm və texnologiya məşhurlarının adlarını çəkdikdə bizim ölkəmiz başda dursun. Biz bu işi görə bilərik. Bizim istedadlarımız çox yaxşıdır. Hər şey bunu təsdiqləyir. Bizdə özünə güvənmək hissi az idi və inqilab bunu bizə verdi. Biz bu gün özümüzə güvənirik. Ölkənin elmi

[723] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışından: 2004.
[724] Nümunəvi Quran və olimpiada şagirdləri ilə görüşdə çıxışından: 2004.
[725] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2004.

prosesi xoşbəxtlikdən, yaxşıdır. Bizim gənclərimiz bu gün özlərinə inanırlar.[726]

### Elm və texnologiya inkişafında böyük addıma ehtiyac

Elmi cihad inqilab keşikçiliyinin əsaslarındandır. Mən bir neçə ildir təkrarlayıram ki, ölkədə Elm istehsalı hərəkatı başlanmalıdır. Mən tələbə və gənclərlə görüşəndə çox zaman onlar danışır və sözlərin deyirlər. Görürəm ki, onlar da bizdən gözlənti kimi elm istehsalı, elm və sənayenin birləşdirilməsi, dövlətin elmin inkişafına və elmi yaradıcılığa dəstəyi məsələlərini irəli sürürlər. Mən çox sevinirəm. Bunlar bizim sözlərimizdir və indi universitet mənsubları arasında ənənə olmuşdur. Lakin bu, kifayət etmir. Biz böyük işlərə sarı hərəkət etməliyik.

Baxın, biri var ki, digərlərinin ixtira edib düzəltdiyi bir təyyarəni bu gün digərlərinin köməyi olmadan özünüz ölkə daxilində istehsal edirsiniz. Bu, çox yaxşıdır və hazır təyyarəni almaqdan yaxşıdır. Lakin biri də var ki, siz ölkənizdə təyyarə kimi mühüm bir şey ixtira edəsiniz. Bizə lazım olan budur. Biz bəşərin elmi sərvətini artırmalıyıq. Deməsinlər ki, olmaz. Olar. Bir zaman bəşəriyyət ən zərif texnologiyanı - Nano texnologiyanı tanımırdı, sonra tanıdı. Bu gün bəşərin tanımadığı yüz başqa sahənin olması da mümkündür. Onları tanımaq və inkişaf etmək olar. Bunun üçün bəzi işlər görülməlidir. Bu işləri də səy və iradə ilə görmək olar.[727]

### Əlliillik elmi üfüq

Mən təxminən il yarım bundan qabaq gənc, tələbə və ziyalıların iştirak etdiyi bir elmi toplantıda dedim ki, biz 10-15 il yox, 50 il bundan sonra dünya səviyyəsində elmi cəhətdən birinci olmağımızı gözləyirik. Yəni elmin sərhədlərini biz təyin etməliyik. İş o yerə çatmalıdır ki, bizim dilimiz dünyada elm dili olmalıdır. Bu mənim gözümün qarşısında olan üfüqdür. Bu yerə çatmaq üçün əvvəla bunun mümkün olmasına inanmalıyıq. Müəllim olan siz, tələbə olan o, müdir və idarə rəhbəri olan

---

[726] Kerman vilayətinin elmi nümunələri ilə görüşdə çıxışından: 2005.
[727] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2006.

üçüncü şəxs bu işin mümkünlüyünə inanmasa, bilin ki, şübhəsiz, çatmayacağıq. Biz inanmalıyıq.

Bu inamın şəraiti mövcuddur. Əvvəla biz iranlıların elm istedadı dünyada isbat olunmuşdur. Bu məsələ müxtəlif yollarla araşdırılmış, tədqiq olunmuşdur və mənim fikrimcə, qətidir. Dünyanın ən inkişaf etmiş universitetlərində iranlının səviyyəsi universitetin orta istedad həddindən yuxarıdır. Yəni iranlı istedadı dünya istedadının orta həddindən yuxarıdır.[728]

**Elm mərkəzlərində ümidverici inkişaf şəraiti**

Mən bir neçə il bundan öncədən elm istehsalı, elm hərəkatı və elmin sərhədlərini yarmağı istədim. Bu gün xoşbəxtlikdən, bu, tələbə və elm mühitlərində ümumi bir istəyə çevrilmişdir. Görürük ki, dəfələrlə tələbə və müəllimlər tərəfindən təkrar olunur. Biz də elm və texnologiyanın müxtəlif sahələrində əldə etdiyimiz inkişaflarla fəxr edirik. Bu inkişafların çoxu aşkardır və təbliğatda da göstərilib; misal üçün, nüvə enerjisinə aid məsələlər və sair. Çoxları da hələ aşkara çıxmayıb, yəni doğrudan da kamilləşmək üzrə olan yarımçıq işlərdir. Ölkədə bizim belə işlərimiz çoxdur. Hər halda, qeyd etdiyim kimi, baxışımız ümidvericidir və biz bacarırıq.[729]

**Gələcəyin elmi**

Bizim elmimiz indiyə qədər bu qiymətlərə başa gəlmişdir. O zaman elə bir elm gələcək ki, bəşəriyyət onun üçün bu qədər böyük qiymət ödəməyəcək. Bəşər ona sarı getməlidir. İnşallah bu baş tutacaq, biz həmin səmtə getməkdəyik. İslam Respublikası o gələcəyin yolunda əsaslı addımlardan biridir. Və bu inşallah davam edir.[730]

**Ölkənin dünyanın elm qaynaqlarından birinə çevrilməsi**

---

[728] Universitet müəllimləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2006.

[729] Yenə orada.

[730] Yenə orada.

Mən bu görüşlərin birində tələbələrə dedim ki, siz gələcək əlli il üçün proqram hazırlayın. Bizim gözlədiyimiz budur. Məqsədim elm sahəsindədir. Məqsəd bu olsun ki, əlli ildən sonra sizin ölkəniz dünyanın birinci dərəcəli elm sahibi və elmdə əsas müraciət mərkəzlərindən biri olsun. Belə ki, kimsə elm yenilikləri ilə tanış olmaq istəsə, sizin rəsmi dilinizi öyrənməyə məcbur olsun. Bu əziz qızımızın dediyi kimi, biz beynəlxalq dili öyrənməyə məcburuq. Doğru da deyir. İngilislər zirəkliklə öz dillərini elm dili və beynəlxalq dil etmişlər. Siz öyrənmək və oxumaq istəyirsinizsə, onların dilini bilməyə məcbursunuz. Siz elə iş görün ki, gələcək əlli ildə sizin dilinizə eyni ehtiyac olsun. Bu bir arzudur, bir zirvədir; baxması həyəcan bəxş edən və hamının ürəyində çatmaq həvəsinin olduğu Dəmavənd zirvəsi kimi, Tuçal zirvəsi kimi. Amma kimlər çatırlar? Gərək ayaqqabısını və papağını hazırlayasınız. Ondan da üstün budur ki, gərək iradənizi hazırlayıb yola düşəsiniz.[731]

**Əlliillik məqsəd: elm və texnologiyanın zirvəsi**

İnsani istedadlar, insani qüvvə və potensial olduqca yüksəkdir. Məqsəd mənim dəfələrlə dediyim olmalıdır: ölkə elmdə və onun ardınca gələn məsələlərdə dünyanın birinci yerlərində durmalıdır. Demirəm beş ildən, on ildən sonra, xeyr, məqsədi əlli ildən sonraya təyin edin. Lakin getməli, çatmalıyıq və bunun iradəyə ehtiyacı var. Mən sizə deyirəm: Əmin olun, bu xalq elə bir xalqdır ki, əgər hərəkət etsə, məqsədinə çatacaq. Bütün xalqlar belə deyillər, bəzi xalqların bu istedadı, bəzi xalqlarda bu coğrafi mövqe yoxdur, bəzi xalqlar bu elmi-mədəni keçmişə malik deyillər, bu böyük və zəngin irsləri yoxdur, bəzi xalqların insani istedadı bu qədər deyil.[732]

**Tədqiqat büdcəsinin real artımı**

Tədqiqat büdcəsi həqiqətən bizim zəif cəhətlərimizdən biridir. Mən bəzən universitet mənsubları, müəllimlər və ölkənin elm sahələrinin məsul şəxsləri ilə görüşəndə tədqiqat büdcəsi problemini deyirlər. Üç-dörd ildir

---

[731] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.
[732] Simnan vilayətinin elmi nümunələri ilə görüşdə çıxışından: 2006.

daim bizə deyirlər ki, büdcənin üç faizinə qədər çatdırılması planlaşdırılmışdır. Amma indi onda altı, onda yeddi faizlə işləyirik. Bu həqiqətən, çox azdır. Hamısı söz verir ki, ağa, yaxşı olacaq, nə bilim nə olacaq, amma təsiri görünmür. Tədqiqat büdcəsini artırın, digər yerlərdə sıxıntı yaransa da, bunu inkişaf etdirin. Allaha şükür olsun ki, bu yaxınlarda prezident aparatında açılmış elm və tədqiqat müavinliyi çox mühüm struktur işlərindən biridir. Onlara şərait yaradın, yolu açın, kömək edin, onlardan tələb edin və istəyin. Onlar bu işləri görə bilərlər. Biri də bu məsələdir.[733]

**Bütün elmlərdə istehsalın zəruriliyi**

Bu gün bizim inkişaf sürətimiz yaxşıdır, ancaq ölkəmizin keşmişdəki geriliklərinə görə nə qədər çox olsa, yenə azdır. Biz çox irəliləməli, kəsə yollardan istifadə etməliyik, sürətimiz çox olmalıdır.[734]

**Elm mübadiləsində müsbət tarazlığı qorumaq**

Elm sahəsində ölkələr arasında ixrac-idxal əlaqəsi olmalı, həm də bunda balans və tarazlıq qorunmalıdır. İqtisadi və ticari məsələlərdə bir ölkənin idxalı ixracından çox olduqda tarazlığın pozulduğu və ziyanın hiss olunduğu kimi, elm sahəsində də belə olmalıdır. Elmi idxal edin, eybi yoxdur, amma ən azı idxal etdiyiniz qədər, yaxud ondan da çoxunu ixrac edin. Yəni ikitərəfli olmalıdır. Sizin daim digərlərinin elminin artığını yeyən olmanız inkişaf deyil. Elmi alın, istəyin, digərlərindən öyrənin, lakin siz də istehsal edin və digərlərinə verin. Burada da ehtiyatlı olun ki, sizin mübadilə balansınız mənfi olmasın. Təəssüf ki, dünyada elmin çiçəkləndiyi son 1-2 əsrdə bizim tarazlığımız mənfi olmuşdur. İnqilabın əvvəlindən yaxşı işlər görülmüşdür, lakin bu işlər sürətlə və bacardıqca güclü formada davam etdirilməlidir.

Sözsüz ki, məqsədim yalnız təbii elmlər deyil, humanitar elmlərdə çox əhəmiyyətlidir: sosiologiya, psixologiya, fəlsəfə. Qərbin sosioloji

---

[733] Hökumət həftəsi münasibəti ilə prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2007.

[734] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2009.

nəzəriyyələri bəzi adamlar üçün Quran kimi və Qurandan da mötəbərdir! Hansısa sosioloq belə demişdir, daha oyan-buyanı yoxdur. Nə üçün? Oturub fikirləşin, nəzəriyyə yürüdün. Bu elmlərin dünyada mövcud olanından istifadə edək, ona bir şey artıraq, yanlış nöqtələrini aşkara çıxaraq. Bunlar inkişafın zəruri işlərindəndir.[735]

**Elmə əsaslanan istehsalların həyata keçməsi**

Ölkədə xüsusən elmə, elmi və təcrübi məharətlərə əsaslanan istehsal inkişaf etməlidir. Bu, fəhlənin və podratçının əlindədir. İdarəçilik işi də hökumətin üzərinə düşür. Onlar idarə etməli və işləməlidirlər. Bizim bir neçə il bundan qabaq dövlət qurumlarına və qanunverici orqana elan etdiyimiz 44-cü prinsipin siyasətləri rol oynaya bilər. Lakin burada bütün lazımi diqqəti göstərmək lazımdır.[736]

**İmamın xətti barədə tədqiqat**

İmamın yolu və imamın xətti sahəsində digər məsələləri də bəyan etmək olar. Qeyd olunanlar ən mühümləri və ən təsirliləri idi. Yaxşı olar ki, qardaşlar, gənclər, düşüncə və tədqiqat adamları, hövzə və universitet tələbələri bu əsaslar üzərində fikirləşsinlər, işləsinlər, yalnız mətn qalmasın və bu mətnlər düzgün izah olunsun.[737]

---

[735] Yenə orada.

[736] Beynəlxalq Əmək Günü ərəfəsində ölkənin nümunə fəhlələri ilə görüşdə çıxışından: 2010.

[737] Həzrət İmam Xomeyninin vəfatının iyirmi birinci ildönümü münasibəti ilə İmam Xomeyninin məqbərəsində qılınan cümə namazı xütbələrindən: 2010.

## Beşinci fəsil: Təhsil və lazımi hazırlıqlar

### Tədqiqat - təhsilin dayağı

Tədqiqatsız təhsil özündən su çıxmayan bir quyuya su doldurmaq, tədqiqat isə quyunun, yaxud bulağın çağlaması kimidir. Tədqiqat ruhu dirçəlməlidir. Biz bacarırıq. Allaha şükür olsun ki, bizim dəyərli tədqiqatçı və mütəfəkkirlərimiz az deyillər və işləyə bilərlər; bütün sahələrdə də işləyirlər. Tədqiqat təhsilimizin dayağı olmalıdır, onun özündə də rol oynamalıdır. İnşallah müvəffəq olasınız.[738]

### Mədəniyyətin elmə və inkişafa istiqamətləndirilməsi

Baxın, mədəniyyət bütün mərhələlərdə əsas amildir. Növbə bizim bu gün olmadığımız bir dövrə - yəni quruculuq və milli ehtiyatları yenidən yetişdirmək dövrünə çatdıqda bir xalqın işinə yarayan amil mədəniyyətdir. Əgər bir ölkədə, yaxud ölkənin bir hissəsində iş və yaradıcılıq mədəniyyəti olmasa və insanlar yaradıcılıqla məşğul olmasalar, siz min yaxşı müdir gətirsəniz də, nə iş görə bilərlər?! Elm, elmi bacarıq və maddi resurslar sonrakı mərhələdədir. Bu dövrdə bir xalqı xilas edən amil mədəniyyətdir.

Hər halda, ABŞ xalqı bəzi mədəni xislətlərinə, coğrafi və tarixi xüsusiyyətlərinə görə elmi zirvəyə çata, elm, sərvət və bu kimi məsələlər baxımından inkişaf edə bilmişdir. Lakin o ölkəyə düzgün, yaxşı və kamil bir əxlaq hakim olmadığından, elm və sərvətləri indiyədək tənəzzülə xidmət etmişdir. Bundan sonra da qüdrət sarayının dağılması üçün işlənəcək. Əlamətləri indidən görünür.[739]

### Elm və mədəniyyətdə keyfiyyətin inkişafı və istehsal

Əhəmiyyəti az olmayan və hətta uzunmüddətli baxış cəhətindən çox olan ikinci hissə mədəniyyətin keyfiyyətinin artırılması və inkişaf etdirilməsidir; yəni mədəniyyətin istehsalı, qəlblərdə, ruhlarda və istehsallarda mədəniyyət bulağının aşıb-daşması. Bu çox mühümdür. Biz

---

[738] Bazar ertəsi günlərinin ümumi görüşü zamanı çıxışından: 1995.

[739] Urmiya şəhərinin mədəniyyət-incəsənət kompleksində yazıçılar, şairlər və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 1996.

xalqı kitab oxumağa həvəsləndirməliyik, amma bundan da vacibi odur ki, xalqın yazıçılıq istedadını tapaq, kitab istehsal edək, istedadları işlədək; qələmlər kağız üstə gəzsin, düşüncələr işləsin, xalq üçün qursun və istehsal etsin. Bu, mühüm məsələdir.[740]

**Elmə həvəssizlik hissini uzaqlaşdırmaq**

Təəssüf ki, bizim yuxarı siniflərimizdə və universitetlərimizdə təhsil alan gənclərimizdə elmi məsələlərdə bir səhlənkarlıq, laqeydlik, qeyri-ciddilik, hövsələsizlik və elmə diqqətsizlik müşahidə olunur. Halbuki istedadlar yüksəkdir. Bu barədə aparılan tədqiqatların nəticəsi budur ki, iranlı gənc universitetdə tədqiqat layihəsi götürür, istedadını göstərir, lakin lazımi müntəzəmlik, davamlılıq və ciddilik nümayiş etdirmir. Əslində inkişaf etməkdə olan yeni nəsillərimizə etinasızlıq, halsızlıq və zehni tənbəllik haləti hakimdir. Bu, ölkə üçün çox təhlükəlidir. Bu, uşaqlıqda təlim və tərbiyə ilə təmin olunmalı, orta məktəblərdə öyrədilməlidir.

Diqqət yetirirsinizsə, çox zaman dərsin çoxluğundan gileylənirlər. Halbuki məndə olan məlumata görə, dünyanın inkişaf etmiş universitet və liseylərinin dərs həcmi bizdəkindən çoxdur. Yəni bu müddət ərzində daha çox kitab oxumalı və daha çox öyrənməlidirlər. Biz əslində, necə deyərlər, zehni tənbəllik dövrünü keçiririk. Və bu, çox təhlükəlidir.[741]

**Elmi yeniliyə lazım olan iki amil**

İslam maarifində ictihad adlanan elmi yenilikçilik üçün iki şey lazımdır: elmi güc və elmi cəsarət. Əlbəttə, elmi güc çox mühümdür. Güclü istedad, lazımi məlumat və öyrənmək üçün ciddi səy elmi gücün əldə edilməsi üçün çox lazımlı amillərdir. Amma bunlar kifayət deyil. Yetərincə elmi gücü olan, amma məlumatlar yığınının heç bir praktik xeyri olmayan, elm karvanını irəli aparmayan, bir milləti elmi baxımdan yüksəltməyən insanlar çoxdur. Buna əsasən, elmi cəsarət də lazımdır.[742]

---

[740] Yenə orada.

[741] Təlim və Tərbiyə Naziri və nazir müavinləri ilə görüşdə çıxışından: 1997.

[742] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

**Bütün elmlərdə yenilik**

Elmdən söhbət etdikdə, ola bilsin birinci növbədə sənaye və texnologiya məsələlərinə aid elmlər yada düşsün. Amma mən bunu ümumi şəkildə deyirəm. Humanitar, ictimai, siyasi və iqtisadi elmlərin, cəmiyyəti və olkəni idarə etmək üçün nəzəri cəhətdən lazım olan müxtəlif məsələlərin də elmi yeniliyə, yəni ictihada ehtiyacı var.[743]

**Geniş yayılmış elmi mətnlərin tənqidi**

Bizim elm mərkəzlərimizdə müşahidə olunan və məncə böyük eyiblərdən sayılan məsələlərdən biri budur ki, on illərdir xarici mətnləri təkrarlayır, oxuyur, əzbərləyirik, amma sual və tənqid irəli sürmürük. Elmi mətnləri oxumaq və elmi hər hansı bir şəxsdən öyrənmək lazımdır. Amma elmi tərəqqi üçün güclü, uca, cəsarətli və işgüzar ruhlara ehtiyac var. Belə olsa, inkişaf edəcək. Dünyanın elmi inqilabları belə yaranmışdır.[744]

**Yenilik üçün elmi cəsarət**

Əgər elmi baxımdan inkişaf etmək istəyirsinizsə, yenilik cəsarətiniz olmalıdır. Müəllim və tələbə verilmiş elmi təriflərin mütləqçilik və toxunulmazlıq zəncirindən xilas olmalıdır.

Bu, səhv anlaşılmasın, mən heç kimə elmi anarxizmi və mənasız danışmağı tövsiyə etmirəm. Hər hansı sahədə elmsiz şəxslər özlərindən yenilik etmək istəsələr, cəfəngiyata üz tutmalı olacaqlar. Biz bəzi humanitar və dini elmlərdə bunu görməkdəyik. Məlumatsız şəxslər yetərli savada malik olmadan meydana atılır, danışır və yenilik yaratdıqlarını xəyal edirlər. Bu əslində, yenilik deyil, cəfəngiyatdır.[745]

**Universitetlərdə yenilik ab-havası yaratmaq**

Öyrənmək lazımdır, lakin yalnız digərlərinin elmi nailiyyətlərinin istehlakçısı olmaq lazım deyil. Elmi sözün həqiqi mənasında istehsal etmək lazımdır. Bu iş üçün də metod və qaydalar lazımdır. Mühüm odur ki, elmi

---

743 Yenə orada.
744 Yenə orada.
745 Yenə orada.

yenilik ruhu universitetdə dirçəlsin və canlı qalsın. Mən xoşbəxtlikdən, tələbələrdə bu şövqü hiss etmişdim, müəllimlərdə də onu görürəm. Bunlar əl-ələ verib ölkənin elmi səviyyəsini yüksəltməlidir. Elm imanın hidayəti ilə, düzgün duyğularla, aydın və ayıq məlumatlarla birgə olsa, böyük möcüzələr edəcək. Ölkəmiz bu möcüzələri gözləyə bilər.[746]

**Orta məktəblərdə əzbərçilik yerinə dərk etmək və düşünmək**

Orta təhsilə ciddi diqqət yetirilməli, onda təkcə kəmiyyət işi nəzərə alınmamalıdır. Düzdür, məişətə diqqət çox lazım və zəruri, yaxud evlə təmin etmək çox yaxşıdır. Lakin təlim və tərbiyə sistemi, onun siyasətləri, özümüzün milyonlarla yeniyetmə və uşaq izdihamımızla nə etmək istədiyimizi bilmək - təhsil illərinin və pillələrinin rolu, misal üçün, çox mühüm olan altı-səkkizinci siniflər pilləsi burada əhəmiyyət kəsb edir - tam diqqət mərkəzində olmalıdır. Biz nə etməliyik ki, şagirdimiz əvvəldən əzbərləmək əvəzinə, düşünməyə və fikirləşməyə alışsın. Uzun və bəzən çətin kitablar oxumaq yerinə - belə kitablar yadında qalmır və universitetdə ümumiyyətlə, işə yaramır - nə edək ki, onda düzgün dərk yarada bilək və o, gələcəyi üçün lazım və əhəmiyyətli olanı anlasın. Düzdür, bu iş çətindir, amma şahanə bir işdir. Biz bu işi görə bilsək, gənclərin təhsil gələcəyinə dair problemlərimizin mühüm bir hissəsini həll etmiş olacağıq.[747]

**Universitetlərdə elmin daxildən istehsalı**

Sonrakı məsələ budur ki, bizim universitetlərimizdə tədqiqat sahəsinə aid məsələlər üzərində ciddi təkid göstərilməlidir. Texnoloji elmi idxal etmək olar; necə ki, indi bu işi görürük, bir sənaye məhsulunun texnoloji elmini idxal edirik. Lakin bu ona bənzəyir ki, biz bir quyuya əlimizlə su tökür və sonra onu çıxarırıq. Uzunmüddətli plan kimi bu işin faydası yoxdur. Elm daxildən qalxmalıdır; özü də ölkənin ehtiyacına uyğun şəkildə. Ölkəyə elm istehsalı hissi hakim olmalı, universitetlərdə bu

---

[746] Yenə orada.

[747] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışından: 2001.

işə ciddi yanaşılmalıdır. Tədqiqat büdcəsinin artırılması bu işlərdən biridir. Bu işi kim görməlidir? Mənim fikrimcə, onun iki əsas amilindən biri sizsiniz. Siz tədqiqat büdcəsini həqiqətən, artırmalısınız.[748]

**Universitetə hazırlıq**

Bu gün şagirdin ibadət kimi yanaşmalı olduğu ən mühüm işi dərs və təhsildir. Öz düşüncənizi, biliyinizi, elmi gücünüzü artırın. Siz 9-11-ci siniflərdə idmançı gənc kimisiniz. Sizin öyrəndikləriniz zehninizin idmanı, gücləndirilməsi və sınanması kimidir. Bunlar sizi universitetdə yaxşı elmi yollara və inşallah yüksək rütbələrə və böyük işlərə sövq edəcək.[749]

**Həqiqi təlimə lazım olan məsələlər**

Tədris çox zərif və dəqiq işdir. Tədris yalnız bu deyil ki, biz bir sıra məlumat toplusunu şagirdə verək və oxumasını deyək, ilin sonunda da imtahan alaq. Bu, həqiqi tədris deyil. Tədris zehni, beyni fəallaşdırmalı və birinci növbədə şagirdin qəlbində biliyə həvəs yaratmalıdır. Həvəsləri olmayan bir fəndə oxuyanların məlumatları nə qədər artsa da, o fənnə həvəs və rəğbət bəsləyən şəxs kimi ola bilməzlər. Bütün fənlər belədir. Şagirdin qəlbində istər məlumatların özünə, istər elmin xüsusi fənlərinə qarşı həvəs və rəğbət yaranmalı, daxilində bu düşüncə və beyin fəaliyyəti, bu həvəs, həmçinin müəllimin şagird üçün çəkdiyi zəhmət onu həqiqi bir alimə çevirməlidir.[750]

**Təhsil sistemində yaradıcılıq və elm istehsalı hissi yaratmaq**

Biz ölkənin müəllimlərinə və ali təhsil məmurlarına həmişə tövsiyə edirik ki, gənclərimizi elm istehsalı və yaradıcılıq hissi ilə yetişdirsinlər və bunu bacararlar. Biz gərək "bacarırıq" şüarını heç zaman unutmayaq. Bir dəfə imam gənclərə və xalqa müraciətlə dedi ki, siz bacarırsınız. Bu, çox mühüm şüardır. Uzun illər ölkəmizdə birbaşa və dolayısı ilə təbliğat aparıb xalqımıza və gənclərimizə bacarmadıqlarını təlqin eləyiblər. Sanki

---

[748] Yenə orada.
[749] Məktəb Parlamentinin nümayəndələri ilə görüşdə çıxışından: 2001.
[750] Təlim və Tərbiyə Nazirliyinin məsul şəxsləri və müdirləri ilə görüşdə çıxışından: 2002.

elmi inkişaf sarıdan ölkəmizin və xalqımızın qisməti bacarıqsızlıq, Qərb dünyasının, yaxud Avropanın taleyi isə inkişafdır. Bu çox səhv və təhlükəli bir təsəvvürdür. Xeyr, siz elm zirvələrini fəth etməyi bacarırsınız. Elmin əyri-üyrü yolları ilə gedin, elmi dalanları açın.[751]

**Elm hərəkatının aşiqanə işdən asılı olması**

Mən iki-üç il öncə universitetlərin birində keçirilən bir tələbə məclisində dedim ki, bu gün bizim Proqramlaşdırma hərəkatına ehtiyacımız var. Bu məqsədlə bir hərəkat və ümumi səy lazımdır. Bu ümumi səy yalnız müdirlərə məxsus deyil. Siz fikirləşməyin ki, müdirlər bunu etmirlər, bəs necə olacaq. Hamısı müdiriyyətə aid deyil. Sizin istək və iradəniz - siz əziz uşaqlardan biri dedi ki, eşq; bəli, eşq – aşiqanə işləmək, eşqlə elm və tədqiqat ardınca getmək və istəmək – bunun rolu böyükdür. Dünyanın böyük elmi nailiyyətləri həmişə rifahla yanaşı olmamışdır. Düzdür, elm özü ilə rifah, siyasi ağalıq və hərbi üstünlük də gətirir, iqtisadi və siyasi sahələrdə nüfuza səbəb olur, milli valyutanı gücləndirir, ölkə iqtisadiyyatını rövnəqləndirir. Bunların hamısı elmin bəhrəsidir. Lakin elmi nailiyyətin özü zəruri olaraq rifah və rahatlıq şəraitində yaranmır.[752]

**Azadlığa və əxlaqa riayət etmək və Proqramlaşdırma hərəkatı**

Azadlığa, əxlaqa və məntiqə bir yerdə və bir-birinin kənarında riayət olunması cəmiyyətdə elmi yaradıcılıq və uğurlu dini təfəkkür prosesinin başlanğıcı, bütün universitet və hövzə elmlərində elmi və dini proqram istehsalı hərəkatının açarının vurulması deməkdir. Şübhəsiz, azadlıqsevərlik, düşünmək və azadlıqdan istifadə qaydasına riayət etməklə düşüncəni bəyan etmək üçün imkan tələbi bir İslam tələbidir. Düşüncə, qələm və söz azadlığı şüarçılıq yox, İslam inqilabının əsas məqsədlərindəndir.[753]

---

[751] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsilə görüşdə çıxışından: 2002.

[752] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışından: 2002.

[753] Elmi hövzə tədqiqatçılarının nəzəriyyə kürsüləri haqda məktubuna cavabdan: 2003.

**Elm və düşüncənin rövnəqlənməsi üçün elmi üsullar**

Sağlam tənqid şəraiti, söz azadlığı, İslam dövlətinin himayəsi, alim və nəzər sahiblərinin bələdçiliyi ilə azad müzakirə olmadan elmi və dini düşüncənin istehsalı, nəticədə sivilizasiya və ideal cəmiyyət qurmaq işi imkansız, yaxud olduqca çətin olacaq. Mədəni xəstəliklərin və nalayiq işlərin əlacı və mədəni xaosun idarəsi üçün də ən yaxşı yol söz azadlığının qanun çərçivəsində və nəzəriyyə istehsalının İslam çərçivəsində dəstəklənməsi və oturuşmasıdır. Belə nəzərə çarpır ki, sizin təklif etdiyiniz hər üç üsul - yəni nəzəriyyə kürsüləri, sual və şübhələrə cavab kürsüləri, bir də tənqid və mübahisə kürsüləri yaratmaq praktik və məntiqi üsullardır; yaxşı olar ki, dəstəklənsin və idarə olunsun. Belə ki, elm şəraiti mümkün qədər genişlənsin, elm və din oğrularının, hiyləgərlərinin əl-qolu bağlansın.[754]

**Bütün elmlərdə diskussiya və nəzəriyyələrin tənqidi**

Bu ideya - istər elmi münsiflər heyətlərinin iştirakı ilə keçirilən mühakiməyə qabiliyyətli metodik mübahisələr, istər nəzəriyyə yürüdənlər üçün imkan yaratmaq və sonra onların ideyalarının hövzə və universitetin elmi arenası qarşısında mütəxəssislər tərəfindən tənqidi yalnız bəzi dini düşüncələr, yaxud humanitar və sosial elmlər çərçivəsində qalmasın, bütün elmlərdə, nəzəri və praktik fənlərdə, hətta fundamental və tətbiqi elmlərdə də kəşf, ixtira və nəzəriyyə sahiblərinə dəstək istiqamətində belə bir şərait yaradılsın. Əlbəttə, bu nəzəriyyə və diskussiyaların elmilik səviyyəsinin enməməsi, püxtələşməsi və müzakirələrin səviyyəsinin aşağı, avam və reklam həddində olmaması üçün yollar düşünmək, qaydalar yazmaq lazımdır.[755]

**Elm və mədəniyyətin inkişafı üçün azadfikirliliyin zəruriliyi**

Əgər həqiqətən mədəniyyətin, düşüncənin, elmin həqiqi inkişafı sahəsində işləmək istəyiriksə, Allahın verdiyi nemətlərdən və birinci növbədə azadfikirlilikdən istifadə etməyə ehtiyacımız var. Bizim

---

[754] Yenə orada.

[755] Yenə orada.

cəmiyyətimizdə azadfikirlilik məzlum bir şüardır. Azadfikirlilik deyən kimi bəziləri elə bilirlər ki, bütün prinsipial təməllər uçurulacaq; onlar da həmin təməlləri sevdiklərinə görə qorxurlar. Başqa bir qrup da düşünür ki, azadfikirliliklə bu təməllər sındırılmalıdır. Hər iki qrup mədəniyyət və inkişaf üçün vacib şərt olan azadfikirliliyə zülm edir. Bizim azadfikirliliyə ehtiyacımız var.[756]

**Elmin istehsalı üçün hörmətli və cəsarətli şərait**

Biz sağlam, hörmətli və cəsarətli mübahisə və müzakirədən irəli gələn bu təcrübələri çoxaltmalıyıq ki, onlardan elmi bəhrə götürək. Bu məsələ eynilə universitetdə də mövcuddur. Dəfələrlə demişəm ki, universitet görüşlərində bu qədər təkid etdiyim Proqramlaşdırma hərəkatının mənası budur. Biz elm mədəniyyətini istehsal etməli və əsaslı işləməliyik. Hökumət düşüncələrin sağlam toqquşmasına açıq dəstək verməlidir.[757]

**Ölkəni dünya elminin zirvəsinə çevirmək imkanı**

Mən Tehranda elm və tədqiqatla məşğul olan bir qrup tələbə gəncə dedim: Siz elə edin ki, gələn əlli ildə İran dünya elminin zirvəsi olsun, elm istehsalında, təbiətin kəşfində digərlərinə möhtac olmasın. Bu gələcək bəzilərinə çox inanılmaz və absurd görünə bilər, amma mümkün və iradə ilə çalışsaq, qətidir. Allaha bədgüman olmaq lazım deyil. Allah-Taala buyurmuşdur: "Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik".[758] Dünya istəyənə də kömək edərik, axirət istəyənə də kömək edərik. Bu, ilahi qanundur.[759]

**Proqramlaşdırma hərəkatının daxili fəaliyyətdən asılı olması**

Proqramlaşdırma hərəkatı hövzə və universitetin özündə baş verməlidir. Əlbəttə, biz hövzədəki dostlarla və bu işə marağı olan şəxslərlə də söhbət etmiş və xəbər göndərmişik. Onlar da deyiblər ki, biz işlə

---

[756] "Qələm əhli" birliyinin üzvləri ilə görüşdə çıxışından: 2003.
[757] Yenə orada.
[758] "İsra"/20.
[759] Şiə və sünni din alimi və ruhanilərlə görüşdə çıxışından: 2003.

maraqlanacağıq. Mən hövzə və universiteti vadar etməyə çalışırdım ki, bu iş onların daxilindən çağlasın və özləri işə başlasınlar. Bu iş bundan asılıdır. Əgər işə biz başlasaq, ümumiyyətlə, istədiyimiz kimi olmayacaq. Əlbəttə, mənim şübhəm yoxdur ki, hökumət, məmurlar və bizim özümüz birbaşa himayə etməliyik və edirik. Lakin bu iş hövzədə formalaşmalıdır.

Universitet mənsubları da daim hazırlıqlarını elan etmişlər; bəlkə də on, yaxud on beş universitetdən və tədqiqat mərkəzindən mənə məktub gəlib. Bundan əlavə, insanlar ayrı-ayrı, yaxud ümumi şəkildə məktub yazıb bu işə müsbət münasibət bildiriblər. Bu işə başlamaq lazımdır.[760]

**Universitetdə elm və tədqiqat işinə ciddi yanaşmaq**

Əlbəttə, Elm istehsalı hərəkatı elmin inkişafı olmadan mümkün deyil. Elm inkişaf etmədən bu çeşidli dünyada rəqabət aparmaq, irəliləmək olmaz. Elmi inkişaf vacib şərtdir. Bu, universitetlərin, tələbələrin və müəllimlərin vəzifəsini çox ağırlaşdırır.

Siz universitetdə elm və tədqiqat məsələsinə ciddi yanaşmalısınız. Mən sevinirəm ki, əziz bir tələbə öz söhbətində tədqiqat büdcəsinə toxundu, az olduğunu dedi, onu tələbələrin istəyi və tələbi kimi ortaya qoydu. Müəllimlərin iclasında da bunu bildirdilər. Gəncin tədqiqat, elmi iş və inkişaf fikrində olması çox yaxşıdır. Elmi inkişaf olmadan ölkəni inkişaf etdirmək olmaz. Bu gün bəşəriyyətin düşmənləri də elmdən istifadə edirlər. Biz uca ideallar, həqiqi dəyərlər, insani fəzilətlər və onların yayılması üçün elmdən istifadə etməliyik.[761]

**Elm və tədqiqata istiqamət vermək üçün dünya hadisələrinə baxmaq**

Universitetdə Bəsicin bir gözü universitetə baxır, bir gözü dünyaya. Universitetə baxmaq - yəni elm, tədqiqat, iş, dərs, universitet münasibətləri, əxlaq, siyasi məqsədlər və sair işlər üçündür. Dünyaya baxış isə bunun üçündür ki, görsün bu qədər söz, söhbət, elm, siyasət və fəaliyyət olan bu toplum, yəni universitet dünyanın harasında yerləşir, onun rolu nə ola

[760] Bazar ertəsi günlərinin ümumi görüşü zamanı çıxışından: 2003.
[761] Şəhid Behişti Universitetinin tələbələri ilə görüşdə çıxışından: 2003.

bilər, onun üçün hansı mövqe seçilmişdir. Tarixin, dünyanın və siyasətin harasında yerləşdiyini bilməyincə özünün universitet daxilindəki rolunu da düzgün anlaya bilməz. Fərz edin, biz bu gün deyirik elm istehsalı. Əgər elmi işlə məşğul olan bir tədqiqat mərkəzi bu gün elmin hansı mərhələdə olduğunu və bizim elm karvanının harasında yerləşdiyimizi bilməsə, heç şübhəsiz, dövrümüzdə ehtiyac olmayan bir elmi işlə məşğul olacaq. Bu, bir misal idi. Bütün məsələlərdə belədir.[762]

**Orta məktəblərdə elm istehsalı hissinə diqqət**

Əgər şagirdin elm və düşüncə istehsalı ilə məşğul olmasını istəyiriksə, bu, dərs vəsaitində görünməlidir. Mən bir neçə ildir daim universitetlərə tövsiyə edirəm ki, elm istehsal edin, onlar da çalışırlar. Amma bu iş elmə inamla və insan zehninin elm istehsalı üçün məhsuldarlığı ilə birgə olmasa, yarımçıq qalacaq. Siz bu işi ibtidai və orta məktəblərdə öz təlimləriniz vasitəsi ilə görə bilərsiniz. Bunlar əməldə görünməlidir. Buna əsasən, Dərs Vəsaitləri Komitəsi olaraq müraciət etdiyiniz müəlliflərdə, seçdiyiniz kitab və mövzularda bunları nəzərə alın.[763]

**Tədqiqatçılara dəstəyin zəruriliyi**

Yaxşısı və hətta vacibi budur ki, daxili məhsulu bacardığımız qədər artıraq. Sözsüz ki, bu iş zəhmətli işdir, çalışmaq tələb edir və qeyd olunan kimi tədqiqat mənbələri də lazımdır. Bu gün xoşbəxtlikdən, tədqiqat mənbələri çətin deyil. Bu gün kompüter, internet və dünyanın elm mərkəzləri ilə əlaqə vasitəsi ilə mənbələr asanlıqla işləmək istəyən tədqiqatçıların ixtiyarına buraxılır. Sözsüz ki, maddi dəstəklər də olmalıdır. Buna şübhə yoxdur.

Mənim fikrimcə, maddi dəstəklərdən üstünü rütbə və titul dəstəyidir; yəni bu ad mötəbər bilinsin. Ümumi mədəni işlərin başında duran şəxslərin bizim fikrimizcə, rəsmi titulu olmalıdır; məsələn, akademiyanın rəsmi titulu, ensiklopediya yazanların ümumi və milli titulu

---

[762] Bəsic üzvü olan müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.

[763] Təlim və Tərbiyə Nazirliyinin Tədqiqat müavinliyinin əməkdaşları ilə görüşdə çıxışından: 2003.

olmalıdır. Necə ki, dünyada belədir: filankəs akademiya üzvüdür. Bu, həmişəlik bir addır. Hətta məsələn, deyirlər ki, filankəsin atası Fransa Elmlər Akademiyasının üzvü olmuşdur; yəni bu, ailəvi imic sayılır. Bu həqiqətən, bir dəyərdir. Bu sahədə çalışanlar bunu bir dəyər kimi tanıtdırsınlar.[764]

**Gənclərin müxtəlif elmi və texnoloji inkişafının şərtləri**

Bəziləri bütün elmi məsələləri mütləq özgələrdən öyrənməyə vərdiş etmişlər; hansısa alim belə demişdir, filankəs elə demişdir. Biz dəfələrlə demişik ki, elm dünyada nə qədər olsa, onu öyrənərik. Amma siz elə edin ki, çox uzaq olmayan gələcəkdə dünyada elmi anlayışları sizdən söyləsinlər: filan iranlı alim belə demişdir, filan iranlı alim elə demişdir; humanitar, dəqiq, tətbiqi elmlərdə və müxtəlif texnologiyalarda sizin sözünüzü danışsınlar. Siz istehsal edə bilərsiniz, bizim gənclərimiz istehsal edə bilərlər. Şərti işləmək, dərs oxumaq, düzgün xətdə hərəkət etmək, ciddilik və ümidi qorumaqdır.[765]

**Elm istehsalının əhəmiyyəti və milli medianın rolu**

Qeyd etdim ki, elm çox mühüm məsələdir. Bu gün insan ölkənin inkişafı üçün müxtəlif yollara baxdıqda hamısının elmdə bitdiyini görür. On illər ərzində ölkəni elmi inkişafdan saxlayan şəxslərə Allah lənət eləsin! Elmi inkişaf olduqda özü ilə texnologiya inkişafını da gətirir. Texnologiya inkişafı da ölkəni rövnəqləndirir və cəmiyyətdə həvəs oyadır. Əgər elm olmasa, heç bir şey olmaz; texnologiya olsa da, mövcud montaj sənayeləri kimi burovuz, yalançı və digərlərindən borc alınmış texnologiya olacaq. Elmi cücərtmək lazımdır. Mənim fikrimcə, media müxtəlif sahələrdə - istər texniki, istər humanitar, istər digər sahələrdə elm, düşüncə, nəzəriyyə və fikir istehsalı hərəkatında rol oynaya bilər. Siz elm, düşüncə və nəzəriyyə istehsalını proqramlı şəkildə izləyə, məntiqli və faydalı bəhslərlə məşğul ola, yenilik kürsülərini televiziyaya çıxara və yaxşı yenilikçi elmi simaları

---

[764] Böyük İslam Ensiklopediyası Fondunun Elmi Şurasının üzvləri və Rəyasət Heyəti ilə görüşdə çıxışından: 2004.

[765] Nümunəvi Quran və olimpiada şagirdləri ilə görüşdə çıxışından: 2004.

tanıtdıra bilərsiniz. Mənim fikrimcə, siz elm məsələsində əsla bitərəf deyilsiniz. Bu sizin mühüm vəzifələrinizdəndir.[766]

**Yenilik - inkişafın əsası**

Mən elmlə məşğul olan bütün gənclərə və bütün şəxslərə təkidlə tövsiyə edirəm ki, elm, tədqiqat, elmdə yenilik, özlərinin daxili və həqiqi yaradıcılıq hissini oyatmaq işini tərk etməsinlər. Fəaliyyət, yaradıcılıq və yenilik insanın və insan həyatının inkişafının əsasıdır. Böyük güclərin muzdurları keçmişdə ölkəmizdə və bu gün bu regionun bir çox asılı ölkələrində təqlidçiliyi fəaliyyət və yaradıcılığın yerinə qoymağa səy göstərmişlər və göstərirlər. Dövlət adamları, ölkə məmurları, yüksək rütbəli müdirlər və müxtəlif təbəqələr hər hansı bir sahədə ciddi işlə məşğul olsalar, yaradıcılıq, yenilik və elm işlətsələr, Allahın rəhmətinə şamil olarlar.[767]

**Elm istehsalı üçün təcrübə və təfəkkürə ehtiyac**

Azadfikirlilik, elm istehsalı və bu kimi məsələlər gəncin amallarıdır. Bu amallara çatmaq üçün elmə, nizam-intizamlı və düzgün siyasi fəaliyyətə, təcrübə və bilik toplamağa ehtiyac var.[768]

**Elm istehsalının və düşüncə işlərinin təsviri**

Bəsic – səhnəyə çıxmaq və meydana atılmaq deməkdir. Hansı meydana? Həyati və əsaslı əngəllər meydanına. Həyatın əsaslı sahələri və problemləri nədir? Təkcə hücuma məruz qaldıqda sərhədlərini müdafiə etməkdir?! Əlbəttə ki, yox. Bu, sözügedən yerlərin yalnız biridir. Bir xalqın milli və siyasi kimliyi də hücuma məruz qaldıqda meydana atılmaq zamanıdır, mədəniyyəti, etiqadı və köklü inamları aşağılananda, təhqir ediləndə də, seçilmiş nəsli elm karvanından geri qaldığını və buna əlac qılmalı olduğunu düşünəndə də, ölkədə gözəl və ədalətli həyat təməllərinin bərpa və bərqərar olunması üçün fəaliyyətə ehtiyac

---

[766] Teleradio Verilişləri Şirkətinin sədri və müdirləri ilə görüşdə çıxışından: 2004.

[767] Sərçeşmə misi kompleksinin işçiləri ilə görüşdə çıxışından: 2005.

[768] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

duyulanda da, dünyanın fikir və mədəniyyət cəbhələri xalqları istismar etmək üçün postmodern üsullarla onları öz keçmişlərindən, mədəniyyətlərindən, köklərindən ayırıb asanlıqla əllərinə keçirmək istədikləri zaman da...

Bu sahələr fikir, bilik və elm istehsalı sahələri, elmi geriliyi düzəltmək üçün müxtəlif zəhmətlər sahəsidir. Bir nəfər gəlib bir fikri, bir şübhəni, bir düşüncə təklifini ortaya qoyur. Əgər düzgün seçmək istəsək, gərək onu tanıyıb anlaya, təhlil edə, yanlış nöqtə və hissələrini kənara çəkə bilək; düzgün hissəsi olsa, götürək, özümüzdəki düzgün hissələrlə qarışdıraq və məhsulumuzu təqdim edək; düzgün cəhəti olmadıqda isə hamısını zibilxanaya tökək.

Hər bir böyük arzuya və uca məqsədə çatmaq üçün yol vardır. Tələbə, alim və sayıq gənc bu yolu tapmalıdır. Proqramlaşdırma hərəkatı, azadfikirlilik və müxtəlif ictimai mövzular da bu qəbildəndir.[769]

**Elmi yenilik sahəsində Bəsic hissləri və xüsusiyyətləri**

Bəsic üzvü olan bir siyasətçi, bir hərbçi, bir tələbə, bir ruhani, bir əkinçi, bir fəhlə, bir tədqiqatçı, bir alim, bir müəllim və hər hansı təbəqədən olan Bəsic üzvü özünün imkan və bacarıqlarını xalqın böyük məqsədləri yolunda səhnəyə çıxaran, özünü ortaq, vəzifəli bilən, kənara çəkilib digərlərinin işləməsini, özünün isə baxmasını arzulamayan şəxsdir, faydalı olanda faydasından bəhrələnib, bir tərəfində bir qüsur görən kimi irad bildirməyə və etiraz etməyə başlayan yox. Cəmiyyətdə belə insan da var. Bəsic üzvü belə olmayandır. O, hərbi işlərə ehtiyac duyulduqda qabaqcıldır; gənc və qoca, uzaq və yaxın da tanımır. Siyasi fəaliyyət zamanı fəal və aktivdir. Beynəlxalq işlərdə - müxtəlif beynəlxalq sahələrdə, siyasi, mədəni, idman sahələrində iştirak etmək lazım olduqda xalqının və ölkəsinin başını ucaldır, bu ruhiyyə ilə, bu hisslə iştirak edir. Elm, tədqiqat, elmi yeniliklərin problemlərinə dözmək yerində öz canından və beynindən maya qoyur. Pul xərcləmək lazım olduqda, pulu varsa, xərcləyir. Bəsic üzvü budur.[770]

---

[769] Bəsic üzvü olan tələbələrlə görüşdə çıxışından: 2005.
[770] Ölkənin minlərlə Bəsic üzvü ilə görüşdə çıxışından: 2005.

**Beynəlxalq qaydalarda təlim və tərbiyənin rolu**

Elmə əsaslanan iqtisadiyyat, siyasət, elmli cəmiyyət bügünkü dünyanın şüarlarındandır. Biz dünya karvanından geri qalmaq istəmiriksə - o ki qala təyinedici və aparıcı rol ifa etmək istəyək - təlim və tərbiyə işlərinə köklü və əsaslı bir nəzər salmaqdan başqa çarəmiz yoxdur. Məktəblər ölkəmizin gələcəyindən ötrü istədiyimiz uca bina üçün əsas təməl, memar və bənnaların sözü ilə desək, əsas fundamentdir.[771]

**Elm istehsalı üçün milli özünəinam**

Biz məsələn, təcrübi elmlərdə milli özünəinamın nümunələrini görmüşük; nüvə texnologiyasında, kök hüceyrələrin istehsalında, müxtəlif sahələrdə görülən, zamanından öncə açıqlamaq istəmədiyim və bəşər elminin inkişafına müsbət təsir göstərən digər yaxşı işlərdə. Əlbəttə, bunlar yalnız bir hissəsidir. Milli özünəinam yalnız bu işlərlə məhdud olmur ki, biz bənd, stansiya tikə, xarici yardım olmadan böyük işlər görə və nəhəng layihələr icra edə bilirik. Əslində siyasətdə, fəlsəfədə, xalq yaradıcılıqlarında və əxlaqi dəyərlərdə də özünəinam olmalıdır.[772]

**Universitetdən öncədən sonraya qədər elmin inkişaf və istehsal prosesinin təmini**

Universitet özündən əvvəldən və sonradan ayrı bir ada deyil. Bir ölkənin elmi inkişafına sözün həqiqi mənasında nail olmaq üçün bu prosesi təmin etməliyik; yəni ibtidai məktəbdən başlamış universitetin yüksək pillələrindən sonraya qədər. Universitetin yüksək pillələrindən sonra tədqiqat mərkəzləri, tədqiqat inkişafları, ölkədə sənaye və texnologiyanın inkişafı ilə əlaqədar və ölkənin müxtəlif sahələrində texnoloji sıçrayışlar yaratmaq var. Bunlar universitetin yüksək pillələrindən sonraya aiddir. İş isə ibtidai məktəbdən başlanmalıdır.

Bu iş təkcə Ali Təhsil və Səhiyyə nazirliklərinin işi deyil. Bu iş hökumətin, Mədəni İnqilab Ali Şurasının, qərar verən və siyasət təyin edən

[771] Ölkə müəllimləri ilə görüşdə çıxışından: 2006.
[772] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2006.

mərkəzlərin işidir. Bu sahədə mənim Təlim və Tərbiyə Nazirliyinə xüsusi sözüm var. Onların da bu sahədə problemləri var, ehtiyacları təmin olunmalıdır, amma müştərək baxışla. Təlim və tərbiyə, ali təhsil, tibbi təhsil və hətta digər bəzi sahələr bu işdə əməkdaşlıq etməlidirlər ki, bu prosesi təsvir edə bilsinlər.

Biz öz uşağımızı əvvəldən istehsalçı, qurucu və yaradıcı beyin üçün hazırlamalıyıq, bizi yetişdirdikləri kimi yox: oturub gözləyək ki, xaricdən bizə bir şey versinlər və biz də öz bacarığımız həddində ondan istifadə edək. Bu böyük miqdarda ilkin elm və beyin tərbiyələrinə - ibtidai məktəbə, orta məktəbə və bu kimi mərkəzlərə aiddir. Onların elm və dərs proqramları çox mühümdür.[773]

**Ziddiyyətli və saxta inkişaf nüsxələri**

Əvvəla, özümüzə bu sualı verməliyik ki, inkişaf nədir. Əgər bu sualı verməsək, deməli, inkişaf fikrində səmimi deyilik. Əvvəl bunu özümüzdən soruşmalı və cavabın ardınca hərəkət etməliyik.

"İnkişaf nədir?" sualının cavabında dünyada müxtəlif sözlər deyilir. Hər növ söz var. Saxta, ziddiyyətli tövsiyələr, qəribə və bəzən xəyanətkar tövsiyələr ölkənin modernləşdirilməsinin əvvəllərində bizim canımıza salınan bir bəla idi.[774]

**İnkişaf nüsxəsi barədə real nəzəri bəhslər**

İnkişafın düzgün mexanizmini tapmaq üçün bizə nə lazımdır? Nəzəri iş. Bu sizin üzərinizə düşən işlərdəndir. Bir ölkənin inkişafı nədir? Əlbəttə, məqsədim bu deyil ki, zehni və açıq mövzularda yıxılıb qalaq, özümüzü belə mövzularda gecikdirək, reallığa diqqət yetirməyək. Yox, bunları istəmirik. Bu, səhvdir.[775]

**Quran tədqiqatı**

---

[773] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışından: 2006.

[774] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

[775] Yenə orada.

Quran sahəsində çalışan şəxs qəlbini əsl Quran həqiqəti ilə üzləşməyə hazır etməlidir; yəni qəlb pak olmalıdır. Əgər qəlb pak olmasa, Quran dilindən haqqı və həqiqəti qəbul etməyə hazır olmasa, qeyri-islami və qeyri-ilahi əsaslara könül versə, Quranla üzləşəndə ondan bəhrələnə bilməz. Quran buyurur ki, o, çoxlarını azdırır və çoxlarını hidayət edir.[776] Quranla azmaq nə üçündür? Quranla hidayəti başa düşürük, bəs azmaq nə üçündür? Bu ona görədir ki: "Qəlblərində mərəz olanlara gəldikdə isə, onların murdarlığı üstünə bir murdarlıq da gətirər"[777]. Qəlblərində xəstəlik olan şəxslər Quran oxuduqda qəlblərinin çirkinliyi artar; Quran ayəsi, yaxud Quran surəsi onların çirkinliyini artırar.

Bu çirkinlik nədir? Bu xəstəlik hansı xəstəlikdir? Bu xəstəlik əxlaqi xəstəliklərdir. Həsədə, bədxahlığa, tamahkarlığa, dünyagirliyə düçar olanda, ehtiraslar, kreslo həvəsləri bizə hakim olanda, haqqı tapdamaq, görməzdən gəlmək və gizlətmək hissi ruhumuza və qəlbimizə üstün gələndə Qurandan bəhrələnmir və onun bizə verməli olduğunun ziddini alırıq.

...Quran tədqiqatlarında əsaslı elmi işlərə diqqət yetirmək də çox vacibdir. Belə deyil ki, kim ərəb dilini bilsə, Quranın bütün mətləblərini anlayıb dərk edə və bir Quran tədqiqatçısı ola bilər. Xeyr, əvvəla Quranın özü ilə ünsiyyət qurmaq lazımdır. Yəni Quran tədqiqatçısı bütün Quranla ünsiyyətdə olmalıdır. Quranın tilavəti, ikinci, üçüncü dəfə oxunması, Quranda şəxsi təfəkkürlər bizə lazım olan mövzu barədə nəticə əldə etməyimizə kömək edir. Deməli, Quranla ünsiyyətin özü vacibdir.

Sonra da Qurandan bəhrələnmənin necəliyi məsələsi gəlir. Bizim din alimlərimizin, fəqihlərimizin ayə və hədislərdən istifadə metodu təcrübədən çıxmış, bişmiş, yetişmiş və tam sınanmış bir elmi metoddur. Bunları öyrənmək lazımdır. Demək istəmirəm ki, kim Quran mövzusunda tədqiqat aparmaq istəsə, gedib illərlə hövzə dərsi oxumalıdır; məqsədim bu deyil. Lakin Quran tədqiqatı üçün bəzi elmlərə yiyələnmək, Quran dərkinin əsaslarını öyrənmək, o cümlədən dillə, dilin dəqiq məqamları və fiqh metodikasının bəzi əsasları ilə tanış olmaq lazımdır. Bunları bilmək və

---

[776] "Bəqərə"/26.
[777] "Tövbə"/125.

həmçinin Quran ayələri barədə deyilən hədislərdən də istifadə etmək lazımdır. Bunların hamısı Quran tədqiqatlarında mühüm rol oynayır.[778]

---

[778] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.

## Altıncı fəsil: Elmdə öncüllük üçün qısa yollardan istifadə

### Dünyada elmi inkişaf prosesi

Elmi inkişaf prosesi sürətə doğru bir prosesdir. Sanki bir nəfər piyada yol gedir, amma başqa bir nəfər velosiped əldə edir və bu velosipedlə yolu daha tez qət edir. Velosipeddən sonra tez avtomobilə çatır. Avtomobilə minəndə sürəti bir neçə dəfə artır və nəhayət, təyyarənin dayandığı yerə çatır. Təyyarəyə çatanda sürəti yüz qat artır. Amma piyada hələ velosipedə çatmayıb. Məsafə belədir. Bizimlə xarici ölkələr arasındakı məsafə bu şəkildə get-gedə çoxalır. İndi biz nə etməliyik? Məsafəni necə qət etməliyik? Biz kəsə yol tapmalı, ölkənin bütün istedadlarından istifadə etməliyik. Bu ölkədə düşmənlər və müstəmləkə siyasətləri qarşısında hərəkət və mübarizədə səmimilik oturuşmalıdır və bu, inqilab olmadan mümkün deyildi.[779]

### Qısa yollarla elmi gerilikləri düzəltmək

Biz elmə yeni bir zirvə əlavə etmək üçün mütləq Qərb elminin keçdiyi mərhələləri keçməməliyik. Elm elə ağaclardandır ki, aşağıdan yuxarıya qədər hər yerdə yarpaq açması və yeni budaq çıxarması mümkündür. Əgər insan bəşəri elmlərdə yenilik etmək istəsə, mütləq bütün bu mərhələləri keçməsi və sonda bir şey əlavə etməsi vacib deyil. Xeyr, yolun ortasında da nələrsə əlavə etmək olar. Bu gün qərblilərin müəyyən və bəlli dəlillərə əsasən, dünya elmlərində İslam ölkələrindən və müsəlman cəmiyyətlərindən öndə olmalarına şübhə yoxdur. Amma şübhə də yoxdur ki, biz parlaq istedadlara malikik və yaradıcılıq ruhu insan qarşısında həmişə kəsə yol açır. Deməli, kəsə yollar axtarın, yeni şeylər kəşf edin, böyük işlər görün və bacardığınız qədər elmin dairəsini genişləndirin. Bu iş lazımdır. Həmçinin yeni dərmanlar kəşf etməyiniz lazımdır. Müalicə üçün yeni yollar tapın və yeni tibbi alətlər ixtira edin. Sizdən gözlənilən budur.[780]

---

[779] Kürd şəhərində Çahar-Mahal və Bəxtiyari vilayətinin məsul şəxsləri ilə görüşdə çıxışından: 1992.

[780] Ölkə həkimlərinin İslam birliyi və İslam cəmiyyəti ilə görüşdə çıxışından: 1994.

**Yenilik üçün kəsə yollar**

Bacardığınız qədər yenilik və yaradıcılıqla məşğul olun, kəsə yollar seçin. Siz bacarırsınız və bacardığınıza inanmalısınız; necə ki, bacardınız. Bir gün bu inkişafa nə düşmən inanardı, nə də dostların çoxu. Mömin kadrlar göstərdilər ki, mümkündür və bacardılar. Bundan da irəliyə gedə bilərsiniz.[781]

**Kəsə yol - bir elmi hərəkət**

Düzdür, biz elmi baxımdan geridəyik. Bu bəllidir. Bu, 10-20 ilin söhbəti də deyil. Biz bu hərəkətdə bəlkə də sözün həqiqi mənasında yüz il geri qalmışıq. Əlbəttə, biz yüz il fərqlə başlamadıq, proses sürətli olduğundan məsafə daim çoxalmışdır. Kəsə yol isə mütləq vardır. Yəni bu gün elmin daxil olduğu böyük sahə və elmi baxış sayəsində yaranış aləmində peyda olan yeni məsələlər göstərir ki, bu böyük dünyada hər şey, o cümlədən kəsə yollar tapmaq mümkündür. Kəsə yolun özü bir elmi hərəkətdir. Yəni biz bilməliyik ki, dünyanın bugünkü elmi səviyyəsinə çatmaq istəyiriksə, bütün bu mərhələləri keçməyimiz vacib deyil. Biz kəsə yollar tapa bilərik.[782]

**Elmin inkişafı üçün kəsə yollar**

Elm və elmlə məşğul olan mərkəzlər barədə fikrimiz budur ki, kəsə yollar tapılmalıdır. Əks təqdirdə, bu yolu qət etmək həmişə geri qalmaq deməkdir.[783]

**Elmi geriliyi düzəltməyin yeganə yolu**

Mən dəfələrlə öz mütəfəkkirlərimizə demişəm ki, sizin dediyiniz bu məsələ - yəni Qərbin bizdən çox öndə olması bir həqiqətdir. Biz əgər

---

[781] Müqəddəs müdafiə həftəsi münasibəti ilə İslam Respublikası ordusunun komandirləri və şəxsi heyəti ilə görüşdə çıxışından: 1995.

[782] Bazar ertəsi görüşlərində Tehran Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışından: 1996.

[783] Beynəlxalq İslam Elmləri Mərkəzinin İdarə Heyətinin üzvləri ilə görüşdə çıxışından: 1997.

Qərbin arxasınca, onun hərəkət etdiyi yolla gedib bugünkü nöqtəyə çatmaq istəsək, ömürlər və əsrlər çəkəcək və bacarmayacağıq. Bizim kəsə yollara ehtiyacımız var. Kəsə yol varmı? Mütləq var. Hanı? Mən bilmirəm, gedin tapın.

Mövcud kəşflərin hamısı kəsə yollardır. Baxın, bir zaman buxar enerjisi ilə hərəkət yox idi, digər enerjilərdən istifadə edirdilər. Amma bir nəfər buxar enerjisini kəşf etdi. Yəni təbiətdə buxar enerjisi əvvəldən vardı, amma sonradan birisi onu kəşf etdi. Bu bir kəsə yol deməkdir.

Kəsə yolları kəşf edin. Sizin müşahidə etdiyiniz və bu gün həqiqətən dünyanın bütün işlərinin, yaxud onun böyük bir hissəsinin asılı olduğu elektrik enerjisi həmişə təbiətdə mövcud olmuşdur, sonradan yaranmamışdır. Bir nəfər gedib bu qısa yolu tapmış və ondan keçmişdir.[784]

**Çoxlu təbiət sirlərinin məchul qalması**

Çox gözəl, hələ çoxlu qısa yollar mövcuddur. Böyük alimlər açıq söyləyirlər ki, biz hələ təbiət aləminin, o cümlədən insan vücudunun sirlərinin çoxuna vaqif olmamışıq, hələ çox şeyi kəşf etməmişik. Kim kəşf edə bilər? Düşünə bilən, alim olan və günün elmlərindən istifadə edən şəxs. Belə adam yeni yollar kəşf edə bilər. Siz də belə olun. Nə üçün özünüzü belələrindən kiçik bilməlisiniz?![785]

**Müasir dünya elmində önə keçməyin mümkünlüyü**

Onların inkişaf sürəti çoxdur. Mən bir dəfə misal çəkdim ki, siz velosipedlə gedirdiniz, o özünü motosikletə çatdırdı, irəliyə düşdü və sonra özünü təyyarəyə çatdırdı. İndi məsafə çoxalıb. Amma siz hələ də velosipedin pedalını vurub irəliləyirsiniz. Belə olmaz. Özünüzü təyyarəyə çatıdrmalısınız. Bundan başqa çarə yoxdur. Qısa yol tapmalısınız və bu da yalnız elmlə mümkündür. Heç kəs iddia edə bilməz ki, elm yalnız qərblilərin əldə etdikləridir və onun qapısı bağlanıb. Xeyr, heç kəs iddia edə bilməz ki, elmdə bir addım yüksəklik mütləq indiyədək elmi olanlara məxsusdur. Əlbəttə, bu yüksəyə addım atmaq onlara daha asandır, lakin

---

[784] Gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.

[785] Yenə orada.

təkcə onlara məxsus deyil, elmi iş görməklə, çalışmaqla hamıya mümkündür. Bunun şərtləri var.[786]

**İnkişaf etmiş ölkələrlə məsafəni azaltmaq üçün kəsə yollar**

Soruşdunuz ki, bizimlə inkişaf etmiş ölkələr arasındakı məsafə bitəcək, yoxsa yox? Mənim fikrim budur ki, bəli, tamamilə bitəcək. Ola bilsin biz onların getdiyi yollarla gedib məsafəni bitirə bilməyək. Lakin dünyada istədiyin qədər kəsə yol mövcuddur. Biz Allahın yaratdığı bu təbiəti yaxşı tanımamışıq. Minlərlə yol vardır. Bir yol indiki sənaye sivilizasiyasının getdiyi, hər bir addımdan sonra növbəti addıma səbəb olan yoldur. Biz nə üçün dünyada yeni bir bacanın açılmasına, yeni kəşfin edilməsinə ümidsiz olmalıyıq?! Bir zaman elektrik enerjisi kəşf olunmamışdı. Yəni dünyada mövcud idi, amma onu tanımırdılar. Birdən tanıdılar və əldə edildi. Bir zaman buxar enerjisini tanımırdılar. Ondan öncə odu tanımırdılar. Amma sonra tanıdılar. Nə üçün biz bu dünyada məchul bir şeyi öyrənməyə məyus olmalıyıq?! Necə ki, hər gün məchul şeylər tanınmaqdadır. Biz bu sahədə işləməli və bizi sürətli elmi inkişafa tam hazır edən yola çatmalıyıq. Çarəsi də təkcə budur ki, gənclər, xüsusən də elm, təhsil və tədqiqatla məşğul olan gənclər çətin işlərdən qaçmasınlar.[787]

**Dövrün imamının duası ilə kəsə yolları və kəşf olunmamış qanunları tapmaq**

Mən həmişə demişəm, yenə də təkrar edirəm: Siz dalanları açın və qısa yollarla hərəkətinizi davam etdirin. Kəsə yollar vardır. Dünyanın əksər böyük kəşfləri kəsə yolların kəşfi olmuşdur. Dünyada elektronika və kompüter bir kəsə yolun kəşfi idi. Belə yolları tapın. Dünyada kəşf olunmayan və bilinməyən milyonlarla sirr, hələ bəşərin əlinə keçməyən milyonlarla təbiət qanunu vardır. Onları tora salın. İstedadlı və bacarıqlı insanların güclü qolları üçün hazır olan bu ovları siz tutun. Siz müntəzəm şəkildə çalışın, mümkün olacaq.

---

[786] Ölkənin universitet rektorları ilə görüşdə çıxışından: 1998.
[787] Gənc həftəsi münasibətilə gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.

Əlbəttə, bu söz yalnız müdafiə sənayesində işləyən sizlərə ünvanlanmır. Bu söz ölkənin bütün qüvvələrinə aiddir. Biz bütün sahələrdə belə hərəkət etməliyik. Allah-Taala kömək edəcək, inşallah dövrün imamının duası sizin işinizə yardım edəcək və ölkə inkişaf edəcək. İnşallah imamın və şəhidlərin pak ruhları sizin işlərinizə görə sevinəcəklər.[788]

**Elmi məsafələri qət etməyin mümkünlüyü**

Mənim əziz universitet mənsublarına demək istədiyim söz oxşar görüşlərdə dəfələrlə dediyimdir. Yenə də təkrar etmək istəyirəm ki, biz elmi baxımdan dünyadan geriyik. Bu məsafəni keçmək üçün bir yol yoxdur?! Mənim qəti fikrim budur ki, biz qısa yollardan istifadə edib, ilk baxışda heç zaman mümkün görünməyən bu məsafəni keçə bilərik; çünki böyük məsafə ilə irəlidə hərəkət edən və günbəgün sürətini artıran şəxs dayanmadan uzaqlaşır. Mənim ciddi fikrim budur ki, bu məsafəni keçmək, ölkəmizdə və bizə bənzər ölkələrdə olan elmi nöqsanları və mövcud uçurumları düzəltmək olar.[789]

**Elmi tabelik və geriliklərin günbəgün artan məsafəsi**

Biz indi bu tarixi geriliyi bir yolla düzəltmək istəyirik. Nə etməliyik? Əgər adi baxışla baxsaq, görərik ki, məsafə çoxdur. Təsadüfən, onların nəqliyyat vasitəsi də sizinkindən daha sürətlidir. Buna görə də məsafə günbəgün çoxalır. Biz buna məhkumuq. Bu doğrudurmu?! Onların getdiyi yolu biz də davam etdiririk və düşünürük ki, davam etdirməliyik; deyirik hər halda, onlar bu yolla getmişlər, biz də gərək gedək. Bu, gedilmiş yoldur, lakin onlarla bizim məsafəmiz çoxdur. Mən bir dəfə belə məclislərin birində universitetdən gəlmiş dostlara dedim ki, biz gedirdik, o, velosiped tapdı və bizimlə məsafəsini çoxaltdı. Sonra avtomobil tapdı və ondan istifadə etdi. Amma mən velosipedə indi çatmışam. Beləliklə, məsafə daha da artdı. O indi daha sürətli vasitələr əldə etmişdir. İndi mən oturub onun

---

788 Parçin silahqayırma kompleksinə baxışdan sonra çıxışından: 1998.
789 Ölkənin universitet müəllimləri ilə görüşdə çıxışından: 2002.

hərəkət tozuna tamaşa etməliyəm, yaxud bu inkişafın həsrəti ilə qəmlənməli və yanmalıyam?! Biz nə etməliyik?[790]

**Elmi geriliyin əlacı**

Mənim 2-3 ildir universitetlərdə təkrar etdiyim Elm istehsalı hərəkatı bunun üçündür. Elm istehsalı - gedilməmiş yollarla getməkdir. Əlbəttə, bu o demək deyil ki, biz digərlərinin getdiyi yolu getməyək və digərlərinin təcrübələrinə etinasız yanaşaq. Əslində mənası budur ki, fikirləşək. Bu möhtəşəm dünyada və böyük təbiətdə bugünkü mütərəqqi elmin əldə etmədiyi çoxlu bilgilər var. Təbiətin hələ elmə məlum olmayan məsələləri olduqca çoxdur və böyük ehtimalla, bəşərin bu günə qədər əldə etdiklərindən qat-qat artıqdır. Diqqət etməli, düşünməli və məchul məqamların kəşfinə çalışmalıyıq. Burada deyildiyi kimi, istedadları işə salmalıyıq. Mən bilirəm ki, iranlı beyninin və düşüncəsinin belə istedadı var. Qısa yollar tapmalıyıq, elmdə bidət və yenilikdən qorxmamalıyıq. Bu hərəkət bizim universitetlərimizdə, elmi-tədqiqat müəssisələrimizdə kütləvi şəkildə müqəddəs iş və ibadət hesab olunmalıdır. Elmin bütün sahələri belə şəkil almalıdır. Bizim düşünmək və elmi yeniliklərə nail olmaq cürətimiz olmalıdır.

Əlbəttə, bu sözün qarşısında tam ümidsizliklə demək olar ki, digərlərinin görmədiyi hansı işi görək, hansı yolla gedək?! Amma mən düşünürəm ki, gedilməyən yolları getməyin mümkünlüyünü düşünmək, ona ümid bağlamaq olar. Bu gün dünyanın və bəşəriyyətin tanıdıqlarının çoxu bir zaman məchul idi, lakin kimlərsə cürətlə bu məchulları kəşf etdilər. Hansı səbəbə görə biz başqa bir məchulu kəşf edə bilmərik?! Bu gün hər bir yeni kəşf ən üstün elmlərdən və ən inkişaf etmiş texnologiyalardan asılı deyil.[791]

**Avropadan önə keçmək üçün kəsə yolların kəşfi**

Biz nə üçün bacarmadığımızı düşünməliyik?! Bəli, bizi inkişaf etməyə qoymadılar. Həqiqət budur ki, biz dünya elmindən 200 il geri qalmışıq.

---

[790] Şəhid Behişti Unversitetinin müəllimlərilə görüşdə çıxışından: 2003.

[791] Yenə orada.

Amma elmin sərhədlərinə çatmaq o demək deyil ki, avropalıların iki yüz ilə getdikləri yolu biz də iki yüz ilə gedək, sonra onların bu gün çatdıqları yerə çataq. Yox, belə deyil, biz kəsə yollar tapmalıyıq. Biz elmi avropalıların əlindən almalıyıq. Biz öyrənməyə utanmırıq. İslam deyir ki, dünyada bir neçə qrup var. Onların biri bilmədiklərini öyrənmək fikrində olanlar, öyrənməyə utanmayanlardır. Biz bu gün bəşər beyninin, ağlının və istedadının nəticəsi olan elmləri öyrənirik. Bilmədiklərimizi böyük məmnuniyyətlə öyrənirik, müəllimlərimizə hörmət də edirik; bizə elm öyrədənlərə hörmətsizlik etmirik. Amma ayrısından elm öyrənmək şagirdin həmişə şagird qalması mənasında başa düşülməməlidir. Biz bu gün şagirdik, sabah onların müəllimi olacağıq. Necə ki, onlar bir gün bizim şagirdimiz idilər, amma indi müəllimimiz olmuşlar.[792]

**Geriliyi düzəltməyə çalışmaq**

Bu bir həqiqətdir ki, bizi on illərlə geridə saxlayıblar və bu on illər elmi çiçəklənmə və inkişaf dövrünə təsadüf edir. Bizi özümüz istəmədən və iradəsiz olaraq on illərlə - Qacarlar dövrünün sonlarından Pəhləvi dövrünün sonuna qədər geridə saxlayıblar. Bu reallıqdır. Biz bu gün tər töküb çalışmalı və bu məsafəni mümkün qədər azaltmaq üçün var gücümüzü işlətməliyik. Mənim təcrübəyə və bu sahələrdə nəzər sahibi olan ekspertlərin elmi baxışlarına əsaslanan fikrim budur ki, bacararıq. Bu, imkansız bir şey deyil. İlahi qaydalarda və yaranış qanunlarında kəsə yollar çoxdur. Hünər budur ki, kimsə onu tapsın. Deməli, bacarırıq, lakin çalışmaq lazımdır.[793]

**Elmin sərhədlərini keçməyin yolu**

Elmin sərhədlərini keçmək ölkəmizdə hələ də ciddiyə alınmır. Biz istəyirik ki, alimlərimiz kəsə yollar tapsınlar. Təbiət aləmində mövcud olan və bəşərin biri o birindən sonra kəşf etməli olduğu tükənməz yolların kəşf olunmayanlarını tapmaq lazımdır. Biz kəşf olunmayan yolları kəşf etmək

---

[792] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışından: 2004.
[793] Ölkə müəllimləri ilə görüşdə çıxışından: 2006.

istəyirik. Biz hansısa texnikanı, fərz edin, nüvə işi üçün digərlərinin bizdən illər öncə tapdığı, istehsal və istifadə etdiyi sentrifuqu özümüz düzəldə bilmişiksə, bu, təbii ki, böyük işdir. Biz bunu digərlərinin köməyi olmadan görə bilmişik və onun yeni nəsillərini istehsal edirik. Bunda şübhə yoxdur, amma bu, görülməmiş iş deyil. Bu, digərlərinin gördüyü iş və getdiyi yoldur. Biz də əlli il, yüz il bundan sonraya qədər məhrum qalmalı idik. Bu texnologiya və bu elm bizim kimi ölkələrə verilməyəcəkdi. Bizim gənclərimiz, alimlərmiz, tədqiqatçılarımız öz səylərini toplaya bildilər. Bu, dəyərli işdir. Amma mən deyirəm ki, elm və texnologiya sahəsində bəşər beyninin əldə etmədiyi işi görməyə çalışın. Bu zaman biz elmin ön xəttini qırıb bir addım irəliyə getmiş olacağıq. O zaman bunu iddia edə bilərik və bu mümkündür. Əlbəttə, yeni addımlar atmaq həm də digərlərinin vasitəsi ilə keçilmiş yolları qət etməkdən asılıdır. Buna şübhə yoxdur. Amma heç zaman beyni qısa yollar tapmaq üçün axtarışdan məhrum və bu işi ona qadağan etməməliyik. Ölkədə bizə bu lazımdır.[794]

**Kəsə yollar və onların müqəddimələri**

Özünüzü alim edin. Ölkənizi və xalqınızı elm sarıdan inkişaf etdirin. Bizim bu sahədə geriliyimiz var. Elm və tədqiqatın bu ölkədə prioritet olmasını zamanında anlamayan və ölkəni geridə saxlayan şəxslərə Allah lənət eləsin! Sonra da bu ölkədə uca iradələr görünmədi ki, geriliyi düzəldə bilsinlər. İnqilab isə vərəqi tamamilə çevirdi və yolu dəyişdi. Biz bu geriliyi düzəldə bilərik. Əlbəttə, əgər eynilə digərlərinin getdiyi xətti izləsək, qiyamətə qədər onlardan geridə qalacağıq. Lakin kəsə yollar vardır.

İlahi xilqətin bir-birinin içində olan qəribə yolları vardır. Onları kəşf etmək lazımdır. Bu elmi inkişafların hamısı kəsə yolların kəşfidir. O qədər kəsə yol var ki, siz onları tapıb kəşf etsəniz, birdən-birə özünüzü yarışın ön xəttində görəcəksiniz. Əlbəttə, elmin müqəddimələrini bilmədən kəsə yolu tapmaq imkansızdır. Elmi hazırlıqlara yiyələnmək və xalqı alim etmək

---

[794] Universitet müəllimləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2006.

lazımdır. Lakin tədqiqat işi ciddi sayılmalıdır. Deməli, elmi hərəkat və elmi sıçrayış mühüm məsələdir.[795]

[795] Hökumət həftəsi münasibəti ilə Dövlət Şurasının üzvləri ilə və prezidentlə görüşdə çıxışından: 2007.

## Yeddinci fəsil: Yerli elmi istehsal, tərcüməçilikdən və Qərbə tabe olmaqdan çəkinmək

**Digərlərinin elmi məhsulundan istifadənin şərti**

Buyurdunuz ki, biz digərlərinin tədqiqat və araşdırma məhsullarından istifadə etməliyik. Bu, çox düzgün sözdür. Fərz edin bir avropalı tarixçi və tədqiqatçı coğrafiyada və yaxud tarixdə bir söz yazmışdır. Biz ondan istifadə edir və onu gətiririk. Bunun heç bir eybi yoxdur. Amma çalışmaq lazımdır ki, onun kənarında bizim sözümüz də deyilsin.

İndi kitablarda, yazı və tədqiqatlarda – istər fiqh və üsulda, istər fəlsəfə və tarixdə - İslam təlimlərindən ibarət böyük xəzinəmiz var. Özümüzü çox kiçik sanmamalıyıq. Digərləri bu işə təzə başlayıblar. Biz bunları İslam təlimləri arasında təqdim edə bilərik.[796]

**Digərlərinin ixtisasından istifadə etmək, istehsal isə özümüzdən!**

Biz digər ölkə və xalqların elm və təcrübəsindən istifadə etməyə qarşı çıxmırıq. Bizim sözümüz budur ki, ölkəni qurmalı olan şəxs özümüzünküdür. Əcnəbi sizin evinizə ürək yandırmaz. Siz öz eviniz üçün ürək yandırmalısınız. İradəli iranlılar, gənclər, alimlər, mütəxəssislər, peşəkar beyinlər, dəyərli insanlar, adi xalq, işçi qol və pəncələr ölkəni qurmağa çalışmalıdırlar.

Sözsüz ki, digərlərinin təcrübə, elm və ixtisasından istifadə etmək lazımdır. Biz öyrənmək yolunu bağlamırıq. Dünyanın şərqində və qərbində harada elm və təcrübə varsa, gedib öyrənərik. Bu, İslamdan, İslamın tapşırığıdır və ona qarşı heç bir müxaliflik yoxdur. Lakin məsuliyyət sizin üzərinizə düşür. Bizim sözümüz budur.[797]

**Qərbin elm və texnologiyasından yanlış istifadə tərzi**

---

[796] İslam Ensiklopediyası Fondunun üzvləri ilə görüşdə çıxışından: 1989.

[797] Quruculuq Cihadının Naziri, nazirliyin məsul şəxsləri və cihad üzvləri, Gilan və Zəncan vilayətlərinin şəhid ailələri, aşirətləri və zəlzələdən zərər çəkənləri ilə görüşdə çıxışından: 1991.

Elm və sənaye karvanından geri qalmış ölkələrdə iki təfəkkür tərzi vardır: bir təfəkkür tərzi səhv və xalqın bədbəxlik amilidir, bir təfəkkür tərzi isə düzgündür. Səhv təfəkkür tərzi Amerika əlaltılarının bu ölkədəki hakimiyyəti dövründə xalqımıza hakim idi. O budur ki, elm, sənaye, texnologiya və texniki işlər xaricilərin, avropalıların və qərblilərin vasitəsi ilə hazırlanmalı, məhsul formasında ixtiyarımıza qoyulmalı, biz də pul və neft verib onların məhsulundan istifadə etməliyik. Bu bir təfəkkür tərzi idi. Təəssüf ki, müstəmləkəyə çevrilmiş bəzi ölkələrdə indi də bu təfəkkür tərzi mövcuddur. Deyirlər ki, biz pul veririk, qərblilər bizim üçün düzəldib buraya gətirir və quraşdırırlar. Bəzən axmaqcasına güman edirlər ki, bu, bir növ ərbablıqdır. Yəni biz pulluyuq və onlar gəlib bizim üçün düzəldirlər.

Buna görə, siz ölkənin sənaye xəritəsinə baxsanız, görəcəksiniz ki, qərblilər, amerikalılar və bəzi avropalılar bu xəritəni xüsusi tərzdə tərtib etmişdilər. Belə ki, bu məmləkətdən getsələr və ya buranın darvazaları onların üzünə bağlansa, iranlıların özləri sənayenin inkişaf və idarəsinə aciz qalsınlar. Yəni bir ölkənin sənaye şəbəkəsində qəsdən gözəgörünməz halqalar yaratmışdılar. Məqsədləri bu idi ki, bu xalq heç zaman öz ayağı üstə dura və qamətini düzəldə bilməsin; istəyirdilər ki, həmişə onlara möhtac qalsın.

Bu təfəkkür tərzi universitetlərə də təsir edir. Universitet elmləri də həmin düşüncə əsasında formalaşır, mühəndisimiz də yaradıcı, qurucu olmur. Onlar o zaman bu işi gördülər, nəticələri uzun müddət ölkəmizə ziyan vurdu və bəlkə hələ uzun müddət vuracaq.[798]

**Qərbin elm və texnologiyasından düzgün istifadə tərzi**

Biri isə düzgün fikir tərzidir. O budur ki, bizdə olmayan elmi, texnikanı və sənayeni əcnəbidən öyrənə bilərik, amma o işi özümüz idarə edəcək, sənayeni özümüz seçəcək, ölkə üçün lazım olanı özümüz yaradacağıq. İnsan elmi hər kəsdən öyrənməlidir, amma onun muzduru olmaq üçün yox. Qərblilər İran xalqı və digər müsəlman xalqlar üçün bunu istəyirdilər.

---

[798] Məmurlar və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 1991.

Biz elmi öyrənməliyik ki, özümüz ölkəni quraq. Bizim xalqımızda istedad və yaradıclıq ruhu böyükdür. Biz bir neçə əsr öncəyə qədər dünyada elmin bayraqdarı olmuş xalqıq. Bizim istedad və elmi potensial sarıdan çatışmazlığımız yoxdur; nə üçün elm və sənaye karvanından geri qalmalıyıq və ən kiçik şeyləri də bizim üçün onlar düzəltməlidirlər?!

Bu gün vəziyyət çox dəyişmişdir. İran xalqı inqilab sayəsində elm, sənaye, istedada güvənmək və sənaye həyatını özü tərəfindən idarə etmək baxımından inqilabdan öncə ilə müqayisəediləsi deyil. İstər sənaye sahəsində, istər tibdə, istər digər elmlərdə çoxlu gənclər, kişi və qadınlar yüksək rütbələrə nail olmuş və dəyərli işlər görmüşlər. Bir xalq bilməlidir ki, öz ehtiyaclarını yalnız onun özü anlayıb aradan qaldıra bilər. Biz demirik ki, digərlərinin elmindən, sənaye və elm nailiyyətlərindən istifadə olunmasın. Xeyr, istifadə olunmalıdır, amma özümüz də çalışmalıyıq.[799]

**Ölkənin elmi inkişafının yolları**

Bu gün ölkədə elmin səviyyəsini qaldırmaq üçün bütün mümkün və düzgün işlərlə məşğul olmalıyıq. Mən demirəm ki, elmli şəxslərin yanına getmək olmaz. Şübhəsiz, bu gün alimlərdən öyrənmək lazımdır. Bu bir İslam təlimidir: "Elm Çində olsa belə, gedib öyrənin".[800] Bu gün dünyanın şərqində və qərbində elmin zirvələri mövcuddur. Biz sözsüz ki, layiqli bir öyrənci kimi gedib onlardan elm öyrənməliyik; necə ki, layiqli bir insan təhqir və minnətsiz elm öyrənir. Lakin mənim qəlbimdə olan və həmişə barəsində düşündüyüm budur ki, elm daxildən baş qaldırmalıdır. Əgər biz istedadlı bir xalq kimi özümüzü elmi cəhətdən yüksəldib daxili istedadlarımızla məşğul olmağa qərar versək, onlara baxsaq, özümüzü bir qədər zəhmətə salsaq, o elmi, elmsevərlik, tədqiqatçılıq xislətini özümüzdə dirçəltsək, düşünürəm ki, onun-bunun qapısına getməyə ehtiyac qalmayacaq.[801]

**Elm və düşüncədə Qərbə tabeliyin bəlası**

---

[799] Yenə orada.

[800] "Vəsail əş-şiə" c. 27, səh: 27.

[801] Elmlər Akademiyasının üzvləri ilə görüşdə çıxışından: 1993.

Mən müxtəlif elmlərdə tabelik və elmi mütləqçiliyə təslim olmaq məsələsinə toxundum. Düşünürəm ki, bütün elm mərkəzlərində Qərbdən amiranə şəkildə idxal edilən mədəniyyətə qarşı ümumi özünəinam yaratmalısınız. Biz mədəni hücum məsələsini ortaya atanda bəziləri çox incidilər, dedilər ki, nə üçün mədəni hücum deyirsiniz. Halbuki mədəni hücum cəbhənin ortasında mübariz istəməkdir. Bəziləri onu kənarda tapmağa çalışdılar. Bu mədəni-ideoloji hücum təkcə zahiri fenomenlərə xas deyil. Dünyada bir mədəni toplum neftə, veto hüququna, kimyəvi və bioloji silahlara, atom bombasına və siyasi qüdrətinə arxalanaraq, istədiyi bütün inam və əqidələri başqa ölkə və xalqlara sırıyır.

Odur ki, bir ölkə bəzən tərcümə təfəkkürünə məruz qalır, düşünəndə də tərcümə ilə düşünür və başqalarının düşüncəsinin məhsulunu alır; əlbəttə, orijinal məhsulları yox, qüvvədən düşmüş, təhrif olunmuş və sıradan çıxmış məhsulları. Onlar belə məhsulları başqa xalqlara lazım bilir, təbliğat yolu ilə onlara yeridir və yeni fikir adı ilə qarşılarına qoyurlar. Bu, bir xalq üçün hər bir müsibətdən böyük və ağırdır.[802]

### Yerli elm istehsalı məqsədi ilə Qərb elmini öyrənmək

Əgər bu gün kimlərsə elm və texnologiya öyrənmək bəhanəsi ilə Qərbdən asılılıq şüarı versələr, bu, irticaçı bir şüardır, gerilikdir. Bir gücdən asılı olmaq bir xalq üçün iftixar deyil. Amma elmi öyrənmək lazımdır. Təhsil məqsədilə ölkədən xaricə hicrət edən tələbələrə həmişəki tövsiyəm budur ki, özünüz üçün bacardığınız qədər elmi ehtiyat toplayın və başqalarından öyrənin. İnsan lazım olduqda şagirdlik etməli və öyrənməlidir. Lakin mühüm məsələ budur ki, bir xalq və gənc nəsil bilsin ki, həmişə şagird qalmamalı, elm istehsalı üçün başqalarına əl açmamalı, özü istehsal etməlidir. Bu imkanlardan sözügedən məqsəd üçün istifadə edin.[803]

### Qərbin qəti elmi məsələlərinə şübhə ilə yanaşmaq

---

[802] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

[803] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsilə görüşdə çıxışından: 2002.

Bizim müəllim və tələbələrimizin mütəfəkkir beyinləri Qərbdən gələn və bəzilərinin nəzərində Allah vəhyi hesab olunan, azacıq şübhə edilməsi mümkün olmayan hüquqi, ictimai və siyasi məfhumları müxtəlif elmlərin böyük tədqiqat mərkəzlərində çək-çevir etməli, onların qarşısında sual qoymalıdırlar. Bu mütləqçiliyi sındırmaq və yeni yollar tapmaq lazımdır; həm onlar istifadə etsinlər, həm də bəşəriyyətə təklif olunsun. Bu gün ölkəmizin buna ehtiyacı var. Bu gün ölkəmizin universitetdən belə bir gözləntisi var. Universitet gərək universal və dərin bir Proqramlaşdırma hərəkatını ölkənin və xalqın ixtiyarında qoysun, iş və əmək sahibləri özümüzdən olan elmi yeniliklərlə İslam dəyərlərinə və din təfəkkürünə söykənən ədalətli və inkişaf etmiş bir cəmiyyətin bünovrəsini möhkəmləndirsinlər. Bu gün ölkəmiz universitetdən məhz bunu gözləyir.[804]

**Elmin ixracı dövrünə qayıtmaq**

Bir ölkənin ən böyük problemi budur ki, öz sivilizasiyasını və kimliyini unutsun. Biz bu gün öz sivilizasiyamızı qurmaq barədə düşünməli və bunun mümkün olduğuna inanmalıyıq. Keçmişdə iranlının bacarıqsız və qərblilərin bacarıqlı olmasını o qədər şişirdiblər ki, bu gün kimsə "biz elə edək ki, qərblilər bizim elmimizə möhtac olsunlar" - deyəndə qəlblərdə bir inamsızlıq yaranır: Məgər belə bir şey mümkündür?!

Bəli, mən deyirəm ki, mümkündür. Siz çalışın əlli ildən sonra belə olsun. Düzdür, bu məsələlər qısa müddətdə baş vermir. Amma siz bu gün düzgün yola qədəm qoysanız, heç eybi yoxdur ki, əlli ildən sonra bu gün birtərəfli olan və bir tərəfdən digər tərəfə gedən elm magistralının istiqaməti ya iki tərəfli olsun, ya birtərəfli olub bu tərəfdən o tərəfə getsin. Bunun nə eybi var?! Məgər bir zaman belə deyildi?! Bir zaman qərblilər elmi Şərqdən və bizdən öyrəndilər. Bu gün dünyada geniş yayılmış bir çox elmlərin əsasını iranlılar qoymuşlar. Riyaziyyatın, fizikanın, tibbin, astronomiyanın və digər çoxlu elmlərin əsasını iranlılar qoyublar. Ümumiyyətlə, Avropa renessansı İslam ölkələrində baş verən tərcümələr

---

[804] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

əsasında həyata keçdi. Biz İranın bir zaman elmin istehsalçısı olacağını gözləyə bilərik.

Bu gün bizim işimiz ancaq budur ki, elmi və texnoloji nailiyyətləri onlardan öyrənək və burada yamsılayaq. Bu, bir xalqın iradə göstərməli olduğu iş deyil. Sözsüz ki, bu işlər görülməlidir və başqa çarə yoxdur. İnsanda bir şey olmayanda olandan alır; düzəltməyi bilmədikdə biləndən öyrənir. Buna şübhə yoxdur. Amma yeni yolu, yeni düşüncəni və dalan açmağı qarşımıza məqsəd qoymalıyıq.[805]

**Sırf tərcümə elminin nöqsanı**

Sırf tərcümə elmi yaxşı deyil, bir vasitə ola bilər. Tərcümə elmi və mədəniyyəti, tərcümə sistemləri və üsulları düzgün deyil. Bu mövzular müəllimlərin iclasında da deyildi. Mən deyirəm ki, biz istedadlı bir xalq kimi elm yaratmalıyıq və bunu bacarırıq. Elm yaradan şəxslər nə istedad, nə də tarixi elmi nailiyyətlər baxımından bizdən irəlidə olublar. Buna görə, bizim xalqımız bacarar. Bu, universitetlərdən ümumi bir istəkdir, inşallah hamı buna diqqət yetirsin.

Biz tələbələrin hər birindən elm istehsalı gözləmirik. Ümumiyyətlə, bu məsələ bu şəkildə fərdi məsələ deyil, bəlkə də hamının elm istehsalına gücü çatmır. Bu, ümumi bir tələb kimi ortaya qoyulmalı və universitetdə ənənəyə çevrilməlidir ki, biz həmişə başqalarının əldə etdiklərini öyrənmək fikrində olmayaq. Onların vasitəsilə əldə edilən nailiyyətləri artırmaq üçün də ciddi çalışmalıyıq.[806]

**Humanitar elmlərdə Qərb formullarına tabe olmağın nöqsanı**

Elm istehsalı təkcə fundamental, təcrübi və sair elmlərə aid deyil, bütün elmlərə, həmçinin humanitar elmlərə aiddir. Biz gözlənildiyinin əksinə olaraq, xüsusən humanitar elmlərdə lazımınca hərəkət etməmişik. Bu elmin iqtisadi, sosioloji, psixoloji, yaxud politoloji sahələrinə aid müxtəlif məfhumları Qərbdə olan elm mərkəzlərindən ilahi vəhy

---

[805] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışından: 2002.

[806] Şəhid Behişti Universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2003.

formasında alıb, dəyişməz formullar kimi beyinlərmizə yerləşdirmişik; onların əsasında işləmək və proqramlarımızı tənzim etmək istəyirik. Bəzən bu formullar uyğun gəlmir, işimizi ləngidir. Bizsə özümüzü qınayırıq ki, onları düzgün işlətməmişik. Halbuki üslub yanlışdır. Bizim humanitar elmlərdə tədqiqata və yeniliyə ehtiyacımız var. Hüquq, iqtisadiyyat, politologiya və humanitar elmlərin digər köklü sahələrini formalaşdıran və istehsal edən əsas maddə və məfhumlar, bizim dərin və zəngin İslam maarifimizdə sözün həqiqi mənasında mövcuddur. Ondan istifadə etmək lazımdır. Əlbəttə, bu sahədə hövzə, İslama mömin və etiqadlı müəllimlər araşdırma və tədqiqatla rol ifa edə bilərlər. Bura elə yerlərdəndir ki, biz elm istehsalına çatmalıyıq.[807]

**Tərcümə və təhsil mərhələsindən yeniliyə və elm istehsalına doğru**

İkinci məsələ budur ki, bəzi dostların işarə vurduğu kimi, mən bir neçə ildir ölkənin elmi arenasında Proqramlaşdırma hərəkatı məsələsini irəli sürmüşəm. Bu nə deməkdir? Yəni biz öyrənməklə qane olmamalıyıq. Bizim tədqiqat və təhsilimizin məqsədi elmin istehsalı olmalıdır; yəni bəşərin indiki elmi yeniliklərinin başlandığı yerə çatmaq. İstedad baxımından dünyada elmi istehsal edən, genişləndirən, inkişaf etdirən və elm əsasında mürəkkəb texnologiyalar yaradan şəxslərə nisbətən bizim çatışmazlığımız yoxdur. Əlbəttə, elm istehsalının mənası bu deyil ki, biz tərcüməni və öyrənməyi inkar edək. Xeyr, o da lazımdır. Mən demək istəyirəm ki, tərcümə və təhsildə dayanmamalıyıq.[808]

**Tərcümə elmi və düşüncəsi qarşısında qorxmağın eybi**

Mən bir neçə ildir təkrarlayıram ki, təcrübə və tərcümə sahəsində, tərcümə elmində, hətta tərcümə fikrində, tərcümə ideyasında, məktəbində, ideologiyasında, iqtisadiyyatında və siyasətində həmişəlik qalmamalıyıq. Bu şüar ondan ötrüdür ki, insanın öz ağlından, düşüncəsindən, təhlilindən

---

807 Ölkə üzrə universitet müəllimləri ilə görüşdə çıxışından: 2003.

808 Yenə orada.

istifadə etməməsi, gözünü yumması və ona sırınan təbliğatdan qorxub bir sözü qəbul etməsi eyibdir.[809]

**Tərcümə ilə kifayətlənməmək və elm istehsalının zəruriliyi**

Biz elm və maarifin genişləndirilməsini düşünürük və bu yolda çoxlu inkişaf etmişik. Biz düşünürük ki, İslam dünyası malik olduğu mədəni və elmi keçmişi və dərin kökü ilə elmdə çox iri addımlar ata bilər. İslam dünyasını qəsdən elmdən uzaq saxlayıblar. Biz öz gənclərimizə və alimlərimizə tövsiyə etdik ki, elmi istehsal etsinlər. Düzdür, elmi elmli olanlardan öyrənmək lazımdır, amma həmin həddə dayanmaq olmaz. Biz düşünürük ki, elmin tərcüməsi ilə kifayətləməməli və onu istehsal etməliyik. Bizim gənclərimiz bu işə başlamış və bir çox sahələrdə çox böyük uğurlar əldə etmişlər. Biz bu işi davam etdirəcəyik.[810]

**Elm istehsalı və yaradıcılıq üçün çalışmaq**

Tərcümə etmək bizə yaraşmaz. Biz tərcüməyə qarşı çıxmırıq. Tərcümə digərlərinin elmlərinə bacadır və çox yaxşı bir şeydir. Amma əsas iş istehsal və yaradıcılıq olmalıdır, borc almaq, digərlərinin düzəltdiklərini gətirmək yox. Biz hətta öz meyl, zövq, etiqad və ya siyasətlərimizə uyğun olaraq tərcümədə tənqidi işlər görsək də, yenə də öz istehsalımız olmayacaq. Bizim müəllif və sahibləri digərlərindən ibarət olan elmlərdə də belə bir iddiamız var. Biz bu gün universitetlərimizə deyirik ki, təkcə mədəniyyətimizə və keçmişimizə aid elmlərin deyil, əsasını, istehsalını digərlərindən aldığımız elmlərin də sərhədlərini yarın.[811]

**Elmin sıradan çıxdıqdan, köhnəldikdən sonra öyrədilməsi**

Bu elmlərin çoxunun qapıları bizim kimi ölkələrin üzünə bağlıdır. Elmin köçürülməsinə yalnız köhnəldikdən, işləndikdən və təravətini itirdikdən sonra icazə verirlər. Əlbəttə, bütün sahələrdə belədir. Humanitar elmlərdə də belədir. Mən ölkənin iqtisadiyyat və müxtəlif idarəçilikləri

---

[809] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.
[810] "İslam dünyası" konfransının iştirakçıları ilə görüşdə çıxışından: 2003.
[811] Böyük İslam Ensiklopediyası Fondunun Elmi Şurasının üzvləri və Rəyasət Heyəti ilə görüşdə çıxışından: 2004.

sahəsində işləyən dostlar buraya gələndə dedim ki, bəziləri bu gün artıq qüvvədən düşmüş məsələlərlə məşğul olurlar. İndi daha üstün nəzəriyyələr meydana çıxmış, icra olunmuşdur, onların sözünə vurğun olanlar buradakıların bəziləri isə indi ortaya qoyurlar. Bəziləri deyirlər ki, Allah-Taala qarşısında bəndəliyiniz olmasın, amma özləri Qərbə, Avropaya, Amerikaya bəndəlik edirlər.[812]

**Yeni elmlərdə Qərbin qüvvədən düşmüş nəzəriyyələrini yamsılamaq**

Əlbəttə, fəsad və pozğunluq da mədəni-ideoloji hücumun şaxələrindəndir. Lakin daha böyük hücum odur ki, onlar uzun illər iranlı beyninə və inamına yeridiblər ki, sən bacarmırsan, sən Qərbin və Avropanın arxasınca getməlisən. Bizi özümüzə inanmağa qoymurlar. Əgər siz bu gün humanitar elmlərdə, təbiət elmlərində, fizikada, riyaziyyatda və ya başqa bir elmdə bir nəzəriyyə yürütsəniz və bu nəzəriyyə dünyanın məşhur nəzəriyyələrinə zidd olsa, bəziləri ona qarşı çıxıb deyəcəklər ki, sizin iqtisadiyyatda filan sözünüz filan nəzəriyyənin ziddinədir; sizin psixologiyadakı sözünüz filan şəxsin nəzəriyyəsinə müxalifdir. Yəni möminlərin Qurana və ilahi vəhyə inandığı kimi, bunlar da hansısa bir avropalı alimin nəzəriyyəsinə etiqad bəsləyirlər. Maraqlıdır ki, bəzən bu nəzəriyyələr köhnəlib sıradan çıxır, yerinə təzə nəzəriyyələr gəlir, amma bunlar 50 il qabaqkı nəzəriyyələri müqəddəs mətn və bir din kimi qoruyub saxlayırlar. On illərdir Popperin siyasi və ictimai nəzəriyyələri köhnəlib sıradan çıxıb, Avropada onun əleyhinə onlarla kitab yazılıb. Amma son zamanlar bəziləri peyda olub fəlsəfi dərk iddiası ilə onun nəzəriyyələrini yaymağa başlayıblar. Uzun illərdir dünyanın iqtisadi mərkəzlərinə hakim olan nəzəriyyələr sıradan çıxmış və yeni sözlər meydana çıxmışdır. Amma indi də bəziləri iqtisadi layihə həyata keçirmək istəyəndə köhnəlmiş nəzəriyyələrə baxırlar. Bunların iki eybi var: biri budur ki, təqlid edirlər, ikincisi budur ki, yeni dəyişikliklərdən xəbərləri yoxdur. Vaxtilə onlar üçün tədris olunan mətni müqəddəs kitab kimi beyinlərinə yeridiblər və

---

[812] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışından: 2004.

indi bizim cavanlarımıza ötürürlər. Bizim ölkəmiz fəlsəfənin beşiyidir, amma onlar fəlsəfəni düşünmək üşün başqalarına müraciət erdirlər.[813]

**Tabeçilik və təqlidçilik yerinə yeni elmlərin tənqidi**

Dünyada araşdırmağa, şərhə və tənqidə qabiliyyətli çoxlu nəzəriyyələr var; istər fəlsəfədə, istər yeni humanitar elmlərdə, məsələn, sosiologiyada və digər elmlərdə. Lakin müstəmləkə və asılılıq mədəniyyətinin uzun hökmranlığı dövründə bizi alışdırıblar ki, Qərbdən gələn hər bir söz bütün sahələrdə qəti və etibarlı olsun və onu sənəd kimi qəbul edək. Onlar tarixdə, təbii, humanitar elmlərdə və bizdə qədim kökləri olan fiqh və hüquqda danışır, biz onlara istinad edirik. Və bu, vərdiş halını alıb. Bu gün dünyadan gələn sözlərin tənqidi, şərhi və tədqiqi üçün geniş bir qapı açılmalıdır. Tənqid rədd etmək demək deyil; ola bilsin biz çoxlu sözləri qəbul edər, bəyənər və onlardan istifadə edərik. Biz istifadə yolunu üzümə bağlamırıq. Lakin istifadə etmək bir məsələdir, gözübağlı təslim olmaq və yamsılamaq başqa məsələ. Biz öz cəmiyyətimiz üçün bunu istəməməli və bəyənməməliyik.[814]

**Yerli elm istehsalı üçün sərmayə qoymaq**

Cəmiyyətdə elm uca tutulduqda, insanların daxili istedadı çağladıqda elm yerliləşir. Elm üçün sərmayə qoyuluşu bu məqsədlə olmalıdır. Başqalarının öz elmi nailiyyətlərini, formul və nəzəriyyələrini öyrətmələri, öyrənənlərin də dərinliyə varmadan öyrənmələri heç bir ölkənin inkişafına kömək etməz; nə bizim, nə də başqa ölkənin.[815]

**Ölkədə elmi iş üfüqü**

Biz elmi harada görsək, öyrənəcəyik. Biz başqalarının şagirdi olmaqdan utanmırıq, amma həmişə şagird qalmağı eyib bilirik. Şagirdlik

---

[813] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışından: 2004.

[814] "İslam mədəniyyəti və düşüncəsi" Tədqiqat Mərkəzinin üzvləri ilə görüşdə çıxışından: 2004.

[815] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışından: 2004.

edib elmi öyrənir, amma ona əlavələr edirik. Ölkəmizdə elmi işin məqsədi və üfüqü budur.[816]

**Elm və inkişaf məsələsində üç fikir tərzi**

Bəziləri inkişafı, tərəqqini, elm inkişafını, rəqabəti, azadfikirliliyi və bu kimi məsələləri sevirlər, amma yolunu Qərb nümunələrini mütləq şəkildə yamsılamaqda axtarırlar. Belə düşünürlər ki, bizdən qabaq gedənlərin yolu ilə getməlidirlər. Bu yolu gedənlər kimlərdir? Hələlik bugünkü dünyada olan azlıq, yəni Qərb ölkələri - Avropa, Amerika Birləşmiş Ştatları və digər inkişaf etmiş ölkələr. Mən sonra qayıdıb bu hissəni daha artıq izah edəcəyəm.

Bəziləri də özünü özündə axtaran şəxslərdir. Bunlar düşünürlər ki, İran xalqında və bir ayıq gəncin əlində olan düşüncə, məlumat və proqramlar içərisində o örnəyə çatmaq üçün kifayət qədər yol vardır. Bunlar az deyillər. Mən beləəri ilə çox rastlaşmış və tanış olmuşam. Amalçılıq sahəsində qeyd etdiyim çeşidli və müxtəlif baxışlar mövcuddur.

İlk iki qrupdan keçirik. Çıxış yolunu Qərbi mütləq şəkildə yamsılamaqda görən üçüncü qrupun fikri diqqətəlayiqdir. Siz gənclər bu sahədə doğrudan da düşünməli və işləməlisiniz. Mən bir cümlədə sizə deyim ki, Qərb təcrübəsi uğursuz bir təcrübədir.[817]

**Elm istehsalı məqsədi ilə digərlərindən öyrənmək**

Mən bir dəfə başqa bir tələbə toplantısında dedim ki, elmi qərblilərdən, avropalılardan öyrənməyi eyib bilmirik, amma həmişə şagird qalmağı eyib bilirik. Şagirdlik edirik ki, öz istedadlarımızı yetişdirək və daxildən yaradaq. Biz bir hovuz kimi olmaq istəmirik ki, bizə su töksünlər, istədikləri vaxt da suyu çəksinlər, yaxud suyun əldə edilməsinə icazə verməsinlər, yaxud bu hovuza hər bir çirkli suyu töksünlər. Biz çağlar bulaq kimi olmaq istəyirik: özümüz çağlayaq, istedadlarımız işə salaq. Mən hər bir sahədə bu istedadların işlədilməsini mümkün bilirəm. Xalq təkcə atom enerjisinin inkişafı haqda məlumatlıdır və bu sahədə nə baş verdiyini

---

[816] Sərçeşmə misi kompleksinin əməkdaşları ilə görüşdə çıxışından: 2005.
[817] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

bilir. Başqa bir nümunəsi xaricilərin heyrətinə səbəb olan kök hüceyrələr məsələsidir. Digər nümunələr də çoxdur.[818]

**Ölkənin inkişafı üçün elmi və yerli nüsxələrdən istifadə**

Elmi üsullardan istifadə vacib işdir. Əlbəttə, elmi əksəriyyəti qüvvədən düşdükdən sonra idxal edilən nüsxələrlə səhv salmaq olmaz; istər iqtisadiyyatda, istər mədəni, istər digər sahələrdə. Bəziləri qərblilərin sıradan çıxmış nüsxələrini özümüzə çıxış yolu hesab etməyimizi sevirlər. Xeyr, inkişaf etmiş üsullar, yeni metodlar, iranlı dərkinə və ehtiyacına güvənmək, elmdən istifadə, ölkənin daxili ehtiyac və tələblərinə diqqət bizə düzgün yolu göstərə və bizi inkişaf etdirə bilər. Biz elmi hərəkətimizə ciddi yanaşmalı, elm, sənaye və texnologiyanın birləşdirilməsi üçün işləməliyik. İmkanların ədalətli bölgü üsullarını tapmağa çalışmalı və bu barədə fikirləşməliyik. Ən yaxşı, ən asan və ən praktik üsulları seçib ciddi şəkildə işə girişməliyik.[819]

**Süzgəcdən keçirməklə Qərbin humanitar elmlərindən istifadə**

Şübhə yoxdur ki, humanitar elmlərin bir çoxunun burada, yəni bizim öz mədəniyyətimizdə möhkəm kökləri vardır. Bəzi humanitar elmlər də Qərbin istehsal etdiyidir, yəni bir elm kimi mövcud olmamışdır. Lakin elm dünyasında inkişaf etmiş qərblilər bunları da vücuda gətirmişlər; misal üçün, psixologiya və digər elmlər. Çox gözəl, biz həm özümüzdə olanları bir yerə yığmaqda, yazmaqda, nizama salmaqda bir elmi təfəkkürə və təcrübəyə ehtiyaclıyıq, həm də onların bu elmdə topladığı bilgi və əsaslar üçün bir elmi baxışa. Lakin bizim qəbul etdiyimiz çərçivədən xaricdəki bir toplumun elmi əsaslarını götürmək onun nəticələrini qəbul etmək demək deyil. Sanki siz bir zavodu idxal edirsiniz; onlar bu zavodda pis bir şey düzəldirdilər, siz isə yaxşı şey düzəldin, heç eybi yoxdur. Əgər o elmlər qarşısında məğlub olmaq, özünü itirmək, onlara vurulmaq olmasa, biz Qərbin humanitar elmləri ilə İslamın humanitar elmləri arasında

---

[818] Yenə orada.

[819] Doktor Mahmud Əhmədi nejadın Tənfiz (prezidentliyin təsdiqi) mərasimində çıxışından: 2005.

uyğunlaşdırmanı qəbul edirik. Bunun eybi yoxdur. Görün sizin inanclarınız, dərin və zəngin irsiniz humanitar elmlər barədə sizə nə deyir.[820]

**Yerli humanitar elmlərin istehsalı**

Bu gün qərblilər humanitar elmlərdə qadağan olunmuş zona yaratmışlar; iqtisadiyyatdan, siyasətdən, politologiyadan, sosiologiyadan və psixologiyadan tutmuş tarixə, ədəbiyyata, incəsənətə, hətta fəlsəfəyə və din fəlsəfəsinə qədər bütün sahələrdə. Bir qrup iradəsiz adam da özlərini itirib bunların ağzına baxırlar ki, görsünlər nə deyirlər. Onlar nə desə, bunlar üçün Quran sözü olur. Bu, səhv və pisdir. Misal üçün, dünyanın bir nöqtəsində elmi inkişafa malik bir neçə düşüncə bir nəticəyə gəlmişdir. Bunun mənası o deyil ki, onlar nə düşünmüşlərsə, düzgündür. Siz öz əsaslarınıza baxın. Tarixin, fəlsəfənin, din fəlsəfəsinin, incəsənət və ədəbiyyatın, hətta başqalarının elm şəklinə saldığı digər humanitar sahələrin elmi məsələləri də bizim öz mədəniyyətimizdə, elmi, mədəni və dini irsimizdə mövcuddur. Belə bir müstəqil bina qurmalıyıq.[821]

**Humanitar elmlərdə Qərb nəzəriyyələrini yamsılamağın zərəri**

Qeyd etdiyim kimi, elə müəllimlər var ki, Qərbin humanitar elmlərdə düşüncə məhsullarını bütə çevirmişlər. Deyirlər ki, Allah qarşısında səcdə etməyin, amma bu bütlər qarşısında asanlıqla səcdə edirlər. Gənc tələbəni ona tapşırsan, düşüncə sistemini öz bütünə uyğun şəklə salar. Bunun dəyəri yoxdur və düzgün də deyil. Mən belə şəxslərə əsla güvənmirəm. Bu müəllim nə qədər alim olsa da, faydalı deyil, zərərlidir.

Bu gün xoşbəxtlikdən, bizdə mömin, gənc və imanlı alimlər var. Onlar humanitar elmlərdə sözün həqiqi mənasında geniş elmi islahat apara bilərlər. Onlardan istifadə olunmalıdır. Ehtiyatlı olun ki, sözügedən bütpərəstliyə düçar olmayasınız. Fəlsəfədə, iqtisadiyyatda, ictimai əlaqələrdə və siyasətdə bir qərbli mütəfəkkirin ağzından çıxmış bir sözü qəti dəlil bilənlər var; bəzən o söz Qərbin özündə qüvvədən düşür. Belə

---

[820] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.
[821] Yenə orada.

nümunələr çoxdur. Bir məsələni 40-50 il bundan əvvəl Qərbdə bir ictimai, yaxud siyasi filosof deyib, ondan sonra ona qarşı on tənqidi məqalə yazmışlar. Bu cənab isə 50 il qabaqkı sözü indi görüb yeni nəzəriyyə kimi ölkəyə gətirir və bəh-bəhlə tələbəyə, şagirdə, öz çevrəsinə verir. Belə nümunələr də var.

Qərbin həmin iqtisadi nəzəriyyələri əsasında Dünya Bankı və Beynəlxalq Valyuta Mərkəzləri xalq və dövlətlərə nə qədər proqramlar verdilər və qərblilərin özləri tərəfindən onların əleyhinə nə qədər tənqidi məqalələr yazıldı! Yenə də bizdə elə şəxslər var ki, həmin tövsiyələri eynilə təkrar edir və yazırlar. Bu, səhvdir. Elmi tədqiqat təkcə öyrənmək və təqlid etmək deyil. Tədqiqat təqlidin əksinədir. Bu sizin işinizdir.[822]

**Elmi tərcüməçiliyin məzəmmət olunması**

Təqlidçilik, təqlidin yayılması və inkişaf etməsi inkişaf deyil. İqtisadiyyatı asılı, elmi təqlidçi etmək, universitetdə tərcüməçilik, yəni sərhədlərin o tərəfinin, Qərb və Avropa ölkələrinin dediklərini tərcümə etmək, kim danışsa, elmə zidd danışdığını demək inkişaf deyil. Biz bunu inkişaf bimirik. Tərcüməni rədd etmirik. Mən bunu universitet toplantılarında dəfələrlə demişəm. Xeyr, tərcümə və digərlərindən öyrənmək yaxşıdır, amma tərcümə edirik ki, özümüz yarada bilək; ayrılarının sözünü anlayaq ki, beynimizə yenisi gəlsin, nəinki həmişə digərlərinin köhnə sözü üzərində qalaq. Hansısa qərbli yazıçı, filosof və ya filosofnüma 50-60 il bundan öncə ictimai məsələlər barədə bir söz deyib, indi bir cənab universitetdə ağzını qürurla açıb onu yeni söz kimi tələbəyə söyləyir. Bu, inkişaf deyil, geriləmədir. Milli dili məhv etmək, dini-milli kimliyi qüvvədən salmaq, model düzəltmək əvəzinə modelbazlıq etmək inkişaf deyil. Biz asılılığı və qərbləşməyi inkişaf bilmirik.[823]

**Dünyanın elmi təcrübələrindən istifadə və yerli formulların istehsalı**

---

[822] Yenə orada.
[823] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2006.

Proqramlaşdırma, elm və tədqiqat mərkəzlərində çalışanlar iqtisadiyyat, siyasət, beynəlxalq siyasət və ölkənin digər həyati məsələləri üzərində işləməli və düşünməlidirlər, Qərb düsturlarını, Qərbin, Dünya Bankının, yaxud Beynəlxalq Valyuta Fondunun iqtisadi formullarını ölkədə tətbiq etməyi düşünməməlidirlər. Xeyr, o nəzəriyyələr bizim üçün faydalı deyil. Əlbəttə, elmlərindən istifadə edərik, bizim təəssübkeşliyimiz yoxdur. Harada elmi inkişaf və təcrübə olsa, istifadə edərik, materiallardan istifadə edərik, amma planı öz düşüncəmizə və ehtiyacımıza uyğun tərzdə hazırlamalıyıq.[824]

**Elmin geniş və qeyri-inhisari əhatəsi**

Elmin geniş dairəsi var, inhisarda ola bilməz. Biz fərz edə bilmərik ki, bir qrup ölkə, yaxud xalqların alimləri elmi istehsal etməlidirlər, elm üçün yeni sərhədlər təyin etməlidirlər, bir qədər özləri istifadə etməli, artığını da digərlərinə verməlidirlər. Belə olmaz. Bu nisbətin, belə iş formasının mənası bəzi ölkələrin həmişə geridə qalması, ölkələr arasında zalım əlaqənin - birinci, ikinci, üçüncü dünya söhbətlərinin, şimal-cənub söhbətlərinin davam etməsidir.

Bütün insanların tədqiqat və alimlik bacarığı var. Əlbəttə, istedadlar müxtəlifdir, lakin elə bir ölkə yoxdur ki, orada insanların elmin geniş dairəsində potensial olaraq özləri üçün bir yer tutmaq və rol ifa etmək bacarığı olmasın.[825]

**Humanitar elmlərə diqqət və onların Qurandakı zərif işarələrini axtarmaq**

Son olaraq bir məqama da toxunmaq istəyirəm. O da budur ki, mən dəfələrlə humanitar elmlərdən ötrü universitet mənsublarından gileylənmişəm. Bizim humanitar elmlərimiz Quran və İslamla ziddiyyət təşkil edən əsaslar üzərində qurulmuşdur. Qərbin humanitar elmləri başqa dünyagörüşə, yaranış barədə başqa bir dərkə və çox zaman materialist baxışa əsaslanır. Bu baxış yanlışdır, bu əsas səhvdir. Biz humanitar elmləri

---

[824] Məşhədin Firdovsi Universitetində tələbələrlə görüşdə çıxışından: 2007.
[825] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışından: 2007.

tərcümə edib heç bir İslam tədqiqatına icazə vermədən universitetlərimizə gətirir və müxtəlif sahələrdə öyrədirik. Halbuki humanitar elmlərin kökünü və əsasını Quranda axtarmaq lazımdır.

Quran tədqiqatlarının mühüm sahələrindən biri budur. Müxtəlif sahələrdə Quranın incə məqamlarına diqqət yetirmək, humanitar elmlərin əsaslarını Qurani-kərimdə axtarmaq və tapmaq lazımdır. Bu çox əsaslı və mühüm bir işdir. Əgər baş tutsa, o zaman humanitar elmlərin mütəfəkkir, araşdırmaçı və mütəxəssisləri bu təməl və əsas üzərində böyük elmi işlər görə bilərlər. Sözsüz ki, o zaman digərlərinin, qərblilərin və humanitar elmlərdə inkişaf etmiş şəxslərin inkişaflarından da istifadə edə bilərlər, lakin əsas Quran olmalıdır.[826]

**Elmi hərəkətdə müstəqiliyyə diqqət**

İşlərin biri budur. Bəzi şəxslər Qərb bazarlarının fərz edin, rəssamlıq tablosuna ehtiyacını öyrənir, sonra buraya gəlir, maliyyə yardımı alır və bizim rəssamımızı o ehtiyacı təmin etməyə sövq edirlər. Bu məsələ eynilə film sahəsində, bizim elmi işlərimizdə, ISI-də çap olunan məqalələrdə, sizin tədqiqat mərkəzində işlədiyiniz tədqiqat mövzusunda da belədir. Bu gün təəssüf ki, geniş yayılmış Avropa sözü ilə desək, sponsorlar müxtəlif sahələrə maliyyə kömələri, maddi yardım və ianələr ayırır və istədikləri istiqamətdə iş gördürürlər. Buna diqqət yetirin. Ölkənin elmi müstəqilliyinə lazım olanlardan biri budur: elm, incəsənət hərəkəti və təbii ki, həm də siyasi hərəkət müstəqilliyi. Bəzi siyasi hərəkətlər də belədir.[827]

---

[826] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.
[827] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışından: 2009.

## Yeddinci bölmə: Müxtəlif məsələlər

### Birinci fəsil: Qadınlar və elm

**Qadınların elm və bilgidən uzaq saxlanması**

Bizim cəmiyyətimizdə acı bir həqiqət var. Qadınlara dair acı həqiqət budur ki, ötən əsrlər ərzində və hətta təlim-tərbiyənin Avropadan yeni üsulla İrana daxil olduğu və yamsılandığı dövrdə də qadınlar elmə sarı hərəkətdə kişilərdən uzaq saxlandılar və məhrum qaldılar. Sözsüz ki, bu, inqilabın qələbəsindən öncəyə aiddir və indiki vəziyyətimizə dəxli yoxdur. Lakin keçmiş dövrün acı təsirləri təəssüf ki, hələ də qalır. Əlbəttə, bir qədəri təəssübkeşliklərin, cəhalətlərin və bilməzliklərin təqsiridir. Lakin Avropa təlim-tərbiyə sisteminin ölkəmizə daxil olduğu zamandan qadınların təhsildən uzaq qalmasının əsas təqsirkarı zorla idxal olunan həmin mədəniyyətdən təsirlənən xəbis siyasətlər olmuşdur. Mömin ailələr qızlarını elm öyrənmək üçün məktəblərə, universitetlərə və o zaman mövcud olan elmi-mədəni mərkəzlərə göndərməyə həqiqətən cürət etmirdilər. Və bunda haqlı idilər.

Əgər keçən nəslin və Pəhləvilər dövründən bu yana, hətta əcnəbi mədəniyyətinin ölkəmizə daxil olduğu bir qədər qabaqkı nəsillərin qızlarının maarifdən, elmdən, məlumatdan, təhsildən və hətta dövrlərinin bir çox nəşriyyə və mətbuatından məhrum və geri qalmasını görürüksə, günahı qadınların iştirak etdiyi elmi-mədəni mühitləri bulaşdıranların boynuna düşür. Belə ki, müsəlman ailə və ata öz namusunu - həyat yoldaşını və qızını elə mühitlərə göndərməyə cürət etmirdi.

Bizim bu geriliklərimiz var. Əlbəttə, ondan öncə də qızların təlim-tərbiyəsinə əhəmiyyət vermirdilər; məktəbə gedib dərs oxuyan qızlar oğlanlar qədər deyildi, atalar bu barədə düşünmürdülər. Bəzi dövrlərdə geniş yayılmış təəssübkeşliklər yanlış idi və bəzən ehtiyat edirdilər.

Danışan dinlərin, düşünən və fəal beyinlərin düzgün İslam maarifini bəyan etməyə başladığı zaman da həmin şəraitə görə qızlar düzgün və dərin təbliğatdan bir qədər kənarda qaldılar. O zaman beş yüz tələbə bizim sözlərimizdən qeydlər götürürdüsə, beşdə biri də qız deyildi. Bunun

günahı onların boynuna düşür. Çünki elə şərait yaratmışdılar ki, bundan başqa cür ola bilməzdi. Rza xan, oğlu və ondan qabaqkılar kimlər idilər? Bir qrup savadsız, mədəniyyətsiz, mərifətsiz insanlar, zorla hakimiyyətə gəlmiş quldurlar, yaxud dövrlərinin bilgilərindən uzaq ərköyün və məqsədsiz bəybalalar idilər. Onlar nə bilirdilər ki, mədəniyyət nədir, yaxud dini elmlər və həqiqi bilgilər nədir. Sağlam alimlərin, xeyirxahların və ziyalıların sözlərinə də qulaq asmırdılar. Nəticə baş verdi, o işlərin təsirləri uzun illər qaldı, cəmiyyətimiz və siz qadınlar bu gün də onların acısını çəkirsiniz. Təsiri budur ki, qadınlarımızın elmi və mədəni inkişafı kişilərdən azdır.[828]

**Qadınların zamanı tanıması onların elm və savadından başqa bir şeydir!**

Əlbəttə, elm və mədəniyyətin fədakarlığa və dövrün ehtiyaclarını anlamağa təsiri yoxdur. Necə ki, ölkəmizin qadınları savadlı və savadsız, təhsilli və təhsilsiz olmalarından asılı olmayaraq, məlumata, təhsilə və yüksək elmi dərkə ehtiyacları olmadan əl-ələ verib inqilab etdilər, müharibəni uddular, arxa cəbhəni saxladılar, ailələri İslam dəyərlərinin, İslam və inqilab eşqinin isti mərkəzinə çevirdilər. Eyni zamanda bu nöqsan vardır. Bizim qadınlarımız bilgi, mədəniyyət və elm sarıdan ümumilikdə kişilərdən geridədirlər. Düzdür, bizim təhsilli qadınlarımız arasında kişilərin çoxundan, bəlkə də bəzi sahələrdə bütün kişilərdən üstün və yüksək şəxsiyyətlərimiz var. Bunda şübhə yoxdur. Lakin siz o çatışmazlığı aradan qaldırmalısınız. Deməli, bu gün siz qadınların üzərinə iki səbəbdən böyük məsuliyyət düşür: biri bəlli təbliğatla və digəri mövcud acı reallıqla mübarizə.[829]

**Qərbin mütəxəssis qadınlarına dair rəqəmlərin şişirdilməsi**

Qərb dəyərləri qadın üçün həqiqi hörmət tanımır. Öz təbliğatlarında Qəbdə nə qədər qadın mütəxəssisin olduğunu göstərmək istədikdə də elə danışırlar ki, kimsə xəbərdar olmasa və statistikanı bilməsə, bütün qərbli

---

[828] Qadın Günü münasibəti ilə qadınlarla görüşdə çıxışından: 1994.
[829] Yenə orada.

xanımların ali təhsilli olduğunu, onların arasında savadsızın və ya az savadlının olmadığını güman edər. Halbuki belə deyil və onlar şişirdirlər.[830]

**Qadınların elmi və ictimai geriliklərini düzəltmək**

Çalışın elm və bilgi karvanını bir yolla hərəkətə gətirəsiniz. Qadınların elmini, ictimai və siyasi fəaliyyətlərini hərəkətə gətirin və elə inkişaf edin ki, keçmiş geriliklər düzəlsin.[831]

**Qadın şəxsiyyətini təkmilləşdirmək üçün elm və təqva**

Elm və din şəhəri olan müqəddəs Qum şəhərində siz hörmətli qadınlarla görüşmək mənim üçün böyük səadət və həmçinin çox yaxşı və ürəkaçan xatirədir. Alim və dəyərli qadınların, dini tələbələrin, müxtəlif fənlərdə təhsil alan universitet tələbələrinin və elmi-mədəni işlərdə çalışan qadınların iştirak etdiyi bu hörmətli auditoriya elm, bilgi və eyni zamanda uca İslam dəyərlərinə sadiqlik tərənnümüdür. Bu, bizim dövrümüz üçün yalnız ölkə səviyyəsində yox, hətta dünya səviyyəsində mənalı bir hadisə və bir örnəkdir.

Mənəviyyat və din düşmənləri cəmiyyətin bütün sahələrində apardıqları təbliğatlarında iddia edirlər ki, elmlə dini etiqad və mənəvi dəyərlər arasında uyğunsuzluq mövcuddur. Yəni elm və dini bir-biri ilə uzlaşmayan iki fenomen kimi tanıtdırır və hamısından çox qadının həyatı və şəxsiyyəti mövzusunda buna təkid edirlər. Mənəviyyatdan, dini və mənəviyyata aid elmdən bəhrəsi olmayan bir dünya belə göstərməyə çalışır ki, qadınlar elmə yiyələnmək istəsələr, dini dəyərlərə sadiq ola bilməzlər. Onlar öz təsirləri altında olan cəmiyyətləri belə idarə etmişlər.

Həm elm və həm mənəvi dəyərlər dini olan İslam dini bu puç və əbəs fikirlər üzərindən xətt çəkmişdir. Dünya qadınlarının sərvəri elə böyük qadındır ki, alim və mütəfəkkirlər düşünməli və onun müxtəlif sahələrdə dediyi dərin sözlərinin bir hissəsini dərk etməlidirlər. Amma eyni zamanda həmin şəxs ibadət mehrabında - Allah qarşısında təzim

---

[830] Yenə orada.

[831] Yenə orada.

məqamında mənəviyyat üçün müstəsna əməlini göstərmiş, gecəni səhərə qədər ibadət etmişdir. O, iffət və hicab örnəyi olmuşdur. Yəni qadının mənəviyyatı, paklığı və təqvası onun elmi ilə nəinki ziddiyyət təşkil etmir, hətta qadın şəxsiyyətini təkmil etmək üçün onlar bir-birinə kömək də edirlər.[832]

**Düzgün metodlarla dini elmlərə yiyələnməyin qadınlar üçün əhəmiyyəti**

Bu gün xoşbəxtlikdən, İslam quruluşu sayəsində ölkə qadınları bu istiqamətdə hərəkət edirlər; yəni bir tərəfdən elmi, ictimai, yaxud siyasi şəxsiyyətin və digər tərəfdən dini şəxsiyyətin və İslam dəyərlərinə diqqətin cəm olmasına sarı. Buna əsasən, bu gün ilahi və islami dəyərlərə sadiq mərkəzlərdə təhsil alan qadınlar və gənc qızlar dünya qadınlarına örnəkdirlər. Həmçinin burada iştirak edən siz möhtərəm xanımlar göstərirsiniz ki, qadınlar elm və bilgi yollarını keçib irəliləyə və eyni zamanda İslam dəyərlərini qoruya, dinə və iffətə sadiq qala bilərlər.

Bu bizim tariximizdə heç zaman geniş miqyasda mövcud olmamışdır. Odur ki, gənc qadınların diqqətəlayiq bir toplumunun dəlillə, elmi metodlara, düzgün və güclü mənbələrə arxalanmaqla din elmlərini və din maarifini öyrənmələri olduqca əhəmiyyətlidir.[833]

**Elm öyrənməkdə dinin cinsi ayrıseçkilik salmaması**

Mən ailələrə tövsiyə edirəm ki, qızlarının dərs oxumasına icazə versinlər. Bir ata, yaxud ana dini təəssübkeşlik üzündən qızının ali təhsilinin qarşısını almalı olduğunu düşünməsin. Xeyr, din belə bir söz deməyib. Din təhsil sahəsində qızla oğlan arasında fərq qoymur. Əgər sizin oğlunuz ali təhsil alırsa, qoyun qızınız da alsın. Qoyun bizim gənc qızlarımız dərs oxusunlar, elm öyrənsinlər, ayıqlıq əldə etsinlər, öz məqamlarına vaqif olsunlar, öz qədirlərini bilsinlər və qlobal

---

[832] Qum şəhərinin müsəllasında hövzə tələbəsi, elm və mədəniyyət işçisi olan qadınlarla görüşdə çıxışından: 1995.
[833] Yenə orada.

hegemonizmin qadına dair təbliğatının nə qədər əsassız, köksüz və puç olduğunu anlasınlar. Bunları savadla anlamaq olar.[834]

**Ən inqilabçı və ən pak qadınların ali təhsillilər arasında olması**

Bu gün bizim gənc qız və qadınlarımızın ən dindarları, ən inqilabçıları, ən pakları və ən imanlıları ali təhsillilər arasındadır. Bərbəzək düşkünü olanlar, yaxud geyimdə və həyat tərzində Qərb modellərini kor-koranə və gözübağlı yamsılayanlar adətən yetərli savadı və məlumatı olmayanlardır. Məlumatı olan şəxs öz rəftarını tənzim edə və onu haqq, həqiqət və yaxşı olanla uyğunlaşdıra bilər. Buna əsasən, elm işində bütün fəaliyyət yolları qadınların üzünə açıq olmalıdır. Qızlar hətta kəndlərdə də dərs oxusunlar. Mənim valideynlərə tövsiyəm budur ki, qız uşaqlarının məktəbə getmələrinə və savadlanmalarına imkan yaratsınlar. Əgər istedadları varsa və ibtidai mərhələlərdən sonra ali təhsil almaq istəyirlərsə, mane olmayın, qoyun bizim İslam cəmiyyətimizdə savadlı və məlumatlı insanlardan olsunlar.[835]

**Elmə və dinə diqqətin qadınların qəti vəzifələrindən olması**

Bu gün Allaha şükür olsun ki, ölkənin hər bir yerində universitet və elm hövzəsi var. Gənc qızlar elm hövzələrinin və universitetlərin müxtəlif fənlərində elm öyrənir, məlumat toplayırlar. Nə qədər ki, Allahın lütfü ilə bizim cəmiyyətimizdə çox olan belə həvəskar, məlumatlı, iradəli və sevgili gənc ruhlar var, hegemonizm, ABŞ və bu xalqın digər böyük-kiçik düşmənləri ölkəmizə qarşı heç bir qələt eləyə bilməyəcəklər. Əziz bacılarıma və qızlarıma tövsiyəm budur ki, məlumatlarınızı artırın. Mütaliə, diqqət, tədqiqat, dərs, günün aktual məsələləri və dini işlərlə məşğul olmaq qaçılmaz və qəti vəzifələrdəndir; bu gün ölkə qadınları özlərini bu işlərə kişilər qədər vəzifəli bilməlidirlər.[836]

**Qadınların istedadlarının çiçəklənməsi üçün şərait çatışmazlığı**

---

[834] Urmiya qadınları ilə görüşdə çıxışından: 1996.
[835] Yenə orada.
[836] Yenə orada.

Bəli, müsəlman cəmiyyətlərində və bizim cəmiyyətimizdə qadın hüquqlarının bərpası istiqamətində mütləq hərəkət etmək lazımdır; lakin İslam əsasında və İslami məqsədlə. Bəzi adamlar deməsinlər ki, məgər cəmiyyətimizdə qadının nəyi çatmır?! Təəssüf ki, bəzilərində belə düşüncə var. Bu, yaxıngörənlikdir. Qadın bütün cəmiyyətlərdə, o cümlədən bizim cəmiyyətimizdə zülmə və məcburən yaradılmış çatışmazlıqlara məruz qalmışdır. Bu çatışmazlıq özbaşınalıq mənasında olan azadlıq deyil, elm, bilgi, tərbiyə, əxlaq, inkişaf və istedadların çiçəklənməsi üçün imkan çatışmazlığıdır. Bunu təmin etmək lazımdır. Bu, İslamın təkid göstərdiyi bir məsələdir.[837]

**Qadınlarda elm və mənəviyyat inkişafının səmərələri**

Əgər İslam cəmiyyəti İslam örnəyinə, yəni Zəhra (ə), Zeynəb (ə) örnəyinə uyğun olan, dünyada və tarixdə təsir buraxacaq böyük qadınlar yetişdirə bilsə, qadın öz həqiqi və uca məqamına nail olar. Əgər qadın Allah-Taalanın və ilahi ayinin bütün insanlar - kişi və qadınlar üçün eyni səviyyədə nəzərdə tutduğu elmi, mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnsə, övladların tərbiyəsi daha yaxşı, ailə daha səmimi, daha gözəl olar, cəmiyyət daha yaxşı inkişaf edər, həyatın düyünləri daha asan açılar, qadın və kişi xoşbəxt olarlar. Bunun üçün çalışmaq lazımdır. Məqsəd budur.[838]

**Qadın istedadlarına qarşı zülm**

Qadını düzgün təhsildən, elm və bilgidən məhrum etmək zülmdür. Əgər qadın işin çoxluğuna və müxtəlif işlərin yaratdığı çətinliyə görə öz əxlaqı, dini və elmi ilə məşğul olmağa macal tapmasa, bu, zülmdür. Əgər qadının elmə, ixtira və kəşflərə, siyasi və ya ictimai işlərə istedadı varsa, lakin bu istedaddan istifadə etməyə, onları çiçəkləndirməyə qoymurlarsa, bu, zülmdür.[839]

**Mütaliəni ciddi saymaq**

---

[837] "Kövsər təvəllüdü" bayramı münasibəti ilə Azadlıq idman kompleksində qadınlarla görüşdə çıxışından: 1997.
[838] Yenə orada.
[839] Yenə orada.

Qadınların elmə, biliyə, mütaliəyə doğru hərəkəti onların özləri arasında ciddi sayılmalı, buna əhəmiyyətli yanaşmalıdırlar.[840]

**Qızların təhsilinə dair tövsiyə**

Bir məsələ də xanımların təlim-tərbiyə məsələsidir. Mən həmişə bunun üzərində dayanıram. Xoşbəxtlikdən, bu gün bizim cəmiyyətimizdə qadınların təlim-tərbiyəsi güclənmişdir. Amma eyni zamanda hələ də öz qızlarını təhsildən məhrum edən ailələr var. Əgər bir zaman təhsil mərkəzləri qeyri-sağlam idisə, bu gün Allaha şükür ki, İslam dövrüdür və elə deyil. Gərək qızların təhsilinə, mütaliəsinə, kitab oxumasına, din təlimləri və insani bilgilərlə tanış olmasına və beyinlərinin güclənməsinə icazə versinlər. Bu, çox vacib bir işdir.[841]

**Əks-təbliğatla mübarizədə tədqiqat işinin tələbi**

Xanımlar İslam hüququna dair bəzi haqlı fikirlər bildirdilər. İşləmək, araşdırmaq üçün çoxlu sahələr vardır. Bəzi qadınlar dedilər ki, biz əks-təbliğat sahəsində, o cümlədən feminizmə qarşı mübarizədə lazımınca, düzgün, güclü, yetərli və keyfiyyətli işlər görməmişik. Mən də bunu təsdiq edirəm. Mən tədqiqat mərkəzlərinə, universitetlərə, elm hövzələrinə və nəzər sahiblərinə buradan tövsiyə edir və onlardan tələb edirəm ki, bu sahədə işləsinlər. Məsələ mühüm məsələdir. Biz öz ölkəmizdə qadın məsələsi üzərində yaxşı işləsək, bu bütün dünya qadınlarına əsl xidmət olar. Bəzilərinin bu gün bu xidmətin dəyərini anlamamaları mümkündür. Bəziləri də illər sonra analayacaqlar.[842]

**Alim qadınlar**

Biri budur ki, müxtəlif fənlər üzrə alim qadınlar İslam quruluşunun və İslamın qadına baxışının uğurlu olduğunu göstərirlər. Tağut hakimiyyəti dövründə bizim bu qədər alim qadınımız yox idi.

---

[840] Yenə orada.

[841] Yenə orada.

[842] Həzrət Fatimeyi-Zəhranın mövludu ərəfəsində alim qadınlarla görüşdə çıxışından: 2007.

Bu gün qadın tədqiqatçıların, müəllimələrin, müxtəlif sahələrdə çalışan, düşünən, nəzər yürüdən və yazan qadın alimlərin, mütəfəkkirlərin, yazıçıların, ədiblərin, şairələrin, sənətkarların, rəssamların mütləq və nisbi sayı tağut dövründən dəfələrlə artıqdır. Qadını müdafiə adı altında hicabın, iffətin, qadın və kişi arasındakı pərdənin tamamilə götürüldüyü və bu özbaşınalığın günbəgün artdığı dövrdə hətta bəzi nümunələrdə Avropa ölkələrindən də pis və kəskin əməl edirdilər. Bu gün İslam Respublikası quruluşunda hicab, çadra, başörtüyü altında qadınlardan ibarət nümunəvi düşüncə, elm, əməl adamları, siyasi fəallar, mədəniyyət və incəsənət xadimləri olduqca çoxdur. O zaman bunun bir hissəsi də yox idi, çox az idilər.

Bu, təlqin etmək istədiklərinin tam ziddinə olan bir nəzəriyyəni gücləndirir. O da budur ki, özbaşınalığı yaymaq nəinki qadını, onun mənəviyyatını və istedadlarını inkişaf etdirmək deyil, əslində müxtəlif bərbəzəklər və bu işlərdən irəli gələn müxtəlif problemlərlə məşğul etmək və bunun özü qadınların kamiliyyə və tərəqqiyə sarı hərəkətinə maneədir.

İslam quruluşunda qoyulan məhdudiyyət qadının insani fitrətinə uyğundur; həm kişilər üçün məhdudiyyət var, həm də başqa bir formada qadınlar üçün. Bu məhdudiyyət onların enerjilərinin hədər getməməsinə və imkan daxilində yaxşı istiqamətdə işlədilməsinə kömək edir. Nəticəsi isə bu gün qadınlarda müşahidə etdiyimiz düşüncə, elm və əməl inkişafıdır.[843]

**Elmin hər bir səviyyəsində qadının ən mühüm rolu**

Mən deyirəm ki, bir qadının elmin, savadın, məlumatın, tədqiqatın və mənəviyyatın hər bir səviyyəsində ifa etdiyi ən mühüm rol bir ana və həyat yoldaşı kimi ifa etdiyi roldur. Bu onun bütün işlərindən mühümdür. Bu işi qadından başqa heç kəs görə bilməz. Tutaq ki, qadının başqa mühüm vəzifəsi də var; eybi yoxdur, amma bu məsuliyyəti özünün birinci və əsas işi bilməlidir. İnsan nəslinin davam etməsi, daxili istedadların inkişafı, cəmiyyətin psixoloji sağlamlığının qorunması, qərarsızlıq, sıxıntı

---

[843] Yenə orada.

və təlatümlər qarşısında hüzur, aramlıq və dinclik bundan asılıdır. Bunu unutmamalıyıq.[844]

### Qadın haqda yanlış baxışı düzəltməkdə qadın alimlərin vəzifəsi

Hər halda, siz ölkənin elmli qadınlarısınız; istər yolun əvvəlində olan tələbələr, istər işin ilk mərhələlərində olanlar, istər bir neçə il işləmiş və zəhmət çəkmiş qadınlar. Bilin ki, bu gün ölkəmizin qadınlarının üzərinə ağır vəzifə düşür. Bu gün sizin əlavə vəzifəniz budur ki, qadın və kişi məsələsinə səhv baxışı düzəldəsiniz. Bu gün Qərb dünyasının qadın və kişi məsələsində təlqin etməyə çalışdığı baxış səhv və batildir. Bu, cəmiyyətlərdə çoxlu dəyərlərin tapdanması ilə nəticələnəcək. Onun bəzi əlamətləri indi görünür və bizim cəmiyyətlərimizdə daha aydın sezilir. Siz bu baxışı düzəltməlisiniz. Bu gün siz qadınlar bu sahədə rol ifa edə bilərsiniz; həm tədqiqat aparın, həm yazın, həm təbliğ edin, həm də əməlinizlə göstərin.[845]

### Qadınların elmi işlərdə iştirakının ölkədə İslam hakimiyyətinin səmərələrindən olması

Əvvəla, qadınların elm və tədqiqat işlərinin özü təqdirəlayiq haldır. Mən adətən ölkədə nəşr olunan jurnallara baxır, onları vərəqləyirəm. Yeni mövzulara toxunan jurnallarımızda qadın yazıçı və tədqiqatçıların müxtəlif fənlərə aid məqalələrinin sayı gözəçarpan həddə çoxdur. Hövzə elmlərində, fiqhdə, fəlsəfədə, humanitar elmlərdə, təbii elmlərdə ölkəmizin qadınlarının iştirakı yüksək səviyyədədir. Universitetlər tələbə qızlarımızla doludur. Elm mərkəzlərində qadınlar heyrətamiz şəkildə iştirak edirlər. Bu necə möhtəşəm hadisədir! Bizim ölkəmizdə nə zaman bu qədər tədqiqatçı, araşdırmaçı, alim və təbliğatçı qadın olmuşdur?!

Tariximizdə heç zaman belə bir şey olmamışdır. Bəli, tək-tük alim və görkəmli qadın olmuşdur, lakin bütün cəmiyyətdə gözəçarpan həddə olmamışdır. Bu, İslam Respublikası dövrünə məxsusdur. Bu, ölkədə İslam hakimiyyəti sayəsində baş vermişdir. Qadınlar elmi səhnədə özlərini belə

---

[844] Yenə orada.
[845] Yenə orada.

göstərməkdədirlər və bu nailiyyətləri əldə etmişlər. Bu, İslam Respublikası quruluşunun uğurlarındandır. Mən buna görə tələbə və gənclərlə görüşlərdə dəfələrlə demişəm ki, biz qərblilərin qadına dair iddiaları qarşısında müdafiə olunmuruq, hücuma keçirik və özünü müdafiə etməli olan Qərbdir, İslam yox.[846]

[846] Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.

## İkinci fəsil: Tibb elmi

### Tibb elminin əhəmiyyəti

Sizin elminiz digər elmlərdən fərqlənir. Bəzi elmlər xalq üçün çörək kimidir, bəziləri də digər ehtiyaclar kimi. Bəllidir ki, çörək ayaq altındakı gözəl xalılarla, həyatın dəbdəbələri ilə, yaxşı səyahətlə və bu kimi işlərlə müqayisəedilməsi deyil. Tibb elmi də belədir. Bəzən müalicə çörəkdən də əhəmiyyətlidir. İnsan bəzən aclığa dözür, lakin xəstənin əziyyət çəkməsinə və xəstə övladının ahına dözə bilmir. Müalicə məsələsi bu qədər mühümdür. İndi bu əhəmiyyət bizə nə deyir? Biz bundan nə nəticə çıxarmalıyıq?[847]

### Tibb elminin inkişafında ədalət

Bu əhəmiyyətdən iki-üç zəruri nəticə çıxır: Biri budur ki, biz xəstəyə həqiqətən, kömək etmək üçün elmi inkişaf etdirməliyik. Bütün xəstələrin köməyinə tələsmək lazımdır; kənd xəstəsinin şəhər xəstəsi ilə, ucqar əyalətdəki xəstənin Tehrandakı xəstə ilə, pullu xəstənin pulsuz xəstə ilə fərqi yoxdur. Biz elmi çox inkişaf etdirsək, lakin pullular bundan ən yüksək səviyyədə bəhrələnsələr, pulsuzlara isə faydası toxunmasa, yetərli deyil. O zaman xalqımızın və ölkəmizin yalnız bir hissəsi üçün olacaq. Ölkəmiz nəinki hər bir milyon nəfər üçün ən azı min həkimi olmayan, heç yüz həkimi də olmayan geriqalmış bir ölkə kimi olacaq. Yəni biz o məqsədlərə çatmaq istəyiriksə, kəmiyyət və elm artımı məsələsini inkişaf məsələsindən ayıra bilmərik. Elə etməliyik ki, hamının həkimə getmək imkanı olsun.[848]

### Həkimin əxlaqının cəmiyyətə təsiri

Cəmiyyətin əxlaqını formalaşdırmaqda həkimin əxlaq və rəftarının təsiri eyni nisbətlə çoxdur. Məsələn, nüvə elminin yüksək səviyyəli bir mütəxəssisi xalqla təmasda olmur. Əgər dindar, yaxud dinsiz, əxlaqlı, yaxud pulpərəst, xain, yaxud cinayətkar olsa da, xalq üçün fərqi olmaz;

---

[847] Ölkənin tibb universitetlərinin retkorları ilə görüşdə çıxışından: 1996.

[848] Yenə orada.

xalq onun elmini istəyir, özü ilə nə işi var?! Lakin həkim belə deyil. Həkim xalqın xanımı, övladı, həyatı və hissləri ilə təmasdadır.[849]

**Tibb elmlərində tətbiqi araşdırmalar**

Tibb elmində hər gün yeni bir nailiyyət əldə edilir. Bu sahədə bizim dünya ilə məsafəmiz olduqca çox deyil. Bəzi elmlərdə böyük fərqlərimiz var, amma bu elmdə dünya ilə məsafəmiz olsa da, hər halda, çox deyil. Çalışın dünyanın yeni tibb nailiyyətlərinin bir hissəsi sizə aid olsun. Yeni müalicə kəşf edin, yeni alətlər ixtira edin, tədqiqat işləriniz bu məsələlərə yönəlsin. Düzdür, buna şərait yaratmaq, çalışmaq, gözü gündəlik və ötəri şeylərdən sürətlə çəkmək lazımdır.[850]

---

[849] Yenə orada.

[850] Bazar ertəsi görüşlərində İsfahan Tibb Universitetinin rektoru, fəqih rəhbərin nümayəndəlik orqanının rəhbəri və bəzi müəllimləri ilə görüşdə çıxışından: 1999.